**RAMİZ MEHDİYEV**

# Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə

***iyun 1971 – iyun 2001***

# 1

**Bakı – 2006**

**Ramiz Ənvər oğlu Mehdiyev**

1938-ci il aprelin 17-də Bakı şəhərində anadan olmuşdur.

1957-ci ildə Bakı Dənizçilik Məktəbini bitirdikdən sonra "Xəzərdənizneftqazsənaye" Ümumittifaq İstehsalat Birliyinin "Xəzərneftdonanma" İdarəsinin gəmilərində maşinist işləmişdir. 1961-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuşdur. 1965-ci ildə, V kurs tələbəsi olarkən Azərbaycan LKGİ MK-nın tələbə şöbəsinin təlimatçısı vəzifəsinə irəli çəkilmiş, 1967-68-ci illərdə Naxçıvan Vilayət Komsomol Komitəsinin ikinci katibi işləmişdir. 1968-ci ildə M.V.Lomonosov adına MDU-nun fəlsəfə fakültəsinin aspiranturasına daxil olmuşdur. 1972-ci ilin mayında Moskva Dövlət Universiteti Elmi Şurasının iclasında fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. 1972-ci ildən Azərbaycan Dövlət Universitetinin elmi kommunizm kafedrasında müəllim, sonra baş müəllim işləmişdir. 1974-cü ilin mayında Azərbaycan KP MK-nın Təbliğat və təşviqat şöbəsinin mühazirəçisi vəzifəsinə irəli çəkilmişdir. 1976-cı ilin iyununda Azərbaycan KP MK-nın Elm və təhsil müəssisələri şöbəsi müdirinin müavini vəzifəsinə təsdiq edilmişdir. 1978-ci ilin oktyabrında Azərbaycan KP 26 Bakı komissarı adına Rayon Komitəsinin birinci katibi seçilmişdir. 1980-ci ilin iyununda Azərbaycan KP MK-nın Elm və təhsil müəssisələri şöbəsinin müdiri, 1981-ci ilin yanvarında isə Təşkilat-partiya işi şöbəsinin müdiri vəzifəsinə təsdiq olunmuşdur. 1983-cü ildə Azərbaycan KP MK-nın katibi seçilmişdir. 1988-ci ilin mayında MK plenumunda Ə.Vəzirovun təkidi ilə Azərbaycan KP MK-nın katibi vəzifəsindən azad edilmişdir. 1988-ci ilin iyununda Azərbaycan Elmlər Akademiyasının İctimai-siyasi Tədqiqatlar və İnformasiya İnstitutunun şöbə müdiri təyin olunmuşdur. 1993-cü ildə fəlsəfə elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Prezidenti tərəfindən Prezident Aparatının şöbə müdiri, 1995-ci ilin fevralında isə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri təyin olunmuşdur.

1980-1990-cı illərdə iki çağırış Azərbaycan Ali Sovetinin deputatı olmuş, 1995-ci ildə isə Azərbaycan Respublikası Milli Məclisinin üzvü seçilmişdir. İki dəfə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir. 2001-ci ilin aprelində Nyu-York Elmlər Akademiyasının üzvü seçilmişdir.

Evlidir, iki övladı – oğlu və qızı, habelə dörd nəvəsi var. Həyat yoldaşı Bakı Dövlət Universitetinin dosenti, kafedra müdiridir.

*Redaktorları*
Aslan Aslanov
Vaqif Musayev

*Texniki redaktorları*
Dağbəyi İsmayılov
Elman Cəfərli

*Kompyuter səhifələyiciləri*
Cəvani Ağayev
Samir Qurbanov

*Korrektoru*
Bətul Eyvazlı

Yığılmağa verilmişdir 24.10.2006.
Çapa imzalanmışdır 01.12.2006.
Formatı 60x90 $^{1}/_{16.}$
Fiziki çap vərəqi 39.
Ofset çapı.
Tirajı 500.
Sifariş 234.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç.,17.

**Ramiz Mehdiyev, fəlsəfə elmləri doktoru, professor**
Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə. I cild
(*məqalələr, çıxışlar, müsahibələr*)
Bakı, "XXI – Yeni Nəşrlər Evi", 2006, 624 s.

ISBN10 9952-419-05-4
ISBN13 978-9952-419-05-4

Tariximizin müstəqillik dövrünə dair bir cox tədqiqatların müəllifi, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin ikicildlik "Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə" kitabında 1971-2006-cı illərdə dövri mətbuatda, bəzi elmi-nəzəri jurnallarda dərc olunmuş məqalələri, habelə müxtəlif tədbirlərdəki çıxışları, mətbuat nümayəndələrinə müsahibələri və digər materiallar toplanmışdır.

Cildlərdəki materialların tam əksəriyyəti ölkəmizin müstəqillik dövrünə aiddir. Həmin materiallarda xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərliyinin 34 illik tarixinin elmi-nəzəri ümumiləşdirmələrlə təhlili xüsusi yer tutur. Müəllif birmənalı olaraq vurğulayır ki, Azərbaycanın XX əsrdəki intibahı, SSRİ-nin süqutundan sonra isə həqiqətən müstəqil dövlət kimi dünya birliyində öz layiqli yerini tutması, sosial-iqtisadi inkişaf yoluna çıxması, ölkənin uzunmüddətli tərəqqisinin əsasını qoyan neft strategiyasının işlənib hazırlanması və uğurla həyata keçirilməsi, hüquqi, dünyəvi dövlət, demokratik və vətəndaş cəmiyyəti quruculuğunda əldə olunmuş uğurlar bilavasitə Heydər Əliyev dühasının, müdrikliyinin, onun cəsarətinin və yenilməz iradəsinin nəticəsidir. Məhz bu baxımdan professor Ramiz Mehdiyev Heydər Əliyevi oxuculara xarizmatik lider, XX əsrdə Azərbaycan dövlətçiliyinin xilaskarı, dünya siyasətinə təsir göstərən qüdrətli şəxsiyyət, bütün həyatını xalqına və doğma vətəninə xidmətə həsr etmiş böyük azərbaycanlı kimi təqdim edir.

Cildlərdəki materiallarda ulu öndərin siyasi varisi və ideyalarının layiqli davamçısı Prezident İlham Əliyevin respublikaya rəhbərlik etdiyi son üç ildəki uğurlu fəaliyyətinə, müstəqil Azərbaycanın daha da möhkəmlənməsinə, Cənubi Qafqaz regionunda lider dövlətə çevrilməsinə, ölkəmizin dinamik sosial-iqtisadi inkişafına geniş yer verilir.

Professor R.Mehdiyevin kitabı ictimai elmlər sahəsində çalışan mütəxəssislər, ali məktəblərin müəllim və tələbələri, habelə ölkəmizin müasir tarixi ilə maraqlananlar üçün dəyərli mənbədir.

© Ramiz Mehdiyev, 2006.

# MÜNDƏRİCAT


V.İ.Lenin opportunizmin və millətçiliyin sosial-sinfi kökləri haqqında..........9
İdeoloji mübarizə və milli məsələ....................................................28
Sosialist millətlərinin dil həyatında beynəlmiləlləşmə prosesinin inikası .....44
İdeoloji işin aktual problemləri.......................................................47
Zəmanəmizin qüdrətli gücü.............................................................57
Zəhmətkeşlərin kommunist tərbiyəsində sosialist ənənələrinin rolu.............66
Qayğı və yüksək tələbkarlıq............................................................81
Partiya sıralarının artımının tənzim edilməsi və onun
keyfiyyət tərkibinin yaxşılaşdırılması..............................................90
Partiyadaxili demokratiya və partiya intizamının möhkəmləndirilməsi......106
Sosial-iqtisadi vəzifələrin yerinə yetirilməsinə
ideoloji təminat yaratmalı .............................................................125
Ateizm işinin səmərəliliyi yüksəldilməlidir .......................................153
Yenidənqurma və beynəlmiləl tərbiyənin təkmilləşdirilməsinin
bəzi məsələləri ............................................................................164
Sosialist beynəlmiləlçiliyi və yeni təfəkkür.......................................193
Totalitarizm sindromu və demokratiyanın əldə edilməsi ..........................213
Keçmişimiz gələcəyin kontekstində ...................................................221
Demokratiyaya aparan çətin yol .......................................................231
Azərbaycan milli dövlət quruculuğu yolunda........................................249
Elimizin və dilimizin xilaskarı.........................................................294
Ümummilli lider: tarixin sınağı və həqiqət anı.....................................306
Dövlət mətbuatı və teleradio şirkəti rəhbərlərinin iştirakı ilə müşavirə.......327
Hər birimizdən böyük vətəndaş məsuliyyəti tələb edən tarixi sənəd...........329
Demokratik Azərbaycan və müstəqil mətbuatın inkişafı...........................344
Azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından
deportasiyası...............................................................................357
Müstəqil Azərbaycan dövlətçiliyinin memarı........................................364
Beynəlxalq kollokviumun iştirakçıları ilə görüş......................................388
Ağdaşda zəlzələnin nəticələrinin aradan qaldırılmasına dair müşavirə.......391
“Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı” kitabının
təqdimat mərasimində çıxış..............................................................393

1990-cı ilin yanvarında Bakıda törədilmiş qanlı faciənin tarixi və sosial-siyasi kökləri məsələsinə dair ........ 397
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ictimai rəy kontekstində ........ 424
İcra orqanları rəhbərlərinin iştirakı ilə müşavirə ........ 460
“Azərbaycan 1993. Anarxiyadan sabitliyə” kitabının təqdimat mərasimində çıxış ........ 462
Tarixdə şəxsiyyətin rolu məsələsinə dair ........ 472
Hər bir sahədə işin keyfiyyəti kadrların hazırlığından asılıdır, onun bünövrəsi isə təhsildə qoyulur ........ 545
Azərbaycan Prezidenti Heydər Əliyevin yanında dövlət müstəqilliyinin 10-cu ildönümü münasibətilə keçirilmiş müşavirədə çıxış ........ 577
Azərbaycanda müstəqil dövlət quruculuğu təcrübəsi: uğurlar, problemlər və perspektivlər ........ 584

# V.İ.LENİN OPPORTUNİZMİN VƏ MİLLƏTÇİLİYİN SOSİAL-SİNFİ KÖKLƏRİ HAQQINDA

Müasir dövr – kapitalizmdən sosializmə keçid dövrü sosializm sisteminin, beynəlxalq fəhlə sinfinin və milli azadlıq hərəkatının çox böyük uğurları ilə səciyyələnir. Bu üç ünsürün vəhdətindən ibarət inqilabi proses beynəlmiləlçiliyin inkişafına güclü təkan verir. Lakin V.İ.Leninin qabaqcadan gördüyü kimi, çox zaman millətçiliklə birləşən sağ və "sol" opportunizm dünya kommunist hərəkatının ayrı-ayrı vəsilələrində onun inkişafına çətinliklər törədir. İmperializm sosializmə və dünya kommunist hərəkatına qarşı mübarizə üçün millətçilik və opportunizmdən geniş istifadə edir. Buna görə də marksizm-leninizmin ümumi prinsiplərindən uzaqlaşmanın səbəblərinin öyrənilməsi dünya kommunist hərəkatının nəzəriyyə və praktikasında həmişə mərkəzi yer tuturdusa, həmin problem bizim günlərdə, sosializm ilə kapitalizm arasında çox kəskin ideoloji mübarizənin getdiyi dövrdə xüsusilə aktualdır. Opportunizmə və millətçiliyə qarşı uğurla mübarizə aparmaqdan ötrü isə, onların sosial-sinfi köklərini müəyyən etmək son dərəcə vacibdir.

Opportunizm və millətçiliyin təzahürünü nə təsadüflərlə, nə ayrı-ayrı şəxslərin və ya qrupların səhvləri ilə, nə də fəhlə hərəkatının inkişafının milli və ya digər xüsusiyyətlərinin təsiri ilə izah etmək olar. Dünya kommunist hərəkatında opportunist

və millətçilik sapmalarını doğuran müəyyən səbəblər vardır. V.İ.Lenin sosial-sinfi kökləri bu səbəblərdən başlıcaları hesab edirdi, məhz onlara birinci dərəcəli əhəmiyyət verirdi. Məsələn, “Birliyə dair bağırtılar pərdəsi altında birliyn pozulması haqqında” adlı məqaləsində yazırdı: “Əgər tarixdən bəhs edilərsə, konkret məsələləri və müxtəlif cərəyanların sinfi köklərini aydınlaşdırmaq lazımdır”[1]. V.İ.Lenin “Özgə bayrağı altında” məqaləsində opportunizm və sosial-şovinizm məsələsinə toxunaraq yazırdı: “…biz şəxsləri və qrupları deyil, ictimai cərəyanların məhz sinfi məzmununun təhlilini və bu cərəyanların başlıca, mühüm prinsiplərinin ideya-siyasi tədqiqini əsas götürməliyik”[2].

V.İ.Lenin millətçilik və opportunizmi tarixi-materialist baxımdan təhlil edərək belə bir qənaətə gəlmişdir ki, onlar bir-biri ilə sıx şəkildə əlaqəlidir, “sosial-şovinizmlə opportunizmin sinfi mahiyyəti bir-birinin eynidir…”[3]. Opportunizmi doğuran sosial-iqtisadi şərait millətçiliyin də meydana çıxması üçün əlverişli mühitdir. Bu şərait mütləq “xırda burjua xurafatı içərisində ən dərin xurafat olan milli xudbinlik, milli məhdudluq xurafatının xüsusilə güclü və davamlı olmasına”[4] gətirib çıxarır.

Dünya kommunist hərəkatında opportunizm və millətçilik sıx şəkildə çulğaşır, vəhdət təşkil edir. Millətçilik opportunizmin tərkib hissəsi kimi çıxış edir. Biz bu məqalədə həm millətçilik, həm də opportunizm üçün ümumi olan mənbələri araşdırmağa çalışırıq.

---

[1] V.İ.Lenin. Əsərlərinin tam külliyyatı, c.25, səh.217.
[2] Yenə orada, c.26, səh.167.
[3] Yenə orada, c.27, səh.132.
[4] Yenə orada, c.41, səh.182.

Opportunizmlə millətçiliyin birləşməsi dünya kommunist hərəkatı üçün xüsusi təhlükədir. V.İ.Lenin dəfələrlə bildirmişdir ki, hər cür xırda burjua və liberal-burjua millətçiliyi fəhlələr arasına pozğunluq gətirir, zəhmətkeşlərin parçalanmasına, aldadılmasına kömək edir, onların beynəlmiləlçilik ruhunda tərbiyəsini, proletar sinfi mübarizə işini çətinləşdirir. Ona görə də burjuaziya kütlələr arasında hər vəchlə millətçilik xurafatını dəstəkləməyə, möhkəmlətməyə və qızışdırmağa, onları bir daha və yenidən canlandırmağa, öz mənafeyi üçün istifadə etməyə çalışır.

Opportunizmin və millətçiliyin sinfi köklərini müəyyən etmək – marksizm-leninizmdən bu və digər şəkildə uzaqlaşmanı doğuran obyektiv sosial zəmini, əlverişli mühiti aşkara çıxarmaq deməkdir. Ona görə də partiyada və ya beynəlxalq kommunist və fəhlə hərəkatında hər hansı bir milli-opportunist cərəyan yarandıqda, V.İ.Lenin həmişə onun sosial mahiyyətini konkret tarixi baxımdan təhlil edir, hansı siniflərin təsiri altında meydana gəlməsini araşdırırdı.

V.İ.Lenin göstərirdi ki, kapitalizm cəmiyyətində fəhlə sinfi təcrid olunmayıb, bu cəmiyyətin özündən, onun başqa təbəqələri və siniflərindən "Çin səddi" ilə aralanmayıbdır. O yazırdı: "Hər bir kapitalist ölkəsində proletariatla yanaşı, həmişə geniş xırda burjuaziya, xırda təsərrüfat sahibi təbəqələri vardır"[1].

Tərkibinə görə son dərəcə rəngarəng, müxtəlif olan xırda burjuaziya kapitalizm cəmiyyətinin iki əsas antaqonist sinfi – burjuaziya və proletariat arasında aralıq mövqe tutur. Bu səbədən də o, ziddiyyətli və ikili xarakteri ilə səciyyələnir. Kiçik xüsusi mülkiyyətə sahib olan xırda burjuaziya təbəqələri, eyni

[1] V.İ.Lenin. Əsərlərinin tam külliyyatı, c.17, səh.26.

zamanda, proletariat kimi, cəmiyyətin zəhmətkeş hissəsini təşkil edir, özləri işləyir, öz əmələri hesabına yaşayırlar. K.Marks yazırdı ki, istehsal vasitələrinin sahibi bilavasitə istehsal prosesinə qoşulursa, "o, kapitalistlə fəhlə arasında nəsə orta bir şey olacaq, "xırda sahibkar" olacaqdır"[1].

Xırda burjuaziyanı proletariatla təkcə əmək yox, onun, spesifik formalarda olsa da, fəhlə sinfi kimi iri burjuaziya tərəfindən istismar və təzyiqlərə məruz qalması da yaxınlaşdırır. İri burjuaziya ilə rəqabət mübarizəsinə davam gətirməyən xırda sahibkarlar müflisləşərək proletariat cərgəsinə atılır, onun sıralarını daim artırırlar.

Lakin xırda burjuaziya təkcə fəhlə ordusunun sıralarını artırmır. V.İ.Lenin göstərirdi ki, onun nümayəndələri fəhlə mühitinə kapitalizm cəmiyyəti şəraitindəki bütün keçmiş həyatı boyu aldıqları "mirasla gəlirlər". Kapitalizm cəmiyyətində xırda burjuaziyanın mövqeyi ziddiyyətli və ikili olduğuna görə, onun ictimai varlığını əks etdirən şüuru da ikilidir. Yəni zəhmətkeş və istismar olunan sinif kimi xırda burjuaziyanın vəziyyəti onu fəhlə sinfinin, proletariatın ideologiyasına qarşı həssas edir, xüsusi mülkiyyətə bağlılıq isə burjua ideolgiyasını qavramaq üçün şərait yaradır.

Tamamilə aydındır ki, xırda burjuaziya içərisindən çıxanlar proletariatın sıralarına düşəndə və ya ona kənardan, öz mühitindən təsir edəndə, ziddiyyətli dünyagörüşü, vərdişləri və ənənələri ilə fəhlə sinfinin müəyyən hissəsinə təsir və təzyiq göstərirlər.

Xırda burjualıq fəhlə sinfinin və onun marksist-leninçi partiyasının sıralarına beləcə yol tapır, millətçilik ehtirasları ilə

[1] К.Маркс. "Капитал». Т.1, М., 1969, стр.318.

qızışdırılaraq gah sağdan olan opportunizm, gah da "soldan" olan opportunizm kimi çıxış edir. V.İ.Lenin yazırdı: "Tamamilə təbiidir ki, xırda burjua dünyagörüşü geniş fəhlə partiyaları sıralarında təkrar-təkrar özünə yol açıb üzə çıxır"[1]. Bu, Brest sülhü bağlandığı dövrdə "sol kommunistlər"in taktikasının timsalında xüsusilə gözə çarpır. Belə ki, onlar almanlarla sülh imzalanmasının əleyhinə çıxaraq iddia edirdilər ki, guya sülhü "yorğun və sinfi simasını itirmiş" olanlar qəbul etdirdilər, "iqtisadi cəhətdən daha həyati və taxılla daha yaxşı təmin olunmuş cənub vilayətlərinin fəhlə və kəndliləri" isə inqilabi müharibəni davam etdirmək istəyirdilər, yəni onların taktikasının tərəfdarı idilər [2].

V.İ.Lenin belə iddialara qarşı çıxaraq və inqilabi müharibə tərəfdarlarının sinfi mahiyyətini açıb göstərərək deyirdi ki, "məhz sinfi simasını itirən, ziyalı partiya "yuxarı dairələri" və üst təbəqələri sülhə, inqilabi xırda burjua ibarəbazlığı ilə etiraz edirdilər"[3], onlar şüurlu və ya şüursuz surətdə "sinfi xırda burjua vətənpərvərliyini doğurur və vəziyyətə hadisələrin dünya əhəmiyyəti baxımından deyil[4], dar milli mənafe, dar mənada vətənpərvərlik mövqeyindən qiymət verirdilər. Geniş "fəhlə və istismar olunan kəndli"[5] kütlələri isə gənc respublikanın qorunub saxlanılması üçün sülh imzalanmasının tərəfdarı idilər. Bu da bütün zəhmətkeşlərin milli və beynəlmiləl maraqlarına cavab verirdi. V.İ.Lenin yazırdı: "Biz Rusiya

---

[1] V.İ.Lenin. Əsərlərinin tam külliyyatı, c.17, səh.26.
[2] Yenə orada, c.36, səh.308.
[3] Yenə orada, səh.308.
[4] Yenə orada, c.37, səh.427.
[5] Yenə orada, c.36, səh.309.

respublikasını qorumaqdan başqa, habelə dünya proletariatı üçün böyük iş görməkdəyik”[1].

Deməli, V.İ.Lenin millətçilik və opportunizmin ən mühüm köklərindən birini fəhlə sinfi sıralarının yekcins olmamasında, xırda burjuaziyanın bəzi vərdişləri və ənənələrinin proletariata, marksist-leninçi partiyanın daxilində olan, bu təsirlərə uyan, səbatsız ünsürlərə təsirində görürdü.

Ayrı-ayrı ölkələrdə millətçiliyin və opportunizmin sosial-sinfi köklərinin çox müxtəlif olduğunu vurğulayan V.İ.Lenin xırda burjua stixiyası ilə yanaşı, digər mənbəni – burjuaziya tərəfindən fəhlə sinfinin bir qisminin pulla ələ alınmasını və “fəhlə aristokratiyası”nın yaranmasını da göstərirdi. O qeyd edirdi ki, məsələn, ingilis burjuaziyası geniş müstəmləkə ekspansiyası nəticəsində hədsiz gəlirlər əldə etmişdir. Bu, ona fəhlə sinfinin yuxarı təbəqələrini pulla ələ almaq və “fəhlə aristokratiyası”nın simasında cəmiyyətdə özünə dayaq yaratmaq imkanı vermişdir. V.İ.Lenin yazırdı ki, fəhlə sinfinin bu səbatsız, imperialistlərin sədəqələri hesabına pozğunlaşmaya və burjualaşmaya məruz qalmış təbəqəsi – “burjuaziyanın başlıca sosial... dayağıdır. Çünki bunlar fəhlə hərəkatı içərisində burjuaziyanın əsil agentləridir, kapitalistlər sinfinin fəhlə prikazçikləridir… reforizmin və şovinizmin əsil yayıcılardır”[2].

Bununla yanaşı, V.İ.Lenin təftişçi və milli-opportunist sapmaları doğuran bir sıra digər səbəbləri də göstərmişdir. Məsələn, o, marksizmdən uzaqlaşmağın səbəbini ictimai tərkibi müxtəlif olan yeni-yeni zəhmətkeş təbəqələrin cəlb olunması hesabına fəhlə hərəkatının artmasında, bu və ya digər ölkələrdə kapitalizmin müxtəlif sürətlə inkişaf etməsində və bu səbəbdən də

---

[1] V.İ.Lenin. Əsərlərinin tam külliyyatı, c.37, səh.430.
[2] Yenə orada, c.27, səh.341.

marksizmin fəhlə hərəkatı tərəfdarları tərəfindən eyni cür mənimsənilməməsində görürdü.

Bunu indi, bütün qitələrdə dünya fəhlə hərəkatına yüz milyonlarla insanın, o cümlədən iqtisadi cəhətdən zəif inkişaf etmiş, müstəmləkə və asılı ölkələrdə böyük kütlələrin cəlb olunduğu bir vaxtda xüsusilə nəzərə almaq lazımdır. Çünki milli şüurun artması, milli ruhun yüksəlməsi ilə yanaşı, bu kütlələr hərəkata millətçilik xurafatı, illüziyalar və s. də gətirirlər. Məhz buna görə V.İ.Lenin fəhlə sinfinin avanqardını dünya inqilabi prosesi barədə yanlış, sadələşdirilmiş təsəvvürdən çəkindirirdi. Elə bir təsəvvürdən ki, guya bu inqilabi proses “tərtəmizdir”, orada bir-birinə qarşı yalnız fəhlə sinfi və burjuaziya çıxış edirlər, özlərinin bütün xurafatı, o cümlədən onların ən köhnəlmişi olan milli xudbinlik və milli məhdudiyyət xurafatı ilə xırda burjuaziyanın çoxsaylı təbəqələri, yarımproletar kütlələr bu prosesə cəlb olunmur. “Çünki müstəmləkələrdə və Avropada kiçik millətlərin üsyanları olmadan, bütün öz yanlış fikirlərinə baxmayaraq, xırda burjuaziyanın bir hissəsinin inqilabi partlayışları olmadan, mülkədar, kilsə zülmünə, monarxist, milli və i.a zülmə qarşı şüursuz proletar və yarımproletar kütlələrinin hərəkatı olmadan sosial inqilab ola biləcəyini düşünmək, belə düşünmək sosial inqilabdan əl çəkmək deməkdir”[1].

Fəhlə sinfi sıralarına burjua və xırda burjua ideologiyasını gətirən millətçiliyin və opportunizmin sinfi köklərinin V.İ.Lenin tərəfindən təhlil edilməsinin millətçilik və opportunizmlə mübarizədə kommunistlər üçün misilsiz əhəmiyyəti var, dünya kommunist hərəkatındakı müasir millətçi və opportunist meyilləri başa düşməyə kömək edir.

[1] V.İ.Lenin. Əsərlərinin tam külliyyatı, c.30, səh.62.

İndiki zamanda millətçiliyin və opportunizmin sosial kökləri keçmişdəki ilə əsasən eynidir. Bununla belə, keyfiyyətcə yeni tarixi şəraitdə təzahür edən bu köklər müxtəlif ölkələrdə və ya ölkələr qrupunda mürəkkəbliyi, fərqliliyi və özünəməxsusluğu ilə seçilir. Bununla yanaşı, bizim dövrümüzün xüsusiyyətləri və öz mövqelərini qorumağa çalışan imperialist burjuaziyanın taktikası ilə bağlı olan bır sıra başqa ümumi amillər də öz təsirini göstərir. Məsələn, sosialist ölkələrinin qüdrətinin artması, onların nümunəsinin gücünün artması, fəhlə sinfinin və əsarətdə olan xalqların inqilabi mübarizədəki uğurları burjuaziyanın taktikasına böyük təsir göstərir. Məhz buna görə də son zamanlar burjuaziya zəhmətkeş kütlələrə təsir etməyin daha incə vasitələrinə və metodlarına getdikcə tez-tez əl atmaq məcburiyyətində qalır.

Müasir dövrdə inkişaf etmiş kapitalist ölkələrində millətçiliyin və opportunizmin sosial-sinfi səbəbləri daha mürəkkəb və çoxcəhətlidir. Müharibədən sonrakı illərdə bir sıra kapitalist ölkələrində sənaye konyunkturasının yaxşılaşmasının baş verməsi istehsalın artmasına və genişlənməsinə, fəhlə sinfinin məşğulluğunun nisbətən artmasına gətirib çıxartdı. Bu, bir tərəfdən, zəhmətkeşlərin öz sosial problemləri uğrunda mübarizəsi üçün yeni şərait yaradır, digər tərəfdən isə, kapitalistlərə imkan verir ki, öz hakim mövqelərini saxlamaq məqsədi ilə ən yüksək həddə çatan, üstəlik mənfəətin bir hissəsi hesabına fəhlə sinfinə və zəhmətkeşlərin başqa təbəqələrinə müəyyən güzəştlərə getsin. Belə ki, əgər XX əsrin əvvəllərində kapitalist ölkələrində iş günü 10-12 saat olmaqla iş həftəsi 60-70 saata bərabər idisə, 1950-ci illərdə bəzi sahələrdə iş həftəsinin faktik uzunluğu ABŞ-da 40 saat, Qərbi Avropada 46-48 saat, Yaponiyada 50-52 saat təşkil edirdi[1].

[1] Международное революционное движение рабочего класса. Издание 2-е, М.,1965, стр.158.

Eyni zamanda, zəhmətkeşlərin müxtəlif dəstələrini bir-birindən ayırmaq üçün inhisarçı burjuaziya, əvvəlki kimi, yenə də pulla ələ almaq və sədəqə vermək taktikasından geniş istifadə edir, əməyin haqqının ödənilməsinin fərqli formasını tətbiq edir. Məsələn, ABŞ və AFR-də eyni iş üçün immiqrant fəhlələr yerli fəhlələrdən xeyli az əməkhaqqı alırlar. Təbii ki, bütün bunlar zəhmətkeş kütlələr arasında müəyyən xülyaların və xurafatın yayılmasına öz təsirini göstərməyə bilməz.

İnkişaf etmiş kapitalist ölkələrində baş verən müasir elmi-texniki inqilab da burjua cəmiyyətinin sinfi strukturunda ciddi dəyişikliklərə səbəb olmuşdur.

Elmi-texniki inqilab kənd təsərrüfatında nəinki xırda, hətta orta fermerlərin də müflisləşməsi prosesini gücləndirmişdir. Məsələn, ABŞ-da hər il 110 mindən çox ferma sahibi müflisləşir. 1945-ci ildən 1966-cı ilədək olan dövrdə onların sayı 6 milyondan 3 milyon 968 minə düşmüşdür. AFR-də 1950-ci ildən sonra kənd təsərrüfatında məşğul olanların sayı 2 milyon nəfərdən çox azalmışdır. Əgər əsrin əvvəlində Fransanın kənd təsərrüfatında məşğul olan əhali bütün əhalinin 45%-ni təşkil edirdisə, indi cəmi 15%-dən bir qədər çoxdur[1].

Şəhərlərin xırda burjuaziyası da daim müflisləşməyə və proletarlaşmaya məruz qalır. Məsələn, Fransada təkcə 1949-cu ildən 1959-cu ilədək 300 min sənətkar müəssisəsi müflisləşmişdir[2].

Son illərdə ziyalıların rolunun artması, mühəndis-texnik və elmi işçilərin, istehsalda, ticarətdə və başqa sahələrdə çalışan qulluqçuların sayının kəskin şəkildə artması və bununla bağlı yeni

---

[1] Ленин и мировое революционное рабочее движение. Политиздат, М., 1969, стр.398.

[2] Международное движение рабочего класса. Издание 2-е, М.,1965, стр. 108.

"orta təbəqə" adlandırılan problemin meydana çıxması da elmi-texniki inqilabla bağlıdır. Sənaye cəhətdən inkişaf etmiş kapitalist ölkələrində "kraxmallı köynəklilər" kütləvi hal almışdır. Məsələn, 1950-ci ildən 1969-cu ilin martına qədər ABŞ-da, burjuaziyanı və dövlət təzyiq aparatını çıxmaq şərti ilə, onların sayı 15944 mindən 28587 minə çatmışdır, yəni 79% artmışdır[1].

Ziyalıların və qulluqçuların sayının artması ilə əlaqədar onların böyük əksəriyyəti öz vəziyyətinə və əmək şəraitlərinə görə sənaye fəhlələrinə getdikcə daha çox yaxınlaşır, onlar əvvəlki üstünlükləri və imtiyazlarını itirirlər.

Beləliklə, hazırda inkişaf etmiş kapitalist ölkələrinin fəhlə sinfi təkcə müflisləşmiş kəndlilərin və digər xırda mülkiyyətçilərin hesabına deyil, həm də qeyri-fiziki əmək sahəsi işçilərinin bir hissəsinin, əsasən, mühəndis-texnik işçilərin və ticarət-idarə qulluqçularının proletarlaşması, fəhlə sinfi sıralarına keçməsi hesabına artır. Bu sosial qrupların fəhlə sinfi sıralarına daxil olan və ona təsir göstərən bir çox nümayəndələri burjua ideologiyasının təsiri altındadırlar.

Bununla belə, marksizm-leninizm həmişə nəzərə alır ki, hər bir ölkədə millətçiliyin və opportunizmin başqa ölkələr üçün ümumi olan sinfi kökləri ilə yanaşı, ölkənin konkret inkişaf şəraiti, tarixi, milli və s. xüsusiyyətləri ilə bağlı özünəməxsus cəhətləri də ola bilər.

Məsələn, 1950-ci illərdə kommunist partiyasındakı böhranın səbəblərini araşdıran Uilyam Foster, başqa səbəblərlə yanaşı və ilk növbədə, "kapitalist firavanlığı"nın uzun illəri ərzində imperializmin fəhlə sinfinə və partiyaya pozucu təsirini" və

[1] «Коммунист», 1970, №7, стр. 56.

"hökumətin partiyaya uzunmüddətli hücumlarını" göstərirdi[1]. Təqiblər və terror şəraiti, hökumətin və irticanın partiyaya davamlı hücumları onun sıralarında müəyyən tərəddüdlərə, bəzi səbatsız ünsürlərin marksizm-leninizmdən uzaqlaşmasına səbəb olmuşdur və olacaqdır.

Millətçilik və opportunizmin iqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələrdə də özünəməxsus sosial-sinfi kökləri vardır.

Azadlığa çıxmış gənc ölkələrdə iqtisadi inkişafın sürətlənməsi işləyən əhalinin tərkibində fəhlə və qulluqçuların xüsusi çəkisini artırmışdır. İqtisadi inkişaf Asiya, Afrika və Latın Amerikasının ən ucqar rayonlarında belə proletariatın yaranmasına kömək etmişdir. Məsələn, əgər 1960-cı ildə inkişaf etməkdə olan ölkələrdə muzdlu əmək ordusunun ümumi sayı təqribən 140-150 milyon nəfər təşkil edirdisə, 1968-ci ildə artıq 185-190 milyona çatmışdı.

Lakin inkişaf etmiş kapitalist ölkələrində fəhlə və qulluqçular işləyən bütün əhalinin orta hesabla 4/5 hissəsini təşkil edirsə, keçmiş müstəmləkə və yarımmüstəmləkələrdə onların xüsusi çəkisi məşğul əhalinin ümumən 1/3 hissəsindən çox deyil və yaxud bütün işləyənlərin 30%-i qədərdir. Bütün muzdlu işçilərin 45%-ni və ya 85-90 milyon nəfərini kənd təsərrüfatı fəhlələri təşkil edir[2].

Beləliklə, fəhlələrin sıralarının az da olsa, hər halda, sürətlə genişlənməsi və yeniləşməsi milyonlarla dünənki kəndli və sənətkarların müasir sənayeyə cəlb olunduğunu, onların fəhlə hərəkatı ənənələrinə qovuşduğunu göstərir.

---

[1] 16-ый Национальный съезд коммунистической партии США. М.,1958, стр. 21.

[2] Ленинизм и мировое рабочее движение. М.,1969, стр. 416-418.

Bununla belə, bu ölkələrin köklü inqilabi dəyişikliklər prosesinə cəlb olunmuş qeyri-proletar kütlələri müxtəlif milli ənənələrə, iqtisadi şəraitə, mübarizə təcrübəsinə malikdirlər. Xırda burjua kütlələri müsbət keyfiyyətlərlə yanaşı (qazanılmış mübarizə təcrübəsi, imperializmə nifrət və s.), inqilabi hərəkata müxtəlif qeyri-proletar sosializmi "nəzəriyyələrində", millətçilik, ekstremist meyillərində təzahür edən öz xurafatlarını, vərdişlərini, çox vaxt gerçəkliyi düzgün anlamamalarını gətirirlər. Xırda burjua kütlələrinin proletariat üzərində üstünlüyü şəraitində zəif inkişaf etmiş ölkələrdə xırda burjua stixiyası xüsusilə güclüdür. V.İ.Lenin yazırdı: "Xırda mülkiyyətçi əhalisi xalis proletar əhalisindən xeyli çox olan bir ölkədə proletar inqilabçısı ilə xırda burjua inqilabçısı arasındakı fərq özünü labüd olaraq göstərəcəkdir, – həm də bəzən çox kəskin bir surətdə göstərəcəkdir. Xırda burjua inqilabçısı hər dəfə hadisələrin qəti dönüşündə tərəddüd edir və səndələyir...

Bu cür tiplərin sosial mənbəyi xırda sahibkardır…"[1]

Xırda burjua stixiyasının fəhlə sinfinə və marksist-leninçi partiyalara təzyiqi zəif inkişaf etmiş ölkələrdə opportunizm və millətçiliyin əsas sosial mənbəyidir.

Ayrı-ayrı sosialist ölkələrində millətçi-opportunist meyillərin təzahürünün də öz sosial kökləri vardır.

Məlumdur ki, Avropanın xalq demokratiyası ölkələrində sosialist inqilabları əsasən dinc yolla baş vermişdir. Bu ölkələrdə keçmiş istismarçı siniflərin xeyli hissəsi qalmışdır. Xırda burjuaziya və keçmiş hakim siniflər içərisindən çıxanlar fəhlə sinfinin və zəhmətkeş ziyalıların tərkibinə daxil olmuşlar,

[1] V.İ.Lenin. Əsərlərinin tam külliyyatı, c. 36, səh. 226.

lakin sosialist islahatlarının mürəkkəb prosesi onlara müxtəlif dərəcədə toxunmuşdur. Kəskin siyasi böhranlar zamanı (məsələn, 1956-cı ildə Macarıstanda, 1968-ci ildə Çexoslovakiyada) bu elementlərin ideoloji fəallığı baş verir, sinfi mübarizə kəskinləşir. Y.Kadar Macarıstanda əksinqilabi qiyamın (1956-cı il) səbəblərini göstərərək deyirdi: "Sosializmin nisbətən dinc yolla qələbəsi macar burjuaziyasına o üstünlüyü verdi ki, ekspropriasiya nəticəsində hakimiyyətinin iqtisadi əsasları ləğv edilsə də, hər halda, öz kadrlarını və fəal siyasi rolunu xeyli dərəcədə saxladı"[1]. Tədqiq olunan məsələnin bu cəhətini Q.Qusak da qeyd edirdi. Belə ki, o, Çexoslovakiyada 1968-ci il hadisələrinə gətirib çıxaran səbəbləri təhlil edərkən deyirdi: "…milliləşdirməyə qədər istehsal vasitələrinin çox hissəsinə sahib olan nəsil hələ yaşayır, kapitalizm dövrünün imtiyazlı təbəqələrinin bir çox başqa nümayəndələri yaşayır, keçmiş burjua və xırda burjua qüvvələri hələ cəmiyyətimizdən yox olmayıb, onlar 1948-ci ilin fevralından sonra siyasi baxımdan özlərini açıq şəkildə büruzə verə bilmirdilər, uzun illər burjua və xırda burjua hərəkatında və partiyada siyasi fəaliyyətlə məşğul olmuş, 1948-ci ilin fevralına qədərki dövrdə mövcud olan siyasi və ideoloji təsəvvürləri müəyyən mənada qalmış nəsillər hələ yaşayır"[2].

ÇKP sıralarına daxil olan bu sosial qruplar onun sıralarının sinfi və siyasi tərkibini əhəmiyyətli dərəcədə dəyişdirmişdi. Belə ki, 1948-ci ilin fevralından başlayaraq partiyaya bir milyondan çox yeni üzv qəbul edilmişdi ki, onların da 300 min nəfərindən

---

[1] В.Габуния. В.И.Ленин о классовой борьбе в период стротельства социализма. «Правда», 28 февраля 1970 г.
[2] «Правда», 3 iyun 1969.

çoxu əvvəllər başqa partiyaların üzvü olmuşdu. Vaxt var idi ki, başqa partiyaların keçmiş təmsilçiləri ÇKP üzvlərinin 20%-ni təşkil edirdi[1]. Bununla yanaşı, müharibədən əvvəlki dövrdə və 1948-ci ilin fevralına qədər ÇKP sıralarına daxil olanların sayı xeyli azalmışdı. Başqa partiyalardan gələnlərin hesabına partiyada fəhlələrin faizi də xeyli azalmışdı. Belə ki, 1947-ci ilin sonunda fəhlələr partiya üzvlərinin yarısını, XIII qurultaydan sonra 40%-ni, 1948-ci ilin əvvəlində isə cəmi 30%-ni təşkil etdikləri halda, ziyalıların sayı 34 faizə çatmışdı[2].

Partiya sıralarının sinfi və siyasi tərkibinin bu cür dəyişməsi ÇKP-də müvəqqəti olaraq opportunist ünsürlərin qələbəsinə gətirib çıxardı. Onlar özlərinin antisosialist məqsədlərini gizlətmək, geniş zəhmətkeş kütlələrini öz tərəflərinə çəkmək üçün yalançı, sinfi mahiyyət daşımayan, millətçiliklə yoğrulmuş "tam milli birlik" şüarını irəli sürdülər. Onlar "milli birlik" tərəfdarı idilər, ancaq kommunistlərsiz. Opportunistlərin, antisosialist qüvvələrin milli məhdudiyyəti onları milliliklə beynəlmiləlçiliyin qarşı-qarşıya qoyulmasına, kommunist partiyasının rəhbər rolunun inkar edilməsinə gətirib çıxardı. Onlar bunu "əsas" tuturdular ki, "yalnız milli deyil, həmçinin beynəlmiləlçi siyasət yürütməli olan partiya çətin ki, demokratizmi təmin edə bilsin"[3]. Bu, millətçilik və opportunizmin sinfi əsaslarının ümumiliyi ilə şərtlənən vəhdətinə ən əyani misaldır.

Bəzi sosialist ölkələrində iqtisadi çətinliklər və siyasi böhranlar dövründə xüsusilə fəallaşan (məsələn, 1956-cı ildə

---

[1] Мирослав Моц. Чехословакия: выход из кризиса. «Проблемы мира и социализма». 1970, № 10, стр. 20.
[2] Yenə orada.
[3] С.Т.Калтахчян. Ленинизм о сущности нации и пути образования интернациональной общности людей. М., 1969, стр. 423.

Macarıstanda, 1968-ci ildə Çexoslovakiyada) kilsə iyerarxiyası da ciddi antisosialist qüvvədir.

Beləliklə, kapitalizm cəmiyyətinin xurafatı keçmiş burjuaziya nümayəndələri, bəzi sosialist ölkələrində hələ qalmaqda olan xırda sahibkarlar, burjua dövrünün qeyri-proletar partiyalarının nümayəndələri, din xadimlərinin bir hissəsi və köhnə ziyalılar arasında xüsusilə möhkəmdir. Məhz bu səbəbdən K.Marks və F.Engels "Alman ideologiyası" əsərində burjuaziya və burjua ziyalılarını səciyyələndirərək yazırdılar: "Bütün xalqlarda milli geriliyə indi hələ yalnız burjuaziya və onların ədibləri arasında rast gəlinir"[1].

Yuxarıda deyilənlərdən görünür ki, marksizmin ümumi prinsiplərinin təftişçi, opportunist, millətçi təhriflərinin əsas səbəbi sinfi amildir. Lakin başqa şərtlər da ola bilər. Məsələn, bir çox hallarda millətçilik və opportunizmin qaynaqları kimi burjua dövrünün dərin kök salmış, insanların geniş dairəsini bürüyən vərdişlər, ənənələr və xurafat çıxış edir. L.İ.Brejnev qeyd etmişdir ki, "təkcə devrilmiş burjuaziyanın özünün müqavimət göstərməsindən deyil, həm də köhnə cəmiyyətdə əsrlərdən bəri yaranan və yaxa qurtarmaq o qədər də asan olmayan vərdişlərin və ənənələrin çox ağır yükündən"[2] söhbət gedir.

Bu və ya digər partiyada opportunizmin və millətçiliyin sosial köklərini təhlil edərkən həm ümumi amilləri, həm də konkret tarixi və milli xüsusiyyətləri nəzərə almaq lazımdır. Məsələn, Çin Kommunist Partiyasında "sol" opportunizmin, millətçiliyin meydana çıxmasına, sonra isə yayılmasına əlverişli mühit yaradan həm ümumi, həm də spesifik şərait olmuşdur. Çin uzun müddət

---

[1] К.Маркс и Ф.Энгельс. Соч. изд. 2-е, М., Гослитиздат, т. 3, 1955, стр. 473.

[2] Л.И.Брежнев. Речь на 7-ом съезде Социалистической Единой партии Германии. «Правда», 19 апреля, 1967 г.

yarımfeodal, yarımmüstəmləkə, həm sosial-iqtisadi, həm də mədəni baxımdan geridə qalmış dövlət olmuşdur. Çin cəmiyyətinin sinfi strukturunda kəndli kütləri, şəhər xırda burjuaziyası, xırda ticarətçilər və sənətkarlar üstünlük təşkil etmiş və bütün bunlar ÇKP-nin tərkibində də öz əksini tapmışdır. Məlumdur ki, 1957-ci ildə ÇKP–nin sıralarında olan 13 milyon partiya üzvünün 14%-dən azını fəhlələr təşkil edirdilər[1]. Çox güman ki, "mədəni inqilab" dövründə fəhlə təşkilatlarının darmadağın edilməsi, xunveybinlər hesabına partiyaya kütləvi axının başlanması və s. ilə əlaqədar bu faiz indi daha aşağıdır.

Daha sonra, xarici mətbuatın hesablamalarına görə, Çində 1 milyondan çox kapitalist var, onların təxminən 300 mini milliləşdirilmiş müəssisələrdə istehsalı idarə edən qulluqçulardır[2]. Bütün bunlar da milli özünəməxsusluq kimi qələmə verilir. Ancaq son illərin hadisələri göstərdi ki, bu sosial qrupları saxlamaqla sol opportunist qüvvələr uzağa gedən, marksizm-leninizmlə bir araya sığmayan məqsədlər güdürmüşlər. Son nəticədə bəlli oldu ki, sol opportunistlərin öz millətçilik praktikalarında arxalandıqları əsas sosial qüvvələrdən biri elə onlardır. Ona görə də indiki halda milli özünəməxsusluğa istinad etmək onların sosial demaqogiyasından başqa bir şey deyildir.

Məlumdur ki, marksizm-leninizm ayrı-ayrı ölkələrdə sosializm quruculuğunun və sinfi mübarizənin formalarının müxtəlifliyini nəzərə alır. Amma, aydın məsələdir ki, sinfi mübarizənin ümumi qanunlarını yaddan çıxarmaq olmaz. Əgər istismarçı ünsürlər – kapitalistlər, mülkədarlar, qolçomaqdar, tacirlər və başqaları bu və ya digər şəkildə qalıblarsa, dövlət və

---

[1] «Коммунист», 1970, № 4, s.114.
[2] «Коммунист», 1967, № 5, s.121.

kooperativ müəssisələrində işə qoyulublarsa, bu, hələ o demək deyil ki, onlar artıq sosializmin tərəfdarlarına çevriliblər. Unutmaq olmaz ki, kapitalist sənayesi fəhlə və kəndli dövləti tərəfindən milliləşdiriləndən sonra da bu ünsürlər cəmiyyətin sinfi strukturuna, siyasət və ideologiyaya təsir göstərməkdə davam edirlər. Şübhə yoxdur ki, bu ünsürlər şovinizm, millətçilik ideologiyası və s. üçün əlverişli münbit zəmindir.

Beləliklə, tarixin təcrübəsi göstərir ki, xırda burjua stixiyası güclü, proletar təbəqəsi zəif olduqda kommunist hərəkatında mövcud olan xırda burjua təmayüllərini, V.İ.Leninin göstərdiyi kimi, çox vaxt, millətçilik təhrifləri daha da dərinləşdirir və ağırlaşdırır. Bununla belə, xırda burjua stixiyası amili heç də bu və ya digər partiyanın rəhbərliyinin və ya müəyyən hissəsinin hökmən xırda burjua millətçiliyinə yuvarlanacağı demək deyildir. Kommunist hərəkatı tarixindən bu cür misalları çox gətirmək olar. Məsələn, çar Rusiyası da xırda burjua ölkəsi idi. Lakin V.İ.Lenin başda olmaqla bolşeviklər partiyası geniş zəhmətkeş kütlələrini öz arxasınca apararaq, proletar beynəlmiləlçiliyinin qələbəsini təmin edə bildi. Bolqarıstan da xırda burjua ölkəsi idi və s. Deməli, bu proses o yerdə baş verə bilər və baş verir ki, orada partiya xadimləri xırda burjua stixiyasının təzyiqlərinə qarşı proletar beynəlmiləlçiliyinin dəqiq mövqeyini qoya bilmirlər və yaxud onlar özləri xırda burjua millətçiliyi ideologiyasının əsiri olurlar.

Sosialist ölkələrində millətçilik və opportunizm meyillərini qidalandıran xarici mənbələr də mövcuddur. Onlardan ən başlıcası burjua dünyasının mövcudluğu faktının özü və onun sosializm düşərgəsindəki ayrı-ayrı ünsürlərə obyektiv təsiridir.

Bundan əlavə, müasir imperialist təbliğatı da bu ünsürlərə böyük təsir göstərir. Kapitalist dövlətlərinin güclü təbliğat

vasitələri və metodları var və bunları sosializm düşərgəsinə qarşı işə salırlar. Sosializm quruluşuna, kommunist partiyalarının məqsəd və vəzifələrinə qarşı böhtan, bu ölkələrdə gedən real sosializm quruculuğu proseslərinin mahiyyətinin təhrif olunması, antisosialist və millətçi qüvvələrin sosializm birliyini parçalamaq və dağıtmaq istəyinin dəstəklənməsi – budur hazırda sosialist ölkələrinə qarşı yönəlmiş imperialist təbliğatının məzmununu səciyyələndirən heç də tam olmayan siyahı.

Deməli, millətçi-opportunist uzaqlaşmanı doğuran əsas xarici səbəb burjua dünyasının mövcudluğu və onun sosialist ölkələrinə təsiridir. Buna görə də, marksizmin ümumi prinsiplərindən hər hansı şəkildə uzaqlaşma, V.İ.Leninin sözləri ilə desək, "qabaqcıl ölkələrdə imperializm və kapitalizm aradan qalxdıqdan sonra və geri qalmış ölkələrin iqtisadi həyatının bütün əsası kökündən dəyişildikdən sonra"[1] aradan qalxa bilər.

Hazırda marksizm-leninizmin ümumi qanunauyğunluqlarının millətçi-opportunist təhrifinin ümimi mənbəyi kimi çıxış edə bilən bəzi amillər bunlardır. Lakin bu o demək deyil ki, onlar millətçiliyin və opportunizmin geniş yayılmasına aparıb çıxarmalıdır. Əksinə, dialektika ondan ibarətdir ki, onların bir çoxundan fəhlə sinfinin sinfi şüurunun inkişaf etdirilməsi üçün, bu meyillərin təzahürü ilə ideya mübarizəsinin gücləndirilməsi üçün istifadə oluna bilər.

V.İ.Lenin öyrədirdi ki, müəyyən tarixi şəraitdə marksizmin ümumi prinsiplərindən uzaqlaşma, opportunizm və millətçilik mövqelərinə yuvarlanma qaçılmazdır. O yazırdı ki, çoxları xırda burjuaziya arasından çıxmış "adi adamların əməli hərəkatı" kimi inqilabi hərəkat "labüdən nəzəriyyə və taktika sahəsində tərəddüdlərə, köhnə səhvlərin təkrarına, köhnəlmiş baxışlara və

[1] V.İ.Lenin. Əsərlərinin tam külliyyatı, c.41, səh.182.

köhnəlmiş üsullara və s. müvəqqəti olaraq qayıdılmasına səbəb olmalıdır”[1]. Bununla yanaşı, kommunist hərəkatı tarixinin təcrübəsi, hər şeydən əvvəl, Sov.İKP-nin təcrübəsi göstərir ki, fəhlə sinfi, onun inqilabi avanqardı olan kommunist partiyası burjua və xırda burjua təsirinə qarşı durmağa, marksizm-leninizm prinsiplərinə, proletar beynəlmiləlçiliyinə söykənən siyasəti ardıcıl şəkildə həyata keçirməyə qadirdir.

Opportunizmin, millətçiliyin və onların köklərinin ifşa edilməsi dünya kommunist hərəkatının uğur qazanmasının həlledici məqamlarından biridir. İmperializmin fitnələrinə qarşı uğurla mübarizə aparmaq üçün kommunistlər, həmişə olduğu kimi, yenə də “öz prinsiplərini ardıcıl surətdə mdafiə edəcək, marksizm-leninizmin təntənəsinə nail olacaq, konkret şəraitdən asılı olaraq, nəzəriyyə və siyasətin sağ və sol opportunist təhriflərinə qarşı, təftişçiliyə, ehkamçılığa və sol sektantçı avantürizmə qarşı mübarizə aparacaqlar”[2].

*Azərbaycan Dövlət Universitetinin*
*“Elmi əsərləri”, Tarix və fəlsəfə seriyası,*
*№ 6, 1971-ci il.*

---

[1] V.İ.Lenin. Əsərlərinin tam külliyyatı, c.20, səh.68.

[2] Международное Совещание коммунистических и рабочих партий. Документы и материалы. М., 1969, стр. 328-329.

## İDEOLOJİ MÜBARİZƏ VƏ MİLLİ MƏSƏLƏ

Hazırda kapitalizm ilə sosializm arasında ideoloji mübarizə çox kəskin xarakter almışdır. Bu, müasir dövrdə ictimai inkişafı səciyyələndirən xüsusiyyətdir. Dünya sosializm sistemi böyük sürətlə inkişaf edir. Sosializmin bu tarixi hücumuna mane olmaq üçün imperializm əindən gələn hər şeyi edir: bütün qüvvələri səfərbərliyə alır, öz tabeliyində olan alimləri, sosioloqları, rəsmi və yarımrəsmi təbliğat aparatını işə salır, opportunizmdən, təftişçi və millətçilərdən, hər cür tör-töküntü və xainlərdən də istifadə edir.

Bununla əlaqədar olaraq, ideoloji cəbhədə çalışan işçilərimiz qarşısında çox mühüm vəzifələr durur. Partiyanın XXIV qurultayına Mərkəzi Komitənin hesabat məruzəsində L.İ.Brejnev yoldaş demişdir: “Nəzəri iş bizim ümumi beynəlmiləlçilik və inqilabi vəzifəmizin mühüm bir hissəsidir. Dünya meydanında kapitalizm və sosializm qüvvələrinin bir-biri ilə mübarizəsi, eləcə də müxtəlif təftişçilərin inqilabi təlimi zəiflətmək, sosializm və kommunizm quruculuğu təcrübəsini təhrif etmək cəhdləri bizdən nəzəriyyə problemlərinə, nəzəriyyənin yaradıcılıqla inkişaf etdirilməsinə daha böyük diqqət yetirməyi tələb edir”.

* * *

Müxtəlif ictimai quruluşlardan olan dövlətlərin dinc yanaşı yaşamasına dair Lenin prinsiplərinin getdikcə daha artıq dərəcədə

bərqərar olması sayəsində indi beynəlxalq vəziyyətdə əhəmiyyətli müsbət dəyişikliklər əmələ gəlmişdir. Lakin dinc yanaşı yaşamaq siyasətindən məqsəd heç də sosializm və kapitalizmin ictimai mahiyyətini və ya dünyagörüşünün əsaslarını dəyişdirmək deyildir. Bütün dünyada burjuaziya fəhlə sinfinə qarşı durduğu kimi, burjua ideologiyası da proletar ideologiyasına qarşı durur. V.İ.Lenin hələ əsrimizin əvvəllərində tam aydınlığı ilə göstərmişdir ki, sosializm ideologiyası ilə burjua ideologiyası barışmazdır. Bütün dünya zəhmətkeşlərinin rəhbəri demişdir: "... məsələ ancaq bu cür durur: ya burjua ideologiyası, ya sosialist ideologiyası. Burada orta bir şey yoxdur" (Əsərləri, 5-ci cild, səh.394).

Ümumiyyətlə, bir-birinə zidd olan siniflərin ideoloji mübarizəsi ictimai inkişafın obyektiv şəraitindən irəli gəlir. Antaqonist siniflərin meydana gəlməsi ilə ideologiyalar arasında mübarizə də başlanır ki, bu da bəşər cəmiyyəti mənəvi həyatının obyektiv qanunayğunluğudur.

Deməli, ideologiya sahəsində dinc yanaşı yaşamaq yoxdur və ola da bilməz. Burada qızğın və barışmaz mübarizə getmiş və antaqonist siniflər mövcud olduqca gedəcəkdir. Beynəlxalq münasibətlərdə meydana çıxan yeni faktlar bu mübarizənin yalnız şəraitini dəyişdirmişdir. Hər iki ideologiyanın sinfi mahiyyəti və sinfi məqsədləri sabit qalır.

Məlum olduğu kimi, ideoloji iş adamların baxışlarına, onların əqidə tərbiyəsinə təsir göstərmək məqsədi daşıyır. Bu işin müvəffəqiyyəti ideoloji mübarizə baxımından xüsusilə mühüm olan müasir nəzəri məsələlərin düzgün işıqlandırılmasından asılıdır. Odur ki, şüur uğrunda mübarizədən ibarət olan ideoloji mübarizə ictimai-siyasi elmlər sahəsində çalışan işçilərdən ictimai gerçəklikdə qarşıya çıxan yeni hadisələri dərk edib düzgün işıqlandıra bilmək üçün daim yaradıcılıq səyi göstərməyi tələb edir.

Ömrünü başa vurmaqda olan siniflər ideoloji vasitələrdən istifadə edərək zəhmətkeşləri həm mənəvi, həm də siyasi təsir altında saxlamağa, onların sinfi mənlik şüurunun artmasını və deməli, cəmiyyətin mütərəqqi inkişafını ləngitməyə can atırlar. Məhz bu məqsədlə onlar hər cür vasitələrə əl atır, zəhmətkeşlərin şüurunu zəhərləyir, heç bir əsası olmayan yanlış fikirləri yayırlar. İrticaçı siniflər özlərinin ideya əleyhdarlarına qarşı zor işlətməkdən də çəkinmirlər. Çilidə baş verən hadisələr buna inandırıcı sübutdur. Orada hərbi xunta öz ideya düşmənlərinə açıqca divan tutur. Marksizm-leninizm ideologiyasından, fəhlə sinfindən qorxan bu quldur dəstəsinin başçıları nəinki təkcə kommunist partiyasının fəaliyyətini, habelə "yoldaş", "fəhlə" və s. kimi sözlərin işlədilməsini qadağan edən qanunlar verirlər.

İdeoloji mübarizənin marksist-lenincəsinə anlaşılması isə öz mövqeyinin obyektiv üstünlüyünün dərk edilməsinə əsaslanır. Elmi mövqedə duran marksist-leninçilər ideoloji mübarizəni mürtəce baxışlara və xurafata qarşı mübarizə hesab edilrər. İdeoloji mübarizədə marksizm-leninizmin istifadə etdiyi başlıca metod öz dünyagörüşünü və mənafeyini açıqdan-açığa düşmən ideologiya və mənafeyinə qarşı qoymaqdan ibarətdir.

Bir çox hallarda ideoloji mübarizənin xüsusiyyətlərini müasir elmi-texniki inqilabla əlaqələndirirlər. Əlbəttə, ideoloji mübarizə ilə elmi-texniki inqilab arasında müəyyən bir əlaqə vardır və hazırkı ideoloji prosesləri başa düşmək üçün bunu bilmək çox vacibdir. Lakin bu xüsusiyyəytlərə geniş ictimai-siyasi baxımdan yanaşmaq və bilmək lazımdır ki, hazırda ideoloji mübarizənin başlıca cəbhəsini qarşı-qarşıya duran iki ictimai-iqtisadi sistem arasında, yəni sosializm ilə kapitalizm arasında gedən mübarzə təşkil edir, kapitalizm artıq ömrünü başa vurmaqdadır

və ictimai inkişafın obyektiv qanunlarına əsasən öz yerini daha mütərəqqi cəmiyyətə, yəni sosializmə verməlidir. Lakin kapitalizm bunu istəmir və hər vasitə ilə, o cümlədən də ideoloji vasitələrlə öz ömrünü uzatmağa can atır. Müasir ideoloji mübarizənin xüsusiyyətləri də məhz bununla müəyyən edilir.

* * *

Bütün dünya miqyasında sosializm ilə kapitalizm arasında rəqabətin gedişində, ümumiyyətlə, ideoloji mübarizə daha kəskin xarakter alırsa, bunu da görməmək olmaz ki, həmin mübarizə milli məsələdə xüsusilə kəskinləşmişdir. Milli məsələ müasir ideoloji mübarizənin ən mühüm problemlərindən birinə çevrilir. "Sovet Sosialist Respublikaları İttifaqının təşkil edilməsinin 50 illiyinə hazırlıq haqqında" Sov.İKP MK-nın qərarında qeyd edildiyi kimi, "milli məsələ sosializm ilə kapitalizm arasında mübarizənin, burjua və təftişçilik ideologiyasına qarşı marksizm-leninizmin mübarzəsinin kəskin sahələrindən biridir".

İctimai münasibətlərin bir hissəsi olan milli münasibətlər, şübhə yoxdur ki, xalqların ictimai inkişafına, dünyanın siyasi vəziyyətinə getdiksə daha çox təsir göstərir. Siyasi cəhətdən mürəkkəb və ideoloji cəhətdən ziddiyyətli olan bu təsiri nəticə etibarilə iki ictimai sistemin mübarizəsi müəyyən edir.

Sosialist ölkələrində milli məsələnin həlli, beynəlxalq fəhlə sinfinin milli dəstələri arasında əlaqələrin möhkəmlənməsi, milli azadlıq hərəkatının sosializm ölkələri birliyinə yaxınlaşması – bütün bunlar dünyada inqilabi prosesin inkişafına, tərəqqipərvər qüvvələrin möhkəmlənməsinə hər vasitə ilə kömək edir. Əks istiqamətdə təsir göstərən amillər də vardır. Buna, dünyada burjuaziyanın yeritdiyi siyasətdə şovinizm meyillərinin

güclənməsi, imperialist dövlətlərin müstəmləkələrdə və asılı ölkələrdə yaşayan xalqların milli azadlıq hərəkatını boğmaq üçün göstərdikləri cəhdlər, inkişaf etməkdə olan bəzi ölkələrdə mürtəce millətçiliyin canlanması, antikommunistlərin və millətçi-opportunistlərin dünya kommunist hərəkatı sıralarına milli ədavət salmaq məqsədi ilə göstərdikləri cəhdlər və s. misal ola bilər. Beləliklə, milli problemlər sosializm ilə kapitalizm arasında, tərəqqipərvər qüvvələrlə mürtəce qüvvələr arasında ziddiyyətlərin başlıca düyünlərindən birini təşkil edir.

Milli məsələ ilə əlaqədar olan ideoloji mübarizədə antikommunizm özünün əsas zərbəsini, ilk növbədə, müasir dövrün başlıca inqilabi qüvvəsi olan sosialist ölkələrinə, bütövlükdə dünya sosializm sisteminə qarşı yönəldir. Antikommunizm sosialist ölkələrində millətçi ünsürləri həvəsləndirməyə, bu ünsürlərdən istifadə etməklə, fəhlə sinfinin və onun avanqardı olan kommunist partiyasının rəhbər rolunu zəiflətməyə, sosialist millətlər və xalqlar arasında beynəlmiləlçilik münasibətlərini pozmağa çalışırlar.

Burjua nəzəriyyəçiləri tərəfindən irəli sürülən antikommunist konsepsiyalar da bu məqsədə xidmət edir. Bu konsepsiyaların səciyyəvi xüsusiyyəti milli məsələyə sinfi və tarixi mövqedən yanaşılmasından imtina etməkdir. Milli problemlərə burjua münasibəti ayrı-ayrı millətlərin psixoloji xüsusiyyətlərinin son dərəcə şişirdilməsinə əsaslanır. Dialektik vəhdət təşkil edən dil, ərazi, iqtisadi və mədəni həyatın ümumiliyi əsasında konkret şəraitdə meydana gələn millətə materialist, ictimai-tarixi xarakteristika vermək əvəzinə, burjua ideoloqları insanların bu sabit ictimai birliyi haqqında hər şeydən əvvəl, idealist, etnik-psixoloji konsepsiyanı irəli sürürlər. Məhz buna görə də burjua

"nəzəriyyələrində" millət insanların "psixoloji mədəni birliyi" kimi, yaxud mahiyyətcə sabit və dəyişməyən milli ruhun, milli ideyanın təcəssümü kimi ortaya çıxır. Buna görə də onlar millətlər arasındakı münasibətləri xalqların psixikasında olan və özünü təcavüzkarlıq cəhdlərində büruzə verən bəzi irrasional qüvvələrin qarşılıqlı təsiri ilə izah etməyə çalışırlar. İmperializm ideoloqları milli məsələni ictimai ziddiyyətlərdən və konkret tarixi şəraitdən kənar götürür, millətin psixoloji xüsusiyyətlərini mütləqləşdirir və bununla da millətçilik xurafatına "bəraət" qazandırmaq üçün nəzəri əsas yaradırlar.

Marksizm-leninizm fəlsəfəsinə görə, millətçilik xurafatının öz tarixi və ictimai-sinfi kökləri vardır. İstismarçı cəmiyyətin inikası olan millətçilik xurafatı obyektiv şərait və kapitalizm cəmiyyətində sinfi və milli münasibətləri şərtləndirən burjua mülkiyyəti mövcud olduqca insanların şüurunda yaşayır. Deməli, millətçilik xurafatı problemi heç də psixoloji problem deyil, ictimai problemdir. Burjua ideoloqlarını da hər cür xurafatı, o cümlədən də millətçilik xurafatını yaymağa vadar edən məhz ictimai (ilk növbədə iqtisadi) mənafedir. Bu cür xurafatları psixoloji amillərlə izah etmək cəhdi isə, əslində, istismarçı quruluşun hakim sinfi tərəfindən yeridilən siyasəti ideya-nəzəri vasitələrlə pərdələməkdən başqa bir şey deyildir.

Antikommunizm nəzəriyyəçiləri milli məsələnin mahiyyətini və cəmiyyətin tərəqqisində onun rolunu təhrif edərək, kütlələrə belə bir ideyanı zorla qəbul etdirməyə çalışırlar ki, dünyada gedən sinfi mübarizə millətçi qüvvələrin qlobal toqquşmasıdır. Bu sürətlə beynəlxalq meydanda gedən sinfi mübarizə bir-birinə zidd olan ictimai sistemlərdə ancaq formal şəkildə qruplaşmış ayrı-ayrı millətlər arasında çoxtərəfli ixtilaflara çevrilir. Sinfi

məsələni milli məsələyə tabe tutan, müxtəlif ideoloji hadisələri millətçilikdə əridən antikommunistlər millət və milli münasibətlər haqqında marksizm-leninizm təliminin, proletar beynəlmiləlçiliyi prinsiplərinə və kommunust partiyalarının milli siyasətini ləkələməyə can atır, bütün bunları millətçiliyin dəyişmiş xüsusi forması kimi qələmə verirlər.

Milli məsələdə marksist-leninçilərin və onların sinfi, ideya düşmənlərinin mövqeləri bir-birinə daban-dabana ziddir. Bu mövqeləri eyniləşdirməyə çalışmaq isə arzu edilən bir şeyi həqiqət kimi qələmə vermək, mövcud vəziyyəti təhrif etməkdir.

Burjuaziya bir sinif olmaq etibarilə təbiətən millətçidir. Buna görə də o, digər milli qruplarla öz münasibətini bərabərlik və əməkdaşlıq əsasında qura bilməz. Millətçilik – milli məsələdə burjua ideologiyasının mahiyyətini təşkil edir. Burjuaziyanın əksinə olaraq, fəhlə sinfi öz təbiətinə görə millətçiliyin əleyhinədir. Milli məsələdə fəhlə sinfinin və onun marksist-leninçi partiyasının proqramının ideya əsasını proletar beynəlmiləlçiliyi, yəni irqi və milli mənsubiyyətlərindən asılı olmayaraq, bütün ölkələrin fəhlələrinin, zəhmətkeşlərinin sinfi həmrəyliyi, ictimai birliyi haqqında inqilabi təlim təşkil edir. Proletar beynəlmiləlçiliyi və burjua millətçiliyi ictimai mənşəyinə, ideya məzmununa və siyasi istiqamətinə görə bir-birindən prinsipcə fərqli olan hadisələrdir.

V.I.Lenin millətçiliyi burjua mülkiyyəti, kapitalist istehsal münasibətləri ilə əlaqədar olaraq meydana gəlmiş konkret tarixi hadisə hesab edirdi. Başqa sözlə deyilsə, millətçilik burjuaziyanın ictimai-iqtisadi xüsusiyyətini təşkil edir.

Burjua millətçiliyinin əsas prinsipləri millətə sinfin fövqündə duran yuksək ictimai birlik kimi baxılmasından, milli üstünlük,

müstəsnalıq ideyasından ibarətdir. Bu prinsiplər və digər millətçilik ideyaları burjua cəmiyyətində bütün ictimai şüur formalarına nüfuz edir, onların əsasına çevrilir. Millətçiliyin ideya silahı "vahid milli axın" nəzəriyyəsidir. Bu "nəzəriyyənin" mahiyyəti burjua cəmiyyətinin hər bir milli mədəniyyətində iki milli mədəniyyət olmasını inkar etməkdən, ictimai məqsədi isə sinfi mübarizəni pərdələməkdən, ictimai inkişafda milli məsələni əsas məsələ kimi qələmə verməkdən, proletariatın öz ictimai azadlığı uğrunda mübarizəsini inkar etməkdən ibarətdir. Məsələn, burjua ideoloqlarından O.Şpenqler burjua millətçiliyinin əsas ehkamını ifadə edərək göstərir ki, bütün millət bir sinif təşkil edir.

Hazırda bir sıra kapitalist ölkələrində inhisarların mənafeyinə uyğun olaraq, zəhmətkeşlərlə istismarçılarda "vahid ictimai şüur" formalaşdırmaq və antikommunist ideologiya yaratmaq cəhdlərində millətçilik təbliğatı əsas rol oynayır. Bu təbliğatda isə antisovetizm böyük yer tutur.

Lakin çox vaxt elmi və ictimai-siyasi ədəbiyyatımızda edildiyi kimi, millətçiliyi milli məsələdə burjuaziyanın təkcə ideologiya və siyasəti kimi müəyyən etmək heç də kifayət deyildir. Belə bir tərif, əvvələn, millətçiliyi və onun müasir təzahürlərini heç də tamamilə əhatə etmir, ikincisi, bu tərif onun bəzi mənbələrini kölgədə qoyur. V.İ.Lenin göstərmişdir: "Burjua millətçiliyi və proletar beynəlmiləlçiliyi – bir-biri ilə barışmaz düşmən olub bütün kapitalizm aləminin iki böyük sinfi cəbhəsinə uyğun olan və milli məsələdə iki siyasəti (hətta: iki dünyagörüşünü) ifadə edən iki şüardır" (Əsərləri, 20-ci cild, səh.11). Bu metodoloji müddəadan görünür ki, millətçilik burjuaziyanın təkcə siyasəti deyil, həm də dünyagörüşüdür.

Dünyagörüşü isə öz həcminə görə istər siyasətdən, istərsə də ideologiyadan daha genişdir.

İctimai bir hadisə kimi millətçilik milli xüsusiyyətlərin ictimai şüurun müxtəlif səviyyələrində təhrif olunmuş şəkildə əks etdirilməsidir və milli psixologiyanın millətçilik psixologiyasına çevrilməsi ilə nəticələnir. Deməli, millətçilik müəyyən dərəcədə ictimai-psixoloji bir hadisə kimi meydana çıxır. Buna görə də bizim fikrimizcə, millətçiliyi bir milləti digər millətlərdən üstün tutmaq, öz millətini tərifləmək, milli ədavəti və başqa irqlərə nifrəti qızışdırmaq psixologiya və ideologiyası, dünyagörüşü və siyasəti hesab edən müəlliflər haqlıdırlar. Bundan əlavə, millətçilik istismarçı siniflərin və ictimai qrupların ictimai təcrübəsi kimi də özünü göstərir.

Burjua millətçiliyinin əksinə olaraq, proletar beynəlmiləlçiliyi fəhlə sinfinin ideologiya və siyasəti, psixologiyası və ictimai təcrübəsidir. Marksizm-leninizm baniləri müəyyən etmişlər ki, proletar beynəlmiləlçiliyi proletariatın ictimai-tarixi xüsusiyyətidir, müxtəlif ölkələrdə yaşayan proletarların ictimai-iqtisadi vəziyyətinin ümumiliyi fəhlə sinfinin beynəlxalq miqyasda sıx birləşməsini zərurətə çevirir; proletariatın ictimai azadlığa çıxması şərtləri hər yerdə eynidir; hər yerdə proletariatın qarşısında eyni sinfi düşmən durur ki, bu da proletariatın milli dəstələrinin hərəkət birliyini tələb edir.

Müxtəlif ölkələrin fəhlə sinfinin, zəhmətkeşlərinin beynəlmiləl qüvvələri bir çox hallarda millətçiliklə ittifaqa girən, onunla qaynayıb qovuşan opportunizmə qarşı mübarizədə birləşir. Buna səbəb odur ki, millətçilik heç vaxt xalis şəkildə mövcud olmur, müxtəlif ictimai hadisələr və baxışlarla sıx çulğaşır, onların tərkib hissəsi kimi meydana çıxır. Kommunist hərəkatında

millətçilik siyasət sahəsində opportunizmlə, nəzəriyyədə isə təftişçiliklə qovuşur. Beləliklə, bu mənfi ictimai hadisələr arasında qarşılıqlı əlaqə yaranır, onların birləşməsi baş verir. Buna görə də demək olar ki, dünya kommunist və fəhlə hərəkatında millətçilik – fəhlə sinfinin milli dəstələrinin qarşılıqlı münasibəti ilə əlaqədar olan məsələlərdə özünü göstərən opportunizmdir. Eyni ictimai təbiətə malik olan millətçiliklə opportunizm qarşılıqlı surətdə bir-birini tamamlayır, bir-birinin sinfi əsasını genişləndirir. Opportunizmin ictimai təbiəti fəhlələri, zəhmətkeş kütlələri istismarçılarla barışdırmağa cəhd göstərməkdir. Fəhlələrin sinfi mənlik şüurunu dumanlandıran millətçilik də eyni ilə bu rolu yerinə yetirir. V.İ.Lenin vaxtilə opportunizm və millətçiliyin sıx qarşılıqlı əlaqəsindən bəhs edərək yazmışdır: “Sosial-şovinizmin opportunizmlə sıx və qırılmaz əlaqəsini görmək istəməyən adamlar, – guya filan opportunist beynəlmiləlçi, filan radikal isə şovinist olmuşdur, deyə ayrı-ayrı hadisələr və “qəribəliklərdən” yapışırlar. Lakin bu – cərəyanların inkişafı məsələsində əsla ciddi dəlil deyildir” (Əsərləri, 21-ci cild, səh. 245). Millətçiliyin və opportunizmin sinfi məzmununu təhlil edən, onların başlıca prinsiplərini ideya-siyasi baxımdan araşdıran V.İ.Lenin belə mühüm bir nəzəri nəticə çıxarmışdır: “Opportunizmlə sosial-millətçiliyin ideya cəhətdən və siyasi yaxınlığı, əlaqəsi və hətta eyniliyi tamamilə şübhəsizdir” (Əsərləri, 21-ci cild, səh. 149).

Millətçiliklə opportunizmin qarşılıqılı surətdə əlaqədar olduğuna dair deyilmiş sözlər indi də öz əhəmiyyətini saxlayır, çünki onların ideya cəhətdən və siyasi yaxınlığı, birliyi davam etməkdədir. L.İ.Brejnev yoldaş demişdir: “İnqilabi mübarizənin müasir mərhələsinin xüsusiyyəti bundadır ki, həm

"sağ", həm də "sol" opportunizm bir çox halda millətçilik meyilləri ilə qovuşur, çulğaşır".

Sosializmə və bütün inqilabi hərəkata qarşı ideoloji mübarizədə imperializm və onun "nəzəriyyəçiləri" məhz millətçiliklə opportunizmin qarşılıqlı surətdə əlaqədar olmasına böyük ümid bəsləyirlər. Bütün müasir antikommunizm doktrina və nəzəriyyələri (məsələn, "körpü düzəltmək", "kommunizmin dağılması", "daxili təkamül", "konvergensiya" nəzəriyyələri və s.) məhz millətçiliklə opportunizmin ideya-siyasi birliyi nəzərə alınmaqla hazırlanmışdır. Antikommunist konsepsiyaları ilə müasir millətçi-opportunist konsepsiyaları (nəzəriyyədə və təcrübədə millətçiliklə opportunizmin birliyinin təzahür nümunəsi olan "polimarksizm", "milli kommunizm", sosializimin "müxtəlif modelləri" konsepsiyası və s.) arasında, şübhəsiz, sıx əlaqə vardır.

Təkcə müasir burjua tədqiqatçıları deyil, təftişçilər də tarixi hadisələri barışmaz milli ziddiyyətlərlə, milli ziddiyyətləri isə hər bir xalqın təkrarolunmaz psixoloji xüsusiyyətləri ilə izah edirlər. Bu müddəaları hələ Avstriya sosial-demokratiyasının başçılarından O.Bauer və K.Renner (R.Şpringer) nəzəri cəhətdən əsaslandırmağa səy göstərmişdilər. Onlar millətin nə ərazi ümumiliyi, nə iqtisadi əlaqələrlə bir-birinə bağlı olmayan, "eyni tərzdə fikirləşən, eyni dildə danışan şəxslərin ittifaqı olması ideyasını irəli sürmüşdülər. Onlar iddia edirdilər ki, millət sırf "mənəvi hadisədir". O.Bauerin "milli oppersepsiya" konsepsiyasına görə, dünyada neçə millət vardırsa, bir o qədər də marksizm və sosializm olmalıdır. Bu konsepsiya millətçiliklə opportunizmin birliyini sübut edən klassik nümunədir. İndi milli əlahiddəliyin əhəmiyyətini şişirdib mütləqləşdirən "sağ" və "sol" opportunistlər, təftişçilər məhz burada O.Bauerlə qovuşurlar.

"Sol" opportunistlərin, xüsusən maoçuların təcrübə və nəzəriyyəsini təhlil etsək, onların antikommunizm və antisovetizm mövqeyində durduqlarını görərik. İctimai-siyasi cəhətdən onların "konsepsiyaları" opportunizm və həm də millətçi xarakteri daşıyır. Antikommunizm, antisovetizm, millətçilik, müxtəlif ideya və nəzəriyyələrin mexaniki surətdə qatışdırılması sağ təftişçiliyin R.Qarodi, E.Fişer. P.Vranitski və b. kimi nümayəndələrinə də xasdır.

Müasir opportunist və təftişçilərin millətçi mahiyyəti onların fəhlə sinfinin vahid beynəlmiləl təlimi kimi leninizmi inkar etmələrində, "marksizmin müxtəlif variantlarını", guya müxtəlif xalqların irqi, psixoloji və s. xüsusiyyətlərindən irəli gələn variantlarını əsaslandırmağa can atmalarında xüsusilə aydın şəkildə özünü göstərir.

Təftişçilər marksizm-leninizmin və proletar beynəlmiləlçiliyinin əsas prinsiplərini təftiş etməyə, marksizmi "milliləşdirməyə" can atarkən idealizm və metafizika fəlsəfəsinin müxtəlif cərəyanlarına, məsələn, eklektizm və sofizmə əsaslanırlar. Məsələn, maoizmin metodoloji əsasını ümumi ilə xüsusinin, milli ilə beynəlmiləlçiliyin münasibətini metafizikcəsinə başa düşmək, bunları bir-birindən ayırmaq və bir-birinə qarşı qoymaq təşkil edir. İdeya-nəzəri cəhətdən maoizm ən müxtəlif baxış və nəzəriyyələrin (Çin feodal fəlsəfəsinin, xırda burjua sosializminin, burjua millətçiliyinin, trotskizmin, anarxizmin və s.) eklektik qatışığından ibarətdir. Mao Tsze-dun və onun başçılıq etdiyi dəstə bütün bu baxışlara əsaslanmaqla marksizm-leninizmi millətçilik mövqeyindən təhrif edirlər.

Millətçiliyin və opportunizmin ictimai-sinfi və qneseoloji köklərinin təhlili V.İ.lenin tərəfindən çıxarılan belə bir nəticənin

doğruluğunu sübut edir ki, kommunist və fəhlə hərəkatında millətçilik və opportunizm bir-biri ilə qarşılıqlı surətdə əlaqədardır və vəhdət təşkil edir. Əvvələn, onların sinfi əsasları; ikincisi, ictimai hadisələrə qeyri-sinfi mövqedən yanaşmaları; üçüncüsü, ictimai həyat proseslərinin təhlilində rəhbər tutduqları metodologiyaların (idealizm, metafizika, eklektika, sofizm və s.) ümumiliyi; dördüncüsü, vahid ictimai həyat prosesinin bu və ya digər cəhətlərinin mütləqləşdirilməsi, ictimai hadisələrə münasibətdə birtərəflilik, ayrı-ayrı faktlara ehkamçılıqla yanaşılması, onlar arasında olan ümumi əlaqəyə əhəmiyyət verilməməsi və s. bir-birilərinə yaxınlaşdırır. Kommunist və fəhlə hərəkatında millətçilik və opportunizmi hərtərəfli təhlil edən V.İ.lenin belə bir nəticəyə gəlmişdir: "Tamamilə aydındır ki, sosial-şovinizmin əsas ideya-siyasi məzmunu opportunizmin əsaslarına tamamilə uyğundur. Bunlar – eyni bir cərəyandır" (Əsərləri, 21-ci cild, səh.247).

Opportunizm özünün obyektiv mahiyyətinə görə millətçiliyə meyil edir. Bunlar eyni bir ictimai hadisənin iki tərəfini təşkil edir. Doğrudur, millətçiliklə opportunizm arasında olan qarşılıqlı əlaqə, onların birliyi heç də həmişə aydın şəkildə nəzərə çarpmır. Müəyyən vaxtadək özünü büruzə verməyən, marksist ibarələrlə, marksizmə, proletar beynəlmiləlçiliyi prinsiplərinə sədaqət haqqında dəbdəbəli sözlərlə ört-basdır edilən bu birliyi bir çox hallarda aşkara çıxarmaq çətin olur, hərçənd təcrübədə sübut edilmişdir ki, millətçi-opportunistlər və millətçi-təftişçilər özlərinin marksizmə zidd fəaliyyətlərinin mahiyyətini ört-basdır etmək üçün marksist ibarələrinə əl atırlar.

Millətçilik və opportunizm yalnız ictimai inkişafın böhranlı dövrlərində bir tam halında çıxış edir. Məsələn, Birinci Dünya müharibəsi başlandıqda II İnternasionalın bir sıra başçılarının

fəaliyyətində opportunizmlə millətçiliyin birliyi daha qabarıq şəkildə özünü göstərdi. Lakin bu heç də o demək deyildir ki, onlar müharibə başlananadək ancaq opportunist idilər, müharibə illərində isə "dərhal" millətçi oldular. Millətçilik və opportunizm daxilən II İnternasional başçılarına xas idi.

Bu, E.Bernşteynin, Q.Folmarın, Van Kolun, Q.Noskenin, K.Kautskinin və başqalarının nəzəri və əməli fəaliyyətində – fəhlə hərəkatı ilə əlaqədar olan müxtəlif məsələlərə onların baxışlarında öz ifadəsini tapırdı. V.İ.Lenin Birinci Dünya müharibəsi illərində beynəlxalq sosializmin böhranını təhlil edərək göstərdi ki, sosial-millətçilik Avropa ölkələri sosial-demokrat partiyalarının uzun illər pozulub opportunizm bataqlığına yuvarlanması prosesində, uzun illər davam etmiş olan bu prosesdə hazırlanmışdır. V.İ.Lenin yazmışdır ki, "social- millətçilik opportunizmdən doğmuş və ona məhz opportunizm qüvvət vermişdir.

Sosial-millətçilik nə sayaq "birdən-birə" doğulmuşdur. Hamiləlik başlanandan 9 ay sonra uşaq "birdən-birə" necə doğulursa, bu da tamamilə eləcə doğulmuşdur.

Bütün ikinci (və ya dünənki) dövr ərzində bütün Avropa ölkələrində opportunizmin bir çox təzahürlərindən hər biri kiçik-kiçik çaylar idi; indi bu kiçik çayların hamısı "birdən-birə" birləşib böyük, lakin çox dayaz – (əlavə edək ki, bulanıq və kirli) – sosial-millətçilik çayı əmələ gəlmişdir. Hamiləlik başlanandan 9 ay sonra bala ana bətnindən ayrılıb çıxmalıdır; opportunizm də maya tutandan onlarca il sonra onun yetişmiş balası, yeni sosial-millətçilik az-çox qısa (onilliklərə nisbətən qısa) müddətdə müasir demokratiyadan ayrılmalıdır" (Əsərləri, 21-ci cild, səh.150).

Millətçiliyin və opportunizmin mürtəceliyi, onların daxili əlaqəsi haqqında Lenin fikirlərinin dünya kommunist hərəkatı üçün çox böyük əhəmiyyəti vardır. Bu ideyalar bu gün də müasir opportunizmin, təftişçiliyin və millətçiliyin xususiyyətlərini aşkara çıxarmaq üçün, inqilabi hərəkatda onların hər cür təzahürlərinə qarşı ardıcıl mübarizə aparmaq üçün tükənməz mənbədir.

* * *

Bütün deyilənləri yekunlaşdıraraq qeyd etmək lazımdır ki, bir-birinə əks olan iki ictimai-iqtisadi sistem arasında həmişə qızğın və kəskin mübarizə getmişdir, lakin heç vaxt sinfi düşmən döyüşə indi olduğu qədər qüvvə və vəsait sərf etməmişdir. İndi burjuaziyanın hakim dairələri tərəfindən sosializm qüvvələrinə qarşı aparılan psixoloji müharibə imperialist təcavüzkarlığının yeni bir növüdür. Bu müharibə müasir dünyada özünün iqtisadi və hərbi hökmranlığını itirmiş olan kapitalizm sisteminin ümumi böhranı nəticəsində yaranmışdır. Bununla birlikdə, ideologiya sahəsində sinfi mübarizənin kəskinləşməsi sosializmin və dünyanın bütün inqilabi qüvvələrinin imperializmin mövqeləri üzərinə bütün cəbhə boyu güclü hücuma keçmələrinin, iqtisadi, ictimai və mənəvi əsarətə qarşı zəhmətkeşlərin getdikcə artan hiddətinin nəticəsidir.

Kommunist və fəhlə partiyalarının 1969-cu ildə keçirilmiş müşavirəsində L.İ.Brejnev yoldaş qeyd etmişdir ki, "burjua ideologiyasına ən fəal hücum təşkil olunmasa, imperializmə qarşı mübarizədə qələbə çalmaq... mümkün deyildir... Leninin belə bir xəbərdarlığını yadda saxlamaq indi həmişəkindən daha vacibdir ki, ideoloji işin kommunistlər tərəfindən hər hansı

şəkildə zəiflədilməsi, bu işdən hər hansı şəkildə uzaqlaşmaq burjua ideologiyası təsirinin güclənməsinə doğru aparır". Bu mübarizədə marksizm-leninizm bizim bayrağımız və ideya silahımızdır. Biz bu silahdan bacarıqla istifadə edərək, düşmənlərin hər cür ideoloji təxribatını ifşa etməli, onun bütün iyrəncliklərini açıb göstərməliyik.

*"Azərbaycan kommunisti" jurnalı,*
*№8, 1974-cü il.*

## SOSİALİST MİLLƏTLƏRİNİN DİL HƏYATINDA BEYNƏLMİLƏLLƏŞMƏ PROSESİNİN İNİKASI

Hazırda baş verən beynəlmiləlləşmə prosesləri millətin dil həyatını da əhatə edir. Bu problemin tədqiqi metodoloji xarakterli çətinliklərlə bağlıdır. Zənnimizcə, dil həyatının beynəlmiləlləşməsi prosesləri arasında millətlərarası ünsiyyətdə bu və ya digər dilin işlədilməsi inkişaf etmiş sosializm şəraitində, daha çox nəzərəçarpan cəhətdir.

Sovet sosialist millətlərinin dil həyatında bu rol rus dilinə məxsusdur. O, bütün sovet millətlərinin dil praktikasında geniş funksiyalar yerinə yetirir. Bu, ilk növbədə, respublikalararası kommunikasiyalar dili, millətlər arasında maddi və mənəvi dəyərlərin mübadilə vasitəsidir, SSRİ millətləri və xalqlarının tədricən yaxınlaşmasının sürətləndiricisi, sovet sosialist millətlərinin güclü tərəqqisinin mühüm amilidir. Rus dili həm digər bütün millət və xalqların mədəni dəyərlərindən, həm də dünya mədəniyyətindən bəhrələnməyin qüdrətli vasitəsidir.

Qeyri-rus millətləri və xalqları nümayəndələrinin rus dilinə yiyələnməsinin könüllülük, vüsətlilik, səmərəlilik və s. kimi xüsusiyyətləri var. Bu yiyələnmə həm orta məktəblərdə, orta ixtisas məktəblərində və ali məktəblərdə tədris yolu ilə, həm də müxtəlifdilli əhalinin bilavasitə intensiv ünsiyyəti sayəsində baş verir.

1970-ci il əhalinin siyahıya alınmasının yekunlarına görə, qeyri-rus mənşəli 112,7 milyon insanın 13 milyonu rus dilini ana dili, 41,9 milyonu sərbəst bildiyi ikinci dil adlandırmışdır.

Bu, sosialist millətlərinin dil həyatının beynəlmiləlləşməsi miqyasının genişliyini əyani şəkildə göstərir.

Millətlərin dil həyatı sahəsində yaxınlaşması, – bu, öz ifadəsini rus dilinin millətlərarası ünsiyyət vasitəsi kimi yayılmasında tapır, – SSRİ-nin bütün millətləri və xalqlarının ümdə mənafelərinə cavab verən tarixən zəruri, mütərəqqi haldır. Ona görə də təsadüfi deyil ki, müttəfiq respublikaların partiya təşkilatları rus dilinin əhalinin geniş təbəqələri arasında öyrənilməsi və yayılması sahəsində böyük iş aparırlar.

Sosializm şəraitində millətlərarası ünsiyyət dilinin irəli sürülməsi və yayılması dillərin rəqabətinə gətirib çıxarmır. Onlar hüquq bərabərliyi və qarşılıqlı zənginləşmə əsasında əməkdaşlıq edir ki, bu da kütləvi ikidilliliyin və çoxdilliliyin meydana gəlməsi, qarşılıqlı əlaqədə olan dillərin müxtəlif səviyyələrinin tədricən yaxınlaşması ilə nəticələnir. Bununla da daha geniş nitq şəraiti yaranır, ünsiyyət sahəsi genişlənir, millətin və bütün xalqın dil həyatının bütövlüyü təmin edilir.

Bəs millətlərin dil həyatının beynəlmiləlləşməsi prosesi millətlərarası dilin yayılması ilə bitirmi? İnkişaf etmiş sosializm şəraitində bu təzahürlərlə yanaşı, digər proses də baş verir və zənnimizcə, onu yaxınlaşma kimi qiymətləndirmək olmaz, çünki bu prosesin keyfiyyətcə başqa xarakteristikası var.

Dil həyatının beynəlmiləlləşməsi gedişində bir etnik vahidlərin nümayəndələrinin digər millətlərin dilinə keçməsi tez-tez müşahidə olunur. 1959-cu il əhalinin siyahıya alınmasının yekunlarına görə, 12 milyondan çox adam, 1970-ci ildə keçirilmiş siyahıyaalmanın materiallarına görə isə, artıq 14,8 milyondan çox insan başqa millətin dilini ana dili kimi göstərmişdir ki, bu da ölkəmizin əhalisinin 6 faizdən çoxunu təşkil edir.

SSRİ-nin dil həyatı faktlarının təhlili göstərir ki, insanların yeni tarixi birliyi kimi çoxmillətli sovet xalqı inkişaf edib möhkəmləndikcə, etnolinqvistik dəyişikliklər sovet gerçəkliyi şəraitində millətlərarası ünsiyyət vasitəsi kimi rus dilinə keçid daha çox müşayiət olunur. Məsələn, 1970-ci il əhalinin siyahıya alınmasının yekunlarına görə, rus dilini ana dili hesab edən qeyri-rus mənşəli şəxslər 5 faizdən çox, qalan bütün dillərə keçənlərin faizi isə təxminən 0,8 faiz olmuşdur.

Burjua ideoloqları hər vasitə ilə ölkəmizdə etnolinqvist dəyişiklikləri "ruslaşdırma", sovet millətlərinin dil həyatının "milli xüsusiyyətlərini itirməsi" kimi qələmə verməyə çalışırlar. Milli dil həyatı ilə bağlı faktlar ideya əleyhdarlarımızın bu uydurmalarını inandırıcı şəkildə təkzib edir.

Millətlərarası ünsiyyət dili əsasında təkdilliliyə keçid heç də milli dillərin ölüb getməsi demək deyildir. Tədqiqatlar göstərir ki, SSRİ-də ikidilliliyin geniş yayılması milli dillərin fəaliyyəti üçün təhlükə doğurmur. Əksinə, bir çox hallarda milli dillər öz sosial bazasını getdikcə möhkəmləndirir. Etnolinqvistik proseslərin mürəkkəbliyinə, müxtəlifliyinə baxmayaraq, milli dillərin azad inkişaf etməsi və millətlərarası ünsiyyət dilinin geniş yayılması, onların əməkdaşlığı millətin dil həyatının inkişafında başlıca meyillər olaraq qalır.

Bu, təsdiq etməyə əsas verir ki, inkişaf etmiş sosializm şəraitində millətlərin dil həyatının beynəlmiləlləşməsi sosialist millətlərinin, bütün sovet xalqının hərtərəfli ictimai tərəqqisinə kömək edir.

*"Voprosı filosofii" jurnalı,*
*№12, 1974-cü il.*

# İDEOLOJİ İŞİN AKTUAL PROBLEMLƏRİ

İdeoloji işin təşkili, onun forma və metodlarının təkmilləşdirilməsi sahəsində partiya komitələrinin təcrübəsinə aid əsərlərə ciddi ehtiyac vardır. İnkişafımızın hazırkı mərhələsində ideoloji işə partiyanın xüsusi diqqət yetirdiyi bir vaxtda “İdeoloji iş təcrübəsindən” (“Из опыта идеологической работы”, Moskva, 1973) adlı kitabın nəşr olunması böyük əhəmiyyət kəsb edir.

İdeoloji işin mühüm problemlərinə uyğun olaraq respublikalarda, ölkə və vilayətlərdə fəaliyyət göstərən rəhbər partiya işçilərinin məqalələri toplanmış dörd bölmədən ibarət həmin kitabda SSRİ-nin yarım əsrlik yubileyinə hazırlıq dövründə qazanılmış və partiyanın XXIV qurultayının qərarlarının həyata keçirilməsi sahəsindəki ideya-siyasi iş təcrübəsi ümumiləşdirilmiş, ideoloji iş partiya komitələrinin təcrübəsi əsasında təhlil edilmişdir.

* * *

Kitabın birinci bölməsində ideya-siyasi tərbiyə işinin təkmilləşdirilməsi, onun səmərəliliyinin artırılması məsələləri işıqlandırılır.

Müasir ideoloji işin mühüm xüsusiyyəti bundan ibarətdir ki, indi təsərrüfat-təşkilat fəaliyyətinin və ideoloji fəaliyyətin məzmunu arasında qarşılıqlı əlaqə əvvəllər olduğundan xeyli artıqdır. Partiyamızın XXIV qurultayında L.İ.Brejnev yoldaş

demişdir: “Müasir istehsalın təkcə maşınlara, texnikaya deyil, habelə ən əvvəl işçilərin özlərinə, bu maşınları yaradanlara və bu texnikanı idarə edənlərə verdiyi tələblər sürətlə artır. İnsanın ixtisas biliyi, yüksək peşə hazırlığı və ümumi mədəniyyəti işçilərin getdikcə daha geniş təbəqələrinin müvəffəqiyyətli əməyi üçün vacib şərtə çevrilir”.

Beləliklə, partiya təşkilatlarında ideoloji işin səmərəliliyinin yüksəldilməsi təsərrüfat-iqtisadi inkişafın qəti tələbatına çevrilir, xalq təsərrüfatı vəzifələrinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün zəmin yaradır.

İdeoloji işin təkmilləşdirilməsi, onun təsirliliyinin yüksəldilməsi yollarını müəyyənləşdirərkən, partiya komitələri diqqəti Sov.İKP XXIV qurultayı qərarlarının və konkret ideoloji şəraitin irəli sürdüyü aşağıdakı vəzifələrin həllinə cəlb edirlər:

– təbliğat və təşviqatın ideya-nəzəri səviyyəsinin yüksəldilməsi, ideoloji kadrların, bütün kommunistlərin inqilabi nəzəriyyənin mahiyyətinin dərinliyinə nüfuz etməsinə diqqətin artırılması, sözlə işin vəhdətinin təmin edilməsi;

– təbliğat və təşviqatın gündəlik əməli işlə, kommunizm quruculuğunun perspektiv problemlərinin həlli ilə əlaqəsinin gücləndirilməsi;

– ideoloji işin ardıcıl olaraq elmi əsaslarla təşkil edilməsi sayəsində onun forma və metodlarının təkmilləşdirilməsi.

Müəlliflərin qeyd etdiyi kimi, ideoloji fəaliyyətin bütün formalarında sosializmin, sovet həyat tərzinin böyük üstünlüklərinin təbliğinin hərtərəfli genişləndirilməsi birinci dərəcəli əhəmiyyət kəsb edir. Sosializmin müsbət nümunə qüvvəsindən, ictimai həyat hadisələrinin marksist-leninçi elmi təhlilinin inandırıcılığından istifadə edərək, partiya təşkilatları burjua “həqiqətinə” qarşı

həqiqətimizi qoymağın və qəbul etdirməyin zəruriliyi haqqında Lenin vəsiyyətini dönmədən həyata keçirməyə çalışırlar.

Partiya təşkilatları ideoloji fəaliyyətin təkmilləşdirilməsi, onun təsirliliyinin artırılması üzərində işləyərkən, V.İ.Leninin belə bir göstərişini heç vaxt unutmurlar ki, bu işin məzmunu və müvəffəqiyyəti, hər şeydən əvvəl, kadrların nəzəri və metodiki hazırlığından asılıdır. Ona görə də, təsadüfi deyildir ki, partiya təşkilatları ideoloji sahədə çalışan kadrların tərbiyəsinə ciddi fikir verirlər. Kitabın birinci bölməsində həmin vəzifənin yerinə yetirilməsi yolları göstərilir.

Həmin bölmədəki materiallar son illərdə ideya-siyasi işin xeyli zənginləşdiyini bir daha bariz surətdə əks etdirir. Bu ondan irəli gəlir ki, zəhmətkeşlərin nəzəri və siyasi məsələlərə marağı partiya təşkilatlarının fəaliyyəti nəticəsində artmış, beləliklə, Lenin nəzəri irsinin təbliği kommunizm quruculuğu, təsərrüfat-iqtisadi və digər vəzifələrlə sıx surətdə əlaqələndirilmişdir.

Müəlliflər düzgün olaraq qeyd edirlər ki, mühazirə, söhbət və siyasi məlumatın sadəcə say artımı, heç də həmişə, istənilən nəticələri vermir. Qarşıya bir sıra suallar çıxır: aparılan ideya-tərbiyə işi adamların şüuruna necə təsir edir, onun bu və ya digər forma və vasitələrinin təsirliliyi, bu təsirin nəticəsi necə olur?

İdeoloji iş adamlar arasında aparıldığına görə bu işdə hər hansı, lap mühüm olsa belə, bir göstəricinin deyil, adamların və cəmiyyətin münasibətlərini müəyyənləşdirən bütün hadisə və amillərin nəzərə alınması zəruridir. Bu iş gerçəkliyə, ictimai istehsala yalnız adamlar, onların davranışı vasitəsilə təsir edir. Deməli, ideya-tərbiyə işinin təsirini məhz adamların isteh-

salatda, məişətdə, ictimai həyatda özlərini aparmasında, davranışlarında axtarmaq lazımdır.

Kitabdakı materiallar göstərir ki, son illər partiya təşkilatları konkret sosioloji tədqiqatlardan obyektiv məlumat mənbəyi kimi geniş istifadə etməyə başlamışlar. Kütləvi sorğuların (anket sorğusunun), statistik məlumatların öyrənilməsi, zəhmətkeşlərlə bilavasitə ünsiyyət, konkret sosioloji metodlar partiya təşkilatlarına ictimai münasibətlərin mürəkkəb mexanizmini öyrənməyə, hadisələrin real vəziyyətini aşkar etməyə imkan verir. Müəlliflər konkret sosioloji tədqiqatların başlıca problemlərini (səh.51), ideya-siyasi iş sisteminin tərkib hissələrini də göstərirlər (səh.54). Bu bölmədə kənd təsərrüfatı kollektivlərinin ictimai inkişafı planlarının tərtibi və həyata keçirilməsi təcrübəsinin şərhinə geniş yer verilir, ictimai inkişafın planlaşdırılmasının strukturu aydınlaşdırılır.

* * *

İkinci bölmədə beynəlmiləl tərbiyənin nəzəri və əməli problemləri, ictimai həyat hadisələrinə sinfi münasibət tərbiyə olunması məsələləri nəzərdən keçirilir. Buradakı materiallar ictimai proseslərə, keçmişin, bu günün tarixi hadisələrinə qiymət verilməsində partiyalı–sinfi meyarın möhkəmləndirilməsi sahəsində partiya təşkilatlarının apardığı müntəzəm iş haqqında aydın təsəvvür yaradır.

Kommunizm quruculuğu vəzifələrinin həllində milli məsələyə dair marksist-leninçi təlimin yaradıcılıqla inkişaf etdirilməsi, SSRİ-də Lenin milli siyasətinin həyata keçirilməsi sahəsindəki tarixi təcrübənin və onun beynəlxalq əhəmiyyətinin ümumiləşdirilməsi mühüm yer tutur.

Yetkin sosializm şəraitində milli münasibətlərin inkişafı zəhmətkeşlərin beynəlmiləl tərbiyəsi işində və millətçilik qalıqlarına qarşı mübarizədə yeni, mühüm vəzifələr irəli sürür. İkinci bölmədə zəhmətkeşlərin beynəlmiləl tərbiyəsinə nail olmaq üçün təsirli forma və vasitələrdən, əhalinin müxtəlif təbəqələri arasında tərbiyə işinin ideya-siyasi məzmununa partiya komitələrinin dərindən nüfuz etmələri üçün səmərəli üsullardan bəhs edilir. Partiya təşkilatları müxtəlif ideya təsiri vasitəsilə zəhmətkeşləri beynəlmiləl və vətənpərvərlik borcuna sədaqət, sovet xalqının ümumdövlət mənafeyini dərindən başa düşmək ruhunda tərbiyə edirlər. Məqalələrdə ölkəmizin qardaş xalqlarının nailiyyətləri göstərilir, insanların yeni tarixi birliyi olan sovet xalqının meydana gəlməsi haqqında Sov.İKP XXIV qurultayı müddəalarının izahına xüsusi diqqət yetirilir.

Beynəlmiləlçilik və vətənpərvərlik bizdə bütün sovet gerçəkliyi, sosialist həyat tərzi ilə tərbiyə olunur, kommunizm quruculuğunun müxtəlif sahələrində çoxmillətli kollektivlərin birgə yaradıcı əməyi prosesində formalaşır. Müəlliflər geniş faktik materiallar əsasında ictimai həyatın beynəlmiləlləşməsi ilə əlaqədar nə kimi tədbirlər görülməsindən bəhs edir, partiya təşkilatlarının ideoloji fəaliyyətinin bütün sahələrində beynəlmiləl tərbiyə işi ilə sıx əlaqəsini göstərir, ideya-siyasi iş prosesində mərasimlərin, bayramların təşkilindən, ənənələrdən necə istifadə edilməsindən söhbət açırlar.

Kitabın sonrakı bölməsi əmək tərbiyəsi və sosializm yarışı problemlərinə həsr edilmişdir. Buradakı materiallar doqquzuncu beşillik planın yerinə yetirilməsi üçün kütlələrin səfərbər edilməsi, istehsalat və tərbiyə məsələlərinin həllində əmək kollek-

tivlərinin rolunun yüksəldilməsi, sosializm yarışının genişləndirilməsində partiya komitələrinin iş təcrübəsi haqqında müəyyən təsəvvür yaradır.

Əməyə və ictimai mülkiyyətə kommunist münasibəti tərbiyəsi partiyanın, sovet dövlətinin və kütləvi təşkilatların, bütün ideya-mədəni fəaliyyət sahələrinin əsas vəzifəsidir. Partiyanın XXIV qurultayına Mərkəzi Komitənin hesabat məruzəsində deyilir: “Sovet adamlarında əməyə yeni münasibət, kommunist münasibəti tərbiyə etmək partiyanın apardığı ideoloji işdə ilk yerlərdən birini tutur” (Sov.İKP XXIV qurultayının materialları. Azərnəşr, 1971, səh. 90).

İqtisadiyyat və mədəniyyət sahəsindəki böyük nailiyyətlərlə birlikdə, partiyanın çoxcəhətli ideoloji işinin təsiri altında əməyə və ictimai sosialist mülkiyyətinə yeni münasibəti ilə səciyyələnən yeni insan yetişib formalaşır. Ümumittifaq kommunist iməcilikləri, zəhmətkeşlərin istehsalat planlarını artıqlaması ilə yerinə yetirməyə çalışmaları, ictimai-siyasi bayramların əmək qələbələri ilə qeyd edilməsi, mütərəqqi iş üsulunun başqalarına, xüsusilə gənclərə öyrədilməsi buna əyani sübutdur. Bu bölmədə həmçinin, hər bir işçidə şüurlu intizam, mütəşəkkillik, əmək fəallığı tərbiyə etmək sahəsində partiya və ictimai təşkilatların zəngin təbliğat vasitələrindən, siyasi-kütləvi və mədəni-maarif işlərindən danışılır.

Sosializm yarışı əməyə kommunist münasibətinin ən canlı nümunəsidir. Sosializm yarışı adamlara iş prosesində öz qabiliyyətlərini tamamilə aşkara çıxarmağa, onları var qüvvə ilə işləməyə sövq edir, zəhmətkeşlərə yüksək mənəvi keyfiyyətlər aşılayır. Bu bölmədə verilmiş məqalələrdən aydın olur ki, zəhmətkeşlərin fəal, yaradıcı, daha məhsuldar

əməyə cəlb olunması üçün partiya, sovet orqanları, ictimai təşkilatlar, müəssisə rəhbərləri şəxsi yaradıcılıq planları tərtib etmək, həmin planda göstərilənləri həyata keçirmək uğrunda yarışmaq, müttəfiq respublikaların şərəfinə əmək növbəsində durmaq, istehsalat qabaqcılları şərəfinə gecələr, bayramlar keçirmək, adlı-sanlı adamlar adına mükafatlar təsis etmək kimi üsullardan geniş istifadə edirlər. Təcrübəli işçilərin cavanları hamiliyə götürməsi, artıq, ənənəyə çevrilmişdir. Yarışın tərbiyəvi rolunun yüksəldilməsində sosialist öhdəliklərinin işlənib hazırlanması və qəbul edilməsinin çox böyük rolu vardır. Bu öhdəliklər bütün kollektivin yaradıcılıq məhsulu hesab olunur. İndi ölkəmizdə mənəvi və maddi amillərin müxtəlif formalarının sintezindən əmələ gəlmiş bütöv bir tərbiyə sistemi yaranmışdır.

Kitabın ən geniş, sonuncu bölməsi ideoloji işin müxtəlif sahələrinə partiya rəhbərliyi problemlərinə həsr edilmişdir. Buradakı materiallar əyani şəkildə göstərir ki, partiya təşkilatları zəhmətkeşlər arasında ideya-siyasi tərbiyə işinin təsirliliyinin yüksəldilməsi, onların xalq təsərrüfatı planlarını, doqquzuncu beşilliyin ictimai və iqtisadi vəzifələrini yerinə yetirməyə səfərbər edilməsi məsələlərinə son dərəcə qayğı və həssaslıqla yanaşırlar.

İnformasiya axınının durmadan artdığı hazırkı şəraitdə ictimai həyatın müasir proseslərini, partiyamızın siyasi xəttinin mahiyyət və əhəmiyyətini dərindən başa düşməkdə, kommunizm quruculuğunun ümumxalq vəzifələrinin həyata keçirilməsində hər adamın öz rolunu müəyyənləşdirməsi zərurəti meydana çıxır. Bütün bu ideoloji problemlərin həlli ilk növbədə mühazirəçilərin, məruzəçilərin, siyasi məlumatçıların və təşviqatçıların üzərinə düşür.

Zəhmətkeşlərin ideya-siyasi tərbiyəsində şifahi siyasi təşviqatın təsirinin yüksəldilməsi onun forma və metodlarının müntəzəm surətdə təkmilləşdirilməsi ilə bilavasitə əlaqədardır. Ona görə də, partiya komitələri şifahi təbliğat və təşviqatın təşkilinə, ideya səviyyəsinin yüksəldilməsinə, həyatla, təsərrüfat və mədəni quruculuq sahəsindəki əməli işlərlə əlaqəsinin möhkəmləndirilməsinə xüsusi diqqət yetirir, təbliğat-təşviqat işinin planlı, müntəzəm aparılmasına çalışırlar. Bu bölmədə müasir şəraitdə siyasi-kütləvi işin təkmilləşdirilməsinin formalarından, yollarından ətraflı bəhs edilir (səh.269-281, 397-409).

Burada, həmçinin kommunistlərin marksizm-leninizm təhsili və onun təşkilinin daha da yaxşılaşdırılması məsələləri ətraflı işıqlandırılır. Partiyanın qərarlarını müvəffəqiyyətlə həyata keçirmək, xalq kütlələri arasında onun siyasətini lazımınca təbliğ etmək üçün hər bir kommunist ictimai inkişafın qanunlarını mükəmməl bilməlidir. Elə buna görə də, Sov.İKP XXIV qurultayının qərarlarında nəzəriyyəni kommunizm quruculuğu təcrübəsi ilə sıx əlaqədə, partiyanın qərarlarında və başqa sənədlərində marksizm-leninizmin daha da inkişaf etdirilməsini nəzərə almaqla öyrənməyin zəruriliyinə xüsusi diqqət yetirilir.

Partiya təşkilatları bu göstərişləri təkidlə həyata keçirirlər. Hər bir kommunistin marksizm-leninizm nəzəriyyəsinə yiyələnməsinə, elmi dünyagörüşünün genişlənməsinə nail olmaq onların fəaliyyətinin əsasını təşkil edir.

Materiallardan məlum olur ki, cəmiyyətə zidd hallara qarşı mübarizəyə, habelə hüquqi təbliğat məsələsinə partiya rəhbərliyi xeyli artmış və bu da öz növbəsində məsuliyyətsizlik, bəzən

kommunist əxlaqı normalarından uzaqlaşmaq kimi xoşagəlməz halların aradan qaldırılması üçün şərait yaratmışdır (səh.328-339).

Bu bölmədə hərbi vətənpərvərlik tərbiyəsi işinin daha da yaxşılaşdırılması, zəhmətkeşlərdə kommunist əqidəsinin, sinfi mənlik şüurunun, sovet vətənpərvərliyi və sosialist beynəlmiləlçiliyinin formalaşması, əhalinin, xüsusən gənclərin əxlaqi-psixoloji cəhətdən vətəni müdafiəyə hazırlığı yolları dərindən araşdırılır (səh. 340-354), kütləvi informasiya və təbliğat vasitələrinə partiya rəhbərliyinin müxtəlif formaları və digər məsələlər geniş şərh edilir (səh. 355-372).

V.İ.Lenin yazırdı: "...kütlələrə ateist təbliğatına aid ən müxtəlif material vermək, onları həyatın ən müxtəlif sahələrindən götürülən faktlarla tanış etmək, onlara gah bir üsulla, gah da başqa üsulla yanaşıb maraqlandırmaq, din yuxusundan oyatmaq... lazımdır"... (Əsərləri, 33-cü cild, səh.230). Partiya təşkilatları Leninin göstərişlərini həyata keçirməyə çalışaraq, bu sahədə tərbiyə işinin təsirini artırmaq məqsədi ilə elmi-ateizm təbliğinə xüsusi diqqət yetirir, dinə qarşı mübarizənin elmi əsaslarla aparılmasını inkişaf etdirirlər (səh.379-387, 425-434).

Zəhmətkeşlərin kommunist tərbiyəsində sovet hakimiyyəti illərində yaranmış yeni bayramlar, adət və ənənələr mühüm rol oynayır. Sosialist adət və ənənələrinin formalaşması prosesi ictimai həyatın bütün sahələrində gedir, zəhmətkeşlərin yüksək kommunist idealları ruhunda tərbiyə olunmasına, şəxsiyyətin mənəvi cəhətdən yeniləşməsinə, köhnə cəmiyyətin əxlaq və vərdişlərinin aradan qaldırılmasına kömək edir. Məcmuəyə daxil edilmiş məqalələrin bir çoxunda zəhmətkeşlərin ideya-siyasi tərbiyəsində müxtəlif bayram, adət və ənənələrdən istifadə

etmək sahəsində partiya, sovet təşkilatlarının, ictimai təşkilatların təcrübəsindən danışılır. Axırıncı bölmədə isə bu məsələyə aid ayrıca məqalə verilmişdir (səh.388-396).

L.İ.Brejnev yoldaş demişdir: "İqtisadi inkişafa, xalqın rifahının yüksəldilməsinə dair partiyanın nəzərdə tutduğu planların müvəffəqiyyəti nəticə etibarilə adamlardan asılıdır...

Məhz buna görə də iqtisadi proqramımız sosializm quruluşunun, mübariz, zəhmətkeş, yaradıcı kimi gözəl keyfiyyətləri özündə cəmləşdirən sovet adamının nəhəng qüvvələrini tamamilə hərəkətə gətirməyə qadir olan geniş partiya-təşkilat, siyasi və ideya-tərbiyə işi ilə möhkəmləndirilməlidir". Bu mühüm və təxirəsalınmaz vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsində faktik materiallarla zəngin olan "İdeoloji iş təcrübəsindən" kitabı mühüm rol oynayacaq, burada şərh edilmiş təcrübələr ideya-siyasi işin təkmilləşməsinə, onun yeni, daha təsirli formalarının aşkara çıxarılmasına kömək edəcəkdir.

*"Azərbaycan kommunisti"jurnalı,*
*№2, 1975-ci il.*

## ZƏMANƏMİZİN QÜDRƏTLİ GÜCÜ

Dövrümüzün fərqləndirici xüsusiyyətlərindən biri imperializmin müstəmləkə sisteminin qarşısıalınmaz surətdə süquta uğramasıdır. Bu sistemin xarabalıqlarında yeni-yeni suveren dövlətlər meydana gəlir və onlar özlüyündə çox böyük antiimperialist qüvvədir. İmperializmin müstəmləkə sisteminə daxil olmuş ölkələr siyasi müstəqillikdən məhrum idi, onların təsərrüfatı isə metropoliyaların aqrar-xammal mənbəyinə çevrilmişdi. İmperializm əsarət altına alınmış ölkələrin mədəni inkişafına da çox böyük ziyan vurmuşdur.

Müstəmləkəçilərə qarşı geniş xalq kütlələrinin iştirak etdiyi açıq mübarizə nəticəsində müharibədən sonrakı ilk 12 ildə Asiyanın 15 ölkəsi müstəmləkə əsarətindən azad olmuşdur. Məsələn, Hindistan, İndoneziya, Birma, Seylon (indi Şri-Lanka) və digər ölkələr suveren dövlət inkişafı yoluna qədəm qoymuşdur. 1956-cı ildən 1965-ci ilədək, təxminən 10 ildə 34 Afrika dövləti milli suverenlik əldə etmişdir.

Hazırda Asiya və Afrikanın 70 ölkəsi müstəmləkə əsarətindən azad olmuşdur. Əgər 1919-cu ildə Yer kürəsi ərazisinin 72 faizi və dünya əhalisinin 69,4 faizi müstəmləkə və asılı ölkələrin payına düşürdüsə, indi müstəmləkə kimi qalan ərazilər Yer kürəsinin 4 faizindən də azını təşkil edir. Bu ölkələrin əhalisi isə Yer kürəsi əhalisinin təxminən 1,1 faizi qədər, yaxud təqribən 38,6 milyon nəfərdir.

Beləliklə, milli azadlıq hərəkatının güclü yüksəlişi və çox böyük miqyas alması, onun antiimperialist mübarizənin və ictimai tərəqqinin mühüm amilinə çevrilməsi, bu hərəkatın sosial məzmununda, forma və metodlarında baş vermiş keyfiyyət dəyişiklikləri müharibədən sonrakı tarixi inkişafın və inqilabi tərəqqinin xüsusiyyətlərindən biridir.

Müasir milli azadlıq inqilabları öz imkanlarına görə XVII-XIX əsrlərin milli azadlıq inqilablarından daha genişdir və onlardan çox ciddi şəkildə fərqlənir. Bu fərq onların iqtisadi, sosial-siyasi və ideoloji əsaslarında, hərəkətverici qüvvələri və vəzifələrində, beynəlxalq şəraitdə də nəzərə çarpır.

Səciyyəvi haldır ki, kapitalizmin hökmranlığı dövründə inqilabın sosial sərhədlərinin genişlənməsi onu burjua və ya burjua-demokratik inqilabına çevirirdi. Əsarətdə olan ölkələrin özlərində, beynəlxalq şəraitdə mühüm dəyişikliklərin baş verdiyi müasir dövrdə milli azadlıq inqilabları öz sosial məzmununa və istiqamətinə görə burjua və burjua-demokratik inqilabları çərçivəsindən, faktik olaraq, çıxmışdır. Milli azadlıq inqilablarının yeni tipi meydana gəlmişdir. İndi söhbət heç də təkcə siyasi müstəqillik qazanılmasından getmir. Bunun ardınca yeni mərhələ – antiimperialist milli azadlıq inqilabının forması olan iqtisadi müstəqillik uğrunda mübarizə mərhələsi başlayır. Özünün sələflərindən fərqli olaraq, müasir milli azadlıq inqilabları yeni tipli demokratik inqilablardır və onlar başqa tarixi vəzifəni həll etməyə qadirdir.

Müasir milli azadlıq inqilablarının sosial meyilləri onların çox mühüm xarakterik xüsusiyyətidir. Əgər kapitalizmin hökmranlığı dövründə milli azadlıq inqilablarının sosial

sərhədlərinin genişlənməsi onları burjua-demokratik inqilabına gətirib çıxarırdısa, iki dünya sisteminin – kapitalizm və sosializm sistemlərinin mübarizəsi şəraitində milli azadlıq inqilablarının burjua inqilabları çərçivəsindən kənara çıxması üçün real imkan var. Bu inqilabların yeni xarakteri həm də bundadır ki, onlar nəinki kapitalizmə doğru apara bilər, həm də sosializmə doğru yol açmağa qadirdir. Bu, müasir milli azadlıq inqilablarının çox əhəmiyyətli amilidir. Keçmiş dövrdə onlar burjua və burjua-demokratik dəyişikliklərinin bir mərhələsi kimi çıxış edirdi, indi isə sosializmin ümumdünya miqyasında qələbəsinə doğru aparan dünya inqilabi prosesinin bir hissəsidir.

Müasir dövrün kollektiv yaradıcılıq təhlili marksist-leninçilərə belə bir nəticə çıxarmağa imkan vermişdir ki, müasir milli azadlıq inqilablarının məqsəd və vəzifələri nəinki keçmiş dövrün milli azadlıq inqilabları ilə, həm də dövlət müstəqilliyi uğrunda mübarizə dövrü ilə müqayisədə əhəmiyyətli dərəcədə dəyişmişdir. Sov.İKP-nin XXIV qurultayı milli azadlıq hərəkatının müasir dövrünü müəyyən edərək, bunun çox dəqiq izahını vermişdir: "Başlıcası odur ki, bir çox ölkələrdə milli azadlıq uğrunda mübarizə genişlənərək, əslində, həm feodal, həm də kapitalist istismar münasibətlərinə qarşı mübarizəyə çevrilmişdir".

Hazırda hər cür milli azadlıq inqilabının burjua-demokratik inqilabının formalarından biri kimi müəyyən edilməsi bir çox keçmiş müstəmləkələrdə və yarımmüstəmləkələrdə gedən inqilabi proseslərin xarakteri barədə suala cavab vermir. İnqilabın xarakterini müəyyənləşdirərkən bu inqilabın həyata keçirildiyi konkret tarixi şəraiti, sosial-siyasi və iqtisadi

dəyişiklikləri hansı sinfin və hansı siyasi hakimiyyətin etdiyini nəzərə almaq lazımdır. Müasir milli azadlıq inqilablarının tarixi xüsusiyyəti ondan ibarətdir ki, onun bu və ya digər istiqamətdə inkişafı ilə bağlı məsələ şüurlu surətdə həll edilir.

Sosial meyillərin gedişindən və bunların arxasında duran ictimai-siyasi qüvvələrin toqquşmasının nəticələrindən asılı olaraq, müasir milli azadlıq inqilabı ya milli-demokratik inqilab kimi, ya da burjua və burjua-demokratik inqilab kimi inkişaf edə bilər. Azadlıq inqilablarının milli-demokratik inqilablar kimi inkişaf edə bilməsi onların başlıca xüsusiyyətidir və bu, onları yeni tipli demokratik inqilab kimi qiymətləndirməyə imkan verir.

“Milli-demokratik inqilab” anlayışı beynəlxalq kommunist hərəkatının sənədlərində də öz əksini tapmış, imperializmin əsarətindən azad olmaq uğrunda öz xalqlarının mübarizəsinə başçılıq edən kommunist partiyalarının siyasi platformasına möhkəm daxil olmuşdur. Kommunist partiyalarının siyasi proqram hazırlamaq üçün bu anlayışdan istifadə etməsi müasir milli azadlıq inqilablarının yeni xüsusiyyətlərini ümumiləşdirməyin nəticəsidir.

Müasir milli azadlıq hərəkatında baş verən milli-demokratik (xüsusən də, xalq-demokratik) meyil onun dünya inqilabi prosesinin digər qüvvələrinə yaxınlaşmasının zəruri şərtidir.

Müasir milli azadlıq inqilablarının antikapitalist xarakter daşımasına baxmayaraq, onların heç də hamısı milli-demokratik inqilablar kimi inkişaf etmir. Müasir milli azadlıq inqilablarında milli-demokratik (o cümlədən də xalq-demokratik) yönüm yalnız müəyyən meyil kimi mövcuddur. O, digər, əks meyillə –

arxasında bu inqilabları burjua və ya burjua-demokratik inqilabları məcrasına yönəltməyə çalışan siyasi qüvvələrin durduğu meyillə şiddətli mübarizədə özünə yol açır, yaxud da məğlubiyyətə uğrayır. Deməli, milli azadlıq inqilabının inkişafının qəti istiqaməti və onun xarakteri ancaq mübarizədə müəyyən edilir.

Milli-demokratik inqilaba başçılıq edən siyasi qüvvələr fəhlə sinfi adından və proletar partiyasının rəhbərliyi ilə çıxış edərsə, onda bu inqilab xalq-demokratik inqilabı kimi geniş vüsət ala bilər. Bu halda onun genişlənərək, sosialist inqilabına çevrilməsi təmin edilmiş olur. Lakin inqilabi demokratiyanın hegemonluğu şəraitində milli-demokratik inqilabın sosialist inqilabına çevriləcəyinə təminat vermək olmaz. Məsələn, Çində, Şimali Koreyada, Şimali Vyetnamda inqilab xalq-demokratik xarakteri daşıyır və ona kommunist partiyası rəhbərlik edirdi. Qanada, Qvineyada, Malidə, Tanzaniyada, inqilabın ikinci mərhələsində isə Misirdə, Suriyada, Birmada, Somalidə və digər ölkələrdə azadlıq mübarizəsi milli demokratiyanın hegemonluğu şəraitində milli-demokratik mübarizə kimi inkişaf etmişdir. Əksinə, Hindistanda, Tunisdə, Mərakeşdə, Livanda, Keniyada və bəzi digər ölkələrdə milli azadlıq hərəkatı ümumən burjua və ya burjua-demokratik inqilabi xarakter daşımış, bunlarda burjuaziya, yaxud kapitalist meyilli birləşmiş koalisiya qüvvələri rəhbər rol oynamışdır.

Milli-demokratik, yaxud da xalq-demokratik inqilabları kimi inkişaf edən milli azadlıq inqilabları təkcə imperializmə deyil, həm də bütün dünya kapitalist formasiyasının mövqelərinə zərbə vurur. Nəticə etibarilə onlar dünya kapitalizminin ərazi çərçi-

vələrinin məhdudlaşdırılmasına, ayrı-ayrı ölkələri kapitalizm sistemindən qoparmaq üçün həlledici zəmin yaradılmasına doğru aparırlar.

Digər milli azadlıq inqilabları isə imperializmin mövqelərinə təsirli zərbə vursa da, kapitalizm sisteminin coğrafi sərhədlərinin genişlənməsinə doğru aparır və perspektivdə dünya kapitalizminin ehtiyat qüvvəsi ola bilərlər.

Müasir milli azadlıq inqilablarının əsas tarixi vəzifələrinin sosial-iqtisadi və siyasi mahiyyəti barədə məsələ bu inqilabların xarakterik xüsusiyyətləri sırasında mühüm yer tutur. Hazırkı şəraitdə millətlərin formalaşması, ömrünü başa vurmuş feodal münasibətlərinin və feodalizmə qədərki münasibətlərin qırılması, milli əsarətin və müstəmləkə əsarətinin ləğv edilməsi (üstəlik, iqtisadi müstəqillik qazanılması və bununla əlaqədar sosial-iqtisadi tərəqqi vəzifələri) keçmişdə olduğu kimi burjua vəzifələri deyil, məhz demokratik vəzifələrdir. Keçmişdə onların burjua və burjua-demokratik xarakteri onunla müəyyən edilirdi ki, həmin dəyişikliklər burjuaziyanın rəhbər rolu şəraitində həyata keçirilirdi, bu isə azadlığa çıxan ölkələrin kapitalizm yolu ilə inkişafı üçün lazımi zəmin yaradırdı.

Deməli, məsələnin mahiyyəti ondadır ki, konkret tarixi şəraitdən asılı olaraq, eyni bir demokratik vəzifə müxtəlif xarakter alır. Müasir milli azadlıq hərəkatının dünya sosialist sistemi, beynəlxalq fəhlə və kommunist hərəkatı ilə sıx əlaqəsi, onların mənəvi-siyasi və iqtisadi dəstəyi bu inqilabların həyata keçirməyə çalışdıqları vəzifə və məqsədə xeyli təsir göstərir.

Müasir azadlıq hərəkatının xüsusiyyətləri göstərir ki, milli-demokratik inqilablar burjua-demokratik inqilabları ilə müqayi-

sədə özlüyündə irəliyə doğru böyük bir addımdır. Milli azadlıq inqilabının milli-demokratik xarakter aldığı ölkələrdə hökumət elə sosial-iqtisadi məzmunlu dəyişikliklər həyata keçirir ki, onlar, əvvəla, digər şəraitdə eyni zamanda demokratik vəzifələri də yerinə yetirmiş sosialist inqilabının birinci mərhələsi üçün səciyyəvidir, ikincisi isə, inkişafın kapitalist yolu vasitəsilə sosializm qurulmasına yönəlmişdir.

İnkişafın qeyri-kapitalist yolu yalnız dünya sosializm sisteminin mövcudluğu və imperializmin müstəmləkə sisteminin süqutu şəraitində mümkün olmuşdur. Bu yol kapitalizmin inkişafını istisna edən sosial dəyişikliklər aparılmasını təmin edir. Qeyri-kapitalist yolu tarixi inkişafın müəyyən mərhələsidir, o, müstəmləkə keçmişindən miras qalmış geriliyin ləğv olunması və sosialist inkişafına keçid üçün şərait yaradılması imkanını təmin edir.

İnkişafın qeyri-kapitalist yolu həm xarici, həm də komprador və milli burjuaziyanın iri kapitalist mülkiyyətini ləğv etməyi nəzərdə tutur. Başqa sözlə, o, sosializmin bilavasitə qurulması üçün lazımi iqtisadi şərait olmadıqda, sosializmə doğru addımlar hazırlayır. Kapitalizmin inkişafı gedişində sosialist inqilabının subyektiv amili də yetişir, getdikcə möhkəmlənən proletariatın inqilabi antikapitalist cəbhədə rolu bərqərar olur.

Milli-demokratik və xalq-demokratik inqilabları inandırıcı şəkildə sübut edir ki, Yer kürəsinin əksər əhalisinin ilk vaxtlar milli azadlığa yönəlmiş hərəkatı dünya inqilabının həlledici döyüşlərində kapitalizmə və imperializmə qarşı istiqamətlənəcəkdir.

Elmi və ictimai-siyasi ədəbiyyatda müasir milli azadlıq inqilablarını keçmişin burjua-demokratik inqilabları ilə eyniləşdirməyə cəhdlər göstərilir. Bu cəhdlər onun nəticəsidir ki, keçmiş dövrün hadisələri absolyut səviyyəsinə qaldırılır, digər tarixi müstəviyə keçirilir, yəni onlara ümumi əhəmiyyət verilir. Belə eyniləşdirmə iki dünya sisteminin mövcudluğu və mübarizəsi dövrü üçün səciyyəvi olan köklü irəliləyişləri lazımınca nəzərə almır. Bununla yanaşı, o, əsarət altındakı ölkələrdə onların inkişaf səviyyəsi və müstəmləkə vəziyyəti ilə bağlı olan şəraitin özünəməxsusluğunu da lazımınca qiymətləndirmir.

Bu cür baxışlar, əslində, belə bir aşkar faktı inkar edir ki, müstəmləkələrin və yarımmüstəmləkələrin xeyli hissəsində milli azadlıq prosesi öz inkişafının müəyyən mərhələsində burjua və burjua-demokratik inqilabı çərçivəsindən kənara çıxmış və antikapitalist yönüm almışdır. Milli azadlıq və sosialist inqilablarının vəzifələrinin çulğaşması baş verir. Bu inqilabın məntiqi belədir ki, o, əvvəlcə milli azadlığa doğru yönəlir, nəticə etibarilə isə müstəmləkə əsarəti doğuran sosial sistem kimi kapitalizmə qarşı çevrilir.

Milli azadlıq inqilablarının haqqında yuxarıda söhbət açılmış ümumi xüsusiyyətləri bu tipli bütün inqilablar üçün çox böyük əhəmiyyətə malikdir, çünki tarixi fon və əsarət altına alınmış xalqların imperializmə qarşı, öz ölkələrinin gələcək taleyinin müəyyən edilməsi uğrunda həmin çərçivə daxilində mübarizəsinin getdiyi sosial-siyasi çərçivə yaradır. Bu xüsusiyyətlərin öyrənilməsi milli azadlıq inqilablarının inkişaf meyillərini və perspektivlərini, onların dünya inqilabi prosesində tarixi yerini düzgün başa düşməyə kömək edir.

Tarixi şərtlərlə bağlı olan müasir milli azadlıq inqilablarının imkanlarının genişlənməsi, zəhmətkeşlərin daha geniş təbəqələrinin bu inqilablarda iştirakı konkret şəraitin, mübarizə yolları və üsullarının, azadlığa çıxmış ölkələrin mütərəqqi inkişaf formalarının müxtəlifliyini artırmağa təkan verir.

*"Agitator" jurnalı,*
*№18, 1975-ci il.*

## ZƏHMƏTKEŞLƏRİN KOMMUNİST TƏRBİYƏSİNDƏ SOSİALİST ƏNƏNƏLƏRİNİN ROLU

Sosialist ənənələri cəmiyyətimizin həyatının bütün sahələrində mühüm rol oynayır. Bu mütərəqqi, yeni ənənələr sosialist ictimai münasibətləri ilə bağlıdır, onların məzmununda yeni ictimai quruluş uğrunda mübarizədə, sosializm və kommunizm quruculuğunda toplanmış böyük ictimai təcrübə cəmlənmişdir. Hər bir başqa cəmiyyətdə olduğu kimi, sosializm cəmiyyətində də ənənələrin müəyyən sistemi zəruridir, çünki bu, nəsildən-nəslə keçərək toplanmış ictimai təcrübəni yaşadır.

İctimai münasibətlərin, insanların davranışının tənzimedicilәri sistemində sosialist ənənələrinin özünəməxsus yeri vardır. Onlar gənc nəslin kommunist tərbiyəsinin və sosializmə keçmişdən miras qalmış mühafizəkar vərdiş, adət və ənənələrin aradan qaldırılmasının mühüm vasitəsidir. Buna görə də partiyamız yeni cəmiyyət qurmaq uğrunda mübarizənin bütün mərhələlərində olduğu kimi, inkişaf etmiş sosializm şəraitində də sosialist ənənələrinin formalaşmasına, onların təbliğinə, həyata tətbiqinə böyük əhəmiyyət verir. Bu, təbiidir, çünki həmin istiqamətdə fəaliyyət partiyamızın çoxsahəli ideyaca tərbiyə işinin ayrılmaz tərkib hissələrindən biridir.

Sov.İKP XXV qurultayındakı məruzəsində L.İ.Brejnev yoldaş qeyd etmişdir ki, bizim quruluşumuzun gücü kütlələrin şüurluluğundadır. Buna görə də partiya kommunist şüurluluğu, kommunizm qurmaq əzmi, iradəsi və bacarığı tərbiyə etməyə daim

qayğı göstərir. Hesabat dövründə adamların ideyaca tərbiyə edilməsi məsələləri, kommunizmin ləyaqətli qurucusu olan yeni insanın yetişdirilməsi problemləri bütün işimizdə böyük yer tutmuşdur. Məruzədə partiyanın kütlələr içərisində apardığı ideya-tərbiyə işləri hərtərəfli işıqlandırılmışdır. Partiyanın bütün inqilabi-dəyişdirici fəaliyyətində, o cümlədən kommunist tərbiyəsi işində marksizm-leninizm nəzəriyyəsinin möhkəm təməl olması bir daha göstərilmişdir. Sovet İttifaqı Kommunist Partiyası elmi kommunizm partiyasıdır. Yetkin sosializm cəmiyyətinin rəhbər və istiqamətverici qüvvəsi rolunu yerinə yetirməkdə partiyamız dönmədən marksizm-leninizm nəzəriyyəsinin möhkəm təməlinə əsaslanır, yeni vəzifələrə müvafiq olaraq, bu nəzəriyyəni inkişaf etdirir və həyata tətbiq edir.

Partiyamız öyrədir ki, müasir şəraitdə başlıca vəzifə ideoloji işin ideya səviyyəsini və səmərəsini durmadan yüksəltməkdən, onun həyatla, kommunizm quruculuğu təcrübəsi ilə əlaqəsini möhkəmlətməkdən ibarətdir. Bunun yolu isə, L.İ.Brejnev yoldaşın göstərdiyi kimi, bütün tərbiyə işinin qoyuluşuna kompleks qaydada yanaşmaqdan, yəni zəhmətkeşlərin müxtəlif qruplarının xüsusiyyətlərini nəzərə almaqla ideya-siyasi tərbiyənin, əmək və əxlaq tərbiyəsinin sıx birliyini təmin etməkdən ibarətdir.

Son illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ideyaca tərbiyə işlərini daha da gücləndirmək, bu işin təsirliliyini artırmaq üçün həyata keçirdiyi tədbirlər gözəl səmərə vermişdir. Azərbaycan Kommunist Partiyasının XXIX qurultayındakı məruzəsində H.Əliyev yoldaş qeyd etmişdir ki, partiyanın göstərişlərini rəhbər tutan Azərbaycan KP Mərkəzi Komitəsi ideoloji işin yaxşılaşdırılmasına, bu işin təşkilində illərdən bəri yığılıb qalan ciddi nöqsanların və səhvlərin aradan

qaldırılmasına xüsusi diqqət vermişdir. İdeoloji işin səmərəliliyi səviyyəsinin yüksəldilməsi respublikanın iqtisadiyyatını inkişaf etdirməkdə güclü bir sürətləndirici amil olmuşdur. Bu işin nəticələri Azərbaycan kommunistlərinin, bütün əməkçilərinin yüksək şüurluluğunda, ictimai-siyasi və əmək fəallığında özünü parlaq surətdə göstərir. Partiya təşkilatlarının məqsədyönlü fəaliyyəti respublikada yüksək bir əhvali-ruhiyyə yaratmış və partiyanın siyasətini həyata keçirməyə zəhmətkeşlərdə dərin maraq doğurmuşdur. Bu isə doqquzuncu beşillik ərzində Azərbaycan iqtisadiyyatının dinamik inkişafına xeyli kömək etmişdir.

Son illərdə respublika partiya təşkilatı yeni sosialist ənənələrinin formalaşmasına, inkişafına və geniş yayılmasına diqqəti artırmışdır. Həmin işi gücləndirmək məqsədi ilə Azərbaycan KP Mərkəzi Komitəsi yanında yeni – sosialist adət və ənənələrinin təbliği və tətbiqi üzrə şura yaradılmışdır. Vilayət, şəhər və rayon partiya komitələri, iri müəssisə və idarələrin ilk partiya təşkilatları yanında da müvafiq şuralar fəaliyyət göstərir. Azərbaycan SSR Nazirlər Soveti yanında isə mülki mərasimlər üzrə komissiya təşkil olunmuşdur. Belə komissiyalar Naxçıvan MSSR Nazirlər Soveti, Dağlıq Qarabağ Muxtar Vilayəti İcraiyyə Komitəsi, şəhər və rayon icraiyyə komitələri yanında da yaradılmışdır. İctimai əsaslarla işləyən həmin şura və komissiyalar partiya təşkilatlarının və sovet orqanlarının yeni adət və ənənələrini geniş yaymaq sahəsində apardığı işdə ən yaxın köməkçilər olmalıdırlar.

Sosialist gerçəkliyi, sovet həyat tərzi, ölkəmizdə yaşayan yüzdən artıq millət və xalqın məqsəd və dünyagörüşü ümumiliyi, həyat birliyi ümumsovet adətləri və ənənələri irəli sürür. İnkişaf etmiş sosializm cəmiyyətində hər bir millət və xalq eyni tipli sinfi

struktura malikdir. Cəmiyyətimizi təşkil edən fəhlə sinfinin, kolxozçu kəndlilərin və ziyalıların simasında əsaslı dəyişikliklər baş vermişdir. Fəhlə sinfinin inqilabi və əmək ənənələri, inqilabi mətinliyi bütün sovet adamları üçün nümunəyə çevrilmişdir. İnkişaf etmiş sosializm üçün səciyyəvi olan ictimai həyatın bütün sahələrinin intensiv beynəlmiləlləşməsi prosesi, millətlərin bir-birinə yaxınlaşmasının iqtisadi zəmininin möhkəmlənməsi bilavasitə fəhlə sinfinin fəal iştirakı və rəhbərliyi altında baş verir.

Ən fəal siyasi qüvvə olan fəhlə sinfi kolxozçu kəndlilərə və ictimai qruplara böyük təsir göstərir. Fəhlə sinfi və kolxozçu kəndlilərin əmək şəraitində və məişətindəki bəzi fərqlərə baxmayaraq, onların köklü mənafeləri birdir. Fəhlə sinfi çoxmillətli sovet xalqını öz arxasınca kommunizmə doğru aparır. Bu böyük tarixi quruculuqda sosialist millətlərin və xalqların arasında yaxınlaşma prosesi güclənir, onların ən yaxşı xüsusiyyətləri və ənənələri inkişaf edir, beynəlmiləl cəhətlərlə zənginləşir.

L.İ.Brejnev yoldaş "Sovet Sosialist Respublikaları İttifaqının əlli illiyi haqqında" məruzəsində göstərir ki, "bütün sovet xalqının, onu təşkil edən bütün millətlərin və milli qrupların tarixi müqəddəratlarının ümumiliyi, yarım əsrlik birgə mübarizənin və birgə əməyin yaratdığı ümumi ənənələr, baxışlar, həyat təcrübəsi qüdrətli birləşdirici zəmin olmuşdur".

Əməkdə və döyüşdə insanların yeni tarixi birliyi olan sovet xalqının ümumi ənənələri yaranmışdır. Kommunizm quruculuğu prosesində bu mütərəqqi keyfiyyətlər, adət və ənənələr inkişaf edib dərinləşir və ümumsovet xarakterinin möhkəmlənməsinə təsir göstərir.

Sosialist həyat tərzinin mühüm xüsusiyyətlərindən biri beynəlmiləlçilikdir. Əgər əvvəllər beynəlmiləlçilik əsas etibarilə

fəhlə sinfinin və onun partiyasının ideologiyası idisə, indi, yetkin sosializm şəraitində o, L.İ.Brejnev yoldaşın dediyi kimi, "bütün millətlərdən və xalqlardan olan milyon-milyon sovet adamının dərin əqidəsinə və davranış normasına çevrilmişdir" (Zəhmətkeşlərin kommunist tərbiyəsi haqqında. Bakı, 1975, səh. 517). Müasir şəraitdə bizim ölkəmizdə beynəlmiləlçilik fəhlə sinfinin, onun partiyasının ideologiyası olmaqla, sovet adamlarının, geniş kütlələrin şüuruna, psixologiyasına çevrilmişdir, o, cəmiyyət həyatının bütün sahələrini əhatə edir.

Milli respublikalardan hər birinin iqtisadi və ictimai inkişafı intensivləşdikcə, milli mədəniyyətlərin çiçəklənməsi, xalqların mədəniyyətlərinin qarşılıqlı təsiri və bir-birini zənginləşdirməsi prosesi gücləndikcə, həyatımızın beynəlmiləlləşməsi prosesi daha qabarıq şəkildə təzahür edir. Obyektiv xarakter daşıyan bu beynəlmiləlləşmə prosesində sosialist adət və ənənələri böyük rol oynayır.

Sosialist ənənələrinin yaranıb inkişaf etməsinin əsası ictimai praktikadır, sosialist ictimai münasibətlərinin təkrarlanmasıdır. Bu prosesdə sosialist ictimai münasibətlərinin təzahür forması kimi ənənələr də təbii-tarixi qaydada meydana gəlir. Bununla belə, şüurlu surətdə idarə olunan bizim cəmiyyətdə yeni ənənələrin təşəkkülü və inkişafı kortəbii şəkildə baş vermir. Ənənələr subyektiv amilin fəal təsirinə məruz qalır. Partiyanın və ictimai təşkilatların ideyaca tərbiyə işində yaranmış sosialist ənənələrinin inkişaf etdirilməsi və geniş yayılması, yenilərinin təşəkkülü, irəliləyişimizə mane olan köhnə ənənələrə qarşı mübarizə mühüm yer tutur. Son illərdə respublikamızda bu istiqamətdə aparılan iş xeyli canlanmışdır.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1971-ci ilin oktyabrında keçirilmiş plenumunda irəli sürülmüş

“Adamların əməyinin, həyat və məişətinin ən yaxşı cəhətlərini əhatə edən təntənəli, ideyalı və emosional cəhətdən zəngin adətləri ən yaxşı ənənələr əsasında yaymaq” vəzifəsini yerinə yetirmək üçün respublikamızda konkret tədbirlər həyata keçirilir, siyasi-kütləvi təsir vasitələrindən səmərəli istifadə olunur. Sosialist adət və ənənələrinin təbliği işində mühazirələr, söhbətlər, seminarlar, elmi-təcrübi konfranslar, tematik gecələr, qardaş müttəfiq respublikaların ədəbiyyat və incəsənət günlərinin keçirilməsinə diqqət artırılmışdır. “Yeni sosialist adətləri, mərasim və bayramları zəhmətkeşlərin kommunist tərbiyəsinin mühüm vasitəsidir” mövzusunda keçirilmiş respublika elmi-təcrübi konfransı əhalinin kommunist tərbiyəsinin gücləndirilməsinə, yeni adət və ənənələrin fəal təbliğinə yönəldilmiş konkret tövsiyələr işləyib hazırlamışdır.

Kütləvi məlumat və təbliğat vasitələri, mədəni-maarif müəssisələrinin əksəriyyəti, inqilabi və əmək şöhrəti otaqları və muzeyləri bu sahədə öz işlərini canlandırmışdır.

Yeni ənənələrin formalaşmasında, yayılmasında təbliğatın rolu böyükdür. Hər şeydən əvvəl, aparılan təbliğat sosialist ənənələrinin ideya məzmununun formalaşmasına təsir göstərir və beləliklə, bu ənənələr adamlarımızın kommunist dünyagörüşünə və əxlaqına yiyələnməsinə, sovet vətənpərvərliyi və sosialist beynəlmiləlçiliyi ruhunda tərbiyə olunmasına xidmət edir. Təbliğatın ənənələrə təsirini gücləndirmək üçün əməli fəaliyyətdə, gündəlik ideyaca tərbiyə işində əmək kollektivlərində müsbət ictimai rəyin, sağlam mənəvi-psixoloji mühitin, adamlarda kollektivçilik vərdişlərinin formalaşmasına və daha da möhkəmlənməsinə diqqəti artırmaq lazımdır. Qabaqcıl, yenini təqdir və müdafiə edən ictimai rəy, yaradıcı mühit və digər

mənəvi amillər yeni sosialist ənənələrinin, ümumsovet sifətlərinin geniş yayılması və tətbiqi üçün əlverişli zəmin yaradır.

Sosialist ənənələrinin ideya-təsir vasitələri ilə təbliği, milli adət və ənənələrə marksizm-leninizm mövqelərindən, sinfi mövqedən yanaşmağın prinsiplərini izah etmək yeni adətlərin geniş yayılmasına, həyatda tətbiq olunmasına kömək göstərir.

Əməkdə və döyüşdə yaranmış ümumsovet ənənələri Azərbaycan zəhmətkeşlərinin həyatında, məişətində dərin kök salmışdır. Bu ənənələr arasında inqilabi bayramların, görkəmli tarixi hadisələrin qeyd olunması mühüm yer tutur və zəhmətkeşlərin kommunist tərbiyəsində əhəmiyyətli rol oynayır. Böyük Oktyabr sosialist inqilabının ildönümünün, V.İ.Leninin anadan olması gününün, zəhmətkeşlərin beynəlxalq həmrəyliyi günü olan 1 Mayın, 8 Mart beynəlxalq qadınlar gününün, Sovet Ordusu gününün, Qələbə gününün, Sovet Konstitusiyası gününün bayram edilməsi gözəl ənənəyə çevrilmişdir.

Zəhmətkeşlər və yetişməkdə olan nəsil marksizm-leninizm təlimini, Sov.İKP tarixini öyrənmək əsasında sovet xalqının və Lenin partiyasının qəhrəmanlıq ənənələri ilə iftixar etmək ruhunda tərbiyələnirlər. Böyük müəllimimiz V.İ.Leninin, görkəmli partiya və dövlət xadimlərinin abidələri yanına gül dəmətləri, tər çiçəklər qoyulması, həmin abidələr yanında təntənəli mərasimlər keçirilməsi, sovet hakimiyyəti uğrunda mübarizənin fəal iştirakçıları ilə, qocaman kommunistlərlə, inqilabi hərəkatın, sosializm quruculuğunun veteranları ilə görüşlər təşkil olunması respublikamızda geniş yayılmışdır.

Zəhmətkeşlərin hərbi vətənpərvərlik tərbiyəsində sovet xalqının döyüş ənənələri, vətəndaş və Böyük Vətən müharibəsi illərində adamlarımızın göstərdiyi şücaət böyük təsir gücünə

malikdir. Döyüş ənənələrini qayğı ilə qoruyub saxlamaq və geniş təbliğ etmək əsasında hər bir zəhmətkeşdə böyük Sovetlər Ölkəsinə, onun tarixinin qəhrəmanlıq səhifələrinə dərin hörmət hissi tərbiyə olunur. Vətən uğrunda öz canını qurban vermiş qəhrəmanlara ölkəmizin hər yerində olduğu kimi, Azərbaycanda da monumental abidələr ucaldılır. Şəhərlərdə və kəndlərdə döyüş şöhrəti muzeyləri və otaqları yaradılır. Gənclər Sovet Ordusu sıralarına göndəriləndə həmin abidələr yanında mitinqlər keçirilir, onlar burada Vətənə sədaqət andı içirlər. Respublikamızda hər il "Üfüqdə parıltı" və "Qartal balası" uşaq hərbi-idman oyunları keçirilir.

Böyük Vətən müharibəsində Sovet Ordusu və hərbi dəniz donanması döyüşçülərinin düşmənə qarşı uzun, ağır mübarizədə göstərdiyi misilsiz cəsurluq və mərdlik, fəhlə sinfinin, kolxozçu kəndlilərin, sovet ziyalılarının tarixi hünəri, cəmiyyətimizin rəhbər və istiqamətverici qüvvəsi olan leninçi Kommunist partiyasının böyük ilhamverici və təşkilatçılıq fəaliyyəti sovet adamlarını, birinci növbədə, gənc nəsli kommunist partiyasının və sovet xalqının inqilabi, döyüş və əmək qəhrəmanlığı ənənələru ruhunda, sosialist vətənpərvərliyi və beynəlmiləlçiliyi ruhunda, yüksək sayıqlıq, Vətənin, sosializmin nailiyyətlərinin müdafiəsinə daim hazır olmaq ruhunda tərbiyə etməyin qüdrətli və əvəzsiz vasitəsidir. SSRİ-nin təşkil edilməsinin əlli illiyinin və Böyük Vətən müharibəsindəki qələbənin otuz illiyinin bayram edilməsi bu nöqteyi-nəzərdən çox böyük rol oynamışdır.

Əmək ənənələri zəhmətkeşlərin və gənc nəslin kommunist tərbiyəsində mühüm vasitədir. Sosializm quruculuğu şəraitində meydana gəlmiş ən yaxşı ənənələr xalqın qaynar yaradıcılığında yaşayır və inkişaf edir, bir nəsildən o birisinə keçir. Bunun ən parlaq nümunəsi sosializm yarışıdır. Sosializm yarışı yeni

cəmiyyətin istehsal münasibətlərinin təzahür forması kimi meydana çıxmış, müasir şəraitdə artıq qərarlaşmış və inkişaf etməkdə olan sosialist ənənəsidir. Sovet adamlarında yüksək kommunist mənəviyyatı tərbiyə edən əmək ənənələri birinci növbədə sosializm yarışı iştirakçıları tərəfindən davam etdirilir və zənginləşdirilir.

Əməyə və sosialist mülkiyyətinə kommunist münasibəti tərbiyə edən adət və mərasimlər respublikamızda geniş yayılmışdır. Zəhmətkeşlər, əmək kollektivləri, rayonlar, şəhərlər, vilayətlər və respublikalar arasında sosializm yarışı, kommunist iməcilikləri, müqabil planlar qəbul etmək uğrunda hərəkat, zərbəçi əmək növbələri, ictimai-siyasi bayramları və hadisələri yeni əmək qələbələri ilə qarşılamaq artıq həyatımızda kök salmış ənənələrdir. Yeni ənənələr ölkəmizin zəhmətkeşlərinin siyasi və əmək fəallığını artırır, onların yüksək şüurluluğu, alovlu vətənpərvərliyi və kommunizm ideyalarına sədaqəti özünü xalq təsərrüfatı planlarını vaxtından əvvəl yerinə yetirmək, onuncu beşilliyi keyfiyyət və səmərəlilik beşilliyinə çevirmək uğrunda əmək cəbhəsində parlaq bir şəkildə göstərir.

Kommunizm naminə fədakar əmək ölkəmizdə ümumxalq hörməti ilə əhatə olunmuşdur. Son illərdə əməyi şöhrətləndirmək məqsədi ilə respublikamızda bir sıra bayram və mərasimlər keçirilir. Bunların arasında kommunist əməyi briqadalarının bayramı, məhsul bayramı, mahnı bayramı, fəhlə sülalələrinin, əmək veteranlarının şərəfinə bayraqlar qaldırılması, gecələr keçirilməsi, qocaman işçilərə, gənclərin tərbiyəçilərinə “Əmək veteranı” medalının verilməsi mühüm yer tutur.

Partiya təşkilatları gənc fəhlələrin tərbiyəçiləri hərəkatının inkişafına diqqəti artırmışlar.

Fəhlə sülalələrini şöhrətləndirmək Sumqayıtda xüsusilə geniş yayılmışdır. Burada, sintetik kauçuk zavodunda 226 fəhlə sülaləsi çalışır. Süleymanovlar ailəsinin təşəbbüsü ilə həmin sülalələrdən 30-u öz aralarında sosializm yarışı haqqında müqavilə bağlamışdır. Məsələn, Səfərovlar Nəsirovlarla, Məmmədovlar Rəsulovlarla yarışırlar. Partiya təşkilatı fəhlə sülalələri arasındakı yarışı bütün əmək kollektivlərində yaymağa çalışır. Şəhər partiya komitəsi hər il yanvar ayının ikinci şənbə gününü fəhlə sülalələri günü kimi qeyd etməyi qərara almışdır.

Kirovabadda "Mahnı bayramı" gözəl, fərəhli bir ənənəyə çevrilmişdir. Şəhərin mədəni həyatına möhkəm daxil olan bu bayram əmək adamlarını, xalqlar dostluğunu şöhrətləndirir, zəhmətkeşlərin yüksək mənəvi tələbatını, onların mədəni səviyyəsini əks etdirir.

Təqdirəlayiqdir ki, son illər ərzində respublikamızda kənd təsərrüfatı məhsulları istehsalı və dövlətə satışında qazanılmış görkəmli nailiyyətlərlə əlaqədar olaraq rayonların çoxunda "Məhsul bayramı" keçirilməsi ənənəyə çevrilmişdir. Bu bayram və mərasimlərdə zəhmətkeşlərin əməyə, sosialist mülkiyyətinə, kollektivə və cəmiyyətə şüurlu münasibəti öz əksini tapır, istehsalat qabaqcılları şöhrətləndirilir, müsbət təcrübə ümumiləşdirilib yayılır.

İnqilabi, döyüş və əmək ənənələri ilə yanaşı, sovet adamlarının həyatında yeni mülki adət və ənənələr bərqərar olmuş, sosialist həyat tərzinin tərkib hissəsinə çevrilmişdir. Kommunist ideyaları əsasında formalaşan həmin adət və ənənələr xalq adət və ənənələrinin ən yaxşı cəhətlərini özündə əks etdirir. Respublikamızda ailə-məişət adət və ənənələrinin təkmilləşdirilməsi, yeni sosialist məzmunu ilə, beynəlmiləl xüsusiyyətlərlə zənginləş-

dirilməsi və məişətə tətbiq olunması sahəsində bir sıra işlər görülmüşdür. Toy adətləri yeni mərasimlərlə zənginləşmiş, nikah mərasimi yaddaqalan təntənəli və parlaq bir mərasimə çevrilmişdir. Şəhərlərdə, bir çox rayonlarda nikah mərasimi səadət saraylarında, mədəniyyət evlərində və yaxud bu məqsəd üçün ayrılmış xüsusi otaqlarda təntənəli şəkildə keçirilir. Uşağın anadanolma gününü qeyd etmək, orta və ali məktəbi bitirmək, pasport almaq, əmək fəaliyyətinə qədəm qoymaq kimi insan həyatındakı mühüm hadisələrlə əlaqədar yeni mərasimlər respublikamızda geniş tətbiq olunur.

Yeni adət və ənənələrin təbliği və tətbiqi sahəsində müəyyən müvəffəqiyyətləri göstərməklə yanaşı, etiraf etmək lazımdır ki, bu işdə nöqsanlar çoxdur. Hələ vilayət, şəhər, rayon partiya komitələri büro və plenumlarda, zəhmətkeş deputatları sovetləri sessiyalarında və icrakom iclaslarında yeni adətlərin təkmilləşdirilməsi və geniş yayılması məsələlərini təsadüfdən-təsadüfə müzakirə edirlər. Heç də hər yerdə bu məsələlər partiya, sovet, həmkarlar ittifaqları və komsomol işçilərinin seminarlarında nəzərdən keçirilmir, kommunist tərbiyəsinin digər istiqamətləri ilə sıx əlaqələndirilmir. Ağdam, Astara, Masallı, Kürdəmir, Xaçmaz rayonlarının partiya, sovet, ictimai təşkilatları köhnə, zərərli adət və ənənələrlə zəif mübarizə aparır, əmək və məişətin müxtəlif sahələrində yüksək ideyalı, güclü emosional təsiri olan adət və ənənələri planlı şəkildə, ardıcıl tətbiq etmirlər. Bir sıra yerlərdə ailə-məişət adətləri dinin təsirindən tam azad olmayıbdır.

Müasir toylar respublikanın hər yerində keçirilmir. Bəzi hallarda toyun əsl mənası təhrif olunur, vaxtı çoxdan keçmiş mərasimlər saxlanılır, hətta əvvəllərdə Azərbaycan toyunda

olmayan zərərli ünsürlər gətirilir, toydan varlanmaq vasitəsi kimi istifadə olunur. Təmtəraqlı sünnət toyları keçirilməsi kimi zərərli adətə son qoyulmamışdır. Bir çox hallarda dəfn mərasimlərinin təşkili mollaların əlindədir.

Keçmişin zərərli qalıqlarına qarşı mübarizədə partiya təşkilatları ictimaiyyətin gücündən tam səmərəli istifadə etmirlər.

Partiya komitələri yanında fəaliyyət göstərən yeni adət və ənənələrin təbliği və tətbiqi şuraları, sovetlərin icraiyyə komitələri yanındakı yeni mülki mərasimlər üzrə komissiyalar hələ passiv işləyirlər. Yerli Sovetlərin rəhbərliyi altında fəaliyyət göstərən komissiyalar yeni bayram və mərasimlərin tətbiqi ilə əlaqədar olan əməli məsələləri, onların keçirilməsinin maddi-texniki təminatını diqqət mərkəzində saxlamır, bu sahədə yaxşı təcrübəni, demək olar ki, yaymırlar. Əslində, respublika komissiyası, onun yerlərdəki orqanları mülki mərasimləri keçirmək üçün nümunəvi ssenarilər işləyib hazırlamalıdırlar. Bu işdə mütərəqqi xalq ənənələrinin, sosialist adətlərinin formalaşması sahəsində toplanmış təcrübəyə əsaslanmaq lazımdır. Alimlər, yaradıcı ziyalılar, ictimaiyyət bu işə geniş cəlb olunmalıdır.

Respublikamızda yeni adət və ənənələrin tətbiqinin maddi-texniki bazasının möhkəmləndirilməsinə böyük ehtiyac vardır. Bu sahədə görülmüş bəzi işlər artan tələbata uyğun deyildir. Sosialist mülki mərasimlərinin geniş miqyasda tətbiqi üçün xüsusi avadanlıqla təmin olunmuş binalar, mərasimlər keçirmək üçün məişət xidməti salonları, qonaqlıq təşkil etmək üçün zallar, hədiyyə dükanları çox azdır. Ümumiyyətlə, mərasim xidmətlərini genişləndirmək, onların keyfiyyətini yaxşılaşdırmaq tələb olunur. Dəfn mərasimləri ilə əlaqədar xidmətlər də

yaxşılaşdırılmalıdır. Vilayət, şəhər və rayon kommunal təsərrüfatı şöbələri bu sahədə öz işlərini nizama salmalıdırlar.

Zəhmətkeşlərin kommunist tərbiyəsinin mühüm vasitələrindən biri olan yeni adət və ənənələrin təbliği və tətbiqi işində əsas diqqət sovet adamlarının ictimai və istehsal fəallığının artırılmasına, onların kommunist partiyasının və sovet xalqının inqilabi, döyüş və əmək ənənələri, sosialist beynəlmiləlçiliyi və sovet vətənpərvərliyi, kommunist əxlaqı prinsipləri ruhunda, ictimai həyat hadisələrinə, adət və ənənələrə sinfi mövqedən yanaşmaq, sosialist həyat tərzinə zidd hadisələrə qarşı barışmazlıq ruhunda tərbiyə olunmasına verilməlidir.

Partiya, sovet, həmkarlar ittifaqları, komsomol təşkilatları, ideoloji təsisatlar yeni adət və ənənələrin işlənib hazırlanması və məişətdə tətbiq olunmasına öz ideoloji fəaliyyətlərinin mühüm sahəsi kimi yanaşmalı, bu istiqamətdə işi konkret və məqsədyönlü aparmalı, həyata keçirilən tədbirlərin təsirliliyini artırmağa çalışmalıdırlar. Gələcəkdə də təcrübədə özünü doğrultmuş kütləvi təbliğat vasitələrindən, partiya, sovet, həmkarlar ittifaqları, komsomol, mədəni-maarif işçilərinin seminar-müşavirələrindən, elmi-təcrübi konfranslardan, tematik gecələrdən, dövri mühazirələrdən, xalq universitetlərindən, inqilabi hərəkat, partiya və komsomol veteranları, Böyük Vətən müharibəsi iştirakçıları, istehsalat qabaqcılları ilə görüşlərdən geniş istifadə olunmalıdır.

Yeni adət və ənənələrin tətbiqini yaxşılaşdırmaq üçün müvafiq nazirliklər, yaradıcılıq ittifaqları, idarələr, qəzet və jurnal redaksiyaları yeni bayramların, adətlərin, mərasimlərin nümunəvi ssenarilərini, mərasim nəğmələri, kütləvi mərasim tədbirlərini tətbiq etmək üçün eskizlər işləyib hazırlamalıdırlar. Respublika

Mədəniyyət Nazirliyi, onun yerlərdəki orqanları çalışmalıdırlar ki, mədəni-maarif müəssisələri, xüsusilə mədəniyyət sarayları, evləri, mədəniyyət və istirahət parkları sosialist ənənələrinin təbliğinin, yeni mərasimlərin keçirilməsinin mərkəzinə çevrilsin. Yerli Sovetlər ona nail olmalıdırlar ki, respublikanın şəhərlərində, rayonlarında, kəndlərində mülki mərasimləri keçirmək üçün xüsusi yerlər yaradılsın, bu sahədə xidmət yaxşılaşdırılsın.

Yeni adət və ənənələrlə bağlı problemlərin tədqiq olunması ictimai elmlər sahəsində çalışan alimlərin diqqət mərkəzində durmalıdır. Bu sahədə filosoflar, sosioloqlar, psixoloqlar, tarixçilər, filoloqlar, etnoqraflar birgə səy göstərməli, kollektiv əsərlər yaratmalı, əməli təkliflər hazırlamalıdırlar. Nəzəri tədqiqlərdə yeni bayram və mərasimlərin ictimai təbiəti və funksiyaları, bunlarda yeni və köhnənin, milli və beynəlmiləlin nisbəti, yeni bayram və mərasimlərin inkişaf etmiş sosializm şəraitində mövqeyi və rolu kimi məsələlər geniş yer tutmalıdır.

Respublikada yeni adətlərin, bayram və mərasimlərin daha geniş təbliği və tətbiqi sahəsində nəşriyyatlar, kütləvi məlumat və təbliğat vasitələri böyük iş aparmalıdırlar. İşin mənafeyi tələb edir ki, kitablar, metodik vəsaitlər, albomlar, otkrıtkalar nəşr olunsun. İnqilabi, döyüş və əmək ənənələri, mülki mərasimlər haqqında, Azərbaycanın şəhər və rayonlarında, əmək kollektivlərində, qardaş respublikalarda bu sahədə toplanmış təcrübəyə dair məqalələr, oçerklər çap etmək, yeni adət və mərasimlərə həsr olunmuş radio və televiziya verilişləri hazırlamaq, televiziya filmləri, sənədli filmlər yaratmaq vacib məsələdir.

Yeni adətləri tətbiq etməyi bacaran, yüksək zövqlü, xalq adət və ənənələrini yaxşı bilən, onların mütərəqqi cəhətlərini yeni mülki adətlərlə düzgün əlaqələndirməyə, zərərli ünsürləri kənara atmağa qabil kadrlar hazırlanması qayğısına qalmaq tələb olunur.

Zəhmətkeşləri sovet xalqının inqilabi, döyüş və əmək ənənələri ruhunda tərbiyə etmək vəzifəsini müvəffəqiyyətlə yerinə yetirmək üçün partiya təşkilatlarında və bütün ictimai təşkilatlarda, ailə və məktəbdən tutmuş cəmiyyətimizin bütün özək və vəsilələrinə qədər hər yerdə daim məqsədyönlü iş aparılmalıdır.

Yeni sosialist adət və mərasimləri artıq cəmiyyətimizin hər bir üzvünün həyati tələbatına, sovet həyat tərzindən irəli gələn obyektiv zərurətə çevrilmişdir. Belə olduğu halda, onların geniş tətbiq edilməsi üçün hər cür lazımi şərait yaradılmalıdır. Partiya komitələri, sovet, həmkarlar ittifaqları, komsomol təşkilatları, təsərrüfat orqanlarının rəhbərləri, ideoloji təsisatlar Sov.İKP-nin və sovet xalqının şanlı ənənələrinə qayğı ilə yanaşmalı, yeni ümumsovet mülki adətlərini geniş yaymalıdırlar. Zəhmətkeşlərdə marksizm-leninizm dünyagörüşü, yüksək ideya-siyasi keyfiyyətlər, kommunist əxlaqı normaları formalaşdırmaq işində sovet adət və ənənələrindən səmərəli istifadə olunmalı, bu istiqamətdə konkret tədbirlər hazırlanıb həyata keçirilməlidir.

*"Azərbaycan kommunisti" jurnalı,*
*№6, 1976-cı il.*

# QAYĞI VƏ YÜKSƏK TƏLƏBKARLIQ

Sov.İKP MK-nın böyük prinsipial əhəmiyyətə malik olan "İdeoloji işi və siyasi tərbiyə işini daha da yaxşılaşdırmaq haqqında" qərarında Sovet İttifaqı Kommunist Partiyasının XXV qurultayının, Sov.İKP MK plenumlarının qərarları Sov.İKP MK-nın Baş katibi, SSRİ Ali Soveti Rəyasət heyətinin sədri L.İ.Brejnev yoldaşın çıxışları əsasında partiyanın ideya-siyasi fəaliyyətinin dərin təhlili verilmiş, onu hərtərəfli təkmilləşdirmək və mövcud nöqsanları aradan qaldırmaq üçün aydın yollar müəyyən edilmiş, kommunist tərbiyəsi nəzəriyyəsinin və praktikasının ümdə problemləri daha dərindən işlənib hazırlanmışdır. Bu sənədin hər müddəası, hər sətri sovet adamının ictimai şüurunun, kommunist ideyalılığının, sosial və əmək fəallığının inkişaf etdirilməsinə, formalaşmasına partiya qayğısının parlaq ifadəsidir. Bu mühüm siyasi sənəd Azərbaycan KP 26 Bakı komissarı adına Rayon Komitəsinin, bütün idarə və müəssisə kollektivlərinin yüksək siyasi fəallığına səbəb olmuş, onları daha fərəhli nailiyyətlər qazanmağa ruhlandırmışdır.

Rayon partiya komitəsi son illərdə Sov.İKP XXV və Azərbaycan KP XXIX qurultaylarının qərarlarını əsas tutaraq, ilk partiya təşkilatlarının təşkilat və ideya-siyasi cəhətdən möhkəmlənməsinə nail olmuş, zəhmətkeşləri onuncu beşilliyin əzəmətli vəzifələrini yerinə yetirmək uğrunda mübarizəyə səfərbər etmişdir.

Vətənimizin tarixinə böyük əlamətdar hadisələr kimi daxil olan SSRİ və Azərbaycan SSR-in yeni Konstitusiyalarının xalq

kütlələri tərəfindən geniş müzakirəsi və təsdiq edilməsi, Böyük Oktyabr sosialist inqilabının 60 illik yubileyi, Sov.İKP MK-nın Baş katibi, SSRİ Ali Soveti Rəyasət heyətinin sədri L.İ.Brejnev yoldaşın Bakı şəhərinə Vətənin ən yüksək mükafatını – Lenin ordenini təqdim etməsi, zəhmətkeşlərin mənəvi tərbiyəsinə həsr olunmuş Ümumittifaq elmi-praktik konfransının Bakıda keçirilməsi kimi mühüm hadisələr rayon zəhmətkeşlərinin əmək və siyasi fəallığını daha da artırmışdır. Təsərrüfat və mədəni quruculuq sahəsində partiya rəhbərliyinin üslub, forma və metodlarının ardıcıl olaraq təkmilləşdirilməsi rayon əməkçilərini yeni müvəffəqiyyətlər əldə etməyə ruhlandırmışdır. Bu, əmək kollektivlərinin daxili ehtiyat mənbələrindən səmərəli istifadə etmələrini, elmin, texnikanın və qabaqcıl təcrübənin istehsalata geniş tətbiqinə, əmək məhsuldarlığının artırılmasına, bütün sahələrdə işin keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsinə zəmin yaratmışdır.

Respublikamızın, o cümlədən 26 Bakı komissarı adına rayon zəhmətkeşlərinin müvəffəqiyyətləri, qazanılmış nailiyyətlər bilavasitə Azərbaycan partiya təşkilatının, onun Mərkəzi Komitəsinin və MK bürosunun apardığı böyük təşkilatçılıq, ideya-siyasi tərbiyə işlərinin nəticəsidir. Bütün sahələrdə mənəvi psixoloji mühitin yaxşılaşması, respublikamızda xalq təsərrüfatının yüksək sürətlə inkişafına imkan yaratmışdır. Sovet Azərbaycanının son illərdə ictimai həyatın bütün sahələrində qazandığı müvəffəqiyyətlərdə Azərbaycan KP MK-nın avqust (1969) plenumunda irəli sürülən məsələlərin həyata keçirilməsi mühüm rol oynamışdır.

Bakıya Lenin ordeni təqdim edilməsi münasibətilə əzəmətli Lenin sarayındakı təntənəli yığıncaqda Sov.İKP MK-nın Baş

katibi, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri L.İ.Brejnev yoldaş öz parlaq çıxışında demişdir: "İşlərin vəziyyəti açıq-aşkar yaxşılaşmışdır. Bu isə Azərbaycan KP Mərkəzi Komitəsinin, respublika partiya təşkilatının məqsədyönlü təşkilatçılıq, siyasi və ideya tərbiyə işinin nəticəsidir. Bütün Azərbaycan xalqının fəal əmək səylərinin yekunudur. Vəziyyətin sağlamlaşması, mənəvi psixoloji iqlimin yaxşılaşması təsərrüfat fəaliyyətinin yekunlarına dərhal təsir göstərmişdir".

Azərbaycan xalqının nailiyyətlərinə, respublika partiya təşkilatının təşkilatçılıq və siyasi işinə dövrümüzün ən görkəmli dövlət və siyasi xadimi tərəfindən verilən yüksək qiymət böyük şərəf və etimad olmaqla, hər birimizin Vətən və partiya qarşısında məsuliyyətini daha da artırır.

L.İ.Brejnev yoldaş Bakı şəhərindəki dərin məzmunlu nitqində həll olunmamış və həlli daha vacib olan problemlərdən də geniş bəhs etmişdir. 26 Bakı komissarı adına rayonun bütün idarə və müəssisələrinin kollektivləri L.İ.Brejnev yoldaşın parlaq nitqindən irəli gələn vəzifələrə layiqincə əməl etmək üçün səylə çalışır, sosializm yarışını gündən-günə genişləndirir, zəhmətkeşlər arasında geniş təbliğat və təşviqat işi aparırlar.

Zəhmətkeşlərin ideya-siyasi tərbiyəsinin yüksəldilməsində Sov.İKP MK-nın Baş katibi, SSRİ Ali Soveti Rəyasət heyətinin sədri L.İ.Brejnev yoldaşın "Kiçik torpaq", "Dirçəliş" və "Xam torpaq" əsərləri misilsiz əhəmiyyət kəsb edir. Böyük ideya-siyasi və tərbiyəvi əhəmiyyəti olan həmin əsərlər rayon zəhmətkeşləri tərəfindən geniş müzakirə edilmiş, qarşıda duran vəzifələr araşdırılmış, yeni öhdəliklər qəbul olunmuş, faydalı tədbirlər keçirilmişdir. "Kiçik torpaq", "Dirçəliş" və "Xam torpaq" əsərlərinin müzakirəsində rayonun bütün əməkçiləri, o

cümlədən ali məktəblərin müəllim və tələbə kollektivləri də fəal iştirak etmişlər.

26 Bakı komissarı adına Rayon Partiya Komitəsinin ardıcıl səyi nəticəsində rayon son illərdə 11 dəfə dalbadal Bakı şəhəri rayonları arasında keçirilən sosializm yarışının qalibləri sırasında olmuş, Azərbaycan KP Bakı Şəhər Komitəsinin və Bakı Şəhər Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin keçici Qırmızı bayrağına və vımpellərinə layiq görülmüşdür. Rayon partiya komitəsi partiya təşkilatları bürolarının və partiya-təsərrüfat fəalları yığıncaqlarının rolunun artırılmasına ciddi əhəmiyyət vermiş, bir sıra təşkilati, təsərrüfat və ideoloji məsələlər üzrə faydalı tədbirlər həyata keçirmişdir. Partiya təşkilatlarının partiya və təsərrüfat həyatında prinsipial mövqe tutduğunu və tapşırılan iş üçün hər bir kommunistin məsuliyyətinin artdığını nəzərə alaraq, partiyadaxili tənqid və özünütənqid daha da genişləndirilir. Sov.İKP XXV və Azərbaycan partiya təşkilatının XXIX qurultayları qərarlarının həyata keçirilməsinə nəzarət daha da gücləndirilir.

Bakı şəhər partiya təşkilatının 43-cü konfransında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev yoldaşın dərin məzmunlu prinsipial nitqi ilə əlaqədar olaraq, rayon partiya təşkilatı Sov.İKP sıralarına elm, incəsənət və mədəniyyət işçilərinin qəbulu məsələsinə diqqəti artırmışdır. Bu da partiya sıralarının ideya və təşkilati cəhətdən daha da möhkəmlənməsinə təsir edir.

Sov.İKP MK-nın "İdeoloji işi və siyasi tərbiyə işini daha da yaxşılaşdırmaq haqqında" qərarının həyata keçirilməsində ali və orta ixtisas təhsili müəssisələrində çalışan kollektivlərin, tələbə gənclərin böyük ruh yüksəkliyi ilə keçirdikləri yığıncaqlar, elmi-

praktik konfranslar, seminarlar yüksək əhəmiyyət kəsb etmişdir. L.İ.Brejnev yoldaş tələbələrin Ümumittifaq toplanışındakı parlaq nitqində demişdir: “Bu gün sovet mütəxəssisi marksizm-leninizm təliminin əsaslarını yaxşı bilən, partiyanın və ölkənin siyasi məqsədlərini aydın görən, geniş elmi və əməli hazırlığı olan, öz ixtisasına mükəmməl yiyələnən bir adamdır... bir sözlə, yeni cəmiyyətin, sosializm cəmiyyətinin əsil ziyalısıdır”.

Rayonumuzun ərazisində yerləşən ali məktəblərin partiya, komsomol və həmkarlar ittifaqı təşkilatları tələbə gənclərin elmi biliklərə dərindən yiyələnməsinə, gələcək mütəxəssislərin, müəllimlərin, mühəndis-konstruktorların, həkimlərin şüurunda sovet vətənpərvərliyi və sosialist beynəlmiləlçiliyi ideyalarının, qüdrətli Vətənimiz üçün iftixar hissinin və Böyük Oktyabrın nailiyyətlərini göz bəbəyi kimi qorumaq əzminin daim möhkəmləndirilməsinə qayğı ilə yanaşırlar. İnstitutların partiya komitələri tələbələrin vətənpərvərlik və beynəlmiləlçilik tərbiyəsinə xüsusi diqqət yetirmiş, bu sahədə bir çox faydalı, rəngarəng və təsirli tədbirlər həyata keçirmişlər.

Fərəhli haldır ki, tələbələrin elmə olan həvəsi gündən-günə artır. Belə bir faktı göstərmək kifayətdir ki, V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun adı SSRİ-nin 202 ali pedaqoji məktəbləri arasında təlim-tərbiyə və elmi işlər üzrə qabaqcıllar sırasında çəkilir. Bu qocaman elm ocağında son illər tələbə gənclərin ictimai fəallığı sürətlə artmış, əmək meydanlarında tələbə inşaatçıların nailiyyətləri böyük vüsət almışdır. Bu ali məktəbin tələbə-inşaatçıları son illər, bir qayda olaraq, əmək meydanlarından sevindirici qələbə ilə qayıdırlar. 1976-cı ildə həmin tələbə gənclərin qüvvəsi ilə 789,6 min manatlıq iş görülmüşdür. 1977-ci ildə bu rəqəm 860 min manata çatmışdır...

1978-ci il həmin institutun tələbə inşaatçıları üçün xüsusilə əlamətdar olmuşdur. Onlar Azərbaycanın bir sıra rayonlarının tikinti obyektləri ilə yanaşı, qardaş Moldaviyanın bərəkətli çöllərində və Bolqarıstan Xalq Respublikasında çalışmışlar. Gələcək müəllimlər üçüncü semestrdə 1 milyon 670 min manatlıq iş görmüşlər. Beynəlmiləl tələbə-inşaat dəstəsinin üçüncü əmək semestri daha fərəhli olmuşdur. Onlar Bolqarıstanın paytaxtı Sofiya şəhərində Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev yoldaşla görüşmüşlər. Bu görüş gənclərin qəlbini iftixar hissi ilə doldurmuş, onlar plan və tapşırıqları artıqlaması ilə yerinə yetirmişlər.

Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin “Ümumtəhsil məktəbləri şagirdlərinin təlimini, tərbiyəsini və əməyə hazırlanmasını daha da təkmilləşdirmək haqqında” və Sov.İKP MK-nın “İdeoloji işi və siyasi tərbiyə işini daha da yaxşılaşdırmaq haqqında” qərarlarından irəli gələn vəzifələr ümumtəhsil məktəblərinin ilk partiya təşkilatlarının yığıncaqlarında da geniş müzakirə olunmuş, qarşıda duran mühüm vəzifələr araşdırılmış, faydalı təkliflər verilmiş, yaradıcı, işgüzar söhbətlər təşkil olunmuşdur. Həmin yığıncaqlar tənqid və özünütənqid ruhunda keçir, işdə yol verilən bəzi nöqsanlar aydınlaşdırılır, onları aradan qaldırmaq üçün konkret yollar müəyyənləşdirilir.

İşə məhz işgüzar, yaradıcı münasibət ideya-tərbiyə işini keyfiyyətcə yeni səviyyəyə qaldırmaq üçün müxtəlif faydalı tədbirlər işləyib hazırlamağa imkan verir. Rayonda 27 məktəb vardır. Onlardan 18-i gündüz, 9-u axşam və biri qiyabi fəhlə-gənclər məktəbidir. Həmin məktəblərdə gənc nəslin təlim-

tərbiyəsi məsələsi həmişə diqqət mərkəzində olmuşdur, şagirdlərin elmlərə dərindən yiyələnməsinə, onların həyata hazırlanmasına ciddi fikir verilir.

Təlimin müasirliyi, pedaqoji kollektivlərin fəaliyyətinin daim təkmilləşdirilməsi rayon partiya təşkilatının diqqət mərkəzindədir. Bir qayda olaraq, hər il rayonun məktəblərində fənn kabinetlərinin fəaliyyətinə baxış-müsabiqə keçirilir. Sonra isə rayon məktəblərinin kollektivləri Bakı şəhəri üzrə keçirilən baxış-müsabiqədə iştirak edirlər.

Fərəhli haldır ki, hər il bu imtahanda 26 Bakı komissarı adına rayonun məktəbləri I, II və III yerləri tutmuşlar. Rayondakı 6, 7, 60, 91, 190, 236, 132, 134, 189, 163 nömrəli məktəblərin pedaqoji kollektivləri Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin "Ümumtəhsil məktəbləri şagirdlərinin təlimini, tərbiyəsini və əməyə hazırlanmasını daha da təkmilləşdirmək haqqında" qərarı ilə əlaqədar bir sıra faydalı tədbirlər hazırlayıb həyata keçirmişlər. Bu baxımdan 134 nömrəli məktəbdə "Partiyanın sözü riyaziyyat dərslərində", 44 nömrəli fəhlə-gənclər məktəbində "Yaradıcı işlə məşğul olan müəllim yaradıcı işlə məşğul olan kollektivə çevrilir", 132 nömrəli məktəbdə "Rus dili dərslərində və sinifdənkənar tədbirlərdə L.İ.Brejnevin əsərlərindən istifadə", 6 nömrəli məktəbdə "Tədris prosesində əmək tərbiyəsi və peşəseçməyə istiqamətləndirmə", 7 nömrəli məktəbdə "Ümumtəhsil məktəbləri şagirdlərinin təlimini, tərbiyəsini və əməyə hazırlanmasını daha da yaxşılaşdırmaq haqqında" qərar və qarşıda duran vəzifələr", "Lenin dili – Oktyabr dilidir", 203 nömrəli məktəbdə "Çətin tərbiyə olunan uşaqlarla iş", 85 nömrəli fəhlə-gənclər məktəbində "Hər bir fəhlə gəncə orta təhsil", 189 nömrəli məktəbdə

"İbtidai sinif şagirdləri ilə aparılan ideya-siyasi tərbiyə işi", 91 nömrəli məktəbdə "Şagirdlərin elmlərə müstəqil yiyələnmələrində tədris kombinatının əhəmiyyəti", 2 nömrəli məktəbdə "Günüuzadılmış qruplarda gün rejimi və iş xüsusiyyətləri" adlı tədbirlər təlim-tərbiyə prosesinin yaxşılaşmasına güclü təsir etmişdir.

Cari dərs ilində rayonun ümumtəhsil məktəblərində L.İ.Brejnev yoldaşın "Kiçik torpaq", "Dirçəliş" və "Xam torpaq" əsərləri dərindən öyrənilmiş, bu əsərlərin müzakirəsinə həsr olunmuş elmi-praktik konfranslar keçirilmişdir. Pedaqoji kollektivlər dərs ili boyu şagirdlərin ideya-siyasi, əmək və əxlaq tərbiyəsinə diqqəti daha da artırmış, onların həyata hazırlanması işinin zamanın tələbləri səviyyəsində qurulması üçün faydalı tədbirlər həyata keçirmişlər. Bu baxımdan 160 nömrəli məktəbin nailiyyətləri xüsusilə qeyd olunmalıdır.

Lakin əldə edilmiş müvəffəqiyyətlər bizi arxayınlaşdırmır, işimizdə olan bəzi çatışmazlıqları gözdən qaçırmağa haqq vermir. Rayon partiya komitəsinin 48-ci konfransında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev yoldaşın söylədiyi dərin məzmunlu nitq bizim fəaliyyət proqramımızdır.

Rayonun bütün kommunistləri işin səmərə və keyfiyyətini artırmalı, prinsipial olmalı, yalnız özü üçün deyil, bütün kollektiv üçün düşünməli, məsuliyyət hissini gücləndirməlidir. Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev yoldaşın qeyd etdiyi kimi, onuncu beşilliyin dördüncü ili bütün beşilliyin yerinə yetirilməsi üçün əhəmiyyətə malik olacaqdır.

Hazırda rayon partiya komitəsi idarələrin və müəssisələrin diqqətini sənayenin bütün ehtiyat mənbələrinin və imkanlarının ətraflı öyrənilməsinə, onlardan səmərəli istifadə olunmasına yönəltmişdir.

Rayonun kommunistləri, əmək adamları, fəal bitərəflər, xalq təsərrüfatının bütün sahələrində yeni-yeni əmək müvəffəqiyyətləri qazanmaq naminə bundan sonra da qüvvə və bacarıqlarını əsirgəməyəcək, imkanlardan səmərəli istifadə edərək nailiyyətləri artırmaq, Sovet Azərbaycanının 60 illik yubileyini layiqli töhfələrlə qarşılamaq üçün qüvvələrini səfərbərliyə alacaqlar.

*"Azərbaycan müəllimi"qəzeti,*
*22 iyun 1979-cu il.*

## PARTİYA SIRALARININ ARTIMININ TƏNZİM EDİLMƏSİ VƏ ONUN KEYFİYYƏT TƏRKİBİNİN YAXŞILAŞDIRILMASI

Sovet cəmiyyətinin kommunizmə doğru yolda irəliləyişinin hər bir yeni mərhələsində yaradıcılıq fəaliyyətinin miqyası genişlənir, vəzifələr mürəkkəbləşir, şüurlu tarixi yaradıcılıq işinə getdikcə daha geniş xalq kütlələri cəlb olunurlar. Bu isə öz növbəsində Sov.İKP-nin rəhbər rolunun artmasına, inkişaf etmiş sosializm cəmiyyətinin bu qanunauyğunluğunun daha mükəmməl və hərtərəfli təzahürünə səbəb olur. Sov.İKP-nin XXVI qurultayına Mərkəzi Komitənin hesabat məruzəsində L.İ.Brejnev yoldaş demişdir: "XXV qurultayda belə bir nəticə çıxarılmışdır ki, inkişaf etmiş sosializm dövründə cəmiyyətin həyatında partiyanın rolu vardır. Ötən beşillik göstərmişdir ki, bu nəticə tamamilə doğrudur. Leninin məşhur "partiya dövrümüzün zəkası, şərəfi və vicdanıdır" formulu məhz indi, sovet xalqının heyrətamiz nailiyyətləri baxımından daha dərin məna kəsb edir.

Cəmiyyətimiz inkişaf etdikcə, onun sosial-siyasi və mədəni siması dəyişdikcə kommunistlər partiyası böyüyür, mətinləşir".

Cəmiyyətin həyatında partiyanın rəhbər rolu avtomatik və kortəbii şəkildə deyil, bütün partiyanın, onun təşkilatlarının, hər bir kommunistin məqsədyönlü, elmi cəhətdən əsaslandırılmış fəaliyyətinin nəticəsində artır. Bu, həlledici dərəcədə partiyanın özünün daxili vəziyyətindən və inkişafından asılıdır.

Sov.İKP daxili həyatın təkmilləşdirilməsini, onun bir dinamik orqanizm kimi inkişafını təmin edən tədbirlər kompleksində

Lenin prinsipləri və üzvlük normaları əsasında, Leninin tələblərinə və göstərişlərinə müvafiq olaraq partiya sıralarının artımının təmin edilməsi və onun keyfiyyət tərkibinin yaxşılaşdırılması işi ən mühüm yerlərdən birini tutur.

V.İ.Lenin öyrətmişdir ki, partiya "əgər o, inqilabçı sinfin həqiqətən avanqardıdırsa, əgər bu partiya həmin sinfin ən yaxşı nümayəndələrinin hamısını öz sıralarına cəlb etmişdirsə, əgər bu partiya inadlı mübarizə təcrübəsində maariflənib mətinləşmiş tamamilə şüurlu və sədaqətli kommunistlərdən ibarətdirsə, əgər bu partiya özünü öz sinfinin bütün həyatı ilə, bu sinif vasitəsilə də özünü bütün "kütlə" ilə qırılmaz surətdə bağlayıb bu sinifdə və bu kütlədə tam etimad doğura bilmişdirsə" (Əsərləri, 31-ci cild, səh.182), cəmiyyətin yenidən qurulmasında özünün rəhbər rolunu kommunist əsasları üzərində müvəffəqiyyətlə həyata keçirə bilər.

Bizim partiyamız da öz sıralarını artırarkən həmişə çalışmışdır ki, onun tərkibi məhz belə olsun, o, cəmiyyətin qarşısında qoyulan vəzifələrin həllini ən yaxşı təmin etsin.

Partiya sıralarının artımının tənzim edilməsi məsələləri Sov.İKP XXIII, XXIV və XXV qurultaylarının qərarlarında dərindən işıqlandırılmışdır. Partiyanın XXVI qurultayında da bu məsələnin birinci dərəcəli əhəmiyyəti olduğu qeyd edilmişdir.

Sovet cəmiyyətinin inkişafının hazırkı mərhələsi partiyanın tərkibi, onun təşkilatları, hər bir kommunist qarşısında xüsusilə yüksək tələblər qoyur. Kommunist partiyasının yaşayıb fəaliyyət göstərdiyi şərait son vaxtlarda xeyli dəyişmişdir. Kommunizm quruculuğunun miqyası olduqca artmış, vəzifələri mürəkkəbləşmişdir, ölkədə dərin iqtisadi və sosial dəyişikliklər baş verir, elmi-texniki inqilab yüksək sürətlə genişlənir. Sovet adamları da xeyli inkişaf etmiş, onların şüurluluğu və fəallığı daha da

artmışdır. Belə bir şəraitdə yalnız xalqın qabaqcıl, şüurlu və fəal nümayəndələri sovet cəmiyyətinə başçılıq edib sovet xalqını kommunizmə doğru yolla inamla irəli apara bilərlər. Tamamilə təbiidir ki, bütün bunlar partiya sıraları artımının tənzim edilməsində və onun tərkibinin formalaşdırılmasında özünün geniş əksini tapır.

Son illərdə Sov.İKP bu istiqamətdə bir sıra tədbirlər həyata keçirmişdir: zəmanət verənlərə qarşı tələbkarlıq qüvvətləndirilmiş, namizədlik stajının rolu yüksəldilmiş, Sov.İKP sıralarına qəbul haqqında ərizələrə baxılması qaydası dəyişdirilmişdir; indi ərizələrə, bir qayda olaraq, açıq partiya yığıncaqlarında baxılır və s. Siyasi və işgüzarlıq cəhətdən yoxlanılmış, ictimai həyatda və əməkdə özünü fəal göstərmiş, öz kollektivinin, partiya təşkilatının etimadını qazanmış vətəndaşlar partiyaya qəbul edilirlər. Sov.İKP öz sıralarına yalnız o adamları qəbul edir ki, onlar partiyaya hər hansı bir mənfəət əldə etmək üçün deyil, böyük işimizin xeyrinə olaraq fədakarlıqla işləmək naminə gəldiklərini işdə sübut etmiş olsunlar.

Partiyamız öz sıralarının artımına, keyfiyyətcə yaxşılaşmasına daim qayğı göstərərək xalqın ən yaxşı, daha şüurlu, ləyaqətli nümayəndələrini seçib götürür. XXV qurultaydan sonrakı dövrdə Sov.İKP üzvlərinin sayı 1,8 milyon nəfər artıb 17,5 milyona çatmışdır. Sov.İKP-nin mübariz dəstələrindən biri olan Azərbaycan Kommunist Partiyasının sıraları da artmaqda davam etmişdir. 1976-cı ildən bəri respublika partiya təşkilatı sayca 14,7 faiz artmış və 1981-ci il yanvarın 1-nə 330 min nəfərdən çox olmuşdur.

Sov.İKP öz sıralarının artımını tənzim etmək prosesində çalışır ki, sovet cəmiyyətinin sosial strukturunda baş verən

dəyişikliklər, bütün siniflərin və sosial qrupların bir-birinə yaxınlaşmasının obyektiv prosesi partiyanın tərkibində daha mükəmməl əks etsin.

Ölkəmizdə inkişaf etmiş sosializm cəmiyyəti qurulması nəticəsində partiya bütün xalqın partiyasına çevrilmişdir. Bu proses göstərir ki, SSRİ-də zəhmətkeşlərin möhkəm sosial-siyasi və ideya birliyi yaranmışdır, adamların yeni tarixi birliyi olan sovet xalqı meydana gəlmişdir. İnkişaf etmiş sosializm şəraitində "fəhlə sinfinin, kolxozçu kəndlilərin və xalq ziyalılarının pozulmaz ittifaqı daha da möhkəmlənmişdir. Əsas sosial qruplar arasında fərqlər tədricən silinir. Həyatın gedişi ölkəmizin bütün millətlərini və xalqlarını bir-birinə daha da yaxınlaşdırır" (L.İ.Brejnev, Lenin yolu ilə, 6-cı cild, səh.408).

Dost siniflərin və sosial qrupların qarşılıqlı münasibətlərində inkişaf etmiş sosializm üçün səciyyəvi olan fəhlə sinfinin aparıcı rolu saxlanılır. Onun əsas sosialist mənafelərinin, kommunist ideallarının həyata keçirilməsi sosial qrupları bir-birindən ayıran hədlərin tədricən silinib aradan qaldırılmasına səbəb olur; getdikcə daha mükəmməl sosial yekcinslik istiqamətində inkişaf baş verir. Lakin sosializm cəmiyyəti sinfi fərqlərin aradan qaldırılmasının bütün dövründə fəhlə sinfinin aparıcı rolu saxlanmaqla dost siniflər cəmiyyəti olduğuna görə, partiya tərkibinin formalaşdırılması zamanı işə sinfi münasibət lazımdır.

L.İ.Brejnev yoldaş demişdir: "İnkişaf etmiş sosializm şəraitində, kommunist partiyası bütün xalqın partiyası olduğu bir zamanda o, öz sinfi xarakterini heç də itirmir. Sov.İKP öz təbiəti etibarilə fəhlə sinfinin partiyası olmuş və olmaqdadır" (Lenin yolu ilə, 5-ci cild, səh.565). Partiyamız bu nəticəni rəhbər tutaraq çalışır ki, onun sıraları bundan sonra da başlıca olaraq fəhlələr hesabına artsın. Partiya buna daim ciddi qayğı göstərir.

Partiya sıralarına qəbul edilənlər arasında fəhlələrin xüsusi çəkisinin durmadan artması müasir mərhələdə partiyanın inkişafında daimi ənənədir. Bunu demək kifayətdir ki, Sov.İKP-nin XXII və XXIII qurultayları arasındakı dövrdə partiya üzvlüyünə namizədliyə qəbul edilənlərin 44,7 faizi, XXIII və XXIV qurultaylar arasındakı dövrdə 52 faizi, XXIV və XXV qurultaylar arasındakı dövrdə 57,8 faizi, ötən beşillikdə isə 59 faizi fəhlələr olmuşdur. Bu, partiya sıraları artımının təmin edilməsində həlledici istiqamətdir. Bu hal respublikamızın partiya təşkilatının həyatında da tamamilə təzahür edir. Azərbaycan Kommunist Partiyasının XXIX və XXX qurultayları arasındakı dövrdə partiyaya qəbul edilənlərin 61,5 faizi fəhlələr olmuşdur.

Kommunist partiyasının inkişafında bu da tamamilə qanunauyğun haldır ki, fəhlə sinfi nümayəndələrindən seçilib partiyaya qəbul edilənlər getdikcə daha yüksək keyfiyyət səviyyəsinə malik olurlar. Fəhlə sinfinin ideya-siyasi yetkinliyinin, mədəni-texniki səviyyəsinin və ictimai-siyasi fəallığının durmadan artması partiyanın keyfiyyət tərkibinin yaxşılaşması üçün əlverişli obyektiv şərait yaradır. Fəhlə sinfinin özündə ən yaxşı keyfiyyətləri təcəssüm etdirən qabaqcıl nümayəndələrinin Sov.İKP sıralarına qəbulu imkanı artır.

Partiya təşkilatları bütün xalq təsərrüfatında elmi-texniki tərəqqinin sürətlənməsində həlledici rol oynayan sahələrdə çalışan fəhlələr hesabına öz sıralarının artmasına xüsusi əhəmiyyət verir. Məsələn, bütövlükdə respublikanın sənayesində axırıncı on ildə kommunistlərin sayı 31,4 faiz, elektrik texnikası sənayesində 1,12 dəfə, energetika və elektrikləşdirmədə 38,4 faiz, cihazqayırma, avtomatlaşdırma və idarəetmə sistemləri vasitələri sənayesində 1,1 dəfə, qaz sənayesində 1,17 dəfə artmışdır.

Bu müddətdə əsaslı tikintidə işləyən kommunistlərin sayı 36,2 faiz, meliorasiya və su təsərrüfatında işləyən kommunistlərin sayı 97,8 faiz çoxalmışdır.

Partiya sıralarında fəhlələrin sayının və xüsusi çəkisinin durmadan artması onun bundan sonra da bütün xalqın partiyası kimi inkişafına cavab verir, çünki hazırda fəhlə sinfi SSRİ xalq təsərrüfatında işləyən bütün zəhmətkeşlərin təqribən üçdə iki hissəsini təşkil edir.

Kommunizm cəmiyyəti quruculuğunda sovet fəhlə sinfinin sadiq, etibarlı müttəfiqi olan müasir kolxozçu kəndlilər partiya sıralarının artmasının mühüm mənbəyidir. Partiya təşkilatları kolxozçu kəndlilərin ləyaqətli nümayəndələrini seçib öz sıralarına qəbul edir. Keçən beşillikdə Sov.İKP-yə yeni qəbul edilənlərin 10 faizdən çoxu kolxozçulardır. Azərbaycan Kommunust Partiyasının XXIX qurultayından sonra respublika partiya təşkilatında partiyaya qəbul edilənlərin ümumi sayının 14,4 faizi kolxozçu kəndlilərin nümayəndələridir. Kolxozlarda kommunistlərin sayı artmaqda davam edir. Kənd təsərrüfatının sənaye əsaslarına keçirilməsi ilə əlaqədar olaraq, kolxoz və sovxozların partiya təşkilatları kənddə görkəmli sima olan traktorçular, kombaynçılar və digər mexanizatorlar hesabına artır. Kənd təsərrüfatında partiya təbəqələrinin genişlənməsi və möhkəmlənməsi partiyanın aqrar siyasətinin müvəffəqiyyətlə həyata keçirilməsinə kömək edir.

Ziyalılar sovet cəmiyyətinin həyatında getdikcə daha mühüm rol oynayırlar. Bunu nəzərə alaraq, partiya öz sıralarını ziyalıların müxtəlif təbəqələrinin ən yaxşı, siyasi cəhətdən daha fəal nümayəndələri hesabına artırır. Onlar partiyaya qəbul edilənlərin 25,4 faizini təşkil etmişlər. Onların əksəriyyəti mühəndis-texnik işçilər və istehsalatla, elmlə bilavasitə əlaqədar

olan digər mütəxəssislərdir. Son illərdə xalq təsərrüfatının mütəxəssisləri arasında partiyalıların sayı xeyli artmışdır: mütəxəssislərin hər dörd-beş nəfərindən biri kommunistdir. Sov.İKP-nin tərkibinin təqribən 20 faizi mühəndis-texnik ziyalıların nümayəndələri, 24 faizdən çoxu elm, ədəbiyyat, incəsənət xadimləri, maarif, səhiyyə işçiləri və başqalarıdır. Respublikamızda da elm, istehsalat ziyalıları və bədii ziyalılar arasında partiyalıların sayı artmışdır.

Komsomolda ictimai-siyasi iş məktəbi keçmiş, istehsalatda və ya təhsildə özünü yaxşı göstərmiş gənclər hesabına da partiya sıraları keyfiyyətcə yaxşılaşır. XXV qurultaydan sonra Sov.İKP sıralarına daxil olanların təqribən dörddə üç hissəsi komsomolçulardır. Respublikanın partiya təşkilatında onlar 73 faizdən artığı təşkil edir. Gənclərin Sov.İKP sıralarına gəlişinin artması sübut edir ki, gənclərimiz partiyanın ideallarına dərindən sadiqdirlər, kommunistlərin yaşlı nəslinin uğrunda mübarizə aparmış olduqları və indi də apardıqları işi davam etdirməyə hazırdırlar.

Ölkənin siyasi, təsərrüfat və mədəni həyatında fəal iştirak edən qadınların sayı Sov.İKP sıralarında getdikcə artır. Axırıncı iyirmi il ərzində partiyada onların sayı təqribən iki dəfə yarım artmışdır. Partiyaya qəbul edilənlər arasında da qadınların nisbəti çoxalmışdır. Bunu demək kifayətdir ki, 1966-cı ildə partiya üzvlüyünə namizədliyə qəbul edilənlər arasında qadınlar 24,6 faiz, 1976-cı ildə 30,8 faiz idisə, 1980-ci ildə 32 faizə yaxın olmuşlar. Sov.İKP-nin tərkibində qadınların sayının artması xalq təsərrüfatının bütöv bir sıra sahələrinə partiya təsirinin qüvvətlənməsi imkanını genişləndirir.

Sovet cəmiyyətinin sosial strukturunda baş verən dəyişikliklər nəzərə alınmaqla, Sov.İKP artımının və tərkibinin planlı şəkildə

tənzim edilməsi nəticəsində bütün siniflər və təbəqələr içində onun kökləri daha çox möhkəmlənir. İndi Sov.İKP-də fəhlələr 43,4 faiz, kolxozçular 12,8 faiz, texniki, elmi və yaradıcı ziyalıların nümayəndələri, maarif, səhiyyə, mədəniyyət, idarə aparatı işçiləri, hərbi qulluqçular 43,8 faiz təşkil edir. Respublika partiya təşkilatının tərkibində fəhlələr 36,2 faiz, kolxozçular 10 faiz, texniki ziyalıların nümayəndələri 12,5 faiz, elm, ədəbiyyat və incəsənət xadimləri, maarif, səhiyyə işçiləri və başqaları 17 faizdir.

Sov.İKP öz sıralarını tənzim edərkən proletar beynəlmiləlçiliyi, millətlərin bərabərliyi, xalqların dostluğu və və qardaşlığı mövqelərini əsas götürür, ölkəmizdə yaşayan bütün millətlərin və xalqların zəhmətkeşlərinin ən yaxşı nümayəndələri hesabına partiyanın artması imkanının çoxaldığını nəzərə alır. L.İ.Brejnev yoldaş demişdir: "Partiya ölkənin bütün millətlərinin və xalqlarının qabaqcıl nümayəndələrini birləşdirir. Partiya SSRİ zəhmətkeşlərinin mübariz yoldaşlığının və dostluğunun, bütün sovet xalqının sarsılmaz birliyinin ən parlaq təcəssümüdür. Bizdə hansı millətə mənsub olursa-olsunlar, bütün kommunistlər vahid Lenin partiyasının üzvüdürlər. Onların hüquqları və vəzifələri eynidir, onlar ölkənin müqəddəratı üçün eyni dərəcədə məsuliyyət daşıyırlar" (Lenin yolu ilə, 4-cü cild, səh.66-67).

Səciyyəvi haldır ki, indi hər bir partiya təşkilatı öz tərkibi etibarilə getdikcə daha da çoxmillətli olur. Məsələn, Azərbaycan partiya təşkilatında 74 millətin nümayəndələri təmsil olunmuşdur. Bununla yanaşı, başqa meyil də özünü göstərir. Müttəfiq və muxtar respublikaların partiya təşkilatlarının tərkibində yerli millətlərin nümayəndələrinin xüsusi çəkisi artır. Məsələn 1971-ci il yanvarın 1-nə Azərbaycan partiya təşkilatında yerli millətdən olan partiya üzvü və namizədləri

67,3 faizi təşkil edirdisə, 1981-ci il yanvarın 1-nə 74,3 faiz olmuşdur. Yeni qəbul edilənlərin tərkibində də yerli millətin nümayəndələrinin sayı artmış və xüsusi çəkisi yüksəlmişdir. Bir-biri ilə qarşılıqlı surətdə bağlı olan bu iki meyil adamların yeni sosial və beynəlmiləl birliyi olan sovet xalqının formalaşması prosesini əks etdirir.

Partiya sıralarının sayca və tərkibcə tənzim edilməsində yuxarıda göstərilən proseslər həm də elə bir şərait yaradır ki, Sov.İKP həmin şəraitdə fəhlə sinfinin partiyası olaraq qalır, bütün sovet xalqının partiyası kimi inkişaf edir.

Partiya sıraları artımının tənzim edilməsinin əsas istiqamətlərindən biri kommunistin yüksək adını doğrultmayan şəxslərdən vaxtında azad olmaqdır. Partiyaya sovet xalqının ən yaxşı, qabaqcıl nümayəndələri gəlirlər. Lakin bəzi təsadüfi, nalayiq adamlar da Sov.İKP sıralarına düşürlər. Axırıncı beş il ərzində kommunist adı ilə bir araya sığmayan hərəkətlər etdiklərinə görə təqribən 300 min nəfər Sov.İKP-dən xaric edilmişdir. Sov.İKP XXVI qurultayı partiya təşkilatlarına bir vəzifə olaraq tapşırmışdır ki, bundan sonra da partiyaya daxil olanlara ciddi yanaşsınlar, onların qarşısında daha yüksək tələblər qoysunlar. Qurultay bu barədə öz prinsipial nöqteyi-nəzərini bir daha bildirmişdir. L.İ.Brejnev yoldaş qurultayda demişdir: “Tam inamla demək lazımdır ki, özünü ləyaqətsiz aparan, partiya Nizamnaməsini və partiya əxlaqı normalarını pozan adamlara qarşı münasibətimiz barışmaz olmuşdur, barışmazdır və barışmaz olacaqdır. Söhbət partiyamızın şərəfindən və nüfuzundan, onun sıralarının saflığından getdikdə heç kimə heç bir güzəşt ola bilməz!”.

Partiya ləyaqətsiz adamları öz sıralarından çıxarmaqla, şübhəsiz, özünü möhkəmləndirir. Bununla yanaşı, partiyadan çıxarmağa dair hər bir hadisə partiya təsirinin zəifləməsini,

kommunistlərin tərbiyə edilməsində, onların fəal həyat mövqeyinin, qarşılıqlı tələbkarlığın inkişafında qüsurlar olmasını sübut edən bir növ siqnaldır.

Sov.İKP sıralarının daha da möhkəmləndirilməsi, onun tərkibinin keyfiyyətcə yaxşılaşması mənafeyi tələb edir ki, hər bir kommunist partiyanın öz üzvlərinin həyat və fəaliyyət normaları kimi formalaşdırdığı tələbləri dərindən və yaradıcılıqla mənimsəsin, onları səylə və ardıcıllıqla həyata keçirsin. Bu vəzifənin müvəffəqiyyətlə həlli üçün partiya təşkilatlarının adamları fərdi qaydada seçib öz sıralarına qəbul etməsi, onların iş, siyasi və mənəvi keyfiyyətlərinin diqqətlə öyrənilməsi haqqında Lenin prinsiplərinə ciddi əməl etməsi böyük əhəmiyyətə malikdir.

Partiya sıralarının artması və gənc kommunistlərin tərbiyə edilməsi ilə əlaqədar işlər mürəkkəb və məsul işdir, hər bir partiya təşkilatının fəaliyyətinin ən mühüm sahələrindən biridir. Burada xüsusilə diqqətli olmaq, kimin yüksək kommunist adını daşımağa layiq olduğunu müəyyən etməyi bacarmaq və partiyaya daxil olan hər bir adama əsl mübariz olmaqda kömək etmək tələb olunur.

"Partiyaya qəbul və Sov.İKP üzvlüyünə namizədlərin tərbiyə edilməsi sahəsində Qırğızıstan partiya təşkilatlarının işi haqqında" Sov.İKP MK-nın qərarında qeyd edildiyi kimi, Sov.İKP-yə qəbul və gənc kommunistlərin tərbiyə edilməsi üçün ilk partiya təşkilatları xüsusi məsuliyyət daşıyırlar. Onlar partiyaya daxil olanları dərindən öyrənməli və onların barəsində həm kommunistlərin, həm də bitərəf yoldaşların fikirlərini tamamilə nəzərə almalıdırlar, axı, bitərəf yoldaşlar onlarla yanaşı işləyir və təkcə işdə deyil, həm də gündəlik həyatda onların özlərini necə apardıqlarını yaxşı bilirlər. Mərkəzi

Komitə bununla əlaqədar olaraq tövsiyə etmişdir ki, partiyaya qəbul məsələsinə, bir qayda olaraq, açıq partiya yığıncaqlarında baxaraq, qəbul edilən şəxsin ləyaqətləri və nöqsanlarını müzakirə etsinlər, yəni bu məsələni açıq, kollektivin gözü qarşısında həll etsinlər.

Sov.İKP Mərkəzi Komitəsinin göstərişlərini yerinə yetirərək Azərbaycan KP MK, vilayət, şəhər və rayon partiya komitələri partiyaya qəbul və partiya üzvlüyünə namizədlərin tərbiyə edilməsini yaxşılaşdırmaq üçün planlı və müntəzəm iş aparırlar. Azərbaycan Kommunist Partiyasının XXX qurultayında H.Ə.Əliyev yoldaş demişdir: "Partiya üzvlərinin qarşılıqlı tələbkarlığı artırılmalı, onlarda sıralarımızın saflığı üçün kollektiv və şəxsi məsuliyyət hissləri tərbiyə edilməli, zəmanət verilən və partiya üzvlüyünə namizəd qəbul edilən adamların ideya-mənəvi və iş keyfiyyətləri diqqətlə yoxlanılmalıdır. Partiyanın fəal döyüşçülərinin səmərəli tərbiyəsi üçün bütün vasitələrdən və imkanlardan istifadə olunmalıdır. İlk partiya təşkilatları burada həlledici rol oynamalıdırlar".

Respublikamızın bir çox ilk partiya təşkilatı partiya sıralarının artırılması və gənc kommunistlərin tərbiyə edilməsi sahəsində səmərəli iş təcrübəsi qazanmışdır. L-t Şmidt adına maşınqayırma zavodunun partiya təşkilatını buna misal göstərə bilərik. Müəssisənin partiya təşkilatında 460 kommunist vardır. Hər il partiyaya orta hesabla 30 nəfər qəbul olunur. Partiyaya yeni qəbul edilənlər arasında, bir qayda olaraq, müəssisədəki bütün kollektivin fəaliyyətinin nəticələri bilavasitə onlardan asılı olan təşəbbüskar işçilər əksəriyyət təşkil edirlər.

Zavodun partiya təşkilatında adamların seçilib partiyaya qəbul edilməsinin bütöv sistemi yaradılmışdır. Bitərəf fəallar yaradılması və onlarla məqsədyönlü fərdi iş aparılması bu

sistemin mühüm ünsürüdür. Zavodun partiya təşkilatı partiya üçün təzə qüvvələri birinci növbədə məhz bitərəf fəallar hesabına əldə edir. Fəalların tərkibinə dəfələrlə sosializm yarışında qalib gələnlər, yenilikçilər və səmərələşdiricilər, həmkarlar ittifaqı və komsomol fəalları, xalq nəzarətçiləri və b. daxildirlər. Partiya təşkilatı fəalların təşəbbüskarlığını bacarıqla genişləndirir, onları partiya təşkilatının qarşısında duran ümumi vəzifələrin yerinə yetirilməsinə cəlb edir, onları konkret tapşırıqların yerinə yetirilməsində yoxlayır. Partiya qrup təşkilatçıları, sex partiya təşkilatlarının katibləri bu işdə bilavasitə iştirak edir, gələcəkdə fəallardan kimlərin partiyaya qəbul edilməyə məsləhət görülə biləcəyi haqqında partiya komitəsinə öz fikirlərini bildirirlər. Yalnız bundan sonra partiyaya qəbul ediləcək adamlar müəyyən olunur, bu adamlarla da fərdi iş aparılır.

Partiya sıralarının artmasının keyfiyyəti zəmanət verənlərlə ilk partiya təşkilatlarının necə işləməsindən xeyli dərəcədə asılıdır. Sov.İKP Mərkəzi Komitəsi Qırğızıstan barəsində özünün qərarında partiyaya keçməyə zəmanət verdikləri adamın kim olduğu, onun tam obyektiv xarakterizə olunması üçün kommunistlərin məsuliyyətini yüksəltmək lüzumunu qeyd etmişdir. Zəmanət verən şəxs zəmanət verdiyi adam üçün cavabdeh olmaqla yanaşı, həm də onun ideya, işgüzarlıq və əxlaqi cəhətdən artmasına da kömək etməlidir. L-t Şmidt adına zavodun partiya təşkilatında partiyaya daxil olmaq üçün zəmanəti, adətən, bitərəf fəallarla işə cəlb olunan kommunistlər verirlər. Zəmanət verən şəxs partiyaya daxil olan adamla onun partiyaya daxil edilməsindən qabaq fərdi iş aparır, sonra isə gənc kommunistin yaxın dostu və məsləhətçisi olur. Onlar partiya təşkilatı ilə birlikdə həmin şəxsin Sov.İKP üzvü qarşısında qoyulan vəzifələr səviyyəsinə yüksəlməsinə kömək edirlər.

Zavod partiya təşkilatı partiya üzvlüyünə namizədliyə qəbul zamanı əmək kollektivinin rəyini nəzərə alır. Qəbul məsələsinə briqada və ya sahənin bitərəf üzvlərini, yəni onunla birlikdə işləyənləri dəvət etməklə açıq partiya yığıncaqlarında baxılır. Bu zaman partiyaya daxil olan şəxsin ləyaqəti və nöqsanları hərtərəfli müzakirə olunur, ona müvafiq arzular bildirilir və tövsiyələr verilir. Partiya təşkilatı çalışır ki, partiyaya daxil olan adam haqqında təkcə kommunistlər deyil, həm də onun işdə və məişətdə özünü necə apardığı ilə yaxşı tanış olan bitərəf yoldaşlar da öz fikirlərini söyləsinlər.

Namizədlik stajı partiyalılıq məktəbi adlandırılır. Bu il ərzində partiya təşkilatı hər bir namizədi yaxşı tanımaq, partiya üzvlüyünə daxil olmaq üçün onun hazırlanmasına kömək etmək imkanına malik olur. İlk gündən çalışmaq lazımdır ki, bu yoxlama müddəti formal xarakter daşımasın. Sov.İKP partiya üzvlüyünə namizədlərlə fəal iş aparmaq lazım gəldiyini dəfələrlə göstərmişdir. L.İ.Brejnev yoldaş demişdir: "Partiya üzvlüyünə namizədin siyasi və iş keyfiyyətlərinin hərtərəfli yoxlanmasına, onun marksizm-leninizm ruhunda tərbiyə edilməsinə – bütün bu işlərə tam ciddiyyətlə yanaşmaq lazımdır. Biz unutmamalıyıq ki, hər bir kommunist partiyanın yüksək ideyalı, fəal döyüşçüsü olmalı, kommunizm qurucuları sıralarının önündə getməlidir" (Lenin yolu ilə, 5-ci cild, səh.566-567).

Namizədlik stajı təkcə sınaq müddəti deyil, həm də partiya yetkinliyinə hazırlıqdır. Şübhəsiz, birinci növbədə partiya üzvlüyünə namizəd özünü bütün cəhətlərdən yoxlamalı, əməkdə və məişətdə sınamalı, düzgün özünüqiymətləndirmə və özünütərbiyə bacarığına yiyələnməli, öz kollektivində daha çox hörmət və şöhrət qazanmalıdır və s. Lakin bu vəzifə o zaman müvəffəqiyyətlə həll edilir ki, namizədlik stajının səmərəli keçməsində

həm zəmanət verənlər, həm də ilk partiya təşkilatı gənc kommunistə kömək etsinlər. Bu vəzifə də l-t Şmidt adına zavodun partiya təşkilatında bacarıqla həll edilir. Burada partiya namizədləri partiya işinə və ictimai işə fəal cəlb olunurlar, əməli işlərdə, konkret tapşırıqların yerinə yetirilməsində yoxlanılırlar. Partiya təşkilatı çalışır ki, namizədlərin hər biri marksizm-leninizm ideyalarını və partiyanın siyasətini dərindən öyrənsin, kommunistin vəzifələrini və hüquqlarını yaxşı mənimsəsin. Partiya üzvlüyünə namizədlər gənc kommunistlər məktəblərində, partiya təhsili və iqtisadi təhsil seminarlarında və dərnəklərində məşğul olurlar. Partiya yığıncaqlarında və büro iclaslarında onların məlumatları dinlənilir. Praktika göstərir ki, bu cür iş formaları özünü doğruldur, onlardan geniş istifadə etmək lazımdır.

Partiyaya qəbul olunanlarla aparılan həmin iş sistemi Bakı mayesiz transformatorlar zavodunun, İsmayıllı rayonundakı M.İ.Kalinin adına kolxozun ilk partiya təşkilatlarında da fəaliyyət göstərir.

Partiyaya qəbul məsələsini bacarıqla həll edən və yaxşı nəticələrə nail olan partiya təşkilatlarımız az deyildir. Eyni zamanda, qeyd etməmək olmaz ki, bəzi partiya təşkilatlarında partiya sıralarına qəbul edilənlərin siyasi, işgüzarlıq və mənəvi keyfiyyətləri heç də həmişə diqqətlə yoxlanılmır. Bəzi kommunistlər, habelə rayon və şəhər komsomol komitələri partiyaya daxil olanlara zəmanət verilməsinə kifayət qədər məsuliyyətlə yanaşmırlar. Partiya yığıncaqlarında Sov.İKP-yə qəbul məsələsi bəzən hərtərəfli müzakirə edilmir. Bunun da nəticəsində partiya sıralarına hazırlıqsız, təsadüfi adamların düşməsi halları olur. Namizədlik stajı keçməsinə formal yanaşılması, partiya

üzvlüyünə namizədlər ilə kifayət qədər dərindən və planlı iş aparılmaması hallarına hələ də təsadüf edilir.

Şəhər və rayon partiya komitələri bütün ilk partiya təşkilatlarında partiyaya qəbul və gənc kommunistlərin tərbiyə edilməsi məsələlərinə elmi cəhətdən əsaslandırılmış şəkildə yanaşılmasına nail olmalıdırlar.

Son illərdə ilk partiya təşkilatlarına rayon və şəhər partiya komitələrinin əksəriyyətinin rəhbərliyi yaxşılaşmışdır. Məsələn, Sumqayıt Şəhər Partiya Komitəsi yerlərdə işin vəziyyətini müntəzəm surətdə və diqqətlə öyrənir, şəhər komitəsinin büro iclaslarında partiya təşkilatlarının hesabatlarını vaxtaşırı dinləyir, qəbul olunan qərarların yerinə yetirilməsini təmin etmək üçün lazımi işlər görür. Bütün bunların nəticəsidir ki, şəhərin partiya təşkilatları yeni üzvlər qəbuluna daha ciddi, tələbkarlıqla yanaşmağa, partiya üzvlüyünə namizədlərin tərbiyə işinə daha çox diqqət yetirməyə başlamışlar.

Lənkəran Şəhər Partiya Komitəsinin partiya komissiyası partiyaya qəbul edilənlərin tərkibinin keyfiyyətcə yaxşılaşması, Nizamnamənin tələblərinə ciddi riayət edilməsi sahəsində böyük və faydalı iş görür. Komissiyanın üzvləri daim ilk partiya təşkilatlarında olur, onlara konkret yardım göstərir, partiyaya daxil olmağa hazırlaşanlarla, zəmanət verənlərlə söhbətlər aparır, təqdim edilən sənədlərin məzmununu öyrənir və onların düzgün tərtib olunmasını yoxlayırlar.

Son vaxtlarda bəzi rayon və şəhər partiya komitələri Sov.İKP üzvlüyünə namizədlərlə işin yeni və maraqlı formalarını tətbiq etməyə başlamışlar. Söhbət gənc kommunistlərin yığıncaqlarından və ya görüşlərindən gedir. Bu yığıncaq və görüşlərdə namizədlər rayon və ya şəhər partiya təşkilatında işlərin vəziyyəti ilə tanış edilirlər, Sov.İKP XXVI qurultayının və

Azərbaycan Kommunist Partiyası XXX qurultayının qərarları ilə əlaqədar olaraq kommunistlərin qarşısında duran vəzifələrdən danışırlar. Yenə həmin görüş-yığıncaqlarda gənc kommunistlər çıxış edib özlərinin namizədlik stajını keçmək təcrübələrindən, gələcək planlarından bəhs edirlər. Çox zaman belə yığıncaqlarda rayon və ya şəhər partiya təşkilatının quruluşu haqqında, habelə onun şöbələrinin işi haqqında məlumat verilir.

Belə bir iş forması namizədlərin Sov.İKP üzvü vəzifələrini yerinə yetirməyə hazırlığının yüksəldilməsinə kömək edir.

Partiya sıralarının artımının tənzim edilməsində və onun keyfiyyət tərkibinin yaxşılaşmasında şəhər və rayon partiya komitələri böyük məsuliyyət daşıyırlar. Bununla yanaşı, faktlar göstərir ki, heç də hər yerdə partiya komitələri bu mühüm iş sahəsinə lazımınca diqqət yetirmirlər. Bəzi partiya komitələri partiya sıraları artımının tərkibini tənzim edərkən əhalinin sosial strukturunda baş verən dəyişiklikləri, əmək kollektivlərinin xüsusiyyətlərini, xalq təsərrüfatının və mədəniyyətin müxtəlif sahələrində partiya təsirini qüvvətləndirmək lüzumunu nəzərə almırlar.

Partiyaya qəbul və kommunistlərin tərbiyəsi sahəsində partiya təşkilatlarının işinin yaxşılaşdırılması partiya sıralarının daha da möhkəmləndirilməsi, cəmiyyətdə onun rəhbər rolunun yüksəlməsi üçün böyük əhəmiyyətə malikdir.

*"Azərbaycan kommunisti" jurnalı,*
*№9, 1981-ci il.*

## PARTİYADAXİLİ DEMOKRATİYA VƏ PARTİYA İNTİZAMININ MÖHKƏMLƏNDİRİLMƏSİ

Yetkin sosializm cəmiyyəti inkişafının xarakteri, yerinə yetirilən vəzifələrin geniş miqyası və mürəkkəbliyi Sov.İKP-nin fəaliyyətində keyfiyyətcə yeni proseslər yaranmasına səbəb olmuşdur. Bu, ən əvvəl, partiyanın rəhbər rolunun durmadan artmasından, partiyadaxili işin, partiya rəhbərliyi üslubu, formaları və metodlarının təkmilləşməsindən ibarətdir. Partiyanın təşkilat quruluşunun və rəhbər fəaliyyətinin sarsılmaz əsası olan, partiyadaxili demokratiyanın və ciddi partiya intizamının geniş inkişafını, partiya sıralarının mütəşəkkilliyini və sıx birliyini təşkilati-siyasi işin yüksək səmərəliliyi uğrunda, Sov.İKP XXVI qurultayının işləyib hazırladığı, elmi cəhətdən əsaslandırılmış siyasətin müvəffəqiyyətlə həyata keçirilməsi uğrunda mübarizədə hər bir kommunistin fəallığı ilə qırılmaz şəkildə əlaqələndirən demokratik mərkəziyyət prinsipləri zənginləşir və inkişaf edir. Sov.İKP XXVI qurultayında deyildiyi kimi, demokratik mərkəziyyət Kommunist partiyası həyatının pozulmaz normasıdır və mərkəzlə yerlərin, rəhbər partiya orqanları ilə partiya kütlələrinin ən sıx, ikitərəfli əlaqəsini tələb edir.

Sov.İKP MK-nın noyabr (1982-ci il) plenumu beşilliyin üçüncü ilində partiya komitələri və təşkilatlarının fəaliyyət göstərməli olduğu ümdə istiqamətləri müəyyən etmiş və onları

partiyadaxili demokratiyanın və partiya intizamının daha da möhkəmləndirilməsinə doğru yönəltmişdir.

Son on üç ildə partiyadaxili demokratiyanın hər vasitə ilə inkişaf etdirilməsi və partiya intizamının möhkəmləndirilməsi əsasında təşkilati-siyasi işin, onun bütün forma və metodlarının təkmilləşdirilməsi Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin praktik fəaliyyətinin ən mühüm istiqamətidir. Bu elə bir vasitədir ki, onun köməyi ilə kommunistlərin, bütün zəhmətkeşlərin təşəbbüsü və yaradıcılığı üçün, iqtisadi və sosial quruculuğun bütün sahələrində sosializm yarışı üçün geniş üfüqlər açılır. Doqquzuncu və onuncu beşilliklərdə respublikanın nailiyyət və müvəffəqiyyətləri Sov.İKP XXV və XXVI qurultaylarının qərarlarına uyğun olaraq ideya-siyasi işin və partiya təşkilatçılıq fəaliyyətinin bütün istiqamətlərində Azərbaycan partiya təşkilatının həyata keçirdiyi əsaslı dəyişikliklərlə bağlıdır.

Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumundan başlayaraq respublika partiya təşkilatı mənfi hallara qarşı gərgin, ardıcıl, məqsədyönlü mübarizə aparır, xalq təsərrüfatına rəhbərlikdə yol verilmiş ciddi nöqsanları, səhvləri və qüsurları aradan qaldırır. Respublikanın həyatında ideya-mənəvi əsasları möhkəmlətmək, sağlam mənəvi-psixoloji mühit yaratmaq sahəsində bu iş planauyğun, kompleks xarakter daşıyır və partiya, dövlət və təsərrüfat rəhbərliyinin bütün sahələrində kadrların seçilməsi, yerləşdirilməsi və tərbiyə edilməsinə dair Lenin prinsiplərinə dönmədən əməl olunması bu işin müvəffəqiyyətini xeyli dərəcədə müəyyən edir.

Azərbaycan Kommunist Partiyası XXIX və XXX qurultaylarının irəli sürdüyü vəzifələr, bu vəzifələri əməli şəkildə

yerinə yetirmək üçün qəbul olunan tədbirlər bütün sahələrdə işin səmərəliliyi və keyfiyyətinin yüksəlməsinə, işdə səthiliyin, ibarəbazlığın və formalizmin, partiya həyatı normaları və prinsiplərinin pozulmasının aradan qaldırılmasına kömək etmişdir.

Respublika partiya təşkilatının həyatında müasir mərhələ partiya rəhbərliyinin kollektivliyi prinsipinin genişlənməsi, dərinləşməsi və möhkəmlənməsi ilə əlamətdardır ki, bu da partiyanın aşağı pillələrinin işinə, kommunistlərin, bütün zəhmətkeşlərin yaradıcı fəallığının artmasına, partiya qərarlarının işlənib hazırlanmasında və həyata keçirilməsində onların yaxından iştirak etməsinə müsbət təsir göstərir, mümkün ola biləcək səhvləri minimuma endirir. Məlum olduğu kimi, V.İ.Lenin "...on milyonlarla yaradıcı adamların zehni ən böyük və dahiyanə qabaqgörənlikdən müqayisə edilməyəcək dərəcə daha yüksək bir şey yaradır" (Əsərləri, 26-cı cild, səh. 484) fikrini irəli sürərkən, partiya rəhbərliyinin kollektivliyi prinsipinə ciddi əməl olunmasını partiya təşkilatlarının və bütövlükdə partiyanın normal fəaliyyəti üçün ən mühüm şərt, qəbul olunan qərarların subyektiv, təsadüfi və birtərəfli xarakter daşımasına qarşı təminat hesab edirdi. Partiya komitələrində və ilk partiya təşkilatlarında kollektiv iş prinsipinə – partiya rəhbərliyinin bu ali prinsipinə ciddi əməl olunması onların fəaliyyətinin səmərəliliyini artırır. Bu fəaliyyət getdikcə daha çox dərəcədə mütəşəkkil, işgüzar, yaradıcı xarakter daşıyır, ictimai-siyasi həyatın mürəkkəb məsələlərinin həllinə yaradıcı və eyni zamanda prinsipial münasibət bəslənilməsi, kadrlara, bütün kommunistlərə qarşı tələbkarlığın daim yüksəlməsi, təşkilatçılıq və ideya tərbiyəsi işinin güclənməsi ilə fərqlənir.

Hazırda respublika partiya təşkilatında iqtisadi, siyasi, sosial inkişafın bütün prinsipial məsələlərinin partiya yığıncaqlarında və konfranslarında geniş müzakirə edilməsi pozulmaz qaydaya çevrilmişdir. Həm də bu, təkcə hazır layihələrin müzakirəsindən ibarət deyildir. Bu və ya başqa problemlərin təhlili və onların barəsində konkret qərarlar hazırlanması üçün kommunistlər müxtəlif əməli qruplarda, daimi fəaliyyət göstərən komissiyalarda və s. iştirak edirlər.

Məsələn, Sov.İKP XXV və XXVI qurultaylarından sonra respublikanın iqtisadi və sosial inkişafının əsas istiqamətlərini hazırlamaq üçün MK bürosunun üzvləri, MK katibləri, Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavinləri başda olmaqla bir neçə daimi komissiya işləmişdir. Bu komissiyalar kommunistlərin geniş təbəqələrinə arxalanaraq, iqtisadi və sosial proseslərin tənzimlənməsinə onları cəlb edərək, bir çox kollektivlərin fəaliyyətinin düzgün istiqamətləndirilməsinə kömək etmişlər.

Ən mühüm qərarların yerinə yetirilməsinin gedişi haqqında ilk partiya təşkilatları qarşısında hesabat vermək MK-nın, vilayət, şəhər və rayon partiya komitələrinin iş təcrübəsinə möhkəm daxil olmuşdur. İlk partiya təşkilatı yığıncaqlarının, partiya komitələri plenumlarının və partiya fəalları yığıncaqlarının işində MK bürosu üzvlərinin, Mərkəzi Komitə katiblərinin, respublikanın rəhbər işçilərinin iştirakı geniş tətbiq edilir. Bu cəhət xüsusilə mühümdür ki, partiya orqanlarının fəaliyyətinə aid bir çox məsələ qərar qəbul edilməzdən əvvəl əmək kollektivlərində müzakirə olunur, qərarın işlənib hazırlanmasına seçkili orqanların üzvləri və sıravi kommunistlər cəlb edilirlər. Növbəti plenumdan əvvəl Azərbaycan KP MK-nın bütün partiya, sovet, həmkarlar ittifaqı, komsomol təşkilatlarına, təsərrüfat orqanlarına müraciət edərək,

onları plenumun hazırlanmasında fəal iştirak etməyə, öz mülahizə və təkliflərini bildirməyə çağırması respublika partiya təşkilatının fəaliyyətində ənənəyə çevrilmişdir.

1982-ci ilin mart ayında keçirilən və Sov.İKP XXVI qurultayının tələbləri ilə əlaqədar olaraq, respublikada heyvandarlığın daha da inkişaf etdirilməsi və onun yem bazasının möhkəmləndirilməsi məsələlərini müzakirə edən plenuma hərtərəfli hazırlıq geniş miqyas almışdı. Bu plenumun çağırılması barədə qərar yarım il qabaqcadan mətbuatda dərc olunmuşdu. Plenumun hazırlanmasında heyvandarlıq mütəxəssislərinin böyük ordusu, alimlər, respublikanın geniş ictimaiyyəti iştirak etmişdir. MK-da, vilayət, şəhər və rayon partiya komitələrində operativ qruplar yaradılmışdı, hər bir fermada, briqadada, kolxozda, sovxozda, təsərrüfatlararası birlikdə işin vəziyyəti hərtərəfli öyrənilirdi. Respublika mətbuatının səhifələrində “Azərbaycan KP MK plenumu qarşısında” rubrikası açılmışdı. Azərbaycan KP MK-ya, nazirliklərə, baş idarələrə, qəzet redaksiyalarına, radio və televiziyaya üç mindən çox məktub daxil olmuş, bu məktublarda təklif və tövsiyələr verilmişdir. Heyvandarlır və yem istehsalı problemlərinin müzakirəsində 500 mindən çox adam iştirak etmişdir. Həmin dövrdə Azərbaycan KP MK İsmayıllı rayonundakı Qırmızı Əmək Bayrağı ordenli Kalinin adına kolxozda vilayət, şəhər və rayon partiya, sovet və təsərrüfat orqanları, respublikanın kənd təsərrüfatı nazirlikləri və baş idarələri rəhbər işçilərinin, alim və mütəxəssislərin bu təsərrüfatın qabaqcıl təcrübəsinin öyrənilməsinə həsr olunmuş seminar-müşavirəsini keçirmişdir. Seminar-müşavirənin yekunları Azər-

baycan KP MK-nın bürosunda müzakirə olunmuş, Kalinin adına kolxozun bazasında respublika qabaqcıl təcrübə məktəbi yaradılmışdır.

Azərbaycan KP MK-nın 1975-ci ilin iyul ayında keçirilən, kadrların seçilməsi, yerləşdirilməsi və tərbiyə edilməsi məsələsinə həsr olunan plenumuna da vaxtilə belə hazırlıq görülmüşdü. Ən mühüm partiya sənədləri, ümdə vəzifələrin, məsələn, Sov.İKP XXVI qurultayı və Azərbaycan KP XXX qurultayı qərarlarının əməli olaraq həyata keçirilməsi sahəsində təşkilat-təbliğat tədbirləri də bu üsulla işlənib hazırlanmış və hazırlanmaqdadır, bir neçə digər əsaslı məsələlər də belə müzakirə edilmişdir.

Həyat sübut edir ki, respublika partiya təşkilatı qarşısında duran vəzifələr mürəkkəbləşdikcə, onları daha dərindən və hərtərəfli müzakirə etmək tələb olunur, müzakirə iştirakçılarının sayı çoxaldıqca, ən optimal qərar çıxarılacağına təminat da artır. Partiya rəhbərliyinin istehsalata yaxınlaşdırılması partiyadaxili demokratiyanın inkişafına müsbət təsir göstərir. Doqquzuncu və onuncu beşilliklərdə rayon, sənaye və kənd təsərrüfatı müəssisələri rəhbərlərinin Azərbaycan KP MK-da operativ müşavirələri, MK bürosu üzvlərinin iştirakı ilə zona və rayon fəallar müşavirələri keçirilməsi təcrübəsi özünü tamamilə doğrultmuşdur.

İşlərin vəziyyətinin bilavasitə yerlərdə, təsərrüfatlarda öyrənilib sonra rayon və zona partiya-təsərrüfat fəalları yığıncaqlarında müzakirə olunması yeni, qabaqcıl təcrübəni vaxtında görüb müdafiə etməyə, nöqsanları aşkara çıxarıb aradan qaldırmağa, yerli orqanlara lazımi yardım göstərməyə, onların işi üçün stimul yaratmağa imkan verir. MK bürosunun bu iş forması

respublikanın bütün kommunistləri və zəhmətkeşləri tərəfindən bəyənilmişdir. Başlıca cəhət budur ki, kommunistlərin və bitərəflərin geniş kütlələri respublikanın ictimai-siyasi və təsərrüfat-iqtisadi həyatında özlərinin yaxından iştirakının ictimai əhəmiyyətini aydın dərk etməyə başlamışlar.

Azərbaycan KP MK, vilayət, şəhər, rayon partiya komitələri yanında məhsulun keyfiyyətinin yaxşılaşdırılması məsələlərini, kənd təsərrüfatı, nəqliyyat, tikinti ilə əlaqədar, gənc mütəxəssislərin bölüşdürülməsi və xalq təsərrüfatında onlardan səmərəli istifadə olunması və s. kimi məsələləri operativ həll etmək üçün komissiyalar yaradılmışdır. Onların işində minlərlə kommunist və bitərəf fəal iştirak edir. Qeyd etmək lazımdır ki, bu komissiyalar olduqca böyük əlavə qüvvələri səfərbərliyə alır, zəhmətkeşlərin geniş təbəqələrini xalq təsərrüfatının əməli şəkildə idarə olunmasına cəlb edir, istehsalın təşkilində və idarə olunmasında demokratik prinsiplərin inkişaf etdirilməsinin fəal formasına çevrilir.

Vahid siyasi günlər də kütlələrin yaradıcı fəallığının inkişafı sahəsində yaxşı iş forması olmuşdur. MK bürosunun üzvləri, MK aparatının məsul işçiləri, respublika nazirliklərinin və baş idarələrinin rəhbərləri, aparatların işçiləri həmin günlərdə əmək kollektivlərində adamlarla görüşür, onların qarşısında çıxış edirlər. Bu görüşlər zamanı irəli sürülən təkliflər və tənqidi mülahizələr ümumiləşdirilir, onların barəsində tədbirlər görülür, qərarlar hazırlanıb qəbul edilərkən həmin təkliflər nəzərə alınır.

Sosioloji tədqiqatlar partiya işinin səmərəliliyini xeyli yüksəldir. Zəhmətkeşlərin ictimai rəyinin öyrənilməsi siyasi problemləri kompleks halında öyrənmək işinə Lenin

münasibətinə, onun "Faktlara mümkün qədər çox bələd olmalı... Ziyalı və bürokrat lovğalığı az olmalı, mərkəzdə və yerlərdəki əməli təcrübəmizin nə kimi nəticələr verdiyini və elmin bizə artıq vermiş olduğu nailiyyətləri öyrənməklə daha çox məşğul olmalı" (Əsərləri, 32-ci cild, səh. 145-146) tələbinə tamamilə uyğun gəlir.

Azərbaycanda ictimai rəyin öyrənilməsi, formalaşdırılması, proqnozlaşdırılması və sosioloji tədqiqatlar sahəsində mükəmməl sistem yaradılmışdır. Respublika partiya təşkilatı kütlələrin kollektiv təcrübəsinə və fikrinə əsaslanaraq, Azərbaycan KP MK yanında yaradılmış İctimai Rəyi Öyrənmə və Sosioloji Tədqiqatlar Mərkəzinin köməyi ilə, Azərbaycan SSR Elmlər Akademiyasının, nazirliklərin və baş idarələrin sistemində, sənaye müəssisələrinin, tikinti idarələrinin, kolxoz və sovxozların, tədris müəssisələrinin partiya komitələrində fəaliyyət göstərən bütün sosioloji xidmət və bölmələrdən istifadə etməklə konkret məsələlər barəsində ictimai rəyi öyrənir. Sosioloji tədqiqatların nəticələri adamların mənəvi, siyasi tərbiyəsinə, onların ictimai rəyinin formalaşmasına yardım göstərir, bütün ictimai-siyasi təsir vasitələrindən ən böyük səmərə ilə istifadə olunmasına kömək edir. Qarşıya qoyulan vəzifələri yerinə yetirməyin konkret yolları tövsiyələr əsasında müəyyən olunur.

Ali və orta ixtisas təhsili sisteminin daha da yaxşılaşdırılmasının aktual problemləri və xüsusən qəbul imtahanlarının təşkili məsələləri barəsində ictimai rəyin öyrənilməsinə partiya komitələrinin, nazirliklərin və baş idarələrin sosioloji xidmətlərinin bütün şəbəkəsi cəlb olunmuşdu. 1982-ci ilin yayında qəbul imtahanları ərəfəsində və gedişində aparılan iş respublika mətbuatı səhifələrində, televiziya və radioda

işıqlandırıldı. Respublika əhalisinin geniş təbəqələri mərkəzin müraciətinə öz rəylərini bildirdilər, müraciətdə qoyulan məsələlər tədris müəssisələrində və əmək kollektivlərində keçirilən yığıncaqlarda dərin maraq hissi ilə müzakirə olundu. Mərkəzə fasiləsiz axınla gələn məktub və teleqramlar adamların sosial fəallığına, yüksək siyasi şüurluluğuna və mədəniyyətinə dəlalət edirdi. Ən qiymətli və zəngin sosial informasiya mənbələrindən birinə çevrilmiş iki mindən çox məktubun ümumiləşdirilməsi ali məktəbin fəaliyyətinin daha da yaxşılaşdırılmasına öz müsbət təsirini göstərir.

V.İ.Lenin demokratizmi "seçki qaydasının hər yerdə tətbiq olunması" (Əsərlərinin tam külliyyatı, 9-cu cild, səh. 178) kimi qiymətləndirirdi. Partiya orqanlarının seçkili olması partiyanın demokratik xarakterinin ən birinci əlamətidir. Leninin sözləri ilə desək, bu demokratik xarakter özünü onda göstərir ki, "partiyanın bütün işlərini, bərabər hüquq əsasında və heç bir istisna olmadan partiyanın bütün üzvləri bilavasitə və ya nümayəndələr vasitəsilə idarə edirlər: həm də partiyanın bütün vəzifəli adamları, bütün rəhbər kollegiyaları, bütün orqanları seçilir, hesabat verir və dəyişdirilə bilər" (Əsərlərinin tam külliyyatı, 14-cü cild, səh. 276). Seçkili partiya orqanlarının tərkibində əmələ gələn müsbət keyfiyyət və kəmiyyət dəyişiklikləri respublika partiya təşkilatının fəaliyyətində Leninin bu müddəasının dönmədən inkişaf etdirildiyinə, partiyadaxili demokratiya və kollektiv rəhbərlik prinsiplərinin ardıcıl şəkildə həyata keçirildiyinə əyani sübutdur.

Respublikanın ilk partiya təşkilatlarında 1982-ci ildə keçirilmiş hesabat və seçkilər partiya ilə xalqın monolit

birliyinin parlaq nümayişinə, Sov.İKP-nin və sovet dövlətinin daxili və xarici siyasətinin kommunistlər tərəfindən yekdilliklə bəyənilməsinin ifadəsinə çevrilmiş, işgüzarlıq və yüksək fəallıq şəraitində keçmişdir. Hesabat-seçki yığıncaqlarının işində Azərbaycan KP MK üzvləri və üzvlüyə namizədlər, respublikanın rəhbər orqanlarının məsul işçiləri iştirak etmişlər. Yığıncaqlarda hesabat məruzələrinin müzakirəsində 217 mindən çox adam çıxış etmişdir, onların 54,5 faizi fəhlələr və kolxozçulardır.

Yığıncaqların işgüzar, əməli xarakter daşıdığı belə bir faktdan da görünür ki, burada 29 min tənqidi mülahizə və təklif irəli sürülmüş, müvafiq qaydada ümumiləşdirildikdən və təhlil olunduqdan sonra onların həyata keçirilməsi üçün lazımi tədbirlər görülmüşdür.

Hesabat və seçkilər zamanı partiya qruplarının, sex və ilk partiya təşkilatlarının rəhbərliyinə fəhlə sinfinin, kolxozçu kəndlilərin, ziyalıların ən layiqli nümayəndələrinin irəli çəkilməsi hesabına partiya təşkilatlarının seçkili fəallarının keyfiyyət tərkibi yaxşılaşmışdır. İlk partiya təşkilatı katiblərinin 63,5 faizi ali və natamam ali təhsilə malikdir. Onların arasında fəhlələrin sayı artıb 16,4 faizə çatmışdır. Ümumiyyətlə 29.696 fəhlə, 10.307 kolxozçu, 22.344 qadın ilk və sex partiya təşkilatı katibləri, katib müavinləri, partiya qrup təşkilatçıları və bu vəsilələrdə seçkili orqanların üzvləri seçilmiş, kommunistlər onları yerlərdə partiyanın siyasətini həyata keçirməyə vəkil etmişlər. Kollegial orqanların tərkibinin müntəzəm surətdə təzələnməsi xeyli miqdarda kommunistin kollektiv partiya rəhbərliyi məktəbi keçməsinə imkan verir.

Seçkili fəalların keyfiyyət tərkibinin yaxşılaşması ilə yanaşı, varisliyi də təmin olunmuşdur. Səciyyəvi haldır ki, hesabat və seçkilərin hazırlanması və keçirilməsi dövründə partiyanın aşağı vəsilələrinin strukturu təkmilləşdirilmiş, əlavə olaraq 756 partiya qrupu, 357 sex və 92 ilk partiya təşkilatı yaradılmışdır. Azərbaycan KP MK-nın 1982-ci ilin mart ayında keçirilmiş plenumunun qərarına uyğun olaraq, heyvandarlıq fermalarının 45,7 faizində partiya qrupları və sex partiya təşkilatları yaradılmışdır.

Respublika partiya təşkilatı seçkili partiya fəallarının rolunun artırılmasına daim qayğı göstərir. 208 kommunist Azərbaycan KP MK üzvü və üzvlüyə namizəddir. Respublika partiya təşkilatının təftiş komissiyasına 57 nəfər Sov.İKP üzvü seçilmişdir. Onların arasında fəhlə və kolxozçular, sənaye, nəqliyyat, rabitə və tikinti müəssisələrinin, kolxoz və sovxozların rəhbərləri, kənd təsərrüfatı mütəxəssisləri, partiya və sovet işçiləri, elm, mədəniyyət, maarif və səhiyyə nümayəndələri vardır. Vilayət, şəhər, rayon partiya komitələrinin tərkibinə 7.134 nəfər daxildir, onların 43 faizi fəhlə və kolxozçulardan ibarətdir. Belə nümayəndəlik Mərkəzi Komitəyə, habelə vilayət, şəhər, rayon partiya komitələrinə respublikanın həyatının bütün sahələrinə təsir göstərmək, mürəkkəb işlərdən baş çıxarmaq, əməli təcrübəni təhlil etmək və ümumiləşdirmək imkanı verir.

Lakin heç də bütün partiya komitələri seçkili fəalların qüvvə və imkanlarından tamamilə istifadə etmirlər. Masallı Rayon Partiya Komitəsinin seçkili partiya fəalları ilə apardığı işin vaxtilə Azərbaycan KP MK bürosunda müzakirəsinin göstərdiyi kimi, orada komitə üzvlərinin partiya tapşırıqlarını necə yerinə yetirdikləri, ictimai və xidməti fəaliyyətləri barədə onların

məlumatlarının müntəzəm surətdə dinlənilməsi tətbiq edilmirdi. Komitə üzvlərinin əksəriyyəti rayon partiya komitəsi plenumlarının və büro iclaslarının, partiya fəalları yığıncaqlarının hazırlanmasına cəlb olunmurdu. Bütün bunlar partiya komitəsi işinin səmərəliliyini azaldırdı.

Respublika partiya təşkilatında partiya yığıncaqlarının və partiya komitələri plenumlarının rolunu artırmaq və onların keçirilməsi praktikasını təkmilləşdirmək sahəsində mühüm iş aparılır. Son illərdə Azərbaycan KP MK-nın bürosunda və katibliyində Sov.İKP XXVI qurultayının tələbləri ilə əlaqədar olaraq Əzizbəyov, Zaqatala və Zərdab rayon partiya təşkilatlarında siyasi rəhbərlik, iş üslubu və metodlarının təkmilləşdirilməsi praktikasının müxtəlif məsələləri müzakirə edilmişdir. Yerli partiya təşkilatlarında da müvafiq məsələlər müzakirə olunur. Azərbaycan KP MK kollektiv rəhbərlik orqanları, geniş və açıq fikir mübadiləsi tribunası, kommunist tərbiyəsi məktəbi olan plenumların, yığıncaqların əhəmiyyətini hər vasitə ilə artırır.

Respublika partiya təşkilatında partiya təşkilatlarının mübarizliyinin, partiyadaxili münasibətlərin yetkinliyinin mühüm göstəricisi olan tənqid və özünütənqidi demokratik zəmin əsasında genişləndirmək sahəsində fəal iş aparılır. Partiya, sovet və təsərrüfat orqanlarının işində olan nöqsanlar, nazirliklərin və baş idarələrin rəhbərlərinin, MK və Nazirlər Soveti şöbələrinin işindəki qüsurlar və səhvlər MK-nın plenumlarında və fəallar yığıncaqlarında açıq və kəskin tənqid edilir. Tambov vilayət partiya təşkilatı haqqında Sov.İKP MK qərarının yerinə yetirilməsi sahəsində bir neçə rayon partiya komitəsinin hesabatı Azərbaycan KP MK-da dinlənilmişdir.

Azərbaycan KP MK partiya komitələrini daim bu istiqamətə yönəldir ki, tənqid sözçülük xarakteri daşımasın, nöqsanların aradan qaldırılması üçün konkret tədbirlərlə möhkəmləndirilsin. Məlumdur ki, V.İ.Lenin tənqid və özünütənqidin hər vasitə ilə inkişaf etdirilməsini partiyanı möhkəmləndirmək və onun fəaliyyətini yaxşılaşdırmaq üçün vacib şərt hesab edir, xəbərdarlıq edib deyirdi ki, öz fəaliyyətinin yekunlarını tənqidi gözlə nəzərdən keçirmək, öz nöqsanlarını açıq etiraf etmək lazımdır. “Səhvi açıqca etiraf etmək, onun səbəblərini aşkara çıxarmaq, onu doğurmuş olan şəraiti təhlil etmək, səhvin düzəldilməsi vasitələrini diqqətlə müzakirə etmək” lazımdır (Əsərləri, 31-ci cild, səh. 43). V.İ.Leninin tələbi belə idi. Partiya komitələri bu tələbə əməl edərək ilk partiya təşkilatlarında, plenumlarda, fəallar yığıncaqlarında, konfranslarda respublika nazirlikləri və baş idarələri barəsində deyilən tənqidi qeydləri və təklifləri müntəzəm surətdə ümumiləşdirib MK-ya göndərirlər. Bu qeydlər və təkliflər MK bürosunda, respublikanın digər təşkilatlarında işin xeyri nəzərə alınmaqla ətraflı müzakirə olunur, onların yerinə yetirilməsi üçün təsirli tədbirlər görülür. Bu cür münasibət Sov.İKP XXVI qurultayının çıxardığı belə bir prinsipial nəticədən irəli gəlir ki, yerinə yetirilən vəzifələrin mürəkkəbliyi və miqyası artdıqca, bütün işlərə ciddi tənqidi mövqedən yanaşmaq xüsusi əhəmiyyət kəsb edir.

Zəhmətkeş məktubları partiya təşkilatlarının kütlələrlə canlı əlaqəsinin mühüm vasitəsidir. “Sov.İKP XXVI qurultayının qərarları ilə əlaqədar olaraq zəhmətkeşlərin məktub və təklifləri ilə işi daha da yaxşılaşdırmaq tədbirləri

haqqında” Sov.İKP MK-nın qərarında göstərilir ki, vətəndaşların məktubları, şəxsi müraciətləri şəhər və kənd əməkçilərinin tələbat və arzuları haqqında, cəmiyyətimizin sosial-iqtisadi, siyasi və mənəvi həyatının müxtəlif sahələrində işlərin vəziyyəti haqqında ən etibarlı və qiymətli informasiya mənbəyidir. Son vaxtlarda respublikanın partiya və dövlət orqanları vətəndaşların məktubları və şifahi müraciətləri ilə işi yaxşılaşdırmışlar. Bu məsələlər partiya komitələrinin əksəriyyətinin plenumlarında müzakirə olunmuş, yerlərdən alınan siqnalların yoxlanılması nəticələri əsasında bir sıra qərarlar qəbul edilmişdir. MK-nın Lerik rayonundan aldığı məktublar yoxlanıldıqdan sonra B.Ağayevin Lerik Rayon Partiya Komitəsinin birinci katibi olarkən yol verdiyi ciddi nöqsanlar haqqında məsələ Azərbaycan KP MK bürosuna çıxarılmışdır. MK-nın qəbul etdiyi və respublikada geniş əks-səda doğuran qərar çox böyük tərbiyəvi əhəmiyyətə malik idi, çünki bu qərar bütün səviyyələrdən olan rəhbər işçilər üçün belə bir ciddi xəbərdarlıq kimi səslənmişdir: onlar kommunist əxlaqı normalarından hər hansı şəkildə kənara çıxmaq üstündə məsuliyyətdən yaxa qurtara bilməyəcəklər.

Partiya təşkilatları özlərinin bütün fəaliyyəti ilə kommunistləri fəal ictimai-siyasi həyata cəlb edir, onların hər birinin partiya işinə sədaqətlə xidmət etməsinə, sosialist Vətənimizin daha da çiçəklənməsi xeyrinə fədakarlıqla işləməsinə çalışırlar. Bu məqsəd partiya komitələrinin, Azərbaycan KP MK-nın, onun bürosunun gərgin və məqsədyönlü işi sayəsində əldə olunmuşdur. İndi partiya təşkilatları Sov.İKP XXIV, XXV və XXVI qurultaylarının partiyadaxili demokratiya məsələlərinə

dair qərarlarının həyata keçirilməsi gedişində toplanmış müsbət təcrübəni möhkəmləndirməyə çalışırlar.

V.İ.Lenin partiyadaxili demokratiyanın mahiyyətini şərh edərkən hər bir kommunistin yaxşı, dəqiq sahmana salınmış işi, tapşırılan iş üçün onun şəxsi məsuliyyəti ilə bu demokratiyanın sıx, üzvi qarşılıqlı əlaqədə olduğunu göstərir, partiya və dövlət intizamına ən ciddi şəkildə əməl olunmasını tələb edirdi. O öyrədirdi ki, partiya intizamı ən əvvəl partiya üzvlərinin şüurluluğundan, inqilab işinə, kommunizm quruculuğuna onların hədsiz sədaqətindən asılıdır.

Azərbaycan KP MK partiya və dövlət intizamının durmadan möhkəmləndirilməsini, bütün partiya təşkilatlarının, hər bir partiya üzvünün mütəşəkkillik və intizamının yüksəldilməsini öz iş üslubunun başlıca ünsürləri hesab edir. Qəbul olunmuş qərarların icrasına nəzarətin və icranın yoxlanmasının dəqiq qurulması bu işdə çox mühüm rol oynayır. "Sov.İKP XXVI qurultayının qərarları ilə əlaqədar olaraq icraya nəzarəti və icranın yoxlanmasını daha da təkmilləşdirmək haqqında" Sov.İKP MK-nın qərarının yerinə yetirilməsi sahəsində iş bu istiqamətdə fəaliyyətin yaxşılaşmasına kömək etmişdir.

Bu tələblər əsasında partiya komitələrinin işi məsələlərinin müntəzəm surətdə, kompleks şəkildə öyrənilməsi və müzakirəsi tətbiq olunur. Məktub və şikayətlərin yoxlanılması zamanı Gədəbəy Rayon Partiya Komitəsinin işində ciddi nöqsanlar aşkara çıxarılmışdı. Raykomun iş üslubu və metodları işə formal, səthi yanaşılması, nöqsanlara tənqidi münasibət bəslənilməməsi, onları aradan qaldırmaq üçün təsirli tədbirlər görməyi bacarmaması ilə fərqlənir. Rayon partiya

komitəsinin qərarları çox zaman ilk partiya təşkilatlarına, bilavasitə icraçılara çatdırılmır. Rayonda kadrların seçilməsinin partiya prinsipləri pozulur, kadrlara yüksək tələbkarlıq göstərilmir, ayrı-ayrı rəhbər işçilərin düzgün olmayan hərəkətlərinin qiymətləndirilməsində prinsipsizliyə və liberalizmə yol verilir. Sovet, təsərrüfat orqanlarının fəaliyyətinə partiya nəzarəti qoyulmur. Rayonun iqtisadiyyatını inkişaf etdirmək üçün mövcud ehtiyat mənbələrindən və imkanlardan istifadə olunmur.

Vilayət, şəhər və rayon partiya komitələri icraya nəzarət və icranın yoxlanması sahəsində ən müxtəlif forma və metodlardan istifadə edirlər: yerlərdə vəziyyəti dərindən, hərtərəfli öyrənir, aşağı partiya komitələri və təşkilatlarının, habelə sovet və təsərrüfat orqanları rəhbərlərinin müntəzəm surətdə hesabatlarını dinləyir, özlərinin işi haqqında, qəbul olunmuş qərarların, kommunistlərin tənqidi qeydləri və təkliflərinin yerinə yetirilməsinin gedişi haqqında plenumlarda və partiya yığıncaqlarında partiya üzvlərinə daim məlumat verir, statistika məlumatlarını, informasiyaları, zəhmətkeşlərin məktub və ərizələrini təhlil edirlər.

Bununla belə, təəssüf ki, heç də həmişə partiya komitələri qəbul olunan qərarların icrasının yoxlanmasında lazımi ardıcıllıq göstərmirlər, bəzən onların fəaliyyətində söz ilə işin bir-birinə uyğun gəlməsi prinsipi pozulur. Bəzi qərarlar heç də tamamilə yerinə yetirilmir. Nəticədə eyni bir məsələnin üzərinə dəfələrlə qayıtmaq lazım gəlir.

Azərbaycan KP MK Lenin ideyalarını, partiya qurultaylarının göstərişlərini, Sov.İKP MK-nın qərarlarını rəhbər tutaraq, icranın yoxlanmasının təşkilində konkretlik və operativliyin son

nəticələr əldə edilməsinə daim qayğı göstərməklə, ixtisaslı köməyin ciddi tələbkarlıqla əlaqələndirilməsinə çalışır.

Qəbul edilən qərarların və həyata keçirilən tədbirlərin aşkarlığı MK-nın, respublika partiya komitələrinin iş üslubunun çox mühüm ünsürü olmuşdur. Azərbaycan KP MK Leninin “açıq məlumat dərc edilməsi elə bir qılıncdır ki, özünün vurduğu yaraları özü sağaldır” (Əsərlərinin tam külliyyatı, 23-cü cild, səh. 56) göstərişini əsas tutaraq plenumlarda, respublika partiya-təsərrüfat fəalları yığıncaqlarında, kütləvi informasiya orqanları vasitəsilə partiya işinin, təsərrüfat və mədəniyyət quruculuğunun bu və ya digər sahəsində aşkara çıxarılmış nöqsanları və səhvləri açıq şəkildə kommunistlərin, bütün ictimaiyyətin müzakirəsinə verir, işdə olan çətinliklərdən danışır. Təcrübənin göstərdiyi kimi, açıq deyilən həqiqət, geniş kütləyə çatdırılan kəsərli tənqidi söz adamları partiya və dövlət intizamının pozulmasına, kommunist əxlaqı normalarından kənara çıxılmasına qarşı barışmaz münasibət ruhunda tərbiyə edir, əsl partiyalı mübarizlər yetişdirir.

Partiya və dövlət intizamını möhkəmlətmək, kadrlara tələbkarlığı və onların məsuliyyətini yüksəltmək sahəsində MK-nın, şəhər və rayon partiya komitələrinin ardıcıl və məqsədyönlü işi ilk partiya təşkilatlarının mübarizliyinin artmasında həlledici amil olmuşdur. Azərbaycan KP MK onların işini daim diqqət mərkəzində saxlayır. Dəvəçi və Qusar rayon partiya komitələri barədə MK bürosu və katibliyinin qərarlarında partiya intizamını möhkəmlətmək sahəsində ilk partiya təşkilatlarının fəaliyyətini yaxşılaşdırmağa dair prinsipial göstərişlər verilmişdir.

Partiya aparatının iş üslubu, onun səylərinin əməli nəticələri aparatın məsul işçilərinin professional yetkinliyi və işgüzarlığı ilə müəyyən olunur, öz növbəsində bunlar isə, xeyli dərəcədə partiya komitəsində yaranmış atmosferdə formalaşır. V.İ.Lenin öz həyatını partiyada professional işə həsr etmiş adama lazım olan keyfiyyətləri müəyyənləşdirərkən kütlələrlə çox mühüm əlaqəni və inqilab işinə hədsiz sədaqəti, yüksək səriştəliliyi və adamları tanımaq qabiliyyətini, qarışıqlığa və hərc-mərcliyə yol vermədən əlbir kollektiv işi qaydaya salmaq bacarığını xüsusi qeyd edirdi. Bütün bunlar tam mənasında partiya aparatının işçisinə də aiddir.

İş üslubu və metodlarını daha da təkmilləşdirmək, ən mühüm xalq təsərrüfatı vəzifələrinin yerinə yetirilməsinə partiya təsirini gücləndirmək məqsədi ilə təşkilat-partiya işi şöbəsinin praktikasına rayon partiya komitələrinin katibləri, icraiyyə komitələrinin sədrləri ilə fərdi müsahibə kimi formalar daxil edilmişdir. Şöbənin işçilərinin əsas funksional vəzifələri haqqında reqlament, nümunəvi əsasnamə, şəhər, rayon partiya komitələrində və ilk təşkilatlarda icraya nəzarətin və icranın yoxlanmasının təşkilinə dair tövsiyələr hazırlanmış, Azərbaycan KP MK-nın nomenklaturası olan vəzifələrə kadrların namizədliyi barədə təkliflərə baxılması qaydası təsdiq olunmuşdir.

Zaman partiya komitələrinin iş üslubu və metodlarına qarşı tələbkarlığı artırır. Həyati əhəmiyyətə malik iqtisadi və sosial vəzifələrin yerinə yetirilməsi partiya komitələrinin məqsədyönlü rəhbərliyindən xeyli dərəcədə asılıdır. Respublika partiya təşkilatı, onun hər bir aşağı vəsiləsi, bütün kommunistlər qarşısında çox mühüm vəzifə – yetmişinci

illərdə kommunizm quruculuğu gedişində təşkilatçılıq işi və siyasi iş sahəsində toplanmış təcrübədən bacarıqla istifadə etmək, Sov.İKP XXVI qurultayının, MK-nın noyabr (1982-ci il) plenumunun tələblərinə uyğun olaraq, bu təcrübənin daha da təkmilləşdirilməsini təmin etmək, on birinci beşillik tapşırıqlarının müvəffəqiyyətlə yerinə yetirilməsi məqsədi ilə xalq təsərrüfatının bütün sahələrinə rəhbərliyin səviyyəsini xeyli yüksəltmək vəzifəsi durur.

*"Azərbaycan kommunisti" jurnalı,*
*№3, 1983-cü il.*

## SOSİAL-İQTİSADİ VƏZİFƏLƏRİN YERİNƏ YETİRİLMƏSİNƏ İDEOLOJİ TƏMİNAT YARATMALI

İdeoloji və siyasi-tərbiyə işi Kommunist partiyasının inqilabi-dəyişdirici fəaliyyətinin tərkib hissəsidir. Yeni insan formalaşdırılmasının fasiləsiz və mürəkkəb prosesi inkişaf etmiş cəmiyyətin daha da təkmilləşdirilməsinin ən mühüm məqsədi və zərurəti sayılır. Xalqın qüvvəsini ölkənin iqtisadi və sosial inkişafının ümdə vəzifələrinin müvəffəqiyyətlə həyata keçirilməsinə yönəldən partiya öz ideya inamı, əxlaqı və maraq dairəsi, yüksək əmək və davranış mədəniyyəti olan fəal kommunizm qurucuları tərbiyə edilməsinə qayğı göstərir. V.İ.Lenin yeni cəmiyyətin hər bir qurucusunun yaradıcı qüvvəsinin, əmək və sosial fəallığının rolunu qeyd edərək, "məhz bütün zəhmətkeş KÜTLƏNİN (onun təkcə qabaqcıl adamlarının yox) şüurluluğu və hazırlığının HƏQİQİ vəziyyətini AÇIQ GÖZLƏ" izləmək lüzumunu göstərirdi (Əsərlərinin tam külliyyatı, 41-ci cild, səh. 46).

İnkişaf etmiş sosializm şəraitində cəmiyyətin bütün ictimai münasibətlərinin yeni quruluşa məxsus kollektivçilik əsasları üzrə yenidən qurulması başa çatır, cəmiyyətin iqtisadi, sosial-siyasi və mənəvi sahələrində, həyat tərzində mühüm tərəqqi yaranır, yerinə yetirilən vəzifələrin miqyası və mürəkkəbliyi artır.

Sov.İKP XXVI qurultayı inkişaf etmiş sosializm nəzəriyyəsinə və praktikasına əsaslanaraq, proqram məqsədlərimizə çatmaq yollarını konkretləşdirmiş, ən yaxın illər və daha uzaq perspektiv üçün real fəaliyyət xəttini müəyyənləşdirmişdir. Bu mərhələdə

ideoloji işin, siyasi-tərbiyə işinin daha da yaxşılaşdırılmasına, onun məzmununun məqsədyönlü olmasına, forma və metodlarının təkmilləşdirilməsinə, əməli istiqamətinin gücləndirilməsinə mühüm yer verilir. Sov.İKP MK-nın iyun (1983-cü il) plenumu bu istiqamətdə partiyanın uzunmüddətli və müntəzəm fəaliyyətinin geniş konsepsiyasını irəli sürmüşdür. Son dərəcə mühüm bir vəzifə – ideoloji işi, tərbiyə və təbliğat işini inkişaf etmiş sosializmin təkmilləşdirilməsi prosesində partiyanın həll etməkdə olduğu problemlər səviyyəsinə qaldırmaq vəzifəsi qarşıya qoyulmuşdur. Plenumun qərarlarını yerinə yetirmək sahəsində gərgin və məhsuldar iş ilə əlamətdar olan ötən bir il bu qərarların olduqca böyük səfərbəredici əhəmiyyətini bariz şəkildə sübut etmiş, ideya tərbiyəsi işinin, kütləvi-siyasi işin təkmilləşdirilməsinə güclü təkan vermişdir.

Partiyanın xəttinin varisliyini təsdiq etmiş növbədənkənar fevral və aprel (1984-cü il) plenumları, Sov.İKP MK-nın Baş katibi K.U.Çernenko yoldaşın proqram çıxışlarında ifadə edilmiş müddəalar və nəticələr ölkənin ideya-siyasi həyatında son dərəcə mühüm rol oynayır. K.U.Çernenko yoldaş demişdir: “Sovet cəmiyyətinin irəliyə, böyük məqsədlərimizə doğru inamla irəliləməsi üçün hər yeni nəsil təhsilin və ümumi mədəniyyətin, peşə hazırlığının və vətəndaşlıq fəallığının daha yüksək səviyyəsinə qalxmalıdır”. Sosial tərəqqi qanununun mahiyyəti bundan ibarətdir və onun yerinə yetirilməsinin başlıca şərti ideya tərbiyəsi işinin daha da gücləndirilməsi, bünövrəsi, təməli isə ölkədə yaranmış əmək coşğunluğu və siyasi ruh yüksəkliyi şəraiti, sağlam mənəvi-psixoloji iqlim, sovet xalqının kütləvi əzmkarlığıdır. Sovet Azərbaycanının kommunistləri, bütün zəhmətkeşləri sovet xalqının vahid sırasında ilhamla və yaradıcılıqla işləyirlər.

# I

Respublikaının partiya təşkilatları marksizm-leninizm nəzəriyyəsini, partiyanın XXVI qurultayının, Sov.İKP MK plenumlarının qərarlarında irəli sürülən müddəaları və çıxarılan nəticələri rəhbər tutaraq, ideya tərbiyəsi işinə kompleks yanaşır, zəhmətkeşlərin siyasi şüurluluğunun, kommunist inamının artmasına, yaradıcı qüvvələrinin inkişafına səfərbəredici təsir göstərilməsinin yeni, daha səmərəli metod və vasitələrini əzmlə axtarır, ideya-siyasi, əmək və mənəvi tərbiyənin vəhdətini təmin edirlər. Sov.İKP-nin və onun Mərkəzi Komitəsinin Lenin xəttini ardıcıl və məqsədyönlü həyata keçirmək əsasında Azərbaycan Kommunist Partiyası siyasi işi və təşkilatçılıq işini kökündən yaxşılaşdırmağa, mənəvi-psixoloji şəraiti sağlamlaşdırmağa, partiyanın ətrafında zəhmətkeşləri sıx birləşdirməyə, respublikanın iqtisadi və mədəni inkişafında tarixi müvəffəqiyyətlər qazanılmasına nail olmuşdur. Azərbaycan partiya təşkilatının nüfuzu artmış, respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrinə onun təsiri güclənmişdir.

Azərbaycan SSR on dörd ildir ki, dalbadal Ümumittifaq sosializm yarışında qalib gəlir və Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin, ÜİHİMŞ-in və ÜİLKGİ MK-nın keçici Qırmızı bayrağı ilə təltif olunur. Onuncu beşilliyi vaxtından əvvəl yerinə yetirdiyinə görə respublika üçüncü Lenin ordeni ilə təltif edilmişdir.

Respublikanın əməkçiləri yetmişinci illərin müvəffəqiyyətlərini hər cəhətdən möhkəmləndirib inkişaf etdirərək, Sov.İKP XXVI qurultayının və Azərbaycan KP XXX qurultayının qərarlarını həyata keçirərək, beşilliyin dördüncü ili planlarının yerinə yetirilməsində görkəmli müvəffəqiyyətlər qazanmışlar. Sənaye

məhsulu istehsalına və satışına dair birinci yarımilliyin planları artıqlaması ilə yerinə yetirilmişdir. Əlavə olaraq 107,4 milyon manatlıq məhsul satılmışdır. İstehsalın həcmi illik planda nəzərdə tutulan 4,5 faiz əvəzinə, 5 faiz artmışdır. Yeyinti məhsulları, ət-süd sənayesi, meyvə-tərəvəz təsərrüfatı nazirliklərinin və başqa nazirliklərin müəssisələri yüksək artım sürətinə nail olmuşlar.

Mingəçevir, Lənkəran şəhərlərində, Bakının Əzizbəyov, Kirov, Lenin, Nərimanov rayonlarında, "İttifaqneftmaş" Ümumittifaq Sənaye Birliyində, "Üzvi sintez" İstehsalat Birliyində və başqa yerlərdə sənaye istehsalı orta respublika sürətindən üstün sürətlə artmışdır. SSRİ Elektrotexnika Sənayesi Nazirliyinin genişmiqyaslı iqtisadi eksperimentdə iştirak edən müəssisələri yarımilliyi yaxşı göstəricilərlə başa çatdırmışlar. Bu müəssisələrdə istehsalın ümumi həcmi 7,9 faiz artmış, əmək məhsuldarlığı 6,7 faiz yüksəlmişdir. Sahə müəssisələrinin əksəriyyəti yeni şəraitdə işləyərək öz müqavilə öhdəliklərini yerinə yetirir, məhsulun maya dəyərini inamla aşağı salır.

Bütövlükdə respublika üzrə əmək məhsuldarlığı 3,8 faiz yüksəlmişdir ki, bu da planda göstərildiyindən çoxdur. Əmək kollektivlərinin üçdə iki hissəsindən çoxu qəbul etdiyi öhdəlikləri və müqabil planları müvəffəqiyyətlə yerinə yetirir, əmək məhsuldarlığının əlavə olaraq bir faiz və daha artıq yüksəlməsini təmin edir. Məhsul satışına, istehsalın həcminə və əmək məhsuldarlığına dair planları yerinə yetirməmiş müəssisələrin sayı, demək olar ki, iki dəfə azalmışdır. Buraxılan məhsulun texniki səviyyəsi yüksəlmiş, keyfiyyəti yaxşılaşmışdır.

Xalq istehlakı malları istehsalı xeyli artmışdır, respublika sənayesinin müxtəlif sahələrinin getdikcə daha çox müəssisəsi belə məhsullar hazırlamağa başlayır.

Respublika əkinçilərinin sabit xarakter alan nailiyyətləri sevindiricidir. Kənd təsərrüfatının ümumi məhsulu onuncu beşilliyin müvafiq dövrünə nisbətən plan üzrə 11,3 faiz əvəzinə, 28,3 faiz artmışdır. Aqrar-sənaye kompleksinin əməkçiləri plandan əlavə 86 milyon manatlıqdan çox yeyinti məhsulları istehsal etmişlər, istehsalın artım sürəti 106 faizdən yuxarı olmuşdur.

Sosial proqram yerinə yetirilir. Əsaslı tikintidə, nəqliyyatda, xidmət sahəsində müəyyən müsbət dəyişikliklər baş verir.

Bu nəticələr respublika partiya təşkilatının bütün siyasi-tərbiyə işinin keyfiyyəti üçün həlledici meyardır, yerinə yetirilən vəzifələrin ideoloji cəhətdən möhkəmləndirilməsinin səmərəlilik dərəcəsini əks etdirir. Azərbaycan KP MK-nın birinci katibi K.M.Bağırov yoldaş demişdir: "Doqquzuncu, onuncu və on birinci beşilliklərdə respublikaının diqqətəlayiq müvəffəqiyyətləri, iqtisadiyyatın, elm və mədəniyyətin bütün sahələrinin inkişafında qazanılan görkəmli nailiyyətlər ideoloji, kütləvi-siyasi işin səviyyəsinin, təsirliliyinin artırılması ilə qırılmaz surətdə bağlıdır".

Partiya təşkilatları ideoloji təsir vasitələrinin zəngin imkanlarından istifadə edərək, tərbiyə işinin forma və metodlarını daim təkmilləşdirərək, Azərbaycan zəhmətkeşlərinin əmək və ictimai-siyasi fəallığının yüksəldilməsinə nail olurlar. Respublikada sosial-iqtisadi proqramın çoxcəhətli və genişmiqyaslı ideoloji təminat sistemi təşəkkül tapmış və özünü doğrultmuşdur. Bu sistemə Mərkəzi Komitədən tutmuş aşağı partiya vəsilələrindək bütün partiya təşkilatları, həm mərkəzdə, həm də yerlərdə bütün ideoloji xidmətlər və bölmələr daxildir.

Azərbaycan KP MK bürosu ideoloji prosesi təkmilləşdirmək məsələlərini müntəzəm olaraq müzakirə edir. Sov.İKP XXVI

qurultayının, Azərbaycan Kommunist Partiyası XXX qurultayının qərarları ilə əlaqədar olaraq ideoloji fəaliyyətin ən müxtəlif cəhətlərinə dair Azərbaycan KP MK çox mühüm qərarlar qəbul etmişdir. Qərarlar bütün partiya komitələri, ideoloji idarələr, təşkilatlar və nazirliklər üçün konkret iş sahələrində dolğun, mübariz fəaliyyət proqramıdır. Bu yaxınlarda həmin qərarlar "Azərbaycan Kommunist Partiyasının sənədlərində təbliğat işinin, kütləvi-siyasi işin aktual məsələləri" adlı məcmuə şəklində nəşr olunmuşdur. Azərbaycan KP MK-nın 1983-cü ilin iyul ayında keçirilmiş, Sov.İKP MK-nın iyun (1983-cü il) plenumunun qərarlarını yerinə yetirmək, ideoloji işi, tərbiyə işini yaxşılaşdırmaq sahəsində respublika partiya təşkilatının vəzifələrini müzakirə etmiş plenumunun qərarı, 1984-cü ilin iyun ayında keçirilmiş və Sov.İKP MK iyun plenumu qərarlarının yerinə yetirilməsi gedişini, təbliğat və təşviqatın məzmununu və səmərəliliyini yüksəltmək vəzifələrini müzakirə etmiş respublika ideoloji iş fəalları yığıncağının materialları da bu məqsədlərə kömək etmişdir.

Bütün bu tədbirlər kompleksi ona yönəldilmişdir ki, V.İ.Leninin sözləri ilə desək, "...bizim təbliğatımız, kitablarımız, kitabçalarımız xalq tərəfindən işdə dərk edilsin və bunun nəticəsində xalq təsərrüfatı yaxşılaşsın" (Əsərləri, IV nəşri, 33-cü cild, səh.63-64).

Zəhmətkeşləri partiyanın iqtisadi siyasətinin, on birinci beşillik planlarının həyata keçirilməsinə səfərbər etmək respublika partiya təşkilatının siyasi-tərbiyə işinin başlıca istiqamətlərindən biridir. Bu işin canını kütlələrin əmək tərbiyəsi təşkil edir. "Hər bir iş yerində yüksək nəticə uğrunda", "Yanımızda bir nəfər də geri qalmamalıdır", "Şan-şöhrət əməyə

görə olmalıdır" kimi vətənpərvərlik təşəbbüsləri respublikada geniş yayılmışdır. Son illərdə Azərbaycan KP MK kənd əməkçilərinin 29 qiymətli təşəbbüsünü və hərəkatını bəyənmişdir.

Sosializm yarışı gözəl əmək tərbiyəsi məktəbidir. Hazırda respublika xalq təsərrüfatının, demək olar, bütün əməkçiləri sosializm yarışında iştirak edirlər. Vladimir İliç adına YBNZ-nin, SSRİ-nin 60 illiyi adına Bakı mayesiz transformatorlar zavodunun, Krasin adına DRES-in, Oktyabr inqilabı adına Bakı vaqon təmiri zavodunun, Sənaye Tikintisi Nazirliyi 4 nömrəli dəmir-beton məmulatı zavodunun əməkçiləri və başqaları kommunist əməyi kollektivi adını ləyaqətlə daşıyırlar. Sosializm yarışı gedişində istehsalat zərbəçiləri və yenilikçilərinin çoxminlik dəstəsi yetişmişdir. Neftçilər – Sov.İKP XXII qurultayı adına Neft və Qazçıxarma Birliyindən A.Məmmədov, Azərbaycan SSR Dövlət mükafatı laureatları – Əzizbəyovneft NQÇİ-dən K.Mirəliyev, Sumqayıt Kimya Sənayesi Müəssisələri Birliyindən kimyaçı A.Səfərov, Kirovabad alüminium zavodunun aparatçılar briqadiri L.Snisarenko, Volodarski adına maşınqayırma zavodunda kompleks briqadanın başçısı A.Adnayev, "Bakı fəhləsi" zavodunun elektrik qaynaqçısı M.Abdullayev, habelə kənd təsərrüfatı qabaqcılları – İmişli rayonundakı M.B.Qasımov adına kolxozun briqadiri, Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan SSR Ali Sovetinin deputatı P.Həsənov, Xanlar rayonundakı "Qırmızı Samux" sovxozunun baş çobanı, Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan SSR Ali Sovetinin deputatı B.Quliyev, Şamaxı rayonundakı Sabir adına sovxozun üzümçüsü, Sosialist Əməyi Qəhrəmanı S.Əhmədov, Abşeron rayonundakı "Xırdalan" sovxozunun sağıcısı X.Salahova və bir çox başqaları onların arasındadırlar.

Partiya komitələri respublikanın qabaqcıl kollektivlərinin, ən yaxşı adamlarının təcrübəsini ümumiləşdirib təbliğ edərək, onların müvəffəqiyyətlərinin sirlərini bacarıqla açıb göstərir, əməkdə belə yüksək nəticələr qazanmalarına təsir edən təşkilati, ideoloji, sosial amillərin bütün kompleksini aşkara çıxarırlar. Yarış qaliblərinin şərəfinə Qırmızı bayraq qaldırırlar, əmək şöhrəti xiyabanları və meydanları yaradılır, onların haqqında qəzetlərdə, televiziya və radio verilişlərində söhbət açılır. Bu tədbirlərin tərbiyəvi gücü böyükdür. Əməyə əsl kommunist münasibətinin ən yaxşı nümunələri bu cür təsirli şəkildə təbliğ olunur.

Qabaqcıl rayonların və təsərrüfatların bazasında MK bürosu üzvlərinin, nazirlərin iştirakı ilə keçirilən respublika zona müşavirələri, kənd rayon partiya komitələrinin geniş büro iclasları partiya, sovet, təsərrüfat, həmkarlar ittifaqı, komsomol təşkilatlarının və ictimai təşkilatların səylərini zərbəçi iş istiqamətlərində cəmləşdirməyin səmərəli forması, bir növ qabaqcıl təcrübə məktəbi olmuşdur. Müşavirələrdə nəzərdən keçirilən problemlərin genişliyi və verilən dərin təhlil, ən yaxşı son nəticəyə doğru istiqamət götürülməsi, kənd təsərrüfatı istehsalı ustalarının müşavirələrdə iştirakı nəinki görülmüş işləri prinsipiallıqla qiymətləndirməyə, həm də vəziyyətdən daha yaxşı baş çıxarmağa, əməli tədbirlərin əsaslandırılmış planını hazırlamağa imkan yaradır.

Sosializm yarışının məqsədlərini daim genişləndirmək və təsirliliyini artırmaq haqqında Sov.İKP MK iyun (1983-cü il) plenumunun tələbləri ilə əlaqədar olaraq, Azərbaycan KP MK-nın ötən ilin iyul ayında keçirilmiş plenumu partiya təşkilatlarının bu istiqamətdə apardığı işi ətraflı müzakirə edib əməyə kommunist münasibəti uğrunda hərəkatda olan

formalizm faktlarını, nöqsanları ciddi tənqid etmişdir. Göstərilən nöqsanların tamamilə aradan qaldırıldığını zənn etmək olmaz. Buna görə də partiya, sovet, həmkarlar ittifaqı və komsomol təşkilatlarının, kütləvi informasiya vasitələrinin qarşısında Staxanov hərəkatının 50 illiyinə hazırlığı genişləndirərək, öz səylərini adamların tərbiyə olunmasında əmək yarışının qadir gücündən ən dolğun şəkildə istifadə etməyə, onların peşə səviyyəsinin yüksəlməsini, ideya-mənəvi cəhətdən yetkinləşməsini təmin etməyə yönəltmək vəzifəsi durur.

Sosialist əmək intizamı tərbiyə etmək məsələləri respublika partiya təşkilatının ideoloji işində mühüm yer tutur. Xalq təsərrüfatı şuralarının I qurultayında (1918-ci ilin mayında) V.İ.Lenin demişdir ki, yeni intizam, yoldaşlıq əlaqəsi intizamı yaradılması işi "bütöv bir tarixi epoxa təşkil edəcəkdir", şüurlu fəhlələr və kəndlilər "yuxarıdan verilən göstəriş əsasında deyil", öz təşəbbüsləri ilə birləşmiş əməyin intizamını yaradırlar. "Bu vəzifə son dərəcə çətindir, lakin eyni zamanda şərəfli bir vəzifədir..." (Əsərlərinin tam külliyyatı, 36-cı cild, səh.415-416). Tarixi təcrübə sosialist əmək intizamının tətbiqi üçün maddi və mənəvi-psixoloji şərait yaradılmasının mürəkkəbliyi haqqında Leninin uzaqgörənliklə dediyi sözlərin döğruluğunu tamamilə sübut etmişdir. V.İ.Lenin kütlələrin təşkil və tərbiyə olunmasını sosialist əmək intizamı yaradılmasının əsas vasitələri hesab edirdi. Məhz buna görə partiya intizamın möhkəmləndirilməsini, istehsalatda qayda yaradılmasını uzunmüddətli proqram hesab edir. Bu proqramın yerinə yetirilməsi istifadə olunmamış bir çox ehtiyatları aşkara çıxarmağa imkan verəcəkdir.

Sov.İKP MK "Sosialist əmək intizamını möhkəmlətmək işinin gücləndirilməsi haqqında" Sov.İKP MK-nın, SSRİ Nazirlər

Sovetinin və ÜİHİMŞ-in qərarını yerinə yetirmək sahəsində Azərbaycan partiya təşkilatlarının fəaliyyəti barəsində" qərar qəbul etmişdir. Qərarda respublikada işlərin və əmək intizamının vəziyyəti dərindən təhlil olunmuşdur. Bu qərar Azərbaycan partiya təşkilatını sosial-iqtisadi və mənəvi tərəqqini daha da sürətləndirmək, partiya və dövlət aparatının işini yaxşılaşdırmaq proqramı ilə silahlandırmışdır. Respublikanın kommunistləri, bütün zəhmətkeşləri partiyanın bu çox mühüm sənədini respublikanın daha da inkişafına, Azərbaycan partiya təşkilatlarının fəaliyyətinin bütün cəhətlərinin təkmilləşdirilməsinə partiya qayğısının yeni parlaq təzahürü hesab edirlər.

Sov.İKP MK-nın qərarını yerinə yetirmək sahəsində respublika kommunistlərinin vəzifələrini müzakirə etmiş Azərbaycan KP MK plenumu təşkilati-siyasi tədbirləri təsdiq etmiş, partiya təşkilatlarını hər yerdə sosialist intizamının daha da möhkəmləndirilməsinə, əhalinin ümumi və peşə səviyyəsinin yüksəldilməsinə, mövcud nöqsanların və qüsurların qətiyyətlə aradan qaldırılmasına yönəltmişdir. İdeya tərbiyəsi və mənəvi tərbiyə, sosialist əmək intizamını ideoloji cəhətdən təmin etmək sahəsində respublikada aparılan işə, əmək ənənələrini qoruyub artırmaq üçün partiya təşkilatlarının səylərinə Sov.İKP MK-nın qərarında yüksək qiymət verilməsi qarşımıza böyük vəzifələr qoyur.

Respublikada sosialist əmək intizamının möhkəmləndirilməsi sahəsində tərbiyə işini idarəetmə sistemi işlənib hazırlanmışdır və fəaliyyət göstərir. Bu sistem ideoloji fəaliyyətin bütün forma və metodlarını, partiya aparatının bütün vəsilələrini, bütün şəhər və regionları, bütün ideoloji xidmət və bölmələri kompleks halında əhatə edir. Respublikanın bir çox partiya təşkilatlarında

şüurlu əmək intizamı formalaşdırmaq sahəsində müsbət təcrübə toplanmışdır. Məsələn, Bakı şəhər partiya təşkilatında hami tərbiyəçilikdən, fərdi tərbiyə işindən səmərəli istifadə olunur. Kirovabad partiya təşkilatı əmək intizamı pozuntularının profilaktikasına böyük əhəmiyyət verir, partiya komitələri yanında yaradılmış intizam şuraları, daimi fəaliyyət göstərən sex və sahə komissiyaları fəal işləyirlər. Şamaxı rayon partiya təşkilatında zəhmətkeşlərin əmək fəallığının və yaradıcılıq təşəbbüsünün artırılmasına və bunun əsasında ən az itkiyə yol verməklə yüksək son nəticələr əldə edilməsinə başlıca diqqət yetirilir. Lənkəran partiya təşkilatında əmək intizamını möhkəmlətməyin ideoloji cəhətdən təmin olunmasının gücləndirilməsi, əməyin maddi və mənəvi cəhətdən stimullaşdırılmasının əlaqələndirilməsi məsələlərinə xüsusi diqqət verilir.

Partiya komitələri və təşkilatları qarşısında irəli sürülən yeni tələblər, bir tərəfdən, əmək adamının sosialist keyfiyyətlərinin formalaşdırılması prosesini idarəetmə mexanizmini dəqiq sahmanlayıb yerlərdə işə salmaq, digər tərəfdən isə, əmək intizamının hər cür pozuntusunun kökünü kəsmək vəzifəsini qarşıya qoyur. Hər bir kommunistin və əməkçinin şüuruna və qəlbinə yol tapmaq, bütün səviyyələrdə, hər bir sahədə mütəşəkkilliyin və məsuliyyətin yüksəldilməsi uğrunda mübarizədə onun fəal mövqeyinin formalaşmasına kömək etmək lazımdır. K.U.Çernenko yoldaş Sov.İKP MK-nın iyun (1983-cü il) plenumunda demişdir: “İntizamı möhkəmlətmək qısamüddətli kampaniya deyildir, gündəlik zəhmətli işdir. Həm də müvəffəqiyyət o zaman təmin edilir ki, təkcə müdiriyyət deyil, bütün zəhmətkeşlər bu işin bilavasitə iştirakçısı olsunlar, bu iş kütlələrin təcrübəsinə, şüurluluğuna və vətəndaş fəallığına arxalansın”. Respublika

pariya təşkilatı vəzifəsini zəhmətkeşlərdə əməyə kommunist münasibəti tərbiyə edilməsi sahəsində siyasi işi və təşkilatçılıq işini daha da təkmilləşdirməkdə görür.

Şüurlu intizamın, məhz V.İ.Leninin əməkdə özünütərbiyə adlandırdığı intizam formasının yaradılması dərin ideya-mənəvi məna daşıyır, çünki sosializm cəmiyyəti üzvlərinin mənəvi-siyasi səviyyəsinin yüksəlməsi məhz bu proseslə bağlıdır. Əməyin təşkili və stimullaşdırılmasının briqada formalarının tətbiq edilməsi bütün tərbiyə prosesini təkmilləşdirmək üçün keyfiyyətcə yeni imkanlar açır. Zəhmətkeşlərin idarəetmə vərdişlərinin, yaradıcılıq təşəbbüsünün, işin son nəticələrinə dərin maraq hissinin inkişaf etdirilməsinə, ixtisasının, peşə ustalığının yüksəldilməsinə, onlarda öz müəssisəsinin sahibi olmaq hissinin formalaşdırılmasına yönəldilən işin mərkəzi məhz briqadadır, burada isə partiyanın aşağı vəsilələri fəaliyyət göstərir. Partiya təşkilatları buna nail olmağa çalışırlar ki, hər bir adam partiya və xalq qarşısında duran vəzifələrin müqəddəratı üçün şəxsi məsuliyyət hiss etsin.

İndi respublikanın 163 min nəfər sənaye əməkçisi briqadaların tərkibində çalışır. “Bakı kondisioneri”, “Üzvi sintez” istehsal birlikləri. P.Montin adına Bakı maşınqayırma zavodu, Mingəçevir toxuculuq kombinatı fəhlələrinin əksəriyyəti əməyin təşkilinin briqada forması ilə əhatə edilmişdir və bu, həmin müəssisələrin yarışda daim ön mövqelərdə getməsinə imkan vermişdir. Lakin heç də hər yerdə partiya komitələri briqadaların təşkilinə, onların işinin səmərəliliyinin artmasına lazımi diqqət yetirmir, bu kollektivlərin komplektləşdirilməsinə, briqadirlər şuralarının fəaliyyətinə bəzən formal, rəsmi yanaşırlar. Heç də bütün briqadalarda əmək iştirakı

əmsalı, təsərrüfat hesabı tətbiq edilməmişdir. Kənd təsərrüfatında briqada podratı hələlik nisbətən zəif tətbiq olunur. Bu sahədə də böyük ehtiyatlar vardır, ideoloji işçilərimiz, fəallarımız üçün nəcib fəaliyyət meydanı açılır.

Partiya komitələri və təşkilatları V.İ.Leninin "Təşviqat aparmağı bacarmaq lazımdır, yoxsa xalq təsərrüfatı planları heçə-puça çıxar" sözlərini (Əsərlərinin tam külliyyatı, 42-ci cild, səh. 91) yadda saxlayaraq, ideoloji işi konkret son nəticəyə yönəldir, çalışırlar ki, o, iqtisadi və sosial dəyişikliklərin zəruri ünsürü, xalq təsərrüfatı vəzifələrinin yerinə yetirilməsinin güclü amili olsun.

**II**

Marksizm-leninizm klassikləri təbliğat və təşviqatın nəzəri əsasına xüsusi əhəmiyyət vermişlər. F.Engels yazırdı ki, təbliğatla məşğul olmaq istəsən, təkcə ibarə ilə nitq söyləmək azdır. Fikrini əsaslandırmaq və deməli, məsələyə nəzəri cəhət-dən, yəni nəticə etibarilə elmi mövqedən yanaşmaq lazımdır. V.İ.Lenin sovet adamlarının kommunist dünyagörüşünün əsası olan elmi dünyagörüşü formalaşdırmaq lüzumu barədə xəbərdarlıq edərək yazırdı ki, "aydın, düşünülmüş ideya məzmunu olmayan təşviqat ibarəbazlığa çevrilir" (Əsərlərinin tam külliyyatı, 43-cü cild, səh.343). Sov.İKP MK-nın iyun (1983-cü il) plenumu sovet cəmiyyətinin mənəvi, ideoloji həyatının bütün formalarını zənginləşdirmiş, siyasi, tərbiyə işinin elmi, nəzəri əsasını möhkəmləndirmiş və hər bir sovet adamında marksizm-leninizm dünyagörüşü, kommunist inamı formalaşdırmaq vəzifəsini irəli sürmüşdür.

İdeoloji işin özəyini təşkil edən marksizm-leninizm təhsili bu vəzifənin yerinə yetirilməsində aparıcı rol oynamalıdır.

Respublikanın partiya komitələri və təşkilatları partiyanın XXVI qurultayının, MK-nın sonrakı plenumlarının göstərişlərini, "Sov.İKP XXVI qurultayının qərarları ilə əlaqədar olaraq partiya təhsilini daha da təkmilləşdirmək haqqında" Sov.İKP MK-nın qərarını rəhbər tutaraq, siyasi maarifin keyfiyyətini və səmərəliliyini yüksəltmək, təbliğatın həyatla əlaqəsini möhkəmlətmək sahəsində tədbirlər görmüşlər. "Siyasi və iqtisadi təhsil sistemində 1981-82-ci dərs ilinin başlanması və ilk məşğələlərin keçirilməsi haqqında", "Sov.İKP MK iyun (1983-cü il) plenumunun tələbləri ilə əlaqədar olaraq və iqtisadi təhsil sistemi üçün dərs vəsaiti nəşrini yaxşılaşdırmaq haqqında" Azərbaycan KP MK-nın qərarları buna kömək etmişdir.

Respublikanın marksizm-leninizm təhsili sistemində 1 milyon 449,5 min nəfər olur. 53 minədək təbliğatçı marksizm-leninizmin əsas müddəalarına yiyələnməkdə, cəmiyyətin həyatında Sov.İKP-nin rəhbər rolunun artmasının obyektiv qanunauyğunluqlarını, inkişaf etmiş sosializm konsepsiyasını başa düşməkdə, partiyanın SSRİ xalqları arasındakı dostluğu daha da möhkəmlətmək, iqtisadiyyatı intensivləşdirmək, onun səmərəliliyini yüksəltmək xəttini öyrənməkdə dinləyicilərə kömək edir. Partiya komitələri və təşkilatları, təbliğatçılar kommunist quruculuğunun konkret nəzəri və əməli vəzifələrinin öyrənilməsini təşkil edərkən təbliğatın həyatla, əmək kollektivlərinin vəzifələri ilə əlaqəsini hər vasitə ilə möhkəmlətməyə çalışırlar.

Keçən il təbliğatçılarla birlikdə bir çox dinləyicilər şəxsi və kollektiv müqabil planları və sosialist öhdəliklərini, habelə əmək məhsuldarlığının yüksəldilməsinə dair şəxsi və kollektiv planları, işin səmərəliliyinə və keyfiyyətinə dair kompleks şəxsi

hesabları, şəxsi qənaət hesablarını əsaslandırmış və hazırlamışlar. Təhsilin gedişində praktik tapşırıqları yerinə yetirərkən və referatlar hazırlayarkən dinləyicilər 28 minə yaxın təklif irəli sürmüşlər. Bunların, demək olar ki, 19 mini həyata keçirilmiş və 30 milyon manatlıq iqtisadi səmərə vermişdir.

Bu faktlar partiyanın tələblərinə uyğun olaraq, marksizm-leninizm təhsilinin təşkilində müsbət dəyişikliklər baş verdiyini, respublikanın təsərrüfat nailiyyətlərinə təbliğatçıların və dinləyicilərin töhfəsinin artdığını sübut edir. Lakin nailiyyətləri möhkəmlətməklə, yeni tələbləri nəzərə almaqla, bundan sonra da təhsili əmək kollektivlərinin iş praktikası ilə və yerinə yetirdiyi vəzifələrlə əlaqələndirmək, marksizm-leninizmin təbliği səviyyəsini və təsirliliyini durmadan yüksəltmək, formalizmdən, ayrı-ayrı müddəaların mexaniki olaraq, həyatdan ayrı şəkildə əzbərlənməsinə son qoymaq, məşğələlərin fəal formalarını inkişaf etdirmək, müstəqil siyasi təhsili ardıcıl tətbiq etmək, təbliğatçıların və dinləyicilərin tədris-metodik və informasiya təminatını yaxşılaşdırmaq lazımdır.

Sov.İKP MK-nın iyun plenumu qeyd etmişdir ki, ideya tərbiyəsi işinin təşkili ilə əlaqədar olan bütün tədbirlər nəticə etibarilə əmək kollektivində həyata keçirildiyinə görə, ən yaxşı təbliğatçıların diqqəti burada cəmləşdirilməlidir. Partiya komitələri əmək kollektivlərinin aparıcı qüvvəsi və siyasi özəyi olan ilk partiya təşkilatlarının rolu və əhəmiyyətinin artmasına qayğını gücləndirməli, marksizm-leninizm təhsilinin təsirliliyinin yüksəlməsi üçün onların məsuliyyətini artırmalıdırlar.

Partiya təşkilatlarının kütləvi-siyasi işi sosial-iqtisadi vəzifələrin yerinə yetirilməsinin ideoloji cəhətdən təminatında mühüm rol oynayır. Sov.İKP MK iyun (1983-cü il)

plenumunun qərarında deyildiyi kimi, bu iş "partiya ilə xalqın birliyini möhkəmlətməli, kommunist inamını, zəhmətkeşlərin siyasi fəallığını artırmalı, onların yaradıcılıq əzmini inkişaf etdirməlidir". İnformasiya, tərbiyə və təşkilatçılıq funksiyalarını yerinə yetirən siyasi təşviqat və partiya təşkilatlarının ideya-siyasi iş forması olan təbliğat bir-birinə sıx qarşılıqlı təsir göstərir.

Siyasi təşviqatın gücü və səmərəliliyi onun konkretliyində, adamların bilavasitə həyati mənafeyi ilə əlaqəsindədir. Respublika partiya komitələri təşkilatları onun bu xüsusiyyətlərini və ideoloji fəaliyyətin bütün digər növlərinə nisbətən üstünlüyünü hər vasitə ilə inkişaf etdirməyə və təkmilləşdirməyə çalışırlar.

V.İ.Lenin yazırdı: "Təbliğat və təşviqatın aydınlığı əsas şərtdir. Əgər rəqiblərimiz bizim təşviqat və təbliğatı inkişaf etdirməkdə möcüzələr yaratdığımızı demiş və etiraf etmişlərsə, bunu zahiri mənada, çoxlu təşviqatçı olduğu və çoxlu kağız işlətdiyimiz mənasında deyil, daxili mənada, o mənada başa düşmək lazımdır ki, bu təşviqatda olan həqiqət hamının zehninə yol tapdı. Bu həqiqətdən isə uzaqlaşmaq olmaz" (Əsərlərinin tam külliyyatı, 40-cı cild səh. 273). Partiya komitələri Leninin tələbinə əsaslanaraq, kütləvi-siyasi işi, şifahi siyasi təşviqatın forma və metodlarını təkmilləşdirirlər. Bu işi mühazirəçilərin, məruzəçilərin, siyasi məlumatçıların böyük dəstəsi aparır. Onlar baş verən hadisələri və zəhmətkeşləri düşündürən məsələləri vaxtında və ixtisaslı şəkildə izah etməyə, adamlarda həqiqətən maraq oyatmağa çalışır, partiyanın sözü, öz əmək və mənəvi nümunəsi ilə iş yoldaşlarına müsbət təsir göstərir, yeni inandırıcı dəlillərin köməyi ilə onlarda coşğun yaradıcılıq fəaliyyətinə

tələbat formalaşdırırlar. Partiya komitələri dərk edirlər ki, bu prosesdə siyasi boşboğazlığa yol verməK olmaz, Leninin məsləhətini daim rəhbər tutaraq, "sosializm məsələlərini ...cümləpərdazlıq etmədən, qışqırıb-bağırmadan əldə faktlar və rəqəmlərlə ŞƏRH ETMƏYİ bacarmaq lazımdır" (Əsərlərinin tam külliyyatı, 14-cü cild, səh.100).

Respublikada kütləvi-siyasi iş vüsətlə genişlənir. Onun tərkibinə və ya digər ictimai-siyasi kampaniyalar ərəfəsində, konkret xalq təsərrüfatı vəzifələrinin yerinə yetirilməsindən əvvəl mühazirəçilərin, təşviqatçıların, siyasi məlumatçıların, bütün kütləvi informasiya və təbliğat vasitələrinin iştirakı ilə eyni vaxtda keçirilən irimiqyaslı tədbirlər də daxildir. VAHİD SİYASİ GÜNLƏR bu çoxcəhətli işin mühüm vəsiləsidir. Həmin günlərin tematikası daim genişləndirilir və təsərrüfat quruculuğunun, sosial və mədəni inkişafın ümdə məsələləri ilə əlaqələndirilir. Siyasi gün iştirakçılarının qaldırdığı məsələlər Azərbaycan KP MK-nın şöbələrində diqqətlə öyrənilir və ümumiləşdirilir, yekunları MK bürosunda müntəzəm olaraq nəzərdən keçirilir. Aşkara çıxarılan nöqsanları aradan qaldırmaq və müsbət təcrübəni yaymaq üçün operativ tədbirlər görülür.

Lenin cümə günlərində – siyasi günlər zamanı 15 min rəhbər işçi – siyasi məruzəçi adamlarla canlı söhbət aparır. Bu, özünəməxsus hesabatdır, rəhbər işçinin imkanlarını, dinləyicilərlə ünsiyyət yaratmaq, həll edilməli olan vəzifələri və məsələləri anlaşıqlı, inandırıcı və parlaq surətdə izah etmək bacarığını açıb göstərir. Bakıda, Sumqayıtda, respublikanın bir çox rayonlarında müvəffəqiyyətlə tətbiq olunan "Açıq məktub günləri" adamlarla açıq, səmimi söhbət aparmaq, vaxtı çatmış, zəhmətkeşləri narahat edən məsələləri həll etmək üçün böyük imkanlar yaradır.

Rəhbər kadrlar kütlələrin tərbiyə edilməsində, onların yaradıcı fəallığının inkişafında, kommunizm quruculuğu vəzifələrinin yerinə yetirilməsində birinci dərəcəli rol oynamalıdırlar. Rəhbər işçi ideoloji döyüşçü olmalı, öz şəxsi nümunəsi ilə kommunist mənəviyyatı normalarını təsbit etməli, kollektivin siyasi və mənəvi yüksəlişinə təkcə sözlə deyil, həm də işlə kömək göstərməlidir. “Respublikada kütləvi-siyasi işdə rəhbər işçilərin iştirakı haqqında” Azərbaycan KP MK-nın qərarında bu münasibətlə genişmiqyaslı vəzifələr müzakirə edilmişdir. Həmin qərar partiya, sovet, həmkarlar ittifaqı və komsomol işçilərini ictimaiyyətlə canlı əlaqələri hər vasitə ilə daha da möhkəmlətməyə, zəhmətkeşlər və əhali qarşısında hər yerdə hesabatlar verməyə, siyasi tərbiyə işinin vəziyyəti üçün məsuliyyəti yüksəltməyə yönəldir.

Bu yaxınlarda Azərbaycan KP MK Sov.İKP MK iyun (1983-cü il) plenumunun qərarları ilə əlaqədar olaraq, yaşayış yerlərində əhali arasında kütləvi-siyasi işin təşkili sahəsində Mingəçevir Şəhər Partiya Komitəsinin fəaliyyəti haqqında məsələ müzakirə etmişdir. Qəbul olunmuş qərarda partiya təşkilatları qarşısında mübariz vəzifə – bu işi hər vasitə ilə inkişaf etdirmək, onun idarə edilməsini təkmilləşdirmək, əhalinin bütün təbəqələrinə təsir dairəsini genişləndirmək vəzifəsi qoyulur.

SSRİ Ərzaq proqramının yerinə yetirilməsini ideoloji cəhətdən təmin etmək sahəsində fəal, məqsədyönlü iş aparılır. “Məhsul yığımı dövründə kənd əməkçiləri arasında siyasi tərbiyə və kütləvi mədəni işin vəzifələri haqqında” Azərbaycan KP MK-nın qərarına uyğun olaraq rayon, kolxoz və sovxoz qərargahları, operativ ideoloji qruplar, mətbuat mərkəzləri bu fəaliyyətin əlaqələndirici mərkəzləri olmuşdur. Onlar sosializm

yarışını, mədəni-məişət və tibb xidmətini təşkil edir, keçirilən tədbirlərin aşkarlığını təmin edirlər. Məhsul yığımı dövründə mədəniyyət evlərinin, klubların, kitabxanaların, muzeylərin, avtoklubların, demək olar ki, bütün fəaliyyəti tarla düşərgələrinə və fermalara keçirilir. Respublikanın ideoloji xidmətləri qarşısında kənd əməkçiləri arasında kütləvi-siyasi işi gələcəkdə də sistemli, ardıcıl, fərqli şəkildə, yüksək ideya, təşkilati-siyasi və bədii səviyyədə aparmaq vəzifəsi durur.

Respublika partiya təşkilatı sosial-iqtisadi vəzifələrin ideoloji təminatı işində zəhmətkeşlərin sinfi, beynəlmiləl və vətənpərvərlik tərbiyəsi məsələlərinə bir qayda olaraq, xüsusi əhəmiyyət verir. Partiya təşkilatlarının, ideoloji işçilərin fəaliyyəti çoxmillətli əmək kollektivlərini sıx birləşdirməyə, onların daxilində dostluq və yoldaşcasına qarşılıqlı münasibətləri bərqərar etməyə, beynəlmiləlçilik şüuru, ictimai həyatın hadisələrini, zəmanəmizin sosial-iqtisadi və ideya-siyasi problemlərini sinfi mövqelərdən qiymətləndirmək bacarığı formalaşdırmağa yönəldilmişdir. Bu zaman “hər bir mənəvi, dini, siyasi və sosial ibarələr, bəyanatlar, vədlər arxasında bu və ya başqa siniflərin mənafeyini” (V.İ.Lenin. Əsərlərinin tam külliyyatı, 32-ci cild, səh. 50) görməyə xüsusi diqqət yetirilir. Bu amil siyasi əhəmiyyətə malik olmaqla bərabər, həm də sosial-iqtisadi vəzifələrin yerinə yetirilməsində həlledici əhəmiyyət daşıyır.

Respublikada mükəmməl MƏNƏVİ TƏRBİYƏ SİSTEMİ təşəkkül tapmışdır. Həmin sistem 1979-cu ildə Bakıda keçirilmiş “Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri” mövzusunda Ümumittifaq elmi-praktik konfransının yekunlarına dair

Azərbaycan KP MK-nın qərarında təsbit edilmişdir. Mənəvi əsasları möhkəmlətmək, fəal həyat mövqeyi tərbiyə etmək sahəsində iş elə həlledici vəsilələrdən biri olmuşdur ki, respublika partiya təşkilatı ona arxalanaraq, sosial-iqtisadi və mənəvi-ideoloji problemlərin mürəkkəb silsiləsini müvəffəqiyyətlə yerinə yetirir. Partiya komitələri partiyanın XXVI qurultayının, Sov.İKP MK-nın sonrakı plenumlarının irəli sürdüyü böyük və məsul vəzifələri əsas tutaraq adamların mənəvi tərbiyəsi, cürbəcür mənfi hallara qarşı mübarizə sahəsində respublikada toplanmış təcrübəni daha da inkişaf etdirməli, sosializmin fundamental mənəvi sərvətlərini daha dərindən və konkret şəkildə təbliğ etməli, sosialist, əmək ənənələri və adətlərinin tərbiyəvi gücündən daha məqsədyönlü şəkildə istifadə etməlidirlər.

Dəqiq işləyən qarşılıqlı rabitə mexanizmi ideya tərbiyəsi vəzifələrinin yerinə yetirilməsinə kömək edir. Sov.İKP MK-nın iyun plenumunda K.U.Çernenko yoldaşın dediyi kimi, qarşılıqlı rabitə mexanizmi olmasa, təbliğat heç bir fayda verməz. Bizdə bu mexanizm qaydaya salınmışdır və səmərəli fəaliyyət göstərir. Zəhmətkeşlərin çıxışları və məktubları, mühazirəçi və təbliğatçılara verilən suallar, sosioloji tədqiqatlar onun tərkib hissələridir. Azərbaycanda bu sahədə toplanan iş təcrübəsi Sov.İKP MK-nın iyun plenumunda müsbət qiymətləndirilmişdir. Respublikanın bütün qəzetləri, televiziya və radiosu ilə sıx əlaqədə işləyən Azərbaycan KP MK yanında İctimai Rəyi Öyrənmə və Sosioloji Tədqiqatlar Mərkəzi kütlələrlə çevik, operativ əlaqənin həyata keçirilməsində əlaqələndirici rolunu oynayır. Bu istiqamətdə perspektiv vəzifələr “Sov.İKP XXVI qurultayının qərarları ilə əlaqədar olaraq respublikada ictimai

rəyin öyrənilməsini və sosioloji tədqiqatları daha da yaxşılaşdırmaq haqqında" Azərbaycan KP MK-nın qərarında müəyyən edilmişdir.

Sosioloji tədqiqatlar və ictimai rəyin öyrənilməsi tərbiyə prosesinə fərqli münasibəti təmin edir, insanın şüuruna və davranışına təsir göstərən konkret iqtisadi və sosial-psixoloji amilləri nəzərə almağa imkan verir. Azərbaycanın sosioloji xidmətinin apardığı tədqiqatların nəticələrindən bu və ya digər tədbirin təhlilində və qiymətləndirilməsində, sosial-iqtisadi inkişaf planlarının işlənib hazırlanmasında və yerinə yetirilməsində geniş istifadə olunmuşdur. İstehsalın səmərəliliyi və əməyin keyfiyyəti, əmək təşkilinin təkmilləşdirilməsi, istehsal mədəniyyətinin yüksəldilməsi, əmək və istehsal intizamının vəziyyəti məsələləri öyrənilmişdir. Mərkəzin fəaliyyətinin səmərəliliyini belə bir faktdan da görmək olar ki, mütəşəkkilliyi və əmək intizamını daha da yüksəltmək üçün nə etmək lazım gəldiyi barədə onun müraciətinə cavab olaraq, zəhmətkeşlərdən bir çox təklif və mülahizələri bu ilin iyun ayında keçirilmiş, "Sosialist əmək intizamını möhkəmlətmək işinin gücləndirilməsi haqqında" Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin və ÜİHİMŞ-in qərarını yerinə yetirmək sahəsində Azərbaycan partiya təşkilatlarının fəaliyyəti barəsində Sov.İKP MK-nın qərarını həyata keçirmək tədbirlərini müzakirə etmiş Azərbaycan KP MK plenumunun materiallarında öz əksini tapmışdır.

Partiya komitələrinin vəzifəsi sosioloji bölmələrin səmərəli və sistemli işləməsinə kömək etməkdən, aparılan tədqiqatların yüksək keyfiyyətinə nail olmaqdan və alınan faktlardan bacarıqla istifadə etməkdən ibarətdir.

Zəhmətkeşlərin kommunist tərbiyəsi və təşkili üçün, sosial-iqtisadi vəzifələrin yerinə yetirilməsinin ideoloji təminatı üçün vasitə olan KÜTLƏVİ İNFORMASİYA VƏ TƏBLİĞAT VASİTƏLƏRİ kütlələrlə ən mühüm rabitə kanalı, ictimai rəyin dəqiq barometridir. Respublika mətbuatı, televiziya və radiosunun yaradıcı kollektivləri özlərini dövrün partiya ehtiraslı salnaməçiləri, kütlələrin fəal təbliğatçıları və təşkilatçıları kimi göstərirlər. Azərbaycanda birdəfəlik tirajı 2,5 milyon nüsxədən çox olan 140 qəzet, birdəfəlik tirajı 1,6 milyon nüsxə olan jurnal tipli 120 nəşr buraxılır. Bu rəqəmlər respublika partiya təşkilatının kütlələrə siyasi rəhbərlik sahəsində necə güclü ideya təsiri silahına malik olduğunu əyani surətdə təsəvvür etməyə imkan verir. Həmin silahdan bacarıqla istifadə olunması jurnalist axtarışı səmtlərinin nə dərəcədə düzgün müəyyən edildiyindən, partiya və xalqın quruculuq fəaliyyətinin başlıca istiqamətlərinə mətbuatın diqqətinin nə dərəcədə dolğun cəmləşdirildiyindən asılıdır. “Jurnalistika səmərəli tərbiyə vasitəsidir. Sənətkarlığın aktual problemləri” mövzusunda Bakıda keçirilmiş Ümumittifaq elmi-praktik konfransında kütləvi informasiya vasitələrinin işini təkmilləşdirmək problemləri məhz bu baxımdan nəzərdən keçirilmişdir.

“Rayon və şəhər qəzetlərinin fəaliyyətini daha da yaxşılaşdırmaq haqqında “Sov.İKP MK qərarının yerinə yetirilməsi sahəsində iş yerli mətbuatın rolunun güclənməsinə səbəb olacaqdır. Azərbaycan KP MK “Sov.İKP MK iyun (1993-cü il plenumunun tələbləri ilə əlaqədar olaraq, öz çıxışlarının təsirliliyini yüksəltmək sahəsində “Kommunist”, “Bakinski raboçi”, “Kommunist” (ermənicə) respublika qəzetlərinin işi haqqında” qərar qəbul etmişdir.

Bu qərar jurnalist kollektivlərini partiya planlarının yerinə yetirilməsinə zəhmətkeşləri səfərbər etməkdə yeni vasitələr axtarışına yönəltmişdir. Ümdə vəzifə mətbuatın, televiziya və radionun çıxışlarının yüksək ideya-tematik səviyyəsini və təsirliliyini təmin etməkdən, onların informasiya ilə, idraki məzmunla zənginliyini artırmaqdan ibarətdir. V.İ.Lenin yazmışdır: "Qəzet yalnız kollektiv təbliğatçı və kollektiv təşviqatçı deyil, habelə kollektiv təşkilatçıdır" (Əsərlərinin tam külliyyatı, 5-ci cild, səh.11). Müasir həyatın dinamizmi mətbuatın qarşısında öz təşkilatçılıq, nəzarətçilik, təbliğatçılıq, əks-təbliğatçılıq, sosioloji funksiyalarını dəqiq yerinə yetirmək, Leninin bu universal formuluna müntəzəm əməl etmək vəzifəsini təkidlə irəli sürür.

Ədəbiyyat və incəsənət zəhmətkeşlərin mənəvi həyatının zənginləşməsinə, insanların kommunizm idealları ruhunda tərbiyə edilməsinə çox böyük töhfə verir. Azərbaycanın yaradıcılıq ittifaqları və təşkilatları, mədəniyyət ustaları ideallarımızı təbliğ etmək sahəsində müntəzəm iş aparır, şəxsiyyətin ideya-siyasi və mənəvi simasına fəal təsir göstərirlər. Onların sözü kitab səhifələrindən və teatr səhnələrindən, kino və televizor ekranlarından səslənir, ədəbiyyat və incəsənət xadimlərinin mədəni hamilik işi, fəhlələr, kolxozçular, əmək kollektivləri və təhsil ocaqları ilə yaradıcılıq əməkdaşlığı möhkəmlənir.

Bununla belə, zaman tələb edir ki, sosialist mədəniyyətinin keyfiyyətcə yüksəlişi uğrunda mübarizədə yaradıcılıq ittifaqlarının, bütün bədii ziyalıların fəaliyyəti daha da gücləndirilsin. "Kinofilmlərin ideya-bədii səviyyəsini daha da yüksəltmək və kinematoqrafiyanın maddi-texniki bazasını möhkəmlətmək tədbirləri haqqında" Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin qərarı bu cəhətdən geniş imkanlar və perspektivlər

açır. Respublikanın kinematoqrafçıları bu qərarı rəhbər tutaraq, zəmanəmizi yüksək bədii səviyyədə və ideya səviyyəsində dərk etməli və əks etdirməlidirlər.

Tərbiyə prosesində mədəni-maarif idarələrinin imkanlarından da daha yaxşı istifadə olunmalıdır. Sov.İKP MK iyun plenumunun qərarları ilə əlaqədar olaraq, ictimai elmlər sahəsində tədqiqat institutlarının, ali məktəblərin, fakültə və kafedraların partiya təşkilatları və komitələri qarşısında ciddi vəzifələr durur. Onlar öz kollektivlərində yaradıcılıq şəraiti, tədqiqatların keyfiyyətinə prinsipial, tələbkar münasibət yaratmalı, ideya tərbiyəsi işinin ümdə praktik vəzifələrinə qəti dönüşü təmin etməlidirlər.

İdeoloji iş öz realizmi ilə zəhmətkeşlərin coşğun yaradıcı fəaliyyətinin aydın perspektivlərini əks etdirməlidir. Bu, gənclər üçün xüsusilə vacibdir. Gənclər gələcəyə inam bəsləməli, həyatı açıq gözlə və nikbinliklə başa düşməyə, öz fəaliyyətinin məqsədlərini və miqyasını müstəqil şəkildə dərk etməyi bacarmalıdırlar.

Həyat tələb edir ki, gənclərin ideya-siyasi, əmək tərbiyəsinin səviyyəsi yeni pilləyə qaldırılmalı, onlara dərin iqtisadi və peşə bilikləri verilməli, geniş miqyasla düşünmək öyrədilməlidir. “Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri haqqında” Sov.İKP MK-nın qərarını yerinə yetirmək sahəsində iş bu vəzifələrin həllinə xeyli kömək edir. Şübhəsiz ki, həmin iş gənclərin ideya-siyasi və əmək tərbiyəsini, ideyaca mətin sinfi döyüşçülər formalaşdırılmasını yeni metod və vasitələrlə tamamlayacaq və zənginləşdirəcəkdir.

Bununla əlaqədar olaraq, gənclərin ictimai faydalı əməyə cəlb edilməsində yeni formaların: məktəb manqalarında briqada podratını, məktəblilərin və tələbələrin əmək və istirahət düşərgə-

lərini əzmlə inkişaf etdirmək və geniş tətbiq etmək lazımdır. Respublika partiya təşkilatının malik olduğu maarif vasitələrinin bütün zəngin xəzinəsindən sovet gənclərinin artan təhsil səviyyəsi və ideya tələbatı nəzərə alınmaqla daha fəal, yaradıcılıqla istifadə edilməlidir. “Komsomola partiya rəhbərliyini daha da yaxşılaşdırmaq və gənclərin kommunist tərbiyəsində komsomolun rolunu yüksəltmək haqqında” Sov.İKP MK-nın qərarında deyilir ki, böyüməkdə olan nəslin tərbiyəsinin daha da yaxşılaşdırılmasına çox mühüm partiya, dövlət və ümumxalq işi kimi baxılmalıdır. Bu, Vətənimizin gələcəyini etibarlı surətdə təmin etməyin əsasıdır və ona görə də respublikanın bütün ideoloji iş fəalları həmin məsələnin həllinə yüksək borc və məsuliyyət hissi ilə yanaşmalıdırlar.

* * *

PARTİYA-SİYASİ işin Lenin üslubu partiya komitələrinin, bütün ideoloji xidmət və bölmələrinin fəaliyyətinin dəqiq əlaqələndirilməsini tələb edir. Son illərdə bir çox partiya komitələri ideoloji işi təşkilati cəhətdən təmin etmək sahəsində maraqlı təcrübə toplamışlar. Respublika KP MK zəhmətkeşlərin beynəlmiləl tərbiyəsi sahəsində Lenin Rayon Partiya Komitəsinin təcrübəsini bəyənmişdir. Sumqayıt Şəhər Partiya Komitəsi əmək tərbiyəsi və mənəvi tərbiyə məsələlərini sıx qarşılıqlı əlaqədə həll edir. Şəhərdə “Hər bir iş yerində, rejimində geridə qalanlar olmadan işləməli”, “Bir işburaxmaya və boşdayanmaya da yol vermədən işləməli”, “Bütün sifarişləri vaxtında və yüksək keyfiyyətlə yerinə yerirməli” kimi qiymətli təşəbbüslər və vətənpərvərlik hərəkatları kütləvi surətdə yayılmışdır. Sumqayıtın bütün müəssisələrində “Əmək şərəfi” kodeksləri” fəaliyyət göstərir, mənəvi tərbiyə kabinetləri yaradılmışdır. Zəhmətkeşlərin

mənəvi tərbiyəsində əmək kollektivlərinin rolunu artırmaq sahəsində Sumqayıt Partiya Komitəsinin işi haqqında Azərbaycan KP MK-nın qərarında nəinki bir partiya komitəsinin müsbət təcrübəsi ümumiləşdirilmiş, həm də respublikanın bütün partiya təşkilatlarının uzunmüddətli vəzifələri müəyyən edilmişdir.

Kənddə iqtisadi və sosial inkişaf planlarının müvəffəqiyyətlə yerinə yetirilməsini ideoloji cəhətdən təmin etmək sahəsində Cəlilabad Rayon Partiya Komitəsinin işi haqqında Azərbaycan KP MK-nın qərarında ideoloji iş üslubunu və metodlarını yaxşılaşdırmaqda partiya təşkilatlarının fəaliyyətinin hərtərəfli proqramı verilmişdir. Bu partiya sənədi qəbul edilməzdən əvvəl Ərzaq proqramında müəyyən olunmuş vəzifələrin ideoloji təminatı sahəsində Cəlilabad Rayon Partiya Komitəsinin işi dərin təhlil edilmişdir. Siyasi rəhbərlik orqanı olan rayon partiya komitəsi partiyanın aşağı vəsilələrini ideya tərbiyəsi işinin əsl mərkəzlərinə çevirə bilmişdir. Qiymətli təcrübənin məğzi bundan ibarətdir.

Azərbaycan KP 26 Bakı komissarı Rayon Komitəsinin fəaliyyəti siyasi rəhbərliyin təsirli forma və metodlarından düzgün istifadə etməklə əməkçilərin yüksək şüurluluğuna, ideyaca tərbiyə işinin yaxşılaşmasına, kütlələrlə əlaqələrin daha da möhkəmlənməsinə, rayonda bütün ictimai təşkilatların işinin bacarıqla istiqamətləndirilməsinə necə nail olmaq nümunəsidir. Astara rayon partiya təşkilatında tərbiyə işinin, kütləvi-siyasi işin düşünülmüş sistemi hazırlanmışdır və fəaliyyət göstərir. Burada ideoloji işə konkret rəhbərlik metodları üstünlük təşkil edir.

Partiyanın proqram vəzifələrinin yerinə yetirilməsinə ideoloji təminat yaratmaq sahəsində partiya komitələrinin fəaliyyət üslubu və metodlarının təkmilləşdirilməsi xeyli dərəcədə ideoloji iş kadrlarından asılıdır. K.Marks və F.Engels yazırdılar

ki, ideyalar öz-özlüyündə heç nəyi həyata keçirə bilməz. İdeyaların həyata keçirilməsi üçün adamlar lazımdır və onlar əməli qüvvə tətbiq etməlidirlər.

Tərbiyə prosesinin yüksək səmərəliliyi, yeni insanın formalaşdırılmasında, onun əmək və ictimai-siyasi fəallığının artırılmasında real müvəffəqiyyətlər partiyanın ideoloji döyüşçülərindən asılıdır. Respublika partiya təşkilatının bu işi görməyi etibar etdiyi adamların böyük əksəriyyəti öz işini, öz kollektivlərinin vəzifələrini yaxşı bilir, siyasi cəhətdən savadlıdır. İctimai inkişaf qanunlarına bələddir, kommunizm quruculuğunun strategiya və taktikasına, partiyanın daxili və xarici siyasətinə dərindən yiyələnmişdir. Lakin bəzən ideoloji iş kadrları ideoloji iş mexanizmini, xüsusən qarşıda duran vəzifələri yerinə yetirmək vasitələri, üsulları, metodları, məqsədli proqram üzrə planlaşdırma metodologiyası, görülən işin səmərəliliyinin müəyyən edilməsi, qərarın icrasının təşkili kimi problemləri zəif bilirlər. İdeoloji cəbhə kadrlarının ideoloji iş nəzəriyyəsinə, metodlarına və praktikasına hərtərəfli yiyələnməsi üçün məsuliyyət tamamilə partiya komitələrinin, ilk partiya təşkilatlarının üzərinə düşür.

Respublika ideoloji iş kadrları hazırlamaq və onların ixtisasını artırmaq sahəsində müəyyən iş görülür, lakin əldə edilən nəticələrlə kifayətlənmək olmaz. Kadrların hazırlığını və keyfiyyət tərkibini yaxşılaşdırmaq, ixtisaslı ehtiyat yaratmaq üçün uzunmüddətli proqram tərtib edilməlidir.

Sov.İKP MK-nın iyun plenumu qeyd etmişdir ki, sovet adamlarının kommunist dünyagörüşünün və ideya-mənəvi mövqeyinin formalaşdırılması təkcə ideoloji işçilərin deyil, bütün partiyanın, hər bir kommunistin işidir. İdeoloji işi, siyasi tərbiyə işini həm formaca, həm də məzmunca daha yüksək

keyfiyyət səviyyəsini qaldırmaq, partiyanın XXVI qurultayının, Sov.İKP MK-nın sonrakı plenumlarının tarixi qərarlarının həyata keçirilməsini, on birinci beşillik tapşırıqlarının yerinə yetirilməsini təmin etmək üçün daha böyük qətiyyət, səy və bacarıq sərf olunmalıdır.

*“Azərbaycan kommunisti”jurnalı,*
*№9, 1984-cü il.*

## ATEİZM İŞİNİN SƏMƏRƏLİLİYİ YÜKSƏLDİLMƏLİDİR

Cəmiyyətimizin həyatının bütün sahələrində baş verən dərin dəyişikliklər ideoloji işi də köklü surətdə yenidən qurmaq zərurəti doğurur. Kütlələrin ateist tərbiyəsi bu işin tərkib hissəsidir. Şüurluluq nə dərəcədə yüksəkdirsə, adamların dünyagörüşünün təməlləri nə qədər möhkəmdirsə, irəliləyişimiz də bir o qədər uğurlu olar. Sov.İKP.MK-nın XXVII partiya qurultayına siyasi məruzəsində deyilir: “Müasir vəzifələrin xarakterinin dərindən başa düşülməsini formalaşdırmaq, möhkəm elmi dünyagörüşü, prinsipiallıq, yüksək mədəniyyət, istənilən sahədə işə məsul münasibət indi xüsusilə vacibdir”.

Partiyanın və xalqın həyata keçirdikləri yenidənqurma ab-havası sovet cəmiyyətində elmi-materialist dünyagörüşü mövqelərinin daha da möhkəmlənməsi üçün əlverişli zəmin yaratmışdır. Dini qalıqların aradan qaldırılması, əhalinin bütün təbəqələrinin yaradıcılıq qüvvələri və bacarığının tam üzə çıxarılması, insan amilinin hər vasitə ilə fəallaşdırılması üçün hər cür şəraitimiz var.

Bütün məsələ bu imkanlardan necə istifadə etməkdən, ateizm təbliğatına necə yeni ruh, yaradıcı xarakter, yeni məzmun verməkdən, insanların qəlbinə və ruhuna təsirin daha mükəmməl formalarını axtarmaq və tapmaqdan ibarətdir. İşi yeni tərzdə qurmaq üçün biz, ilk növbədə, obyektiv surətdə araşdırmalı olduq ki, nə üçün ateist tərbiyəsi arzu edilən nəticəni verməmişdir? Nə üçün respublika əhalisinin müəyyən

hissəsində sosial süstlük, biganəlik, inamsızıq və dini xurafat təzahürləri müşahidə olunur?

Bunun səbəbləri çoxdur. Onlardan biri də budur ki, ideoloji fəaliyyətin bir sıra istiqamətlərində təbliğat və tərbiyə işi ilə real həyat, onun problemləri və ziddiyyətləri arasında uyğunsuzluq baş vermişdir. Əksər vaxt ideoloji tədbirlərin sayca çoxluğu konkret adamla canlı işə mane olmuş və bəzən isə onu sıxışdırıb aradan çıxarmış, əməkçilərin artan tələb və maraqları lazımınca təmin edilməmişdir. Bundan başqa, adamlarımızın bir qismində dinin və onun ənənələrinin zərərsizliyi barədə illüziyalar, təəssüf ki, hələ də qalmaqdadır. Hətta ideoloji işçilər arasında bəzən elələrinə rast gəlirsən ki, onlar elmi ateizmin Lenin prinsiplərindən geri çəkilir, dini xurafatla fəal mübarizənin zəruriliyini lazımınca qiymətləndirmir, güman edirlər ki, din öz-özünə ölüb gedəcəkdir. Əksinə, dini təşkilatlar ölkədə dəyişən şəraitə uyğunlaşaraq, kilsə ehkamlarını təzələyərək, nəinki dindarlara təsiri qoruyub saxlamağa, həm də yeni adamları, xüsusən də gəncləri öz sıralarına cəlb etməyə çalışırlar.

Tədqiqatların yekunları bizi belə bir qənaətə gətirmişdir ki, ateist tərbiyəsi sistemini daha da təkmilləşdirmək lazımdır. Bu tərbiyənin səmərəliliyini yüksəltmək yolları müəyyən edilmişdir. Onlar konkret yaşayış məntəqələrində, əmək kollektivlərində dindarlığın vəziyyətini öyrənməyi, səciyyəvi dini qalıqları aşkarlamağı, əhalinin müxtəlif kateqoriyalarının dil, milli, peşə və digər xüsusiyyətlərini müəyyən etməyi nəzərdə tutur. Bu, həm də ateist təsirinin kütləvi və fərdi formalarından istifadə etməklə geniş təbliğat aparmaq, təbliğat fəaliyyətini maksimum fərdiləşdirmək, bu fəaliyyət dairəsinə dindarları çəkmək, ziyalıların mədəni-tərbiyəvi və

maarifçilik missiyasını təmin etmək, insanların mənəvi axtarışlarına cavab vermək deməkdir.

Partiyanın proqram müddəalarının yerinə yetirilməsinə dair bütün məsələlər Azərbaycan KP MK-da müzakirə olunmuşdur. 1986-1990-cı illər üçün kompleks tədbirlər planı işlənib hazırlanmışdır. Toplanmış informasiya-məlumat material əsasında hər şəhər və rayon üçün özünəməxsus pasportlar hazırlanmışdır və bunlar dini qalıqların vəziyyəti, onların təzahür formaları barədə təsəvvür yaradır.

Nəticədə biz ateizm işinin əhəmiyyətli dərəcədə genişlənməsinə nail olduq. Bu işdə təkcə təbliğat aparatı deyil, bir çox nazirliklər və baş idarələr, sovet, həmkarlar ittifaqı, komsomol və təsərrüfat orqanları da iştirak edirlər ki, bu da çox vacibdir. Azərbaycan KP MK yanında İctimai Rəyi Öyrənmə və Sosioloji Tədqiqatlar Mərkəzi böyük kömək göstərir. Sov.İKP.MK yanında İctimai Elmlər Akademiyası ilə birlikdə respublikada sosioloji tədqiqatlar aparılmışdır. Təhlil göstərir ki, bəzi rayonların əhalisi arasında dindarlıq 18,5 faiz təşkil edir. Dindarlıq yaşlılar, işləməyənlər və əsasən, kənd əhalisi arasında, bölgələrə gəldikdə isə, xarici təbliğatın "çalın-çarpaz atəşi" altında olan ayrı-ayrı sərhəd və sərhədyanı rayonlarda nisbətən yüksəkdir.

Təcrübə göstərir ki, ateist tərbiyəsi probleminin ardıcıl surətdə və elmi əsasda həll edildiyi, dini etiqadlarla səylə mübarizə aparılan yerlərdə dindarlıq getdikcə azalır. Əksinə, ateizm işinin lazımınca qiymətləndirilmədiyi, başlı-başına buraxıldığı, yaxud bu işin qətiyyən aparılmadığı yerlərdə dini etiqadlar qalmaqdadır.

Biz bütün bunları əməli fəaliyyətimizdə nəzərə alır, bu zaman Leninin belə bir müddəasını rəhbər tuturuq ki, "...dini cahilliklə sırf

ideya və ancaq ideya silahı ilə, mətbuatımızla, sözümüzlə mübarizə aparmaq" lazımdır (Əsərlərinin tam külliyyatı, c.12, s.154).

Düşünürəm ki, ateizmin daha da yayılması və bərqərar olması, insanların şüur və davranışında dini xurafatların aradan qaldırılması səriştəli partiya rəhbərliyindən, kadrlarımızın məsuliyyətini yüksəltməkdən çox asılıdır. Biz şəhər və rayon partiya komitələrinin birinci katiblərindən, partiya təşkilatlarının katiblərindən daim tələb edirik ki, işin bu sahəsinə konkret surətdə rəhbərlik etsin, bizə yad olan baxışların və adətlərin aradan qaldırılmasında fəal iştirak etməklə şəxsi nümunə göstərsinlər. Onların fəaliyyət dairəsi çox genişdir. Lakin hər yerdə və hər yanda – işdə, evdə, ictimai və şəxsi həyatda dindarlığın azacıq belə təzahürlərinə qarşı dözülməz olmaq lazımdır.

Partiya təşkilatlarının bütün fəaliyyəti həm də dinlə mübarizə problemlərinə yanaşmaqda kamillik, dinin ideologiyasına qarşı onların qətiyyətliliyi və barışmazlığı, partiyanın göstərişlərini əməli surətdə həyata keçirmək bacarığı kimi meyarlar əsasında qiymətləndirilməlidir. Əgər partiya təşkilatı yalnız təsərrüfat məsələlərinin həllinə qapanıb qalıbsa, sosial inkişaf problemlərini unudubsa, dinin təsiri ilə mübarizənin siyasi aspektlərini görmürsə, o, qabaqcıl partiya təşkilatı ola bilməz.

Ateist tərbiyəsi şuraları və bölmələri, geniş ideoloji kampaniya, tematik müzakirə və diskussiyalar kimi ənənəvi formalardan istifadə edilməsi ilə yanaşı, indi insanla canlı iş, bu sahədə ilk partiya təşkilatlarının, əmək kollektivlərinin, kommunist və komsomolçuların imkanlarından maksimum istifadə olunması ön sıraya çəkilir.

Bakı şəhərinin Oktyabr, Nərimanov və Əzizbəyov rayonlarının, sərhədyanı Naxçıvan şəhərinin, Astara, Lənkəran

rayonlarının və digər rayonların, sənaye mərkəzləri Sumqayıtın, Kirovabad və Mingəçevirin partiya təşkilatlarında əqidəli ateistlər tərbiyə edilməsində müəyyən təcrübə toplanmışdır. Burada yerli ziyalıların xeyli qüvvələri elmi ateizmin təbliğinə cəlb olunmuşdur, əmək və tədris kollektivlərinin imkanlarından istifadə edilir. Bakıdakı məişət kondisionerləri zavodunda və 1 nömrəli tikiş fabrikində, Lənkəran rayonunun balıq kombinatında və Lenin adına sovxozunda, Astara rayonunun "Kommunist" və "Sovet Azərbaycanı" sovxozlarında, bir çox digər partiya təşkilatlarında ateizm işi bacarıqla aparılır.

Hərtərəfli bilik, kommunist əqidəliliyi, özünə qarşı yüksək tələbkarlıq və tapşırılan işə görə məsuliyyət, həyat təcrübəsi, şəxsi nüfuz, səmimilik bir çox fəallarımıza insanların zehninə və qəlbinə yol tapmağa kömək edir. Onların arasında leytenant Şmidt adına Bakı maşınqayırma zavodunun termistlər briqadiri, Sov.İKP XXVII qurultayının nümayəndəsi, respublika KP MK üzvlüyünə namizəd, Azərbaycan SSRİ Ali Sovetinin deputatı A.Rəhimov, Astara rayonundakı Ərçivan kənd xəstəxanasının baş həkimi, Sosialist Əməyi Qəhrəmanı, respublika Ali Sovetinin deputatı S.Əliyeva, S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin dosenti P.Mahmudov və başqaları var.

Ateizm tədrsinin müxtəlif formaları yayılmışdır. Partiya-təsərrüfat fəallarının və ideoloji fəalların məşğələləri, elmi-praktik konfranslar, seminarlar, mühazirələr müntəzəm olaraq keçirilir. Respublika Müəllimləri Təkmilləşdirmə İnstitutu müxtəlif fənn müəllimlərinin ateist hazırlığını aparır. Respublika mətbuatının nümayəndələri Moskvada təşkil olunmuş çoxhəftəlik kurslarda təlim keçmişlər. 36 nəfər Azərbaycan KP MK-nın Marksizm-Leninizm Universitetinin elmi ateizm şöbəsini

bitirmişdir, hazırda burada 136 adam oxuyur. Partiya və sovet işçilərinin respublikalararası və respublika ixtisasartırma kurslarında bütün qruplar üçün ateizm problemləri barədə silsilə mühazirələr oxunur və seminarlar təşkil edilir. Bakı Ali Partiya Məktəbində islamın təsiri ilə mübarizə problemlərinə dair xüsusi kurs təşkil olunmuşdur. Burada vilayət, şəhər və rayon partiya komitələrinin təbliğat və təşviqat şöbələrinin müdirləri, qəzet redaktorları və şəhər-rayon icraiyyə komitələri sədrlərinin müavinləri də həftəlik xüsusi hazırlıq keçirlər.

Yerlərdə ateizm işinin metodikası təkmilləşdirilir. Bakı Şəhər Partiya Komitəsi ateist tərbiyəsinin nəzəriyyə və praktikasının aktual məsələlərinə dair metodik planlar hazırlamış, tövsiyə kitabçaları nəşr etdirmişdir. İmişli, Masallı, Astara, Cəlilabad rayon, Əli Bayramlı və Kirovabad şəhər partiya komitələri ideoloji fəallara kömək üçün elmi-metodik materiallar hazırlayırlar. Salyan Rayon Partiya Komitəsinin ilk partiya təşkilatçılarında ateizm işi haqqında və Naxçıvan Vilayət Partiya Komitəsinin əmək kollektivlərində ateist tərbiyəsi haqqında hazırladıqları tövsiyələr ateizm problemlərinin xüsusiyyəti, yerlərdə dindarlığın vəziyyəti ilə tanış edir, əməkçilərin müxtəlif kateqoriyaları arasında bu sahədə fəaliyyəti təkmilləşdirməyə dair konkret təkliflər irəli sürür.

Ateizm təbliğatçıları Oktyabr rayon və Lənkəran şəhər partiya komitələrinin müntəzəm buraxdıqları ateizm vərəqələrindən də geniş istifadə edirlər. Bu vərəqələr formatca kiçik olsa da, təbliğatçılara ən müxtəlif məsələlər barədə kifayət qədər məlumat verir. Məsələn, axırıncı buraxılışlarda dini bayramların mənşəyi və mahiyyətindən, orucluğun zərərindən, müsəlman ekstremistlərin cəmiyyətə zidd fəaliyyətindən, bir sıra

əmək kollektivlərində ateist tərbiyəsi sahəsində təcrübədən danışılır, keçmişin mütəfəkkirlərinin din haqqında kəlamları, din əleyhinə atalar sözləri və zərb-məsəllər çap edilmişdir.

Ateizm təbliğatımızda respublika əhalisinin tərkibinin çoxmillətli, çoxkonfessional xarakteri də nəzərə alınır. Respublikada, demək olar ki, yüz millət və xalqın nümayəndələri yaşayır, onların arasında islamın da, xristianlığın da (Rus pravoslav, erməni-qriqorian, protestant kilsələri və təriqətləri), iudaizmin də ardıcılları var. Bütün dinlərin qanun qarşısında bərabərliyi prinsipinə ardıcıl surətdə riayət olunur, bütün dindarların hüquq və azadlıqlarına hörmətlə yanaşılır, konstitusiyanın vicdan azadlığı haqqında tələbi təmin edilir, inzibatçılığın hətta ən kiçik elementləri praktikadan çıxarılır.

Sov.İKP MK-nın iyun (1987-ci il) plenumunun qərarlarını müzakirə edən Azərbaycan KP MK-nın plenumunda vurğulanmışdır ki, "beynəlmiləl tərbiyənin hücum xarakterli ateist təbliğatı, islamın mürtəce mahiyyətinin fəal ifşa edilməsi ilə sıx əlaqələndirilməsi prinsipial əhəmiyyətə malikdir. Vaxtı keçmiş, xalqımızın sosial və mənəvi tərəqqisinə mane olan ənənələrə, adətlərə, mərasimlərə qarşı qətiyyətlə mübarizə aparmaq, geniş ictimaiyyəti bu mübarizəyə cəlb etmək lazımdır".

Lenin milli siyasəti milli dillərin azad inkişaf etdirilməsini nəzərdə tutur. Eyni zamanda, millətlərarası ünsiyyət dili olan rus dili öyrənilir. Həyat inandırır ki, rus dilini bilmək müxtəlifdilli kütləni sıx birləşdirir, keçmişdə tez-tez bir-biri ilə münaqişədə olan müxtəlif dinlərin əsrlər boyu yaratdığı sədləri aradan qaldırmağa kömək edir. Bu gün Azərbaycan əhalisinin böyük əksəriyyəti rus dilində danışa bilir, hər üç azərbaycanlıdan biri isə bu dildə sərbəst danışır.

V.İ.Lenin dəfələrlə xatırlatmışdır ki, dini ideologiya ilə mübarizə nə qədər elmi şəkildə aparılırsa, müvəffəqiyyət bir o qədər çox olur. Sov.İKP MK-nın elmi ateizm məsələlərinə dair tələbləri onun bütün istiqamətlərində araşdırmaları stimullaşdırır. Məsələn, alimlərimiz belə aktual mövzuları tədqiq edirlər: “Müasir dini ideologiyanın tənqidi”, “İslam və müasir dövrün sosial-siyasi hərəkatları”, “İslamın tənqidi təhlili və Azərbaycanda ateizmin inkişafı”. Bu seriyadan Azərbaycan dilində “Ateistin kitabxanası”, İslam: qısa məlumat kitabçası”, “Ateistin cib lüğəti”, “Cənnətə vəsiqə” (Azərbaycan yazıçılarının bədii əsərləri məcmuəsi) və digər kitablar nəşr olunmuşdur.

Respublika mətbuatının və yerli mətbuatın səhifələrində, televiziya və radioda ateizm problemləri barədə müxtəlif rubrikalar vardır. Azəbaycan ədəbiyyatı, incəsənəti və ictimai fikir klassiklərinin din əleyhinə yönəldilmiş irsi geniş təbliğ edilir. Xarici klerikal təbliğatın fəallaşması ilə əlaqədar mətbuatda SSRİ-də və Azərbaycanda müsəlmanların vəziyyəti müntəzəm surətdə izah olunur, ideya düşməninin fitnə-fəsadları, dindarlar arasında panislamist və millətçi əhval-ruhiyyəni qızışdırmaq cəhdləri ifşa edilir.

Sov.İKP.MK-nın iyun plenumunda vurğulanmışdır ki, mənəvi fəallığın bu gün baş verən yüksəlişini yenidənqurmanın nailiyyətlərinə aid etmək olar. İctimaiyyətin elmdə, ədəbiyyat və incəsənətdə baş verən proseslərə, mətbuatın, radio və televiziyanın çıxışlarına marağı artmışdır. İnsanlar ölkənin keçmişi, bu günü və gələcəyi barədə daha çox məlumat almaq istəyirlər, ictimai işlərə və dövlət işlərinə, dünyagörüşü problemlərinə və mənəvi-etik problemlərə daha ciddi diqqət yetirilir. Siyasi təşviqat fəalları, respublika mətbuatı bu suallara cavab verməlidirlər.

Ateist tərbiyəsi konkret sosial və iqtisadi vəzifələrin həlli ilə getdikcə daha sıx əlaqələndirilir. Məlumdur ki, ictimai istehsalda çalışmayan əhali dini və mistik təsəvvürlərin yayılması, geridə qalmış baxışların və hərəkətlərin yaşarılığı üçün əlverişli mühitdir. Buraya islamın qadının rolunu ailə-məişət vəzifələri dairəsi ilə məhdudlaşdıran ənənəvi təlimatları da əlavə olunur. Ona görə də qadınların məşğulluq, onlar üçün normal əmək, təhsil və istirahət şəraiti yaradılması problemlərinin həllinin böyük iqtisadi və sosial-siyasi əhəmiyyəti, çox mühüm tərbiyəvi nəticələri var. Bununla əlaqədar "1990-cı ilədək Azərbaycan SSR-in demoqrafik inkişafı və əmək ehtiyatlarından səmərəli istifadə" adlı məqsədli kompleks proqram həyata keçirilir. Qadın şuraları da çox iş görürlər. Onlar qadınları sosial həyata və istehsalat həyatına – xüsusən yüngül və yerli sənayeyə, xidmət kimi sahələrdə – məişət, tibbi, mədəni xidmətdəki nöqsanların aradan qaldırılmasına fəal cəlb etməyə kömək göstərirlər.

Əmək kollektivində, ailədə, ümumən cəmiyyətdə mənəvi mühit nə qədər təmiz olarsa, ateist təsirinin səmərəliliyi bir o qədər yüksək olur. Respublikada sosial ədalətlilik prinsiplərindən kənaraçıxma halları, sosialist qanunçuluğu və mənəviyyatı normalarının pozulması ilə mübarizə güclənir. Bu məsələlər Azərbaycan KP MK-nın 1986-cı ilin dekabrında keçirilən plenumunda geniş müzakirə mövzusu olmuşdur. Dini-millətçi qalıqların dirçəlməsinə təkan verən mənfi faktlara yol verilməməsinə yönəldilmiş əməli addımlar atılır.

İdeyaca zəngin, baxımlı və cəlbedici yeni sovet adətləri və bayramları özlüyündə böyük ateist potensiala malikdir. Bizdə insanın ictimai faydalı fəaliyyətinin mənəvi dəyərlərini bərqərar

edən əmək adətləri və mərasimləri – fəhlə sülalələrinin və beşillik zərbəçilərinin təbrik edilməsi, gənclərin fəhlələr və kolxoşçular sırasına qəbul olunması, əmək şöhrəti günlərinin keçirilməsi populyardır. Şəki, Zaqatala, Ağdaş rayonlarında "Kamillik", gül, kitab bayramları, Puşkin rayonunda və Kirovabad şəhərində Puşkin və Nizami poeziya günləri, Tovuz və Ağdam rayonlarında "Zəriflik" və "Natəvan" qadın bayramları maraqlı keçirilir. Abşeron, Bərdə və Cəlilabad rayonlarında taxılçı, pambıqçı, heyvandar, üzümçü günləri artıq ənənəyə çevrilmişdir.

Qurban bayramının, orucluğun, aşuranın profilaktikasına ciddi fikir verilir. Belə ki, həmin günlərdə dini hisslərin canlanması müşahidə olunur. Mərkəzi Komitənin partiya təşkilatlarına və ideologiya müəssisələrinə göndərdiyi təlimatlarda sitayiş bayramlarının və matəm günlərinin yaxınlaşması ilə əlaqədar əhali arasında profilaktik işinin gücləndirilməsi barədə konkret tövsiyələr olur.

Bununla yanaşı, islamın təsiri ilə mübarizə yetərli deyildir. Bir çox ilk partiya təşkilatlarında, tədris müəssisələrində, elmi kollektivlərdə və yaradıcılıq kollektivlərində əqidəli ateistlər tərbiyə olunması üçün böyük imkanlardan, ideoloji fəaliyyətin bütün forma və metodlarından lazımınca istifadə edilmir. Dindarlara fərdi təsirin səmərəsi lazımınca qiymətləndirilmir, halbuki, bu, insan xarakterinin xüsusiyyətlərini, onun sosial-psixoloji əlaqələrinin müxtəlifliyini nəzərə almağa imkan verir. Bir çox ailələr ideya təsiri dairəsindən kənarda qalır. Bu da lazımınca başa düşülmür ki, mənəvi, beynəlmiləl və ateist tərbiyəsinin səviyyəsini, mənəvi hami kimi müəllimin rolu və nüfuzunu məhz ümumtəhsil məktəbində qaldırmaq gərəkdir.

Ayrı-ayrı rayon partiya komitələri (Ağcabədi, Xaçmaz, Şamaxı) öz fəaliyyətini ləng yenidən qurur, dini qalıqlarla mübarizəni cəsarətlə aparmırlar. Dəfn mərasimlərinə riayət edilməsinin səviyyəsi hələ də yüksəkdir. Qondarma mollaların sayı azalsa da, onlara, hər halda, rast gəlmək olar. “Müqəddəs yerlər” xurafat ocaqları kimi qalmaqdadır.

Biz bu nöqsanları və kəm-kəsirləri görür, səylərimizi ateizm təbliğatının konkret və məqsədyönlü xarakter almasına yönəldirik. Ateizm işinin səmərəliliyini yüksəltmək üçün tərbiyənin bu sahəsinə partiya rəhbərliyini daha da yaxşılaşdırmaq, partiya, dövlət təşkilatlarının və ictimai təşkilatların, kütləvi informasiya vasitələrinin sıx qarşılıqlı fəaliyyət göstərməsini təmin etmək lazımdır.

*“Agitator” jurnalı (Moskva),*
*№19, 1987-ci il.*

# YENİDƏNQURMA VƏ BEYNƏLMİLƏL TƏRBİYƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

Böyük Oktyabr sosialist inqilabı ölkəmizdə milli məsələnin həlli üçün möhkəm zəmin yaratmışdır. Kommunist partiyası V.İ.Leninin "sosializm uğrunda inqilabi mübarizəni milli məsələdə inqilabi proqramla" (Əsərlərinin tam külliyyatı, 27-ci cild, səh.68) əlaqələndirməyə çağıran təlimini rəhbər tutaraq xalqların real bərabərliyini, qardaşcasına əməkdaşlığını bərqərar etmək, bütün respublikaların iqtisadiyyat və mədəniyyətini yüksəltmək sahəsində nəhəng dəyişdirici iş görmüşdür. Bu iş insanların yeni tarixi birliyi olan sovet xalqının təşəkkülündə öz bariz ifadəsini tapmışdır. Partiyanın XXVII qurultayına Sov.İKP MK-nın siyasi məruzəsində deyildiyi kimi, sovet xalqı "iqtisadi mənafeyin, ideologiyanın və siyasi məqsədlərin vəhdəti ilə sıx birləşmiş keyfiyyətcə yeni sosial və beynəlmiləl birlikdir".

Lakin inqilabdan əvvəlki dövrdən miras qalmış milli məsələnin həll edilmiş olması heç də o demək deyildir ki, milli proseslərlə bağlı problemlərimiz yoxdur. Partiya həmişə qeyri-elmi təsəvvürdən çəkindirərkən, bu sahədə meydana gələn dialektik ziddiyyətləri vaxtında aşkara çıxarmaq, həyati məsələləri operativ həll etmək zərurətini əsas götürmüşdür.

Böyük Oktyabr sosialist inqilabının 70 illiyi münasibətilə Sov.İKP Mərkəzi Komitəsinin, SSRİ Ali Sovetinin və RSFSR Ali Sovetinin birgə təntənəli iclasında deyilmişdir: "Ölkəmizdə

milli münasibətlər canlı həyatın canlı məsələsidir. Biz adamların milli mənafeyinə və ya milli hissiyyatına aid olan hər şeydə son dərəcə diqqətli və nəzakətli olmalı, çoxmillətli cəmiyyətimizin həyatının çoxcəhətli vəzifələrinin yerinə yetirilməsində bütün millətlərin və xalqların zəhmətkeşlərinin ən fəal iştirakını təmin etməliyik".

Sov.İKP MK-nın aprel (1985-ci il) plenumu, partiyanın XXVII qurultayı gələcək milli inkişaf problemlərinin dərk olunmasına və həll edilməsinə yaradıcılıqla yanaşmaq üçün geniş, prinsipcə yeni imkanlar açmışdır. Sosializmin, o cümlədən millətlərarası münasibətlərin vaxtı çatmış nəzəri və əməli problemlərinin obyektiv, tənqidi təhlili üçün yol təmizlənmişdir.

Partiya açıq demişdir ki, 1970-80-ci illərin hüdudunda cəmiyyətin inkişafında meydana gəlmiş durğunluq halları, iqtisadiyyatda, sosial və mənəvi sahələrdə nəzərəçarpan mənfi meyillər ictimai münasibətlər praktikasına xoşagəlməz təsir göstərmişdi. Ümumi mühafizəkarlıq əhval-ruhiyyəsindən, təfəkkür və hərəkət ətalətindən, formalizmdən yaxa qurtarmaq millətlərarası əlaqələr sahəsində də mümkün olmamışdı.

Nəzəriyyə cəbhəsində üz verən uğursuzluqlar da əməli məsələlərin həllinin keyfiyyətinə təsirsiz qalmamışdı. Canlı diskussiyalar və sərbəst fikir mübadiləsi çox zaman avtoritar rəylər və mülahizələrlə, real hadisələrin ciddi tədqiqi isə tərif dolu yazılarla əvəz edilirdi.

Nəzəriyyənin sosial praktikadan geri qalması bu sahədə qarşıya çıxan problemlərin həllinə ciddi əngəl olmuşdu. İctimaiyyətçilər nəinki millətlərarası münasibətlərin inkişaf dinamikasının obyektiv, elmi cəhətdən əsaslandırılmış modelini,

burada cərəyan edən proseslərin nəzəri təhlilini verə bilməmişdilər. Elmə dəxli olmayan müxtəlif fərziyyələrin müəllifləri ictimai münasibətlərin, o cümlədən millətlərarası münasibətlərin inkişafında tərəqqini spesifik xüsusiyyətlərin silinib getməsi, meydana gələn ziddiyyətlərin az qala öz-özünə aradan qalxması və hər şeyin labüd surətdə baş xəttə tabe olması kimi təfsir edirdilər. Belə olduqda milli xüsusiyyətlərə, milli münasibətlər sahəsində meydana gələn formaların bütün rəngarəngliyinə etinasızlıq göstərilir, təşəkkül tapmış strukturların dəyişilməzliyi iddia edilirdi.

Milli münasibətlər sahəsində yol verilən səhvlərin təhlilindən söhbət də ola bilməzdi, çünki təcrübədən məlum olduğu kimi, qəti şəkildə belə hesab edilirdi ki, burada səhvlər yoxdur və ola da bilməz. Halbuki həyatda yerliçilik və milli əlahiddəlik təzahürləri özünü büruzə verirdi.

İqtisadiyyatda nəzərəçarpan mənfi meyillər adamların bir qisminin mənəvi təşəkkülünü pozmuşdu. İnqilabi yeniləşmə ruhuna yabançı olan, onun inkişafını ləngidən ehkamçılıq bu adamların həyat mövqeyinə, dünyagörüşü və təfəkkür üsuluna çevrilmişdi. İndiki dönüş mərhələsində yenidənqurmanın ideya-nəzəri platforması bütün bunlarla bir araya sığmır və insanların şüurunda, davranışında vaxtı keçmiş, köhnəlmiş ünsürləri qoruyub saxlamağa praktikada və ya nəzəriyyədə çalışanların mövqeyinə tamamilə ziddir. Sürətləndirmə konsepsiyası cəmiyyəti əsaslı şəkildə təzələyərək, sosializmin həqiqətən tükənməz sosial, maddi və mənəvi potensialından daha səmərəli istifadə olunması uğrunda ümumxalq mübarizəsini genişləndirmək üçün təsirli yollar və vasitələr göstərir.

# I

Öz inqilabi və əmək ənənələri ilə məşhur olan Azərbaycan SSR-də beynəlmiləlçilik toxumu həmişə münbit zəminə düşmüşdür. İndi həqiqət dərsləri, aşkarlıq şəraiti kadrlar tərbiyə etmək, beynəlmiləlçilik işini ideoloji, sosial-iqtisadi və mədəni problemlərin bütöv kompleksinin fəal həlli ilə sıx əlaqələndirmək üçün mühüm vasitələrdir. Bunun nəticəsində adamlarla aparılan işin yeni formaları meydana gəlir, əmək kollektivlərində dostluğun, əməkdaşlığın və qarşılıqlı yardımın yeni telləri yaranır. Lakin onu da deməməyə haqqımız yoxdur ki, nəzərəçarpan müsbət dəyişikliklərlə yanaşı, ideoloji işdə hələ də lazımi kəsər yoxdur, ictimai problemlərin məzmununa, yenidənqurmanın gedişində labüd şəkildə və hətta qanunauyğun olaraq qarşıya çıxan çətinliklərə dərindən nüfuz edilmir. Buna görədir ki, bəzən hadisələrə qiymət verilməsində ya nihilizmə, inkarçılığa, ya da tərifbazlığa gətirib çıxaran ətalət qüvvəsi özünü göstərir.

İdeoloji işçilər milli münasibətlər sahəsində yeni problemləri sinfi mövqelərdən, partiya mövqelərindən təhlil edib mənalandırmalı, gündəlik işlərin mahiyyətinə daha dərindən nüfuz etməli, bunları bütün dolğunluğu, dinamikası və ziddiyyətləri ilə dərk etməlidirlər. Hər cür uydurmaların və şayiələrin təsiri altına düşmək olmaz. Həm ümumi dövlət mənafeyini, həm də xüsusi mənafeyi, adamların müəyyən “qrupunun” mənafeyini görməyi bacarmaq lazımdır. Əvvəllər ideya tərbiyəsi işinə ciddi əngəl törədən bir səbəb bundan ibarət olmuşdur ki, həmin iş həyatla əlaqələndirilməmiş, ümumi rəqəmlərə aludəçilik göstərilmiş, tərbiyə işində nailiyyətlərə və səhvlərə qiymət verilməsində əsl meyarlar itirilmişdir.

Sov.İKP.MK-nın yanvar (1987-ci il) plenumu sürətləndirmə və yenidənqurmaya, kadr siyasətinin təkmilləşdirilməsinə yeni

təkan verərək milli prosesləri, bunlarla bağlı problemləri məsuliyyət və prinsipiallıqla, elmi şəkildə dərindən təhlil etməyin zəruri olduğunu göstərmişdir. Aşkarlıq, doğruçuluq bu problemləri müvəffəqiyyətlə həll etmək, zəhmətkeşlərin beynəlmiləl tərbiyəsini daha da gücləndirmək, SSRİ xalqlarının qardaşcasına dostluğunu möhkəmlətmək üçün vacib şərt olmalıdır. Yanvar plenumunda deyilmişdir: "...biz milli münasibətlərin real mənzərəsinin inkişafı perspektivini görməyə borcluyuq. Bu gün, demokratiya, özünüidarə genişləndiyi, bütün millətlərin və xalqların milli mənlik şüurunun sürətlə artdığı, beynəlmiləlləşmə proseslərinin dərinləşdiyi bir zamanda meydana çıxan məsələlərin yeganə mümkün zəmin əsasında – hər bir millətin və xalqın tərəqqisi xeyrinə, onların bir-birinə daha da yaxınlaşması xeyrinə, bütün cəmiyyətin xeyrinə vaxtında və ədalətlə həll edilməsinin xüsusi əhəmiyyəti vardır".

Həyat özü milli münasibətlərin gələcək inkişafı ilə, zəhmətkeşlərin beynəlmiləl və vətənpərvərlik tərbiyəsinə daha konkret və daha yaradıcı münasibət ilə əlaqədar olan problemlərin geniş bir dairəsini irəli sürmüşdür.

"Zəhmətkeşlərin beynəlmiləl və vətənpərvərlik tərbiyəsi sahəsində Qazaxıstan respublika partiya təşkilatının işi haqqında" Sov.İKP.MK-nın qərarında bu istiqamətdə geniş fəaliyyət proqramı irəli sürülmüşdür. Böyük siyasi əhəmiyyəti olan bu sənəddə real vəziyyətə verilən təhlil, çıxarılan nəticələr milli münasibətləri təkmilləşdirmək sahəsində qarşıda duran məsələlərin bütün kompleksini Lenin milli siyasətinin sınanmış prinsipləri əsasında həll etməyi öyrədir.

Azərbaycanda beynəlmiləlçilik ənənələri müxtəlif millətlərin proletarlarının birgə mübarizəsində meydana gəlmiş, möhkəm-

lənmiş və inkişaf etmişdir. Zəhmətkeşlərin xalqlar dostluğu, sosialist beynəlmiləlçiliyi və sovet vətənpərvərliyi ruhunda tərbiyə edilməsi respublika partiya təşkilatının həmişə diqqət mərkəzində olmuşdur. Onun səyləri respublikanın çoxmillətli əhalisini beynəlmiləlçilik ruhunda sıx birləşdirməyə yönəlmişdir. Azərbaycan KP MK bir sıra qərarlarında beynəlmiləl tərbiyə və vətənpərvərlik tərbiyəsi sahəsində partiya komitələrinin təcrübəsini ümumiləşdirmiş, Azərbaycan zəhmətkeşlərinin qardaş respublikaların zəhmətkeşləri ilə beynəlmiləl əlaqələrini daha da inkişaf etdirmək, rus dilinin öyrənilməsini yaxşılaşdırmaq üçün bir sıra tədbirlər müəyyənləşdirmişdir. Bu qərarlar beynəlmiləl tərbiyənin və vətənpərvərlik tərbiyəsinin səmərəliliyini yüksəltməkdə, Azərbaycan SSR-in digər müttəfiq respublikalarla qardaşcasına əməkdaşlığını gücləndirməkdə və hərtərəfli inkişaf etdirməkdə, rus dilini öyrənməyə respublika əhalisinin getdikcə artan tələbatını ödəməkdə müəyyən müsbət rol oynamışdır.

Lakin həyat bir yerdə dayanıb durmur. O, yeni tələblər irəli sürür. Respublikanın sosial-demoqrafik inkişafında baş verən, əhalinin milli tərkibində və strukturunda əks olunan mühüm dəyişikliklər də bizi məsələlərə yeni qaydada yanaşmağa istiqamətləndirir. İndi respublikada təxminən yüz millətin nümayəndələri yaşayır və işləyirlər. Beynəlmiləl tərbiyə və vətənpərvərlik tərbiyəsi praktikasında tarixi və mədəni ənənələrin, sosial-demoqrafik vəziyyətin, miqrasiya axınlarının, obyektiv və subyektiv xarakterli digər amillərin hökmən nəzərə alınması millətlərarası münasibətlərin gələcək inkişafının vacib şərtinə çevrilir.

Azərbaycan Kommunist Partiyası respublikada yaşayan bütün millətlərin sosial, mədəniyyət və məişət məsələlərinə, dil

tələbatına daim diqqət yetirir. Respublikanın məktəblərində dərslər Azərbaycan, rus, erməni, gürcü və ləzgi dillərində keçilir. Bir neçə dildə qəzet və jurnal nəşr olunur, televiziya və radio verilişləri aparılır. Gürcüstan SSR-lə həmsərhəd olan Qax rayonunda yerli radio gürcü dilində verilişlər aparır, rayon qəzetinin bir səhifəsi gürcü dilində çap olunur, ləzgilərin sıx yaşadığı Qusar rayonunda isə rayon qəzetinin bir səhifəsi ləzgi dilində çıxır, həmin dildə radio verilişləri aparılır.

Azərbaycan KP MK partiya təşkilatlarını partiya və sovet orqanlarının müxtəlif vəsilələrində bütün millətlərin lazımınca təmsil olunmasına istiqamətləndirir. İctimai işlərin və dövlət işlərinin idarə olunmasında onların iştirakını durmadan genişləndirmək üçün tədbirlər görülür. Əlbəttə, söhbət yerlərin və vəzifələrin milli əlamətə görə mexaniki şəkildə bölüşdürülməsindən getmir. Sov.İKP MK-nın yanvar (1987-ci il) plenumunda qeyd edildiyi kimi, bu, beynəlmiləlçilik ideyasının özünün bayağılaşdırılması demək olardı. Siyasi keyfiyyətlər, iş keyfiyyətləri, mənəvi keyfiyyətlər – işçinin qiymət meyarı, bax, bunlardır. Yenidənqurma işinə sadiq olan, sosializm quruculuğunun real problemlərinin həllinə öz psixologiyası və dünyagörüşü ilə hazır olan kadrlar isə hər bir regionda, hər bir çoxmillətli kollektivdə vardır.

Respublikanın partiya təşkilatları beynəlmiləl tərbiyə və vətənpərvərlik tərbiyəsi sahəsindəki çoxcəhətli işlərində əmək kollektivinin adamların kommunist tərbiyəsində aparıcı rolu haqqında partiyanın göstərişini daim rəhbər tuturlar. Əmək kollektivləri ideoloji tədbirlərin geniş kompleksinin, o cümlədən beynəlmiləl tərbiyənin və vətənpərvərlik tərbiyəsinin həyata keçirilməsində başlıca qüvvədir.

Əmək kollektivi cəmiyyətin əsas özəyidir, insanların sabit, qərarlaşmış, eyni zamanda, çevik və mütəhərrik strukturlu birliyidir. Cəmiyyətin mövcud tipi üçün səciyyəvi olan istehsal münasibətləri burada universal şəkildə öz təcəssümünü tapır. Sosial ədalət prinsipləri, dostluq, hüquq bərabərliyi, yoldaşcasına qarşılıqlı yardım və qarşılıqlı həyanlıq idealları burada ən ardıcıl şəkildə həyata keçirilir və müdafiə edilir. Burada insan milli əlamətə görə yox, ümumi işə real töhfəsinə görə, kollektivdə və kollektiv üçün işləmək bacarığına görə qiymətləndirilir.

Əmək kollektivi sabit ənənələrə, əxlaq normalarına və qanunlarına malik olmasına, onları müqəddəs tutub qorumasına baxmayaraq, yeni ideyalara həssasdır, novatorluğa can atması ilə fərqlənir, çünki öz inkişafının və daimiliyinin mənbəyini bunda görür. Briqadanın, sexin, zavodun kollektivi tərbiyə məsələlərinin yeni-yeni həllini yoxlamaq üçün ideal meydandır. Lakin hökmən yadda saxlamaq lazımdır ki, bütün yeniliklər insanların mənafeyindən, onların konkret tələbatından irəli gəlməli, kollektivin ümumi istehsal, sosial-mədəni və məişət proqramına zidd olmamalı, əksinə, hökmən bu proqramın həyata keçirilməsinə kömək etməlidir.

Çoxmillətli əmək kollektivləri bir qayda olaraq öz yüksək mütəşəkkilliyi, intizamı və məhsuldar əməyi ilə fərqlənir. Bakı məişət kondisionerləri zavodunun, Azərbaycan boru-prokat zavodunun, Leninneft NQÇİ-nin, Kirovabad alüminium zavodunun, respublikanın gənc sənaye mərkəzləri Sumqayıt, Mingəçevir, Əli Bayramlı və Daşkəsənin bir sıra müəssisələrinin çoxmillətli kollektivləri, kəndin bir çox əmək kollektivləri əsl sosialist müəssisələri nümunələridir.

Obrazlı desək, bütün respublika çoxmillətli əmək kollektividir. Sexlərdə və tikintilərdə, mədənlərdə və fermalarda hər gün, hər saat əməkçilərin ünsiyyəti məsələləri, istehsal proqramlarının yerinə yetirilməsi, peşə təcrübəsinin və sosial təcrübənin zənginləşdirilməsi gedişində, gündəlik işlərin dinamikasında beynəlmiləl tərbiyə və vətənpərvərlik tərbiyəsi məsələləri həll olunur. Lakin bu işə sistemli, kompleks xarakter vermək vacibdir. Buna nail olmaq üçün millətlərarası ünsiyyət prosesində partiya rəhbərliyinin səviyyəsi yüksəldilməli, zəhmətkeşlərlə iş formaları və metodları təkmilləşdirilməlidir. Müxtəlif millətlərin zəhmətkeşlərinin işdə, məişətdə sıx qarşılıqlı əlaqələri, daimi təması partiya, həmkarlar ittifaqı və komsomol təşkilatlarının, təsərrüfat rəhbərlərinin qarşısına bir çox mühüm və məsul vəzifələr qoyur. Beynəlmiləl davranış etikasının, yüksək millətlərarası ünsiyyət mədəniyyət formalaşdırılması burada xüsusi əhəmiyyətə malikdir. Həmin məqsədlə partiya komitələri ideoloji təsir göstərmək, beynəlmiləlçilik əqidəsi tərbiyə etmək, bunun əsasında müxtəlif millətlərin nümayəndələrini fəal şəkildə yaxınlaşdırmaq, xalqlar dostluğunu möhkəmlətmək üçün müxtəlif vasitələrdən və metodlardan istifadə edirlər. Belə vasitələr və metodlar rəngarəngdir, buraya siyasi təhsil sistemi, təbliğat və təşviqatın kütləvi formaları, tematik gecələr, beynəlmiləl dostluq klubları, yerli mətbuat və çoxtirajlı qəzetlər, radio verilişləri, mədəni maarif işi, başqa vilayətlərin və respublikaların əlaqədar müəssisələri ilə nümayəndə heyətləri mübadiləsi və sair daxildir. Əmək kollektivlərinin siyasi özəyi olan ilk partiya təşkilatları bütün bu coxcəhətli işdə rəhbər və istiqamətləndirici rol oynayırlar.

Ümumiyyətlə deyə bilərik ki, biz beynəlmiləl tərbiyə işinin bu mühüm sahəsində az nailiyyət qazanmamışıq. Lakin həyat

göstərir ki, uzun illər şüurlarda "çöküb qalmış" şablonlardan və ştamplardan xilas olmaq üçün çox iş görülməlidir. Təşəkkül tapmış və adət edilmiş vəziyyətin paradoksallığını görmək üçün bəzən ona yenidən nəzər salmaq kifayət edir. Məsələn, respublikanın kənd rayonlarında çoxmillətli kollektivlər az olmasa da, onlarla yanaşı, milli cəhətdən yekcins kollektivlər də vardır. Partiya komitələri həmin kollektivlərdə beynəlmiləl tərbiyə məsələsini yalnız hesabatdan-hesabata yada salırlar, özü də həmişə yox. Bu, təkcə partiya fəallarının başısoyuqluğunun və ya unutqanlığının nəticəsi deyildir. Problem daha dərindir – səbəb odur ki, şüurlarda kök salmış basmaqəlib bir məntiq vəziyyətə sağlam düşüncə ilə baxmağa mane olur. Bu nəticə müxtəlif əmək kollektivlərində aparılan bir çox söhbətlərdən hasil olmuşdur və sübut edir ki, çox zaman işin zahiri cəhətinə aludəçilik göstərilir: kollektiv gənclərdən ibarətdirsə, deməli, gənclərlə iş aparmaq vacibdir; qadınlar kollektividirsə, qadınlar şurasının rolu yüksəldilməlidir: buna müvafiq olaraq, kollektiv beynəlmiləl kollektivdirsə, deməli, beynəlmiləl tərbiyəni gücləndirmək gərəkdir...

Hələ də özünü göstərən bu məntiqin qüsuru nədən ibarətdir? Əvvələn, əgər kadr uçotu vərəqələri yığını deyil, kollektivin bütün siyasi, sosial, psixoloji ab-havası, onun hər bir üzvünün dünyagörüşü və dünyaqavrayışı, məişətdə, şəhərin, qəsəbənin, kəndin ictimai həyatında digər millətlərin nümayəndələri ilə qarşılıqlı münasibətlərinin xarakteri nəzərə alınarsa, bizdə "beynəlmiləl olmayan" kollektivlər yoxdur. Bu, başlıca cəhətdir. İkincisi, məhz milli cəhətdən yekcins kollektivlərdə zəhmətkeşlərin beynəlmiləl tərbiyəsi sahəsində daha fəal iş aparmaq, onların beynəlmiləl ünsiyyət dairəsini daha fəal, daha məqsəd-

yönlü şəkildə genişləndirmək tələb olunur; beləliklə, adamların ünsiyyətində indi təbii olan, lakin bəzən xoşagəlməz nəticələr verən çatışmazlıqlar aradan qaldırılmalıdır.

Bu məqsədlə beynəlmiləl gecələr, kollektivlərin qardaş respublikalarda olan həmkarlarına qonaq getmələri təşkil oluna bilər və ya bədii özfəaliyyət dərnəklərinin işinin beynəlmiləlçilik məzmunu zənginləşdirilə bilər və sair. Siyasi və ya nəzəri söhbətlər də istisna edilməməlidir. Burada heç bir qəlib ola bilməz. Yalnız bir şeyi nəzərə almaq lazımdır ki, həmin iş bayağılaşdırılıb "tədbirlər" yığınına çevrilməməlidir, çünki belə "tədbirlər" öz formallığı, rəsmiyyətçiliyi ilə bizim əldə etmək istədiyimiz səmərəni verməz, tamamilə əks nəticəyə gətirib çıxarır. Məsələn, hələ yaxın vaxtlaradək beynəlmiləlçilik mövzusu ilə bilavasitə və ya dolayı şəkildə bağlı olan tədbirlərin sayı ideoloji işin bu mühüm hissəsinin səmərəlilik əlaməti kimi nəzərə çatdırılmasa da, hər halda, kəmiyyətin gec-tez keyfiyyətə keçməsinin təminatı kimi qələmə verilirdi. Lakin etiraf etmək lazımdır ki, keyfiyyət sıçrayışı olmadı. Tədbirlər bir-birinə calanır, praktika isə əhəmiyyətli dərəcədə zənginləşmirdi. Lakin bu, əlbəttə, o demək deyildir ki, respublikada müxtəlif millətlərin və xalqların etnik və etnoqrafk qrupların nümayəndələri arasında nə isə gərgin bir münasibət yaranmışdı. Problem başqadır – keçirilən tədbirlərdən istənilən səmərəni əldə etmək heç də həmişə mümkün olmamışdır.

Beynəlmiləl tərbiyənin və vətənpərvərlik tərbiyəsinin çox lazımlı, aktual, diqqətlə işlənib hazırlanmış planlarının və müxtəlif proqramlarının səmərə verməməsinin səbəbləri müxtəlifdir. Səbəblərdən biri ölkənin bir çox regionları üçün səciyyəvidir – bu, yuxarıda göstərildiyi kimi, təbliğat və təşviqat

işinin bürokratik, rəsmiyyətçi üslubda aparılmasından, təşkilat işinin həddən artıq dərəcədə reqlamentləşdirilməsindən ibarətdir.

Lakin başqa səbəblər, məsələn, Azərbaycan üçün səciyyəvi olan səbəblər də vardır.

1960-cı illərdə sosial-iqtisadi sahədə mürəkkəb vəziyyət yaranmışdı ki, bu da respublikanın bütün ictimai-siyasi və mənəvi həyatında özünü göstərməyə bilməzdi. Yaranmış vəziyyətdən çıxmaq üçün ciddi səylər tələb olunurdu. Sov.İKP MK tərəfindən qəbul edilmiş tədbirlər, respublika partiya təşkilatına göstərilən daimi qayğı və kömək sayəsində uzun sürən durğunluqdan, müvəffəqiyyətsizlikdən sonra 1970-ci illərdən başlayaraq, Azərbaycanın iqtisadiyyatı dirçəlməyə başladı. Yeni iri sənaye obyektləri tikilməyə, köhnə müəssisələr yenidən qurulmağa başlanıldı, kənd təsərrüfatının strukturu dəyişdi, bir sözlə, iqtisadyyatın sürətlə inkişaf etdirilməsi üçün geniş proqram həyata keçirildi.

Eyni zamanda, kompleks mexanikləşdirmə tədbirlərinin həyata keçirilməsi kənd təsərrüfatında xeyli əmək resurslarının azad olunmasına gətirib çıxardı ki, onların bir hissəsindən sosial-mədəni sahədə istifadə etmək olardı. Lakin vaxtın azlığı, maliyyə və material vasitələri qıtlığından onun inkişafı sənayeləşdirmənin sürətindən xeyli geri qalmış və bu, öz növbəsində, yeni iş yerlərinin yaradılmasını ləngitmişdir. Nəticədə kənd yerlərində yaşayanların bir qismi, daha doğrusu, az ixtisaslı və ya ixtisasa malik olmayanlar işləmək üçün respublikanın sənaye mərkəzlərinə getmişlər. Güclü miqrasiya axını şəhər əhalisinin strukturunda, demək olar ki, həm şəhərdən, həm də kənddən təcrid edilmiş adamlar qrupunun yaranmasına səbəb olmuşdur.

Təbiidir ki, kənd rayonlarından çıxanlar çoxmillətli əmək kollektivlərinə ətraf aləmi özlərinin dərketmə qayəsi, öz psixologiyası, mənəvi amilləri ilə, daimi qeydiyyat və yaşayış sahəsi, məişət şəraiti olmadığından narazılıq əhval-ruhiyyəsi ilə qovuşmuşlar. Bütün bunlar bəzi hallarda çoxmillətli struktur anlayışının və onun qavranılmasının eroziyasına gətirib çıxarmaya bilməzdi. Aydındır ki, bu cür şərait həyatın irəli sürdüyü məsələlərin həllinə yeni, dərindən düşünülmüş münasibət olmasını tələb edirdi.

Eyni zamanda, təcrübə göstərmişdir ki, köçüb gələnlərin böyük qrupları əmək kollektivlərinə daxil olaraq yeni mühitə nisbətən asanlıqla uyğunlaşa bilmiş, rus dilini və ya Azərbaycan dilini öyrənmiş, beynəlmiləl mühitdə işləmək, bir çox millətlərin nümayəndələri ilə əməli ünsiyyət saxlamaq vərdişləri qazanmışdır. Əmək kollektivləri onlardan ötrü bir növ həyat, beynəlmiləl yetkinliyin formalaşması universiteti olmuşdur.

Əmək kollektivində beynəlmiləlçiliyin bərqərar olmasının başlıca amili elə bir dil mühiti yaradılmasından ibarətdir ki, bu mühit bütün üzvlər arasında kommunikativ əlaqələri səmərəli şəkildə yoluna qoymağa imkan versin, şəxsi ünsiyyəti və istehsal prosesində təması asanlaşdırsın. Burada problem az deyildir. Axı ölkədə millətlərarası ünsiyyət dili rus dilidirsə, respublikada isə rus dilindən əlavə, Azərbaycan dilidirsə, əmək kollektivinin milli tərkibindən asılı olaraq, orada millətlərarası ünsiyyət dili üçüncü bir dil ola bilər. Müəyyən dil mühitinin formalaşmasının mürəkkəbliyi bir də ondan ibarətdir ki, “texnoloji” dil kollektivin bu və ya digər üzvünün ana dilindən, idarəetmə dili isə həmin kollektivdə qəbul edilmiş millətlərarası ünsiyyət dilindən fərqlənə bilər. Dil bilməməklə bağlı münaqişələr olmasın deyə, hər dilin

işlənmə dairəsini aydın müəyyənləşdirmək, kollektivdə ən fəal işlənən dillərin könüllü öyrənilməsini təşkil etmək lazımdır. Problemin optimal həlli, bizim fikrimizcə, bilinqvizmin, yəni ikidilliliyin geniş yayılmasından ibarətdir.

Məsələn, Azərbaycan sakinləri, xüsusilə Bakı neft rayonunun, sərhədboyu vilayətlərin əməkçiləri, bir ənənə olaraq, iki-üç dil bilmələri ilə fərqlənirdilər. Azərbaycan dili Dağıstanla həmsərhəd olan dağ rayonlarında və çoxmillətli Dağıstanın özündə "linqva franka" rolunu oynayırdı. Dağlıq Qarabağın sakinləri Azərbaycan və erməni dillərini, bəziləri isə həm də rus dilini sərbəst bilirdilər. Bakının proletar mühitində bir neçə dil bilmək adi hal idi. Lakin belə iddia etmək düzgün olmazdı ki, **çoxdillilik** yalnız istehsal zərurətindən, iqtisadi amillərdən irəli gəlmişdir. İkidilliliyin və üçdilliliyin mövcud olması mənəvi ünsiyyətə, müxtəlif xalqlar tərəfindən toplanmış mədəni sərvətlərin geniş mübadiləsinə tələbatı əks etdirirdi. Yeri gəlmişkən deyək ki, Dağıstanın bir çox xalqları üçün Azərbaycan dili indi də yazılı ədəbiyyat dilidir. Məşhur ləzgi aşığı Süleyman Stalski ilk şeirini Azərbaycan dilində yazmışdı. XVIII əsrdə yaşamış erməni şairi Sayat Nova bir çox əsərini Azərbaycan və gürcü dillərində yaratmışdı. Milliyyətcə erməni olan Azərbaycan xalq şairi Samvel Qriqoryan da erməni və Azərbaycan dillərində yazırdı. Qonşu xalqların dilini bilmək həm də qarşılıqlı hörmət əlaməti, qardaşlıq duyğularının və mehriban qonşuluq münasibətlərinin təzahürü idi. Belə ki, ana dilindən əlavə, ikinci, bəzən də üçüncü dilin öyrənilməsi yalnız əməli, tətbiqi məqsəd daşımaqla qalmırdı.

Bir neçə dil öyrənməyə sövq edən ən güclü amil, demək olar ki, XIX əsrin axırlarında – XX əsrin əvvəllərində Azərbaycan

zəhmətkeş kütlələrinin şüurlu siyasi mübarizəyə cəlb olunması idi. Partiya təbliğatçıları və təşkilatçıları, tətillərin təşkilatçıları proletarlar arasında işləyərkən Bakı və Abşeron əhalisi içərisində – etnosların, dillərin, adət və ənənələrin rəngarəng mozaikasında vəziyyətdən yaxşı baş çıxara bilirdilər. Tez-tez belə olurdu ki, rus və ya erməni bolşevikləri müsəlman kütlələri qarşısında onların ana dilində çıxış edirdilər. Rusiyadan gələnlərin qarşısında isə azərbaycanlı bolşeviklər nitq söyləyirdilər. Hər nömrəsi Azərbaycan və erməni dillərində çıxan "Dəvət-Qoç" bolşevik qəzeti ölkənin bolşevik mətbuatı tarixində nadir hadisə idi.

İndi, beynəlmiləlləşmə prosesi həyatın bütün sahələrinə nüfuz etdiyi bir zamanda ikidilliliyin daha da genişləndirilməsinə ciddi tələbat duyulur. Həm milli dili, həm də rus dilini bilmək bir kollektivin üzvlərini və müxtəlif kollektivləri birləşdirən möhkəm bir əsasdır, ixtisasın sabit şəkildə artması, bilik səviyyəsinin daim yüksəlməsi, dünyagörüşünün, siyasi mədəniyyətin düzgün formalaşması üçün şərtdir.

Marksizm-leninizm klassikləri əsərlərinin kommunistlər və partiyada olmayanlar tərəfindən dərindən, praktika ilə, əmək kollektivlərinin həyatı ilə üzvi əlaqədə öyrənilməsini təmin etmək partiya təşkilatlarının işinin mühüm istiqamətidir. Təlim dilini bilmək xüsusi əhəmiyyətə malik olub, təbliğatçının auditoriya ilə səmərəli ünsiyyətini, mövzunun yaradıcılıqla açılmasını təmin edir. Təcrübə göstərir ki, tədris dilini dinləyicinin milli mənsubiyyətindən asılı olaraq seçmək vacib deyildir. Azərbaycanlılar siyasi və iqtisadi təhsil sisteminin rus dilində aparılan məktəblərinə və seminarlarına həvəslə yazılırlar.

Marksizm-leninizm təhsili sistemində məktəb və seminar dinləyicilərinin beynəlmiləl kontingentinin formalaşdırılması

prinsipi getdikcə daha geniş yayılır. Məsələn, Bakı şəhərinin Lenin rayonunda 169 nömrəli məktəb bazasında yaradılmış xalq universitetinin auditoriyası beynəlmiləldir. Əli Bayramlı şəhərinin müəssisələrində kommunistlərin və bitərəflərin siyasi təhsili bacarıqla qurulmuşdur. Şirvanneft NQÇİ-nin, İliç adına DRES-in, süni dəri zavodunun və başqa müəssisələrin partiya təşkilatları dinləyicilərin beynəlmiləl tərkibinə, müəllimlərin ciddi hazırlaşdırılması problemlərinə xüsusi fikir verirlər. Şəhərin təkcə komsomol təhsili sistemində məşğələlərin rus və Azərbaycan dillərində keçildiyi 10 Lenin məktəbi və beynəlmiləl tərbiyə dərnəyi fəaliyyət göstərir. Burada iki məqsəd vardır: birincisi, məşğələlərdə beynəlmiləlçiliyə, sovet vətənpərvərliyinə həsr edilmiş mövzunu öyrənmək, ikincisi, həmin işi birlikdə, kollektiv şəkildə, açıq dostluq diskussiyasında, mübahisəsində görmək. Bu, özlüyündə beynəlmiləlçilik dərsinə çevrilir.

Qax rayonunun Əlibəyli kəndində fəaliyyət göstərən xalqlar dostluğu universitetinin tərbiyəvi səmərəsi yüksəkdir. Burada SSRİ xalqlarının məişəti və ənənələri öyrənilir. Ötən dərs ilində universitetin 4 fakültəsində və 18 qrupunda 20 milləti və xalqı təmsil edən 480 dinləyici təhsil almışdır. Qardaş respublikaların iki böyük şairinin – Səməd Vurğunun və İlya Çavçavadzenin yaradıcılığına həsr edilmiş məşğələlər maraqlı, emosional keçmişdir. Xalq universiteti ilə Ermənistanın İcevan rayonunun xalqlar dostluğu universitetinin əlaqələri möhkəmlənir.

Əmək kollektivlərində beynəlmiləlçiliyin möhkəmləndirilməsinin başqa mühüm bir istiqaməti sosialist mərasimlərinin, yeni əmək adət-ənənələrinin formalaşdırılmasından və tətbiq edilməsindən ibarətdir. Aydındır ki, mühafizəkar mərasimlər və

ya vaxtı keçmiş dini adətlər bəzən müxtəlif millətlərin nümayəndələrinin yaxınlaşmasına çox mane olur. Bunlar kollektiv daxilində və ya kollektivlər arasında bir növ sərhəd xətti çəkir, ayrı-ayrı əməkçilərin və ya insan qruplarının təcridinə səbəb olur. Belə adətlərin "süni nəfəsvermə" yolu ilə müasir mədəniyyətə daxil edilməsi həm milli xudpəsəndlik kompleksinin davamlılığına, həm də tərbiyə işində olan nöqsanlara sübutdur. Bu sahədə isə nə müəyyən "ssenarilərin", göstərişlərin "yuxarıdan" zorla qəbul etdirilməsi, nə də beynəlmiləlçilik hissinin kortəbii təzahürünə ümid bəslənilməsi məqbul sayıla bilməz. Beynəlmiləlçilik hissi heç kimə taleyin vergisi kimi verilmir, heç kimə genetika qanunları ilə irsən keçmir, yalnız tərbiyə və özünütərbiyə yolu ilə əldə edilir.

Gizli deyil, hələ də elə kollektivlər vardır ki, orada bu və ya digər xalqa tərif vermək üçün müəyyən stereotiplər mövcuddur, başqa millətlərin nümayəndələrinə inamsızlıq kimi çürük bir əhval-ruhiyyə kök salmağa cəhd edir, təhqiramiz adlar yapışdırmaq halları aradan qaldırılmamışdır. Milli ləyaqətə toxunan şit lətifələr və zarafatlar yayılmasını bəzən kollektivlərdə qəbahət saymırlar. Məişət millətçiliyi və şovinizmi digər xalqların mədəniyyətinə və tarixinə bələd olmamağın, onların ekzotik xüsusiyyətlərini subyektivcəsinə şişirtməyin, öz "müstəsnalığını" bütləşdirməyin nəticəsidir. Təəssüflə deməliyik ki, partiya təşkilatları, kommunistlər milli xudpəsəndliyin, dözümsüzlüyün hər cür təzahürlərinin kökünü qətiyyətlə kəsməyə heç də həmişə hazır olmurlar. Halbuki yeni sosialist mərasimlərinin tətbiq edilməsi milli hissləri hər cür qondarma, zərərli çöküntülərdən təmizlənməyə, xalq qəlbinin ən yaxşı keyfiyyətlərinin dolğun şəkildə təzahür etməsi üçün şərait yaratmağa imkan verir.

Azərbaycan, rus, erməni və gürcü xalqlarına, digər xalqlara məxsus ən yaxşı ənənələr əsasında respublikanın çoxmillətli kollektivlərində adətlər və mərasimlər meydana gəlir, büllurlaşır. Əməyin yüksək mənəvi dəyərini təsdiq edən bayramlar və mərasimlər – istehsalat qabaqcıllarının və veteranlarının, fəhlə sülalələrinin şərəfinə bayramlar, fəhlə və kolxozçu sıralarına qəbul mərasimləri geniş yayılmışdır.

Bu işdə zəhmətkeşlərin məişətinin zərərli dini mərasimlərdən təmizlənməsinə xüsusi fikir verilir. Məlum olduğu kimi, dini mərasimlərin bir çoxu millətçilik baxışları üçün əlverişli mühitdir. Dini mistisizmdən millətçiliyə gedən yol o qədər də uzaq deyildir. Axı, bunların hər ikisi köhnə şüurun qalığı, mənəvi və mədəni geriliyin ifrat təzahürüdür.

Respublikanın partiya təşkilatları öz vəzifələrini bu məsələlərə daha dərindən nüfuz etməkdə, zəhmətkeşlərin şüurunu məqsədyönlü şəkildə formalaşdırmaqda görürlər. Onların səyi ilə əmək kollektivlərində meydana gəlmiş bir sıra yeni mərasimlər məhz xalq mərasimləri, lakin etnik ünvanı, “milli mənsubiyyəti” olmayan mərasimlər kimi qarşılanır. Əgər mərasim yerinə düşmüşdürsə, fayda verirsə, adamlarda yüksək mənəviyyat tərbiyə edirsə, deməli, bütün əməkçilər üçün ümumi, hər kəs üçün doğma olan sovet mərasimidir.

Adamların öz həyatının ən məsul, mühüm məqamlarında 26 Bakı komissarının memorialına gül-çiçək qoyması Bakı zəhmətkeşlərinin əmək həyatının ayrılmaz bir hissəsinə çevrilmişdir. Burada əsgərlər and içir, gənclər tələbə və fəhlə sıralarına keçirilirlər, təntənəli şəraitdə oğlan və qızlara komsomol biletləri təqdim olunur. Oktyabr inqilabı adına vaqon təmiri zavodunda, Krasin adına DRES-də fəhlə sıralarına qəbulu “Fəhlə əlləri” abidəsinin önündə keçirmək ənənəyə çevrilmişdir.

Vladimir İliç adına Yeni Bakı neftayırma zavodunda ilk əmək haqqını, üstündə ad yazılmış əmək alətini təntənə ilə təqdim etmək mərasimi geniş yayılmışdır. Lenin rayonunda yeni sovet mərasimlərinin və ənənələrinin tətbiqi ilə məşğul olan "Fidan" adlı mərkəz müvəffəqiyyətlə fəaliyyət göstərir. S.Kirov, Ü.Hacıbəyov, A.Mravyan, S.Vurğun küçələrinin beynəlmiləl bayramları Kirovabad şəhərinin əmək kollektivlərinin həyatına daxil olmuşdur. Beynəlmiləl tərbiyənin bu forması Sumqayıtda da geniş yayılır. Əli Bayramlıda əmək kollektivinə qəbul, üstündə ad yazılmış əmək alətinin təqdim olunması, energetik andı və başqa mərasimlər məşhurdur.

Respublikanın mədəni-maarif müəssisələri, habelə çoxmillətli kollektivləri olan iri müəssisələrdə yaradılmış inqilabi şöhrət, döyüş və əmək şöhrəti muzeyləri və guşələri sosialist mərasimlərini, bizim kommunist mənəvi sərvətlərimizi təbliğ edən mühüm mərkəzləridir. V.İ.Lenin Mərkəzi muzeyinin Bakı filialı, Azərbaycan Tarixi Muzeyi, N.Nərimanovun, S.M.Kirovun, M.Əzizbəyovun, A.Caparidzenin və başqalarının xatirə muzeyləri, tarixdiyarşünaslıq muzeyləri onlara fəal kömək edirlər.

Təcrübə göstərir ki, yeni sosialist mərasimlərinin yayılması, böyüməkdə olan nəslin sovetlər ölkəsinin qəhrəmanlıq tarixi əsasında tərbiyə edilməsi müxtəlif millətlərin nümayəndələrinin ümumi cəhətlərini, mənəvi yaxınlığını daha parlaq şəkildə işıqlandırmağa imkan verir. Xalq ənənələrinə əsaslanan və sosializmin meydana gətirdiyi yenilik ünsürlərini ehtiva edən belə bayramlar milli müstəsnalıq haqqında, milli xarakterin guya aradanqaldırılmaz spesifikliyi haqqında hər hansı konsepsiyanı puça çıxarmağa qadirdir. Eyni tarixi müqəddərata, eyni inkişaf perspektivinə malik olan adamların sosial, mənəvi birliyi – budur "sovet xalqı" anlayışında öz ifadəsini tapan reallıq.

Azərbaycan zəhmətkeşlərinin beynəlmiləl birliyi həmişə sosial-iqtisadi inkişafın partiya tərəfindən qarşıya qoyulmuş ən mürəkkəb və məsul vəzifələrinin yerinə yetirilməsində müvəffəqiyyətin rəhni olmuşdur. Azərbaycanda beynəlmiləl tərbiyə və vətənpərvərlik tərbiyəsi işinin səciyyəvi xüsusiyyəti bundan ibarətdir ki, o, xalq təsərrüfatı planlarını, müqavilə öhdəliklərini yerinə yetirmək, ümumittifaq iqtisadiyyatına respublikanın töhfəsini artırmaq uğrunda zəhmətkeşlərin mübarizəsi ilə, mənəvi tərbiyənin təkmilləşdirilməsi, sosial praktikada və ideoloji işdə mənfi halların aradan qaldırılması ilə sıx bağlıdır.

**II**

Sosialist istehsalının getdikcə genişlənən inteqrasiyası, sovet dövlətinin ideya və ictimai-siyasi birliyi əsasında millətlərarası ünsiyyətin, respublikalar arasında əməkdaşlığın yeni formaları meydana gəlir. Respublika şəhərlərinin və rayonlarının iqtisadi əlaqələri maddi və mənəvi sərvətlərin, mədəniyyət, adət-ənənələr və milli xarakter haqqında infomasiyanın bir növ mübadilə kanallarına çevrilir.

İndi Azərbaycan SSR-də maddi istehsalda digər respublikaların xalq təsərrüfatının 98 sahəsinin məhsulundan istifadə olunur, Azərbaycan isə onlara 71 sahənin məhsulunu göndərir. 352 sənaye müəssisəsinin, kolxoz və sovxozun əmək kollektivləri qardaş müttəfiq respublikaların 658 əmək kollektivi ilə sıx istehsalat əlaqələri və ictimai əlaqələr saxlayır. Respublika elmi tədqiqat institutlarının əməkdaşları ölkənin 400 elmi idarəsi ilə birlikdə aktual problemlərin işlənib hazırlanmasında iştirak edirlər. Respublikanın ali məktəbləri ölkənin 100 ali məktəbi isə sıx əlaqə saxlayır. Ölkənin 167 ali məktəbində Azərbaycan gənclərinin 3.300 nümayəndəsi oxuyur.

Bir sözlə, həm iqtisadi, həm də sosial-siyasi və mənəvi həyat sahələrində inteqrasiya prosesləri gedir.

Sosializm yarışı beynəlmiləlçilik əqidələrinin formalaşdırılması üçün gözəl bir məktəbdir. SSRİ həmkarlar ittifaqlarının XVIII qurultayında qeyd edildiyi kimi, sosializm yarışı "hər şeydən əvvəl fəhlə yaradıcılığını, təşəbbüskarlığını, zəka, istedad, təşkilati məharət sahəsində bəhsləşməni inkişaf etdirmək üçün, qabaqcıl təcrübəni öyrənmək üçün lazımdır".

Sosializm yarışı bir-biri ilə bağlı olan iki vəzifəni yerinə yetirməyə – hər bir kollektivin iqtisadi, yardıcılıq və mənəvi potensialından maksimum istifadə etməyə və eyni zamanda, əmək adamları arasında qardaşlıq münasibətlərinin, müxtəlif millətlərin nümayəndələri arasında əməkdaşlığı möhkəmlətməyə imkan verir. Təsadüfi deyildir ki, qabaqcıl briqadalarda, neftçıxaranlar və maşınqayıranlar, pambıqçılar və toxucular, kimyaçılar və metallurqlar kollektivlərində qardaş respublikalara məhsul göndərmək öhdəliklərinin vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə milli şərəf kimi, beynəlmiləl borcun yerinə yetirilməsi kimi baxılır. Öz vəzifələrinə, əlaqədar müəssisələr və tərəfdaşlar qarşısında öz öhdəliklərinə belə münasibət yenilikçi fəhlənin, yenidənqurma qvardiyaçısının ən yaxşı keyfiyyətlərinin təzahürüdür.

Sumqayıt müəssisələrinin digər respublikaların əməkçiləri ilə sosializm yarışı fəaliyyətdə olan beynəlmiləlçiliyin timsalıdır. "Kimyasənaye" və "Üzvi sintez" istehsalat birliklərinin kimyaçıları Volqoqrad və Sterlitamak birliklərinin kollektivləri ilə, sintetik kauçuk zavodunun neft kimyaçıları tolyattili həmkarları ilə yarışırlar. Keçən il Azərbaycan boru-prokat zavodunun kollektivi Seversk boru zavodu metallurqlarının Sov.İKP MK tərə-

findən bəyənilmiş təcrübəsindən istifadə edərək, sifarişçilərlə birbaşa istehsal əlaqələri yaratmışdır. Sumqayıt metallurqları urallılardan nümunə götürərək, özlərinin əsas istehlakçıları olan Tatarıstan və Tümen neftçiləri ilə uzunmüddətli təsərrüfat əlaqələrinə girmiş, Qərbi Sibirin dörd ən iri neft-qazçıxarma birliklərinin kollektivləri ilə əməkdaşlıq müqaviləsi imzalamış, Almetyevskdə olan əlaqələr müəssisələrlə "İş estafeti" prinsipi üzrə yarış təşkil etmişlər. "Üzvi sintez" və "Kimyasənaye" istehsalat birlikləri, kompressor zavodunun, superfosfat zavodunun və digər müəssisələrin kollektivləri də respublikaların müəssisələri ilə bu cür əməkdaşlıq müqavilələri bağlamışlar. Böyük Oktyabrın 70 illiyini ləyaqətlə qarşılamaq uğrunda sosializm yarışının gedişində əmək kollektivlərinin əlaqələri daha da möhkəmlənmişdir.

Sosializm təməli əsasları yaranmış Zaqafqaziya iqtisadi rayonu bir neçə onillikdir ki, ölkənin vahid xalq təsərüffatı kompleksində müvəffəqiyyətlə fəaliyyət göstərir. Zaqafqaziyada yaşayan bütün millətlərin və xalqların nümayəndələrinin sosial-iqtisadi sahədə sıx əməkdaşlığı, mədəniyyətlərin və mənəvi həyatların qarşılıqlı surətdə zənginləşməsi, sosialist beynəlmiləl birlik fəal yaradıcı qüvvəyə çevrilmiş, hər bir respublikanın daha da çiçəklənməsi və eyni zamanda, ölkənin iqtisadiyyatının möhkəmlənməsinə töhfəsinin artması üçün şərt olmuşdur. Respublikaların sosializm yarışı bu çoxcəhətli əməkdaşlığın ən səmərəli, dolğun və əməli formasıdır. 1985-ci ildə üç qardaş respublikanın kommunist partiyalarının MK-ları, hökumətləri, respublika həmkarlar ittifaqları şuraları, LKGİ MK-ları bütün Zaqafqaziyanın maddi və mənəvi həyatında, xalqların Lenin dostlğunun möhkəmləndirilməsində respublikaların sosializm

yarışının rolunu nəzərə alaraq, "Azərbaycan, Gürcüstan və Ermənistan zəhmətkeşləri arasında sosializm yarışını genişləndirmək sahəsində əlavə tədbirlər haqqında" birgə qərar qəbul etmişlər. Yarışın beynəlmiləlçilik mahiyyəti qərarda ayrıca göstərilmişdir. Qərarın həyata keçirilməsi praktikası sübut etmişdir ki, məsələyə belə bir münasibət tamamilə doğrudur. Zaqafqaziya respublikalarının əmək kollektivləri arasında genişlənmiş yarışın əsas nəticələrindən biri zəhmətkeşləri sosialist beynəlmiləlçiliyi, sovet vətənpərvərliyi ruhunda tərbiyə etmək işinin səmərəliliyinin yüksəlməsindən ibarət olmuşdur.

Bir sözlə, sosializm yarışı elə bir sahədir ki, orada beynəlmiləlçilik ideyaları hər gün, hər saat öz əməli təcəssümünü tapır, xalqlar dostluğu sınaqdan keçir və möhkəmlənir. Lakin demokratiyanın artması, iqtisadiyyatın, istehsal münasibətlərinin əsaslı şəkildə yenidən qurulması şəraitində yarışın ənənəvi formalarının inkişafına yeni tərzdə yanaşmaq tələb olunur. Yarışı istehsal münasibətləri sisteminin inkişaf dinamikasına, zəhmətkeşlərin təşəbbüskarlığının, yaradıcılığının, müstəqilliyinin daha fəal təzahürü üçün real zəmin yaradan, yeni məzmunla zənginləşən siyasi tərbiyə işinə uyğunlaşdırmaq zərurəti indi xüsusilə aydın duyulur. Sosializm yarışı təsərrüfat mezanizminin, bütövlükdə iqtisadiyyatı idarəetmə sisteminin yenidən qurulması, habelə kollektivdə mənəvi və psixoloji iqlimin formalaşması ilə bağlı olan konkret problemlərin həllində zəhmətkeşlərin fəal iştirakını nəzərdə tutmalıdır.

Fəhlələrin, əmək kollektivlərinin bütün üzvlərinin rəyincə, bu gün sosializm yarışı istehsal nailiyyətlərinin, planların və öhdəliklərin yerinə yetirilməsi nəticələrinin müqayisə edilə bilməsi ilə məhdudlaşmır. Sosializm yarışı istehsal sahəsində

rəqabət aparmaqdan daha geniş məna daşıyır və sosialist həyat tərzinin, yeni sosialist əxlaq normalarının və prinsiplərinin ən dolğun, konkret, səmərəli şəkildə bərqərar edilməsi uğrunda "zəkaların yaradıcılıq yarışı" deməkdir. Bu məsələlər sırasına beynəlmiləlçilik şüurunun fəal surətdə formalaşdırılması, kollektivdə və ondan kənarda millətlərarası əlaqələrin təkmilləşdirilməsi də daxildir.

Yarış haqqında müqavilələr bağlanarkən, onların yerinə yetirilməsi yoxlanarkən, təcrübə mübadiləsi aparılarkən texnokratik amilə deyil, insan amilinə üstünlük verilməlidir. Sosializm yarışının mahiyyətcə yeni bir modeli lazımdır, elə bir model ki, yalnız istehsal nailiyyətlərini deyil, həm də sosial inkişafın nəticələrinin, təhsil, mədəniyyət və məlumatlılıq səviyyələrini, beynəlmiləl ünsiyyətə hazırlıq dərəcəsini, bu ünsiyyəti qaydaya salmaq və müvəffəqiyyətlə həyata keçirmək bacarığını müqayisə etməyə, eyni zamanda, ümumi işə yaxşı xidmət edən, zəhmətkeşlər arasında əlaqələri möhkəmlədən yeni nə varsa, hamısını birlikdə axtarıb tapmağa və bərqərar etməyə imkan versin. Həm istehsal proqramı, həm də "humanitar" proqram üzrə sosializm yarışı zəhmətkeşlərə imkan verər ki, yarışın "anonim" iştirakçılarından özlərinin fərdi qabiliyyətləri, temperament və xarakter xüsusiyyətləri, maraq və rəqabət dairələri olan canlı və konkret şəxslərə çevrilsinlər. Belə olduqda, sosialist öhdəliklərinin və müqavilələrin stereotip mətnlərində öz təcəssümünü tapan rəsmi "kağız" əlaqəsini zəhmətkeşlərin canlı, birbaşa ünsiyyəti əvəz edir. Tərəfdaşlığa əsaslanan iş, birgə istirahət, doğma müəssisələr, şəhərlər, respublikalar haqqında intensiv məlumat mübadiləsi, çoxlu hüquq verən, eyni zamanda, ən ciddi məsuliyyət tələb edən dostluq – formal təşkil edilməyən sosializm yarışının perspektivi, bax belədir.

Əlbəttə, sosializm yarışı iqtisadi münasibətlər sisteminin ayrılmaz hissəsidir, onu bu sistemdən kənarda araşdırmaq mümkün deyildir. Lakin iqtisadi vasitələri tam gücü ilə işə salmağa yarışın imkan verməsi üçün əmək bəhsləşməsinin siyasi-mənəvi məzmununu gücləndirmək və nail olmaq lazımdır ki, yarışın gedişi, nəticələri insanların şüuruna daha böyük təsir göstərsin, fəal ideoloji tərbiyə vasitəsinə çevrilsin. Partiya komitələri, ideoloji işçilər yeni təsərrüfatçılıq mexanizmlərinin, müxtəlif demokratiya vasitələrinin köməyi ilə adamları təşkil edib istiqamətləndirərkən, tərbiyə işini birgə kollektivçilik fəaliyyətinin konkret nəticələrinin bacarıqlı təbliği ilə daha sıx əlaqələndirməlidirlər. İdarə əlaqəsizliyini, yerliçiliyi aradan qaldırmaq üçün adamları təşkil etmək, ehtiyatları yenidən-qurmanın həlledici sahələrinə, bütün ölkənin, ayrılıqda hər bir respublikanın tərəqqisi üçün zəruri olan ümdə vəzifələrin həyata keçirilməsinə yönəltmək vacibdir.

Bütün əməkçilərə aydın izah etmək lazımdır ki, milli xüsusiyyətləri nəzərə alan yerli təşəbbüsün səmərəli istiqamətlərinə arxalanan iqtisadiyyat həm “ucqarlar”, həm də “mərkəz” baxımından daha səmərəlidir. Sosialist iqtisadiyyatının beynəlmiləlçi xarakteri məhz ondan ibarətdir ki, bu iqtisadiyyat ölkənin bütün respublikalarını və regionlarını ahəngdar şəkildə inkişaf etdirmək, xalqların faktik bərabərliyinə nail olmaq, fəhlə sinfinin, qabaqcıl texniki ziyalıların milli dəstələrini formalaşdırmaq məqsədini güdür.

Respublikaların iqtisadi inkişafının bütün bu və digər cəhətləri çoxmillətli əmək kollektivlərində partiya təşkilatlarının, ideoloji hami-tərbiyəçilərin daim diqqət mərkəzində durur. Bu işlə məşğul olarkən həmişə əməkçilərin təşəbbüsünə arxalanmaq, onların mənafeyini, yaradıcılıq qabiliyyətini nəzərə

almaq lazımdır. Leninin bu sözləri yadda saxlanılmalıdır ki, yeni ictimaiyyətin əsas amili "kütlələrin canlı yaradıcılığıdır". Sosializm yuxarıdan verilən fərmanlarla yaradılmır. Rəsmi bürokratik avtomatçılıq onun ruhuna yabançıdır; canlı, yaradıcı sosializm xalq kütlələrinin məhsuludur" (Əsərlərinin tam külliyyatı, 35-ci cild, səh.60).

Zəhmətkeşlərin beynəlmiləl və vətənpərvərlik tərbiyəsində istehsal müəssisələrinin müxtəlif ideoloji "bölmələrinin" rolu üzərində qısaca dayanmaq istərdim. Çoxmillətli kollektivlər işləyən müəssisələrin çoxtirajlı qəzetləri ilə tanışlıq düşünmək üçün xeyli informasiya verir. Təhlil göstərir ki, çoxtirajlı qəzetlərin səhifələrində beynəlmiləl tərbiyə və vətənpərvərlik tərbiyəsi mövzularında çıxışlar kifayət qədər çoxdur, lakin bu məsələlərin həllində istifadə olunmamış imkanlar da hələ az deyildir. Burada çox şey dəyişdirilməli, zamanın tələlərinə, auditoriyanın mənəvi tələbatına uyğunlaşdırılmalıdır. Bunlar isə daha böyük realizmə, əyaniliyə nail olmağı, müxtəlif janrlardan, bədii-obrazlı və publisistik vasitələrdən daha yaradıcılıqla istifadə etməyi təkidlə tələb edir.

Beynəlmiləl tərbiyə sahəsində partiya komitələrinin yeni maraqlı iş formaları haqqında məqalələr, çoxmillətli əmək kollektivlərinin partiya təşkilatları katiblərinin çıxışları az dərc olunur. Sıravi kommunistlər, çoxmillətli briqadaların üzvləri çoxtirajlı qəzetlərdə bu mövzuda, demək olar, az çıxış edirlər.

Divar qəzetləri, müxtəlif əyani təşviqat vasitələri beynəlmiləlçilik şüurunun formalaşdırılmasında mühüm rol oynayır. Oxucuların konfranslarını, filmlərin, tamaşaların kollektiv müzakirələrini müntəzəm keçirən partiya təşkilatlarının təcrübəsi diqqətəlayiqdir. Mətbuatda, kitablarda, ekranlarda, teatr səhnələrində meydana gələn yeni nə varsa, hamısını əmək

kollektivləri bu gün xüsusi həvəslə öyrənirlər. Adamların mənəvi tələbatını bacarıqla formalaşdırmaq, diqqəti elə bədii əsərlərə yönəltmək lazımdır ki, müəllifin, onun qəhrəmanlarının milli mənsubiyyətindən, coğrafi və etnososial mühitdən asılı olmayaraq orada qüdrətli, gözəl və ahəngdar sovet xarakteri, sovet adamlarının qarşılıqlı münasibətlərinin rəngarəng spektri yaradılır, xalqların böyük dostluğunun əbədi dəyəri təsdiq olunur. Beynəlmiləlçilik şüuru aşılanması, millətçilik meyillərinin qarşısına sədd çəkmək, saxta vətənpərvərlik şüarları arxasında bu meyilləri görmək qabiliyyəti tərbiyə edilməsi sağlam mənəvi iqlim yaratmaq, həmfikirlər və silahdaşlar kollektivi "qurmaq" üçün şərtdir, elə kollektiv ki, o, sovet vətəndaşlarının ləyaqətinə toxunan, xalqımızın tarixi nailiyyətlərini gözdən salan söz-söhbətlər aparılmasına, adamların doğma torpağa məhəbbətindən fitnəkarlıqla istifadə olunmasına, öz millətinin guya "seçmə millət" olduğu haqqındakı saxta təsəvvürlər əsasında faktların təhrif edilməsinə imkan verməsin.

Əlbəttə, millətçilik xəstəlikləri qalıqlarının kökünü kəsmək hər yerdə mümkün olmamışdır. Bunlar hələ bəzi yerlərdə özünü göstərməkdədir. Adətən, millətçilik qalıqlarının üzə çıxmasına çoxdan kök salmış, həll edilməmiş iqtisadi problemlər, kadr problemləri, sosial və mənəvi problemlər, aşkarlığın olmaması, lazımınca məlumat verilməməsi səbəb olur. Qarşıda bu vəzifələrlə yanaşı, istehsalatda, məişətdə millətlərarası ünsiyyət mədəniyyətini daha dərindən, böyük məharət və nəzakətlə təbliğ etmək, eyni zamanda, nöqsanlar və səhvlər haqqında gur səslə danışmaq məsələsi durur. Millətlərarası münasibətlər sahəsində meydana gələn mürəkkəblilik və problemlər haqqında üstüörtülü danışmaq, utancaqlıqla susmaq vaxtı ötüb keçmişdir. Bəşəriyyət tarixində hər bir inqilabi xassəli dönüş kimi, yenidənqurma da

ictimaiyyətin diqqətini bu sahədə vaxtı çatmış məsələlərə və yerinə yetirilməmiş vəzifələrə cəlb etmiş, partiyanın milli siyasətinin ən mühüm tələblərinin ardıcıl surətdə həyata keçirilməsini sürətləndirmişdir. “Zəhmətkeşlərin beynəlmiləl və vətənpərvərlik tərbiyəsi sahəsində Qazaxıstan respublika partiya təşkilatının işi haqqında” Sov.İKP MK-nın qərarında deyilir: “Bu gün, inqilabi yeniləşmə prosesləri cəmiyyət həyatının bütün cəhətlərini əhatə etdiyi bir zamanda milli münasibətlər sahəsində meydana gələn problemlərin vaxtında həll olunması çox böyük əhəmiyyət kəsb edir”.

Əmək kollektivləri milli münasibətləri daha da inkişaf etdirmək yolunun ilk mübarizləridir. Məhz burada məsələyə sinfi münasibət hadisələrə qiymət vermək, kadrlar seçmək üçün başlıca meyardır, milliyyətindən, yaşından, həyat təcrübəsindən, əqidəsindən və sosial vəziyyətindən asılı olmayaraq, adamları birləşdirmək üçün əsasdır. Ən mühüm sosial-iqtisadi, mədəni, ekoloji və digər problemlərin birlikdə həll edilməsi, zəhmətkeşlərin sülh uğrunda hərəkatı, digər mühüm siyasi kampaniyalarda iştirakı da adamları qan münasibətləri və ya milli münasibətlər qədər möhkəm tellərlə bağlayır. Məhz əmək kollektivində əksəriyyətin rəyinə, mənafeyinə, mövqeyinə üstünlük verilməsi prinsipi bəşər varlığının ən mühüm problemlərindən olan milli problemlərin ən ədalətli, qarşılıqlı məqbul şəkildə, SSRİ xalqlarının dostluq ənənələrinə uyğun surətdə həll edilməsi üçün şərtdir. Lakin yadda saxlamaq lazımdır ki, milli münasibətlər məsələsində əksəriyyətin imtiyazları kollektivdə azlıq təşkil edən millətlərin nümayəndələrinə yorulmadan qayğı göstərmək kimi, onların ustalığını artırmaq və irəli getməsini təmin etmək zərurəti kimi,

dillərinə, adət-ənənələrinə, milli tələbatlarına hörmət kimi başa düşülməlidir.

Dünya praktikasında nadir nümunə olan çoxmillətli SSRİ-nin mənafeyi cəmiyyətimizin inkişafının hər yeni mərhələsində dialektik şəkildə qarşıya çıxan milli məsələlərin yaradıcılıqla, elmi cəhətdən əsaslandırılmış şəkildə, inqilabi quruculuq ruhuna uyğun tərzdə həll edilməsinə hazır olmağı tələb edir.

*"Azərbaycan kommunisti" jurnalı,*
*№1, 1988-ci il.*

## SOSİALİST BEYNƏLMİLƏLÇİLİYİ VƏ YENİ TƏFƏKKÜR

Çoxmillətli ölkəmizdə yaşayan xalqların sıx birliyi, onlarda sosialist beynəlmiləlçiliyinin formalaşdırılması müasir dövrdə partiya siyasətinin ən mühüm vəzifələri kimi ön plana çıxır. Lakin Sov.İKP-nin həmin məsələlərin həlli sahəsindəki fəaliyyətinə nəzər saldıqda bu proseslərin heç də asan getmədiyinin, təfəkkürlərdəki mühafizəkarlığı, milli siyasətdə bir-birinə zidd olan fikirləri və ifratçılığı aradan qaldırmaq üçün partiyanın nə qədər böyük əmək sərf etdiyinin şahidi oluruq.

Partiyanın son dövr sənədlərində millətlərarası münasibətlərin inkişaf problemləri öz əksini tapmış və dərindən təhlil edilmişdir. Onlarda müasir real tarixi proseslər nəzərə alınmış, marksizm-leninizm təlimi yaradıcılıqla inkişaf etdirilmişdir. Bütün bunlar belə deməyə əsas verir ki, partiya Sov.İKP MK-nın aprel (1985-ci il) plenumundan sonrakı dövrdə sosialist beynəlmiləlçiliyi nəzəriyyəsinin və praktikasının inkişafı, onun təcrübələrinin ümumiləşdirilməsi Sov.İKP MK-nın 1989-cu il noyabr plenumunda vurğulandığı kimi, "bütün ölkənin və ölkədə yaşayan hər bir xalqın dinamik inkişafının ən mühüm mənbələrindən biri olmuş" yeni tarixi tipli dövlət federasiyası kimi Sovet İttifaqının möhkəmləndirilməsi sahəsində xeyli iş görmüşdür.

Ölkəmizin xalqlarının birliyi sayəsində nailiyyətlərimiz böyük və şəksizdir. Lakin həyatı tam şəkildə, bütün ziddiyyətləri ilə birlikdə görmək lazımdır. Biz, xalqlar dostluğunun

möhkəmləndirilməsindəki işlərimizlə nə qədər fəxr etsək də, bu uğurlar milli münasibətlər sahəsində sovet cəmiyyətinin bu gün üzləşdiyi reallıqları pərdələməməlidir. Onlar milli həyatda, beynəlmiləlçilik problemlərində baş verən bir çox hallara yanaşma üsullarını dəyişməyin zəruriliyini diqtə edir. Axı, sosializm bu gün 1930-40-cı, hətta 1960-cı illərdəkindən fərqli məsələləri həll edir. İndi bizi əhatə edən aləm də, kapitalizm, siniflər, sosial təbəqələr, onların qarşı-qarşıya durmaları haqqında təsəvvürlərimiz də əsaslı şəkildə dəyişmişdir. Sov.İKP-nin XXVIII qurultayına Sov.İKP MK-nın Platforma layihəsində deyildiyi kimi, belə bir faktı inkar etmək olmaz ki, ölkələrin obyektiv surətdə artan qarşılıqlı yardımı və öz yolunu seçmək azadlığını saxlayan müxtəlif cəmiyyətlərin əlbir fəaliyyət göstərdiyi dünya birliyinin təşəkkül tapması yeni dövrün ümdə xüsusiyyətidir.

Sosializmin ümumi nəzəriyyəsinin struktur ünsürlərindən biri olan sosialist beynəlmiləlçiliyi nəzəriyyəsi sadələşdirilmiş üsulları və sxolastikanı inkar edərkən bu aydın, şəksiz vəziyyəti də nəzərə almalıdır.

Beləliklə, sovet adamlarında sosialist beynəlmiləlçiliyinin formalaşdırılması problemi yeni əlamətlər və hüdudlar kəsb edir. Onun təsbit olunması üçün ən başlıca amillər milli siyasətin əsil marksist-leninçi prinsiplərini ardıcıl olaraq həyata keçirməkdən, ictimai həyatın bu sahələrinə rəhbərliyin üslub və metodlarını yenidən qurmaqdan ibarətdir. Sosialist beynəlmiləlçiliyi sovet federasiyasının əsas mənafeyi ilə ölkəmizin hər bir xalqının əsas mənafeyinin uzlaşdırılmasına yönəldilməlidir.

Sosial təcrübə, bizim günlərin praktikası sübut edir ki, "sosial quruluş millətlərarası münaqişələrdən xilas olmaq üçün

panaseya deyildir” (В.А.Тишков. О новых подходах в теории и практике межнасиональных отношений. “Советская етнография”, 1989, № 5, с.8). Nə qədər ki, millətlər mövcuddur, onların arasındakı sosial ziddiyyətlər də həmişə milli rənglərlə rənglənəcəklər və bu ziddiyyətlərin mənbəyinə konyunktur siyasi qiymət verilməsi, onların vaxtında aradan qaldırılmaması isə millətlərarası düşmənçiliyə gətirib çıxaracaqdır. Təəssüf ki, uzun illər boyu bu iş həyat həqiqətlərini inkar edən ehkamçı sxemlərə əsaslanmışdır. Təntənəli şəkildə elan edilmiş beynəlmiləlçilik, əslində, milli xüsusiyyətləri boğmaq siyasəti ilə həyata keçirilirdi. Nəticədə beynəlmiləlçilik yerlərdə bəzən mərkəzləşdirilmiş bürokratik ənənələrin təzahürü kimi qəbul edilirdi. Bundan əlavə, “beynəlmiləlçilik” məfhumunun əsas mahiyyətini saxta-laşdırmaq, sosialist beynəlmiləlçiliyini, sadəcə olaraq, müxtəlif millətlərin zəhmətkeşlərinin həmrəyliyinə, onların qarşılıqlı münasibətinə, onun nəticələrini isə milli ənənələrdən uzaq-laşmaya endirmək cəhdləri vardır. Halbuki, əslində, həqiqi beynəlmiləlçiliyin mühüm yaradıcısı xalqların sıx birləşməsi ideyasıdır (Ю.В.Бромлей. Основные разновидности национальных общностей (партийно-терминологические аспекты. “Научный коммунизм“, 1990, № 1, стр.38). V.İ.Lenin hələ 1920-ci ildə yazmışdı: “Xırda burjua millətçiliyi yalnız millətlərin hüquq bərabərliyinin qəbul edilməsini beynəl-miləlçilik elan edir və (bunu yalnız sözdə qəbul etməsi bir yana dursun) milli xudbinliyi toxunulmaz saxlayır” (Əsərlərinin tam külliyyatı, 41-ci cild, səh.180.

Yeni münasibətlər ideoloji əngəlləri, kobud ehkamçılığı kənara atmağı tələb edir. Milli münasibətləri siyasət-

sizləşdirmək, beynəlmiləlçiliyi ucdantutma dövlətləşdirməkdən və ideologiyalaşdırmaqdan xilas etmək lazımdır. Sosialist beynəlmiləlçiliyinə geniş planda baxmaq, onu iqtisadi, sosial və mənəvi məzmunla, ümumdünya kateqoriyaları ilə zənginləşdirmək olduqca vacibdir.

Son vaxtlar bəzi tədqiqatçılar və publisistlər "millətin inkişafı" xeyrinə olaraq, "millətin tərəqqisi" ifadəsindən əl çəkməyi təklif edirlər. Proletar beynəlmiləlçiliyi ilə burjua millətçiliyinin daban-dabana zidd olması haqqında Leninin məşhur müddəası da yeni baxış tələb edir (М.Джунусов. Вопросы теории интернационалного воспитания. Ташкент. Изд. "Узбекистан", 1980, с.175).

Unutmaq olmaz ki, V.İ.Lenin kapitalizm dünyasının iki əsas sinfinin ideyalar, baxış və prinsiplər sisteminin milli münasibətlər sahəsinə yayılmasını nəzərdə tutmuşdur. İnsanların vahid birliyi cəmiyyətinə doğru irəliləyən rəngarəng dünyamızda isə bu müddəa öz metodoloji əsasını saxlamaqla, fikrimizcə, bir qədər yumşaldılmış şəkildə tətbiq olunmalıdır. Bu baxımdan "Milli münasibətlər ya proletar beynəlmiləlçiliyi, yaxud da millətçilik ideyası əsasında inkişaf edir. Orta hədd yoxdur" (V.İ.Lenin, Əsərlərinin tam külliyyatı, 42-ci cild, səh.123) fikri də köhnəlmişdir. Çünki bu, nəinki millətlərarası münasibətlərin real məzmununu açıb göstərmir, həm də onun rəngarəngliyinin dərk edilməsinə maneçilik törədir. Axı, İsveçrə, Danimarka, Kanada və s. kimi yüksək dərəcədə inkişaf etmiş ölkələrdə milli birliklərin daim münaqişələr və yaxud qarşıdurma şəraitində olması fikri ilə razılaşmaq, əlbəttə, mümkün deyildir. Onların qarşılıqlı münasibətləri də proletar beynəlmiləlçiliyi prinsipləri əsasında qurulmur.

SSRİ-də millətlərin inkişafının bəsitləşdirilmiş konsepsiyasının formalaşdırılması üçün istifadə olunan millətlərin "qovuşması" və "yaxınlaşması" məfhumları da nöqsanlıdır. Elmi ədəbiyyatlarda heç də həmişə "beynəlmiləlçilik" və "beynəlmiləlləşdirmə" məfhumlarının hüdudları dəqiq müəyyənləşdirilmir. Beynəlmiləlçilik və millətçilik mənafelərinə münasibət problemlərinə yanaşmaq məsələsinə də yenidən baxılması aktualdır. Ədəbiyyatlarda beynəlmiləl mənafeyin birinciliyi barədə basmaqəlib fikir bərqərar olmuşdur. Lakin ən adi məntiq belə sübut edir ki, milli mənafe olmadan beynəlmiləl mənafenin varlığı mümkün deyildir.

"Beynəlmiləlçilik psixologiyası", "milli özünüdərketmə", "beynəlmiləl şüur" anlayışları, "məzmunca sosialist və formaca milli mədəniyyət" formulu daha dərin elmi araşdırmalar tələb edir. "Millətçilik" məfhumu barədə də yenidən düşünmək, onun çox geniş şəkildə yozulmasına yol vermək lazım deyildir. "Milli məhdudluq" və "etnik tərəfkeşlik" millətçiliklə eyni deyildir. Bu hallara konkret yanaşmaq lazımdır və həm də bu zaman onun mənfi tərəfləri atılmamalıdır.

Xalqların soy kökü problemlərinin, onların qarşılıqlı münasibətlərində baş vermiş münaqişələr tarixinin, iqtisadi, mədəni, elmi, sosial və sair sahələrdə qazandıqları nailiyyətlərin qiymətləndirilməsi problemlərinin tədqiqi ciddi elmi nəzarətə götürülməlidir. Bütün bu məsələlərdə elmi meyarlardan uzaqlaşmaq beynəlmiləlçiliyin milli təkəbbürlülüyə çevrilməsinə səbəb olur ki, bu da narazılıq yaradır, nəticə etibarilə milli münaqişələri qidalandırır.

Xalqların tarixinin saxtalaşdırılması, əsl elmi aydınlığın olmaması xüsusilə gənclərin hələ formalaşmamış şüuruna mənfi

təsir göstərir. Odur ki, humanitar fənlərin tədris proqramları tam obyektivlik ruhunda hazırlanmalı, bu və ya digər xalqın tarixi keçmişi barədə düzgün təsəvvürlərin formalaşdırılmasına yönəldilməlidir. Məlumdur ki, hər bir xalqın tarixində yüksəlmə və enmə dövrləri olmuşdur. Onların göstərilməsi nəzakətli xarakter daşımalı, başqa xalqların milli heysiyyətinə toxunmamalıdır.

Beynəlmiləlçilik xüsusilə dövlətdaxili planda çoxcəhətli bir təzahürdür. Sosialist beynəlmiləlçiliyinin tarixi-fəlsəfi cəhətdən bütöv şəkildə dərk olunması belə deməyə imkan verir ki, yalnız dünyagörüşü, ideologiya, milli məsələdə siyasət, sosial hisslərin müəyyən növü deyil, həm də müxtəlif millətlərdən olan zəhmətkeşlərin əxlaqi prinsipləri qarşılıqlı münasibətlərin mənəvi əsasıdır, millətlərin qarşılıqlı əlaqə normasıdır. O, sosializmin nəzəriyyə və praktikasının bütün məzmununu özündə birləşdirməklə SSRİ xalqları həyatının inkişafının mühüm sosial amilidir.

Sosial beynəlmiləlçiliyi zəhmətkeşlərin ictimai həyatın bütün tərəflərinin beynəlmiləlləşdirilməsi prosesini, sosialist millətlərinin əsas mənafeləri birliyini obyektiv surətdə əks etdirən şüurudur. Dostluğu, bərabərliyi, hərtərəfli qardaşcasına əməkdaşlığı ifadə edən bu keyfiyyət millətlərin bir-birinə qarşılıqlı iqtisadi, siyasi, mədəni yardımında aşkara çıxır.

Yenidənqurma dövründə sosialist beynəlmiləlçiliyi əlavə sosial sərvətə çevrilir və yeni məna kəsb edir. Bu zaman millətlər arasındakı qarşılıqlı münasibətlərin yeni tipləri onun ayrılmaz xüsusiyyəti olur. O, öz qarşısına humanist, demokratik sosializm yaradılması üçün müxtəlif xalqların qüvvələrinin birləşdirilməsi vəzifəsini qoyan yenidənqurmanın prinsipi və məqsədidir.

Sosialist beynəlmiləlçiliyi tarixi varisliyi, fəhlə sinfinin kollektiv yaddaşını əks etdirməklə, sovet xalqlarının qarşılıqlı münasibətlərinin ideya-siyasi əsaslarının keyfiyyətcə yeni səviyyəsidir.

Marksizm-leninizm təliminə əsaslanan Sov.İKP özünün bütün nəzəri və praktik fəaliyyəti ilə göstərir ki, sosialist beynəlmiləlçiliyi ölkənin çoxmillətli əhalisinin tərkibini dövlətin zəiflik mənbəyindən onun sabitlik və tərəqqi mənbəyinə çevirməyə qadirdir. Lakin sosializmin ali sərvətlərindən biri, xalqların ünsiyyət norması olan beynəlmiləlçilik kortəbii şəkildə deyil, sosialist cəmiyyətinin obyektiv şəraitinin bütün məcmusunun təsiri altında formalaşıb inkişaf edir.

Beynəlmiləlçiliyə millətlərin və milli münasibətlərin inkişafında sosializmin öz qanunu (milli məsələdə iki meyil haqqında qanun), həmin qanunun sosial həyatda təzahürü kimi baxmaq lazımdır. 1960-80-ci illərin elmi ədəbiyyatındakı çatışmazlıqlardan biri də ondan ibarətdir ki, sosialist beynəlmiləlçiliyinin formalaşması, cüzi istisnalarla, zəhmətkeşlərin beynəlmiləlçilik ruhunda tərbiyəsi problemi ilə izah edilmişdir. Məsələyə bu cür yanaşmaq metodoloji baxımdan səhv və zərərlidir. Çünki bu, nəzəri cəhətdən hazırlıqsız olan ayrı-ayrı partiya, sovet, ideoloji sahə işçilərinə imkan verir ki, onlar millətlərarası münasibətlərdə yaranan çətinlikləri və toqquşmaları yalnız tərbiyə işində yol verilən nöqsanlarla əlaqələndirsinlər. Yeri gəlmişkən, kütləvi informasiya vasitələri DQMV və onun ətrafında baş verən hadisələrin əsas səbəbini də bununla izah etmişlər. Bu cür münasibət hadisələrin ilk mərhələsində daha qabarıq şəkildə özünü göstərirdi. Kütləvi informasiya vasitələri ölkə ictimaiyyətini inandırmağa çalışırdı ki, münaqişə millətlərarası

xarakter daşıyır və bunların hamısı adamlarla tərbiyə işinin zəifliyinin, vilayət sakinlərinin sosial-iqtisadi mənafelərinin sıxışdırılmasının nəticəsidir. Elə bir vəziyyət yaranmışdı ki, baş verən mürəkkəb hadisənin dərin təhlili siyasi ikiüzlülüklə, inkişafın məntiqi sosial həyatın mürəkkəb problemlərinə səriştəsiz, səthi yanaşma ilə əvəz olunurdu.

Beynəlmiləlçiliyin formalaşdırılması nisbətən sərbəst, çoxtərəfli və bütöv prosesdir. Beynəlmiləlçilik şəxsiyyətin ictimai şüurunun bir hissəsidir və adamların qarşılıqlı münasibətində sosial əxlaqın müəyyən növü kimi təzahür edir, şəxsiyyətin inkişafını, azadlığını, onun dünyagörüşünün genişlənməsini, ictimai inkişafın dərindən dərk edilməsini şərtləndirir. Beynəlmiləlçiliyin formalaşdırılması prosesi yalnız beynəlmiləlçilik şüurunun, dünyagörüşlərinin, hisslərin inkişafını deyil, həmçinin adamların konkret fəaliyyəti ilə əlaqəsini nəzərdə tutur.

Deyilənləri ümumiləşdirərək qeyd edək: sosialist beynəlmiləlçiliyinin formalaşdırılması prosesində sosialist beynəlmiləlçiliyi nəzəriyyəsini tərbiyə nəzəriyyəsi və sosial praktika ilə sıx surətdə birləşdirmək lazımdır. Bütün bunlar isə belə bir mühüm təmələ əsaslanmalıdır ki, milli proseslər iqtisadi, sosial, siyasi, tarixi, demoqrafik, mədəni amillərin məcmusudur. Nəzərə almaq lazımdır ki, sovet respublikalarının hamısı çoxmillətlidir. Hazırda romogen respublikaya çevrilmiş Ermənistan bu cəhətdən bir qədər müstəsnalıq təşkil edir. Odur ki, respublikaların inkişafı, millətlərarası münasibətlərin tənzimlənməsi sahəsində həyata keçirilən bütün tədbirlər həmin respublikalarda yaşayan bütün milli-etnik qrupların mənafelərinin nəzərə alınmasına və ağıllı surətdə uzlaşdırılmasına əsaslanmalıdır.

Milli proseslərin idarə olunması, əlavə edək ki, həm də beynəlmiləlçiliyin formalaşdırılmasının üçtərəfli vəzifələrinin həlli, bir qayda olaraq, J.Rebanenin göstərdiyi kimi, sanki üç laydan süzülüb gəlir (Y.K.Rebane. Estoniya SSR-də milli strukturun, millətlərarası münasibətlərin və dil vəziyyətinin dəyişdirilməsi. "Sovetskaya etnoqrafiya", 1989, № 2, s. 16-17). Bu vəzifələr aşağıdakı vasitələrlə yerinə yetirilir:

1. Sosial-iqtisadi problemləri həll etmək yolu ilə. Təsərrüfat, mədəniyyət, sosial və digər məsələlərlə əlaqədar tədbirləri planlaşdırarkən onların milli-etnik nəticələri mütləq nəzərə alınmalıdır. Sosialist beynəlmiləlçiliyinin məqsədinə yalnız o zaman nail olmaq olar ki, heç bir milli qrup özünü sıxışdırılmış, əzilmiş hiss etməsin.

2. Təhsil və mədəniyyət sahəsində görülən işlərlə. Aydındır ki, bu proses uzunmüddətlidir, lakin vacibdir. Etiraf etmək lazımdır ki, indiyə kimi milli siyasətdə lazımi real tədbirlər həyata keçirilməmişdir. İnteqrasiyanın obyektiv prosesi tələb edir ki, digər millətlərə, xalqlara mənsub olanlar yaşadıqları ərazidə yerli millətin mədəniyyətinə alışsın, millətlərarası ünsiyyət vasitəsi kimi milli respublikaların dilini bilsinlər, həmçinin öz milli mədəniyyətlərini inkişaf etdirib müvafiq ictimai, dini və digər assosiasiyalarda fəal iştirak etsinlər.

3. Bilavasitə beynəlmiləlçilik tərbiyəsi və onun təbliği, adamların xalqlar dostluğu və sovet vətənpərvərliyi ruhunda tərbiyəsi yolu ilə. Bu, sosial təcrübənin elə bir sahəsidir ki, indi əsaslı qaydada təzələnməli, həyatın tələblərinə uyğun şəklə salınmalıdır.

Yenidənqurmanın və aşkarlığın genişləndiyi şəraitdə keçmişin və bu günün bir çox hadisələrinə obyektiv qiymət

verilməsi xüsusilə böyük əhəmiyyət kəsb edir. Doğrudur, publisistika "millətlərarası münasibətlərdəki "ağ ləkələri" fəal surətdə doldurmağa, keçmişdə baş verən bir çox hadisələrə yenidən baxmağa başlamışdır. Lakin bu iş yalnız nöqsanları tənqid etməyə uymaqla əndazəni aşmamalıdır. Biz sovet adamlarında beynəlmiləlçiliyin formalaşdırılması, sovet xalqları arasında dostluğun və əməkdaşlığın möhkəmləndirilməsi işində qazanılan əsl nailiyyətləri də inkar edə bilmərik. Elmin və praktikanın vəzifəsi beynəlmiləlçiliyin formalaşdırılmasının elə bir konsepsiyasını işləyib hazırlamaqdan ibarətdir ki, həmin konsepsiya həm keçmişin səhvlərini, həm də müasir sosial inkişaf meyillərini nəzərə alsın. Bu konsepsiyanın əsas qayəsi ondan ibarət olmalıdır ki, beynəlmiləlçilik çoxmillətli sovet dövlətinin əsas özəyidir. Daim yadda saxlamaq lazımdır ki, sosialist beynəlmiləlçiliyi ideyasının dərin fəlsəfi mənası onun dünya sivilizasiyasının nailiyyətləri ilə qırılmaz əlaqəsindən ibarətdir. Sov.İKP MK-nın Platforma layihəsində göstərildiyi kimi, bütün bunlar onun nəhəng sosial ehtiyatlarının üzə çıxarılmasına, millətlərarası mübahisə və münaqişələrin nizama salınmasında, millətlərarası münasibətlərin tənzimlənməsində bu siyasi potensialdan səmərəli istifadə etməyə imkan verər.

Uzun illər boyu elmdə və praktikada beynəlmiləlin birinciliyi, milli mənafeyin beynəlmilələ tabe edilməsi fikri üstünlük təşkil etmişdir. Bir-biri ilə əlaqəli, bir-birindən asılı olan bu iki amilin əslində bu cür qarşı-qarşıya qoyulması cəmiyyətimizə çox baha oturmuşdur. Axı, beynəlmiləlin birinciliyi haqqında tezis əsas etibarilə ideal cəmiyyət – kommunizm cəmiyyəti qurulmasına yönəldilmişdi və bir çox cəhətdən real həyatdan ayrı düşmüşdü.

Milli ilə beynəlmiləlin dialektikasının açılıb göstərilməsi marksizm-leninizmin ən mühüm, eyni zamanda, ən mürəkkəb problemlərindən biridir. Bunun da səbəbi aydındır, çünki “bəzən son dərəcə mürəkkəb – milli və beynəlmiləl – qarşılıqlı münasibətlərdən bəhs olunduğu siyasətdə” çoxlu çətin problemlər meydana çıxır (V.İ.Lenin. Əsərlərinin tam külliyyatı. 41-ci cild, səh. 57). “Yeri gəlmişkən deyək ki, partiya rəhbəri adına layiq rəhbərlərin əhəmiyyəti də elə bundadır ki, mürəkkəb siyasi məsələlərin tez və düzgün həll edilməsi üçün uzun zaman inadlı, müxtəlif cəhətli, hərtərəfli fəaliyyəti vasitəsilə lazımi bilik, lazımi təcrübə – bilik və təcrübədən başqa – lazımi siyasi duyğu hazırlasın” (Yenə orada, səh. 57-58).

Milli ilə beynəlmiləl özlərinin başlıca əsas meyarları ilə bir-birinə uyğundur. Bu uyğunluq ondan irəli gəlir ki, beynəlmiləl milliliyin ən mühüm hissəsini özündə birləşdirməklə, konkret həyatda onunla zənginləşir və daha da məzmunlu olur. Lakin başqa xalqların nailiyyətləri vasitəsilə millilikdə də ardıcıl zənginləşmə prosesi gedir. Millətlərin tərəqqisi onların qabiliyyətlərinə uyğun olaraq, başqa xalqların maddi və mənəvi sərvətlərini özündə birləşdirir. Deməli, inkişaflarında ayrılmaz olan milli ilə beynəlmiləl birlikdə yaşayır və bir-birinə qarşı qoyula bilməz. Cəmiyyətin və xalqların inkişafında baş verən dönüşlərlə əlaqədar olaraq, onların münasibətlərinin dəyişə bilməsi isə başqa məsələdir. Lakin milliliklə beynəlmiləlin qarşılıqlı münasibəti siyasətini müəyyənləşdirərkən bütün hallarda “xırda burjua milli məhdudluğu, qapalılığı və əlahiddəliyi əleyhinə ...mübarizə aparmaq” lazımdır (V.İ.Lenin. Əsərlərinin tam külliyyatı, 30-cu cild, səh.52). Milliliklə beynəlmiləl münasibətin ahəngdarlığının mənası da elə bundan ibarətdir. “Lenin anlayışında beynəlmi-

ləlçilik milli mənafelərin mütləq nəzərə alınmasını, hər millətin özünəxaslığına hörmət olunmasını, bütün xalqların hüquq bərabərliyinin təsdiq edilməsini, milli zülmün hər cür formalarına barışmaz yanaşılmasını əhatə edirdi. Bu məqsədlər bütün millətlərin zəhmətkeşlərinin birgə səyi ilə həyata keçirilə bilər və həyata keçirilməlidir. Beynəlmiləlçiliyin və milliliyin Lenin dialektikası belədir" (Sov.İKP MK-nın sentyabr (1989-cu il) plenumunda məruzədən. "Azərbaycan kommunisti" jurnalı, 1989, № 10, səh. 9-10).

Qeyd etmək lazımdır ki, təfəkkür ehkamçılığı elə dərin kök atmışdır ki, bəzi müəlliflər heç vəchlə "ənənəni dəyişdirə" bilmirlər. Hətta həyatın özündən gələn "Beynəlmiləlçi olmaq üçün milliliyi sevmək lazımdır" formulu belə onları qane etmir. Bu gün yalnız fəhlə sinfinin beynəlmiləlçilik şüurunun daşıyıcısı ola bilməsi fikri də zəmanənin tələblərinə uyğun gəlmir. "Əgər millətin quruluşunda fəhlə sinfi özünün sosialist şüuru ilə həlledici qüvvə kimi təmsil edilməsə, çətin ki, həmin millət beynəlmiləl özünüdərketməyə çata bilsin" (Совершенствование национальных отношений в ССР в свете рещений XXVII сьезда КПСС. Ответ. редактор М.Н.Губогло, И., Наука, 1988 г., стр.150). Özlüyündə doğru olan bu tezis yeni anlam tələb edir. Monoqrafiya müəllifləri belə bir faktdan narahat olurlar ki, yalnız fəhlə sinfi deyil, xalqın başqa təbəqələri də, başqa sözlə, bütün xalq beynəlmiləlçiliyin yaradıcısı kimi çıxış edir. Onların fikrincə, belə olduqda fəhlə sinfinin avanqard rolu, müasir şəraitdə isə bizim ümumxalq hakimiyyətində cəmiyyətin avanqardının rolu əriyib sıradan çıxır.

Əgər bu müddəaya sosializmə yeni baxış mövqeyindən yanaşsaq, xalqların daxili vəhdətinin mühüm amili olan sosialist

beynəlmiləlçiliyi ilə onun ziddiyyət təşkil etdiyini görmək o qədər də çətin deyildir. Sosialist beynəlmiləlçiliyinin fəaliyyət dairəsi və sosial bazası proletar beynəlmiləlçiliyi ilə müqayisədə xeyli genişdir. O, yalnız fəhlələrin deyil, həm də kəndli və ziyalıların da birləşməsi amili kimi çıxış edir.

Daha sonra. Bu müddəa, biz istəsək də, istəməsək də, sovet cəmiyyətini parçalayır, fəhlə sinfini başqa siniflərə, ölkəmizin sosial təbəqələrinə, bütünlüklə sosialist cəmiyyətinə qarşı qoyur, onların qarşılıqlı münasibətlərində ahəngdarlıq və qarşılıqlı əməkdaşlıq amillərini deyil, gərginlik və antaqonizm amillərini canlandırmaq funksiyasını yerinə yetirir.

Müasir şəraitdə kəndlilərin və ziyalıların beynəlmiləlçilikdən uzaqlaşdırılması belə bir yanlış fikrə gətirib çıxarır ki, guya onlar elə bir mühitdədirlər ki, orada yalnız milli münaqişələr və çəkişmələr hökm sürür. Belə yanaşma olduqca böyük sosial təhlükə yaradır. Hər bir ayrıca hadisə dəqiq materialist təhlil tələb edir. Əgər biz milli və beynəlmiləl münasibətlərin optimal formalarını axtarırıqsa, onda başa düşməliyik ki, o, yalnız bütün siniflərin və sosial təbəqələrin mənafelərinin real ahəngdarlaşdırılması prinsipləri əsasında yaradıla bilər.

Sovet cəmiyyətinin inkişaf səviyyəsində beynəlmiləl özünüdərketmənin əsas subyekti kim olacaqdır? Xüsusi ədəbiyyatlardan görünür ki, tədqiqatçılarımız bu məsələdə də ənənəvi baxışlardan əl çəkməmişlər. Bu zaman onlar F.Engelsin 1872-ci ildə irəli sürdüyü belə bir müddəaya istinad edirlər ki, “fəhlə hərəkatı əsl milli ideyalar... eyni zamanda, həm də daim əsl beynəlmiləl ideyalardır” (K.Marks və F.Engels. Əsərləri, 33-cü cild, səh.374).

Əvvəla, F.Engels bütünlükdə milli hərəkatdan deyil, fəhlə hərəkatında ideyalar və mübarizə formalarından söhbət açır.

Milli hərəkatın sosial tərkibi isə şübhəsiz ki, yekcins deyildir. İkincisi isə, müəlliflərin kontekstdən çıxararaq istifadə etdikləri sitatda ciddi metodoloji səhvlərə yol verdikləri göz qabağındadır. Şübhəsiz ki, XIX əsrin ikinci yarısının bütün şəraitini, cəmiyyətin inkişaf səviyyəsini, sinfi mübarizələrin xarakterini mexaniki surətdə bizim şəraitə tətbiq edən müəlliflər ciddi səhv edirlər. Axı, bugünkü kapitalizmi K.Marksın tənqid etdiyi kapitalizm ilə eyniləşdirmək olmaz. "O, ölkələrin böyük qruplar halında iki sosial sistemin uzun müddət yanaşı yaşayacağını güman etmirdi. Belə yanaşı yaşamaq isə kapitalizmi özünü təkmilləşdirməyə, sosial-iqtisadi sahədə sosializmin təcrübəsinin xeyli ünsürünü əxz etməyə, siyasi quruluşu demokratikləşdirməyə sövq etmişdir ki, bu da küll halında kapitalizmin əlavə qüvvələr əldə etməsinə, dövrün tələblərinə uyğunlaşmasına imkan vermişdir" (Sosializm ideyası və inqilabi yenidənqurma. "Azərbaycan kommunisti", 1990, №1, səh.14). Leninin təhlil etdiyi imperializm də əsaslı şəkildə dəyişmişdir. İndi kapitalizm, yaxud sosializm sistemləri məsələsi də öz əvvəlki kəskinliyini itirir. Yeni həyati konsepsiyalar və problemlər meydana çıxır. Gələcək sosializm – daha sosial ədalətə malik, daha demokratik cəmiyyət olacaqdır. Sosializmin gələcəyini hansı sinfin birinciliyi deyil, onun sosiallığına əsaslanan dövlət hakimiyyət forması müəyyən edir. Sinif məfhumu da yeni məzmunla zənginləşir. Hələ ilk gündən fəhlə sinfinin məqsədi sosial təbəqələr arasında sərhədlərin silindiyi, bütün millətlərin bərabər olduğu ədalətli cəmiyyət qurmaq olmuşdur.

Milliliyin və beynəlmiləlçiliyin nisbəti məsələsi barədə az yazılmayıbdır. V.İ.Leninin vəfatından sonra bizim ictimaiyyətşünaslıq elmində tarixin və sosial həyatın öyrənilməsinə xüsusi

yanaşma forması bərqərar olmuşdur. Bu metodologiya və dünyagörüşü mövqelərini xarakterizə etmək üçün “insan aləmi” inkişafının bütün rəngarəngliyinə formasiya xarakteristikası verən formasiya reduksionizmi anlamı daha münasibdir. Formasiya reduksionizmi millilik və beynəlmiləlçilik münasibətlərində üstünlüyü beynəlmiləlçiliyə verir və bu zaman sosial varlığın sərbəst meyarları kimi onların statusunu inkar edir.

Tarixi proseslərin çoxvəznliyi və çoxtərəfliyi sübut edir ki, sosial həyat hadisələrinin təhlili zamanı ona yalnız formal cəhətdən deyil, həm də sivilizasiyalı münasibət cəhətdən yanaşmaq lazımdır. Çünki tərəqqinin xarakteri və meyarları haqqında təsəvvürlərin özü dəyişilir. Kapitalizmdə və sosializmdə istehsalın təşkili və ictimailəşdirmə səviyyəsi göstərir ki, “sırf formasiya mexanizmləri deyil, ümumsivilizasiya mexanizmləri işə düşməkdədir” (Sosializm ideyası və inqilabi yenidənqurma. “Azərbaycan kommunisti”, 1990, №1, səh.20). Bu cür əlavə bütövlükdə sosializmi cəmiyyətin və onu təşkil edən sərvətlərin, o cümlədən sosialist beynəlmiləlçiliyinin inkişaf dialektikasını dərindən açıb göstərməyə imkan verir.

Milli, beynəlmiləl və ümumbəşəri – tarixi kateqoriyalardır. Bu, bir də onunla şərtlənir ki, əsrlər boyu bütün xalqların qarşısında duran və onların mənafeyinə aid olan dəyişməz vəzifələr vardır. Məsələn, insan nəslinin davam etməsi. Lakin bu bəşəri məsələ hər bir tarixi mərhələdə öz xarakterini dəyişir və yeniləşir. Belə ki, beynəlmiləlləşmə, xalqların təcrid edilmiş sivilizasiyalı halda yaşamasının qeyri-mümkünlüyü bu gün insan varlığının xarakterik xüsusiyyətinə çevrilir. Məsələ bundadır ki, beynəlmiləlçiliyin və sivilizasiyanın mahiyyəti bir çox cəhətdən uyğundur. Hətta Osvald Şpenqler kimi məşhur alman idealist-filosofu, müha-

fizəkar-millətçi publisisti də şah əsəri olan "Avropanın qürubu" əsərində belə nəticəyə gəlmişdir ki, sivilizasiya özünün bütün mahiyyəti ilə beynəlmiləldir.

Yeni reallıqlar bütün dünyada vəziyyəti dəyişdirir. Keçmişdən miras qalmış fərqlər və ziddiyyətlər zəifləyir, yaxud aradan qaldırılır. Əvvəllər mövcud olan bəzi fikir ayrılıqları öz əhəmiyyətini itirir. Həyat adət olunmuş basmaqəlibləri, köhnəlmiş baxışları bir kənara atmağı, xülyalardan xilas olmağı tələb edir. Bu gün kosmosun öyrənilməsi, ekoloji və nüvə fəlakətlərinin aradan qaldırılması, bəşəriyyətin mühafizəsi və inkişafı bütün insanlar üçün ümumi vəzifədir. Milli və beynəlmiləlin münasibətlərinə də məhz bu prizmadan baxmaq lazımdır.

Millilik kateqoriyasını götürək. Onun həm obyekiv mənası, həm də tarixi uzunmüddətlilik xarakteri vardır. Bu, milli məsələdə marksizm-leninizmin mühüm metodoloji müddəalarından biridir. Sosial təcrübədə isə o unudulmuş, milli vəhdətin bir çox nəsillər tərəfindən yaradılıb inkişaf etdirilmiş özünəməxsus dəyərləri heç də həmişə nəzərə alınmamışdır ki, bu da millətlərin obyektiv inkişafı ilə ziddiyyət təşkil etmişdir. Görkəmli sovet yazıçısı Çingiz Aytmatovun dediyi kimi, "beynəlmiləlçilik mütləq müxtəlif ilkin milli göstəricilərin olmasını nəzərdə tutur. Əks təqdirdə o, yalnız sözdür. Beynəlmiləlçiliyi sadəcə direktiv kimi deyil, dialektik və yaradıcı proses kimi başa düşmək lazımdır".

Beləliklə, millilik və beynəlmiləlçilik problemlərinin, ictimai həyatın bütün sahələrində onların real münasibətlərinin ümumbəşəri mənafedən, dünya sivilizasiyasının inkişafından kənarda götürülməsi bəhrəsiz iş olub, üstəlik də ölkəmizdə millətlərarası münasibətlər konsepsiyalarının yeniləşməsi baxımından zərərlidir.

Hazırda sosialist beynəlmiləlçiliyi və humanizm münasibətləri xüsusi aktuallıq kəsb edir. Millətlərarası humanist münasibətlərdə onların mahiyyəti daha bütöv, daha cəm halında ifadə olunur. Marksizm-leninizm xalqlar dostluğuna millətlərarası münasibətlərin əsası, eyni zamanda, həm də humanizmin mühüm amili kimi baxır. "Onun məzmunu (qardaşcasına qarşılıqlı əməkdaşlıq, müxtəlif millətlərdən və irqlərdən olan insanlar, xalqlar arasında qarşılıqlı yardım) sosialist cəmiyyəti adamlarının münasibətlərini və təcrübələrini ifadə edir. Həm də bu münasibətlər uydurma deyil, xülya deyil, sosializm şəraitində, sosialist milli münasibətlərinin real humanizmində ifadə olunan, həqiqətən mövcud olan reallıqdır" (Bax: V.P.Dikselis. SSRİ-də milli münasibətlər. Minsk, "Universitetskoye" nəşriyyatı, 1987-ci il, s.116).

Humanizm sosialist həyat tərzinin nəzəriyyəsi, praktikası, xüsusiyyəti və prinsipidir. İdeal olmadan sosializmin inkişafı mümkün deyildir. XX əsrin sonundakı yeni reallıqların nəzəri təhlili Sov.İKP-yə avtoritar-bürokratik sistemdən uzaqlaşmağa, humanist, demokratik sosializmi bizim idealımız elan etməyə imkan vermişdir. Bütün xalqların sərbəst sosial və milli inkişafı olmadan cəmiyyətin həyatında ümumbəşəri dəyərlərin üstünlüyü mənasızdır. Bu təzahür dövlət sərhədləri tanımır və hamının malı olur. Qlobal humanizm yeni olub, bütün bəşəriyyəti ağuşuna alan sivilizasiyanın əsas prinsipinə çevrilir. Bu yoldan kənarda qalmaq tarixi inkişafdan kənarda qalmaq deməkdir. Tomas Mann "Demokratiyanın gələcək qələbəsi" haqqında mühazirəsində demişdir ki, "dünyada demokratiya yalnız o zaman qələbə çala bilər ki, o, özünün mənəvi və əxlaqi quruluşunu daim təzələsin". Beləliklə, humanizm problemləri tarixin, Yer üzündə həyatın özünün fasiləsizliyinin, əbədiliyinin ahəngdar təminatı vasitəsinə çevrilir.

Qlobal humanizm mövcud olan bütün inamların, milli adətlərin, ənənələrin, dünya duyumlarının hamısının qanunauyğunluğunu nəzərdə tutur. O, insanın dəyərini, onun yaşamaq hüququnu, azadlığını, öz qabiliyyətini inkişaf etdirməsini və üzə çıxarmasını ön plana çəkir, insan səadətinə ictimai həyat səviyyəsinin, ictimai münasibətlərin tərəqqisinin yüksək qiymət meyarı kimi baxır: bərabərlik, ədalət, sosial təhlükəsizlik, insanlıq prinsipləri ayrı-ayrı adamlar, xalqlar, millətlər, bütün insan qrupları arasında münasibət formaları kimi bərabər olur. (Bax: “Voprosı filosofii”, 1989, № 10, səh. 47).

İctimai həyatın bütün sahələrində partiyanın başladığı yenidənqurma da sosial münasibətlərin qüdrətli impulsu olan mənəvi sərvətlərin xüsusi çəkisinin artırılmasına yönəldilmişdir. MK-nın Platformasında deyilir: “Milli və beynəlmiləl əsasları üzvi surətdə uzlaşdıran partiya şovinizmə, millətçiliyə və irqçiliyə, mürtəce ideologiyanın və cəhalətpərəstliyin hər hansı digər təzahürlərinə qarşı barışmazdır. Partiya öz sıralarını onun ideya-siyasi və təşkilati dayaqlarını rədd edən, antisosialist, millətçi, antisovet təşkilatlarda və əməllərdə iştirak edən şəxslərdən təmizləyir”.

Tarixi təcrübə göstərir ki, beynəlmiləlçiliyin bərqərar olması və millətçiliyin aradan qaldırılması işi olduqca mürəkkəb və uzun vaxt tələb edən bir prosesdir. O, yalnız ictimai-siyasi sistemlərə və iqtisadi bazalara uyğun olan marksist-leninçi dünyagörüşü deyil, həm də mədəniyyət, ziyalılıq tələb edir. Həm də söhbət bilikləri toplamaqdan, ali təhsil diplomu almaqdan deyil, insanın mənəvi keyfiyyətinin səviyyəsindən gedir. Həyat sübut etmişdir ki, millətçilik sosial vəziyyətindən asılı olmayaraq, o adamlarda özünə münbit zəmin tapır, sürətlə boy atır ki, onlar mənəviyyatca pozğun və ziyalılıqdan uzaqdırlar,

başqa mövqelərə dözümsüzlük, ümumi mənafeyi şəxsi və ya qrup mənafeləri ilə əvəz etmək onlara xas olan xüsusiyyətlərdir.

"Əgər dərindən nəzər salsaq, əyalətçilik çox təhlükəli əxlaqi, iqtisadi, ictimai hadisədir. Bu, ziyalılığın əks qütbüdür. (А.Логунов. Интеллигенция – понятие русское. "Правда" 7 август 1989, № 219, стр. 5). Əyalətçilik millətin intellektual təbəqəsinin xırdalanmasıdır. Heç bir millət, harada inkişaf tapmasından asılı olmayaraq, bizim günlərdə artıq coğrafi deyil, daha çox intellektual anlayışa çevrilən və əyalətçiliyə qida verən özündən müştəbehlik və öz qınına çəkilmək hesabına müvəffəqiyyətlə inkişaf edə bilməz. Əyalətçilik hörmətsizliklə, nəzakətsizliklə qarşılıqlı əlaqədədir. İnsan nə qədər nəzakətsiz olsa, onun millətçiliyə yuvarlanması bir o qədər asan olur.

Yeni təfəkkür belə bir şeyi anlamağa əsaslanmalıdır ki, əsl beynəlmiləlçilik millilik hüququndan imtina etmək deyildir. Əksinə, bu, milli mənafeyə diqqətin artırılması və eyni zamanda, ümumbəşəri dəyərlərin qorunması deməkdir.

Millətlərarası münasibətlərin bu məsələlərində kəskin milli çarpışmalara gətirib çıxaran həqiqi səbəblər haqqında tarazlı siyasəti, əslində, ağır nəticələr vermişdir. Belə ki, Dağlıq Qarabağ ətrafındakı münaqişələri "nə qaliblər, nə də məğlublar" formulu əsasında tənzimləmək cəhdi nəinki məsələnin həllini uzatdı, həm də münaqişələri hərbiləşdirdi, müharibə vəziyyətinə çatdırdı. Mahiyyətcə humanist olan bu formul indiki şəraitdə "işləmədi", özünü doğrultmadı, çünki o, problemin əsas mahiyyətini əks etdirmədi. Konstitusiyaya arxalanan realizm, demokratikləşdirmə və hakimiyyət – müasir şəraitdə beynəlmiləlçiliyin başlıca prinsipi, hər hansı bir millətlərarası münaqişənin həllinin açarıdır.

Yenidənqurmanın mühüm vəzifəsi xarakterinin və təfəkkürü-nün ayrılmaz amilləri müasir anlayışda sosialist beynəlmiləl-

çiliyi ola biləcək şəxsiyyətlər və həyat normaları formalaşdırmaqdan ibarətdir. Lakin siyasi prinsip nə qədər ki, şəxsiyyətin şüurunun ünsürünə çevrilməyib, o, şəxsiyyətin ictimai fəallığına da elə bir ciddi təsir göstərə bilməz.

Sosialist beynəlmiləlçiliyi sovet millətlərinin qarşılıqlı münasibətində birləşdirici rolu oynayır. Elə buna görə də beynəlmiləlçiliyin formalaşdırılmasının əhəmiyyəti həyati xarakter alır, çünki o, millətlərarası münasibətlərin yeganə ağıllı ideologyyasıdır. Daha da zənginləşmiş beynəlmiləlçilik milliliyin inkar edilməsi deyil, əksinə, onun milli inkişaf sahəsində yeni siyasi təfəkkürün əsası kimi qəbul edilməsidir. Partiyanın indiki siyasətində varisliyin və yeniliyin vəhdəti göstərir ki, beynəlmiləlçilik cəmiyyətimizin indiki inkişaf mərhələsində sovet xalqları ilə bir neçə cəhətdən birləşir: **birincisi,** milli münasibətlər sahəsində yenidənqurmanın zəruriliyi, sovet xalqlarının mənəvi-siyasi və iqtisadi birliyinin keyfiyyətcə yeni səviyyədə möhkəmləndirilməsi ilə, **ikincisi,** federasiyanın təzələnməsi çərçivəsində Respublikalararası münasibətlərin əsaslı surətdə təkmilləşdirilməsi ilə, **üçüncüsü**, milli və ümumittifaq mənafe və vəzifələrinin ayrılmazlığının dərk edilməsi ilə.

Lakin iş yalnız bunların hamısını dərk etməkdə, başa düşməkdə deyil. Ən vacibi odur ki, beynəlmiləlçilik hər bir sovet adamının gündəlik fəaliyyət normasına çevrilsin, "öz suverenliyinin, iqtisadiyyatının və mədəniyyətinin müdafiəsi uğrunda milli hərəkatlar başqa millətlərə, bütünlüklə ittifaqımıza, yenidənqurmaya ziyan vuran hərəkatlara çevrilməsin" (Sosializm ideyası və inqilabi yenidənqurma. "Azərbaycan kommunisti" jurnalı, 1990, № 1, səh.27).

"Azərbaycan kommunisti" jurnalı,<br>№6, 1990-cı il.

## TOTALİTARİZM SİNDROMU VƏ DEMOKRATİYANIN ƏLDƏ EDİLMƏSİ

***Yeni həqiqət ən çox köhnə səhvdən zərər çəkir.***
*İ.Höte*

**Azərbaycan öz tarixinin dönüş dövrünü yaşayır. O, dövlət müstəqilliyi elan edərək, sərbəst inkişaf yoluna qədəm qoyur, xalqların və dövlətlərin dünya birliyinə doğru özünə yol açır. Lakin bu, yolun ancaq başlanğıcıdır. Azərbaycanda son 62 ildə fəaliyyət göstərmiş etakratik quruluşu yenidən qurmaq üçün özünün yeni cəmiyyət modelini yaratmaq, onun iqtisadi və siyasi əsaslarını formalaşdırmaq lazımdır**.

Bu vəzifənin ən birinci şərti totalitar sistemin bütün strukturlarını ləğv etməkdən və demokratiya təsisatları yaratmaqdan, siyasi azadlığı tam bərpa etməkdən, xalqın milli hüquqlarını dirçəltməkdən, onun demokratik tərbiyəsindən, ümumbəşəri dəyərlərə fəal qoşulmaqdan ibarətdir. Bir sözlə, suveren millətin, vətəndaşların dövlətinin – müasir sivilizasiyalı ölkələrin topladıqları yaxşı nə varsa, hamısını özündə təcəssüm etdirən dövlətin bünövrəsini yaratmaq lazımdır.

Totalitarizmdən demokratiyaya keçid asan qələbələr vəd etmir. O, dekretlərlə həyata keçirilmir. Bu, cəmiyyətin təkamülünün kifayət qədər uzun və dramatik yoludur. Həmin dövrdə tədriclə yaranan sosial ziddiyyətlərin və münaqişələrin təzahür etməsi mümkündür. Lakin totalitarizmdən demokratiyaya keçidin siyasi

məzmunu barədə aydın təsəvvür olarsa, sosial münaqişələrdən qaçmaq mümkündür. Çoxları güman edir ki, demokratiya nə isə tam və vahid bir şeydir. Halbuki o, müxtəlif, bəzən qarşı-qarşıya duran, lakin sosial inkişafın əhalinin geniş təbəqələrini ictimai-siyasi həyatın orbitinə cəlb edə biləcək səviyyəsinə nail olmaq səylərində həmrəy olan qüvvələrin birliyidir. Bu, həqiqi siyasi plüralizm müddəasıdır. Demokratiyaya keçid şəraitində siyasi mübahisə və diskussiyaların mərkəzində ideoloji doktrinalar deyil, idarəçiliyin bütün strukturlarının çevikliyini və səmərəliliyini yüksəltmək səyləri, hakimiyyət piramidasını alt-üst etməyə, yəni cəmiyyəti dövlətin fövqündə qoymağa yönəldilmiş daha optimal yolların axtarışı durmalıdır.

Buna necə nail olmalı, cəmiyyətin yeniləşməsinə, iqtisadi və sosial islahatların həyata keçirilməsinə necə müvəffəq olmalı? Yenə də üstünlük “sinfi mübarizə”yəmi veriləcək, opponentlərə nifrət yenidən dirçələcəkmi, yoxsa, dialoq siyasəti, siyasi qruplaşmaların mənafelərini uyğunlaşdırmaq siyasəti, sosial proqramların sağlam rəqabəti zəfər çalacaqmı? Respublikamızın gələcəyi, millətin özünüifadə və özünütəzələmə imkanları cəmiyyəti demokratikləşdirmək məqsədlərinə çatmağın məhz forma və metodlarının seçilməsindən çox asılı olacaqdır.

Posttotalitar demokratik hakimiyyət hələ kövrək strukturdur, hələ möhkəmlənməmiş olan yeniyetmə orqanizmini xatırladır. Hətta mütərəqqi islahatlar aparsa da, bu, heç də həmişə davamlı və ardıcıl olmur. Onun inamsızlığı və vəziyyətin sabit olmaması elə demokratiyanın keyfiyyətində bir növ qanunauyğun şəkildə özünü göstərir. Demokratiya siyasi yeknəsəqliyi və təkbaşçılığı artıq qəbul etməsə də, totalitarizmin qalıqlarından hələ də azad deyildir.

Bəs nə üçün totalitarizm sindromu belə möhkəmdir? İdarəçiliyin köhnə strukturlarının dağılması, sosial və iqtisadi böhranın artması qarşısında aciz olan, demokratiyanın və vətəndaş cəmiyyətinin ruhuna uyğun olan təsisatlar yaratmağı bacarmayan yeni hakimiyyət elementləri cəmiyyətin və iqtisadiyyatın idarə edilməsinin çox vaxt əvvəlki metodlarına əl atmağa məcburdur. Siyasi baxımdan isə bu cür metamorfozalar yerlərdə hakimiyyətin zəifliyi, köhnə nomenklaturanın müqaviməti, bürokratik sabotajla izah olunur. Biz bu mənzərəni keçmiş SSRİ-nin, demək olar, bütün respublikalarında müşahidə edirik. O, Azərbaycan üçün də bu və ya digər dərəcədə səciyyəvidir.

Demokratik ənənələrin özünüidarə vərdişlərinin və qanunların könüllü şəkildə icrasının yoxluğu fonunda avtoritar-bürokratik idarəçilik təcrübəsinə bəzən müsbət don geydirilir.

Demokratiyanın bərqərar olmasına maneçilik törədən digər amil də mövcuddur. O, “parçala və hökm sür” imperiya prinsipinin inikası kimi, cəmiyyətimizin daxilən parçalanması ilə bağlıdır.

Hələlik dəyişikliklər siyasi qüvvələrin təşkilinin ancaq formalarına toxunmuşdur. Bu dəyişikliklər yeni ictimai birlik və cərəyanların meydana gəlməsinə təkan versə də, yeniliklər ictimai, daxili və millətlərarası münasibətlər sistemində, insanların psixologiyasında, təfəkkür və davranış tərzində hələ də zəif kök salır.

Məlum olur ki, ən çətini totalitar siyasi sistemi, “planlı iqtisadiyyatı” yenidən qurmaqdır. Bunu hazırda MDB ölkələrində baş verən bütün proseslərin gedişi də təsdiqləyir. Ona görə əvvəlkitək, yenə də çoxları böhranlı vəziyyətdən çıxmağın ən səmərəli vasitəsini cəmiyyəti “bizimkilərə” və “bizimki olmayanlara” bölməkdə, “əcinnə ovunda” görürlər ki, bu da əməli

siyasətdə hüquqi dövlət təsisatlarının formalaşmasının ləngiməsinə gətirib çıxarır. Gördüyümüz kimi, "düşmən" obrazı heç də təkcə totalitar sistemin mənəvi-psixoloji əlaməti deyildir. Azad bazar iqtisadiyyatına və demokratiyaya keçid zamanı bu cür mənfi basmaqəliblərə tələbat bəzən hətta artır, çünki onlardan siyasətdə müəyyən məqsədlərə çatmaq üçün iqtisadi məkanda rəqabət mübarizəsində istifadə edilə bilər.

**Məsələn, Baltikyanı respublikalarda hakimiyyətə gələn demokratlar iqtisadiyyatda ciddi bir iş görə bilmədikdə, uğursuzluqların baiskarlarını digər xalqların nümayəndələri arasında, yaxud kommunistlər arasında axtarmağa və tapmağa hazır olan qeyri-formal hərəkatların millətçi fraksiyaları ön sıraya çıxdı. Çexo-Slovakiya və Macarıstanda daha uzağa gedərək, lüstrasiyalar (etibarlılığın yoxlanması) haqqında konstitusiyaya zidd olan qanun qəbul etdilər. Qanunauyğunluq belədir ki, əsas siyasi rəqib aradan qaldırıldıqda, tərkibcə həmcins olmayan, müxtəlif fraksiyaları birləşdirən hərəkatların özlərinin daxilində çəkişmələr başlayır.**

Azərbaycanda ümumdemokratik hərəkatın məhz daxili tarazsızlığı Dağlıq Qarabağda münaqişəni konstruktiv surətdə həll etməyə imkan vermədi. Problemin həlli təkcə onun mürəkkəbliyinə görə deyil, həm də ona görə uzanır ki, hakimiyyət strukturlarının və yekcins olmayan, tərkibinin müxtəlifliyi ilə fərqlənən müxalifətin mənafelərini uyğunlaşdıra biləcək mexanizm yaradılmamışdır.

Etimad hökuməti siyasi qüvvələrin mənafelərinin bütün spektrini ümumi məxrəcə gətirməyin mühüm elementlərindən biri ola bilər. Lakin siyasi mübarizənin mühüm prinsipi kimi

kompromisdən istifadə edilməsə, bu hökumət də öz vəzifələrini yerinə yetirə bilməz.

Hakimiyyət strukturlarına daxil olan demokratların vətəndaşlıq borcu özlərinin vəzifə səlahiyyətlərini genişləndirmək deyil, – bu, gec-tez hakimiyyətin zorakılıqla ələ keçirilməsinə gətirib çıxara bilər, – ziddiyyət və münaqişələrin həllinin siyasi vasitələrini axtarıb tapmaqdan ibarətdir. Konstitusiya qanunlarının həyata keçirilməsi, iqtidardakıları əvəz edəcək qüvvələr üçün hakimiyyətin parlament vasitələrinin formalaşdırılması demokratiyanın başlanğıc prinsipi olmalıdır.

Başqa sözlə desək, demokratların sosial təyinatı ancaq özlərinin hakimiyyətə gəlməsində deyil, onun sabit fəaliyyət göstərməsinin, deməli, hakimiyyətin konstitusiya çərçivəsində məhdudlaşdırılması və bərqərar edilməsinin mexanizmini tapmaqdadır. Lakin demokratların heç də hamısı bununla razılaşmır, çünki onların bir qismi hesab edir ki, əgər "biz" getsək, "onlar" gələcəklər. Qarşıdurma təfəkkürü xeyli dərəcədə həm də onunla bağlıdır ki, demokratların fikrincə, istənilən müxalifət ancaq "totalitar" ola bilər. Halbuki hər bir sivilizasiyalı cəmiyyətdə demokratik çoxluq və demokratikliyi heç də aşağı olmayan azlıq var. Bu isə insanların layiqli seçim etmək hüququ olmasının başlıca təminatıdır. Əgər demokratik müxalifət yaradılmasa, onda siyasi təşəbbüsü avtoritarizmin tərəfdarı olan qüvvələr ələ keçirə bilərlər. Deməli, demokratlar onlara qarşı mübarizə aparan demokratik koalisiyaların mövcudluğunda maraqlı olmağa, sadəcə, borcludurlar. Axı, siyasi qüvvə kimi kommunistlərin cəmiyyət və tarix qarşısında əsas təqsiri bundadır ki, onlar hakimiyyəti öz inhisarlarına almış, vətəndaşları seçim hüququndan, beləliklə də cəmiyyətlə hakimiyyət ara-

sında əks-əlaqəni qırmışlar. Müasir demokratlar "bolşevizm"in səhvlərini təkrar etməməlidirlər.

Demokratik cəmiyyət qurmağa çalışdığımızı hamı başa düşür. Amma buna necə nail olmağın mümkünlüyünü çox az adam bilir. Siyasi qurum kimi sovet cəmiyyəti dünya tarixində "nadir" hadisə idi və insanların şüurunu, psixologiyasını və təfəkkürünü kifayət qədər kəskin şəkildə deformasiya etməyə müvəffəq olmuşdu. Niyyətlərimiz nə qədər xoş olsa da, mənəvi və maddi sahələrdə "sovet irsi"ndən dərhal xilas olmaq xülyadır. Yaranmış vəziyyətdə demokratik dəyişikliklərin tədricən, təkamül yolu ilə, qan tökülmədən, mənasız qurbanlar verilmədən həyata keçirilməsi ən ağlabatan formadır. Lakin sovet imperiyasının ənənələrindən xilas olmaq, müstəqilliyə və eyni zamanda demokratiyaya keçmək, demokratiya prinsiplərini bərqərar etmək üçün vaxt lazımdır.

Cəmiyyətin demokratikləşdirilməsinə aşağıdan təkan verilməlidir, bu, cəmiyyətin özünün daxili tələbatı, bütün xalqın işi olmalıdır. Bizdə isə cəmiyyəti yeniləşdirmək təşəbbüsü yuxarıdan göstərilmişdir. Totalitarizm metodlarına məhvedilməz vərdiş də elə burada özünü büruzə vermişdir. Məsələn, demokratikləşdirmənin bizim Azərbaycan variantında, demək olar, bütün hakim partiya-dövlət və təsərrüfat orqanlarının rəhbər heyəti öz hakimiyyətini saxlamışdır. Cəmiyyət formalaşmaqda olan demokratik məkana bu nomenklaturanın çiynində daxil olmağa məcbur idi. Lakin bu məkanın "sahibləri" məhz nomenklatura olmuşdur.

**Bununla yanaşı, son həftələrin dünya ictimaiyyətinin diqqət mərkəzində olmuş hadisələri, – mən Azərbaycan Prezidentinin istefasını nəzərdə tuturam, – göstərdi ki, haki-**

**miyyət strukturlarında qarşılıqlı dözümsüzlüyün, qarşıdurma psixologiyasının yerini tədricən cəmiyyətin ən mühüm problemlərinin ümumxalq müzakirəsi ənənələri tutur. Deyərdim ki, sabiq İttifaq respublikalarının postkommunist tarixində ilk dəfə olaraq hakimiyyət dəyişikliyi qansız-qadasız keçdi.**

Bəs, totalitarizmdən demokratiyaya keçidin digər yolu, əslində bütün MDB ölkələrində müşahidə etdiyimiz yoldan fərqlənən yol mövcuddurmu? Zənnimcə, mövcuddur. Müharibədən sonrakı İtaliya və Yunanıstanın, hətta Franko rejimindən xilas olmuş İspaniyanın nümunəsi sübut edir ki, cəmiyyətin demokratiyaya doğru irəliləməsinin daha konstruktiv yolu var. Bu yol siyasət və iqtisadiyyatda totalitarizm irsindən səmərəli bazar münasibətləri, dünya sisteminə fəal inteqrasiya vasitəsilə xilas olmağı nəzərdə tutur. Bizim demokratlar totalitar cəmiyyətdən çıxmışlar və təbii ki, onun xüsusiyyətlərini özlərində daşıyırlar. Başa düşmək vacibdir ki, demokratiyanı kimsə yuxarıdan bərqərar etmir. Demokratiya müəyyən sosial qüvvələrin qarşılıqlı fəaliyyəti yolu ilə konkret tarixi şərtlərin bütün məcmusundan yaranır. Demokratiyanın mənafelərini ifadə edən siyasət bunu nəzərə almalıdır. Demokratları gözləyən başlıca təhlükə isə tarixi təfəkkürün məhdudluğudur. Totalitarizm öz tarixi nadirliyini fetişləşdirdiyi kimi, posttotalitar demokratiya da tarixin hesablanmasını özündən başlayır.

Lakin nə qədər çətin olsa da, bolşevik xəstəliyi olan messianlığı, – azadlıq, xoşbəxtlik, qardaşlıq, bərabərlik ideyalarının daşıyıcıları guya bizik, ancaq bizik, – özündə dəf etmək lazımdır. Totalitarizmin məlum formulu – "kim bizimlə deyilsə, o, bizə qarşıdır" formulu uzun illər ərzində cəmiyyəti vahimə

içində saxlamışdır. O, cəmiyyətdə indi də yaşayaraq, insanlara öz intellektual potensialını həyata keçirməyə imkan vermir. İrəliyə getmək üçün keçmişin buxovlarından, yaşadığımız, çalışdığımız, qurub-yaratdığımız cəmiyyətə etimadsızlıqdan xilas olmaq lazımdır. Lakin o da vacibdir ki, irəliləyişdə nə həddindən çox sola, nə də həddən artıq sağa meyil etmək olmaz. Əks halda, biz yolumuza haradan başlamışıqsa, oraya da qayıdarıq.

*"Bakinski raboçi" qəzeti,*
*27 mart 1992-ci il.*

## KEÇMİŞİMİZ GƏLƏCƏYİN KONTEKSTİNDƏ

(*“Bakinski raboçi” qəzetinə müsahibə*)

**Vaxtilə sovetlər ölkəsində dillər əzbəri olan “Hər şeyi kadrlar həll edir!” ifadəsi yenidən səsləndi. Amma, eyni zamanda, sanki onu inkar edən, onun ifrat inqilabi pafosunu azaldan başqa, riyakarcasına qəddar bir ifadə də vardı: “Əvəzolunmaz adamlar yoxdur”. Biz bir ictimai vəziyyətdən və vətəndaş vəziyyətindən digərinə kəşməkəşli keçidlərə tabe olaraq, beləcə yaşayırdıq. Gah qəhrəmanları tərənnüm edir, gah həbs düşərgələrində çürüdür, gah şöhrət çələnginə bürüyür, gah ədalətsiz məhkəməyə çəkib şikəst edir, gah pərəstiş obyektinə çevirir, gah da postamentlərdən və vəzifə kürsülərindən kəlləmayallaq aşıraraq, külünü göyə sovururduq.**

**Yuxarı partiya dairələrində də fraksiya və qrupların mübarizəsi səngimək bilmirdi. Düzdür, bu mübarizə məhvedici, amansız xarakterini hərdən itirsə də, rəhmsizliyə düçar olanların və gözdən salınanların həyatını büsbütün şikəst edirdi. Ölkənin taleyi də puç olurdu. Görünür, ən böyük bəlamız ondadır ki, biz hər şeydə, o cümlədən də kadr siyasətində varisliyi pozurduq.**

**Böhran təzahürləri ilə rastlaşdığımız son illərdə Azərbaycanda müxtəlif səviyyəli rəhbərlərin istefaları az olmamışdır. “İstefa” sindromu cəmiyyətimizi indi də**

**çalxalayıb sarsıdır. Kütləvi istefaların birinci dalğası Moskvanın əlaltısı Ə.Vəzirovun hakimiyyətə gəlişindən sonra başladı (yeri gəlmişkən, sonra onun özünü də süpürüb atdı). Bunun ardınca digər istefalar da oldu. Bəs, aralarında xeyli peşəkar siyasətçinin də olduğu sabiq funksionerlərin taleləri necədir? Bu gün onlar nə ilə məşğuldur, gələcəyin kontekstində öz keçmişini necə görürlər? Müxbirimizin Azərbaycan KP MK-nın keçmiş katibi, hazırda respublika Elmlər Akademiyasının ictimai elmlər üzrə elmi informasiya mərkəzinin şöbə müdiri Ramiz Mehdiyevlə söhbəti bu və bir çox digər məsələlər barədədir.**

Həmsöhbətimizə ilk sual retrospektiv xarakterlidir:

***– 1988-ci ildə istefanız nə ilə bağlı idi? Bu, nə idi – "öz xahişi ilə" növbəti getmə, yoxsa, başqa səbəblər vardı?***

– Açığını desək, səbəblər başqa idi. Mənim vəzifədən getməyim yuxarı partiya dairələrində həmişə gedən siyasi mübarizənin güclənməsinin 1985-ci ilə təsadüf edən növbəti zirvəsini əks etdirirdi. Bu mübarizəyə həm gözə görünən, həm də görünməyən qüvvələr cəlb olunmuşdu. Özü də, vəzifədən birinci növbədə kənarlaşdırılmalı olan bəzi rəhbər işçilərin nüfuzdan salınmasında həmin qüvvələrə Azərbaycan KP MK-nın özünün tərkibində, onun bürosunda olan funksionerlər cidd-cəhdlə kömək edirdilər. Bütün bunları mən artıq 1988-ci ilin əvvəllərində daha açıq şəkildə hiss etməyə başlamışdım.

Məni də nüfuzdan salmağa çalışırdılar (yeri gəlmişkən, bunu mənə belə "sifariş" alanlardan biri məxfi söhbət zamanı bildirmişdi). Amma buna müvəffəq olmadılar. Hərçənd hesab etmirəm ki, işdə nöqsan və səhvlərim yox idi, o vaxtlar ideoloji sahə adlandırılan və mənim kuratorluq etdiyim sahədə hər şey

qaydasında idi, heç bir problem və ziddiyyətlər mövcud deyildi. Yox, vardı! Lakin bu ziddiyyətlər çox vaxt obyektiv xarakter daşıyırdı ki, bunu da bütün həyatımızı, o cümlədən cəmiyyətdə mənəvi prosesləri sərt şəkildə tənzimləyən "inkişaf etmiş sosializm" sisteminin özünün mükəmməl olmaması və insaniyyətsizliyi doğururdu.

Budur, belə bir paradoks – Vəzirov mənə diplomatik işə keçməyi təklif edir! Sual olunur, yaxşı, kimsə nədəsə ləkələnmişsə, diplomatik vəzifədə işləyə bilərmi? Axı, məlumdur ki, onun nöqsansız, tərtəmiz anketi olmalıdır. Niyə indi mən xaricdə deyiləm? "Fəxri sürgün" barədə təklif sadəcə olaraq bir manevr, hiylə idi. Vəzirov məni vəzifədən uzaqlaşdırmaq üçün "diplomatiya"ya əl atmışdı.

***– Məgər bunu sadə yolla etmək olmazdımı: deyək ki, vəzifədən heç bir izahat verilmədən, yaxud hər hansı standart mənfi ifadə ilə rəsmiləşdirərək uzaqlaşdırmaq olmazdımı?***

– Yox, o, qətiyyətli adam deyildi! Bundan başqa, zaman da başqa idi. Adamı heç nədən vəzifədən azad etmək "qeyri-demokratik" olardı.

...Bəli, həqiqətən təəccüblü, hətta deyərdim, paradoksal bir dövr idi. Bürokratik amirlik sisteminin inersiyası hələ işləyirdi və bu sistemin ənənələrinə əsasən, "birinci şəxs" kadrların taleyini öz bildiyi kimi həll edirdi: tərəfdarlarını ətrafına yığaraq, komandanı təkbaşına yaradırdı. Komanda üzvlərinin layiqli şəxslərdən olması vacib deyildi, seçim meyarı "irəliyə çəkilənin" partiya rəhbərinə şəxsi sədaqəti idi. Lakin demokratik dəyişikliklərin cücərtiləri də artıq üzə çıxırdı. Məsələn, imperiya ənənəsinə uyğun olaraq, Vəzirovu respublikaya Moskva göndərmişdi, onun özü isə artıq kadrların guya demokratik yolla müzakirə olunması

və irəli çəkilməsi barədə canfəşanlıqla görüntü yaradırdı. Lakin Vəzirovun dövründə hətta bir çox faydalı təşəbbüslər də parodiya və ya hoqqabazlıq təsiri bağışlayırdı...

***– Deməli, siz, özünüz dediyiniz kimi, "kənarlaşdırılmağınızla" razılaşdınız?***

– Xeyr, daxilən razılaşmadım. Amma mən rejimin nəyə qadir olduğunu yaxşı bilirdim. Bir də ki, siyasət "donkixotluq" sahəsi deyildir. Qüvvələr bərabər deyildi. "Səlahiyyətli orqanlar"ın "hifzedici mələklər"inin məni gözdən qoymadıqlarını aşkar hiss edirdim. Bundan başqa, həmin vaxt artıq respublika Ermənistanla münaqişəyə cəlb olunmuşdu. Belə şəraitdə şəxsi iddialar mənəviyyatsızlıq kimi görünə bilərdi. Ona görə də kölgəyə çəkilməyi və heç kimə mane olmamağı üstün tutdum. Mən siyasətdən getdim, ancaq əvəzində elmə qayıtdım.

***– Bəs, indi necə, siyasətə qayıtmaq istəyiniz varmı?***

– Respublikanın dərin siyasi və iqtisadi böhran girdabına düşdüyü şəraitdə, ən başlıcası isə, Qarabağın dağlıq hissəsində hadisələrin milli faciə xarakteri aldığı bir vaxtda biz hamımız bu və ya başqa şəkildə siyasətə cəlb olunmuşuq. Əvvəlki rəhbərliyin səhvləri və siyasi hikkələri ucbatından cəmiyyətdə qarşıdurmanın kəskinləşməsini məgər sakitcə müşahidə etmək mümkündürmü?

***– Siz ehtiyat etmirsinizmi ki, böyük siyasətə qayıtmağınız əvvəlki hakimiyyətin bərpası kimi qiymətləndiriləcək?***

– Düşünürəm ki, belə deyildir. Məgər bu gün respublikaya "sabiqlər" rəhbərlik etmirlərmi? Biz hamımız keçmişdən çıxmışıq. Siyasətçiləri opponentlərin onlar üçün icad etdikləri yarlıqlar üzrə yox, əməli işlərinə görə qiymətləndirmək lazımdır.

Vəchlə tapdaladığımız keçmişdə mənən təmiz və qeyrətli adamlar, ruhən demokratlar az olmayıbdır. Onları cəmiyyətin

elə özünün mənafeləri naminə praktik işə qaytarmaq gərəkdir. Demokratlar özləri barədə haqq-ədaləti bərpa etməyə, sadəcə, borcludurlar. Doğrudur, özlərini istənilən hakimiyyətdə gözəl hiss edənlər də var. Bunlar hərdəmxəyallar, prinsipsiz siyasətbazlardır. Əlbəttə ki, "keçmiş"in adamları məhz bunlardır. O mənada ki, onlar köhnəlmişlər, onlar tənəzzülün daşıyıcılarıdır. Təəssüf ki, onların çoxu əvvəlkitək yüksək vəzifələrdədir, bir çoxu deputat mandatı almışdır. Lakin onların bu deputat adı siyasi, mənəvi və işgüzar keyfiyyətlərə verilən qiymətdən çox, qoruyucu tituldur.

– ***Yəni sizi belə başa düşmək olar ki, parlamentimizin tərkibi xalqın bütün təbəqələrini təmsil etmir və onun mənafelərini ifadə etmir?***

– Məgər bu, onun işinin nəticələrindən görünmür? Məgər respublikada baş verənlərə görə parlament məsuliyyət daşımırmı? Bizim parlament avtoritar rejimin törəməsidir. O, əvvəlkitək sözəbaxan və itaətkar çoxluqdur. Deputatlar arasında hərdən baş verən qızğın qovğa və çəkişmələr qoy, heç kimi çaşdırmasın. Bu, demokratiyanın bolluğundan deyil, siyasi mədəniyyətsizlikdən irəli gəlir... Parlament öz fəaliyyətinin il yarımı ərzində heç cür dəyişə bilməmişdir. İmperiyanın iflası çoxlarını təşvişə, kimlərisə şaşqınlıq halına saldı, amma, deyəsən, çox az adamı səfərbər olmağa vadar etdi. Gərək mənəvi, psixoloji, intellektual və siyasi cəhətdən dəyişəsən. Bəs, bizim deputat korpusu buna hazırdırmı?..

İrəliləməyimiz üçün demokratik yolla seçilmiş, əsas partiyaların və ictimai təşkilatların baxışlarının, mənafelərinin, proqramlarının geniş spektrini əks etdirən yeni, səriştəli parlament gərəkdir.

***– Siz respublikadakı siyasi vəziyyəti necə qiymətləndirirsiniz?***

– Böhranlı bir vəziyyət kimi. Cəmiyyətdə siyasi qeyri-sabitlik, iqtisadiyyatın tənəzzülü, əhalinin kütləvi surətdə yoxsullaşması, korrupsiya və alverin qanuniləşdirilməsi, kriminal özbaşınalıq – bu amillər mövcud vəziyyəti xarakterizə edir.

Bütün bunların səbəbi isə, fikrimcə, hakim strukturların nüfuzunun olmamasında, səriştəsizlikdə, cəmiyyəti idarə edən təsisatların korrupsiyaya uğramasındadır.

***– Siz konkret faktlar göstərə bilərsinizmi?***

– Düşünürəm ki, belə faktlar hər birimizə kifayət qədər məlumdur. Məsələ heç də faktlarda deyil, hadisələrdədir. Bir fikir verin, korrupsiya cəmiyyəti bürümüşdür. Bəs, buna görə son 3-4 ildə, heç olmasa, bir işçi cəzalandırılırmı? Mən eşitməmişəm. Məgər bu, tərəfgirlikdən, cəmiyyətin korrupsiyaya qurşanmasından xəbər vermirmi?

Mən keçmişə qayıtmağa çağırmıram. Amma əgər cəmiyyətin bir hissəsi açıqca alınır və satılırsa, digər hissəsi isə eyni dərəcədə açıqca ayrı-seçkiliyə məruz qalırsa, əgər cəmiyyət təsirli nəzarət mexanizminə malik deyilsə, o, normal fəaliyyət göstərə bilməz. Prezident hakimiyyəti təsisatı üzrə eksperiment göstərdi ki, məhz icraya nəzarət həlqəsi hakimiyyət silsiləsindən qopub düşür.

***– Yeri gəlmişkən, prezident hakimiyyəti təsisatı barədə. Siz hesab edirsiniz ki, o, özünü doğrultmur?***

– Hesab edirəm ki, o, vaxtından əvvəl təsis olunmuşdur. Əvvəlcə prezident idarəçiliyinin etibarlı, tamamilə legitim və konstitusiyalı mexanizmini yaratmaq, yalnız bundan sonra seçkilər keçirmək lazım idi. Yada salaq ki, o vaxt bizdə seçkilər də alternativsiz idi. Hazırda kimə məxsusluğundan asılı olmayaraq, hakimiyyət normal fəaliyyət göstərməlidir.

***– Son vaxtlar Qarabağın dağlıq hissəsindəki vəziyyətlə, cəmiyyətdə qarşıdurmanın kəskinləşməsi, hakimiyyət böhranı ilə əlaqədar Heydər Əliyevin adı tez-tez çəkilir, o mənada ki, bir siyasətçi kimi o, sosial fəlakətin qarşısını almağa qadirdir. Səciyyəvi haldır, bunu o kəslər də deyirlər ki, onları Heydər Əliyevin aşkar tərəfdarları adlandırmaq olmaz. Siz belə bir fikrə şəriksinizmi ki, bu gün bizə "güclü əl" gərəkdir?***

– Mən "güclü əl"in əleyhinəyəm. Lakin güclü hakimiyyət və möhkəm intizam tərəfdarıyam. Məsələ avtoritarlıqda deyil, şəxsiyyətin nüfuzundadır. Beləliklə, şəxsi fikrimi ifadə edərək bildirirəm – Əliyevin respublikada nüfuzu var.

***– Bəs, o, dağıdıcı prosesi dayandırmağa kömək edə, milləti sıx birləşdirə və respublikanı böhrandan çıxara bilərmi?***

– Vəziyyət təsəvvür edildiyindən qat-qat mürəkkəbdir. Bu gün siyasi qüvvələrin alyansı, sıx birliyi və qarşılıqlı fəaliyyəti olmadan milli dirçəlişə ümid bəsləmək çətindir. Ona görə də bir növ siyasi "dispetçer" rolunu kimsə öz üzərinə götürməlidir. Vəziyyəti sabitləşdirməyə çalışarkən onu əsas tutmaq lazımdır ki, əgər peşəkar və təcrübəli siyasətçinin başçılıq etdiyi sabit xalq etimadı, milli həmrəylik hökuməti yaratmasaq, dünyada heç kim bizi ciddi qəbul etməyəcəkdir.

O ki qaldı Əliyevə, onun opponentləri nə deyirlərsə-desinlər, o, şübhəsiz, qeyri-adi şəxsiyyətdir, lider keyfiyyətlərinə malik böyük dövlət xadimidir. Siyasət isə liderin arxasınca getməkdir. Bu, çətin, yorucu, amma qələbə vəd edən yoldur! Düzdür, elə olur ki, kimsə davam gətirmir, dayanır. Zənnimcə, yeni formasiyalı siyasətçilərin fəaliyyətini yaşlı nəsil nümayəndələrinin müdrikliyi, təcrübəsi və uzaqgörənliyi ilə ahəngdarlaşdırmaq təbii olardı.

***– Sizcə, Əliyev hakimiyyətə qayıtsa, bu, onun opponentləri ilə qarşıdurmaya gətirib çıxarmazmı? Onun isə opponentləri az deyil, bunu etiraf etməliyik. Onu da etiraf etməliyik ki, Əliyev yaşadığı sistemin və rejimin səhvlərindən, qüsurlarından xali deyildi.***

– Bilirsinizmi, bu suala ətraflı cavabı ancaq Əliyevin özü verə bilər. Amma adicə məntiq göstərir ki, bu narahatlıqlar yəqin ki, əbəsdir. Böyük siyasətçi şəxsi incikliklərin fövqündə olmalıdır. Bizim indiki vəziyyətimizdə insanların ümidlərini doğrultmaq, yəni o siyasətçi hansı vəzifədə olursa-olsun, respublikanı bu mənasız müharibədən çıxarmaq, xalqın dincliyini və firavanlığını təmin etmək daha vacibdir. O ki qaldı səhvlərə, yaxşı siyasətçi keçmişdən ibrət götürür. Lakin biz digər amili də etiraf etməliyik: Əliyevə münasibətdə ədalətsizliyə yol verilmişdir... Mərkəzin məqsədləri lap əvvəldən aydın idi: SSRİ-dəki siyasi və dövlət rəhbərliyi sferasında Azərbaycanın nümayəndəsinə elə bir vəzifə ayrılmışdı ki, onun bundan yüksəyə qalxmaq hüququ yox idi. Heydər Əliyev isə oyunun qaydalarını "pozmuşdu". Kremldən Azərbaycanı daha asan idarə etmək üçün onu kənarlaşdırdılar. Bundan əlavə, onun kənarlaşdırılmasında artıq "Qarabağ kartı"ndan istifadə etməyə başlayan güclü erməni lobbisi də çox maraqlı idi.

***– Qarabağın dağlıq hissəsindəki münaqişə respublikanın heç də təkcə bir lideri üçün sınaq olmamışdır. Təəssüf ki, hələlik heç kim bu sınaqdan şərəflə çıxmamışdır. Doğrudanmı, biz bu qanlı münaqişəni əbədi olaraq həll etməyə məhkumuq?..***

– Qarabağ münaqişəsindən danışarkən mən ruhdan düşüb, bədbinliyə qapılmazdım. Dünya ictimaiyyətinin şüurunda dönüş yaranır. Qərb daşnakların ona qəbul etdirdiyi stereotiplərdən

tədricən uzaqlaşır. Xüsusilə, Xocalı soyqırımından sonra Qarabağın dağlıq hissəsindəki münaqişəyə verilən siyasi qiymət kəskin şəkildə dəyişmişdir.

Xarici siyasi fəaliyyəti daha da təkmilləşdirmək, genişləndirmək vacibdir, lakin, necə deyərlər, arxa cəbhəni möhkəmlətmək, mobil müasir ordu yaratmaq da gərəkdir. Axı, iqtidarın məhz dövlətin idarə olunmasındakı, o cümlədən münaqişənin həllindəki səhvləri, mafioz qrupların nümayəndələrinin hakimiyyət qurumlarına soxulması və digər mənfi hallar respublikanı acınacaqlı vəziyyətə gətirib çıxarmışdır.

Amma keçmiş bizə dərs olmadı. Elə bu gün də müharibə aparmağımıza baxmayaraq, müharibə dövrünün qanunları ilə deyil, siyasi hoqqabazlıq şərtləri ilə yaşayırıq: yenə də kimsə hakimiyyətdə qalmağa, nazir vəzifəsinə yiyələnməyə can atır...

Xalq özü, bütün ictimaiyyət kimin əsl vətənpərvər, vicdanlı siyasətçi və bacarıqlı işçi olduğunu, kiminsə insanların milli hisslərindən öz tamahkar və iddialı məqsədləri üçün istifadə etdiyini ayırd etməyincə, ölkəmizdə əmin-amanlıq olmayacaqdır. Xalq tez-tez siyasətbazların əllərində oyuncaq olmuşdur. Məncə, bu, indi də baş verir.

***– Azərbaycanın MDB-yə daxil olmasına münasibətiniz?***

– MDB-yə daxil olan dövlətlərin mənafelərinin spektri çox genişdir, bir çox cəhətdən üst-üstə düşmür. Bundan başqa, Rusiyanın bəzi rəhbərləri imperiya siyasətindən əl çəkməmişlər. Ona görə də mübahisə və münaqişələr həmişə MDB-yə nifaq salacaqdır.

Mənə elə gəlir ki, birbaşa ikitərəfli əlaqələr daha realdır. Çünki belə əlaqələr əməkdaşlığı qarşılıqlı surətdə faydalı, bərabər və ədalətli əsasda qurmağa imkan verir. Böyük şimal qonşumuz

olmuş və indi də olan Rusiya ilə məhz bu prinsipi əsas tutaraq, müqavilə bağlamaq lazımdır. Eləcə də digər dövlətlərlə – keçmiş sovet respublikaları ilə çoxşaxəli əlaqələr gərəkdir.

***– Siyasətçi və yeni lider kimi Azərbaycan Ali Sovetinin sədri Yaqub Məmmədov haqqında nə deyərdiniz?***

– Mən onu tanıyıram... Məmmədov sələflərinin səhvlərini təkrarlamayacaq. O, sağlam düşüncəli, ağıllı insandır. Xalqın içindən çıxıb, problemlərini bilir, onun mənafelərinə xəyanət etməz. Peşəsi baxımından isə humanistdir, lakin hamımız yəqin etmişik ki, ağır vəziyyətlərdə sərt və qətiyyətli ola bilir.

Bir sözlə, onun Ermənistanla Azərbaycan arasında münaqişənin nizama salınması üzrə siyasətinin, cəmiyyəti sıx birləşdirmək siyasətinin nə dərəcədə real olacağını zaman göstərəcəkdir. Əlbəttə, onun ətrafındakılardan, komandasından da, son nəticədə isə cəmiyyətdən də çox şey asılı olacaqdır.

*Müsahibəni apardı: İbrahim Şükürov*
*"Bakinski raboçi" qəzeti,*
*7 aprel 1992-ci il.*

# DEMOKRATİYAYA APARAN ÇƏTİN YOL

## I

**İctimai təşəbbüslər və ideyalar tarixin gedişinə həmişə təkan vermişdir. Bugünkü və sonrakı nəsillərin taleyinin həll edildiyi, Azərbaycan millətinin gələcək inkişafının bünövrəsi qoyulduğu indiki vaxtda onların əhəmiyyəti xüsusilə böyükdür.**

Sübut etməyə lüzum yoxdur ki, əvvəlki sistemin süqutu, onun dağılması tarixi qanunauyğunluqdur. Əvvəlki sistemin müqəddəratı öncədən həll edilmişdi. Qoy, heç bir müxalifət özünə belə bir fikirlə təsəlli verməsin ki, bu sistemi məhz o, dağıtmışdır. Müxalifət onun ancaq nəfəsini kəsmişdir.

Ona başlıca zərbə elmi-texniki tərəqqinin yeni dövrəsi ilə vurulmuşdur. Kompyuterləşdirmə, müasir texnologiyalar, beynəlxalq əmək bölgüsü, ekoloji fəlakətin qarşısının alınması sahəsində beynəlmiləl səylər bütün ictimai həyatı demokratikləşdirməyi, şəxsiyyətin və millətin azadlığını, dövlətlərin müstəqilliyini tələb edirdi. Bu, sanki qar uçqunu idi və çoxları onun əmələ gəlməsinə bais olarkən hətta güman etmirdi ki, o, qarşısına çıxan hər şeyi süpürüb aparacaqdır.

Lakin totalitar rejimin dağılması təkcə xoşbəxtlik deyil, həm də faciədir. Çünki hər bir xalqın tarixində sərt dönüş təkcə millətin dirçəlişinə deyil, həm də müsibətlərə, dəyərlərin əzablı şəkildə yenidən qiymətləndirilməsinə, günahsız insanların

qanının tökülməsinə də səbəb olur... Bu qan Bakı küçələrində də töküldü və Qarabağın dağlarında indiyədək tökülməkdədir.

Problem onda deyil ki, Azərbaycan xalqı sovet imperiyasının əsarətindən azad olmalı idimi, bu, şəksizdir, problem milli suverenliyə nail olmağın yolları və formalarının düzgün dərk edilməsində idi. Problem onda idi ki, keyfiyyətcə yeni, sivilizasiyalı dəyərlərə, müstəqil dövlət inkişafına keçidin təkamül yolunu daha ağrı-acısız necə təmin etmək olar? Biz bu suala cavab verərkən nəzərə almalıyıq ki, cəmiyyətin təşkilinin yeni formalarına keçid onun daxili tələbatıdır, tarixi inkişafın obyektiv gedişidir. Bu keçidi necə gerçəkləşdirmək məsələsini qarşıya qoyan ictimai vəzifə isə prosesin subyektiv tərəfidir.

Tale Azərbaycanı heç zaman əzizləməmişdir. Parçalanmış, iztirablara düçar edilmiş Azərbaycan diz çökməmək, özünəməxsusluğunu və öz tarixi qədir-qiymətini qoruyub saxlamaq üçün hər dəfə özündə güc-qüvvə tapmışdır. Bu gün Azərbaycan ciddi sınaq qarşısındadır. Xarici hücumlar və daxili qarşıdurma dalğası artmaqdadır. Yaratmaqdan daha çox dağıtmağı bacaran bəzi siyasətçilərin ambisiyaları insanların diqqətini, cəmiyyətin fiziki, mənəvi və intellektual gücünü gündəlik problemlərdən yayındırır. Lakin nə qədər çətin olsa da, Azərbaycanın tarixi inkişafının özünün irəli sürdüyü dövlətçilik vəzifələri dərindən təhlil edilməli və həll olunmalıdır.

Müstəqil Azərbaycanın, onun dövlətçiliyinin gələcəyi məsələsi özündə iki problemi birləşdirir – bunlar bir-birindən asılı olmasa da, qarşılıqlı surətdə bağlıdır.

Hər şeydən əvvəl, dünyanın inkişafının ümumi meyillərini, ümumbəşəri sivilizasiyanın hansı istiqamətdə irəlilədiyini, sivilizasiyalı xalqların dövlətçiliyin hansı formasına üstünlük

verdiklərini görməyi bacarmaq vacibdir. Bu bir aksiomdur ki, dünya şəxsiyyətin dövlət və millət üzərində prioritetə malik olduğu **rasional cəmiyyətə** doğru gedir. Cəmiyyət ümumbəşəri tərəqqinin əsl mahiyyətini dərk etməsə, regional, irqi və digər xurafatların təsiri altına düşsə, yaradıcı şəxsiyyətlər öz bacarıqlarını yetərincə tətbiq edə bilməsələr, onda o, tarixin gedişindən kənarda qala bilər.

Rasional cəmiyyət ideyası bütün Yer kürəsində insanların şüuruna tədricən hakim kəsilir ki, bu da müasir evolyusionizm barədə elmi baxışlara cavab verir. Sivilizasiyalı ölkələrdə gedən proseslər belə bir faktı təsdiqləyir ki**, liberal, sosialyönümlü iqtisadiyyatı və dünya əmək bölgüsü sistemi olan açıq vətəndaş cəmiyyəti sivilizasiyanın inkişafının zəruri mərhələsinə çevrilir.**

Rasional cəmiyyətə doğru öz yolunu axtarmaq, Azərbaycan xalqının ümumdünya prosesinə qovuşmaq imkanları problemin ikinci tərəfidir. Aydındır ki, demokratik ənənələrin olmadığı şəraitdə bu yolu tapmaq dünyanın inkişafının fəlsəfi əsaslarını formalaşdırmaqdan qat-qat çətindir. Bu yeni cəmiyyət xalqın tarixi və mədəniyyətinin xüsusiyyətlərini, ənənələrini və xarakterini nəzərə almalıdır. Belə tarixi dönüş yaratmaq üçün millətin **enerji potensialını** işə salmaq lazımdır. O, işə salınmasa, açıq vətəndaş cəmiyyəti və müstəqil dövlət inkişafı barədə bütün söhbətlər ancaq xoş niyyət olaraq qalacaqdır.

Vətəndaş cəmiyyətinin yaradılması insanın daxilən azad olduğu, şəxsiyyətə, öz tarixinə, mədəniyyətinə, xalqına hörmət bəslənildiyi hüquqi dövlətdə, digər xalqların tarix və mədəniyyətinə qiymət və hörmət qoyulduğu ölkədə mümkündür. Dövlətimiz çoxmillətlidir. Bu, bizim çox böyük potensialı-

mızdır, millətin həyat enerjisini qidalandıran mənbədir. Ona görə də öz fərdiliyini, mədəniyyətini, dilini, dinini qoruyub saxlamaq istəyənlərə tam rəğbətlə və hörmətlə yanaşmaq, onların mənəviyyatının dirçəlməsinə kömək etmək lazımdır.

**Həyatın keyfiyyəti** xeyli yüksəldilməli, millətin, hər bir insanın yaşayış mühiti – maddi, mənəvi və təbii mühiti yaxşılaşdırılmalıdır. Açıq cəmiyyət, vətəndaş cəmiyyəti direktivlərlə və ya fərmanlarla bərqərar edilmir, bu, bazar münasibətləri yaradılması ilə də başa çatmır.

Rasional cəmiyyət standartlar sistemi deyildir. Hər bir ölkədə onun öz xüsusiyyətləri və çalarları var (və olmalıdır!). Sənaye inqilabının və texnoloji inqilabın üç mərkəzi olan ABŞ, Avropa və Yaponiyanı götürək. Dünyanın bu regionlarında baş verənlərin hamısı bir-birini əsla təkrarlamır, əksinə, hərəsinin öz spesifik, yalnız onlara xas olan xarakterik xüsusiyyətləri vardır.

Biz də Azərbaycanda rasional cəmiyyət yaradarkən öz spesifik tarixi, mənəvi-əxlaqi, siyasi inkişafımızı, təbii-coğrafi mövqeyimizi əsas tutmalıyıq. Daxilən hələ də tam sərbəstləşməyən xalqın yaradıcılıq enerjisi bu cəmiyyətdə öz əksini tapmalıdır.

**Açıq vətəndaş cəmiyyəti**, milli dövlətçilik ideyası ətrafında millətin sıx birləşməsinə, insanların ağıllı islahatçılıq, milli həmrəylik ətrafında birləşməsi barədə baxışlar sistemi yaradılması ziyalılarımızın ən mühüm vəzifəsidir. Nə qədər çətin olsa da, bu iş görülməlidir.

Gərək azad və müstəqil yaşamağa doğru yol açarkən milləti hakimiyyətsizlik, vəhşi bazar və elliklə yoxsulluq mühitinə düçar etməyəsən. Son dörd ildən artıq bir müddətdə Azərbaycanda gedən proseslər çoxdankı belə bir həqiqəti təsdiqləyir ki, bəzən alternativlərə məhəl qoymayaraq, real surətdə baş verənlərdə labüd bir şey

görmək istədikdə, tarix həmişə sürprizlər hazırlayır. İndi qarşılaşdığımız siyasi, iqtisadi və sosial çətinliklər bu nihilist əhval-ruhiyyəyə kömək edir. Lakin gəlin soruşaq: onlar təsadüfidirmi? Zənnimcə, yox.

Belə düşünmək sadəlövhlük olardı ki, dövlət müstəqilliyini əldə etdiyimizin, az qala, ertəsi günü biz milli ideyalarımız və arzu-istəklərimizlə vəhdət təşkil edən cəmiyyət yaratmalıyıq. Biz istəsək də, istəməsək də, sosial sarsıntılardan qaça bilməyəcəyik. Azadlıq, demokratiya və bazar iqtisadiyyatı yolu seçmiş heç bir dövlət bu sarsıntılardan yan keçməyə müvəffəq olmamışdır.

**Bu yeni tarixi dönəmin bütün faciəsi bundadır ki, o, Ermənistan tərəfindən təcavüzün ağırlaşdırdığı çətin vəziyyətimizlə üst-üstə düşmüşdür. Proseslərin mürəkkəb xarakteri dövlət özünüidarəçiliyinin lazımi təcrübə və ənənələrinin olmaması ilə də bağlıdır ki, bu da ictimai təsisatların bütün sistemini yenidən qurmağı çətinləşdirir. Onu da nəzərə almaq lazımdır ki, siyasi hərəkatlar öz inkişafının ən yüksək pilləsini keçmişlər, siyasi partiyalar isə hələ rüşeym halındadır.**

Deməli, sabit, güclü hakimiyyət formalaşdırmasaq, müstəqil dövlət yaratmaq barədə bütün arzularımız havadan asılı qalacaqdır. Yalnız güclü hakimiyyətin olduğu təqdirdə şəxsiyyətin hüquqlarından, vətəndaş cəmiyyətindən, onun demokratik quruluşundan danışa bilərik. Müstəqil yaşamağımızın ötən ayları sübut edir ki, qanunlar nə qədər yaxşı olsa da, dəqiq fəaliyyət göstərən və onları həyata keçirən hakimiyyət strukturları yoxdursa, bu qanunlar kağız üzərində qalacaqdır. Cəmiyyət hakimiyyətə hamilədir, amma onu heç cür dünyaya gətirə bilmir. Bu isə uşağın gələcəyi üçün də, onu yetirən cəmiyyət üçün də təhlükəlidir.

Söhbət əsla diktaturadan getmir. Lakin konstitusiya əsasında qurulmuş legitim, nüfuzlu, güclü dövlət hakimiyyəti olmadan

cəmiyyətin sabit inkişafını təmin etmək mümkün deyildir. Onu da nəzərə almaq lazımdır ki, bütün inkişaf etmiş və uğurla inkişaf edən ölkələrə xas olan ümumi meyillər ayrıca götürülmüş bir ölkədə də mütləq müşahidə olunmalıdır. Çünki xalqların yaşadıqları şərait nə qədər müxtəlif olsa da, hakimiyyətin təşkili və bölgüsünün bir sıra prinsipləri universal xarakter daşıyır.

Bugünkü Azərbaycanın xüsusiyyətlərindən danışmalı olsaq, deyə bilərik ki, bizim bu çətin şəraitimizdə cəmiyyətdə birləşdirici funksiyanı, məsələn, koalisiyalı hökumətdən başqa, Dövlət Məşvərət Şurası – qeydiyyatdan keçmiş partiya və hərəkatların liderlərindən, həmkarlar ittifaqlarının nümayəndələrindən, elm və mədəniyyət xadimlərindən, iri müəssisələrin rəhbərlərindən, işgüzar adamlardan ibarət qurum da yerinə yetirərdi. Bu Şura məşvərətçi orqan rolunu oynaya bilər, respublikanın daxili və xarici siyasətinin, sosial-iqtisadi həyatının aktual məsələlərinə dair onun tövsiyələri ölkə Prezidentinin, hökumətin və respublika parlamentinin müzakirəsinə çıxarılardı. Azərbaycan milli həmrəylik və vətəndaş sülhü təsisatı yaratmalı, onun öz milli-dövlət hakimiyyət rəmzi olmalıdır. Elə bir rəmz ki, o, partiyaların və siyasi qüvvələrin mübarizəsindən üstün tutulardı və onun başlıca təyinatı milləti birləşdirməkdən, onun ənənələrini və mentalitetini qorumaqdan ibarət olardı.

**Partiyalara olan indiki nihilist münasibətimizə baxmayaraq, etiraf etməliyik: cəmiyyətin mühüm elementi olan partiyalarsız, partiya dəstəyi olmadan heç bir dövlət hakimiyyəti öz funksiyalarını yerinə yetirməyə qadir deyildir.** Milli dövlətçiliyin ümumi ideologiyasının fraksiyası kimi, partiyalardan hər biri dövlət müstəqilliyinə, millətin sosial-iqtisadi

inkişafına nail olmağa, dünya birliyində xalqın layiqli yerini təmin etməyə dair öz proqramını hazırlamalı olacaqdır.

Həqiqi milli mənafeləri ifadə edən, lakin məqsədə doğru müxtəlif yollarla gedən siyasi partiyaların mövcudluğu onlara xalqın iqtisadi və mənəvi dirçəlişi ideyası ətrafında insanların birləşməsi, çiçəklənən sivilizasiyalı dövlət qurulması işində əməkdaşlıq etməyə imkan verəcəkdir. Azərbaycanda hakimiyyət böhranının başlıca səbəblərindən biri məhz partiya dayağının olmaması idi. Həyatın özü, cəmiyyətin sabitliyə olan tələbatı siyasi sistemdə fundamental dəyişikliklər aparmağı, ictimai quruluşun və dövlət quruluşunun yeni modelini yaratmağı tələb edir.

Müxalifət hesab edir ki, ən əsası hakimiyyəti ələ keçirməkdir. Hakimiyyət "qala"ları alındıqda isə məlum olur ki, demə, əsas işlər sonra başlayırmış... Bütün siyasi hərəkatların səciyyəvi çatışmazlığı məhz ondadır ki, əgər iqtisadiyyatda, əhalinin sosial müdafiəsi sahəsində əsaslı surətdə bir iş görmək mümkün olmayanda, bu hərəkatların radikal fraksiyaları ön sıraya çıxır və onlar təqsirkarları ayrı-ayrı adamlar, əsasən də, öz opponentləri arasında axtarıb tapmağa hazırdırlar. Bütün bunlar hakimiyyəti əldə saxlamaq uğrunda açıq mübarizəni bir növ pərdələməkdir.

Şərqi Avropa ölkələrinin dərsləri göstərir ki, geniş demokratik hərəkatlar totalitar rejimi dağıtdıqdan sonra, ÇSFR-də "Vətəndaş forumu" ilə əlaqədar olduğu kimi, ictimai-siyasi birləşmələrə çevrilməli, yaxud da öz yerini həqiqi demokratiyanın məqsəd və vəzifələrini əks etdirən dəqiq nizamnaməyə və sosial fəaliyyət proqramına malik siyasi partiyalara verməlidirlər. Məsələ ondadır ki, bu kütləvi siyasi hərəkatlar mübarizənin müxtəlif formalarına və müxtəlif maraqlara meyil göstərən cürbəcür siyasi cərəyanları özlərində birləşdirirlər.

Məhz buna görə də əsas siyasi rəqib devrildikdən sonra hərəkatların özlərinin daxilində çəkişmələr başlayır.

Dövlət strukturlarının və yeni partiyaların birinci dərəcəli vəzifəsi **plüralizmin, siyasi əməkdaşlığın əsaslarını** yaratmaqdır. Tərəfdaşlıq sistemi, seçkili orqanlar da daxil olmaqla, maraqların mütəşəkkil təmsilçiliyinin, – o cümlədən seçkili orqanlarda, – original formalarının müəyyənləşdirilməsini, ictimai təsisatların və dəyər oriyentasiyalarının yaradılmasını tələb edir. Bir sözlə, söhbət elə elementlər toplusundan gedir ki, hər bir vətəndaş cəmiyyəti və ümummilli həmrəyliyin üstün yer tutduğu hüquqi dövlət məhz onlardan təşəkkül tapır.

Partiyaların siyasi qüvvə kimi formalaşa bilməməsinin obyektiv səbəbləri var. Bu, cəmiyyətin sosial struktrunun təşəkkülü üçün şərait yaradan, demokratik yönümlü yeni partiyaların dayağı olan bazar-təsərrüfat münasibətlərinin vəziyyətindən xeyli dərəcədə asılıdır. Deyilənlərin düzgünlüyünü o da təsdiqləyir ki, respublikada hələlik heç bir partiya öz konsepsiyası, ictimai və dövlət quruluşu proqramı ilə kütləvi hərəkatları, əhalinin geniş təbəqələrini maraqlandıra bilməmişdir. Məsələ ondadır ki, fəhlələr, kəndlilər, ziyalılar, sahibkarların yaranmaqda olan yeni təbəqəsi, cəmiyyətin digər sosial təbəqələri çaşbaş qalmışdır və onların böyük əksəriyyəti gözləmə mövqeyi tutmuşdur. İnsanların digər xeyli hissəsi isə səmərəsiz mübarizədən, sadəcə, yorulub, öz siyasi “pərəstişgah”larına daha inanmır, ona görə də öz gündəlik dərd-sərləri ilə məşğuldur. Belə görünür ki, onları siyasi süstlük vəziyyətindən yeni partiyalar çıxarmalıdır. Amma bu partiyaların özlərinin kifayət qədər enerjisi və təcrübəsi yoxdur. Onlar ictimai ovqatı yaradıcı məcraya və digər dövlət strukturları kimi, tamamilə iflic vəziyyətinə düşən humanitar-ideoloji orqanlara yönəltməyə qadir deyildir.

Buna görə də indi insanlar öz sosial ümidlərini yeni partiyalara deyil, şəxsiyyətlərə, xalqın mənəvi-əxlaqi dirçəlişinə, respublikanın ümumi böhrandan çıxarılmasına görə məsuliyyəti öz üzərinə götürənlərə bağlayırlar. İndi bu ümidlər nə qədər xəyali görünsə də, insanlar məhz belə siyasətçilərin arxasınca gedirlər. Hadisələrin bu cür inkişafında təhlükəli nəticələr də var, hərçənd, müvəqqəti uğurun mümkünlüyünü də istisna etmək olmaz. Bu uğur onunla bağlı olacaq ki, əhalinin demokratik təbəqələri tərəfindən dəstəklənən və şəxsi nüfuzuna güvənən "güclü prezident" cəmiyyəti demokratikləşdirmək prosesini, iqtisadi və sosial islahatlar aparılmasını sürətləndirəcək, partiyaların və siyasi hərəkatların quruculuq fəaliyyəti üçün şərait yaradacaqdır. Əlbəttə, bütün bunlar Azərbaycanın həyati mənafelərinə uyğun olardı, ona Avropa demokratik sivilizasiyasının standartlarına yaxınlaşmağa imkan verərdi. Lakin, hər halda, "qəhrəman şəxsiyyət"ə deyil, ictimai idarəçiliyin etibarlı hüquqi və demokratik mexanizminin yaradılmasına ümid bəsləmək lazımdır.

## II

**Azərbaycan tarixinin yeni mərhələsi başlayır. Odur ki, heç olmasa, bir balaca irəliyə baxmağa güclü tələbat yaranır. Bu, özünümühafizə instinktinin çağırışıdır, naməlumluq qarşısında ictimai həyəcanın ifadəsidir. Proqnoz nə qədər dəqiq olarsa, xalqı milli müstəqilliyə və dövlət müstəqilliyinə, tərəqqiyə doğru aparan yol bir o qədər düz və asan olacaqdır.**

Baş verən siyasi hadisələrin bütün mürəkkəbliyinə baxmayaraq, iqtisadi inkişafımızı dərindən anlamağın, müstəqil varlığımızı və inkişafımızı təmin edən iqtisadi orqanizm yaratmağın zəruriliyi başlıca məsələ olaraq qalır.

Təəssüf, elə vəziyyət yaranır ki, beynəlxalq əmək bölgüsü prinsipindən istifadənin məqsədəuyğunluğuna rəğmən, biz çox istehsalatlar təşkil etməli, əvvəllər ehtiyac duyulmayan çox silsilələr yaratmalı, yeni tərəfdaşlıq əlaqələri qurmalı olacağıq. Texnika və texnologiyaları təzələmək, köhnə zavodların istehsal yönümünü dəyişmək üçün çox böyük məbləğdə kapital qoyuluşları lazım gələcəkdir.

Burada çoxvariantlı qərarlar, alternativ layihələr nəinki ola bilər, həm də zəruridir. Həm də onların hamısı demokratik qaydada, səriştəli şəkildə müzakirə və qəbul olunmalı, ən müasir elmi metodikalar tətbiq edilməlidir.

Dövlətin həyatında çox məsələlərin bir nəfərin fəhmi, istedadı və iradi keyfiyyətləri ilə müəyyən edildiyi vaxtlar artıq arxada qalmışdır. Bütün bu keyfiyyətlərin vacibliyi ilə yanaşı, indi dövləti idarə etmək üçün istedadlı siyasətçilər, öz işinin peşəkarı olan adamlar qrupunun kollektiv zəkası gərəkdir. Fasiləsiz analitik fəaliyyət və ekspert fəaliyyəti, informasiyanın toplanması və sistemləşdirilməsinin dövlət hakimiyyətini təcəssüm etdirən şəxslərdən asılı olmayan sistemləri lazımdır.

Bəs, bizdə kollegial surətdə, bir "komanda" halında işləmək üçün obyektiv zəmin və buna subyektiv hazırlıq varmı, liderin inandığı baza dəyərləri cəmiyyətin ümdə mənafeləri ilə uyğun gəlirmi? Təəssüf ki, yox. Mütəllibovun öz rejimini bərpa etmək cəhdi bunu bir daha sübuta yetirdi.

Ümumi böhrandan, əməkçilərin acınacaqlı vəziyyətindən öz mənafeyi naminə istifadə edən sabiq prezident bir qrup tərəfdaşı ilə birlikdə özünün Konstitusiyaya zidd əməllərinə legitim xarakter verməyə, özünü demokratiyanın və dövlət müstəqilliyinin müdafiəçisi kimi göstərməyə çalışırdı. Lakin

hakimiyyətə qayıdışa hazırlığın və qayıdışın özünün bütün ssenarisi, mayın 14-də respublika Ali Sovetinin sessiyasında Mütəllibovun nitqinin məzmunu, onun ilk fərmanları baş tutmayan bu siyasi hoqqabazlığın daxili və xarici müəlliflərinin əsl niyyətlərini son dərəcə yaxşı əks etdirir.

Hətta yurisprudensiyamızın ən yaxşı hissəsini təmsil edənlərin, elə həmin günün axşamı respublika televiziyası ilə göstərildiyi kimi, bu hərəkətlərə haqq qazandırmaq cəhdləri də bizi çaşdırmamalıdır. Azadlıq, müstəqillik və demokratiya mücahidlərinin birləşmiş qüvvələrinin başçılıq etdiyi xalqın separatçılara və siyasi avantüristlərə qarşı ayağa qalxdığı gündə – mayın 15-də baş verən hadisələr milli maraqları qulaqardına vuraraq, öz mənfəətləri naminə hakimiyyətdən yapışıb qalanlara az ümid yeri qoyur.

Hər halda, qələbədən arxayınlaşmaq olmaz. Demokratik qüvvələrin 15 mayda nail olduqlarının hamısı sosial tərəqqi yolunda yalnız ilk addımlardır.

Dövlət müstəqilliyinə və cəmiyyətin demokratikləşdirilməsinə nail olmaq prosesi ləngiməyə dözmür. Hüquqi dövləti və vətəndaş cəmiyyətini formalaşdırmağı təmin edən qanunların hazırlanması və həyata keçirilməsini gecikdirmək olmaz. Demokratiyanın adekvat həyat fəaliyyəti sistemi olmalıdır və buraya kadrların varisliyi, yeni formasiyalı rəhbərlərin və əvvəlki kadr elitasının ahəngdar qarşılıqlı əlaqəsi də, cəmiyyəti siyasətçilərin ambisiyaları və volyuntarizmindən, tarixi seçimin qeyri-müəyyənliyindən qoruyan təsirli mexanizm də daxildir. Fəal qanunvericilik yaradıcılığı və Konstitusiya əsasında qurulan real daxili və xarici siyasət olmasa, onda çox ola bilər ki, bir müddətdən sonra biz yenidən siyasi və iqtisadi böhranın kəskinləşməsi ilə üzləşəcəyik.

Belə qorxunun olmasına əsas verən bir də odur ki, indiyədək Qarabağ münaqişəsinin həllinə dair konsepsiyamız yoxdur. Demək lazımdır ki, bu amil hakimiyyətdə olanlar üçün ciddi sınağa çevrilir.

Bu vəzifənin həllində başlıcası çoxsaylı yollar içərisində lazım olanını tapmaqdır. Bu gün bir məsələ artıq məlumdur: Qarabağın dağlıq hissəsində və Ermənistanla həmsərhəd rayonlarda problemin həllinə əvvəlki yanaşmaların səhvləri ondan ibarət idi ki, bu problemə regional münaqişə kimi, Azərbaycanla Ermənistan arasında başlanmış, müəyyən səbəblərə görə genişlənərək, elan edilməmiş müharibəyə çevrilən ancaq ərazi mübahisəsi kimi baxılırdı. Məhz buna görə həmin məsələnin həllinə dair bütün mülahizələr iki əlamətə əsaslanır: birincisi – hərbi üstünlüyün olması; ikincisi – siyasi, ikitərəfli danışıqlar yolu.

Problemə belə yanaşılması onu bəsitləşdirir. Zənnimcə, siyasətçilərimiz və politoloqlarımız münaqişəyə başqa konseptual mövqelərdən yanaşmalıdırlar. Münaqişənin mahiyyətinə dərindən varmaq, Ermənistanın təcavüzkar niyyətlərini dünyada geosiyasi qüvvələrin nisbəti prizmasından nəzərdən keçirmək lazımdır. Bu münaqişə barədə kütləvi informasiya vasitələrində, müxtəlif tribunalardan deyilənlərin hamısı ancaq üzdə olanlardır, emosional qavrayışdan keçən faktların kombinasiyasıdır. Ona görə də bu gün **tarixin dönüş məqamını** vaxtında duymaq çox vacibdir. Sabiq liderlərimiz bunu bacarmadılar. Real prosesləri anlamağa onların siyasi ambisiyaları da, şüurlarının mərkəzin siyasətindən itaətkarcasına asılılığı da eyni dərəcədə mane olurdu. Bundan əlavə, köhnə formasiyanın liderləri həyatın reallığını, idarə etmək üçün göndərildikləri milli regionların xüsusiyyətini bilərəkdən qulaq-

ardına vururdu, yeni liderlər isə bunları hələlik dərk edə bilmirdilər. Ona görə də dövlət işlərinə dövləti münasibət təkcə oyunun yeni qaydalarını deyil, həm də "köhnə peşəkarlar"ın hakimiyyət strukturlarındakı əməli iş təcrübəsini bilməyi tələb edir.

**Reallıq isə belədir: bizim Qafqaz regionu XX əsrin sonlarında dünya tarixinin mərkəzi nöqtələrindən birinə çevrilmişdir. Yer kürəsinin bir sıra nöqtələrində olduğu kimi, buradan da dünyada qüvvələrin tarazlığının, sivilizasiya hüdudlarının tarixi xətti keçir. Onların əhəmiyyəti hələlik köhnə stereotiplərlə qiymətləndirilir. Məsələn, Qərb Ermənistana Avropa dəyərlərinin daşıyıcısı kimi, xristian sivilizasiyasının forpostu kimi baxır (belə deyilsə, bəs, onda niyə Qərb ölkələrindən, Baltikyanı ölkələrdən olan muzdlular yuxarı Qarabağda Ermənistanın tərəfində vuruşurlar?), Şərqin nöqteyi-nəzərincə isə, Azərbaycan İslam sivilizasiyası sahəsinə daxildir. Nəticədə (siyasətbazlıq olmasın) Azərbaycan da, Ermənistan da Şərq və ya Qərb sivilizasiyasının qorunub saxlanması naminə uydurulmuş "tarix"ə qurban verilir.**

Deməli, əgər Azərbaycanla Ermənistan arasında münaqişəni həmin bu mövqelərdən nəzərdən keçirsək, onda görərik ki, Qarabağ elə bir mürəkkəb düyündür ki, onun ucları dünyanın iki qüvvəsinin əllərindədir. Belə bir vəziyyətdə ancaq hərbi qüvvəyə və ya hər hansı üçüncü tərəfin açıq müdaxiləsinə bel bağlamaq qlobal müharibə törətmək demək olardı ki, o da bütün dünya üçün qaçılmaz nəticələrə gətirib çıxara bilər.

Münaqişəni və onun həlli yollarını üç aspektdən – **daxili, regional və qlobal** aspektlərdən nəzərdən keçirmək daha məqsədəuyğun görünür.

**Daxili aspekt** dedikdə, respublikanın sosial-siyasi, ictimai-mənəvi həyatının vəziyyəti başa düşülür. Bildiyimiz kimi, bu

vəziyyət insanları, iqtisadi, siyasi, intellektual və s. imkanları Azərbaycan sərhədlərinin müdafiəsi üçün səfərbər etməyə hələlik imkan vermir. Gələcəkdə çox şey əhalinin intellektual təbəqəsinin, xalqın siyasiləşdirilmiş hissəsinin cəmiyyətdəki real proseslərə nüfuz etmək və “daxil olmaq” bacarığından, liderlərimizin keyfiyyətlərindən, siyasi hərəkatların və partiyaların mövqelərindən asılı olacaqdır.

Əlbəttə, müasir mobil ordu yaradılması da həmin amillər sırasında ən mühümlərindən biridir. Ermənistanla hərbi paritet mütləq əldə olunmalıdır. Bu, ilk növbədə, zəbt olunmuş torpaqları qaytarmaq, ermənilərin yuxarı Qarabağda, azərbaycanlıların Ermənistanda əzəli yaşayış yerlərində statusu məsələsini həll etmək üçün gərəkdir. Paritet olarsa, konsensus və sülh də olar, olmasa, onda biz daim qonşularımızın iddiaları, fitnəkarlıqları, o cümlədən də hərbi fitnəkarlıqları ilə üzləşəcəyik.

**Regional aspektin** mahiyyəti ondan irəli gəlir ki, Qafqaz xalqlarının öz milli və dövlət müstəqilliyinə qovuşduğu şəraitdə bu regionun istisnasız bütün xalqlarının milli mənafelərinə cavab verən dövlətlərarası siyasətin formalaşması üçün real zəmin yaranır. Bu xalqların hamısı öz aralarında ərazinin, tarixin ümumiliyi, adət və ənənələrin bir çox elementləri, mədəniyyətin fəal qarşılıqlı təsiri ilə bağlıdır, biz hələ çoxəsrlik təsərrüfat-iqtisadi münasibətləri, qohumluq, ailə əlaqələrini və digər cəhətləri demirik.

Bu, həmin ümumi güclü bünövrədir ki, bir-birindən uzaqlaşmağa, öz aralarında düşmənçilik etməyə deyil, əksinə, iqtisadi, siyasi və mənəvi tərəqqi üçün səyləri birləşdirməyə imkan verir. Belə birliyin modeli **ümumqafqaz birliyi** ola bilərdi. Qafqaz xalqları milli və dövlət müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlayaraq, bütün mübahisəli məsələlərin

dincliklə həllini, qarşılıqlı surətdə faydalı təsərrüfat-iqtisadi və ticarət əməkdaşlığını təmin edəcək, mədəniyyət sahəsində qarşılıqlı münasibətlərə təkan verəcək mexanizm hazırlaya bilərdilər. Ümumqafqaz birliyi haqqında müqavilənin müddəaları onun subyektlərinin xarici iqtisadi və xarici siyasi fəaliyyət müstəqilliyini qətiyyən məhdudlaşdırmamalıdır.

"Ümumi Qafqaz evi" yaradılması onun bütün iştirakçılarının xeyrinə olar. O, sülh və dostluq evi, iqtisadi firavanlıq və sosial həmrəylik regionu ola bilər. Onun yaradılması o demək deyil ki, millətin mənafelərinə məhəl qoyulmayacaqdır. Əksinə, bu xalqlar inkişaf və qarşılıqlı zənginləşmə üçün yeni təkan alacaqlar. Qafqaz xalqlarının "ümumi evi" ideyasında Azərbaycan ilə Ermənistan, Gürcüstan ilə Cənubi Osetiya və Abxaziya, İnquşetiya ilə Şimali Osetiya arasında münaqişələrdən, habelə gələcəkdə mümkün yeni böhranlardan çıxışın real yollarından biri vardır.

Nəhayət, Azərbaycanın beynəlxalq aləmə fəal çıxışı, dinamik xarici siyasət fəaliyyəti ilə bağlı olan **üçüncü** aspekt. Gənc Azərbaycan diplomatiyası xarici siyasət konsepsiyasını həyata keçirərkən, Qarabağ məsələsində bizim mövqelərimizi beynəlxalq təşkilatların tribunalarından dünya ictimaiyyətinə izah edərkən yadda saxlamalıdır ki, respublikanın məruz qaldığı böhran halları, bir çox onilliklər ərzində xarici aləmdən təcrid olunmağımız, əsasən, güclü erməni diasporunun məkrli niyyətləri sayəsində formalaşmış milli imicimiz qarşımıza çətin vəzifələr qoyur.

Biz öz inkişaf yolumuzun konsepsiyasını müəyyən edərkən belə bir reallığı mütləq əsas tutmalıyıq ki, dünya birliyi Azərbaycanın milli müstəqilliyinin və dövlət dirçəlişi prosesinin nə kimi dəyərlərlə dolğunlaşacağına əsla biganə deyildir. Başqa sözlə, biz ölkəmizdə ictimai-dövlət quruluşunun hansı modelini

yaratmaq niyyətindəyik, xarici siyasətin səmtləri və prioritetləri hansılardır. Sivilizasiyalı dünya bu əsas mövqelərə bizim aydın münasibətimizi gözləyir. Beynəlxalq təşkilatların, o cümlədən BMT-nin, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin və digərlərinin bizə münasibətləri məhz bununla müəyyən ediləcəkdir. Bir sözlə, böhrandan çıxış yolu respublikanın dünya sisteminə daha da inteqrasiya etməsindədir.

Əgər indi siyasi opponentlər arasında həmrəylik varsa da, bu, Azərbaycanın mənəvi-milli və dövlət dirçəlişini başlıca siyasi vəzifəyə çevirməsi ilə, dövlət müstəqilliyi əldə etməyimizlə bağlıdır. Bu müddəa bütün partiya və hərəkatların proqramlarında bəyan edilir. Lakin bu başlıca siyasi məqsədi gerçəkləşdirməyə cəhd göstərildikdə, siyasətçilər arasında konsensus yox olur, fikir ayrılıqları başlanır və onlar artaraq qarşıdurmaya gətirib çıxarır. Bu, dövlət müstəqilliyinə nail olmaq yollarını müəyyən etmək, Azərbaycanın xarici siyasət konsepsiyasını hazırlamaq məsələlərində özünü daha qabarıq şəkildə göstərir.

1992-ci ilin 14 may hadisələri göstərir ki, cəmiyyətdə müəyyən dairələr, köhnə nomenklaturanın bəzi nümayəndələri Azərbaycanın taleyini, əvvəlkitək yenə də, Rusiya ilə bağlayır və bu zaman unudurlar ki, dövlətlərin birtərəfli istiqamət götürməsinin onlar üçün həmişə mənfi nəticələri olur. Bununla yanaşı, onlar islam dövləti olan İrana və dünyəvi dövlət olan Türkiyəyə şübhə ilə yanaşırlar. Cənub qonşularımızın dövlət xadimlərinə yarınan Azərbaycanın sabiq rəhbərləri bu gün dünyada qüvvələr nisbətindəki keyfiyyət dəyişikliklərini nəzərə alan xarici siyasət konsepsiyasını formalaşdırmaq üçün, habelə millətin sosial-siyasi ovqatında köklü dəyişikliklər etmək üçün çox az iş görmüşlər.

Yeni siyasi hakimiyyət eşelonu ideoloji ehkamlardan azad olmalı, demokratiyanı və sahibkarlığı Azərbaycan dövlətçiliyini dirçəltməyin ən mühüm prinsipləri kimi məqsədəuyğun saymalıdırlar. Dünya sisteminə qoşulmağımız Qərb demokratiyası dövlətləri üçün yalnız o halda çox cazibədar olar ki, onlar formalaşmaqda olan keyfiyyətcə yeni Azərbaycan cəmiyyətində bizim mentalitetimizə xas nadirlik görmüş olsunlar. Şübhəsiz, bizim elə bir modelimiz olmalıdır ki, onda **Şərq və Qərb sivilizasiyalarının prinsipləri bir-birinə ahəngdar şəkildə uyğun gəlsin.**

Deyə bilərik ki, Türkiyə öz milli dövlət və iqtisadi modelini tapmışdır. Biz bu modelin bütün detallarını götürüb tətbiq etməməliyik, öz normalarımız və dəyərlərimizlə dolğunlaşdırılmış modelimizi axtarıb tapmalıyıq. Əgər yeni cəmiyyət və hüquqi dövlət quruculuğunda bu xətt üstünlük təşkil edərsə, onda biz millətin taleyində tarixi dönüşün mütləq şahidləri olacağıq. Çünki həmin xətt xarici siyasətimiz üçün məhz elə bir müstəqil zəmin yaradacaq ki, bu, əsas ideoloji maneə və məhdudiyyətləri dəf edərək, həm qonşu ölkələrlə, həm də ümumən dünya birliyinin dövlətləri ilə sivilizasiyalı, demokratik qarşılıqı münasibətlərə istiqamətlənəcəkdir.

Sivilizasiyaların qovuşuğunda yerləşən, dünya birliyində öz yerini möhkəmlətməyə dərindən maraqlı olan, Qərb və Şərq dövlətləri, özünün ən yaxın qonşuları Türkiyə və İran ilə əlaqələr yaradan və onları inkişaf etdirən, ABŞ və Avropa ilə prioritet münasibətləri olan Azərbaycan **MDB ölkələri ilə münasibətlərinin çoxsaylı tellərini heç bir halda qırmamalıdır.** Biz Rusiya ilə xüsusi münasibətlər qurmalıyıq. Rus xalqı azadlıqsevər Azərbaycan xalqının quruculuq amalla-

rına, səmimi dostluq, mehriban qonşuluq və əməkdaşlıq hisslərinə qətiyyən şübhə etməməlidir.

Hökumət müvəqqəti kateqoriyadır, xalq isə əbədidir. Biz bu həqiqəti unutsaq, tarixi səhv buraxmış olarıq. Eləcə də örnək olan bu həqiqəti unutmamalıyıq: tarazlı xarici siyasət müstəqilliyin və milli dövlətçiliyin dayaqlarından biridir.

Biz onilliklər ərzində sabitlik şəraitində yaşamışıq və bu, milli inkişaf və dövlət quruculuğu üçün seçilmiş yolun düzgünlüyü barədə müəyyən illüziyalar yaradırdı. Lakin indi hər şey qeyri-müəyyən hal almışdır. Son yetmiş ildə xalqa hakim kəsilmiş ideoloji və siyasi ehkamlar, sosial dəyərlər dağılır. Amma unutmamalıyıq ki, əvvəlki sabitlik millətin və dövlətin asılılığını möhkəmləndirirdi, indiki qeyri-müəyyənlik vəziyyəti isə müstəqilliyimiz və suverenliyimizin bahasıdır.

*“Bakinski raboçi” qəzeti,*
*19-20 iyun 1992-ci il.*

# AZƏRBAYCAN MİLLİ DÖVLƏT QURUCULUĞU YOLUNDA

*Ümumxalq nümayəndələrinin respublika toplantısında məruzə*

– Möhtərəm cənab Prezident!

Hörmətli toplantı iştirakçıları!

Artıq beş ildir ki, Azərbaycan xalqı milli müstəqillik qazanmışdır. Bu müddət ərzində dünyada qlobal siyasi proseslər getmiş, planetin siyasi mənzərəsi xeyli dəyişmişdir. Dünyadakı sonuncu imperiya – SSRİ süqut etmiş, zorla onun tərkibinə qatılmış milli etnik ərazilər, xalqlar tarixi və obyektiv zərurət olaraq öz müstəqilliyini qazanmışlar. Keçmiş ittifaq respublikalarının, eləcə də dünyanın həyatında yeni tarixi mərhələ başlanmışdır.

Azərbaycan da bu proseslərdən kənarda qalmamışdır. Lakin respublikamız indiki MDB ölkələri arasında daha çox əzab və məhrumiyyətlərlə, hərbi və siyasi təzyiqlərlə qarşılaşmışdır.

Azərbaycanın dövlət müstəqilliyinin əleyhinə olan düşmən dairələr regionda öz strateji maraqlarını təmin etmək, siyasi mövqelərini qoruyub saxlamaq üçün xalqın milli müstəqillik uğrunda mübarizə əzmini qırmaq, onu diz çökdürmək yolunu tutdular və bu yolda ən alçaq vasitələrdən belə çəkinmədilər. Azərbaycanın siyasi-iqtisadi blokadası, 1990-cı ilin qanlı yanvar

qırğını, Xocalı soyqırımı, bir milyondan artıq qaçqın-köçkünün yaranması, torpaqlarımızın 20 faizinin işğalı, nəhayət, dövlət çevrilişi cəhdləri və sair həmin əzablı yolun ayrı-ayrı mərhələləridir. Lakin xalqımız müstəsna səbir və dözüm göstərərək müstəqillik, suverenlik yolundan dönmədi.

Yaxın tarixi keçmiş Azərbaycanda dövlətçilik hissinin və milli mənlik şüurunun hələ 1970-ci illərin əvvəllərindən sürətlə inkişaf etdiyini göstərir. Xalqımızın böyük oğlu Heydər Əliyevin müdrik və uzaqgörən rəhbərliyi sayəsində Azərbaycan iqtisadi, ictimai-siyasi, mənəvi-mədəni həyatın bütün sahələrində böyük uğurlar qazanaraq, təkcə keçmiş SSRİ-də deyil, bütün dünyada tanınmağa başladı, sərt imperiya qadağalarına baxmayaraq, möhtərəm Heydər Əliyev o dövrdə müstəsna siyasi çeviklik və uzaqgörənlik nümayiş etdirdi, xalqımız və respublikamız üçün misilsiz işlər görə bildi. Çoxlarımız bu böyük uğurların hansı zəhmət və çətinliklər hesabına başa gəldiyinin canlı şahidiyik.

O illər Azərbaycanda ictimai-siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində, sözün həqiqi mənasında, quruculuq dövrü idi. Milli təəssübkeşlik hissi ilə zəngin bu quruculuq dövrü onun baş memarının – Heydər Əliyevin məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində mümkün olmuşdu.

Tarixi kökləri 1920-ci illərə gedib çıxan Qarabağ məsələsində də Heydər Əliyevin mövqeyi həmişə birmənalı və prinsipial olmuşdur. Onilliklər boyu ermənilər Azərbaycanın bu tarixi ərazisinin Ermənistana birləşdirilməsi üçün çalışmış, öz məqsədlərinə yetmək üçün dəfələrlə keçmiş ittifaq rəhbərliyi qarşısında məsələ qaldırmışdılar. Hələ 1960-cı illərin axırında onlar növbəti dəfə baş qaldıranda, o zaman dövlət təhlükəsizliyi

orqanında yüksək vəzifə tutan Heydər Əliyevin bu siyasi fitnəkarlığa qarşı qətiyyətli, sərt və barışmaz mövqeyi çoxlarının yadındadır. 1969-cu ildə Heydər Əliyevin respublikaya rəhbər seçilməsi ilə erməni təxribatlarına və təcavüzlərinə son qoyulmuş oldu. Onun xalqımızın milli-mənəvi köklərinə bağlılığı, tariximizə dərindən bələdliyi, siyasi sayıqlığı və milli mənafeyi hər şeydən uca tutması torpaqlarımıza susamış xain niyyətlərə, həyasız erməni iddialarına sipər çəkdi. Təsadüfi deyildi ki, 1969-82-ci illərdə nə respublika, nə də keçmiş ittifaq rəhbərliyi qarşısında bu məsələnin dilə gətirilməsinə cəsarət edilmədi. Son 70 ildə Heydər Əliyev yeganə rəhbərdir ki, onun vaxtında Azərbaycan bir qarış da olsun torpağını əldən verməmişdir.

Azərbaycana düşmən dairələr bütün bunları yaxşı bildiyinə görə, Qorbaçov "yenidənqurma"sı dövründə – 1987-ci ilin oktyabrında Heydər Əliyevi SSRİ rəhbərliyindən uzaqlaşdırmaqla respublikamıza və xalqımıza qarşı düşünülmüş təxribatlar planını həyata keçirməyə başladılar. Heydər Əliyevin ittifaq rəhbərliyindən uzaqlaşdırılması Qarabağı ilhaq və işğal siyasətinin ilk mərhələsi kimi planlaşdırılmışdı. Milli ləyaqət hissindən uzaq, kölə xislətli Moskva oyuncağı Ə.Vəzirov xalqımızın dahi oğluna qarşı çevrilmiş bu böhtan və iftira kampaniyasının təşkilatçısı və icraçılarından idi.

Cılız hisslərlə yaşayan, adi rəhbərlik keyfiyyətlərindən məhrum olan, siyasi cəhətdən korafəhm Ə.Vəzirov Azərbaycan xalqına, milli mentalitetə tamamilə yad idi. O, respublikanın ağır günündə xalqı torpaqlarımızın müdafiəsinə və erməni təcavüzünə qarşı mübarizəyə səfərbər etmək əvəzinə, onu parçalamaq xətti götürdü, yerliçiliyə və tayfabazlığa geniş meydan verdi. Ə.Vəzirovu respublikanın taleyindən çox, Moskvadakı ağalarının

göstərişlərini həyata keçirmək düşündürürdü. 1969-82-ci illərdə respublikada əldə olunmuş nailiyyətlərin üstündən qara xətt çəkmək, nəyin bahasına olursa-olsun, Heydər Əliyevi xalqın gözündən salmaq da məhz belə tapşırıqlardan idi. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1988-ci il avqust və dekabr plenumları da bu qərəzli məqsədlərə xidmət edirdi. Qeyd etmək yerinə düşər ki, o zaman plenum üzvlərindən bir nəfər də olsun, Ə.Vəzirovun düşmən dəyirmanına su tökən çıxışına etiraz etmədi. Halbuki onların hamısı 1969-82-ci illərdə respublikada gedən quruculuq prosesinin birbaşa iştirakçısı olmuş və böyük vəzifələr, fəxri adlar almışdılar. Təəssüflə deməliyəm ki, həmin adamların bir hissəsi prinsipsizlik və mənəviyyatsızlıq göstərərək, Vəzirovun başladığı bədnam kampaniyaya qoşuldu. Düşmənlər Heydər Əliyev fenomeninə yaxşı bələd idilər və 14 il ərzində onun əli ilə qurulmuş Azərbaycan evini bərbad etmək üçün, ilk növbədə, bu evin siyasi memarını sıradan çıxarmağı nəzərdə tuturdular. Bu şərəfsiz işdə xüsusi canfəşanlıq göstərən Ə.Vəzirov "qoz əkmək", "hamam tikmək" kimi gülünc vədlər ortaya ataraq, xalqın diqqətini taleyüklü proseslərdən yayındırırdı.

Güclü iqtisadi potensialın dağıdılmasından tutmuş, milli ləyaqət hissinin tapdalanmasına, düşmən qarşısında təslimçilik ruhunun aşılanmasına qədər hər cür çirkin vasitəyə Ə.Vəzirovun əli ilə rəvac verilirdi. Heydər Əliyev dövründə sənayedə, aqrar sektorda və mədəni quruculuqda qazanılmış böyük uğurlara kölgə salmaq məqsədi ilə Moskvadan respublikaya böyük bir "OBXSS" briqadası gətirildi. Lakin bu bədnam briqada axtardığı qondarma cinayət faktlarını tapa bilmədiyindən talançılıqla məşğul oldu. Günahsız adamlar təqib və həbs edildi. Azərbaycanda da xalqın milli mənlik və heysiyyətini tapdalayan "Özbəkistan işi" kimi gurultulu bir prosesə hazırlıq gedirdi.

Mərkəzdəki Azərbaycana düşmən qrupların və daxildəki satqınların əlində oyuncaq olan Vəzirovun hakimiyyəti dövründə azərbaycanlıların Qarabağdakı əzəli dədə-baba torpaqlarından köçürülməsi dövlət səviyyəsində həyata keçirildi, xalq hərəkatı içərisində təfriqə salındı. Nəticədə Azərbaycan öz tarixi ərazisi Qarabağa siyasi, iqtisadi nəzarəti tamamilə əldən verdi. Bunun ardınca, satqın Azərbaycan rəhbərliyi Moskva və Yerevandakı düşmən dairələrin dirijorluğu ilə növbəti tarixi cinayəti – 1990-cı ilin qanlı yanvar qırğınını həyata keçirdi. Bu milli qırğınla şərəfsiz missiyasını tamamlayan Ə.Vəzirov yerini həmin faciənin təşkilində və icrasında birbaşa əli olan A.Mütəllibova verərək, Moskvada sığınacaq tapdı və xalqın nifrətindən qaçaraq, öz ağalarının qoltuğuna sığınmaq kimi şərəfsiz bir ənənənin əsasını qoydu.

Günahsız qanlar bahasına hakimiyyətə gələn Ayaz Mütəllibov da sələfi Vəzirovun yolunu tutdu və Moskvanın milli mənafeyimizə zidd siyasətini can-başla davam etdirməyə başladı. O, yanvar qırğınından sonra imperiyanın Azərbaycanda qanlı cinayətinə qarşı kəskin etirazını bildirən, faciənin səbəb və məqsədlərini bütün dünyaya bəyan edən Heydər Əliyevin Azərbaycana qayıtmasına hər vasitə ilə mane olmağa çalışırdı. Lakin Heydər Əliyevi xalqdan və böyük siyasətdən təcrid etmək cəhdləri puça çıxdı. Ölkəmizin taleyinin hərraca qoyulduğu, xalqımızın fəlakətlərə sürükləndiyi bir vaxtda Heydər Əliyev kənarda qala bilməzdi. Erməni işğalının respublikamızın içərilərinə doğru yayıldığı bir vaxtda, Naxçıvan əhalisi siyasi yekdillik və uzaqgörənliklə Heydər Əliyevi Azərbaycan Respublikası Ali Sovetinə deputat və özünə rəhbər seçdi. Yalnız bundan sonra taleyin ümidinə buraxılmış Naxçıvan Qarabağı və

Azərbaycanın digər bölgələrini gözləyən acı aqibətdən, fəlakətlərdən qorunmuş oldu.

Heydər Əliyevin yenidən siyasətə qayıtması Azərbaycanı bir dövlət kimi dağıtmaq, xalqımızı kölə vəziyyətinə salmaq niyyətində olan daxili və xarici düşmən qüvvələri ciddi təşvişə salmışdı. Onlar bu məkrli niyyətlərinin həyata keçirilməsi yolunda Heydər Əliyevin yeganə maneə olduğunu bilirdilər və hər vasitə ilə ona qarşı çıxırdılar. Xalq isə aydın başa düşürdü ki, Heydər Əliyevə qarşı bədnam kampaniya, əslində, antiazərbaycan siyasətin tərkib hissəsidir. Mütəllibov rejimi Naxçıvanı tam blokada vəziyyətində saxlayır, Heydər Əliyevin əleyhinə hər cür yaramaz təbliğata rəvac verir, bu yolla onu Azərbaycanda gedən siyasi proseslərdən uzaqlaşdırmağa cəhd göstərirdi.

Vəzirovun başladığı antiazərbaycan siyasət Mütəllibov tərəfindən daha məqsədyönlü şəkildə davam etdirilirdi.

Hakimiyyət davası, cinayətkarlıq və terrorçuluq, qorxu və sabaha inamsızlıq, Qarabağın əliyalın azərbaycanlı əhalisinin silahlı Ermənistan ordusu qarşısında köməksizliyi, şəhər və kəndlərimizin yerlə-yeksan edilməsi, ordu quruculuğuna cinayətkarcasına biganə münasibət, ordunun taleyinin səriştəsiz, təsadüfi və satqın adamlara tapşırılması, korrupsiya və iqtisadi təxribatlar, milli strateji sərvətlərin talan olunması, tayfabazlıq və dövlət mafiyası – Mütəllibov rejiminin əsas cizgiləri bunlar idi. Bu başabəla "rəhbər" xalqın ağır günündə özünün silahlı qoçu dəstələrinin təşkili ilə məşğul olur, beləliklə də cəmiyyətdə vətəndaş qarşıdurmasına zəmin yaradırdı. Bədnam "Qardaşlıq" cəmiyyətinin timsalında A.Mütəllibov ayrı-ayrı adamlara qanunsuz silahlı dəstələr yaratmaq "nümunəsi" göstərirdi.

Məhz A.Mütəllibovun cinayətkar siyasəti və ölkədə tüğyan edən hakimiyyət ehtirasları nəticəsində əsrin Xocalı soyqırımı törədildi, onun yenidən hakimiyyətə qaytarılması xatirinə Şuşa kimi alınmaz qala düşmənə təslim edildi. Yuxarı və Aşağı Qarabağ Azərbaycandan qoparıldı. Yüz minlərlə soydaşımız öz yurdundan didərgin salındı. Azərbaycan evinin dağıdılmasının ikinci mərhələsi də beləcə başa çatdırıldı. A.Mütəllibov da şərəfsiz fərarilik yolunu seçərək, Vəzirovun ardınca Moskvaya qaçdı.

Bu məsul tarixi mərhələnin qısa bir zaman kəsiyində respublika rəhbərliyində heç bir siyasi təcrübəsi olmayan Yaqub Məmmədov da kölgə kimi görünüb yox oldu. Az bir müddətdə prezidentin səlahiyyətlərini icra etmiş bu adamın dövründə hərc-mərclik, özbaşınalıqlar daha da genişləndi, nazirləri diqtə və hədə ilə təyin etmək və vəzifədən çıxarmaq adi hala çevrildi. Ən adi siyasi vəziyyətlərdən baş çıxarmayan, müəyyən qüvvələrin əlində oyuncağa çevrilən Y.Məmmədov, özünün də etiraf etdiyi kimi, "böyük siyasi oyunun peşkası idi".

Xalq hərəkatı dalğalarının hakimiyyətə gətirdiyi AXC də, təəssüf ki, özündən əvvəlki bədnam iqtidarların acı təcrübəsindən nəticə çıxara bilmədi. Meydanlarda, kütləvi mitinq və nümayişlərdə xalq iradəsinin təmsilçisi imici qazanan AXC birillik hakimiyyəti dövründə həmin imici sürətlə itirdi. Xarici xüsusi xidmət orqanları və mafioz dairələr tədricən AXC-yə öz adamlarını yeritməklə, əslində, bu təşkilatı ayrı-ayrı üzdəniraq "millət qəhrəmanlarının" və cinayətkar qrupların əlində oyuncağa çevirdilər. Meydan ab-havası ilə nəfəs alan cəbhə liderlərinin səriştəsizliyi, ordu adı ilə yaradılan başıpozuq silahlı dəstələrin özbaşınalığı, daxili və xarici siyasətdə, Qarabağ məsələsində buraxılan kobud səhvlər və sair AXC-

Müsavat iqtidarına xalqın inamını kökündən sarsıtdı. AXC-Müsavat liderləri Heydər Əliyevə və blokada şəraitindəki Naxçıvana münasibətdə əvvəlki rəhbərliklərin mənfur siyasətini davam etdirirdilər. Daxili işlər naziri kürsüsünü ələ keçirən İsgəndər Həmidov kimi siyasətə təsadüfən və səhvən düşmüş bir adam Naxçıvanı hərbi yürüşlə, Heydər Əliyevi öldürməklə hədələyirdi.

Bu yaramazlıqlar xalqın gözü qarşısında baş verirdi. Cəmiyyət həyatının bütün sahələrində, o cümlədən siyasi hakimiyyətdə böhran günü-gündən dərinləşirdi.

AXC-Müsavat iqtidarı vəziyyətə nəzarəti təmin edə bilmirdi. İqtidarın acizliyi və səriştəsizliyi nəticəsində respublikanın ayrı-ayrı bölgələrində xaricdən körüklənən separatizm və mərkəzdənqaçma meyilləri güclənmişdi.

1993-cü ilin məlum iyun hadisələri, Gəncədə qardaş qanının axıdılması vətəndaş müharibəsinin başlanğıcı demək idi. Surət Hüseynovun silahdaşı Əlikram Hümbətovun cənub bölgəsindəki fitnəkarlığı isə Azərbaycanın bir dövlət kimi dağıdılması məqsədini güdürdü. Bütün bunlar, şübhəsiz ki, 1988-ci ildən etibarən Azərbaycanda gedən məkrli siyasi oyunların məntiqi nəticəsi idi.

Azərbaycanı real parçalanma və məhvolma təhlükəsindən xilas edə biləcək yeganə şəxsiyyət Heydər Əliyev idi. Elə buna görə də Heydər Əliyev xalqın yekdil və qəti iradəsi ilə, demokratik və qanuni yolla yenidən ölkə rəhbərliyinə qayıtdı.

Bəs, 1982-ciilədək 14 illik zəhməti ilə qurduğu abad, firavan Azərbaycandan 1993-cü ildə Heydər Əliyevə nə miras qalmışdı?

Səbatsız və təsadüfi "rəhbərlərin" xalqa zidd siyasəti nəticəsində Azərbaycan daxili və xarici düşmən təxribatları üçün

poliqona çevrilmiş, xəyanət və satqınlıqlar üzündən torpaqlarımızın böyük bir hissəsi işğal olunmuş, yüz minlərlə soydaşımız öz doğma yurdlarından didərgin düşmüşdü. Bütün bunlarla yanaşı, hərbi-siyasi anarxiya, iqtisadi böhran, talançılıq və terror Azərbaycanın ictimai-siyasi həyatında düşkünlük və tənəzzül əhval-ruhiyyəsi yaratmışdı.

Bəli, 1970-80-ci illərin firavan Azərbaycanından qalan bunlar idi. Adı Azərbaycan xalqının yaddaşına dövlət qurucusu kimi əbədi həkk olunmuş möhtərəm Prezidentimiz Heydər Əliyev öz yeni tarixi missiyasına məhz belə ağır, mürəkkəb şəraitdə başlamalı oldu. Təsadüfi deyil ki, tale özü Azərbaycanı yenidən dirçəltmək, onun müstəqilliyini və suverenliyini qorumaq kimi çətin və şərəfli vəzifəni məhz Heydər Əliyevin qadir əllərinə tapşırdı. İnamla demək lazımdır ki, yalnız 1993-cü ilin yayından, Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra illərlə davam edən siyasi hakimiyyət böhranına, anarxiya və özbaşınalığa son qoyuldu, Azərbaycanda yeni tarixi mərhələ – dövlət müstəqilliyinin möhkəmləndirilməsi və real dövlət quruculuğu dövrü başlandı.

Son üç ildə Prezident Heydər Əliyevin yorulmaz fəaliyyəti və ölkədə yeridilən müdrik daxili və xarici siyasət nəticəsində milli müstəqillik xətti dönmədən həyata keçirilmiş, hüquqi, demokratik dövlət quruculuğu, milli ordunun formalaşdırılması, beynəlxalq aləmdə Azərbaycanın demokratik imicinin yüksəldilməsi sahəsində böyük işlər görülmüşdür. Respublika Prezidenti dünyanın bir çox aparıcı dövlətlərinin rəhbərləri ilə, nüfuzlu beynəlxalq təşkilatlar və işgüzar dairələrlə yüksək səviyyəli rəsmi görüşlər keçirmiş, Azərbaycan həqiqətlərini, dövlətimizin mövqeyini dünyaya çatdırmış və bununla da ölkəmizə diqqət və maraq qat-

qat artmışdır. Siyasi-iqtisadi əlaqələrimiz genişlənmiş, mühüm müqavilə və sazişlər imzalanmışdır. Bütün bunlar Azərbaycan xalqının, gənc müstəqil respublikanın tarixi nailiyyətləridir.

Eyni zamanda, Qarabağ münaqişəsinin dinc yolla nizama salınması, işğal edilmiş torpaqlarımızın azad olunması istiqamətində ardıcıl, fəal xarici siyasət yürüdülmüşdür. İki ildir ki, dövlət həyatımız üçün son dərəcə zəruri olan atəşkəs rejimi qüvvədədir. Belə uzunmüddətli atəşkəsin əldə edilməsi problemin sülh yolu ilə həllində ilkin mərhələ, zəruri siyasi addımdır.

Bu dövrdə Azərbaycanın iqtisadi-siyasi həyatında mühüm demokratik dəyişikliklər baş vermiş, aqrar islahatların aparılması haqqında qanunlar, eyni zamanda, özəlləşdirmə qanunu və konsepsiyası qəbul edilmişdir. Azərbaycanda iqtisadi potensialı hərəkətə gətirmək, maliyyə sistemində köklü dəyişikliklər aparmaq sahəsində ciddi addımlar atılmışdır.

Uğurlu xarici siyasət və daxili siyasi sabitlik bir çox nüfuzlu beynəlxalq təşkilatların Azərbaycana diqqət və etimadını artırmışdır. Avropa Şurası, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, İslam İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı ilə hərtərəfli işgüzar əməkdaşlıq əlaqələri yaradılmış, Prezidentin bu təşkilatların rəhbərləri ilə şəxsi görüşləri və danışıqları nəticəsində Azərbaycanın iqtisadi inkişafı üçün maliyyə yardımları və kreditlər ayrılmışdır.

Ölkənin ictimai-siyasi həyatında demokratikləşmə prosesinin dönməzliyi, plüralizm şəraitinin bərqərar olması, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində də bir sıra mühüm addımlar atılmışdır.

Respublikamızın dövlət müstəqilliyinə, suverenliyinə qənim kəsilən düşmən qüvvələri narahat edən də məhz bu uğurlu

siyasət xəttidir. Azərbaycanda dövlət müstəqilliyi xəttinin uğurlarını görən daxili və xarici antiazərbaycan dairələr daha kəskin və təhlükəli siyasi təxribatlara əl atdılar.

Şübhəsiz ki, bu dövləti cinayətlərin köklərini əvvəlki illərdə respublikada mövcud olmuş hərbi-siyasi böhranda, hakimiyyət oyunlarında, qanunsuz hərbi birləşmələrin geniş vüsət almasında, bir sözlə, özbaşınalıq və anarxiyada axtarmaq lazımdır. Qeyd edilməlidir ki, 1991-94-cü illər ərzində ölkədəki saysız-hesabsız qanunsuz hərbi birləşmələr və əllərdə olan silah-sursat respublikanın kriminogen durumunu hər an gərginləşdirmiş, ictimai-siyasi mühitin sabitləşməsinə imkan verməmiş, dövlət quruculuğu prosesində ciddi problemlərin yaranmasına səbəb olmuşdur.

Belə şəraitdə Surət Hüseynov və AXC liderlərindən olan Rəhim Qazıyev kimi milli xəyanətkarlar istədiklərini edir, imperiyapərəst dairələrə hər vasitə ilə qulluq göstərirdilər. Bu dairələrin əli ilə Rəhim Qazıyev müdafiə naziri kreslosuna yiyələndi və Şuşanın taleyini siyasi qumara qoyaraq, onun düşmənə verilməsinin birbaşa iştirakçısı oldu.

Şuşa və Laçın xəyanəti ilə Rəhim Qazıyev Ayaz Mütəllibovu hakimiyyətə qaytarmaq, bundan sonra isə guya Şuşanı azad etdirməklə Mütəllibovun siyasi mövqelərini möhkəmlətmək, eyni zamanda, öz saxta nüfuzunu yüksəltmək məqsədi güdürdü. Lakin AXC Ayaz Mütəllibovu yenidən devirdikdə, Rəhim Qazıyev dərhal mövqeyini dəyişərək, bu təşkilatla birləşmiş, əvvəlcədən yiyləndiyi müdafiə naziri vəzifəsinin səlahiyyət və imkanlarını daha da genişləndirərək, baş nazirin birinci müavini vəzifəsini də ələ keçirmişdi.

1992-ci ildə və 1993-cü ilin birinci yarısında ölkədə anarxiya və hərc-mərclik baş alıb gedirdi. Dövlətçilik və idarəçilik

səriştəsi olmayan Əbülfəz Əliyev vahid komanda yarada bilməmişdi, odur ki, dövlət rəhbərlərinin bir-birinin işinə müdaxilə etməsi və hərənin ayrıca xətt yürütməsi adi hala çevrilmişdi. İsgəndər Həmidov daxili işlər naziri olduğu halda, xarici siyasətə müdaxilə edir, gah Çinə "bayraq sancır", gah da guya ölkənin atom bombasına malik olması haqqında sərsəm bəyanatlar verirdi. Elmi tədqiqat institutunun laborantlığından baş nazir kimi məsul bir vəzifəyə yiyələnmiş, adi davranış və etika qaydalarından xəbərsiz Pənah Hüseynov siyasi nadanlıq nümayiş etdirərək, nüfuzlu dövlətlərin başçılarının sülhməramlı təşəbbüslərinə Qarabağ probleminin "yalnız döyüş meydanlarında həll olunacağı" kimi iddialı cavablar verir, bununla da ölkənin və xalqın mənafeyinə ciddi zərbə endirirdi.

Bu dövrdə hərbi hissələrin şəxsi heyəti və cəbhəyanı rayonların sakinləri arasında təxribat işləri aparılır, əhali yaşayış yerlərini qoyub qaçmağa, əsgərlər isə fərariliyə təhrik edilirdi.

Respublikanın ayrı-ayrı regionları faktik olaraq nüfuz dairəsinə bölünmüşdü. Özünə sadiq hərbi hissələrə və cinayətkar aləmə arxalanan Surət Hüseynov Gəncəbasarı təsir altında saxlayır, başıpozuq "könüllü batalyonlar" sərhəd və döyüş bölgələrində azğınlıq edirdilər.

Surət Hüseynov mənəviyyatca bəsit və nadan adam olsa da, çox böyük iddiaların sahibi idi. 1990-cı ildə – ölkədə rəsmən hərbi-polis rejimi mövcud olduğu vaxt, bir çoxları kimi, Ayaz Mütəllibovun tapşırığı ilə xalq deputatı "seçilən" Surət Hüseynov onun güclü maliyyə mafiyasının fəal və aparıcı üzvlərindən biri idi. Lakin belə bir adam AXC-Müsavat iqtidarı dövründə hər vasitə ilə təbliğ edilməyə başlandı. Ona Milli

Qəhrəman adı verildi, baş nazirin müavini, prezidentin Qarabağ üzrə səlahiyyətli nümayəndəsi, yun şirkətinin prezidenti kimi yüksək dövlət vəzifələri tapşırıldı. Əslində, Surət Hüseynov A.Mütəllibovun "əkdiyi", AXC–Müsavat iqtidarının "yetişdirdiyi" məhsul idi.

Külli miqdarda dövlət vəsaitinə nəzarəti ələ keçirmiş bədnam müdafiə naziri R.Qazıyevlə S.Hüseynovu birləşdirən başlıca amillər – dövlət əmlakını mənimsəmək, silah biznesi və xalq iradəsinə zidd hakimiyyət ambisiyaları idi. Sonrakı ağır cinayətlərin törədilməsində də onların silah ticarətində birgə iştirakı və eyni ağalara xidmət etmələri mühüm rol oynamışdı. Rəhim Qazıyevin xarici dövlətin yüksək hərbi dairələri tərəfindən müdafiə olunması, habelə onun 1993-cü ilin iyun hadisələri zamanı Surət Hüseynovu canfəşanlıqla dəstəkləməsi də bu əlbir fəaliyyətin nəticəsi idi. Beynəlxalq narkobiznesin Azərbaycandakı şəbəkəsinə rəhbərlik və onun tranzit xəttinə nəzarət də Surət Hüseynovu və Rəhim Qazıyevi birləşdirən amillərdəndir.

O zamankı dövlət başçısı Əbülfəz Əliyev Ali baş komandan kimi hərbi məsələlərdən baş çıxarmadığı üçün bir kənara çəkilmişdi. O, özü etiraf edirdi ki, "ordu quruculuğunda işlər qənaətbəxş deyildi". İsa Qəmbərov bildirirdi ki, ordudakı vəziyyəti düzəltmək üçün gərək Rəhim Qazıyevi 3-4 ay əvvəl çağırıb rəhbər vəzifədən uzaqlaşdıraydıq. Keçmiş baş nazir P.Hüseynov isə hakimiyyətdə olduqları dövrdə ordunun vəziyyəti barədə deyirdi: "R.Qazıyev Azərbaycanı ordusuz, silahsız və texnikasız qoymuşdur".

Hərbi sahə R.Qazıyev, Ə.Hümbətov, S.Hüseynov kimi xəyanətkarların inhisarında idi. Hər vasitə ilə onların, xüsusən də S.Hüseynovun saxta sərkərdə mifi yaradılırdı. Xalqa xəyanət

yolunu tutmuş bu əldəqayırma polkovnik torpaqların verilməsi hesabına A.Mütəllibovu hakimiyyətə qaytarmaq kimi sərsəm xülyanı gerçəkləşdirmək üçün bir-birinin ardınca hərbi məğlubiyyətlərə şərait yaratdı: 1993-cü ilin yanvarında Fərrux yüksəkliyinin tərk edilməsi, Kəlbəcər rayonunun müqavimətsiz verilməsi, Ağdərədən qüvvələrin çıxarılması, Ağdamın süqutu, 1994-cü ilin fevral ayında isə Kəlbəcərdə uğurla başlanmış Murovdağ əməliyyatının iflası üçün, ilk növbədə, Surət Hüseynov məsuliyyət daşıyır.

Gəncə şəhərindəki 709 saylı hərbi hissəni əlində saxlayan S.Hüseynov oraya cinayətkar ünsürləri də cəlb edərək, regionda qətl və qarətlərlə, adam oğurluğu və terrorla, strateji məhsulların talan edilməsi ilə məşğul olurdu.

Nəhayət, 1993-cü ilin iyununda AXC-Müsavat iqtidarının bu başabəla polkovniklə "haqq-hesab çəkmək" cəhdi ölkəni siyasi fəlakət və vətəndaş müharibəsi həddinə çatdırdı.

Belə ağır məqamda Azərbaycan xalqı son ümid yeri kimi Naxçıvana, möhtərəm Heydər Əliyevə üz tutdu. Sosial dayaqlarını tam itirmiş iqtidar da onu təkidlə Bakıya dəvət etdi. Heydər Əliyev Bakıya, böyük siyasətə şərəfli xilaskar missiyası ilə qayıtdı və bu gün də həmin missiyanı özünəməxsus müdriklik və uzaqgörənliklə yerinə yetirir. Fəlakətli vətəndaş müharibəsinin və Azərbaycan dövlətçiliyinin məhvolma təhlükəsinin qarşısını məhz Heydər Əliyev aldı.

Prezident Heydər Əliyevin qətiyyətli siyasi xəttini hiss edən pozucu qüvvələr öz fəaliyyətlərini əsasən iki istiqamətdə qurdular:

– Prezidentə sui-qəsd;

– respublikada dövlət çevrilişi etmək.

Ayaz Mütəllibovu və onun kimi milli xəyanətkarları respublika rəhbərliyinə gətirib oyuncaq, vassal hökumət yaratmaqla ölkənin maddi sərvətlərini talan etmək, onun mühüm geosiyasi mövqelərindən özləri üçün faydalanmaq istəyənlər Heydər Əliyevə qarşı geniş cəbhədə birləşdilər. AXC-Müsavat cütlüyü də hakimiyyətə qayıtmaq iddialarından əl çəkmir, pozucu fəaliyyətlə məşğul olur, cinayətlər törədirdi. Təsadüfi deyil ki, respublika Prezidentinə ilk sui-qəsd cəhdi AXC üzvlərinin iştirakı ilə hazırlanmışdı. Yalnız hüquq mühafizə orqanlarının sayıqlığı nəticəsində bu sui-qəsdin qarşısı vaxtında alındı.

1993-cü ilin fəlakətli iyun hadisələri zamanı, həm xaricdə, həm də daxildə hakimiyyətə can atan qüvvələrin ifrat dərəcədə fəallaşdığı həmin günlərdə ölkədə vətəndaş həmrəyliyi yaratmaq, qarşıdurmaya və silahlı toqquşmaya yol verməmək, Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq naminə Surət Hüseynovun baş nazir təyin olunması məqsədəuyğun sayılmışdı. Lakin Surət Hüseynov belə yüksək vəzifə əldə etməsinə baxmayaraq, öz çirkin əməllərindən əl çəkmədi.

O, dövlət rəhbərinin yürütdüyü daxili və xarici siyasətə hər vasitə ilə qara yaxmaqla çirkin niyyətlərinə nail olmağa çalışırdı. Bu baxımdan, Surət Hüseynovun Bakıdan, Ayaz Mütəllibovun isə Moskvadan çıxışları "bir simdən səslənirdi".

Surət Hüseynov qohumu, qatı cinayətkar Kəramət Kərimov, sabiq milli təhlükəsizlik naziri Nəriman İmranov, "Azərittifaq"ın çörəkbişirmə istehsal müəssisələri birliyinin sabiq baş direktoru Əlizadə Hüseynov, eləcə də yaxın dostları – Yevlax Yunun Tədarükü və İlkin Emalı İstehsalat Birliyinin sabiq baş direktoru Nüsrət Budaqov, respublikanın sabiq kənd təsərrüfatı

naziri Müzamil Abdullayev və başqaları ilə cinayət əlaqəsinə girərək, tez-tez onlarla özünün xidməti kabinetində və Əlizadə Hüseynovun Buzovna qəsəbəsindəki bağ evində görüşür, cinayətin həyata keçirilməsi planlarını müzakirə edirdilər. Qiyama rəhbərliyi S.Hüseynov öz üzərinə götürmüşdü. Gəncədə isə qiyamın təşkili ilə Nüsrət Budaqov və Kəramət Kərimov məşğul olurdular. Gəncə hərbi polis şöbəsinin sabiq rəisi Eldar Əliyevə silahlı dəstələrin yaradılması və hərbi polis əməkdaşlarının qiyama cəlb edilməsi tapşırılmışdı.

Çevrilişin təşkilində Müzamil Abdullayevə maliyyə məsələləri həvalə olunmuşdu. O, hələ 1993-cü ilin avqust ayında Lənkəranda bir ziyafətdə S.Hüseynovun şərəfinə badə qaldıraraq, cinayət yolu ilə əldə etdiyi 57 milyard manat pulu, nəyin bahasına olursa-olsun, onun prezident kürsüsünü ələ keçirməsi üçün xərcləyəcəyini vəd etmişdi.

Nəriman İmranov da, yeri gəldikcə baş nazirin "sərt və barışmaz" obrazını yaradır, onunla hesablaşmağın zəruriliyi barədə vəzifəli şəxslər arasında fikir formalaşdırırdı. Bütün bunlar isə öz növbəsində qiyam üçün əlverişli psixoloji zəmin yaratmağa xidmət edirdi. Dövlətin təhlükəsizliyinə birbaşa cavabdeh olan Nəriman İmranov riyakarlıq və xəyanət yolu tutaraq, Surət Hüseynovun və əlaltılarının dövlət çevrilişi niyyətlərini hər vasitə ilə ört-basdır etməyə çalışırdı. Bu və digər faktlar Nəriman İmranovun dövləti cinayətlərin təşkilatçılarından olduğunu sübut edir.

1994-cü il fevralın 23-də S.Hüseynov öz iş otağında keçmiş 709 saylı hərbi hissənin qulluqçuları və yaxın əlaltıları ilə keçirdiyi yığıncaqda əsəbi halda Prezident Aparatına tərəf işarə edərək, ölkə Prezidentini silahlı yolla aradan götürmək və

hakimiyyətə yiyələnmək məqsədini açıqlamış, dövlət çevrilişinə hazırlığı sürətləndirməyi tapşırmışdı. Həmin ilin may ayında S.Hüseynovun yanında eyni məqsədlə keçirilmiş qapalı müşavirədə də ölkə rəhbərinin fiziki məhvinin vacibliyi müzakirə edilmişdi. S.Hüseynov müşavirə iştirakçılarına təcili olaraq batalyonlar yaratmağı, hərbi hissələrdəki qohumlarını, yaxın və tanış adamlarını bu işə cəlb etməyi tapşırmışdı.

Cinayətkar planı maliyyələşdirmək məqsədi ilə yaradılmış “Nicat” cəmiyyətinin sənədlərində qanun pozuntuları olmasına baxmayaraq, Nazirlər Kabinetinin inzibati və hərbi orqanlar şöbəsinin sabiq müdiri Rövşən Yusifovun tələbi və sabiq ədliyyə naziri İlyas İsmayılovun göstərişi ilə bu cəmiyyət dərhal qeydiyyata alınmışdı.

Nüsrət Budaqov cəmiyyətin sədri, Saday Nəzərov sədrin birinci müavini, Kəramət Kərimov və Azərbaycan Sosial Demokrat Partiyasının sədr müavini Aypara Əliyev isə müavin seçilmişdilər. “Nicat”ın idarə heyətinə Sosial Demokrat Partiyasının liderlərindən Arzu Abdullayeva da daxil idi. Cəmiyyətin təsisçiləri olan 31 təşkilat arasında Yevlax Yunun Tədarükü və İlkin Emalı İstehsalat Birliyi, Azərbaycan Texnologiya İnstitutu, “Azərsement” İstehsalat Birliyi, Gəncə taxıl məhsulları kombinatı, Mingəçevir toxuculuq kombinatı, Azərbaycan Sosial Demokrat Partiyası da vardı.

“Nicat” cəmiyyəti nizamnaməsində göstərilən məsələlərlə məşğul olmurdu. Şəhid ailələrinin sosial müdafiəsi üçün nəzərdə tutulan külli miqdarda pul dövləti cinayətin hazırlanmasına sərf edilir, yaxud mənimsənilirdi.

Nəzərdə tutulan dövlət çevrilişində çoxsaylı canlı qüvvəyə və güclü hərbi-texniki cəbbəxanaya malik Xüsusi Təyinatlı

Polis Dəstəsinə də xüsusi yer ayrılmışdı. 1990-cı ildə erməni silahlı dəstələrinə qarşı mübarizə məqsədi ilə yaradılan Xüsusi Təyinatlı Polis Dəstəsi bu dövrdə artıq cinayətkarlar yuvasına çevrilmişdi. Mahir və Rövşən Cavadov qardaşları dövlətçiliyə zidd qüvvələrin yardımı ilə həmin dəstənin Daxili İşlər Nazirliyinin nəzarətindən çıxarılmasına nail olmuşdular. Buraya cinayətkar ünsürləri də cəlb edərək, bu hərbi qurumu bütünlüklə dövlət əleyhinə yönəltmişdilər. Terror, reket, adam oğurluğu, xalq əmlakının və strateji məhsulların talan olunması, mafioz iqtisadi strukturlara himayədarlıq bu qardaşların əsas fəaliyyət sahəsi idi.

Ölkədə, demək olar ki, paralel fəaliyyət göstərmiş iki cinayətkar qüvvə – Surət Hüseynovun və Cavadov qardaşlarının quldur dəstələri daxili sabitliyi hər vasitə ilə pozurdular. Onlar dövlət quruculuğunda böyük əngələ çevrilmişdilər və eyni məqsəd bu iki xəyanətkar qüvvəni dövlətə qarşı birləşdirmişdi. S.Hüseynov əvvəllər Gəncə Şəhər Polis İdarəsinin, sonra isə Nəqliyyatda Baş Polis İdarəsinin rəisi olmuş İlqar Səfixanov vasitəsilə Rövşən Cavadovla əlaqə yaradaraq, çevrilişdə birgə iştirak haqqında razılığa gəlmişdi.

Neft müqaviləsinin imzalanması, uzunmüddətli atəşkəsə nail olunması, Azərbaycanın beynəlxalq nüfuzunun artması, ümummilli vətəndaş həmrəyliyinin yaranması qiyamçıları tələsməyə məcbur edirdi. Neft müqaviləsi imzalandıqdan sonra A.Mütəllibov–S.Hüseynov dueti və onların yerlərdəki əlaltıları daha da fəallaşmışdılar.

Məhz bu ərəfədə dövləti cinayətin təşkilatçıları konkret hərəkətlərə, cinayətkar niyyətlərini həyata keçirməyə başladılar.

Sentyabrın 21-dən 22-nə keçən gecə milli təhlükəsizlik naziri Nəriman İmranovun tapşırığı ilə təcridxana rəisinin müavini Faiq Mirzəyev dövləti cinayətlərdə ittiham olunan dörd dustağın – Rəhim Qazıyevin, Baba Nəzərlinin, Arif Paşayevin və Əlikram Hümbətovun istintaq təcridxanasından qaçırılmasını təşkil etdi.

Oktyabr dövlət çevrilişi cəhdi ərəfəsində hərbi-siyasi müxalifət daha bir cinayətkar akta – qanlı terrora əl atdı. 1994-cü ilin 29 sentyabrında Xətai rayon prokuroru Mahir Cavadovun göstərişi ilə prezident yanında Xüsusi İdarənin rəisi Şəmsi Rəhimov və Ali Sovetin sədr müavini Afiyəddin Cəlilov qətlə yetirildilər. İfşa olunacağını başa düşən Mahir Cavadov 1994-cü il oktyabrın 2-də Xüsusi Təyinatlı Polis Dəstəsinin 30-a yaxın döyüşçüsü ilə Respublika Prokurorluğunun binasını zəbt etdi. Rövşən Cavadov isə DİN-in binasını tutmağa cəhd göstərsə də, burada şiddətli müqavimətlə rastlaşacağından çəkinərək, 40 nəfərlik dəstə ilə prokurorluğa, qardaşının köməyinə getdi.

Respublika Prezidentinin gördüyü ciddi tədbirlər nəticəsində Cavadov qardaşları öz cinayətkar tərəfdarları ilə prokurorluğu tərk edərək, Xüsusi Təyinatli Polis Dəstəsinin bazasına qayıtmağa məcbur oldular.

Onların bu azğın hərəkətləri, əslində, hərbi qiyamın, dövlət çevrilişi cəhdinin başlanğıcı demək idi.

Dövlət çevrilişi cəhdinə Bakıdan başçılıq edən S.Hüseynovun komandası ilə 1994-cü il oktyabrın 4-də "Üçtəpə" qonaq evində toplaşmış 300-ə yaxın silahlı adam dəstələrə bölünərək, Gəncə şəhər icra hakimiyyətinin inzibati binasını və qonaq evini, MTN-in Gəncə şəhər şöbəsini, hava limanını, poçt və teleqraf binalarını, telestudiyanı ələ keçirdilər.

Oktyabrın 4-dən 5-nə keçən gecə respublika Prezidenti Heydər Əliyevin müraciəti ilə xalq, habelə dövlətə sadiq hərbi hissələr və polisin sağlam qüvvələri Gəncədə dövləti cinayətin qarşısını qətiyyətlə aldılar. Oktyabrın 5-i səhər saat 8-dək şəhər cinayətkarlardan təmizləndi, normal həyat bərpa olundu. Elə həmin gün cinayətin 100-dən çox iştirakçısı yaxalandı.

Azğınlaşmış quldurlar çevriliş cəhdi zamanı dinc əhalinin kütləvi qırğınına səbəb ola biləcək cinayətlərə də əl atmışdılar. Müdafiə Nazirliyinin artilleriya idarəsinin rəisi Hacırəhim Məmmədov və silahlandırma idarəsi rəisinin əvəzi Eduard Ələkbərov sui-qəsdçilərlə cinayət əlaqəsinə girmişdilər. H.Məmmədov 1994-cü il oktyabrın 4-də gecə 930 və 922 saylı hərbi hissələrin komandirlərinə artilleriya qurğularını Prezident Aparatının, Ali Sovetin və Müdafiə Nazirliyinin binalarına tuşlamağı və atəş açmaq haqda onun növbəti əmrini gözləməyi tapşırmışdı. Həmin vaxt isə Heydər Əliyevin müraciəti ilə Prezident sarayının qarşısına on minlərlə vətəndaş toplaşmışdı.

Prezident Heydər Əliyevin həyata keçirdiyi fövqəladə çevik tədbirlər qiyamçıların qüvvələrinin birləşməsinə imkan vermədi. Artıq vəziyyətin dəyişdiyini görən Rövşən Cavadov Prezident sarayının qarşısına gələrək, orada keçirilən mitinqdə Heydər Əliyevi dəstəklədiyini elan etməyə məcbur oldu. Xəyanətlərinin tam ifşa olunacağını başa düşən S.Hüseynov isə Moskvaya – öz himayədarlarının yanına qaçdı.

Heydər Əliyevin müdrikliyi və prezident–xalq birliyi sayəsində çevrilişin qarşısı alındıqdan sonra dövlət başçımızın yürütdüyü xarici siyasət yeni mərhələyə daxil oldu. Azərbaycan Prezidenti çox qısa bir müddət ərzində (20 sentyabr – 5 dekabr) ölkənin milli müstəqilliyi və dövlətçilik naminə üç böyük tarixi

əhəmiyyətli vəzifəni – neft müqaviləsinin imzalanmasını, dövlət çevrilişi cəhdinin qarşısının alınmasını və ATƏT-in Budapeşt sammitində Qarabağ münaqişəsinin nizamasalma mexanizminin başlıca prinsiplərinin müəyyənləşməsini uğurla yerinə yetirdi.

Prezidentimiz 4-5 oktyabr hadisələri zamanı vətəndaş həmrəyliyi və daxili sabitlik naminə R.Cavadovu və onun tərəfdarlarını əfv etmiş, onları tutduqları yoldan çəkinməyə çağırmışdı. Lakin sonrakı hadisələr göstərdi ki, Cavadov qardaşları bu xeyirxah addımdan düzgün nəticə çıxarmayıblar.

Oktyabr hadisələrindən sonra bir sıra pozucu qüvvələr, habelə bəzi xarici kəşfiyyat orqanlarının ayrı-ayrı nümayəndələri yenə də hakimiyyəti zorakı yolla ələ keçirmək üçün hazırlığa başladılar. Belə ki, Türkiyə və Avstriya respublikalarının vətəndaşı, “Traza” firmasının prezidenti Kənan Gürəl, 1993-cü ilin may ayından Azərbaycan Respublikasının vətəndaşlığını qəbul etmiş Türkiyə vətəndaşı, Ali Sovetin hüquq və konstitusiya hüququ şöbəsinin eksperti Fərman Dəmirkol və xarici dairələrin digər kəşfiyyat nümayəndələri gizli görüşlər keçirir, dövlət çevrilişi planlarını müzakirə edirdilər.

1994-cü ilin dekabr ayında Türkiyə səfirliyinin din işləri üzrə müşaviri Əbdülqədir Sezginin sədr olduğu “Azərbaycana xidmət” vəqfinin tərkibində Fərman Dəmirkolun təşəbbüsü və fəal iştirakı ilə “Azərbaycan Strateji Araşdırmalar Mərkəzi” (ASAM) adlı təşkilat yaradılmışdı. Bu mərkəz guya siyasi proseslər barədə analitik sənədlər hazırlamaqla məşğul olmalı idi. Əslində isə, dövlət çevrilişini nəzəri cəhətdən əsaslandırmaq, onun həyata keçirilməsi mexanizmini işləyib hazırlamaq və “hakimiyyətdə kimlərin təmsil olunacağını” müəyyənləşdirmək Strateji Araşdırmalar Mərkəzinin əsas

məqsədi olmuşdur. 1995-ci il yanvarın 7-də ASAM-ın ikinci iclasında Fərman Dəmirkol və sabiq xarici işlər naziri Tofiq Qasımov belə bir ideya irəli sürmüşdülər ki, siyasi müxalifətlə hətta “quldur dəstələri” kimi tanınan hər hansı bir hərbi müxalifətin birləşməsi zərurətdir. Bu siyasətbazların fikrincə, “quldur dəstələrinin içində ən yaxşılarına imkan verməkdən başqa yol yox idi”. Buna görə də Rövşən Cavadovun ASAM-ın növbəti iclasına dəvət edilməsi qərara alınmışdı. Beləliklə, 1995-ci il yanvarın 14-dən etibarən R.Cavadov ASAM-ın cinayətkar fəaliyyətinə cəlb edilmişdi. Çevrilişin baş tutacağı təqdirdə qeyri-konstitusion “Dövlət Şurasında” təmsil olunmaq üçün Ayaz Mütəllibovun və Əbülfəz Əliyevin elçiləri ilə danışıqlar aparılmışdı.

Bu dövrdə A.Mütəllibov öz əlaltıları vasitəsilə Rövşən Cavadov, Fərman Dəmirkol və qeyriləri ilə müntəzəm əlaqə saxlamış, Ali Sovetin sabiq deputatı Adil Hacıyev onun adından danışıqlar aparmışdı. Adil Hacıyev dövlət çevrilişinə hazırlığı əlaqələndirmək məqsədi ilə martın 4-də Moskvaya getmiş, qayıtdıqdan sonra Ayaz Mütəllibovun Əbülfəz Əliyevlə müştərək hakimiyyətə razı olduğunu bildirmişdi.

Dövlət çevrilişinin həyata keçirilməsində “barışmaz” siyasi müxalifətlə “hərbi müxalifətin” işbirliyinin yaradılması Strateji Araşdırmalar Mərkəzinin əsas vəzifəsi idi. Martın 1-də ASAM-ın üzvləri Rövşən Cavadov, Fərman Dəmirkol və Kənan Gürəlin gələcək “Dövlət Şurası”nın üzvləri barəsində “Traza” firmasının ofisindən müəyyən xarici ölkələrin kəşfiyyat orqanlarına faksla məlumat verməsi istintaqla sübuta yetirilmişdir. Həmin faksda şuranın 5 nəfərdən ibarət olacağı, onun işinə Əbülfəz Əliyevin və Ayaz Mütəllibovun müştərək rəhbərlik edəcəyi bildirilirdi.

Kopenhagen səfərindən qayıdan zaman Prezident Heydər Əliyevi və onu müşayiət edən şəxsləri fiziki cəhətdən məhv etmək məqsədi ilə Prezident təyyarəsinin vurulması barədə Rövşən Cavadovun sui-qəsd planı hazırlaması da istintaqla sübut olunmuşdur.

Əvvəllər əks qütblərdə dayanmış eks-prezidentlərin mövqelərinin birləşdirilməsində, hərbi-siyasi müxalifətin yaradılmasında, habelə Xüsusi Təyinatlı Polis Dəstəsinin bir daha hərbi qiyama cəlb olunmasında əsas rol oynamış Strateji Araşdırmalar Mərkəzində Müsavatın tanınmış üzvləri Tofiq Qasımovun, Nəsib Nəsibzadənin, habelə hazırda Müsavatla birləşmiş "Doğru yol" Partiyasının sədr əvəzi Rasim Musabəyovun xüsusi fəallıq göstərmələri bu partiyanın əsl simasını aşkara çıxarır. "Pərdə arxasında" gizlənməyə adət etmiş İsa Qəmbərovun silueti Strateji Araşdırmalar Mərkəzinin fonunda aydın sezilir. Martın 17-də Müsavat Partiyasının bəyanatında real dövlət çevrilişi cəhdinin "qarşıduran tərəflərin hər ikisinin hakimiyyətdə təmsil olunması bu hadisələrin hakimiyyətdaxili münaqişə olduğunu deməyə əsas verir" kimi qiymətləndirilməsi Müsavat liderinin xalq və dövlət mənafeyinə, demokratik prinsiplərə zidd mövqeyini bir daha açıqlayır.

Respublika Prezidentinin istefasını və qanunvericilik orqanının buraxılmasını tələb edən, "vətəndaş müharibəsi yox, dünya müharibəsi olsa da, hakimiyyətə gələcəyini" söyləyən, qeyri-qanuni "Dövlət Şurası"nın yaradılacağını bəyan edən Rövşən Cavadov təkcə mövcud iqtidarın deyil, Azərbaycan dövlətçiliyinin qatı düşməni idi.

Mart dövlət çevrilişi cəhdi ərəfəsində AXC-nin və onun ətrafındakı müxalif qüvvələrin fəaliyyətində ciddi canlanma

yaranmışdı. Fevralın 25-də AXC və "Boz qurd" təşkilatları dövlət çevrilişi cəhdinə xalq hərəkatı donu geyindirmək məqsədi ilə yerlərdə mitinqlər keçirmək istəmiş, bu aksiyaya yaxın və uzaq xarici ölkələrdən 500 nəfərədək nümayəndəni dəvət etməyi nəzərdə tutmuşdular. Azğınlıq elə bir həddə çatmışdı ki, "Boz qurd" təşkilatının silahlı qrupları Bakının qeyri-azərbaycanlı əhalisinə qarşı təxribatlar törətməklə süni iğtişaş yaratmaq fikrinə düşmüşdülər. Görülmüş tədbirlər nəticəsində bu qara niyyətlər baş tutmadı.

Rövşən Cavadov fevralın 6-da "Svoboda" radiosuna verdiyi müsahibəsində, üstüörtülü də olsa, gələcək azğın niyyətlərini büruzə vermişdi. O, həmin müsahibədə bildirirdi ki, "Azərbaycanda kökləri oktyabr (1994) hadisələrindən bəhrələnən yeni hadisələr hazırlanır... Heydər Əliyev ölkə daxilində öz siyasətini dəyişməlidir, əks təqdirdə o, çətin duruş gətirə bilər".

Üzdəniraq "millət vəkili" Tofiq Qasımov "Azadlıq" qəzetinin 28 fevral tarixli nömrəsində dərc olunmuş müsahibəsində deyirdi: "Hansı şərait olursa-olsun, hakimiyyətə qarşı müxalif mövqedən çıxış etmək üçün yollar axtarmalıyıq. O yollar var və tapılmalıdır... Gəncə qiyamından sonra məsələnin başqa tərəfləri bir yana, mənəvi baxımdan hakimiyyəti həmrəyliyə çağırmaq düzgün deyildi". Onun belə təhrikçi çıxışları təkcə bununla məhdudlaşmırdı. Tofiq Qasımov Cavadovların quldur dəstəsini əslində müdafiə edərək bildirirdi ki, "Xüsusi Təyinatlı Polis Dəstəsinin razılığı olmadan onun ləğv edilməsi Azərbaycanda vətəndaş müharibəsinə səbəb ola bilər". Belə çıxır ki, cinayətləri hamıya məlum olan dəstənin ləğvi üçün cinayətkarların özlərindən razılıq almaq lazım imiş?! Dövlət çevrilişinin

hazırlanmasında və qatı cinayətkarların təşviqində böyük rolu olan Tofiq Qasımovun günahsızlığı və məzlumluğu haqqında təbil vuranlar gec də olsa ayılmalıdırlar.

AXC sədrinin müavini Asim Mollazadə çevriliş cəhdi ərəfəsində – martın 11-də “Ayna” qəzetinə müsahibəsində “bahar təkcə qanın qaynaması dövrü yox, həm də sosial partlayışlar dövrüdür” deyə eyhamlı şəkildə özünün və partiyasının arzularını açıqlayırdı.

Azərbaycan Müstəqil Demokrat Partiyası deyilən qurumun başçısı, vaxtilə vətən xaini Rəhim Qazıyevin mətbuat şefi olmuş Leyla Yunusova fevralın 22-də “Bakının səsi” qəzetinə verdiyi müsahibədə bildirirdi: “Hakimiyyətdə olanların siyasi opponentlərlə dialoqa getməkdən imtina etmələri həmişə siyasi müxalifəti silaha sarılmaq məcburiyyətində qoyur”. Yaxınlaşan dövlət çevrilişi cəhdindən şövqə gəlmiş bu xanımın siyasi əxlaq və simasını səciyyələndirən başqa bir fakt 3 gün sonra onun eyni qəzetdə aşağıdakı fikri söyləməsidir: “İqtidar müxalifətin sözünü eşitmirsə, onu demokratik yolla hakimiyyətdən salmaq mümkün deyilsə, hərbi çevrilişə haqq qazandırmaq olar”.

R.Cavadovun “Mən hakimiyyətə gələndən sonra bəzi siyasi partiyaların liderlərini də hakimiyyətə gətirəcəyəm. Adlarını isə hakimiyyətə gələndən sonra çəkəcəyəm” sözləri bir sıra müxalifət liderlərinin çevrilişqabağı canfəşanlıqlarının mahiyyətini aydınlaşdırır.

Cavadovlarla həmrəy olan mütəllibovçular, AXC üzvləri, müsavatçılar, “doğruyolçular”, “bozqurdcular”, Azərbaycan Demokratik Gənclər Birliyi və digər destruktiv ünsürlər mart hadisələrində pozucu fəaliyyətlərini daha da genişləndirmişdilər. Martın 17-də Xüsusi Təyinatlı Polis Dəstəsinin bazasında

içərisində AXC və “Boz qurd” təşkilatlarının üzvləri olan 50-60 nəfərlik əlavə silahlı dəstə olmuşdu. Martın 16-da AXC üzvləri metronun “Neftçilər” stansiyasında əhalini iqtidar əleyhinə mitinqlərə çağıran vərəqələr yayırdılar. Martın 14-16-da Xüsusi Təyinatlı Polis Dəstəsinin qərargahında sabiq daxili işlər naziri İ.Həmidovun qaynı Hüseyn və “boz qurdlardan” Nurəddin adlı birisi Rövşən Cavadovla danışıqlar aparmış, onu dəstəklədiklərini bildirmişdilər.

AXC, Müsavat, “Boz qurd” partiyalarının dövlət çevrilişi cəhdində dolayısı ilə və onların ayrı-ayrı üzvlərinin birbaşa iştirak etmələri, eyni zamanda, AXC, Müsavat, “Demokratik Konqres” (15 mart), “Dəyirmi masa” (17 mart) və başqalarının öz bəyanatlarında dövləti açıq, yaxud üstüörtülü günahlandırmaları onların quldurları dəstəklədiyini, silahlı qiyamçılarla həmrəyliyini nümayiş etdirir.

1995-ci il fevralın sonlarında, dövlət çevrilişi cəhdinə bir neçə gün qalmış A.Mütəllibov da “Arqumentı i faktı” qəzetinə verdiyi “Azərbaycan dəyişikliklər ərəfəsində” adlı müsahibəsində israr edirdi ki, Azərbaycan vətəndaş müharibəsinin astanasındadır. Bu baxımdan o, “Gəncə variantı”nın təkrarlanmasını istisna etmirdi.

Ağstafada baş vermiş hadisələrin yalnız bəhanə olmasını belə bir fakt da sübut edir ki, hələ martın 11-də Rövşən Cavadov Prezident Heydər Əliyevin və Rəsul Quliyevin istefa məsələsini qoyur və 10-15 günə çevriliş olacağına işarə edirdi. O, öz cinayətkar niyyətini açıqlayaraq bildirirdi ki, Kopenhagendə rəsmi səfərdə olan Heydər Əliyev Bakıya qayıda bilməyəcək, qayıtsa da, Pakistana uça bilməyəcəkdir. Məlumdur ki, Prezident martın 12-də Bakıya qayıtmalı, 13-də isə Pakistana

uçmalı idi. Deməli, dövlət çevrilişi günü də dəqiq müəyyən edilmişdi. Məhz həmin günlər qiyam qaldırıldı, Ağstafa, Qazax rayonlarının dövlət idarələri zəbt olundu.

Ümumiyyətlə, mart hadisələri məlum oktyabr qiyamının məntiqi davamı idi və hər iki dövlət çevrilişi cəhdinin, habelə respublika Prezidentinə qarşı sui-qəsdlərin hamısı eyni mərkəzdə hazırlanmışdı. Bu dövləti cinayətlərin əsas ilhamçıları Ayaz Mütəllibov və Vaqif Hüseynov idi. Dövlət çevrilişinin baş tutacağı və A.Mütəllibovun hakimiyyətə qaytarılacağı təqdirdə, əli 20 yanvar şəhidlərinin qanına batmış Vaqif Hüseynov da vəzifə bölgüsündən kənarda qalmayacaqdı. Pozucu qüvvələrin vaxtaşırı Moskvada A.Mütəllibovdan təlimatlar almaları, onların Dağıstanda müəyyən xarici ölkələrin kəşfiyyat nümayəndələri ilə əlaqə saxlamaları, eləcə də Mahir Cavadovun fevral ayında orada Rəhim Qazıyevlə görüşləri hadisələrin haradan və kimlər tərəfindən idarə olunduğu, nə məqsəd daşıdığı haqqında aydın təsəvvür yaradır.

Oktyabr-mart hadisələri arasındakı dövrdə Cavadovlar xarici ölkələrin xüsusi xidmət orqanları ilə sıx əlaqə saxlayırdılar. Prezident yanında Xüsusi İdarədə şöbə rəisi işləmiş Tofiq Qasımov bu qardaşlarla tez-tez görüşür və milliyyətcə yezidi kürdü olan bir şəxs vasitəsilə respublikadakı vəziyyət barədə Moskvaya, A.Mütəllibova müntəzəm məlumatlar göndərirdi. O da məlumdur ki, Xüsusi İdarənin rəisi mərhum Şəmsi Rəhimovun qətlinin təşkilində onun mühüm rolu olmuşdur. Hələ 1993-cü ildə Tofiq Qasımov Moskvada A.Mütəllibovun qonağı olmuş, orada Rusiya Federasiyası Əks-Kəşfiyyat İdarəsinin yüksək rütbəli əməkdaşı İzmətdinovla görüşmüşdü.

Beləliklə, müxtəlif ictimai-siyasi təşkilatlarda, dövlət strukturlarında, hətta xüsusi xidmət orqanlarında Cavadovları himayə edənlərin olması cinayətkar şəbəkənin, daha doğrusu, çoxşaxəli cinayət sindikatının mövcudluğundan xəbər verirdi.

Çevriliş üçün Qazax-Ağstafa regionunun seçilməsi də təsadüfi deyildi. Bir tərəfdən, bədxah qonşular istənilən vaxt atəşkəsi pozub hakimiyyət orqanlarının diqqətini yayındıra bilərdilər, digər tərəfdən, Xüsusi Təyinatlı Polis Dəstəsinin Cavadov qardaşlarına tam sadiq olan Qazax rotası burada yerləşirdi. Surət Hüseynovun tərəfdarlarının tör-töküntüsünün Gəncəbasar zonasında olması da nəzərə alınmışdı.

Qiyamçılar tərəfindən Qazax, Ağstafa, Tovuz, Şəmkir rayonları tutulduqdan sora Gəncədə hakimiyyətin ələ keçirilməsi planlaşdırılmışdı.

Silahlı toqquşma təhlükəsi reallaşdıqca, Cavadov qardaşlarının mətbuat vasitəsilə yaydıqları dezinformasiyalar get-gedə ciddi siyasi xarakter daşıyan qudurğan ultimatumlarla əvəz olunurdu: dövlət rəhbərlərinin istefası, "Dövlət Şurası"nın yaradılması, koalision hökumətin qurulması və sair belə ultimatumlardan idi.

Qəsdçilər vəziyyəti mürəkkəbləşdirmək və öz yaramaz niyyətlərini həyata keçirmək üçün hər cür təxribata hazır idilər. Martın 16-da Bakı metrosunda sərnişinləri girov götürmək və Bakı neftayırma zavodundakı kəmərlərdən birini partlatmaq niyyəti onların qudurğanlığından və miskin mənəviyyatından xəbər verir.

Prezident Heydər Əliyev humanizm prinsiplərini rəhbər tutaraq səbirlə, təmkinlə, yaranmış vəziyyətdən dinc yolla çıxmaq, nahaq qan tökülməsinin qarşısını almaq naminə martın

15-də televiziya ilə xalqa və qiyamçılara müraciət etdi. Prezidentin 1995-ci il 16 mart tarixli Fərmanı ilə keçmiş Xüsusi Təyinatlı Polis Dəstəsinin əməkdaşlarına könüllü surətdə silahları təhvil verib bazanı tərk etmələri təklif olundu. Bunun müqabilində onların cinayət məsuliyyətindən azad ediləcəyinə təminat verildi.

Lakin bütün bu humanist çağırışları ultimativ şəkildə rədd edən Cavadov qardaşları bazada cəmləşmiş Xüsusi Təyinatlı Polis Dəstəsindən ibarət dörd hücum qrupu yaratmışdılar. Məqsəd martın 16-dan 17-nə keçən gecə qəfil həmlə ilə mühasirəni yarıb şəhərə çıxmaq, silahlı tərəfdarları ilə birləşərək Prezident Aparatını, Ali Soveti, Teleradio Şirkətini və Daxili İşlər Nazirliyini tutmaq və ölkə rəhbərini fiziki məhv etmək idi. Belə bir cəhd göstərilsə də, bunun qarşısı qətiyyətlə alındı.

Prezidentimizin müstəsna siyasi müdrikliyi, sarsılmaz qətiyyəti və fövqəladə tədbirləri sayəsində xalq daha bir ağır faciədən xilas oldu, dövlətçilik qorunub saxlanıldı. Xaricdən dəstəklənən hərbi siyasi müxalifətin daha bir cəhdi boşa çıxdı. Dövlətimiz öz qüdrətini nümayiş etdirdi, Konstitusiya quruluşuna qarşı yönəlmiş qiyamın qarşısı alındı, ictimai təhlükəsizlik və sabitlik təmin edildi.

Mart hadisələrinin təhlili göstərir ki, Cavadovlar dövlətə qarşı sui-qəsd mövqeyində duraraq siyasi, hərbi və hətta maliyyə-iqtisadi müxalifəti də öz tərəflərinə çəkmiş, nəhəng cinayət şəbəkəsi yaradaraq, müstəqil Azərbaycan dövlətinin mövcudluğu məsələsini təhlükə qarşısında qoymuşdular.

Qəsdçilər güclü maliyyə qaynaqlarına malik idilər. Cavadov qardaşları ilə bağlı olan maliyyə dairələri, imkanlı hüquqi və

fiziki şəxslər iki qanunsuz və təxribat xarakterli funksiyanı yerinə yetirirdilər. Onlar bir tərəfdən, Cavadovların silahlı birləşmələrini maddi cəhətdən təmin etməklə hərbi müxalifəti gücləndirir, o biri tərəfdən isə, dövlətin iqtisadi qüdrətini zəiflətmək, ağır sosial-iqtisadi vəziyyət yaratmaqla iqtidarın dayaqlarını sarsıtmaq və ictimai-siyasi böhrana nail olmaq istəyirdilər.

Ümumiyyətlə, maliyyə müxalifətinin fəaliyyəti təməli Mütəllibov dövründə qoyulmuş belə bir maxinasiya mexanizminə əsaslanırdı: kredit vasitəsilə əldə edilmiş külli miqdarda kapital Azərbaycandan kənara çıxarılmış, orada dövriyyəyə buraxılaraq nağd vəsaitə çevrilmişdi. Həmin vəsait bu gün də hərbi-siyasi müxalifətin terror-təxribat aksiyalarına sərf edilməkdədir.

Cavadov qardaşları və Xüsusi Təyinatlı Polis Dəstəsinin üzvləri özəl bankları, kommersiya strukturlarını qorxudaraq, mütəmadi surətdə pul qoparır, bəzən isə gəlirlərin müəyyən faizinə şərik olurdular. Onlar hədə-qorxu və şantaj yolu ilə zavod, fabrik, müəssisə rəhbərlərindən, kommersiya strukturlarının başçılarından milyardlarla manat həcmində bac-xərac almışdılar.

Oktyabr hadisələrindən sonra prokurorluq orqanlarından uzaqlaşdırılan Mahir Cavadov Azərbaycan Demokrat Sahibkarlar Partiyasının himayəsi altında fəaliyyət göstərən Sahibkarların Azad Həmkarlar İttifaqının sədri kimi kütləvi informasiya vasitələrinə verdiyi müsahibələrdə ittifaqa 46 kommersiya bankının, 99 müxtəlif şirkət və müəssisənin, 29 konsern, assosiasiya, birlik və mərkəzin, 15 səhmdar cəmiyyətin, 5 kommersiya kolleci və institutunun, 4 kinostudiyanın, 150 kəndli (fermer) təsərrüfatının

daxil olduğunu bildirir, dövlət içərisində dövlət yaratmaq iddiasını gizlətmirdi. Üstəlik də onun sərəncamında bu müəssisələri qoruyan Xüsusi Təyinatlı Polis Dəstəsi kimi silahlı qüvvə vardı! Bir sözlə, bu qardaşlar özlərini vəziyyətin tam ağası hesab edirdilər. Lakin onlar bir cəhəti – Heydər Əliyev fenomenini, xalqın öz liderinə olan böyük inam və məhəbbətini yaddan çıxarmışdılar.

Göründüyü kimi, Cavadovların ətrafında siyasi, hərbi, maliyyə müxalifəti, cinayətkar dairələr birləşmişdi və həlledici anı gözləyirdilər. Bəli, Ayaz Mütəllibov, Surət Hüseynov, Vaqif Hüseynov, Rəhim Qazıyev, Tofiq Qasımov, Rövşən və Mahir Cavadovlar, Əlikram Hümbətov, eləcə də bəzi siyasi partiyaların liderləri Azərbaycan dövlətinə və xalqa qarşı cinayətkar sui-qəsddə birləşmişdilər.

Hadisələr zamanı qəsdçilərə havadarlıq edən, bir sıra hallarda onlarla əlbir olan, sürüşkən gözləmə mövqeyi tutan bəzi üzdəniraq vəzifə sahiblərinin də iç üzü xalqa aydın oldu. Sabiq dövlət müşaviri Qabil Hüseynli, keçmiş respublika hərbi prokuroru Nizami Təhməzov, “Metallurgiya” Dövlət Şirkətinin sabiq prezidenti Fəxrəddin Həmidov, habelə Gəncə, Xanlar, Samux, Salyan, Qazax, Ağstafa rayonlarının sabiq icra hakimiyyəti başçıları belə ikiüzlü və riyakar mövqelərinə görə tutduqları vəzifələrdən haqlı olaraq uzaqlaşdırıldılar. Samux və Xanlar rayonlarının icra hakimiyyəti başçıları Məmməd Ələkbərov və Şaiq Abbasov barəsində cinayət işləri qaldırılmışdır, istintaq aparılır.

Hərbi-siyasi müxalifətin üzdəniraq liderləri son nəticədə xalqa yalnız anarxiya, qətllər, banditizm, quldurluq və talanlar, reket, adam oğurluğu, narkobiznes, silah alveri və sair cinayətlər bəxş edə bilərdilər. Onların dağıdıcı əməlləri göz qabağında idi.

1988-ci ildən bəri Azərbaycan xalqı ilk dəfə olaraq, öz rəhbərinə qarşı etimadsızlığını bildirmək üçün deyil, onu dəstəkləmək üçün meydanlara çıxdı. Respublikanın bütün şəhər və rayonlarında, idarə və müəssisələrində mitinqlər, yığıncaqlar keçirildi. 1994-cü ilin oktyabr hadisələrindən bu günə kimi ölkə başçısının ünvanına dövlət çevrilişi cəhdlərini qəzəblə pisləyən, qanuni prezidenti yekdilliklə dəstəkləyən 50 mindən artıq yazılı müraciət və teleqram daxil olmuşdur. Azərbaycan vətəndaşlarından və xaricdə yaşayan soydaşlarımızdan Prezident Heydər Əliyevə sonsuz məhəbbəti, onunla həmrəyliyi ifadə edən məktubların axını bu gün də davam edir. Son altı ayda Prezident Aparatına bu səpkidə mindən çox məktub daxil olmuşdur. Bütün bu məktub və müraciətlərdə vətən xainlərinin qanunun bütün sərtliyi ilə cəzalandırılması tələb olunur. Bəzi teleqramlardan sətirləri diqqətinizə çatdırmaq istəyirəm.

Zaqatala rayonundan şəhid valideynlərinin ölkə Prezidentinə müraciətində deyilir:

“Azərbaycanın müstəqilliyini puça çıxarmağa, xalqımızı tutduğu yoldan döndərməyə, bu yolda Sizin müdrik rəhbərliyinizlə irəliləyişimizin qarşısını almağa çalışanlar bilməlidirlər ki, onlar öz çirkin niyyətlərini həyata keçirə bilməyəcəklər. Dövlət çevrilişi cəhdinin təşkilatçılarının tapılması və respublikaya gətirilməsi təmin olunmalı, Azərbaycanın azadlıq və müstəqillik uğrunda apardığı mübarizəni öz çirkin siyasi niyyətlərinə qurban verən A.Mütəllibov, S.Hüseynov, R.Qazıyev, Ə.Hümbətov, M.Cavadov və onların havadarları son nəfərinədək müəyyənləşdirilməli və xalqın mühakiməsinə verilməlidirlər”.

Goranboy rayon ictimaiyyəti nümayəndələrinin müraciətindən:

“Biz Cavadov qardaşlarının və onların havadarlarının növbəti çevriliş cəhdini dövlətçiliyimizə, müstəqilliyimizə arxadan vurulmuş xain zərbəsi kimi qiymətləndiririk. Xalqin taleyi ilə oynayan və Azərbaycana düşmən dairələrin qoltuğunda baş girləyən milli xəyanətkarların – A.Mütəllibovun, S.Hüseynovun, R.Qazıyevin, Ə.Hümbətovun, M.Cavadovun respublikaya gətirilərək, qanunun bütün ciddiyyəti ilə xalq qarşısında cəzalandırılmasını tələb edirik”.

Daha bir teleqram: “Müdrik siyasətçi H.Əliyevin xalqın yekdil rəyi ilə hakimiyyətə gəlməsindən xoflanan düşmən dairələr S.Hüseynov və R.Qazıyev kimi satqın xəyanətkarların əli ilə, məlum ssenari əsasında Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını düşmənə təslim etsələr də, öz məqsədinə nail ola bilmədilər. Biz, Qubadlı qaçqınları Prezidentimiz Heydər Əliyevin apardığı daxili və xarici siyasət xəttini ürəkdən bəyəndiyimizi bildirir və möhkəm inanırıq ki, məhz Sizin ağıllı və müdrik siyasətiniz nətcəsində torpaqlarımız tezliklə düşmən işğalından azad olacaq, qaçqınlarımız öz doğma yurd-yuvalarına qayıdacaqlar”. Bu sətirlər Sumqayıtda məskunlaşmış Qubadlı qaçqınlarının müraciətindəndir.

Bəli, qəti və həlledici anda xalq öz sözünü dedi.

Əgər oktyabr dövlət çevrilişi cəhdinin qarşısı dünya təcrübəsində az rast gəlinən vəziyyət – xalqla Prezidentin möhtəşəm həmrəyliyi nəticəsində alındısa, artıq mart hadisələrində dövlətimiz həm də öz gücünü, qətiyyətini, müstəqilliyimizi qorumaq əzmini xarici düşmənlərə və daxili bədxahlara göstərdi.

Oktyabr və mart dövlət çevrilişi cəhdlərinin qarşısının alınması Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin işıqlı dühası, zəngin siyasi təcrübəsi, xalqla tam vəhdəti,

beynəlxalq nüfuzu, ən gərgin və həlledici anlarda vəziyyəti real qiymətləndirmək bacarığı və qətiyyəti sayəsində mümkün oldu. Dövlət çevrilişinə cəhd göstərən xəyanətkar qüvvələr hər şeyi əvvəlcədən ciddi ölcüb-biçsələr də, bir həqiqəti unutmuşdular. Bu da XALQ amili idi. Oktyabr və mart hadisələrində Azərbaycan xalqı dövlətçilik prinsiplərinə sədaqətini, siyasi yetkinliyini, müstəqillik ideyalarının ümummilli ideala çevrildiyini, iqtidarın yürütdüyü xarici və daxili siyasəti dəstəklədiyini yekdilliklə nümayiş etdirdi.

Möhtərəm Prezidentimiz Heydər Əliyev bu hadisələr zamanı müstəsna dözüm, mətanət və siyasi müdriklik göstərərək, xalq iradəsinin yeganə təmsilçisi, dövlət təhlükəsizliyimizin yeganə təminatçısı olduğunu bir daha sübut etdi. Düşmənin məkrli planı, Azərbaycanı daxildən parçalamaq niyyəti növbəti dəfə dövlət başçımızın siyasi uzaqgörənliyi, qətiyyəti və sarsılmaz iradəsi ilə qarşılaşdı və puça çıxdı. 1993-cü ilin iyun hadisələrindən fərqli olaraq, Azərbaycan xalqı möhtəşəm mütəşəkkilliklə öz qanuni Prezidenti ətrafında sıx birləşdi, dövlətçiliyinin və milli müstəqilliyinin müdafiəsinə qalxdı. Gərgin, təhlükəli siyasi böhranın aradan qaldırılmasını və tarixi qələbəni məhz bu amillər təmin etdi. Azərbaycanda sarsılmaz xalq – Prezident həmrəyliyi, xalqımızın demokratik dəyərlərə bağlılığı, öz milli dövlətçiliyinə və qanuni Prezidentinə sədaqəti bir daha bütün dünyaya sübut olundu.

Əvvəlki illərdən fərqli olaraq, Azərbaycan Silahlı Qüvvələri əsl xalq ordusu olduğunu nümayiş etdirdi, Konstitusiyanın və dövlət mənafeyinin müdafiəsində sayıq dayandığını göstərdi.

Dövlət çevrilişi cəhdlərinin qanuni yolla yatırılmasının böyük beynəlxalq əhəmiyyəti vardır. Antimilli qüvvələrin

zərərsizləşdirilməsi ölkəmizlə əməkdaşlıq edən, burada gedən prosesləri diqqətlə izləyən xarici dövlətlərdə Azərbaycanın gələcəyinə, sabitliyin təminatçısı olan, xalq tərəfindən tam dəstəklənən Prezidentin qətiyyətinə, hər cür zorakılığın və sui-qəsdlərin qarşısını almağa qadir dövlətçilik mexanizminin mövcudluğuna inamı daha da artırdı. Məhz Heydər Əliyevin siyasi iradəsi, zəngin dövlətçilik təcrübəsi və prinsipiallığı sayəsində dünya bir daha əmin oldu ki, Azərbaycan Respublikası artıq hər hansı silahlı terror bandasının hakimiyyət iddialarının həyata keçirildiyi "banan" ölkəsi və siyasi anarxiya poliqonu deyildir. Azərbaycan öz milli müstəqilliyini, dövlət maraqlarını qorumağa qadir olan, müstəqil daxili və xarici siyasət yürüdən, sivilizasiyalı dünyaya bağlı suveren respublikadır. Dövlət idarəçiliyində Heydər Əliyev dərslərindən biri də son illər kədərli ənənəyə çevrilmiş qeyri-siyasi və qeyri-konstitusion yolla hakimiyyətə gəlməyin qarşısının qətiyyətlə alınması oldu.

Lakin təəssüf ki, bütün bunlar Azərbaycana düşmən dairələrin əlində alətə çevrilən xəyanətkar hakimiyyət düşkünlərinə dərs olmamışdır. Onlar öz məkrli niyyətlərinə çatmaq üçün, ilk növbədə, dövlət başçımızın fiziki yolla məhvini qarşıya məqsəd qoymuşlar. 1995-ci ilin ikinci yarısında üstü açılmış növbəti dövləti cinayət hakimiyyət hərislərinin öz alçaq niyyətlərindən əl çəkmədiklərini göstərir. Mart hadisələrindən sonra axtarışda olan Elçin Əmiraslanovun Moskvada Ayaz Mütəllibov və Mahir Cavadovla, Xarkovda isə Şahin Musayevlə görüşərək, onlardan Prezidentin həyatına sui-qəsd təşkil etmək tapşırığı alması dövləti cinayətlərin yeni həlqəsi idi. Sabiq Xüsusi Təyinatlı Polis Dəstəsinin cinayətkar əməkdaşları Yaşar Məmmədov və Babək Vəliyev bu məqsədlə Bakıya

göndərilmişdilər. Keçirilmiş operativ tədbirlər nəticəsində həmin şəxslər 1995-ci il iyulun 20-22-də həbs edilmişlər. Cinayət planına görə, Azərbaycan və Ukrayna prezidentləri Heydər Əliyev və Leonid Kuçmanın avtomobilləri hava limanı istiqamətindəki Sabunçu körpüsündən keçərkən ora partladılmalı idi.

Xəyanətkarların Sabunçu körpüsünü partlatmaq cəhdi təkcə respublika prezidentlərinin deyil, ətrafda yaşayan əhalinin də həyatını böyük təhlükə qarşısında qoymuşdu.

1995-ci ildə respublikanın hüquq mühafizə orqanları Mütəllibov güruhunun və Müdafiə Nazirliyinin bir qrup yüksək rütbəli sabiq əməkdaşının daha bir siyasi terror və dövlət çevrilişi planlarını ifşa etmişlər.

Ayaz Mütəllibovun göstərişi və generallar – müdafiə nazirinin sabiq müavinləri Vahid Musayevin, Şahin Musayevin, daxili qoşunların sabiq komandanı Rafiq Ağayevin və digərlərinin birbaşa iştirakı ilə yeni, üçüncü dövlət çevrilişinə hazırlıq işi aşkara çıxarılmışdır.

Hərbi çevriliş planında 1995-ci ilin iyul ayında dövlət başçısının aradan götürülməsi, üç gün sonra isə hərbçilərdən ibarət qruplar tərəfindən Bakının əsas magistral yollarının bağlanması, mühüm dövlət orqanlarının – Prezident Aparatının, müdafiə, milli təhlükəsizlik və daxili işlər nazirliklərinin, telestudiyanın inzibati binalarının, rabitə obyektlərinin zəbt edilməsi nəzərdə tutulmuşdu. Şahin Musayevin göstərişinə əsasən, cinayətkarlar hər hansı müqaviməti dərhal qırmalı, buna cəhd göstərənləri yerindəcə məhv etməli idilər.

Dövlət çevrilişinin respublikanın digər regionlarını da əhatə etməsinə nail olmaq məqsədi ilə 1995-ci ilin aprel-iyun aylarında

generallar Vahid Musayev və Rafiq Ağayev Lənkəran şəhərinə getmiş, o zaman axtarışda olan cinayətkar Əlikram Hümbətovla görüşərək, birgə fəaliyyət planını müzakirə etmişdilər.

Cinayətkar qəsd planına görə, respublika Prezidenti xarici ölkədən səfərdən qayıdan zaman onun təyyarəsi vurulmalı idi. Terror aktının həyata keçirilməsi Ağdam post-patrul xidməti alayının sabiq komandiri, axtarışda olan Faiq Baxşəliyevə tapşırılmışdı. Bu məqsədlə hava hədəflərini vurmaq üçün ona 2 ədəd "İqla-1" tipli avtomatik idarə olunan, səsə və istiliyə doğru hərəkət edən raket qurğusu verilmişdi.

Qəsdçilər dövlət çevrilişinə hazırlaşdıqları dövrdə bir neçə dəfə Bakı ətrafındakı yaşayış məntəqələri sakinlərinin kütləvi qırğını təhlükəsi yaratmışdılar. Belə raketlərin oğurlanmasından bir neçə gün sonra general Vahid Musayev "Yanardağ" restoranının müdiri Bəhram Rzayevin Məhəmmədli kəndindəki evində Faiq Baxşəliyevə "İqla-1" tipli raketdən istifadə qaydalarını öyrədərkən, raketlərdən birinin mexanizminin təsadüfən işə düşməsi nəticəsində uçuş istiqaməti, üçma məsafəsi və tuşlama bucağı nəzərə alınarsa, Nardaran qəsəbəsinin tamamilə məhvolma təhlükəsi yaranmışdı. Yalnız son anda qurğunun akkumulyator sistemini ayırmaq mümkün olduğundan faciə baş verməmişdir.

Azğınlaşmış qəsdçilər Prezidentin təyyarəsinin vurulacağı təqdirdə, onun Maştağa qəsəbəsinə düşəcəyi, xeyli insan tələfatına səbəb olacağı ehtimalına məhəl qoymamış, əksinə, nəyin bahasına olursa-olsun, təyyarənin vurulması barədə göstəriş almışdılar.

1995-ci il iyulun 2-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Rumıniya və Bolqarıstan səfərlərindən qayıdarkən hava şəraitinə görə (küləyin əsmə istiqaməti dəyişdiyi üçün)

təyyarə Maştağa istiqamətindən deyil, Hövsan qəsəbəsi tərəfdən Binə hava limanına enmiş və bu səbəbdən cinayətkar niyyət baş tutmamışdır. Bəli, şər qüvvələrə qarşı mübarizədə dühası və xalqla vəhdəti ilə həmişə qalib gələn Heydər Əliyevi bu dəfə İlahinin özü Azərbaycan üçün qoruyub saxlamışdır! Küləyin səmtinin dəyişməsi də Haqq-Ədalətin nümayişi idi. Müqəddəs Qurani-Kərimdən bir kəlamı yada salmamaq olmur: "Sizlərdən Allahın ən çox sevdiyi şəxs, Allaha ən yaxın olanınızdır".

Azərbaycanın Prezidenti məhz belə bir şəxsiyyət olduğu üçün onun qəlbinin nur və ziyasının bütün xalqı işıqlandıracağına hər birimiz inanırıq.

Əvvəlki siyasi terror aksiyaları və dövlət çevrilişi cəhdlərində olduğu kimi, 1995-ci ilin yayında da ölkə başçısının həyatına sui-qəsd və hərbi çevrilişin vaxtı təsadüfi seçilməmişdi. İlkin neftin ixracı məsələsində Prezident Heydər Əliyevin qətiyyətli mövqeyi, uzaqgörən, cəsarətli siyasi xətti regionda və beynəlxalq aləmdə ölkəmizin nüfuz və qüdrətinin möhkəmləndirilməsinə xidmət edirdi. Şübhəsiz ki, bu yeni uğur məlum dairələri təmin edə bilməzdi.

Azərbaycan xalqına və dövlətinə qarşı ağır cinayətlərinin hələlik cəzasız qaldığından ruhlanan A.Mütəllibov, R.Qazıyev və S.Hüseynov təxribat xarakterli fəaliyyətlərini davam etdirməkdədirlər. Onların Moskvada yaratdıqları üzdəniraq "Vətəndaş birliyi" cəmiyyətinin də əsas məqsədi Azərbaycanda ictimai-siyasi sabitliyi pozmaq, hakimiyyətin qeyri-konstitusion yolla dəyişdirilməsinə zəmin yaratmaqdır. Bu məqsədlə Prezidentin fiziki cəhətdən aradan götürülməsi, respublikada diversiya-terror aktlarının, müxtəlif təxribat aksiyalarının həyata keçirilməsi nəzərdə tutulur.

Bu bədnam təşkilatın Azərbaycanda minlərlə vətəndaşı əhatə etməsi haqqında söylənilənlər uydurmadan başqa bir şey deyildir, onların Moskvadakı tərəfdarlarının real sayı isə bütün cidd-cəhdlərə baxmayaraq, 30-u ötmür.

Təşkilatın üzdəniraq liderləri bədnam hakimiyyət iddialarına çatmaq üçün belə bir fəaliyyət proqramı müəyyənləşdirmişlər: Yevlax və Tərtərin işğalına şərait yaratmaq, sabitliyi pozmaq, respublika daxilində kütləvi təxribat və terror aksiyaları keçirmək, daha sonra isə Mahir Cavadovuin öz bandit dəstələri ilə Gürcüstan ərazisindən Azərbaycana daxil olmasını təmin etmək. Əgər bir anlıq bu mənfur planın baş tutacağını fərz etsək, onda Yevlax və Tərtərin işğalından sonra Azərbaycanın şərq və qərb hissələri bir-birindən təcrid edilmiş olar. Mahir Cavadov qərb hissəni tutduqdan sonra "Vətəndaş birliyi"nin xain liderlərinin ikiyə bölünmüş Azərbaycanın şərqinə keçmək və Bakıya sahib olmaq üçün ermənilərlə danışığa girəcəklərini, onlara hansı yeni güzəştə gedəcəklərini təsəvvür etmək çətin deyildir.

"Vətəndaş birliyi"nin Azərbaycanda sosial bazasının olmadığını göstərən amillərdən biri də onların respublikada keçirilən parlament seçkilərinə və müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul edilməsinə mane olmaq cəhdlərinin boşa çıxmasıdır.

Azərbaycanda "Vətəndaş birliyi"nin əsas sosial dayağı və icraçısı Əmək Partiyası olmuşdur. Son vaxtlar bu partiyanın daxilində ciddi təfriqə baş verdiyindən, Ayaz Mütəllibov öz tərəfdarlarına Azərbaycan Sosial Demokrat Partiyasına keçmələri barədə göstəriş vermişdir. Eyni təkliflə Sosial-Demokrat Partiyasının liderləri Zərdüşt və Araz Əlizadə qardaşları da Əmək Partiyasının sədri Sabutay Hacıyevə müraciət etmişlər.

Ötən dövrdə mütəllibovçuların pozucu fəaliyyəti səngiməmiş, əksinə, yeni mərhələyə daxil olmuşdur. Hələ 1992-ci ildə istefa verdikdən sonra yenidən zorakı yolla hakimiyyətə gəlmək istəyən A.Mütəllibov milliyyətcə rus olan bir generalın iştirakı ilə üzdəniraq “Qardaşlıq” cəmiyyətinin sədri Ağa Axundova 700-dək avtomat silah vermiş və silahlı dəstələr yaratmağı tapşırmışdı. Ağa Axundov sonralar Əmək Partiyasını yaratmış Sabutay Hacıyevlə birlikdə silahlı dəstələrin təşkili ilə məşğul olmuşdur.

Məlumdur ki, 1992-ci ildə A.Mütəllibovun tapşırığı ilə yaradılmış silahlı dəstələr Ağa Axundovun başçılığı ilə həmin ilin mayında Ali Sovetin deputatlarına təzyiq göstərərək, qeyri-konstitusion hakimiyyət dəyişikliyini həyata keçirmişdilər. A.Mütəllibov bunun müqabilində mayın 14-də A.Axundova müdafiə naziri vəzifəsini təklif etmişdi. A.Axundovun dediyinə görə, o, həmin “mükafatdan” imtina etdikdə, görüşdə iştirak edən bir rus generalı bu təyinatın zəruriliyini bildirmiş və demişdi ki, razılaşsan, “Şuşanı sənə hədiyyə edərik”.

Bu fakt Ayaz Mütəllibov, Rəhim Qazıyev, Surət Hüseynov, Şahin Musayev və başqalarının Şuşanı, Laçını ermənilərə nə məqsədlə verdiklərini aydın sübut edir.

Göründüyü kimi, bu cinayətkarlar hakimiyyətə gəlmək naminə Azərbaycanın torpaqlarını, şəhər və kəndlərimizi hərraca qoymaqdan, kütləvi qətl və qırğınların təşkilindən, bir milyondan artıq qaçqın-köçkünün acı göz yaşlarından, girovlarımızın ah-nalələrindən belə çəkinməmişlər. Bu ağlasığmaz xəyanətlərin, tarixi cinayətlərin qiymətini və cəzasını qoy xalqımız özü müəyyən etsin.

Sonralar Ağa Axundov dəfələrlə Moskvada A.Mütəllibovla görüşmüş, Bakıda terror və təxribat aksiyalarının zəruriliyi

barədə onunla söhbətlər aparılmışdır. Sabutay Hacıyev də bu müddət ərzində dəfələrlə A.Mütəllibovdan təlimatlar almışdır. Hazırda onların hər ikisi həbs olunmuş və cinayət məsuliyyətinə cəlb edilmişdir.

Ümumiyyətlə, 1994-1995-ci illərdə terrorçuluğa, təxribata və digər xüsusi təhlükəli dövləti cinayətlərə qarşı ciddi əməli işlər görülmüş, dövlətin həyata keçirdiyi ardıcıl, qətiyyətli tədbirlər nəticəsində xalqımızın çoxdan arzuladığı daxili sabitlik və əmin-amanlıq təmin edilmişdir. Oktyabr və mart hadisələrindən sonra bir çox cinayətkar dəstələrin, qeyri-qanuni silahlı qruplaşmaların ifşa olunması, o cümlədən, dövlət həyatı üçün ciddi təhlükə olan Xüsusi Təyinatlı Polis Dəstəsinin zərərsizləşdirilməsi nəticəsində respublikada uzun müddət hökm sürmüş cəzasızlıq şərautinə son qoyulmuş, cəmiyyətimiz daxili irtica və təcavüzlərdən xilas edilmişdir. Xalq öz gələcəyinə ümidlə, nikbinliklə baxmağa başlamışdır.

Hadisələrdən sonra aradan çıxıb gizlənmiş cinayətkarların tutulması üçün xeyli iş görülmüşdür. Əməliyyat–axtarış tədbirləri nəticəsində 100-dən çox cinayətkar respublikada və MDB dövlətlərinin ərazisində tapılıb həbs olunmuş, cinayət işlərinin əksəriyyətinə məhkəmədə baxılaraq, müvafiq hökmlər çıxarılmışdır.

Minnətdarlıqla qeyd olunmalıdır ki, məhz bu tədbirlərin sayəsində indi Azərbaycan kriminogen durum baxımından MDB məkanında ən sabit respublikadır.

Hörmətli toplantı iştirakçıları!

Dövlətçiliyimizin çətin sınaqlara məruz qaldığı ötən üç il Azərbaycan tarixinə milli müstəqilliyimizin qorunub saxlanması, onun dönməzliyinin və əbədiliyinin təmin edilməsi, milli

dövlət quruculuğu dövrü kimi daxil olmuşdur. Son dərəcə gərgin hadisələrlə zəngin bu üç ildə Prezident Heydər Əliyev diplomatiya tarixində az təsadüf olunan fəal siyasi gedişlərlə Azərbaycanın mənafelərini ən nüfuzlu və inkişaf etmiş dövlətlərin iqtisadi və siyasi maraqları ilə uzlaşdıra bildi. Gənc dövlətimiz böyük dünya siyasətinin diqqət mərkəzinə çıxdı. Ölkəmizin ərazi bütövlüyü mötəbər kürsülərdən müdafiə edilməyə başlandı. 1995-ci ildə çoxpartiyalı sistem əsasında, siyasi plüralizm şəraitində Azərbaycanın ilk parlamenti seçildi, ümumxalq referendumu yolu ilə ilk Konstitusiya qəbul edildi.

Ölkə Prezidenti uğurlu daxili və xarici siyasi xətti 1996-cı ildə də davam etdirəcəyini, geniş iqtisadi və hüquqi islahatlar aparacağını, Konstitusiyanın müddəalarını dönmədən həyata keçirəcəyini bəyan etmişdir. Bu il özəlləşdirmə, aqrar islahatlar, yeni maliyyə-bank sistemi, respublika sənayesininn müasir texnologiya əsasında qurulması və qabaqcıl ölkələrin iqtisadiyyatına inteqrasiya edilməsi geniş vüsət alacaqdır.

Respublika Prezidenti daxili siyasətdə əsas diqqəti Konstitusiyanın müddəalarından irəli gələn dövlət quruculuğu məsələsinə yönəltmiş, islahatlar prosesində idarəetmənin təkmilləşdirilməsini, dövlətçiliyin və qanunçuluğun gücləndirilməsini, qanunsuzluq hallarının qarşısının alınmasını əsas vəzifələr kimi qarşıya qoymuşdur. İslahatlar bazar iqtisadiyyatına keçidin səmərəliliyini təmin edəcək, Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğunu sürətləndirəcəkdir.

İqtisadi islahatların həyata keçirilməsi ilə bağlı respublika Prezidenti bir neçə mühüm tələb irəli sürmüşdür. Əvvəla, bütün mövcud əmlak xalqın zəhmətinin bəhrəsi olduğundan, özəlləşdirmə zamanı sosial ədalət prinsipi qorunmalı, heç bir vətəndaş

bu əmlak bölgüsündən kənarda qalmamalıdır. İkincisi, özəlləşdirmə əhalinin sahibkarlıq və təşəbbüskarlıq hisslərinin artmasına, ölkənin iqtisadi tərəqqisinə, dünya iqtisadiyyatına inteqrasiyasına təkan verməlidir. Dövlət başçımız həm də özəlləşdirmənin qanun çərçivəsində, dövlət əmlakının qorunması yolu ilə aparılacağını, dağıdılmış əmlakın bərpa olunacağını bildirmişdir.

Ümumiyyətlə, 1996-cı il Azərbaycanın daxili həyatında dövlətçiliyin, qanunçuluğun, nizam-intizamın gücləndirilməsi, geniş iqtisadi, sosial və aqrar islahatların keçirilməsi ili olacaqdır.

Əvvəldə də qeyd etdiyimiz kimi, son üç ildə yürüdülən uğurlu daxili və xarici siyasət beynəlxalq aləmdə Azərbaycanın mövqelərini daha da möhkəmləndirmiş, ölkə daxilində ictimai-siyasi sabitlik, vətəndaş həmrəyliyi, milli birlik bərqərar edilmişdir. Bütün bu amillər və iki ildir davam edən atəşkəs rejimi, nəhayət ki, Qarabağ probleminin ədalətli sülh yolu ilə həllinə şərait yaratmışdır. Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarının azad olunması, bir milyondan artıq qaçqın-köçkünün öz doğma yurd-yuvasına qaytarılması ölkə rəhbərinin daimi diqqət mərkəzindədir və bütün siyasi-diplomatik səylər bu problemlərin həllinə yönəldilmişdir.

Hörmətli toplantı iştirakçıları!

1982-ci ildən bəri respublikamızda baş verən mürəkkəb ictimai-siyasi proseslər göstərdi ki, bütün bu müddət ərzində xalqın seçdiyi, inandığı, öz taleyini etibar etdiyi ümummilli liderin olmaması üzündən Azərbaycan böyük fəlakət və itkilərə məruz qalmışdır. 1982-1993-cü illərdə respublika rəhbərliyində bir-birini əvəz edən K.Bağırov, Ə.Vəzirov, A.Mütəllibov, Əbülfəz Əliyev ümummilli lider səviyyəsində olmadıqlarından,

ölkədə sabitlik və həmrəylik təmin edilmədi. Buna görə də xalq onların ətrafında birləşmədi, onların arxasınca getmədi. Belə bir ümummilli lideri Azərbaycan xalqı sınaqlardan çıxmış, doğma Vətəninə qayğı və məhəbbətini möhtəşəm əməlləri ilə sübuta yetirmiş möhtərəm Prezidentimiz Heydər Əliyevin şəxsində tapdı. Bu gün Azərbaycanda baş verən demokratik dəyişikliklər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan beynəlxalq aləmə Heydər Əliyev şəxsiyyətinin böyüklüyü ilə daxil olur. Anarxiyadan, dərəbəylikdən, özbaşınalıqdan bezmiş xalq indiki dinc həyat, sabitlik və asayiş üçün Prezidentə minnətdardır. Xalq inanır ki, onun müdrik rəhbərliyi altında mövcud çətinliklər tezliklə dəf olunacaq, itirilmiş torpaqlar qaytarılacaqdır. Xalq inanır ki, təsadüfi adamlar Azərbaycanda bir daha silah və zor gücünə hakimiyyətə gələ bilməyəcəklər. Xalq inanır ki, Vətənimiz Azərbaycan bir daha çevriliş cəhdlərinə, silahlı qarşıdurmalara meydan olmayacaqdır. Bu inamı tükənməz enerjisi, siyasi müdrikliyi ilə xalqa təlqin edən möhtərəm Prezidentimizdir. Azərbaycan on illik sarsıntılardan, hakimiyyət çəkişmələrindən sonra öz həqiqi liderini tapıbdır. Bu gün hər bir namuslu Azərbaycan vətəndaşının müqəddəs borcu xalqın böyük oğlunun, əvəzsiz liderinin ətrafında sıx birləşmək, onun göstərdiyi yol ilə getməkdir. Yalnız belə olduqda, biz problemlərimizi həll edə, azadlığımıza, müstəqilliyimizə qənim kəsilmiş daxili və xarici düşmənləri məğlub edə bilərik.

Mən məruzəmin əvvəlində 1987-ci ildən bəri Azərbaycan evinin, Azərbaycan dövlətinin məqsədyönlü şəkildə dağıdılması mərhələlərindən söhbət açdım və bu evi abadlaşdırmaq missiyasının taleyin hökmü ilə möhtərəm Prezidentimiz Heydər Əliyevin qadir, qurucu əllərinə tapşırıldığını qeyd etdim. Son üç

ildə bu evin yenidən qurulduğu, Azərbaycan dövlətçiliyinin bərpa edilib dirçəldiyi hamımızın gözü qarşısında baş verir. Möhtərəm Heydər Əliyevin böyük şəxsiyyəti, uzaqgörən siyasəti nəticəsində bu gün Azərbaycan dövləti özünün növbəti quruculuq epoxasını yaşayır. Qətiyyətlə demək olar ki, son üç ildə Azərbaycanda milli müstəqillik xətti və dövlət quruculuğu prosesi ardıcıl, dönməz istiqamət üzrə getmişdir. Bu, təsadüfi deyil, çünki xalqımızın Heydər Əliyev kimi sınanmış lideri, böyük yolgöstərəni var.

Sözlərimi möhtərəm Prezidentimizin dönə-dönə və böyük inamla söylədiyi bir fikirlə bitirmək istəyirəm: Azərbaycanın dövlət müstəqilliyini heç bir qüvvə onun əlindən ala bilməyəcəkdir!

Diqqətinizə görə təşəkkür edirəm.

*"Azərbaycan" qəzeti,*
*6 aprel 1996-cı il.*

# ELİMİZİN VƏ DİLİMİZİN XİLASKARI

Hər hansı bir dili, ilk növbədə, onun daşıyıcısı olan xalq yaşadır. Azərbaycan dilinin gözəl bilicisi və böyük təəssübkeşi olan Heydər Əliyev özünəməxsus müdrikliklə demişdir: “Biz öz əcdadlarımıza daim minnətdar olmalıyıq, ona görə ki, ən çətin vaxtlarda da dilimiz itməyib, yaşayıb. Onu xalq yaşadıbdır, eyni zamanda, onu xalqımızın böyük şəxsiyyətləri yaşadıblar”. Bəli, dilin hərtərəfli inkişafı, zənginləşməsi, işlək və mütəhərrik hala gəlməsi, beynəlxalq səviyyəyə çıxması, nüfuz qazanması təkcə xalqdan asılı deyildir. Burada bütün zamanlarda doğma dilin keşiyində duran, söz sərrafları kimi tanınan yaradıcı ziyalılar da özlüyündə həlledici rol oynamaya bilməzlər. Tarixin təcrübəsi dönə-dönə göstərmişdir ki, dilin inkişafı milli müstəqillik ideyaları, dövlətçilik ənənələri ilə, habelə bu ideya və ənənələri öz fəaliyyətində gerçəkləşdirən qüdrətli dövlət başçılarının, öz xalqlarının tarixinə islahatçı kimi daxil olmuş böyük siyasi liderlərin adı ilə sıx bağlıdır.

Bu cəhətdən orta əsrlər Azərbaycanında Şah İsmayıl Xətainin, XVIII əsr Rusiyasında Birinci Pyotrun, XX əsr Türkiyəsində Mustafa Kamal Atatürkün milli dil siyasəti ilə bağlı çoxcəhətli və uzaqgörən fəaliyyətlərini göz önünə gətirmək kifayətdir. Şübhəsiz, tarixə öz möhürlərini vurmuş bu qüdrətli şəxsiyyətlərin dövründə də onların xalqları öz doğma dillərində danışırdı. Lakin həmin dillərin yeniləşməsi, yad

dillərin təsirindən və məhdud məhəlliçilikdən xilas olması, çağdaş siyasi dünyagörüşünün və dövlətçilik təfəkkürünün, millətin mənliyinin ifadəçisinə çevrilməsi məhz onların tarixi uzaqgörənliyi və milli mənəviyyata sıx bağlılığı nəticəsində mümkün olmuşdur.

Bu tarixi analogiyaya müraciətim heç də təsadüfi deyildir. Mübaliğəsiz demək olar ki, XX əsrin son otuz ilində Azərbaycan dilinin hərtərəfli inkişafı, onun yalnız rəsmi sənədlərdə deyil, sözün həqiqi mənasında, gündəlik həyatda, praktikada dövlət dilinə, ümumişlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə, dünya diplomatiyasına yol tapması, get-gedə zənginləşərək nüfuz qazanması və dünyanın bir çox mötəbər kürsülərindən eşidilməsi Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dilimizin inkişafına, cəmiyyətimizdə layiqli yer tutmasına yorulmadan göstərdiyi qayğı və diqqətin, son dərəcə dəqiq, uzaqgörən dil siyasətinin nəticəsidir. Bu mənada, yuxarıda adlarını çəkdiyim böyük şəxsiyyətlərin öz xalqları üçün, öz dilləri üçün gördükləri işi müasir mərhələdə Azərbaycan xalqı və Azərbaycan dövləti üçün daha mükəmməl şəkildə, daha yüksək səviyyədə Heydər Əliyev görmüşdür. O, respublikaya rəhbərlik etməyə başladığı 1960-cı illərin sonundan etibarən öz zəngin siyasi təcrübəsi, yüksək intellekti, milli mədəniyyətimizə və mənəviyyatımıza dərindən bələdliyi sayəsində milli dilin inkişaf etdirilməsinə və tətbiqinə dair ardıcıl olaraq uzunmüddətli siyasət işləyib hazırlamış və bütün çətinliklərə baxmayaraq, onu dönmədən həyata keçirmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli mövcudluğu dövrü də daxil olmaqla, milli dövlətçiliyimizin son 75 illik tarixində ana dili ilə bağlı məsələlərə Heydər Əliyev qədər

dərindən maraq göstərən, onu daim diqqət mərkəzində saxlayan ikinci bir dövlət başçısı olmamışdır. Doğrudur, 1920-ci illərin əvvəllərində görkəmli dövlət xadimi və yazıçı Nəriman Nərimanov Azərbaycan dilinin geniş miqyasda işlənməsi sahəsində müəyyən təşəbbüslər göstərmişdi. Lakin cəmiyyətdə milli özünüdərk hissinin hələ kifayət qədər qüvvətli olmadığı, Moskvanın isə SSRİ-yə daxil olan milli respublikalarla yalnız zor və güc dili ilə danışdığı, rus dilini hər vasitə ilə ümumxalq dilinə çevirməyə çalışdığı həmin dövrdə Nəriman Nərimanov dil sahəsində qarşısına qoyduğu məqsədlərin həllində nəzərə-çarpacaq uğurlar qazana bilməmişdi. Sonrakı onilliklərdə isə Azərbaycan dili, xüsusən də əlifbamız bir sıra dağıdıcı, zərərli eksperimentlər üçün hədəfə çevrilmiş, Azərbaycan dilinin dövlətçilik sahəsindən sıxışdırılıb çıxarılması üçün yuxarı dairələrdən və respublika daxilində çox təxribatlar edilmişdi.

1950-ci illərin ortalarında Stalinin ölümü və Xruşşovun elan etdiyi "siyasi mülayimlik" xətti ilə əlaqədar Azərbaycan dilinin repressiyaya uğramış hüquqlarını özünə qaytarmaq baxımından bir sıra cəhdlər göstərilsə də, bunlar kifayət qədər əsaslı şəkildə hazırlanmadığından lazımi səmərəni verə bilməmişdi. Əksinə, dilimizin statusunun həllində əlavə çətinliklər törədilmişdi.

Beləliklə, Azərbaycan cəmiyyətində onilliklər boyu yığılıb qalmış bir sıra iqtisadi, siyasi, ekoloji, mənəvi problemlər kimi, Azərbaycan dilinin dövlət dili hüququ alması məsələsi də yalnız Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bütün kəskinliyi və aktuallığı ilə gündəliyə çıxarılmışdı.

Əsrin əvvəllərində "Molla Nəsrəddin" jurnalında son dərəcə ibrətamiz və düşündürücü bir karikatura dərc edilmişdi. Bir azərbaycanlını yerə yıxıb, onun "Axı, mənim doğma ana dilim

var!" fəryadlarına məhəl qoymadan ağzına bir tərəfdən ərəb dili, o biri tərəfdən fars dili, üçüncü tərəfdən isə rus dili salmağa çalışırlar. Bu, ürəkağrıdan da olsa, real mənzərə idi və həmin acı gerçəklik bəzi istisnalarla 1970-ci illərə qədər davam etmişdi. Heç kəsə gizli deyil ki, digər keçmiş sovet respublikalarında olduğu kimi, Azərbaycanda da onilliklər boyu hər vasitə ilə təşviq edilən bilinqvizm-ikidillilik mövcud idi. Dövlət idarələrində isə bu vəziyyət qətiyyən yerli xalqların dillərinin, o cümlədən Azərbaycan dilinin xeyrinə deyildi – rus dilinin bütün həyat sahələrində geniş işlənməsi milli dillərin, eləcə də Azərbaycan dilinin dövlət dili kimi inkişaf edib zənginləşməsinin qarşısına sədd çəkirdi.

"Belə olub, lakin həmişə belə olmamalıdır". Keçmiş sovet respublikalarının rəhbərləri içərisində milli mövcudluğun bütün sahələri ilə bağlı bu qətiyyətli mövqeni birincilər sırasında seçən Azərbaycanın lideri Heydər Əliyev oldu. Heydər Əliyev Mərkəzdən asılı olan, qapalı sistemin daxilində yaşayan və üstəlik də müsəlman-türk respublikasında milli dil siyasətini son dərəcə düşünülmüş və incə şəkildə həyata keçirmişdir. O, hər bir vətəndaşın, ilk növbədə isə yaradıcı ziyalıların ən həssas yeri olan milli dil məsələsinə münasibətdə heç zaman ani qəhrəman imici yaradan, əslində isə, reallıqdan uzaq addımlar atmamış, problemə hər kəsin diqqətini cəlb etmək, onu təkcə rəhbərliyin deyil, bütöv bir millətin, zəngin tarixə malik bir xalqın və mədəniyyətin problemi səviyyəsində gündəliyə çıxarmaq və həll etmək taktikasına üstünlük vermişdir.

1970-ci illər Azərbaycanın iqtisadiyyatının, xalq təsərrüfatının, mənəviyyatımızın və ümumiyyətlə, mədəniyyətimizin sürətli inkişafı ilə yadda qalmışdır. Bu dövr həm də Azərbaycan

dilinin ölkədəki qanuniləşdirilmiş bilinqvizm şəraitində tədricən rus dilinin kölgəsindən çıxması, ictimai şüurda və dövlətçilikdə öz layiqli yerini tutması ilə səciyyəvidir. Bu proses təkamül yolu ilə, lakin qarşısıalınmaz şəkildə gedirdi. Həmin dövrə qədər yalnız nominal olaraq Azərbaycan Respublikasının dövlət dili sayılan ana dilimiz artıq öz həqiqi yerini kagız üzərində deyil, gerçək həyatda tutmağa başlamışdı. Şübhəsiz, bu da öz növbəsində xalqda milli mənlik şüurunun sürətli inkişafına yol açdı, milli özünüdərk prosesini sürətləndirdi.

Heydər Əliyev ana dilinə münasibətin son dərəcə siyasiləşdirildiyi və bir çox hallarda əsassız siyasi ittihamlar üçün zəminə çevrildiyi həmin illərdə Azərbaycan dilini məişət və ədəbiyyat səviyyəsindən dövlət dili səviyyəsinə qaldırmaq sahəsində ardıcıl fəaliyyət göstərməklə kifayətlənmirdi, həm də öz şəxsi nümunəsi ilə dilimizin nüfuzunu artırır, onun elmi əsaslarla öyrənilməsinə və geniş yayılmasına stimul yaradırdı. Yəqin ki, çoxlarının yadındadır – məhz Heydər Əliyevin rəhbərliyi və fəal iştirakı ilə 1970-ci illərin əvvəllərindən başlayaraq, Azərbaycan dili dövlət əhəmiyyətli tədbirlərin dilinə çevrilir, ana dilinə laqeydlikləri ilə az qala qürrələnən bir sıra nihilist rəhbər işçilər cəmiyyətdə, xalq arasında artıq özlərini əvvəlki kimi rahat hiss edə bilmirdilər. Heydər Əliyev yaradıcı təşkilatların, xüsusən də Yazıçılar İttifaqının qurultaylarında, irimiqyaslı yubiley tədbirlərində Azərbaycan dilində sərrast və gözəl danışmaq nümunəsi göstərməklə yanaşı, həm də ziyalıların, geniş ictimaiyyətin diqqətini ana dilimizin inkişafına yönəldirdi.

Həmin dövrdə Azərbaycan milli Elmlər Akademiyasının tərkibində müstəqil Dilçilik İnstitutu olan tək-tək sovet respublikalarından biri, türkdilli respublikalar içərisində isə,

səhv etmirəmsə, bu baxımdan yeganə idi. Heydər Əliyev dilçilik elminə, Azərbaycan dili problemlərinin araşdırılmasına, onun mükəmməl qrammatikasının yaradılmasına, milli terminologiyanın inkişafına xüsusi qayğı göstərirdi. Onun yaxından iştirakı və yardımı ilə Azərbaycan dilçilərinin bir sıra əsərləri, o cümlədən 4 cildlik "Müasir Azərbaycan dili" kitabı respublika Dövlət mükafatına layiq görülmüşdü. Yenə də Heydər Əliyevin fəal yardımı ilə, Azərbaycan dilinin mənsub olduğu türk dilləri ailəsinin digər dilləri ilə müqayisəli şəkildə öyrənilməsi məqsədi ilə 1970-ci ildə Bakıda sabiq SSRİ EA və Azərbaycan EA-nın birgə nəşri olan nüfuzlu "Sovet türkologiyası" jurnalı təsis edilmiş, keçmiş sovet respublikaları içərisində ilk dəfə Azərbaycan Dövlət Universitetində türkologiya kafedrası yaradılmışdı.

Heydər Əliyevin təşəbbüsü və ciddi səyləri nəticəsində Azərbaycan Yazıçılar İttifaqının qurultayında (1981-ci il) Cənubi Azərbaycan ədəbiyyatına aid xüsusi məruzə dinlənildi, Yazıçılar İttifaqının cənub ədəbiyyatımızla bağlı katibi ştatı ayrıldı, Elmlər Akademiyasında xüsusi böyük şöbə yaradıldı, ədəbiyyatımızın və mədəniyyətimizin ayrılmaz qolu tədqiq olunmağa, öyrənilməyə və bu mövzuda sistemli şəkildə əsərlər nəşr edilməyə başlandı.

Şübhəsiz, milli respublikalarda özünüdərk prosesinə qısqanclıqla yanaşıldığı və milli zəmində özünü göstərən yenilikçilik təşəbbüslərinin qarşısının sərtliklə alındığı bir şəraitdə bütün bunları gerçəkləşdirmək Heydər Əliyevdən böyük cəsarət, qətiyyət, prinsipiallıq və dönməzlik tələb edirdi. Lakin onun qısa müddət ərzində Azərbaycanda yaratdığı milli-mədəni intibah heç də həmişə birmənalı şəkildə müsbət qarşılanmır, müəyyən

dairələrin, xüsusən də bədnam qonşularımız ermənilərin əsassız siyasi ittihamları, böhtan və yalan kampaniyaları ilə qarşılaşdı.

Məhz Heydər Əliyevin ana dili məsələsindəki prinsipiallığı və təkidi sayəsində, ziyalıları və geniş ictimaiyyəti dövlət dili ilə bağlı müzakirələrdə birmənalı mövqe tutmağa vaxtında hazırlanması nəticəsində o, 1977-ci ildə qəbul olunan yeni (indi artıq keçmiş) Azərbaycan Sovet Konstitusiyasına Azərbaycan dilinin Azərbaycan Respublikasının Dövlət dili olduğunu təsbit edən məşhur 73-cü maddəni daxil etməyə nail oldu. Həmin dövrdə Azərbaycan Əsas qanun səviyyəsində milli dilə Dövlət dili statusu verən üç keçmiş sovet respublikasından biri və yeganə türk-müsəlman respublikası idi.

Şübhəsiz, bu uzaqgörən tarixi addım Heydər Əliyevin siyasi qətiyyətinin və ana dilinə məhəbbətinin parlaq ifadəsi və təzahürü idi. Prezident özü həmin dövrü belə xatırlayır: "Bu maddə Moskvada çox böyük etiraza səbəb oldu. Belə izah edirdilər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur... Ancaq o vaxtlar mən Sovetlər İttifaqının rəhbərliyi ilə, Kommunist Partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışdım ki, biz Dövlət dilinin Azərbaycan dili olduğunu öz Konstitusiyamızda yazmalıyıq və yazacağıq".

Bu gün qətiyyətlə demək olar ki, Heydər Əliyevin 1970-ci illərdə yürütdüyü fəal dil siyasəti Azərbaycanda milli özünəqayıdış, milli özünüdərk proseslərini sürətləndirdi və nəticə etibarilə Azərbaycan xalqını sovet imperiyasının dağılmasına hazırladı, onun bu prosesdə fəal iştirakını təmin etdi.

Müstəqil Azərbaycan dövlətinə rəhbərlik etməyə başladığı dövrdən Prezident Heydər Əliyevin Azərbaycan dilinə qayğısı və

diqqəti yeni tarixi şəraitin ruhuna və tələbinə uyğun olaraq, daha mükəmməl siyasi və insani çalarlarla səciyyələnir. Əvvəla, ana dilimizin artıq qeyd-şərtsiz və şəriksiz olaraq respublikamızın Dövlət dilinə çevrildiyi son üç ildə ölkə Prezidentinin bu dili nə qədər dərindən, bütün incəliklərinə qədər bildiyi və öz çıxışlarında, əhali ilə görüşlərində onun imkanlarından necə məharətlə istifadə etdiyi göz qabağındadır, hamı tərəfindən qəbul və təqdir olunur. O biri tərəfdən, Prezident Heydər Əliyevin yorulmaz fəaliyyəti sayəsində Azərbaycan dili, sözün həqiqi mənasında, dövlətlərarası münasibətlərin dilinə, siyasi dialoqların və diplomatik danışıqların dilinə çevrilib, dünyanın onlarca ölkəsində səslənib, dövlət başçısının öz doğma dilinə məhəbbətini hər yerdə təcəssüm etdiribdir. Nəhayət, Heydər Əliyev bu son üç ilin bütün gərginliklərinə, həyəcanlarına, sıxıntılarına baxmayaraq, ana dilinin problemlərinə diqqət və qayğısını bir an da olsun azaltmayıbdır. Qısamüddətli AXC hakimiyyəti dövründə ana dilimizin adı ilə bağlı qəbul edilmiş tələsik, düşünülməmiş, əsassız və populist qərar məhz Prezident Heydər Əliyevin təşəbbüsü və fəal iştirakı ilə aradan qaldırıldı, tarixən vətəndaşlıq hüququ qazanmış və dünya miqyasında geniş yayılmış "Azərbaycan dili" anlayışının qanuni haqqı özünə qaytarıldı. Dövlətimizin başçısının çox haqlı olaraq dediyi kimi, bu qərarın qəbul edilməsi "həm keçmişimizə böyük hörmətdir, həm də gələcək nəsillər üçün böyük bir sərvətdir. Mən hesab edirəm ki, biz çox düzgün və əsaslı qərar qəbul etmişik".

Nəzərə almaq lazımdır ki, Prezident cəmiyyətimizdə son dərəcə geniş və müsbət əks-səda doğuran bu mühüm qərarı inzibati-bürokratik yolla deyil, elmi müzakirələr və fikir mübadilələri yolu ilə, elmi sübutlar və inandırıcı dəlillər

vasitəsilə gerçəkləşdirdi. Konstitusiya komissiyasının iclaslarında, Azərbaycan EA-da və Prezident sarayında keçirilən müşavirələrdə Heydər Əliyevin Azərbaycan dilinin mənşə və qaynaqları, tarixi inkişaf yolları, türk dilləri ailəsində tutduğu yer, sovet hakimiyyəti illərində məruz qaldığı zorakı müdaxilələr, onu inkişaf etdirmək yolları və s. haqqında söylədiyi yüksək professional, dərin elmi-nəzəri səviyyəli mülahizələr onun Dövlət dilimizə böyük qayğısının və məhəbbətinin daha bir təzahürü idi. Nəhayət, belə bir faktı da qürur hissi ilə demək lazımdır ki, məhz Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikasında ümummilli liderin hələ 1970-ci illərdən başladığı mühüm iş – Azərbaycan dilinə tam Dövlət dili statusu vermək və dövlət idarəçiliyinin bütün sahələrində onun fəal işlənməsini təmin etmək vəzifəsi uğurla həyata keçirilmiş, ana dilimiz cəmiyyətdə öz həqiqi və layiqli yerini tutmuşdur. Bu, Azərbaycan dilinin inkişafı, tərəqqisi, Dövlət dili statusu alması uğrunda Heydər Əliyevin çoxillik və gərgin fəaliyyətinin ən yüksək zirvəsidir.

Ümumiyyətlə, son dövrlərdə bütün dünya miqyasında Heydər Əliyev şəxsiyyətinə marağın nəzərəçarpacaq dərəcədə artdığı müşahidə olunur. Dünyanın müxtəlif ölkələrində, müxtəlif xarici dillərdə Azərbaycan Prezidentinin şəxsiyyətindən, ömür yolundan, siyasi mübarizələrindən bəhs edən kitab və məqalələr nəşr edilmiş və edilməkdədir. Bu nəşrlərin bir çoxunda əsas diqqət Heydər Əliyevin dolğun siyasi portretinin yaradılmasına yönəldilir. Heydər Əliyev isə, sözün həqiqi mənasında, dərin zəkalı, ensiklopedik bilikli, son dərəcə geniş dünyagörüşlü bir şəxsiyyətdir və onun heyrətamiz fəaliyyətini təkcə siyasi mübarizələrlə məhdudlaşdırmaq düzgün olmazdı. Şübhəsiz,

zəmanəmizin böyük ictimai-siyasi xadimi və mütəfəkkiri olan Heydər Əliyevin zəngin irsi hələ öz gələcək tədqiqatçılarını gözləyir. Aydın məsələdir ki, XX əsrin son otuz ilində Azərbaycanda, bütün keçmiş SSRİ məkanında, eləcə də dünya miqyasında gedən prosesləri Heydər Əliyevin şəxsiyyətindən və fəaliyyətindən kənarda təsəvvürə gətirmək mümkün deyildir. Təbii ki, bu da onun haqqında yeni maraqlı tədqiqat əsərlərinin meydana gəlməsinə təkan verəcəkdir. “Heydər Əliyev və Azərbaycan elmi”, “Heydər Əliyev və Azərbaycan ədəbiyyatı”, “Heydər Əliyev və Azərbaycanda ictimai-siyasi fikrin inkişaf mərhələləri” kimi sanballı tədqiqat əsərlərinin meydana çıxacağı şəksizdir. Çünki Prezidentimiz bütün bu sahələrə dair öz qiymətli sözünü demiş, fikirlərini söyləmiş, onların hər birinin inkişafında müstəsna rol oynamışdır.

Bu qəbildən “Heydər Əliyev və Azərbaycan dili məsələləri” mövzusu da son dərəcə geniş və çoxşaxəli mövzudur. Mənim bəxtimə uzun illər boyu Heydər Əliyevlə yanbayan, onun rəhbərliyi altında işləmək səadəti düşmüşdür. Ona görə də öz şəxsi müşahidələrim və qənaətlərim, bilavasitə şahidi olduğum fakt və hadisələr əsasında deyə bilərəm ki, bu vacib mövzunun işlənməsi dərin bilik, geniş yaradıcılıq axtarışları, yüksək istedad və əsl vətənpərvərlik tələb edir.

Heydər Əliyevin natiqlik istedadı, Azərbaycan dilinin ifadə imkanlarından istifadə məharəti, onun şifahi nitqinin mükəmməlliyi və üslub xüsusiyyətləri hətta mütəxəssisləri də heyran edir. Gərgin və misilsiz dövlət quruculuğu fəaliyyəti, ictimai-siyasi və sosial-iqtisadi həyata rəhbərlik, beynəlxalq həyatda görkəmli dövlət xadimi və siyasi xadim kimi fəal iştirakı ilə ümumxalq nüfuzu və məhəbbəti qazanmış Prezident Heydər Əliyev, eyni

zamanda, ən mürəkkəb mövzularda kağızsız-mətnsiz səlis və rəvan dildə çıxışları ilə, nurlu zəkanın və dəqiq məntiqin bəhrəsi olan natiqlik məharəti ilə şöhrət qazanmışdır.

Diqqətəlayiq haldır ki, bəzi dövlət xadimləri silah gücünə, xarici qüvvələrin himayədarlığı ilə hakimiyyətə gəldiyi və hətta bunların da hesabına hakimiyyətlərini qoruya bilmədikləri bir şəraitdə, Heydər Əliyev SÖZLƏ milyonları öz ətrafına səfərbər etmiş, məntiqlə düşmənləri susdurmuş, böyük natiqlik istedadı ilə xalqı sıx birləşdirə bilmişdir. 1994-cü ilin oktyabr dövlət çevrilişi cəhdi zamanı Prezidentin televiziya ilə xalqa müraciətini eşidən on minlərlə adamın bu alovlu çağırışa cavab olaraq, Prezident Sarayının qarşısına toplaşması və Heydər Əliyevi hərarətlə müdafiə etməsi hamımızın yadındadır.

Müasir mərhələdə dil amilindən siyasi mübarizədə və idarəetmə praktikasında Heydər Əliyev qədər məharətlə istifadə etməyi bacaran ikinci bir dövlət başçısı, siyasi lider göstərmək çətindir. Bu da hər şeydən əvvəl, ölkəmizin Prezidentinin ana dilini bütün varlığı ilə sevməsindən, onun incəliklərinə bələd olmasından irəli gəlir. O deyir: “Mən hər bir dilə öz hörmət və ehtiramımı bildirirəm. Amma hesab edirəm ki, öz dilimizlə, Azərbaycan dili ilə hər birimiz fəxr edə bilərik. Çünki bu, zəngin dildir, artıq dünyada tanınmış dildir. Xalqımızın adı da tanınıb, respublikamızın adı da tanınıb, dilimizin adı da tanınıb. Bu, reallıqdır”. Bəli, Heydər Əliyev son üç ildəki titanik, yorulmaz fəaliyyəti ilə təkcə Azərbaycan dövlətinin deyil, Azərbaycan dilinin də nüfuzunu qaldırmışdır.

Heydər Əliyev öz şəxsi nümunəsi ilə dili sevməyi, qorumağı, yaşatmağı öyrədir. Uzun illər rusdilli mühitdə, Azərbaycandan

uzaqlarda yaşamasına baxmayaraq, xalqına və dilinə olan qayğını, diqqəti bir an da olsa azaltmamışdır. Əvvəldə də qeyd etdiyim kimi, dili xalq yaşadır, lakin dilin, bu dildə yaranan ədəbiyyatın, mədəniyyətin inkişafı xalqa rəhbərlik edən dövlət başçısının formalaşdırdığı mühitdən, münasibətlər sistemindən çox aslılıdır. Bu mənada Heydər Əliyev həmişə, ən çətin vəziyyətlərdə belə, Azərbaycan dili üçün ən əlverişli mövcudluq və inkişaf şəraiti yaratmağa çalışıb və buna nail olubdur. Müstəqil dövlətimizdə isə bu iş Prezidentin şəxsi nəzarəti altında daha geniş vüsət almaqdadır.

Qədim türk yazılı abidələrinin birində millətin və dövlətin əbədi mövcudluğu üçün vacib olan üç şərt göstərilirdi – dilini, elini və adət-ənənələrini qorumaq, mühafizə etmək! Heydər Əliyevin müdrik rəhbərliyi ilə bu gün hər üç istiqamətdə dönmədən iş gedir – dilimiz dünyanın siyasi xəritəsində öz yerini tutmuş dövlətimizin rəsmi dilidir, ölkəmizin müstəqilliyi əbədi və dönməz xarakter almaqdadır, xalqımız öz mənəvi irsini qoruyur, inkişaf etdirir və yaşadır. Ən əlamətdar hal da odur ki, bu taleyüklü proseslərə xalqın sınanmış lideri, tarixin sərt dönüş məqamlarında xilaskarı və yolgöstərəni, dilimizin və mənəviyyatımızın mahir bilicisi olan ümumxalq rəhbəri – Prezident Heydər Əliyev istiqamət verir və başçılıq edir.

*"Xalq qəzeti",*
*19 sentyabr 1996-cı il.*

## ÜMUMMİLLİ LİDER:
## TARİXİN SINAĞI VƏ HƏQİQƏT ANI

Biliklərimizin həqiqilik dərəcəsinin, üstün dəyərlərin dərk edilməsi cəmiyyət və dövlətin həyatında çox mühüm problemlərdən biridir. Cəmiyyətin və dövlətin inkişafı ilə bağlı taleyüklü məsələləri saxta və yanlış müddəa və anlayışlar əsasında həll etmək mümkün deyildir. İctimai-siyasi hadisə və prosesləri obyektiv dərk etmək üçün insan onların mahiyyətinə nüfuz etməli, yəni fərdi istək və arzularından, əhval-ruhiyyəsindən asılı olmayaraq, bunlar onun şüurunda təbii, gerçək, mövcud olduqları şəkildə öz təcəssümünü tapmalıdır. Hadisə və proseslər məhz obyektiv məzmuna malik olduqlarına görə onlar haqqında biliklərimiz də həqiqət kimi ortaya çıxmalıdır. Lakin həqiqət məzmun etibarilə obyektiv olsa da, forma etibarilə subyektivdir, çünki o, insanın beynində yaranır, idrakın subyekti kimi onun fəaliyyətinin nəticəsi olaraq reallaşır.

Əgər cəmiyyət və dövlət haqqında ideyalar və anlayışlar, həmçinin təsəvvürlər məzmun etibarilə subyektivdirsə, başqa cür desək, əgər gerçəklik bunlarda təhrif edilmiş, yanlış şəkildə əks olunursa, əgər obyektiv ictimai proseslər məhdud çərçivədə, partiya mənafeləri baxımından qiymətləndirilib səciyyələndi-rilirsə, deməli, onlar yanlış və saxtadır.

Etiraf etmək lazımdır ki, aşkar həqiqətin, obyektiv gerçəkliyin inkar edilməsi bütün zamanlarda, bütün ölkələrdə, bütün siyasətbaz müxalifətlər üçün səciyyəvi olmuşdur. Bu,

həyatın reallığı olsa da, təbii ki, təəssüf doğurmaya bilməz. Çağdaş Azərbaycanda həmin proses daha bariz şəkildə özünü göstərməkdədir.

Bəzi inkarçı qüvvələrin, narazı şəxslərin ictimai proses və hadisələrə, Azərbaycanın siyasi və dövlət liderinin həyatımızdakı yaradıcı roluna münasibəti timsalında bunu daha ətraflı nəzərdən keçirək.

Azərbaycanın sivil, demokratik cəmiyyət quruculuğu mərhələsinə qədəm qoyduğu indiki dövrdə cəmiyyət həyatında gedən mürəkkəb ümummilli proseslərə, ayrı-ayrı hadisə və şəxsiyyətlərə sırf partiya mövqeyindən, qrup mənafeyindən qiymət vermək hallarına tez-tez təsadüf olunur. Həm də qəribədir ki, belə qrup və partiya mövqelərində dayananlar əksər hallarda özlərini demokratik ideya və dəyərlərin hüquqlu sahibləri elan edən müxalifət nümayəndələridir. Onlar sözdə özlərini yeni təfəkkürlü, yeni düşüncəli adamlar kimi qələmə verməyə çalışsalar da, əslində, lənətlədikləri metod və üsullardan o qədər də uzaqlaşa bilmirlər.

Təkcə elə cəmiyyətin "bizimkilərə" və "sizinkilərə" bölünməsini, tarixi proseslərin qaba və naşı şəkildə sadələşdirilməsini, özünə sərf edən qəlib və sxemlərə salınmasını götürək. Belə mövqedə duranlar sözdə bütün bunları son dərəcə böyük cidd-cəhdlə keçmiş kommunistlərin ayağına yazmağa səy göstərir, amma təəssüf ki, konkret işə gələndə özləri də eyni yolla gedir – tarixi proseslərin obyektiv şərhi əvəzinə biz həmin "ideoloqların" "yaradıcılığında" sırf subyektiv istiqamətli fikir və mülahizələrin üstünlük qazandığını görürük. Şübhəsiz, cəmiyyət həyatının bütün sahələrini demokratikləşdirmək missiyasını

özlərinin qeyd-şərtsiz hüququ elan edənlərin bu neobolşevizm meyilləri hər şeydən artıq təəssüf və çaşqınlıq doğurur.

Azərbaycanın XX əsrdəki çox mürəkkəb siyasi tarixi və tarixi şəxsiyyətləri inkarçı müəlliflərin elmi dəlillərdən məhrum, çığırqan ruhlu məqalə və bəyanatlarında yalnız bir müstəvidə – narazı siyasi azlığın qəzəb və hikkə müstəvisində nəzərdən keçirilir. Bunun da nəticəsində belə qələmə verilir ki, guya son yüzillikdə Azərbaycanda iki işıqlı şəxsiyyət, iki milli lider olmuşdur: əsrin əvvəllərində Məmmədəmin Rəsulzadə, əsrin sonunda isə Əbülfəz Elçibəy! İddia olunur ki, Azərbaycan xalqı yalnız iki dəfə öz milli dövlətini qura bilmişdir: 1918-1920-ci illərdə müsavatçıların və 1992-1993-cü illərdə cəbhəçilərin ideoloq və əsas aparıcı qüvvə olduqları siyasi hakimiyyət dövründə! Azərbaycanın XX yüzillikdəki qalan doxsan illik tarixi isə demək olar ki, başdan-başa yalnız bir rənglə – qara rənglə təsvir olunur. Belə müəlliflərə sərf etməyən nə varsa, hamısının üzərindən xətt çəkilir, ayrı-ayrı qüsurlar şişirdilir, uğur və nailiyyətlər isə yerli-dibli inkar olunur. Həm də xalq adından danışmaq hüququnu istisnasız olaraq özlərinin səlahiyyəti sayanlar üç il bundan əvvəl zorla gəldikləri hakimiyyətdən ayrı bir qüvvə yox, məhz xalq tərəfindən necə uzaqlaşdırıldıqlarını unudurlar.

Son vaxtlar özlərinə mövzu tapa bilməyən bəzi "ideoloqlar" ümummilli lider probleminin təhlili üzərində baş sındırırlar. Bu da təsadüfi deyildir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin istər ölkə daxilində, istərsə də onun hüdudlarından kənarda günü-gündən artan nüfuzu, dövlət başçımızın son dərəcə çətin, mürəkkəb şəraitdə ölkənin və xalqın xilaskarı missiyasını öz üzərinə götürməsi və bu işin

öhdəsindən şərəflə gəlməsi, onun nəinki dünya azərbaycanlılarının, eyni zamanda, bütün dünya türklərinin və müsəlmanlarının sevdiyi bir şəxsiyyətə çevrilməsi müəyyən qüvvələrə rahatlıq vermir. Çoxdan bəri ağa qara deməyi özlərinin başlıca "yaradıcılıq" prinsipinə çevirən bəzi yazarlar və onların havadarları Heydər Əliyev fenomenini birmənalı şəkildə inkar etməyə cəsarət göstərməsələr də, dolayı yollarla bu mövzuya toxunur, özlərinin də inanmadıqları xam xəyalları həqiqət kimi qələmə verməyə çalışırlar. Onların yazılarında ara-sıra gözədəyən subyektiv, birtərəfli mülahizələri qısa şəkildə xülasə edəndə belə çıxır ki, SSRİ-nin dağılması və milli azadlıq hərəkatlarının güclənməsi prosesində əvvəlki ictimai quruluş dövründə yetişmiş liderlərdən heç biri ümummilli liderə çevrilə bilmədi, kütlələr tərəfindən o zamana qədər yaxşı tanınmayan bir ictimai-siyasi fiqur isə birdən-birə ümummilli lider oldu. Şübhəsiz, bu yayğın ifadələrin arxasında söhbətin nədən və kimlərdən getdiyini görməmək mümkün deyildir.

Məlum olduğu kimi, ingilis dilində "lider" sözünün mənası "aparıcı, öncül, rəhbər" deməkdir. O da məlumdur ki, zamandan və məkandan ayrılıqda siyasi lider və milli lider yoxdur. Əsl siyasətçi öz millətindən, onun maraq və mənafelərindən ayrı olmadığı kimi, əsl lider də dövrün, zamanın siyasətindən kənarda yetişə və formalaşa bilməz. Buna görə də, məsələn, kommunist partiyasının iqtidarı dövründə yetişən dünya şöhrətli görkəmli dövlət xadiminin yalnız siyasi lider, AXC-Müsavat cütlüyünün qısamüddətli hakimiyyəti dövründə meydana çıxan "bir saatlıq xəlifələrin" isə “”ümummilli lider" sayılması bəzi qrupların həqiqətdən uzaqlaşmaq, xalqı parçalamaq və ictimai fikri yanlış məcraya yönəltmək istəyindən başqa bir şey deyildir.

Heydər Əliyevin Azərbaycan xalqının siyasi-iqtisadi və intellektual-mədəni inkişafına, Azərbaycan dövlətinin tərəqqisinə sərf olunmuş təxminən yarıməsrlik geniş, çoxcəhətli fəaliyyəti üzərindən sükutla keçənlər özlərinin birillik hakimiyyətini geninə-boluna tərifləməkdən, öz-özlərinə əsassız difiramb və mədhiyyələr söyləməkdən yorulmurlar. Məhz bu siyasi özünəməftunluğun, müştəbehliyin nəticəsində onlar, az qala, Azərbaycanda milli şüurun, milli mənlik duyğusunun formalaşması və nəhayət, milli dövlətçilik ənənələrinin yaradılması tarixini də yalnız özlərindən başlayırlar. Heç də təsadüfi deyil ki, son vaxtlar müxalifət mətbuatında AXC-Müsavat cütlüyünün iqtidar dövrü, bir qayda olaraq, “milli hökumət dövrü” kimi səciyyələndirilir. Sual oluna bilər: məgər indi Azərbaycanda hakimiyyətdə olanlar qeyri-millətlərin nümayəndələridir? Yoxsa “milli qüvvə” adlanmaq üçün mütləq AXC üzvü olmaq lazımdır? Çox güman ki, məhz bu məhdud firqəçilik hisslərinin təsiri altında ayrı-ayrı “ideoloqlar” həqiqətə göz yumaraq, artıq geniş kütlələrin yaddaşından silinməkdə olan AXC başçılarını “ümummilli lider” dərəcəsinə qaldırırlar.

Ümummilli lider heç də meydanlarda, mitinqlərdə, qəzet səhifələrində yetişmir. Siyasi reallıqdan uzaq populizm də hamının, ilk növbədə isə, ciddi siyasi dairələrin qəbul etdiyi lideri formalaşdıra bilməz. İnqilabi xarakterli ümummilli siyasi proseslərin dalğasında hakimiyyətə gələn, ancaq təcrübəsizliyi, naşılığı ucbatından həmin proseslərə lazımi istiqamət verə bilməyən, onu millətin və dövlətin mənafeyinə uyğun məcraya yönəldə bilməyən yarımçıq siyasətçilərin siyasi lider mərhələsini keçmədən guya ümummilli liderə çevrilmələri haqqındakı uydurma hər cür elmi-tarixi zəmindən məhrumdur.

Nəhayət, ümummilli liderin guya “xalqın içərisindən” çıxması haqqında söylənilənlər də yeni peyda olmuş “ideoloqların” reallığı öz istəklərinə uyğunlaşdırmaq, hər şeyi öz arşınları ilə ölçmək cəhdlərinin nəticəsidir. Başqa sözlə desək, onlar keçmiş SSRİ dövründə siyasi elitanın liderlərindən olan Heydər Əliyevlə “sadə xalqın nümayəndəsi” Əbülfəz Elçibəyi qarşılaşdırmaqla ikincinin ümummilli liderlik şanslarını qabardırlar. Müdriklərdən birinin dediyi kimi, hər cür müqayisə nöqsanlıdır. İndiki halda isə ümumiyyətlə, hər hansı müqayisədən danışmağa dəyməz. Çünki konkret olaraq, Heydər Əliyevlə müqayisə etmək üçün, heç olmasa, onun gördüyü böyük işlərin onda birini görmək, onun dövlətçilik təfəkkürünün və böyük siyasi təcrübəsinin, uzaqgörənliyinin, rəhbərlik və təşkilatçılıq istedadının onda birinə malik olmaq lazımdır.

Nəhayət, ümummilli lider məsələsini araşdıran və bu zaman tarixi saxtalaşdıran “ideoloqların” fikrincə, başqa bir sistemin daxilində yetişib formalaşan, həmin sistemə xidmət edən siyasi lider guya ümummilli liderə çevrilə bilməz. Yaxın və uzaq tarixi keçmişdən bunun tam əksini sübut edən onlarca misal gətirmək olar. Müxalifət yazarlarının özlərinin ümummilli liderlər siyahısına daxil etdikləri Atatürk əvvəlcə Osmanlı imperiyasına sədaqətlə xidmət edən bacarıqlı generallardan biri idi. Lakin vətənin taleyi tələb etdikdə, bu cəsur general Osmanlı sultanlarının deyil, türk xalqının istəklərinin təmsilçisi və müdafiəçisi oldu. Yaxud Çexoslovakiyadakı “mülayim inqilabın” rəhbəri Aleksandr Dubçeki götürək. Ölkənin kommunist istiqamətli siyasi elitasında təmsil olunmasına baxmayaraq, Dubçek lazımi anda millətinin azadlıq və müstəqillik hərəkatının liderinə çevrildi. Siyasi lider kimi qazandığı nüfuz və təcrübə isə bu

prosesdə onun mövqelərini daha da möhkəmləndirdi. Təsadüfi deyil ki, görkəmli dövlət xadimi Uinston Çörçill Böyük Britaniyanın mənafeləri tələb etdikdə, özünün siyasi baxışlarının hətta bir neçə dəfə dəyişməsinin mümkünlüyünü istisna etmirdi.

Səthi və sxematik təsəvvürlərdən xilas ola bilməyən, yaxud da ən asan yolu öz opponentlərinə müxtəlif yarlıqlar yapışdırmaqda görən bəzi müəlliflər isə bu obyektiv gerçəklikləri dərk etmədiklərindən, ya da onlarla hesablaşmaq istəmədiklərindən Azərbaycanın son illərdəki siyasi tarixini özlərinə sərf edən bir şəkildə "araşdırır", dünyanın siyasi həyatına öz möhürünü vurmuş böyük bir şəxsiyyəti "kommunist" damğası ilə kənarda qoymağa, özlərini isə milli ideyanın yeganə daşıyıcıları kimi qələmə verməyə çalışırlar.

Belə müəlliflərin yazılarında ümummilli lider probleminin diqqət mərkəzinə çəkilməsi heç də təsadüfi deyildir. Adətən, bəsit düşüncəli adamlar özlərində olmayan keyfiyyətlərdən, məziyyətlərdən daha çox danışırlar. Məşhur atalar misalında deyildiyi kimi, boş qabdan daha bərk səs çıxır. Hədər yerə belə haray salanlar yaddan çıxarırlar ki, hər hansı bir siyasi xadimin sözün həqiqi mənasında, əsl liderə çevrilməsi üçün ətrafında qaldırılan boş hay-küy deyil, özünün konkret fəaliyyəti, Vətənin və millətin mənafeyi yolunda gördüyü işlər önəmlidir.

Hazırın naziri olmaq çox asandır. 1988-ci ildən xalqın əlbirliyinin və milli şüurun yüksəlməsinin nəticəsi olaraq başlanan mitinq və nümayişlərin "qəhrəmanları" unudurlar ki, keçmiş SSRİ-nin digər regionları ilə müqayisədə, Azərbaycan xalqının həmin dövrdəki siyasi fəallığı və yetkinliyi Heydər Əliyevin burada 14 il ərzində gördüyü titanik işlərin nəticəsi kimi meydana çıxmışdı. Daha dəqiq desək, Azərbaycanda 1980-

ci illərin axırında baş vermiş milli oyanış, milli azadlıq hərəkatının mənəvi, ideya-siyasi və maddi əsasları 1970-80-ci illərdə düşünülmüş şəkildə və böyük müdrikliklə qoyulmuşdur. Məhz ona görə görkəmli dövlət xadimi Heydər Əliyev təkcə müstəqil Azərbaycan dövlətinə rəhbərlik etdiyi indiki dövrdə deyil, 1970-ci illərdə də bütün xalq tərəfindən qəbul olunan ümummilli lider idi. İmperiya siyasətinin hökm sürdüyü bir şəraitdə o, yalnız böyük dövlət xadimlərinə və mahir siyasətçilərə məxsus bir uzaqgörənliklə Azərbaycan xalqının milli mənlik şüurunun yüksəlməsi üçün əlindən gələni edir, ölkənin gələcək müstəqilliyinin bünövrəsi olacaq qüdrətli iqtisadi zəmin yaradır, bir sözlə, fəhləsindən tutmuş aliminə, kəndlisindən tutmuş məmuruna kimi bütün xalqı güclü və müstəqil Azərbaycan uğrunda gələcək mübarizəyə hazırlayırdı. Bütün bunları inkar etmək müxalifətə heç də hörmət gətirmir.

Parisdə çıxan “Liberasyon” qəzeti özünün 1988-ci il noyabr nömrələrindən birində Azərbaycan xalqının milli-mənəvi inkişafında, yalnız azərbaycanlıların deyil, bütün dünya türklərinin həyati maraq və mənafelərinin müdafiəsində keçmiş Azərbaycan KP MK-nın birinci katibi və keçmiş Sov.İKP MK Siyasi Bürosunun üzvü Heydər Əliyevin mühüm rolundan bəhs edərək yazırdı: “…azərbaycanlılar könüllü şəkildə SSRİ-dəki türk və müsəlman xalqlarının avanqardına çevrilirlər. Heydər Əliyev hətta Siyasi Büronun iclaslarında Bolqarıstandakı türklərin zorla bolqarlaşdırılması istiqamətində Todor Jivkovun yürütdüyü siyasətə öz etirazını bildirməkdən çəkinmir”. Bu gün “ümummilli lider” adlandırılanlar həmin dövrdə bu mövzular ətrafında, ola bilsin ki, yalnız çayxanalarda danışırdılar (hər halda, o dövrdə onların heç bir mətbu çıxışına, “dissident

ədəbiyyatı" nümunəsi adlana biləcək məqaləsinə və s. təsadüf etmirik). Heydər Əliyev isə həmin məsələləri imperiyanın mərkəzində – Kremldə qaldırırdı. Təkcə elə bu faktın özü bu gün Heydər Əliyevi bir siyasətçi kimi Azərbaycanın milli mənafelərindən kənarda qələmə vermək istəyənlərin həqiqətdən nə qədər uzaq olduqlarını və yaxın tarixi keçmişin həqiqətlərini öz arzu və istəklərinə uyğun şəkildə necə vicdansızcasına dəyişdirdiklərini aydın göstərir.

Heydər Əliyev DTK orqanlarında çalışanda da, Azərbaycan KP MK-ya rəhbərlik edəndə də, faktik olaraq, SSRİ Nazirlər Sovetinin işlərini aparanda da, 1988-1990-cı illərin məcburi, lakin nisbi fəaliyyətsizlik dövründə də, yenidən Azərbaycanda hakimiyyət sükanı arxasına qayıtdığı indiki çətin zamanda da – həmişə Azərbaycan xalqının maraq və mənafelərinin real təmsilçisi, fəal qoruyucusu olmuş, bütün qüvvə və enerjisini, təcrübə və zəkasını milli inkişafa, xalqımızın rifahının yüksəlməsinə və ictimai tərəqqiyə sərf etmişdir. Heydər Əliyevin böyük fəaliyyəti sayəsində əvvəlcə keçmiş SSRİ, indi isə tam yəqinliklə demək olar ki, bütün dünya Azərbaycanı tanıdı, onun problemlərinə bələd oldu, bu ölkənin xalqı, onun qədim və təkrarsız mədəniyyəti, bəşər sivilizasiyasına verdiyi görkəmli tarixi simalarla ünsiyyət imkanı əldə etdi. Heydər Əliyev özünün yorulmazlığı və müdrikliyi ilə, cazibədar şəxsiyyəti və zəngin intellekti ilə bütün dünyada Azərbaycanın rəmzinə çevrildi. Əgər bunu bütün dünya görür və təsdiq edirsə, yenidən hakimiyyət iddiasında olan bir qrup narazı azlığın yersiz iddialarını siyasi korafəhmlikdən və əsassız, mənasız inkarçılıqdan başqa nə adlandırmaq olar?

Mütəxəssislər Azərbaycanın görkəmli dövlət xadimi Nəriman Nərimanovun "Ucqarlarda inqilabımızın tarixinə dair" əsəri ilə, həm də bolşevik liderlərinin üzlərinə çırpılan ilk sərt sillə olan bu qiymətli əsərlə yalnız 1990-cı illərin əvvəllərində tanış olmuşdular. Heydər Əliyev isə hələ leninizm ideyalarının hamıya əbədi göründüyü 1970-ci illərdə Leninin müsəlman Şərqində bu ilk böyük opponentinin yubileyini SSRİ miqyasında keçirmiş, onun adını əbədiləşdirmiş, layiqli şöhrətini özünə qaytarmışdı.

O zamanlar Heydər Əliyevin təşəbbüsü və yardımı ilə çəkilən, N.Nərimanovun Azərbaycan xalqı üçün kim olduğunu və hansı işlər gördüyünü kino sənətinin dili ilə ilk dəfə göstərən "Doktor Nərimanov" ("Ulduzlar sönmür") filminin ssenari müəllifi, Azərbaycanın xalq yazıçısı İsa Hüseynov – Muğanna bu filmin Moskva senzorlarının qayçısından qismən də olsa xilas edilməsində respublika rəhbərinin mühüm rolunu xatırlayaraq yazırdı: "Yalnız Azərbaycanın qeyrətli oğlu Heydər Əliyevin incə, həssas qəlbi, xalqına, vətəninə bağlı təfəkkürü "Doktor Nərimanov" filminin bir qismini xilas etdi. Doktorumuzun yubileyini qeyd etdiyimiz günlərdə xalqımız bilməlidir ki, mənim özümün – doktor Nərimanın varislərindən birinin salamat qalıb bu gün xalqıma doğru söz çatdırmağımın səbəbkarı da Heydər Əliyevdir. Filmin Azərbaycan variantını yandıran xəstə millətçilər bilməlidirlər ki, nə doktor Nəriman ölüb, nə Heydər Əliyev, nə də İsa Hüseynov. Xalqımızın ideal mədəniyyəti uğrunda döyüşənlərə ölüm yoxdur". Bu fikrin müəllifi olan İsa Hüseynovu – Azərbaycan ədəbiyyatına "Yanar ürək", "İdeal" kimi əsərlər bəxş etmiş bir sənətkarı milli hisslərin, vətənpərvərlik duyğularının azlığında yəqin ki,

heç kim, hətta ən inkarçı şəxslər də təqsirləndirə bilməzlər. Əksinə, yaxşı olardı ki, onlar yurdu və milləti sevməyi, onun yetirdiyi böyük şəxsiyyətləri qiymətləndirməyi İsa Hüseynov kimi müdrik sənətkarlardan öyrənsinlər. Nəhayət, əgər İsa Hüseynov kimi yüksək milli ruha malik olan ustad yazıçı dövlət başçısını belə qiymətləndirirsə, bunun özü əllərinə təzəcə qələm almış, lakin düzgün istiqamət seçə bilməmiş gənclər üçün ən böyük örnək deyilmi? İnkarçılıq heç vaxt, heç kimə fayda gətirməyibdir. Tarixin ibrət dərslərindən və böyük şəxsiyyətlərin təcrübəsindən öyrənmək isə, şübhəsiz, hər yerdə və hamıya lazımdır.

Nəşriyyatlar Hüseyn Cavidin ayrı-ayrı əsərlərini çap etməyə belə cəsarət etməyəndə, Heydər Əliyevin təşəbbüsü ilə onun cəsədi uzaq, soyuq Sibirdən Azərbaycana gətirilmiş və şairin vətənində böyük təntənə ilə dəfn edilmişdi. Həm də unutmaq lazım deyil ki, o zaman Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd Heydər Əliyevin belə böyük məhəbbətlə yanaşdığı Cavid öz əsərlərində sosializmin, sovet quruluşunun xeyrinə bir söz də deməmiş, əksinə, həyatının sonuna qədər türkçülük, milliyyətçilik ideyalarının tərənnümçüsü kimi tanınmışdı. Əgər Heydər Əliyev milli duyğularla yaşamasaydı, öz millətini sevməsəydi, onun ədəbiyyat və mədəniyyətinin böyük təəssübkeşi olmasaydı, sovet rejimi şəraitində hər hansı siyasi xadimin uğurlu karyerasına son qoymaq üçün kifayət edən belə qorxulu addımları atardımı?

Bu gün "ümummilli lider" axtarışına çıxanların və belə bir lideri başqa ünvanda "tapanların" yadına onu da salmaq istərdik ki, hələ 1970-ci illərdə təkcə bizi istəməyənlər deyil, elə "özümüzünkülər" də Moskvaya qalaq-qalaq məktub və

teleqramlar göndərərək, Heydər Əliyevi millətçilikdə, pantürkizmdə, sosialist beynəlmiləlçiliyinə qarşı çıxmaqda və s. ittiham edir, Moskvadan ona qarşı sərt ölçü götürülməsini istəyirdilər. Lakin bütün bunlara baxmayaraq, Heydər Əliyev öz böyük və nəcib işini görür, xalqı qarşıdan gələn fırtınalara siyasi, mədəni və mənəvi cəhətdən hazırlayırdı.

Azərbaycan dili ilk dəfə Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə tədricən həqiqi dövlət dili statusu aldı, hətta bu tarixi akt ölkəmizin yeni Konstitusiyasında da təsbit edildi. Gəlin razılaşaq ki, sovet rejimi şəraitində, üstəlik də Şərq – müsəlman respublikasında buna nail olmaq heç də asan deyildi. Heydər Əliyevin hakimiyyəti dövründə biz ilk dəfə Cənubi Azərbaycanın adını ucadan çəkə bildilk, cənubda yaşayan milyonlarla həmvətənimizin dərdləri, qayğıları ilə yaxından tanış ola bildik. Bilavasitə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan EA-nın Ədəbiyyat İnstitutunda Cənubi Azərbaycan ədəbiyyatı, Tarix İnstitutunda Cənubi Azərbaycan tarixi şöbələri yaradıldı, Azərbaycan Yazıçılar İttifaqında Cənubi Azərbaycan ədəbiyyatı üzrə katiblik təsis olundu. Beləliklə də, ikiyə parçalanmış xalqın mənəvi-mədəni birliyi yolunda ilk və mühüm addımlar atıldı. Yeri gəlmişkən, Amerika tarixçisi, "Sovet İttifaqı və İran Azərbaycanı. Milli mənsubluqdan siyasi nüfuzetmə vasitəsi kimi istifadə" monoqrafiyasının müəllifi David Nismann Azərbaycanın cənubu ilə şimalı arasında əlaqələr yaradılması baxımından Heydər Əliyevin hakimiyyəti dövrünü ən məhsuldar və intensiv mərhələ adlandırır. Digər məşhur tarixçi Roy Medvedyev isə Heydər Əliyevin Cənubi Azərbaycan problemi ilə İkinci Dünya müharibəsindən az sonra ciddi şəkildə maraqlandığını və regionda bir sıra çətin vəzifələri

yerinə yetirdiyini yazır. Əlbəttə, bu istiqamətdə sonrakı tədqiqatlar tarixçilərin işidir. Biz isə sadəcə olaraq, bu faktları xatırlatmaqla "narazı mətbuatın" səhifələrində ara-sıra, həm də bunu söyləməyə heç bir mənəvi haqqı olmayan adamların müsahibələrində gözə dəyən "Əbülfəz Elçibəy şimallı-cənublu Azərbaycan milli azadlıq hərəkatının lideridir" tipli bəyanatların elmi-tarixi baxımdan zəminsizliyinə və həqiqətə uyğun gəlmədiyinə diqqəti cəlb etmək istərdik.

Yuxarıda da göstərdiyimiz kimi, Azərbaycanda xalqın milli mənlik şüurunun, dövlətçilik təfəkkürünün formalaşmasında Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Onun respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illərdə Azərbaycan geridə qalmış aqrar ölkədən qabaqcıl sənaye-texnologiya və mədəniyyət ölkəsinə çevrilmişdi. 1992-ci ildə ABŞ-da nəşr olunmuş "Azərbaycan türkləri. Dövlət və fərd rus hakimiyyəti altında" monoqrafiyasının müəllifi, azərbaycanşünas professor Odri Aldstadt Heydər Əliyevin 1969-1987-ci illərdəki çoxcəhətli fəaliyyətindən və onun şəksiz lider nüfuzundan bəhs edərək, kitabın "Azərbaycanda Heydər Əliyev erası" fəslində yazırdı: "Bütün güclü siyasi şəxsiyyətlər kimi, Heydər Əliyev də hamını arxasınca apara bilirdi. O, son dərəcə işgüzar və ziyalı bir rəhbər kimi, zəifləmiş iqtisadiyyata yeni nəfəs gətirdi, Azərbaycanın nüfuzunu yüksəltməyə nail oldu. Milli Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin cənazəsinin Sibirdən gətirilməsi və Azərbaycanda dəfn olunması yalnız Heydər Əliyevin sayəsində gerçəkləşə bildi və bu hadisə mühüm rəmzi məna daşıyırdı (müəllif həmin mədəni-siyasi aksiyanın Azərbaycanda milli mənlik şüurunun güclənməsi və milli özünüdərk prosesinə güclü təsirinə işarə edir.

Nəhayət, Heydər Əliyev Siyasi Büronun tərkibinə daxil olan ilk azərbaycanlı lider idi ki, bu da respublikanın nüfuzunun artması, onun siyasi təsir gücünün çoxalması baxımından son dərəcə əhəmiyyətli amil idi". Çox əlamətdar faktdır: Heydər Əliyevə qarşı öz vətənində böhtan və qarayaxma kampaniyasının geniş vüsət aldığı 1992-ci ildə onun siyasi fəaliyyətinə və təcrübəsinə okeanın o tayında belə yüksək qiymət verirdilər.

Azərbaycan incəsənətinin, mədəniyyətinin, ədəbiyyat və elminin görkəmli nümayəndələri məhz respublika liderinin fəal yardımı sayəsində həmin dövrdə layiqli qiymətlərini almışdılar. Yaradıcılıq sahəsində olan sosialist əməyi qəhrəmanlarının sayına görə Azərbaycan o dövrdə bütün müttəfiq respublikaları qabaqlamışdı. Nihilist düşüncəli, inkarçı adamlara bu, keçmişin adi bir statistik göstəricisi kimi görünə bilər. Ancaq unutmayaq ki, əməkləri yüksək qiymətləndirilən həmin şəxsiyyətlər Azərbaycan elmini, ədəbiyyatını və mədəniyyətini, Azərbaycan torpağını, azərbaycanlı düşüncəsini və təfəkkürünü təmsil edirdilər və onların tanınması, şöhrətlənməsi təkcə ayrı-ayrı fərdlərin deyil, bütöv bir millətin öz qiymətini alması idi. Bütün bunlar "sehrli çubuğun", sadəcə, bir hərəkəti ilə başa gəlmirdi. Hamımıza aydındır ki, Moskvanın Azərbaycan fenomeninin etirafı yolundakı hər bir növbəti addımı Heydər Əliyevin böyük nüfuzu, zəhməti, əzmi və inadkarlığı hesabına, yerdə və mərkəzdəki nihilistlərlə, kosmopolitlərlə, vətənsizlərlə mübarizəsi bahasına başa gəlirdi.

Lakin öz millətinə bəslədiyi sonsuz məhəbbət, onu dünyaya tanıtmaq istəyi qarşısında hər hansı siyasi ittiham,

qarayaxma və böhtan kampaniyası Heydər Əliyevə kiçik və əhəmiyyətsiz görünürdü.

Keçmiş SSRİ-də "dissident ovu" başlananda Heydər Əliyev hər vasitə ilə Azərbaycan ziyalılarını qoruyurdu. O dövrdə bir-iki yazıçının, yaxud şairin əsərini mikroskopla oxuyub nə isə tapmaq, əlbəttə, o qədər də çətin iş deyildi. Lakin millətin gen fondunu qorumağı həmişə özünün əsas vəzifəsi sayan Heydər Əliyev heç vaxt buna imkan vermirdi. O dövrün yeganə və ən çox səs-küy salmış siyasi prosesini – ADU-nun müəllimi Əbülfəz Əliyevin (gələcək Əbülfəz Elçibəyin) həbs olunmasını yada salaq. Sonralar Heydər Əliyev mətbuata verdiyi müsahibələrin birində həmin prosesi xatırlayaraq demişdir: "O, necə olub tutulub, necə olub azad edilib, sizə daha düzgün cavab verər. Onun tutulmasında mənim iştirakım olmayıb. Ancaq o necə azad olubsa, başqa adamların tutulmaması üçün necə tədbirlər görülübsə, onun özündən soruşun, deyər sizə". Təbii ki, sonralar biz bu barədə Əbülfəz Elçibəyin heç bir etirafına rast gəlmədik. Halbuki etiraf özü də böyüklükdür, fakt isə faktlığında qalır.

Heydər Əliyev təkcə təcrübəsiz ziyalıları qorumaqla kifayətlənmirdi, ən cəsarətli fikirlər bir çox hallarda onun öz dilindən səslənirdi. Təkcə elə Azərbaycan yazıçılarının 1981-ci ildə keçirilən VII qurultayını xatırlatmaq kifayətdir. Həmin qurultayda Heydər Əliyev yazıçıları onun şəxsi nüfuzuna, şəxsi müdafiəsinə arxalanmaqla xalqımız üçün taleyüklü məsələlərdən daha böyük cəsarət və prinsipiallıqla söz açmağa, daha sərt və barışmaz mövqe tutmağa ruhlandırırdı.

Heydər Əliyevin təşəbbüsü ilə 1970-ci illərin ortalarından başlayaraq, hər il yüzlərlə azərbaycanlı gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilirdi. Bu, respublikaya

yüksək ixtisaslı mütəxəssislərin qayıtmasını təmin etməklə bərabər, həm də Azərbaycanı tanıtmaq, xalqımızın intellektual keyfiyyətlərini, insani xüsusiyyətlərini aşkara çıxarmaq, başqalarına göstərmək məqsədi güdürdü. Yenə də 1970-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış hərbi təmayüllü təhsil müəssisəsi Azərbaycanın yeniyetmə və gənclərində hərbi-vətənpərvərlik duyğularının tərbiyəsində və gələcək milli ordumuz üçün zabit kadrlarının hazırlanmasında xüsusi rol oynadı. Müxalifət liderləri üçün haqlı-haqsız imic yaratmaqla məşğul olanlar, adətən, onların 1988-ci ilə qədərki fəaliyyətlərinin üzərindən sükutla keçirlər. Bu da təbiidir. Çünki həmin vaxta qədər bu "liderlər" nəinki Azərbaycanın ictimai-siyasi, yaxud elmi-mədəni həyatında mühüm rol oynamamış, hətta özlərinin konkret fəaliyyət sahələrində də kifayət qədər tanınmamışdılar. Əlbəttə, siyasətlə məşğul olmaq qərarına gələn adamdan mütləq yüksək elmi dərəcə, ciddi monoqrafiya və kəşflər tələb etmək bəlkə də real deyildir. Hərçənd ki, bunlar da siyasətçinin nüfuzunun və intellektinin göstəriciləridir və cəmiyyəti arxasınca aparmaq istəyən adam mütləq ona nümunə göstərməli, cəmiyyətdə öndər olmağı bacarmalıdır.

Lakin məsələ bundadır ki, 1988-ci ildən sonrakı fəaliyyətlərini əldə bayraq edənlər meydanda özlərindən başqa heç kəsi görmək istəmir, xalqa da bu fikri aşılamağa çalışırlar. Onlar unudurlar ki, xalqın bütün təbəqələrinin qoşulduğu bu ümummilli hərəkatın ilk günlərindən Heydər Əliyev də onun ön sıralarında idi. Qəribə və maraqlı bir paradoks diqqəti cəlb edir – xalqımızın XX əsrdə yetirdiyi bu böyük siyasi xadimə münasibətdə Moskvadakı "kommunistlərlə" Bakıdakı "demokratların"

baxışları hadisələrin başlandığı 1988-ci ildə bir-birinə tamamilə uyğun gəlirdi. Keçmiş SSRİ-nin türk-müsəlman respublikalarının, xüsusən də Azərbaycanın üzərinə yeni səlib yürüşünə hazırlıq görən Qorbaçov mənhus fəaliyyətinə ilk növbədə Heydər Əliyevi ”zərərsizləşdirməklə” başladı. Güman etmək olardı ki, Azərbaycanda vüsət almaqda olan yeni siyasi hərəkatın hələ kifayət qədər təcrübəyə malik olmayan öncülləri də Heydər Əliyev fenomenini diqqətdən yayındırmayacaq, milli birliyə və geniş siyasi koalisiyaya nail olmaq üçün onun kütlələr arasındakı böyük nüfuzundan, siyasi fəhmindən, bilik və bacarığından istifadə edəcəklər. Lakin bunun əksi oldu. Hətta AXC-nin öndə gedənlərindən biri xəcalət çəkmədən bildirdi ki, Heydər Əliyevi dəvət etməkdənsə, erməni ilə əməkdaşlıq daha sərfəlidir (?!). Kimin üçün sərfəlidir?! Təəssüf ki, bu gün əski AXC elitasından ümummilli lider arsenalı kimi istifadə etmək fikrinə düşənlər belə acı həqiqətləri çox tez unutmuşlar.

1988-ci ildən sonra genişlənən milli azadlıq mübarizəsinin liderliyini öz inhisarı altına almağa çalışanlara bir neçə faktı xatırlatmaq istərdik. 1990-cı il yanvarın 19-dan-20-nə keçən gecə sovet qoşunlarının Bakıya soxularaq, dinc əhaliyə divan tutmasından bir neçə saat sonra Heydər Əliyev dərhal respublikamızın Moskvadakı daimi nümayəndəliyinə gəlmiş və burada toplaşanlar qarşısında çıxış edərək, Bakıya qoşun yeridilməsini “hüquqa, demokratiyaya yabançı, humanizmə və hüquqi dövlət quruculuğuna zidd” hərəkət adlandırmış, “qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır” tələbini irəli sürmüşdü. Heydər Əliyev bu qətiyyətli addımı Moskvada, o zamankı sovet rəhbərliyinin, necə deyərlər, lap gözü qabağında etmişdi. İndi özlərini lider adlandıranların bəzilərini isə həmin

dəhşətli və həyəcanlı günlərdə Bakıda gündüz çıraqla da axtarsan, tapa bilməzdin. Halbuki, o zaman kütlənin liderlərə həmişəkindən daha böyük ehtiyacı vardı. Çünki xalq həqiqəti eşitmək, vəziyyətdən çıxış yolları haqqında məsləhət almaq istəyirdi.

Yaxud, keçmiş Azərbaycan SSR Ali Sovetinin 1991-ci ildəki sessiyalarında Heydər Əliyevin çıxışlarını götürək. Həmin çıxışlarda Heydər Əliyev öz zəngin təcrübəsinə əsaslanaraq, Azərbaycanı böhrandan çıxarmaq, Qarabağ düyününü açmaq, ölkədə birliyə və həmrəyliyə nail olmaq, müstəqilliyə aparan yolları aramaq haqqında bir sıra qiymətli təklif və mülahizələr irəli sürmüşdü. 1991-ci il martın 17-də İttifaq referendumunda Azərbaycanın iştirakı məsələsi ilə bağlı müzakirələrdə ən kəskin və sərt fikirlər deputat Heydər Əliyevin nitqində səslənmişdi. O, həmin nitqində deyirdi:

"Azərbaycan xalqının birliyi yeni, demokratik, heç kəsdən asılı olmayan dövlət qurulması yolu ilə təmin oluna bilər. Doğrudur, bu yolda çətinliklər də az olmayacaqdır. Fəqət, nəyin bahasına olursa-olsun, biz buna nail olmalıyıq. Biz bu yola düşməsək, bunu gələcək nəsillər edəcək. Və onlar, tarix bizi bağışlamayacaq. İndi hər bir namuslu, qeyrətli azərbaycanlı gərək öz şəxsi mənfəətlərini, imtiyazlarını unutsun, xalqın aqibəti, bu günü və azad gələcəyi haqqında düşünsün. Xalqın müqəddəratı hər şeydən üstün olmalıdır.

Azərbaycan xalqı birləşməli, öz müqəddəs torpağını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır".

Həmin sessiyada yeni İttifaq müqaviləsi əleyhinə səs verənlərdən biri də Heydər Əliyev idi. O, Azərbaycanın yeni

formalı müstəmləkə boyunduruğu altına çəkilməsinə qətiyyətlə "yox" demişdi. Həm də unutmayaq ki, indiki kimi, o zaman da Heydər Əliyevin bir səsi xalqın nəzərində yüzlərlə adamın səsindən daha etibarlı, daha inandırıcı idi.

Başqa bir fakt. Azərbaycan Respublikasının milli müstəqillik rəmzi olan üçrəngli bayrağı rəsmi şəkildə dövlət idarələrinin üzərində ilk dəfə Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olduğu dövrdə qaldırılmışdır.

Heydər Əliyevin dünyanın ən böyük və ən qüdrətli dövlətlərinin başçıları ilə bərabər səviyyəli danışıqlar aparmasını və Azərbaycan həqiqətlərini onlara özünəməxsus təsir gücü və dəmir məntiqi sayəsində qəbul etdirməsi xalqımız üçün iftixar mənbəyidir. Belə danışıqları uydurma "ümummilli lider" Əbülfəz Elçibəyin hansı səviyyədə aparacağını yəqin ki, siyasətdən uzaq adamlar da aydın dərk edirlər.

Üç il bundan əvvəl keçirilmiş prezident seçkilərində xalqımız dövlətin sükanını kimə etibar etmək istədiyini aydın şəkildə nümayiş etdirdi. Belə vəziyyətdə Əbülfəz Elçibəy və onun havadarları hansı imicə ümid bəsləyə bilərlər?

AXC–Müsavat iqtidarı dövründə Əbülfəz Elçibəy hətta öz silahdaşları arasında da fikir birliyinə nail olmadı, nüfuzunu bərqərar edə bilmədi, davakar "tərəfdarlarının" əlində əsir-yesir oldu və nəticədə Prezident vəzifəsini tərk etməyi "ən şərəfli" üsul hesab etdi. Xalqı, ölkəni darda qoyub ucqar Kələki kəndinə çəkilən "prezident" nə haqla "ümummilli lider" iddiasına düşə bilər?

Belə faktlarin sayını yenə də artırmaq olar. Hər biri istənilən siyasi liderin bioqrafiyasını bəzəməyə layiq olan bu faktlar

Heydər Əliyevin 1988-ci ildən sonra da həmişə siyasi proseslərin mərkəzində olduğunu, milli müstəqillik mübarizəsinin rəhbəri, yolgöstərəni olduğunu, bu yolda indi "ümummilli lider" kimi təqdim edilənlərdən qat-qat çox iş gördüyünü və hazırda da eyni əzmkarlıqla həmin işləri davam etdirdiyini göstərir.

Məhz bütün bunların məntiqi nəticəsi olaraq, xalq dövlətçiliyimiz və milli müstəqilliyimiz üçün təhlükənin, eləcə də vətəndaş müharibəsi təhlükəsinin reallaşmağa başladığı 1993-cü ilin iyununda öz etibarlı oğluna, sınanmış liderinə – Heydər Əliyevə üz tutdu. El gözü isə tərəzidir – o, ağı qaradan, pisi yaxşıdan son dərəcə həssaslıqla seçə bilir.

Bu gün üstüörtülü şəkildə də olsa, Heydər Əliyev şəxsiyyətini və onun böyük, cahanşümul fəaliyyətini təftiş etmək fikrinə düşənlər unudurlar ki, özlərinin birillik hakimiyyəti dövründə qardaş qırğınının, vətəndaş müharibəsinin astanasına gəirib çıxardıqları Azərbaycanın xilaskarı da süni imici yaradılan "ümummilli lider" deyil, məhz Heydər oldu. Xalqın öz sınanmış rəhbərinə olan dərin və sarsılmaz inamı fəlakətin qarşısını almağa imkan verdi. Sui-qəsd və dövlət çevrilişi cəhdlərinə, daxildən və xaricdən körüklənən müxtəlif təxribatlara baxmayaraq, Heydər Əliyev Azərbaycan dövlətçiliyini xilas etdi və indi onun dünya birliyinin tanınan, sayılan üzvlərindən birinə çevrilməsi üçün bütün zəruri addımları atır.

Lap bu günlərdə Bakıdakı rəsmi qəbul zamanı Fransanın xarici işlər naziri Erve de Şarett hər bir azərbaycanlı üçün son dərəcə xoş, həqiqəti dananlar üçün isə ibrətamiz olan bir fikir söyləmişdir. O, respublikamızın müasir dünya siyasətindəki mövqeyinə toxunaraq demişdir: "Bu gün Azərbaycan dünya siyasətində

strateji rol oynayır". Heç kimə sirr deyil ki, Azərbaycanın vur-tut üç il ərzində müasir dünyada belə mühüm mövqeyə çıxması, ilk növbədə, Prezident Heydər Əliyevin yürütdüyü uzaqgörən daxili və xarici siyasətlə, onun beynəlxalq aləmdəki böyük nüfuzu ilə sıx bağlıdır. Bunu artıq bütün dünya etiraf edir.

Ümummilli liderin kim olduğunu beş-üç səriştəsiz jurnalist deyil, xalq müəyyənləşdirir. Xalq isə öz sözünü birmənalı şəkildə demişdir və həmişə olduğu kimi, yenə də Heydər Əliyevlədir. 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişi cəhdləri zamanı Heydər Əliyevin bircə çağırışı ilə yüz minlərlə adamın qanuni dövləti və qanuni Prezidenti qorumaq üçün Prezident sarayının qarşısına və Azadlıq meydanına toplaşması "ümummilli lideri" uzaq dağ kəndlərindən birində axtaranlara ən yaxşı dərs olmalıdır.

Bu gün Azərbaycan xalqının, Azərbaycan dövlətinin həqiqi lideri var. Bu lider gecəsini gündüzünə qataraq, yorulmaq bilmədən xalqı çətin, böhranlı vəziyyətdən qurtarmağa çalışır. Həmin böhrandan mümkün qədər tez qurtarmağımız isə XX əsrin görkəmli siyasətçisinin, əsl milli liderimizin – Prezident Heydər Əliyevin ətrafında sıx birləşməyimizdən, Vətəni onun kimi sevməyimizdən, onun kimi yaşaya və işləyə bilməyimizdən asılıdır. Bunu bilənlər bilir – onların sayı milyonlarladır, – bilməyənlər və bilmək istəməyənlər isə nə qədər tez dərk etsələr, özləri üçün də, bütün xalq üçün də daha yaxşı olar.

*"Azərbaycan" qəzeti,*
*16 oktyabr 1996-cı il.*

# DÖVLƏT MƏTBUATI VƏ TELERADİO ŞİRKƏTİ RƏHBƏRLƏRİNİN İŞTİRAKI İLƏ MÜŞAVİRƏ

1997-ci il oktyabrın 7-də Azərbaycan Respublikası Prezidentinin tapşırığı əsasında Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyevin yanında dövlət mətbuatı və teleradio şirkəti rəhbərlərinin iştirakı ilə müşavirə keçirilmişdir. Məlumat verilmişdir ki, "Azərbaycan" qəzetinin həmin gün çıxmış nömrəsində "Azərkontrakt" Səhmdar Cəmiyyətinin sədri Miri Qəmbərovun və "Azturqaz" müştərək müəssisəsinin baş direktoru Akif Mehdiyevin imzaları ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə ünvanlanmış müraciət xarakterli təbriklər dövlətimizin başçısının kəskin narazılığına səbəb olmuşdur. Qeyd edilmişdir ki, Azərbaycanda dövlət quruculuğu sahəsində görülən işlərin, ölkə başçısının daxili və xarici siyasətinin təbliğində və əhaliyə çatdırılmasında bəzən ifratçılığa yol verilir, Prezidentin fəaliyyətinin əsl mahiyyətini açmaq, izahat işi aparmaq əvəzinə, lüzumsuz məddahçılıq istiqaməti tutulur. Bütün bunlar dövlət başçısının mənəviyyatına, xarakterinə zidd hərəkətlər kimi qiymətləndirilmişdir.

Respublika rəhbərinin adından bir daha ciddi şəkildə bildirilmişdir ki, Prezident Heydər Əliyev belə yazıları öz şəxsiyyəti və mənəviyyatı üçün tamamilə yad və arzuolunmaz bir hal hesab edir və bu qəbildən olan məqalələrin, çıxışların verilməsinə son qoymaq barədə ciddi xəbərdarlıq edir.

"Azərbaycan" qəzetinin baş redaktoru Əmir Mustafayevin nəzərinə çatdırılmışdır ki, qəzetin səhifələrində ifratçı məzmunlu yazıların dərc edilməsi yolverilməzdir. Bu tələb digər kütləvi informasiya vasitələrinə də aid edilmişdir.

Həmin gün Miri Qəmbərov və Akif Mehdiyev Prezidentin İcra Aparatına dəvət edilmiş və onlara da bu barədə xəbərdarlıq olunmuşdur.

*"Azərbaycan" qəzeti,*
*8 oktyabr 1997-ci il.*

## HƏR BİRİMİZDƏN BÖYÜK VƏTƏNDAŞ MƏSULİYYƏTİ TƏLƏB EDƏN TARİXİ SƏNƏD

XXI əsrin astanasında müstəqilliyini əldə etmiş Azərbaycan xalqı qədim tarixə və zəngin ənənələrə malik olan dövlətçiliyini bərpa etmək, milli mənəvi dəyərlərə söykənən və ümumbəşəri ideallardan qidalanan məfkurəsini, öz milli ideologiyasını formalaşdırmaq, azad iqtisadi münasibətlərə əsaslanan, demokratiya prinsiplərini ehtiva və tətbiq edən hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolu ilə inamla irəliləyir. Dövlət suverenliyi və milli müstəqillik xalqın əsrlərlə ürəyində gəzdirdiyi müqəddəs arzunun, ideyanın təntənəsi, neçə-neçə nəsillərin bu ideya uğrunda açıq və gizli mübarizəsinin məntiqi yekunu olub, Azərbaycanın müasir durumunun başlıca keyfiyyət təzahürü kimi çıxış edir. Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyev tamamilə haqlı olaraq, ölkəmizin dövlət müstəqilliyini xalqımızın XX əsrdə qazandığı ən böyük nailiyyət, ən mühüm milli sərvət hesab edir.

Dövlət müstəqilliyi xalqımıza öz milli mənsubiyyətini tam tutumu ilə ifadə etmək, milli mənafelərini maksimum şəkildə reallaşdırmaq imkanları vermişdir. Müstəqillik, azadlıq hissi indiki tarixi mərhələdə xalqın qarşısında duran çətin və mürəkkəb problemlərin özünüdərkin, özünüifadənin, bugünkü və gələcək uğurların fundamental şərtinə və rəhninə çevrilir.

Azərbaycan xalqı yeddinci ildir ki, müstəqil yaşayır. Bu illər əslində, müstəqilliyin qorunub saxlanması, möhkəmləndirilməsi

uğrunda gərgin, bəzən dramatik mübarizə dövrü olmuşdur. İndi tam əsasla deyə bilərik ki, Prezident Heydər Əliyevin düşünülmüş, uzaqgörən, ölçülüb-biçilmiş siyasəti və zəngin dövlətçilik, rəhbərlik təcrübəsi sayəsində ölkəmizdə sabitlik təmin edilmiş və müstəqil Azərbaycan dövləti hərtərəfli inkişaf yoluna çıxarılmışdır. Xalqımız möhtərəm Prezidentimizin rəhbərliyi altında Ermənistan-Azərbaycan münaqişəsinin dinc vasitələrlə nizama salınması, iqtisadi, siyasi və hüquqi islahatların aparılması, ölkənin təbii sərvətlərindən xalqın rifahı naminə istifadə edilməsi, dövlətimizin dünya iqtisadi və siyasi qurumlarına inteqrasiya olunması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi və s. kimi vəzifələri müvəffəqiyyətlə yerinə yetirir. Azərbaycanın xoş sədası mötəbər beynəlxalq məclislərdən getdikcə daha tez-tez eşidilməkdədir, onun dünya birliyində nüfuzu, demokratik, hüquqi, dünyəvi dövlət imici artır. Azərbaycan dövlətinin başçısı Heydər Əliyev dünyanın ən görkəmli siyasi xadimləri arasında yüksək nüfuz, layiqli hörmət qazanaraq, ən mötəbər beynəlxalq sorğuların qalibi olmuşdur. Bütün bunlar Azərbaycanın dövlət müstəqilliyinin nəticəsi olmaqla yanaşı, həm də onun dönməzliyinin, daimi və əbədi xarakter kəsb etməsinin mühüm göstəricisidir.

Xalqımızın dövlət müstəqilliyi əldə etməsi, bir tərəfdən, dünyada, o cümlədən keçmiş Sovetlər İttifaqında gedən siyasi, iqtisadi, ideoloji, geosiyasi proseslərin nəticəsidirsə, digər tərəfdən, millətimizin özünütəsdiqinin təzahürüdür. Buna görə də biz müstəqilliyin əldə edilməsini haqlı olaraq, xalqımızın özünü ifadə etməsi, milli mənliyini təsdiqləməsi, öz tarixini, mənəviyyatını, adət-ənənələrini, əxlaqi dəyərlərini və baxışlarını obyektiv şəkildə bərpa və inkişaf etdirməsi üçün geniş imkanlar

açan tarixi bir şans kimi qavrayırıq. Sübut etməyə ehtiyac yoxdur ki, mənəvi dəyərlərimizi canlandırmadan, milli mənlik hissini coşdurmadan, xalqın soykökünə arxalanmadan milli dövlətçiliyin əbədiyaşar bünövrəsini qurmaq mümkün deyildir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bu münasibətlə haqlı olaraq demişdir: “Xalqımız əsrlər boyu yaşamaq, yaratmaq uğrunda mübarizə aparıb, milli azadlıq uğrunda vuruşub, qurbanlar verib, öz torpağında milli ənənələri, tarixi kökləri əsasında, öz dini, mənəviyyatı əsasında müstəqil dövlət qurmaq arzusunda olub. İndi xalqımız buna nail olub... Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra xalqımızın mənəvi dəyərləri canlanıb, bərpa edilibdir. Azərbaycan xalqı qəhrəman, cəsur, dəyanətli, saf əxlaqlı xalq kimi bütün dünyada tanınıb”.

Hər bir xalq öz tarixində milli mənsubiyyətini təsdiqləyən cəhətləri cilalayaraq, əxlaqi-psixoloji dəyərlərini və keyfiyyətlərini formalaşdırır. Xalqın tarixi nəinki onun kökü, mənşəyi haqqında informasiya mənbəyidir, habelə onun keyfiyyət müəyyənliyi, milli yetkinlik zirvəsinə yüksəlişi xronologiyasıdır. Ona görə də xalqın həyatı, mədəniyyəti, məfkurəsi haqqqında həqiqi bilgiləri onun obyektiv, dəqiq və dolğun tədqiq olunub yaradılmış tarixi vasitəsilə əldə etmək mümkündür.

Azərbaycan xalqının tarixi qədim və zəngin olduğu qədər də keşməkeşli olmuşdur. Azərbaycanlıların neçə-neçə nəsilləri tarixi ədalət uğrunda vuruşmaqla yanaşı, həm də tarixi həqiqəti bərpa etmək uğrunda mübarizə aparıblar. Yalnız Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə

edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlərin açılması tariximizin təhrif edilmiş səhifələrinin yenidən, bu dəfə obyektiv yazılmasına şərait yaradıbdır. Ona görə də hazırda cəmiyyətimiz, ilk növbədə isə, tariximizin tədqiqatçıları qarşısında çox mühüm vəzifələr durur. Prezident Heydər Əliyevin qeyd etdiyi kimi, “tarixə düzgün qiymət vermək, onu düzgün təhlil etmək lazımdır”.

Azərbaycan tarixinin gizli saxlanılan, uzun illər boyu təhrif edilən səhifələrindən biri də xalqımıza qarşı dəfələrlə törədilmiş, lakin indiyədək özünün hüquqi və siyasi qiymətini almamış soyqırımıdır. Çox təəssüf hissi ilə qeyd edilməlidir ki, bu mühüm məsələ uzun illər tədqiqatçıların da diqqətindən kənarda qalmışdır. “Azərbaycanlıların soyqırımı haqqında” Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci il 26 mart tarixli Fərmanı bu boşluğu doldurur, tarixi həqiqəti aşkar edir. Qətiyyətlə deyə bilərik ki, bu Fərman 200 il ərzində Azərbaycan xalqına qarşı törədilən haqsızlıqların indiki və gələcək nəsillərimizə, habelə bütün dünya ictimaiyyətinə çatdırılması baxımından xüsusi dövlət əhəmiyyəti, hətta beynəlxalq əhəmiyyət kəsb edən sənəddir. Özünün ruhu, məzmunu, ideya yönümü ilə bu sənəd yüz illərlə xalqımıza qarşı edilən qəddar cinayətlərin, XX əsrin sonlarında “Dağlıq Qarabağ problemi” şəklində ortaya çıxmış erməni təcavüzünün həqiqi köklərinin öyrənilməsi və dərk edilməsində əvəzsiz tarixi-siyasi mənbə əhəmiyyətinə malikdir.

Prezident Heydər Əliyev “Azərbaycanlıların soyqırımı haqqında” Fərmanında xalqımıza qarşı soyqırımı faktlarının dövlət səviyyəsində ilk dəfə bəyan edilməsi və ona siyasi qiymət verilməsi ilə Azərbaycan xalqı qarşısında daha bir tarixi xidmət

göstərmişdir. Bu Fərmanın imzalanmasını dövlətçilik fəaliyyətinin yalnız adi bir faktı kimi qiymətləndirmək düzgün olmazdı. Belə sənədin qəbul edilməsi dövlət başçısından xalqımızın tarixi taleyinə dərindən bələdlik və obyektiv baxış, əsl vətəndaş cəsarəti və böyük siyasi uzaqgörənlik, müdriklik və iradə tələb edir. Bununla yanaşı, mübaliğəsiz demək olar ki, belə bir addım xalqımızın tarixi haqlarının bərpa edilməsi və qorunması istiqamətində son illər aparılan məqsədyönlü və ardıcıl siyasətin keyfiyyətcə yeni mərhələyə daxil olmasından xəbər verir. Bunu Fərmanın bütün məzmunu və mahiyyəti bariz şəkildə göstərir.

Uzun illər müxtəlif formalarda təcavüzlərə məruz qalan, lakin haqq səsini dünyaya çatdıra bilməyən azərbaycanlılar həmin Fərmanın sayəsində əsl həqiqəti uca səslə bəyan etmək, millətimizi zülmə, sıxıntılara düçar etmiş erməni və digər ünvanlı təcavüzkarların insanlığa yaraşmayan əməllərini konkret faktlarla ifşa etmək imkanı əldə edirlər. Bu həqiqət isə ondan ibarətdir ki, tarixən müxtəlif geosiyasi maraqların amansız burulğanına düşmüş Azərbaycan xalqı son iki əsr ərzində milli, dini və ərazi baxımından sıxışdırılıb, qədim ata-baba torpaqlarının böyük bir hissəsindən çıxarılıb, ardı-arası kəsilməyən təzyiqlər və təqiblər sayəsində taqətdən salınıb, dəfələrlə soyqırımına məruz qalıb, lakin onun etiraz səsi, harayı qəddarcasına boğulub, dünyadan gizlədilibdir.

Bütün bunlara görə “Azərbaycanlıların soyqırımı haqqında” Prezident Fərmanı mühüm siyasi və tarixi əhəmiyyətə malik sənəddir. O, XIX-XX əsrlərdə azərbaycanlılara qarşı ölkəmizin daxilində və beynəlxalq səviyyədə həyata keçirilən soyqırımı siyasətinə, xalqımız əleyhinə tarixi cinayətlərə rəsmi dövlət

səviyyəsində siyasi qiymət verir. Bununla yanaşı, Fərman ermənilərin və onların himayədarlarının çirkin məqsədli fəaliyyəti nəticəsində xalqımızın son iki yüz illik tarixinin bilərəkdən saxtalaşdırıldığını dövlət səviyyəsində bəyan edir. O, həm də baş vermiş kədərli hadisələrin obyektiv araşdırılması və beynəlxalq təşkilatlar tərəfindən bu cinayətlərə ədalətli qiymət verilməsi üçün hüquqi-siyasi baza yaradır. Bu isə təkcə tarixçilərimiz, ümumiyyətlə elmi ictimaiyyətimiz qarşısında deyil, həm də ölkəmizi, xalqımızı beynəlxalq səviyyədə təmsil edən nümayəndələrimiz, ən əvvəl diplomatlarımız qarşısında, eləcə də müxtəlif ölkələrdə yaşayan soydaşlarımız, Azərbaycan diasporu qarşısında mühüm vəzifələr qoyur.

Tarix göstərir ki, Azərbaycan torpaqları hesabına "Böyük Ermənistan" dövləti yaratmaq üçün azərbaycanlıların soyqırımını törətmək ermənilərin uzunmüddətli çirkin, azğın milli məqsədidir və bunu hər bir azərbaycanlı dərk etməlidir. Fərmanda Azərbaycan ərazisinin işğalçılar tərəfindən parçalanması, əhalisinin ağır müsibətlərə düçar edilməsi, son iki əsrdə əvvəlcə çar Rusiyasının, sonralar isə totalitar sovet rejiminin bilavasitə yardımı və himayəsi ilə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi düşünülmüş, məqsədyönlü soyqırımı siyasəti mərhələ-mərhələ açıqlanır və təkzibedilməz bir məntiqlə ifşa olunur.

Sənəddə qeyd olunduğu kimi, həqiqətən də bu soyqırımı siyasətinin ilkin mərhələsi Gülüstan və Türkmənçay müqavilələri nəticəsində Azərbaycan torpaqlarının yadelli qəsbkarlar tərəfindən parçalanaraq işğal edilməsi və həmin ərazilərə başqa ölkələrdən ermənilərin köçürülməsi ilə başlanır. Məhz həmin dövrdə ermənilər tarixi Azərbaycan torpaqları olan

İrəvan, Naxçıvan və Qarabağ xanlıqları ərazilərində məskunlaşdırıldı və orada yaşayan azərbaycanılarla müqayisədə son dərəcə azlıq təşkil etmələrinə baxmayaraq, "Erməni vilayəti" adlı süni inzibati-ərazi bölgüsü yaradılmasına nail oldular. Bununla da azərbaycanlıların öz əzəli torpaqlarından qovulması və məhv edilməsi siyasətinin əsası qoyuldu və Fərmanda qeyd edildiyi kimi, soyqırımı Azərbaycan torpaqlarının işğalı strategiyasının ayrılmaz tərkib hissəsinə çevrildi. On ildən bəri davam edən və xalqımızı ağır məhrumiyyətlərə məruz qoyan Dağlıq Qarabağ separatçılığı bu strategiyanın növbəti təzahürüdür.

Prezident Fərmanının əhəmiyyəti onun tarixi hadisələrə siyasi qiymət verməsi ilə məhdudlaşmır. Bu Fərman keçmiş tariximizə və bugünkü proseslərə baxışları köklü surətdə dəyişdirməyi nəzərdə tutan çox mühüm dövlət sənədi, konseptual siyasi baxışlara əsaslanan metodoloji bazadır. Bu Fərman dünya miqyasında öz mövqelərini getdikcə möhkəmləndirən müstəqil Azərbaycan dövlətinin haqq səsidir, ədalət harayıdır, bütün dövlətlərlə bərabərhüquqlu münasibətlər qurmağı və öz maraqlarını müdafiə etməyi bacaran dövlətin milli manifestidir. Fərmanın həm bütünlükdə məzmunu, həm də ayrı-ayrılıqda müxtəlif müddəaları hər bir vətəndaş və ümumən cəmiyyət qarşısında çox mühüm vəzifələr irəli sürür. Qısa şəkildə həmin vəzifələri aşağıdakı kimi ifadə etmək olar:

Fərmanda 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrinin Azərbaycan xalqının və torpaqlarının parçalanmasının əsasını qoyması kimi səciyyələndirilməsi, əslində, həmin dövrdən bu günə qədər Azərbaycan tarixinə yeni, saxtakarlıqdan uzaq, obyektivliyə əsaslanan mövqedən

yanaşmaq, onun yeni konsepsiyasını yaratmaq zərurətini irəli sürür. Etiraf etməliyik ki, uzun illər Azərbaycan xalqına qarşı yeridilən mənfur sıxışdırma siyasətinin və ermənilərin törətdikləri soyqırımının ört-basdır edilməsində, tariximizin saxtalaşdırılmasında bizim ictimai elmlərin nümayəndələrinin günahı da az deyildir. Onlar kommunist ideologiyasının obyektivlikdən çox uzaq olan, tarixi faktları təhrif edən “xalqlar dostluğu” felinə uyaraq, əsl həqiqətləri nəinki dünya ictimaiyyətinə, heç öz gənc nəslimizə belə çatdıra bilməyiblər. Bununla əlaqədar son iki yüz illik tariximizin yenidən işlənməsi tarixçilərin və bütünlükdə ictimai elmlərimizin əsas vəzifəsi kimi qarşıda durur. İnanmaq olar ki, humanitar elm nümayəndələrimiz, siyasətçilər, politoloqlar, jurnalistlər, bütün yaradıcı ziyalılarımız Prezident Heydər Əliyevin bu Fərmanından düzgün nəticə çıxaracaq, xalqımızın qədim və zəngin tarixinə yenidən nəzər salacaq, həqiqi tariximizi yazıb, olduğu kimi dünyaya çatdıracaqlar. Bu zaman onlar qeyri-səmimilikdə, qeyri-ardıcıllıqda təqsirləndirilməkdən çəkinməyərək, öz səhvlərini cəsarətlə etiraf etməlidirlər. Millətimizin gələcək taleyi bunu qətiyyətlə tələb edir.

Sübut etməyə ehtiyac yoxdur ki, 1988-ci ildə ortaya atılan qondarma “Dağlıq Qarabağ problemi”ndə, Xocalı faciəsində, 1990-cı ilin 20 yanvar Bakı qırğınında və digər antiazərbaycan vəhşiliklərində öz əksini tapan soyqırımının kökləri Rusiya imperiyasının “Qafqaz yürüşünə”, XIX əsrin əvvəllərinə, yuxarıda xatırladılan müqavilələrin imzalanması ilə nəticələnən geosiyasi proseslərə və münasibətlərə gedib çıxır. İki yüz il ərzində azərbaycanlıların mərhələ-mərhələ öz tarixi torpaqlarından sıxışdırılıb çıxarılmasının əsl səbəblərini və bu

proseslərin həm iştirakçılarının, həm də havadarlarının (bəlkə də prosesin həqiqi sahiblərinin) qarşıya qoyduqları məqsədlərin mahiyyətini aşkara çıxara bilərik. Bu modeli isə yalnız Prezident Fərmanının yalnız tariximizin yeni konseptual modeli zəminində dərin məna çalarlarını yüksək vətəndaş məsuliyyəti və cəsarəti ilə dərk edən vətənpərvər alimlərimiz yaratmalı və həyata keçirməlidirlər.

İrəli sürülən vəzifəni sırf elmi-idraki məzmunlu və yönümlü problem kimi təqdim etmək səhv olardı. Əgər məsələyə siyasi prizmadan yanaşaraq, onun praktik məqsədini daha düzgün müəyyənləşdirib həyata keçirmək lazımdır. Burada söhbət azərbaycanlıların son iki yüz ildə, o cümlədən yaşadığımız dövrdə üzləşdiyi təzyiqlərin, soyqırımı hadisələrinin səbəbləri və köklərinin düzgün araşdırılması və obyektiv qiymətləndirilməsi ilə məhdudlaşmır. Yuxarıda qeyd etdiyimiz kimi, öz-özlüyündə bu vacibdir. Lakin əsas məqsəd və vəzifə ondan ibarətdir ki, bu xarakterli hadisələrin səbəblərinə ayıq nəzərlə baxaq, gələcəkdə belə faciələrin təkrar olunmaması üçün onların qarşısını vaxtında ala bilək. Bunun üçün isə, ilk növbədə, gənc nəsli və gələcək nəsilləri xalqımızın gözəl mənəvi-əxlaqi dəyərləri ruhunda, vətənpərvərlik qayəsi əsasında tərbiyə etmək, milli biganəliyin, tariximizə və müsibətlərimizə etinasız münasibətin aradan qalxmasına nail olmaq, mümkün ola biləcək yeni sınaqlar qarşısında xalqımızın öz qədir-qiymətini dərk edən vahid, mübariz, qətiyyətli bir millət kimi formalaşmasını təmin etmək lazımdır.

Prezidentin Fərmanı xalqımızın tarixi yaddaşının bərpası və möhkəmləndirilməsi, milli dəyərlərə və milli hisslərə söykənən mənəvi-əxlaqi tərbiyə sahəsində də mühüm vəzifələr irəli sürür.

Bunun üçün saxtalaşdırılmış erməni tarixi zəminində azərbaycanlılara qarşı yeridilən erməni siyasətinə ən layiqli cavab tarixi həqiqətlərin hər bir azərbaycanlıya çatdırılmasıdır. Mənfur məqsədləri hər birimizə məlum olan erməni düşmənçiliyinin və ekstremizminin xalqımıza qarşı törətdiyi soyqırımı dəhşətlərinin aşkarlanması, gənclərə izah edilməsi onların milli şüurunun, idrakının inkişafında, vətənpərvərlik tərbiyəsində əsas istiqamət olmaqla yanaşı, həm də keçmişimizin acı reallıqlarının bir daha təkrar olunmaması üçün milli yaddaş fenomeninə və ciddi xəbərdarlığa çevrilməlidir. Tarixi unutqanlığımız və biganəlik üzündən müxtəlif dövrlərdə xalqımızın düçar olduğu faciələrin Azərbaycan övladlarının tərbiyəsində (subyektiv və obyektiv amillərə görə) həlledici amilə çevrilə bilməməsindən lazımi nəticə çıxarmağın vaxtı çoxdan çatıbdır. Xalqımız müstəqillik şəraitində öz şərəfli tarixini yaşayaraq keçmişimizin qanlı səhifələrini, yaralarını da unutmamalıdır. Bunun üçün gənclərimizdə ideya-siyasi və mənəvi mübarizlik hisslərini gücləndirməliyik.

Azərbaycanlıların soyqırımı tarixinin gənc nəslin təlim-tərbiyəsinin mühüm, bəlkə də həlledici elementi kimi tədqiq edilib yazılması cəmiyyəti düşündürən ən aktual problemlərdən biri olmalıdır. Belə bir cəhətə xüsusi diqqət yetirilməlidir ki, ermənilərdən fərqli olaraq, azərbaycanlılar qısasçılıq hissinə qapılmasalar da, öz tarixi haqlarını qorumaqda və bərpa etməkdə daha güzəştə getməyəcəklər.

Fərmanın xalqımıza qarşı törədilmiş haqsızlıqların və cinayətlərin üstünü açmasında, bunları həm bugünkü, həm də gələcək nəsillərə çatdırmaq zərurətini vurğulamasında ifadə olunan tarixi əhəmiyyəti bu işə bütün cəmiyyətin qoşulmasını

şərtləndirir. Hər bir azərbaycanlı tam məsuliyyətlə dərk etməlidir ki, torpaqlarımızın parçalanması, zəbt olunması, xalqımızın soyqırımına məruz qalması vətəndaşlıq duyğularını gücləndirən, milli məfkurəni ötəri hisslərdən və məqsədlərdən təmizləyən tarixi yaddaşa çevrilməlidir. Ona görə də mövqeyindən, əqidəsindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, hər kəs Prezidentin Fərmanının tarixi əhəmiyyətini dərk etməli və orada irəli sürülən vəzifələrin həyata keçirilməsi işinə öz töhfəsini verməyə mühüm vətəndaşlıq borcu kimi yanaşmalıdır. Bu vəzifələrin reallaşması bütün cəmiyyətin, dövlət və qeyri-dövlət strukturlarının, ictimai-siyasi təşkilat və partiyaların, habelə xaricdə yaşayan soydaşlarımızın səylərinin birləşməsini tələb edir. Bu ümummilli siqlətli məsələdə iqtidar-müxalifət bölgüsü qətiyyən yolverilməzdir, çünki əks-təqdirdə, həmin parçalanmanın səbəbkarları düşmən dəyirmanına su tökmüş olurlar.

Azərbaycanlılara qarşı uzun illər boyu davam etmiş soyqırımı tarixinin öyrənilməsi və bu insanlıqdankənar əməllərin düzgün qiymətləndirilməsi xalqımızın mənəviyyatına, milli qüruruna və mənliyinə qarşı yönəlmiş azğın təxribat və böhtanlara son qoymaq baxımından da tutarlı dəstavüz ola bilər. Bu həm də ona görə vacibdir ki, belə təxribat və böhtanlar əslində ölkəmizə, xalqımıza qarşı zaman-zaman hərbi və siyasi təcavüzlər üçün ideoloji zəmin rolunu oynayır. Xalqımıza qarşı aparılan soyqırımı özünün hüquqi-siyasi qiymətini indiyədək almadığı üçün Azərbaycanın haqq işi uğrunda ədalətli mübarizəsi bütün dövrlərdə çətinliklərlə qarşılaşmalı olmuşdur. Ölkəmizə və xalqımıza qarşı yönəlmiş təxribatlara vaxtında qiymət verilməməsi, eləcə də o dövrdə milli birliyin, dövlətçilik təcrübəsinə malik liderin olmaması Dağlıq Qarabağ ətrafında

Ermənistan-Azərbaycan münaqişəsinin əsl səbəblərinin dünyaya vaxtında çatdırılmasına böyük əngəllər törətmişdir. Buna görə də azərbaycanlıların soyqırımı hadisələrinin tarixi faktlar əsasında geniş dünya ictimaiyyətinə bəyan olunması Dağlıq Qarabağ münaqişəsi zəminində xalqımızın pozulmuş hüquqlarının, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində aparılan çoxşaxəli işin mühüm tərkib hissəsinə çevrilməlidir. Azərbaycanlıların soyqırımının bütün dəqiqliyi ilə dünya birliyinə çatdırılması onilliklər ərzində uydurulmuş “məzlum, yazıq erməni milləti” obrazını dağıtmaq üçün də ən tutarlı vasitə ola bilər.

Ölkə Prezidentinin xalqımızın tarixi keçmişinin qaranlıq səhifələrinə işıq saçan bu Fərmanı taleyüklü fundamental məsələlər irəli sürdüyünə görə, bütün Azərbaycan xalqının diqqətini cəlb edib, cəmiyyətimiz tərəfindən birmənalı şəkildə yüksək qiymətləndirilibdir. Xalqın bütün təbəqələri onun əhəmiyyətini, vacibliyini və dəyərini dərk edərək, qarşıya qoyulan vəzifələrin həyata keçirilməsində yaxından iştirak etmək əzmini bildirir. Fərmanda qaldırılan problemlər ətrafında intensiv diskussiyalar aparılır, elmi konfranslar, ictimaiyyətin toplantıları keçirilir. Dövlət mətbuatı Fərmanda qoyulan problemlərin işıqlandırılmasına və reallaşdırılmasına geniş yer verir. Milli Məclis Prezidentin bu Fərmanı ilə bağlı xüsusi sessiya keçirmiş, azərbaycanlıların soyqırımı haqqında bəyanat qəbul etmiş, beynəlxalq təşkilatlara, dünya ölkələrinin parlamentlərinə və hökumətlərinə müraciət etmişdir ki, son iki əsrdə erməni millətçilərinin və onların havadarlarının azərbaycanlılara qarşı törətdiyi soyqırımı cinayətini tanısınlar, gələcəkdə soyqırımı cinayətlərinin cəzasız qalmasının qarşısını almaqdan ötrü təsirli beynəlxalq hüquq mexanizmləri yaradılması işini tezliklə başa çatdırsınlar.

Azərbaycan Respublikasının Milli Məclisi azərbaycanlıların soyqırımı tarixi ilə əlaqədar əsl həqiqətin açılması və tarixi ədalətin bərpası naminə, habelə gələcəkdə azərbaycanlılara qarşı yeni-yeni cinayətlərin qarşısının alınması məqsədi ilə bəyan etmişdir ki, demokratiya yolu tutmuş Azərbaycan dövləti erməni millətçilərinin və onların antiazərbaycan ruhlu himayədarlarının XIX-XX əsrlərdə dəfələrlə xalqımıza qarşı soyqırımı törətdiklərini qətiyyətlə dünya ictimaiyyətinə çatdırmaq üçün bütün mövcud üsul və vasitələrdən istifadə edəcəkdir.

Tarixin acı həqiqətlərinin ibrət dərsi ondan ibarətdir ki, azərbaycanlılara qarşı iki yüz il davam edən soyqırımı həmin faciələrin əsl səbəbkarlarının kölgədə, cəzasız qalması sayəsində mümkün olmuşdur. Buna görə də xaricdə təbliğat işimizin bütün gücü və əsas istiqaməti azərbaycanlıların soyqırımı tarixinin tam təfərrüatı ilə dünya ictimaiyyətinə çatdırılmasına yönəldilməlidir. Azərbaycan Prezidenti bununla əlaqədar Birləşmiş Millətlər Təşkilatını, ATƏT-i, dünyanın bütün nüfuzlu təşkilatlarını tarixdə ən amansız milli qırğın olan azərbaycanlıların soyqırımı haqqında məlumatlandırmaq, bu istiqamətdə genişmiqyaslı tədbirlər sistemi və uzunmüddətli dövrü əhatə edən xüsusi dövlət proqramı hazırlamaq barədə göstəriş vermişdir.

Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı həmin Fərmanda irəli sürülmüş müddəalar və cənab Heydər Əliyevin tapşırığı əsasında bu vəzifələrin həyata keçirilməsi üçün işə başlamışdır.

Azərbaycan xalqının indiki və gələcək nəsillərinin siyasi yetkinlik, vətənpərvərlik, mənəvi tərbiyəsinin və milli məfkurəsinin formalaşmasının soyqırımı həqiqətləri üzərində

köklənməsini təmin etmək məqsədi daşıyan bu ümummilli proqramın layiqincə həyata keçirilməsi bütün ictimai-siyasi qüvvələrin səylərini birləşdirməyi nəzərdə tutur. Ümid etməyə tam əsas var ki, unudulmuş həqiqətlərin yada salınması ilə tarixi yaddaşımızı bərpa etmək istiqamətində birgə səylər cəmiyyətimizdə milli birliyi daha da möhkəmləndirən səmərəli amil kimi də çox əhəmiyyətli funksiya yerinə yetirə biləcəkdir.

"Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı tarixi həqiqətlər üzərindən qadağanı götürməklə yanaşı, müasir Azərbaycan dövləti ilə bağlı reallıqların mahiyyətinin dərk edilməsində də mühüm meyar rolunu oynayır. Ermənilərin və onların havadarlarının azərbaycanlılara qarşı uzun illər ərzində törətdikləri soyqırımı faktlarının üstünün açılıb bütün dünyaya bəyan edilməsi, eyni zamanda, Dağlıq Qarabağ münaqişəsi zəminində ölkəmizin pozulmuş hüquqlarının bərpa olunmasında çox təsirli vasitə rolunu oynaya bilər.

Bütün bu deyilənlər "Azərbaycanlıların soyqırımı haqqında" Prezident Fərmanının böyük tarixi və siyasi əhəmiyyətini vurğulamaqla bərabər, həm də cəmiyyətin bütün təbəqələrinin, elmi ictimaiyyətin, ictimai-siyasi qüvvələrin, hər bir vətəndaşın ona böyük məsuliyyət və yüksək vətənpərvərlik mövqeyindən yanaşması zərurətini şərtləndirir. Milli mənafeləri uca tutan, xalqımızın tarixi haqlarının müdafiə edilməsinə vətəndaş məsuliyyəti göstərən hər bir azərbaycanlının bu Fərmanda irəli sürülən vəzifələrə diqqətlə yanaşacağı, milli yaddaşımızın qəti şəkildə, birdəfəlik bərpa edilməsi işində yaxından və fəallıqla iştirak edəcəyi şübhə doğurmur. Unutmamalıyıq ki, xalqımızın tarixində baş vermiş elə hadisələr var ki, ona münasibətdə

cəmiyyətin bütün təbəqələri eyni mövqedən çıxış etməlidir. Bu məsələdə heç kim kənarda qala bilməz. Bununla da biz erməni soyqırımının qurbanı olmuş çoxsaylı soydaşlarımızın müqəddəs ruhu qarşısında gecikmiş borcumuzu qismən ödəyər, parçalanmış, zəbt olunmuş və işğal edilmiş tarixi Azərbaycan torpaqlarının bərpasına öz vətəndaşlıq xidmətimizi göstərərik.

*"Azərbaycan" qəzeti,*
*16 aprel 1998-ci il.*

## DEMOKRATİK AZƏRBAYCAN VƏ MÜSTƏQİL MƏTBUATIN İNKİŞAFI

Kütləvi informasiya vasitələri müasir dövrdə cəmiyyət həyatının bütün sahələrinə güclü təsir göstərən qüdrətli təsisatlardan biridir. İctimai rəyin formalaşmasında, ictimai-siyasi proseslərin inkişaf istiqamətlərinin müəyyənləşməsində onun rolu və əhəmiyyəti son dərəcə böyükdür. Ölkədə və dünyada baş verən bir sıra mühüm siyasi-ictimai və mənəvi proseslərin ölkə ictimaiyyəti tərəfindən dərk edilərək qiymətləndirilməsi, əsasən, kütləvi informasiya vasitələrinin fəaliyyəti sayəsində mümkün olur. Müasir cəmiyyətdə çox önəmli rol oynayan mətbuatın siyasi münasibətlərə və proseslərə yaxından nüfuz etmək imkanları da nəzərə alınsa, onun rolunun və məsuliyyətinin kifayət qədər böyük olduğuna heç bir şübhə yeri qalmır. Təsadüfi deyil ki, ictimai rəyə təsir göstərmək imkanlarına görə kütləvi informasiya vasitələrini məcazi mənada dördüncü hakimiyyət adlandırırlar.

Azad, müstəqil mətbuat demokratiyanın əsas atributlarından biri kimi də böyük əhəmiyyət kəsb edir. O, bir tərəfdən, cəmiyyətdə demokratik prinsiplərin bərqərar olmasında öncül rol oynayır, digər tərəfdən isə, demokratiyanı səciyyələndirən əsas göstəricilərdən biri kimi çıxış edir.

Demokratik inkişaf yolu seçmiş müstəqil Azərbaycan dövləti demokratiyanın daimi atributlarından biri olan azad, müstəqil mətbuatın formalaşması istiqamətində diqqətəlayiq addımlar

atmışdır və atmaqdadır. Ölkəmizdə söz, fikir, mətbuat azadlığının təmin edilməsi, tam sərbəst şəraitdə yüzlərlə qəzet və jurnalın nəşri həm demokratiyanın hərtərəfli qərar tapması, həm də mətbuat azadlığının maneəsiz həyata keçirilməsi üçün lazım olan bütün şəraitin yaradıldığından xəbər verir.

Mətbuat azadlığının böyük əhəmiyyətini qeyd etməklə yanaşı, onu da xüsusi vurğulamalıyıq ki, bu azadlıq mücərrəd mahiyyət daşımamalı, konkret məna və istiqamətə malik olmalıdır. Mətbuatın azad və sərbəst fəaliyyəti üçün bütün lazımi şərtləri təmin etməklə biz qarşımıza məqsəd qoyuruq ki, ölkəmizdə çıxan qəzetlər, fəaliyyət göstərən kütləvi informasiya vasitələri hər şeydən əvvəl Azərbaycan həqiqətlərinə xidmət etsin, xalqımızın keçdiyi yolu, qarşılaşdığı çətinlikləri, onun uğur və problemlərini doğru-düzgün, obyektiv işıqlandırsın, cəmiyyətimizin demokratikləşməsinə və tərəqqisinə xidmət göstərsin. Bunu yaşadığımız dövrün mürəkkəbliyi, onun xalqımızın qarşısında qoyduğu taleyüklü məsələlər də, Azərbaycan jurnalistikasının beşiyi başında dayanmış Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Üzeyir bəy Hacıbəyov, Əhməd bəy Ağayev kimi işıqlı qələm sahiblərinin qoyub getdiyi milli ruh və demokratik amallar üzərində köklənmiş qəzetçilik ənənələri də tələb edir.

Lakin təəssüflə etiraf etmək lazım gəlir ki, həqiqi azad mətbuata keçid o qədər də asanlıqla başa gəlmir və bir sıra hallarda bu azadlığın düzgün dərk edilməməsi ortaya ciddi çətinliklər çıxarır. Həqiqətə və obyektivliyə xidmət əvəzinə, bəzən mövcud reallıqları təhrif edir, yaxud da onu subyektivliyin əyri güzgüsündə göstərir.

Ölkəmizdə söz və mətbuat azadlığı adı altında xaos mətbuatı yaratmaq, jurnalist peşəsinin ləyaqət və məsuliyyətini şübhə altına almaq meyilləri bu gün artıq həyatımızın acı reallığına çevrilməkdədir.

Özünü müstəqil sayan, oxucuya doğru, düzgün, obyektiv informasiya verməyi vəd edən bəzi qəzetlərin səhifələrində ölkəmizdəki proseslərin həqiqi mahiyyətinin təhrif edilməsi, dövlət həyatına, respublikamızın daxili və xarici siyasətinə dair yalan məlumatların, çaşdırıcı xəbərlərin yayılması, böhtanların, təhqirlərin, şəxsiyyətin ləyaqətini alçaldan yazıların çap olunması insanlarda bu vaxta qədər obyektivlik etalonu kimi qəbul edilən mətbuatın yüksək adına şübhələr yaradır, onun cəmiyyət həyatındakı yeri və funksiyası üzərinə kölgə salır. Ən təhlükəli cəhət odur ki, müxalifət mətbuatı ictimai funksiyasını itirərək, şəxsi məqsədlər güdən ayrı-ayrı qrupların tribunasına, siyasi oyunların qurbanına çevrilir, müxtəlif siyasi intriqalarda xoşagəlməz qızışdırıcılıq rolunu yerinə yetirir. Təəssüflə qeyd etmək lazımdır ki, oxucu marağından və oxucu azlığından ehtiyac çəkən əksər qəzetlərin səhifələri dedi-qodularla, yalan, böhtan və şantajla, fitnəkar xarakterli materiallarla, ucuz "bulvar demokratiyası" ilə doludur. "Küçə demokratiyası" xəstəliyinin, "meydan psixologiyası"nın müxalifətin müəyyən dairələrinin şüurunda və davranışında dərin kök atması və bunun da öz əksini, ilk növbədə, mətbuatda tapması ciddi narahatlıq doğurmaya bilməz. Maliyyə cəhətdən siyasi partiyalarla sıx bağlı olan mətbuat hadisələrə öz himayədarlarının prizmasından baxmaq zorundadır. Buna görə də siyasi müxalifət kimi, onun mətbuatında da yeni dəyərlər sisteminə keçilməsi, dövlət quruculuğu, iqtisadi islahatlar, mədəniyyətin dirçəldilməsi və s.

sahələrdə əldə edilən uğurlara qısqanclıqla yanaşılır, irəliləyişlər hər vasitə ilə arxa plana sıxışdırılır.

Ümumiyyətlə, dövlət həyatının bütün sahələri ilə bağlı məsələlərdə müxalifət qəzetləri daha çox dövlətin yeritdiyi siyasəti gözdən salmaq məqsədi daşıyır. Müxalifətin çoxsaylı kütləvi informasiya vasitələrində Azərbaycanda son illərdə həyatın müxtəlif sahələrində nəzərəçarpan irəliləyişlər haqqında heç bir müsbət fikrə təsadüf edilməməsi acı təəssüf doğurur və müxalifət mətbuatının siyasi ambisiyalara qapılaraq, ümummilli maraqlar və vətənpərvərlik mövqelərindən çıxış edə bilmədiyini göstərir.

Qeyri-konstruktiv yol tutmuş bu qəzetlərdəki yazılar sağlam ictimai rəy formalaşdırmağa, mövcud problemlərin həlli yollarını axtarıb tapmağa deyil, əksinə, son beş ildə Azərbaycan Respublikası Prezidentinin səyi, onun yeritdiyi uğurlu siyasət nəticəsində yaradılmış ictimai sabitliyi, həmrəyliyi pozmağa yönəldilibdir.

Son illər Azərbaycanda xalqın ruhuna və mentalitetinə yad olan ifrat radikalizm, ekstremizm və irticaçılıq mərəzinə yoluxmuş müxalifətçi meyillər və çağırışlar, nəyin bahasına olursa-olsun, Azərbaycanda yenidən xaos və anarxiya mühiti yaratmağa çalışan ayrı-ayrı siyasətbazların və onların təmsil olunduqları xalqa zidd qurumların çürük fikirləri mətbuata da öz mənfi təsirini göstərmişdir. Müxalifət qəzetlərində bu meyil açıq-aşkar üstünlük təşkil edir. Həmin mətbuat səhifələrində öz ekstremist çağırışları ilə xüsusilə fərqlənən adamların, dövlətə qarşı böhtan və təxribat yolu ilə mübarizə aparan siyasətbazların geniş reklam edilməsi, onları az qala “zəmanənin qəhrəmanı”na çevirmək təşəbbüsləri geniş yayılmış adi bir hal olmuşdur.

Müxalifət cəbhəsində öz qisasçı mövqeyi ilə seçilən bəzi qrupların mətbuata çox asanlıqla yol tapması, ondan təbliğat tribunası kimi istifadə etməsi ciddi narahatlıq yaradır. Müxalifətin ayrı-ayrı qruplarının son zamanlar xüsusi fəallıqla öz liderlərini qorxaqlıqda, təslimçilikdə, "hakimiyyəti asanlıqla əldən verməkdə" günahlandırdıqlarının dəfələrlə şahidi olmuşuq. İndi həmin qruplar barışmazlıq təbliğ edir, mövcud iqtidara düşmən olan bütün qüvvələri nəyin bahasına olursa-olsun hakimiyyətə gəlmək üçün birləşməyə çağırır. Bəzi müxalif partiyaların 1994-cü ilin oktyabrı və 1995-ci ilin martındakı dövlət çevrilişinə cəhdlər zamanı xalqla, dövlətlə deyil, dövləti zorakı üsullarla devirmək istəyənlərlə bir sırada durmalarında da müxalifət mətbuatının öz "müsbət" rolu olmuşdur.

Gizli deyil ki, 1993-cü ilin iyununda ölkəni fəlakət həddinə gətirib çıxardıqlarına görə ümumxalq etimadsızlığı nəticəsində hakimiyyətlərini itirən müxalifət qüvvələri ötən beş il ərzində yalnız bir fikirlə yaşamışlar: nəyin bahasına olursa-olsun, Heydər Əliyev üzərində revanş götürmək! 1998-ci ilin prezident seçkilərində məğlub olanlar, habelə layiq olmadıqları halda tutduqları postları itirənlər də indi həmin müxalifətin sırasına qoşulmuşlar. Daxili ziddiyyətlərini həll edə bilməyən bu alabəzək qüvvələrin Azərbaycana demokratiya və bazar iqtisadiyyatı gətirəcəyi, ölkə qarşısında duran problemləri həll edəcəyi haqqındakı bəyanatlar həqiqətdən çox uzaqdır. Təəssüf doğuran hal odur ki, xalqın kifayət qədər yaxşı tanıdığı bu yalançı qəhrəmanlar mətbuat səhifələrində tamamilə başqa şəkildə təbliğ və tərənnüm olunur, onların cılız hakimiyyət ehtiraslarına "demokratiya uğrunda mübarizlik" donu geyindirilir.

Müşahidələr və təhlillər göstərir ki, müxalifət mətbuatı səhifələrində baş alıb gedən özbaşınalıq, qarşıdurma yaratmaq, sabitliyi pozmaq məqsədi daşıyan məqalələrin dərci özlərini müstəqil adlandıran qəzetlərin, əslində, müstəqil olmamaları ilə əlaqədardır. Müxalifət mövqeyində duran qəzetlərin böyük əksəriyyəti ayrı-ayrı partiyalar, yaxud partiya liderləri tərəfindən təsis edilmişdir. Mətbuatdan, yazılı sözdən ümummilli maraqların ifadəçisi olmaq tələb edildiyi indiki dövrdə sırf partiya mətbuatının yararsızlığı, onun qrup ideyalarına xidmətinin cəmiyyətdə qarşıdurma meyillərini gücləndirdiyi artıq tamamilə sübuta yetirilmişdir. Zaman sözdə yox, reallıqda müstəqil, obyektiv və qərəzsiz mətbuata keçməyi tələb edir. Əlbəttə, mətbuatın ölkədə baş verən siyasi cərəyanların təsirindən asanlıqla azad olacağını təsəvvür etmək çətindir. Lakin mətbuat ümummilli, ümumxalq, dövlətçilik qayələrinə xidmət etməyi öz qarşısına məqsəd qoyarsa, onda müxalifət qəzetlərinin səhifələrində rast gəldiyimiz əsassız siyasi ittihamlara, cəmiyyəti parçalamaq və münaqişə doğurmaq meyillərinə son qoyula bilər. Bir sözlə, bu gün ölkə vətəndaşlarını vahiməyə salan "sosial və milli müharibə carçıları"ndan yaxa qurtarmağın yeganə yolu qəzetləri ayrı-ayrı adamların və siyasi qrupların təsirindən qurtarmaq, onları həqiqi mənada müstəqilləşdirməkdir.

Təəssüflə qeyd etməliyəm ki, hazırda müxalifət mətbuatında ciddi məsuliyyətsizlik və cəzasızlıq mühiti hökm sürür. Xüsusilə hörmətli Prezidentimizin bu ilin avqustunda ölkə həyatını demokratikləşdirmək istiqamətində mühüm addım ataraq, senzuranın fəaliyyətini dayandırmaq haqqında sərəncam imzalamasından sonra bir sıra qəzetlərin əməkdaşları söz

azadlığını özbaşınalıq, qoluzorluluq və qələm qoçuluğu kimi başa düşmüşlər. Onlara elə gəlir ki, əgər senzura yoxdursa, heç bir sərhəd gözləmədən, heç bir əxlaqi-etik normalara məhəl qoymadan hər şey barəsində yazmaq olar. Lakin senzurasız mətbuatın yolunu bizdən əvvəl keçən ölkələrin təcrübəsi aydın şəkildə göstərir ki, vicdanın və qanunların senzurasına əməl etmək son dərəcə vacibdir. Hüquqi dövlətdə qanunların yanından heç kəs istədiyi şəkildə keçib gedə bilməz. Azadlıq məsuliyyəti inkar etmir, əksinə, onların hər ikisi paralel dərk edilməlidir, biri digərini tamamlamalıdır. Azadlıq olmayan yerdə məsuliyyət hədsiz qadağalara, məsuliyyət olmayan yerdə azadlıq isə özbaşınalığa və xaosa gətirib çıxarır. Son vaxtlar özlərini müstəqil adlandıran, əslində isə ayrı-ayrı siyasi partiyaların və qrupların ruporuna çevrilmiş "Yeni Müsavat", "Azadlıq", "Müxalifət", "Alternativ", "Ulus" və s. kimi qəzetlər sifarişçilərinin istəyinə uyğun olaraq Azərbaycan dövlətinə, onun Prezidentinə, ayrı-ayrı vətəndaşlara, yüksək vəzifəli dövlət məmurlarına qarşı total böhtan və iftira kampaniyasına başlamışlar. Dövlətin simvolu olan Prezidentin şərəf və ləyaqətinin alçaldılması, cəmiyyətdə çoxillik zəhmətləri və xalq qarşısında xidmətləri ilə hörmət və nüfuz qazanmış insanların təhqir edilməsi adi hala çevrilibdir. Ən təhlükəli cəhət isə odur ki, bu qələm qoçuluğunu cəmiyyətə söz, mətbuat azadlığı kimi təqdim etmək istəyirlər.

Söz, mətbuat azadlığı özbaşınalıq kimi başa düşülə bilməz. Şəxsiyyətin şərəf və ləyaqətinin qorunması demokratiyanın ali prinsipidir və hər kəs, hər bir qurum, o cümlədən mətbuat ona ən müqəddəs dəyər kimi yanaşmalıdır. Tənqidin təhqirə çevrilməsi, insan ləyaqətinin alçaldılması, şəxsiyyətə qarşı şər və böhtan

atılması, yoxlanılmamış, yalan informasiyalar yaymaqla ictimai rəyi çaşdırmaq cəhdləri isə qətiyyən yolverilməzdir. Əgər belə halların qarşısı vaxtında alınmazsa mətbuatda, informasiya mühitində nəticələri qaranlıq və bəlkə də faciəli olan hallar baş verə bilər. Buna görə də mətbuat nümayəndələri demokratik Azərbaycan dövlətinin onlara yaratdığı söz, mətbuat azadlığından sui-istifadə etməyə çalışmamalı, həmin azadlıqları deyilən sözə, yayılan informasiyaya görə də məsuliyyətdən azad olunmaq kimi başa düşməməlidirlər.

Son ay ərzində qərəzli mövqeyinə, qeyri-obyektiv şərhlərinə, şəxsiyyətin ləyaqətini alçaldan yazılarına görə bir sıra qəzetlərə qarşı zərərçəkənlər tərəfindən iddialar qaldırılması, məhkəmə dinlənilmələrinin başlanması çağdaş Azərbaycan mətbuatının demokratikləşməsi, jurnalist peşəsinin məsuliyyətini hiss edə bilməyən bir sıra qəzet redaktorlarının və jurnalistlərin söz azadlığına və sözün dəyərinə hörmətlə yanaşmağa dəvət edilməsi mənasında qiymətləndirilməlidir. Hesab edirik ki, məhz bu qanuni yolla həm şəxsiyyəti ayrı-ayrı mətbuat orqanlarının qərəzli hücumlarından qorumağa, ona qarşı yönəlmiş mənəvi terrorun qarşısını almağa, Konstitusiyada öz əksini tapmış insan azadlığını qorumağa nail olacağıq, həm də mətbuatımızı təhlükəli meyillərdən uzaqlaşdıraraq onu haqqa, ədalətə xidmət üçün düz yola dəvət edə biləcəyik. Məqsəd heç də, bu gün bəzi mətbuat nümayəndələrinin və onların arxasında gizlənən siyasətbazların iddia etdikləri kimi, “söz azadlığını boğmaq deyil”, əksinə, müstəqil və azad sözün sağlam mənəviyyata, insan hüquqlarına, xalqımızın və dövlətimizin mənafelərinə xidmət etməsinə nail olmaqdır.

Mətbuatın mənəvi, əxlaqi prinsipləri uğrunda mübarizə qısamüddətli, mövsümi xarakterli aksiya deyildir. Biz onu strateji məqsəd kimi qarşıya qoymuşuq. Mətbuat hər cür şəxsi-qərəzlikdən və ara söhbətlərindən, küçə şayiələrindən, şantajdan, böhtan və araqarışdırmadan uzaq olmalıdır. Mətbuatın məqsədi cəmiyyəti ölkədə baş verən mühüm hadisə və proseslər barədə obyektiv məlumatlandırmaqdır. O, ayrı-ayrı adamların siyasi ambisiyalarına, şəxsi məqsədlərinə deyil, həyat həqiqətinə, obyektivliyə və gerçəkliyə xidmət etməlidir, ümumdövlət vəzifələri və mənafeləri uğrunda mübarizə aparmalıdır, adamları xalqımızın qarşısında dayanan ciddi problemləri uğurla aradan qaldırmaq üçün səfərbər etməyi bacarmalıdır. Mətbuat insanları tərbiyələndirməli, onlara yüksək mənəvi dəyərlər, əxlaqi keyfiyyətlər, vətənpərvərlik hissləri, milliyyətçilik duyğuları, dövlətçilik qüruru və sevgisi aşılamalıdır. Mətbuat insanlara onların dünyagörüşünü genişləndirən biliklər verməlidir, yeni ictimai ideyaların generatoru rolunu oynamalıdır.

Demokratiya uzun və mürəkkəb prosesdir. Onun bir gündə hazır şəkildə ortaya çıxacağını güman edənlər yanılırlar. Bir günün içində dönüb demokrat olmaq da qeyri-mümkündur. Biz hamımız eyni cəmiyyət – sovet cəmiyyəti şəraitində doğulmuş, böyümüş, təhsil almışıq. Biz hamımız eyni cəmiyyətin yetirmələriyik və həmin cəmiyyət öz möhürünü eyni şəkildə hər kəsə vurubdur. Lakin qəribədir ki, bəziləri özlərini demokrat, digərlərini isə qeyri-demokrat, hətta “diktator” adlandırmaq “hüququnu” haradansa “zəbt ediblər”. Onların “demokrat sertifikatı”nı haradan, hansı bir şəraitdə aldıqları, hansı xüsusiyyətlərinə görə cəmiyyəti demokratlara və qeyri-demokratlara bölmək səlahiyyəti qazandıqları bu gün də xalq

üçün müəmma olaraq qalır. Müxalifət partiyalarının bu istiqamətdə cəhdləri xüsusilə diqqəti cəlb edir. Məntiqlə izah tapmaq çox çətindir: axı, hansı “sehrli çubuğun” təsiri ilə eyni cəmiyyətin bir hissəsi demokrat, digər hissəsi isə antidemokrat oldu? Yaxud, 1992-1993-cü illərin AXCP-Müsavat rejimi hansı keyfiyyətləri ilə demokratik idi? Bu “demokratiya universiteti”ni onlar harada keçmişdilər?

Əsl həqiqət isə bundan ibarətdir ki, biz hamımız birlikdə demokratiyaya doğru irəliləyirik. Ötən son illər ərzində Azərbaycanda demokratiyanın bərqərar edilməsi istiqamətində çox iş görülübdür. Bunu beynəlxalq təşkilatlar da, dünyanın qabaqcıl ölkələrinin başçıları və aparıcı siyasi xadimləri də etiraf edirlər. Demokratiya Azərbaycan cəmiyyətinin inkişafının strateji istiqamətidir. Ölkəmizin demokratiya və siyasi plüralizm yolu ilə inamla irəliləməsi Prezident Heydər Əliyevin tarixi xidmətidir. Qoy heç kim başqasının xidmətini öz adına çıxıb döşünə döyməsin, demokratiya yolunda atılan real addımları demokratiya haqqında boş hay-küylə səhv salmasın. Onsuz da, xalq hər şeyi çox gözəl görür və qiymətləndirir.

Prezident Heydər Əliyev noyabr ayının 21-də, Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 6-cı ildönümünə həsr olunmuş təntənəli yığıncaqda söylədiyi nitqində demişdir ki, Azərbaycanda qarşıdurma meyilləri aradan qaldırılmalıdır, Azərbaycanda hər kəs, hər bir partiya milli birlik, vətəndaş həmrəyliyi istiqamətində çalışmalıdır. Azərbaycanda ictimai-siyasi vəziyyəti mürəkkəbləşdirmək yox, yaradılmış sabitliyi daha da möhkəmləndirmək lazımdır, çünki bu, Azərbaycanın mövcudluğu, onun müstəqilliyinin qorunub saxlanması üçün ən başlıca şərtdir.

Bu son dərəcə mühüm vəzifənin həyata keçirilməsində mətbuatın rolu ölçüyəgəlməzdir. Bu gün mətbuatımız həmin

tarixi vəzifənin öhdəsindən gəlməyə hazırdırmı? Hər bir jurnalist, əlinə qələm alan hər kəs ilk növbədə özünə bu sualı verməlidir.

Jurnalistlərimiz düşünməlidir ki, artıq milli amal və ideyalara, müstəqil Azərbaycanın mənafeyinə, xalqımızın yüksək mənəvi-əxlaqi dəyərlərinə və mentalitetinə cavab verən mətbuat formalaşdırmağın vaxtı çatmışdır. Bir sıra ölkələrin bu gün özlərinin də etiraf etdikləri səhvlərini təkrar edib ölkəmizdə “bulvar və küçə qəzetləri”nin, “sarı mətbuat”ın, yaxud şayiə mətbuatının çiçəklənməsinə yol vermək olmaz.

Doğrudur, indi qəzetlərin çoxu bazar iqtisadiyyatı burulğanına düşərək, biznes qanunları ilə yaşamaq məcburiyyətindədir. Lakin bu, qətiyyən qəzet reketçiliyinə qurşanmağa, söz azadlığından şantaj vasitəsi kimi istifadə edib qazanc yolu axtarmağa haqq vermir. Daha doğru və namuslu yol mətbuatın səviyyəsini yüksəltmək, onun ətrafına sensasiya düşkünləri deyil, həqiqi oxucular toplamaqdır. Hər bir jurnalistin vətəndaşlıq borcu şəxsi və korporativ maraqlardan yüksəkdə dayanaraq, ölkəmizdə hüquqi dövlət, demokratik cəmiyyət quruculuğuna kömək göstərmək, hər yerdə doğma Azərbaycanın mənafelərini müdafiə etmək, onun uğurlarına sevinmək, dərdlərinə və ağrılarına həmrəy olmaqdır. Jurnalistlərimiz də bəzi müxalifət siyasətçilərinin ardınca gedərək xaricdə dəstək axtarmamalı, antiazərbaycan qüvvələrin dəyirmanına su tökməməli, əksinə, müasir Azərbaycan gəncliyində, respublikanın hər bir vətəndaşında vətənpərvərlik, yurd sevgisi hissləri, milli duyğular oyatmalıdırlar. Xalq mətbu sözdən həmişə bunu gözləyib və bu gün də gözləyir.

Həqiqi demokratik mətbuat dağıdıcı qüvvələrin sifarişi ilə hərəkət etməməlidir. Həqiqi milli jurnalistika çatışmazlıqlara, səhvlərə sevinməməli, ölkəmizin daxili problemlərini xaricdəki

“dostlarına” çatdırmaqda canfəşanlıq göstərməməlidir. Daha yaxşı olardı ki, mətbuatımız öz vətəndaş mövqeyi və vətənpərvərliyi, qələminin gücü ilə cəmiyyətə, idarəetmə orqanlarına nöqsanları, çətinlikləri aradan qaldırmağa kömək etsin.

Bu gün cəmiyyətimizin Azərbaycanın və mütərəqqi dünya jurnalistikasının ən yaxşı ənənələrinə yiyələnmiş, yüksək professionallığa, intellektə, analitik təfəkkürə malik vətənpərvər, ciddi jurnalistlərə çox ehtiyacı var. Mətbuatımız dedi-qodularla, ucuz sensasiyalarla, şantaj və intriqalarla deyil, yüksək professionallığı və mənəvi dəyərlərə sədaqəti ilə fərqlənməlidir. O, kütlələrə saflıq, təmizlik, mədəniyyət, mənəvi və intellektual qida təklif etməlidir. Mətbuat milləti parçalamamalı, əksinə, onu yüksək ümummilli dəyərlər zəminində birləşdirməlidir. Onun məqsədi və ali təyinatı məhz bundan ibarətdir.

Hazırkı çətin və mürəkkəb şəraitdə, müstəqilliyimizə qarşı yönəlmiş təhlükələrin tam aradan qalxmadığı dövrdə mətbuatın ictimai şüuru Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq, möhkəmləndirmək və daha da inkişaf etdirmək istiqamətində kökləməkdən vacib və gərəkli vəzifəsi ola bilməz. Prezident Heydər Əliyev ona məxsus dövlət müdrikliyi və uzaqgörənliklə demişdir ki, “hər bir xalq, hər bir ölkə üçün müstəqilliyin elan edilməsi tarixi hadisə, böyük xoşbəxtlikdir. Lakin bu müstəqilliyi dönməz, əbədi etmək daha çətin vəzifədir”. Bu sahədə kütləvi informasiya vasitələrinin üzərinə çox böyük vəzifələr düşür.

Mətbuatımız xalqın milli maraqlarına xidmət etmək, onun fikirlərinin tərcümanı olmaq məqsədini qarşısına qoymuşdursa, onda Azərbaycanın geosiyasi vəziyyətini də nəzərdən qaçırmamalıdır. Unutmamalıdır ki, xalqımızın dostlarından

savayı, onu istəməyənlər, tərəqqisini arzulamayanlar da var. Onlar Azərbaycanı zəif, xaos içində olan, asılı bir ölkə kimi görmək istəyirlər. Təbii ki, Azərbaycanda güclü Prezidentin, sabit hakimiyyətin olması, ictimai-siyasi sabitliyin hökm sürməsi onların mənafelərinə uyğun deyildir. Bulanıq suda balıq tutmaq asandır. Mətbuat xadimlərimizin bu həqiqəti bir an da olsun yaddan çıxarmağa mənəvi haqları yoxdur.

XX əsrin başa çatdığı bir dövrdə və şanlı ənənələrə malik olan Azərbaycan mətbuatı bu mətbuatın beşiyi başında dayananların uğrunda mübarizə apardıqları işıqlı ideyaların həyata keçirilməsi məqsədi ilə bütün milləti birləşdirən qüvvəyə çevrilməlidir. Yalnız belə olduqda, biz ümummilli mətbuatın yarandığını, onun xalqımıza və hakimiyyətdə kimin olmasından asılı olmayaraq, dövlətçiliyimizə xidmət etdiyini deyə bilərik.

*"Azərbaycan" qəzeti,*
*8 dekabr 1998-ci il.*

# AZƏRBAYCANLILARIN ERMƏNİSTAN ƏRAZİSİNDƏKİ TARİXİ-ETNİK TORPAQLARINDAN DEPORTASİYASI

"Deportasiya" latın (deportatio) sözüdür. Qovulmaq, sürgün olunmaq mənasını verir. Hüquqda ilk dəfə Fransada sürgünün xüsusi növləri kimi nəzərdə tutulmuş və şübhəli şəxslər haqqında 1791-ci il qanunu ilə tətbiqinə başlanılmışdır. Həmin qanuna əsasən, siyasi cəhətdən səbatsız sayılan şəxslər Qviana yaylasına sürgün olunurdular. Deportasiya (o cümlədən ömürlük) haqqında maddə 1810-cu ildə Fransanın cinayət məcəlləsinə daxil edilmişdi. Qitə hüdudlarından kənarda sürgündə olmağı və ömürlük orada qalmağı nəzərdə tutan 1872-ci il 23 mart tarixli Fransa qanununa görə isə, yaşayış üçün yararlı olmayan ucqar müstəmləkə ərazilərində deportasiya olunanlar üçün möhkəmləndirilmiş düşərgələrin yaradılması zəruri sayılmışdı. Deportasiyadan təkcə cinayətkarları cəzalandırmaq üçün deyil, həm də inqilabçılara divan tutmaq məqsədi ilə istifadə olunmuşdu (məsələn, həbs olunmuş kommunarlar 1872-ci ildə Yeni Kaledoniya adalarına sürgün olunmuşdular). Göründüyü kimi, ilk deportasiyalar daha çox siyasi cəhətdən səbatsız sayılanlara və qatı cinayətkarlara qarşı tətbiq edilmişdi. Sonradan deportasiya təhlükəli cinayətkarlığa qarşı cəza növü kimi tədricən aradan götürülmüşdür. 1880-ci ildən isə onun tətbiq olunması, əslində, dayandırılmışdı.

Rusiya imperiyasında 1917-ci il oktyabr çevrilişindən sonra hakimiyyətə gəlmiş bolşeviklər özlərinin siyasi düşmənlərinə divan tutmaq üçün yenidən, həm də daha genişmiqyaslı kütləvi deportasiya tədbirlərinə əl atmışdılar. 1930-1940-cı illərdə keçmiş SSRİ-də sosializm quruculuğu gedişində təkcə totalitar rejimə müqavimət göstərən müxtəlif qruplar, təşkilatlar, partiyalar deyil, həm də bütöv xalqlar amansız təqiblərə məruz qalmış, məhv edilmiş, yaxud deportasiya olunmuşdular. Nəticədə ayrı-ayrı xalqlar doğma yurdlarından, yaxud yığcam halda yaşadıqları ərazilərdən zorla Orta Asiyaya, Qazaxıstana və Sibirə köçürülmüşdülər. Stalin rejiminin zor gücünə köçürmə (tam, yaxud qismən) siyasəti keçmiş SSRİ-nin, demək olar ki, bütün xalqlarının, o cümlədən azərbaycanlıların tarixi taleyində silinməz izlər buraxmışdır.

Kütləvi deportasiyaya məruz qalmış xalqlar sırasında birinci olaraq, 1937-ci ildə Uzaq Şərqdən Qazaxıstana və Orta Asiyaya sürgün edilən 120 min koreyalını göstərmək olar. Cəmi bir il sonra, 1938-ci ildə isə ölkənin şərq bölgələrində yaşayan və xüsusi köçürülənlər adlanan əhalinin sayı artıq 997 min nəfərə çatmışdı. 1939-1940-cı illərdə SSRİ-yə yeni ərazilərin birləşdirilməsi xalqların deportasiyasının miqyasını da genişləndirdi. Qərbi Ukraynadan, Qərbi Belorusiyadan, Baltikyanı ölkələrdən və digər bölgələrdən on minlərlə adam zorla sürgün edildi. İkinci Dünya müharibəsi dövründə bütöv xalqlar əsassız olaraq alman faşistləri ilə əməkdaşlıqda təqsirləndirilərək, tarixi vətənlərindən və yığcam yaşadıqları yerlərdən sürgün olundular. Rəsmi məlumatlara görə, onların arasında 1 milyon nəfərdən çox alman (əsasən Volqaboyundan), 317 min çeçen, 165 min Krım tatarı, 84 min

inquş, 82 min kalmık, 64 min qaraçaylı, 49 min Məshəti türkü, 33 min balkar və başqaları var idi. Kişilərin çoxu müharibədə olduğundan, zorla köçürülənlərin böyük əksəriyyətini uşaqlar, qadınlar və qocalar (Orta Asiyaya sürgün olunanların 78 faizi qadınlar və uşaqlardan ibarət olmuşdu) təşkil etmişdi. Onlardan bir çoxu sürgün yerlərinə gedib çatmamış, yollarda tələf olmuşdu. Təkcə Gürcüstandan köçürülən Məshəti türkləri və kürdlər arasında yolda ölənlərin sayı 15 min nəfərdən çox idi (gəlib çatanların 16 faizi). Vaxtsız ölənlərin də sayı az deyildi və bunların da xeyli hissəsini uşaqlar təşkil etmişdi.

Deportasiya olunmuş xalqların hüquqlarının bərpasına 1950-ci illərin ikinci yarısından başlanmış, lakin bir sıra muxtar respublika və vilayətlər bərpa olunsa da, bu iş başa çatdırılmamış və yarımçıq qalmışdı. Məsələn, Krım tatarlarına 1990-cı illərə qədər öz torpaqlarına qayıtmağa icazə verilməmişdir; Məshəti türkləri hələ də öz doğma yurdlarına qayıda bilmirlər; almanların milli-ərazi muxtariyyəti bərpa olunmamışdır və s.

XX əsrdə gizli və açıq deportasiyaya məruz qalmış xalqlar arasında azərbaycanlıların qismətinə daha ağır tale yükü düşmüşdür. Çünki azərbaycanlıların istər tarixən yaşadıqları, sonralar isə tarixin acı hökmü ilə “Ermənistan” adlandırılmış ərazilərdən, istərsə də öz doğma respublikası daxilindəki ayrı-ayrı bölgələrdən (xüsusən ermənilərin guya əksəriyyət təşkil etdikləri üçün tarixi Qarabağ ərazisinin süni surətdə iki hissəyə bölünməsi sayəsində yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətindən) qovulması, demək olar ki, bütün XX əsr boyu davam etmişdir, yəni uzunmüddətliliyinə, ayrı-ayrı vaxtlarda isə xüsusi qəddarlıqla həyata keçirilməsi ilə soyqırımı səviyyəsinə

çatdırılmasına görə dünya tarixində analoqu olmayan amansız bir aksiyadır. Çox təəssüf ki, on illərlə xalqın başına gətirilmiş dəhşətli müsibətlərlə müşayiət olunmuş bu aksiya barədə məlumat həm düşmənlərimiz qarşısını aldığına görə, həm də özümüzün unutqanlığı ucbatından zamanında dünya ictimaiyyətinə çatdırılmadığından, vaxtilə "qardaş" elan edib torpaqlarımızdan səxavətlə pay ayırdığımız ermənilərin riyakar liderləri, az qala, bütün dünyada bizi erməni xalqının hüquqlarını tapdalayan, onu blokadaya alıb məhv etmək istəyən vəhşi xalq kimi tanıtmağa xeyli dərəcədə nail olmuşdular. Biz isə susmuşuq, dərdlərimizdən söhbət açmağa cürət etməmişik, Sov.İKP-nin "beynəlmiləlçi" rəhbərləri bizi danışmağa, hərəkət etməyə qoymurdular. Beləcə illər, on illər keçmiş, düşmən öz bədxah niyyətlərini həyata keçirdikcə, rəhbərlərimiz Moskvanın ətəyindən daha möhkəm yapışmış, onların az qala itaətkar quluna çevrilməkdən belə qorxmayaraq, xəbis qonşularımızın məkrli əməllərinin qarşısını qismən də olsa almağa çalışmamışlar. Halbuki azərbaycanlıların deportasiyasının tarixi hələ keçən əsrin birinci yarısında erməni millətçilərinin təşkilatlandığı, uydurma "Böyük Ermənistan"ın sərhədlərinin müəyyən edildiyi dövrdə qoyulmuş və XX əsrin əvvəllərindən isə qəddarlıqla həyata keçirilməsinə başlanmışdır. Əgər 1905-1906-cı illərdə erməni millətçilərinin azərbaycanlılara qarşı törətdikləri qanlı toqquşmalar, azərbaycanlıları yerlərindən qovmaqla yanaşı, öz qüvvələrini sınaqdan çıxarmaq, müsəlman əhalini dəhşətə salmaq məqsədi güdmüşdürsə, 1918-1920-ci illərdə, əsasən, azərbaycanlıların məskunlaşdığı Azərbaycan torpaqları hesabına yaradılmış Ermənistan Respublikasında daşnak hökumətinin utanmadan elan etdiyi "türksüz Ermə-

nistan" siyasəti dövlət siyasəti səviyyəsinə qaldırılmış, yüzlərlə azərbaycanlı kəndlərinin dağıdılması, yandırılması, on minlərlə azərbaycanlının məhv edilməsi, yaxud zorla, ölüm təhdidi altında doğma yurdlarından qovulması ilə nəticələnmişdir. Ermənilərin Naxçıvanda, Zəngəzurda törətdikləri vəhşiliklər, insanlığa xas olmayan aksiyalar bu gün də adamlara sarsıntı gətirir. Azərbaycanın şərqində – Bakıda, Qubada, Şamaxıda, Lənkəranda və s. yerlərdə isə 1917-1918-ci illərdə həmin siyasəti Şaumyanın başçılığı altında ermənilərin çoxluq təşkil etdiyi Bakı Kommunası hökuməti erməni silahlı dəstələrinin qanlı əlləri ilə həyata keçirmişdi.

Bu mənada Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin həmin cinayətlərin xalqdan gizlədilməsinin qarşısını almaq, tarixi həqiqətləri olduğu kimi, nə qədər ağır da olsa, tam çılpaqlığı ilə gələcək nəsillərə çatdırmaq məqsədi ilə yaratdığı və 1918-1920-ci illərdə erməni millətçilərinin azərbaycanlılara qarşı törətdikləri cinayətləri öyrənən Azərbaycan Fövqəladə İstintaq Komissiyasının vaxtilə topladığı və dərc etdirdiyi materiallar bu gün tariximizin ibrətamiz dərslərini yada salmaq və unutqanlığa son qoymağımız üçün olduqca böyük əhəmiyyətə malikdir.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra azərbaycanlıların deportasiyası dəyişilmiş formalarda fasilələrlə, demək olar ki, bütün 70 il ərzində davam etdirilmişdir. Məsələn, 1920-30-cu illərdə kommunist rejiminin qərarlaşması və möhkəmləndirilməsi dövründə törədilmiş qanunsuzluqlar şəraitində on minlərlə azərbaycanlı repressiyaya məruz qalmış, Orta Asiya və Qazaxıstana sürgün olunmuşdu. 1937-1938-ci illərin repressiyaları zamanı Azərbaycan xalqına qarşı qismən deportasiya

tətbiq edilmişdi. İkinci Dünya müharibəsindən sonra SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr və 1948-ci il 10 mart tarixli qərarları ilə azərbaycanlılar Ermənistandan – əsrlər boyu yaşadıqları doğma yurdlarından kütləvi surətdə (100 min nəfərdən çox) deportasiya edildilər: onların bir çoxu Kür-Araz ovalığının isti iqlim şəraitinə dözə bilməyərək həlak oldu. Ermənistan ərazisində etnik təmizləmə tədbirləri sonrakı illərdə də imkan düşdükcə açıq, qarşısı alındıqda isə, gizli üsul və vasitələrlə davam etdirilmişdi; həm də deportasiya edilən azərbaycanlıların bir nəfərinin belə Azərbaycanın tərkib hissəsi olan DQMB-də yerləşdirilməsinə imkan verilməmişdi. Hələ üstəlik, Dağlıq Qarabağda yaşayan 132 (549 nəfər) azərbaycanlı ailəsi "daxili köçürmə" adı altında qonşu Xanlar rayonuna köçürülmüşdü. Qarşısı vaxtında qətiyyətlə alınmadığı üçün getdikcə miqyası genişləndirilən bütün bu azğın hərəkətlər məşhur "yenidənqurma" illərində Qorbaçovun hamilik etdiyi erməni rəhbərlərinin əl-qolunu tamamilə açdı və onlar 1988-ci ildə bütün azərbaycanlıları (250 min nəfərdən çox) Ermənistandan qovub çıxarmağa nail oldular. Bundan sonra isə Ermənistan dövləti Azərbaycana qarşı açıq təcavüz yolunu tutaraq, Dağlıq Qarabağın və digər Azərbaycan ərazilərinin işğalına başladı. Nəticədə, Azərbaycan ərazisinin 20 faizi işğal edildi; qaçqın, köçkün vəziyyətində öz doğma yurdlarını, ev-eşiklərini tərk etməyə məcbur olanların sayı 1 milyon nəfəri ötdü. Yalnız 1993-cü ilin iyununda Azərbaycanın böyük oğlu Heydər Əliyevin yenidən respublika rəhbərliyinə qayıtması azərbaycanlıların soyqırımının qarşısını almağa, işğal edilmiş torpaqlarımızın işğalçılardan təmizlənməsi üçün real tədbirlər işləyib hazırlamağa və beynəlxalq birliyin köməyi ilə həyata keçirmək üçün əlverişli şərait yaratmağa imkan verdi.

Lakin tarix tarixliyində qalır. Müstəqilliyini əbədiləşdirmək istəyən hər bir xalq öz tarixinin bütün səhifələrinə nəinki dərindən bələd olmalı, həm də onlardan lazımi nəticələr çıxarmağa, başına gəlmiş faciələrin bir daha təkrar olunmasına imkan verməməyə borcludur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bu münasibətlə demişdir: "Bəli, ... bizim xalqımızın böyük itkiləri olubdur. Biz bunları bilməliyik, gələcək nəsillər də bunları bilməlidirlər. Bilməliyik və gələcək nəsillər də bilməlidirlər ki, Azərbaycana qarşı bir daha belə xəyanətlərin, tədbirlərin, belə təcavüzlərin qarşısı alına bilsin".

Oxucuya təqdim edilən "Deportasiya" adlı sənədlər və məqalələr toplusu da məhz bu məqsədə xidmət etmək üçün tərtib olunmuşdur. Burada dərc olunmuş materiallar əsrimizin əvvəllərindən son illərə kimi xalqımızın başına gətirilən müsibətlər haqqında ətraflı məlumatlar verməklə oxucunu dərindən düşündürür, o, bu bədbəxtliklərin səbəblərini arayıb-axtarmağa çalışır. 1993-cü ilin iyunundan başlayaraq həyata keçirilən tədbirlər isə onda belə bir inam yaradır ki, xalqımızın tarixinin ağrılı-acılı səhifələrini təşkil edən və hər dəfə yeni bir formada təkrar olunan bu məhrumiyyətlərə müstəqil Azərbaycan dövlətinin yeritdiyi məqsədyönlü daxili və xarici siyasət sayəsində, nəhayət ki, həmişəlik son qoyulacaqdır.

*"Respublika" qəzeti,*
*16 dekabr 1998-ci il.*

## MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN MEMARI

***Xalqımızın görkəmli və sevimli oğlu Heydər Əliyevin növbəti müddətə Azərbaycan Respublikasının Prezidenti seçilməsindən 100 gün keçir. Zaman etibarilə bu, çox qısa bir vaxtdır. Lakin 100 günün nəticələrinə əsasən ölkədə gedən dəyişikliklər, irəliləyişlər barədə ilkin müşahidələr aparmağa, başlanğıc meyilləri aşkara çıxarıb təhlil etməyə ehtiyac, başlıcası isə, buna əsas vardır. Həm də 11 oktyabr prezident seçkilərindən bizi ayıran 100 gün ölkənin ictimai-siyasi həyatında, iqtisadiyyatda müsbət dəyişikliklərin əsasının qoyulmasında, dövlət idarəçiliyinin təkmilləşdirilməsi strategiyasının başlıca parametrlərinin müəyyən edilməsində əhəmiyyətliliyi və məhsuldarlığı ilə seçildiyindən, bu müddət ərzində görülən tədbirlərin, hazırlanan proqramların ictimai-tarixi dəyərinə nəzər salmaq cəhdi öz əhəmiyyətini və gərəkliliyini tamamilə doğrultmuş olur.***

***Heydər Əliyev tarixi şəxsiyyətdir. Heydər Əliyev ilə ünsiyyətdə olan hər kəs onun təfəkkürünün məntiqi gücünə, fəlsəfi fikrinin dərinliyinə, mühakimələrinin inandırıcılığına, tarixi-məntiqi metoduna heyran qalır. O, parlaq dahi şəxsiyyət, geniş diapazonlu siyasətçi və diplomatdır.***

* * *

1998-ci il başa çatıb. Bizi XXI əsrə bir addım da yaxınlaşdıran 1999-cu ilin ilk ayını yaşayırıq. Belə tarixi məqamda keçilən yola nəzər salaraq, görülən işləri təhlil süzgəcindən keçirib gələcəyə

atacağımız addımların miqyaslarını və istiqamətlərini dəqiqləşdirməyə ehtiyac duyulur.

Yola saldığımız 1998-ci il müstəqil Azərbaycanın qısa, lakin şərəfli dövlətçilik tarixinə prezident seçkisi ili kimi daxil olmuşdur. Ötən ilin oktyabr ayında Azərbaycan xalqı özünün siyasi iradəsini nümayiş etdirərək, tam demokratik şəraitdə dövlət başçısını seçmək imkanını reallaşdırdı. Xalqımızın iyirminci yüzillik tarixinə ən parlaq simalardan biri kimi daxil olmuş, Azərbaycanın hərtərəfli inkişafı və yüksəlişi yolunda əvəzsiz xidmətlər göstərmiş Heydər Əliyev xalqın iradəsi ilə ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi. 1993-cü ildə ölkənin faciəli günlərində Azərbaycan əhalisinin təkidli tələbi ilə Naxçıvandan Bakıya dəvət olunaraq, ölkəyə rəhbərlik etmək mandatı alan Heydər Əliyevə düz beş ildən sonra, yəni qanunla müəyyən edilmiş prezidentlik müddəti başa çatdıqdan sonra xalq tərəfindən yenidən Azərbaycana rəhbərlik etmək kimi ali etimad göstərildi.

Bunu vurğulamaqla bildirmək istəyirəm ki, 1998-ci il prezident seçkiləri xalqın öz seçimini müəyyənləşdirdiyi ilk seçki deyildi. Əslində, xalq öz seçimini 1993-cü ildə, Heydər Əliyevi ölkə rəhbərliyinə dəvət edəndə qəti olaraq müəyyən etmişdi. Lakin bu, 1998-ci il seçkilərinin, ələlxüsus, onun nəticələrinin məna və əhəmiyyətini heç də azaltmır. Əksinə, ötən ilin oktyabr ayında keçirilən seçkinin diqqəti cəlb edən cəhəti odur ki, həmin gün xalq beş il əvvəl etdiyi seçimin doğruluğuna, düzgünlüyünə yenidən şəhadət vermiş oldu. Azərbaycan vətəndaşları Heydər Əliyevi alternativsiz lider, əvəzsiz dövlət xadimi kimi dəyərləndirdiklərini bir daha təsdiq etdilər.

1998-ci ilin 11 oktyabr seçkilərinin diqqətəlayiq xüsusiyyətlərindən biri də o hesab edilməlidir ki, Heydər Əliyevin prezi-

dentlik mandatının yeni 5 il müddətinə uzadılmasına verilmiş 76 faizdən artıq seçici səsi, əslində, onun ötən 5 ildəki fəaliyyətinin cəmiyyət tərəfindən yüksək qiymətləndirilməsinin ifadəsidir. Heydər Əliyevin artıq tarixə qovuşmuş birinci prezidentlik illəri nə qədər təlatümlü, ziddiyyətli, ictimai-siyasi gərginliklərlə səciyyələnən dövrə təsadüf etsə də, ona xas olan siyasi müdriklik, illərlə toplanmış böyük dövlətçilik təcrübəsi, iradə yenilməzliyi və ən başlıcası, doğma Vətəni düçar olduğu bəlalardan xilas etmək həvəsi və istəyi Azərbaycanı sürətlə fəlakətə sürükləyən qorxulu proseslərin qarşısını almağa, xalqın müstəqilliyə, azadlığa, firavan gələcəyə inamını özünə qaytarmağa qadir olan amil kimi özünü təsdiqlədi. Zəngin siyasi proseslər, hüquqi, demokratik dövlət quruculuğu və milli dirçəliş sahəsində mühüm nailiyyətlərlə müşayiət olunan son 5 il müstəqil Azərbaycanın bu günü və gələcəyi baxımından çox əlamətdar tarixi mərhələdir. Bu illərin ən mühüm nəticəsi, hər şeydən əvvəl, Azərbaycan dövlətçiliyi üçün təhlükələrin aradan qalxması, onun müstəqilliyinin dönməz, əbədi xarakter almasıdır. Digər mühüm nəticə isə ondan ibarətdir ki, bu illər ərzində yaradılmış sabit siyasi durumda, mənəvi-psixoloji mühitdə Azərbaycanın gələcək milli inkişaf strategiyası müəyyənləşdirilmiş, bu sahədə diqqətəlayiq tədbirlər həyata keçirilmişdir.

İqtisadi sahədə bazar iqtisadiyyatına və azad iqtisadi münasibətlərə keçidin normativ hüquqi əsasları yaradılmış, bazar iqtisadiyyatına keçid istiqamətində ciddi praktik addımlar atılmışdır. Özəlləşdirmə prosesinin, aqrar islahatların həyata keçirilməsi, bazar iqtisadiyyatının bütün zəruri təsisatlarının, əhalidə sahibkarlıq hissinin formalaşdırılması istiqamətində mühüm irəliləyişlər əldə edilmişdir. Xalqımızın milli sərvətlərindən

milli maraqlara uyğun istifadə edilməsi istiqamətində nəhəng layihələr hazırlanmış, ələlxüsus, Xəzər neftinin hasilatı və ixracı ilə bağlı dünyanın aparıcı neft şirkətləri ilə çoxsaylı sazişlər bağlanmış, tarixi İpək yolunun bərpası layihəsi çərçivəsində Azərbaycanın vacib tranzit məntəqəsinə çevrilməsinə imkan verən mühüm tədbir – 1998-ci ilin sentyabrında məlum Bakı konfransı keçirilmişdir.

Sosial sahədə müstəqil Azərbaycan dövlətinin sosial əsası kimi sosial ədalət prinsipi qərarlaşmış, bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq, əhalinin sosial müdafiəsi mexanizminin formalaşdırılması, sosial ahəngdarlığın, sosial həmrəyliyin, milli birliyin maddi və mənəvi əsaslarının yaradılıb inkişaf etdirilməsi yönümündə səmərəli fəaliyyət göstərilmişdir.

İdarəetmə və demokratiya sahəsində ümumxalq referendumu yolu ilə qəbul edilmiş Konstitusiyaya uyğun olaraq, Azərbaycanın demokratik, dünyəvi, humanist dövlət quruluşu təsbit edilmiş, siyasi idarəçilikdə və cəmiyyətin bütün digər sahələrində demokratiyanın bərqərar olması üçün siyasi plüralizmə, çoxpartiyalılığa rəvac verilmiş, dövlət hakimiyyətini formalaşdırmağın ədalətli və etibarlı vasitəsi olan seçki sistemi qəti şəkildə qərar tapmış, demokratik prinsiplər əsasında ölkənin milli parlamenti seçilmişdir. Söz, mətbuat, vicdan və informasiya azadlığı təmin olunmuşdur. İnsan hüquq və azadlıqlarının tam şəkildə həyata keçirilməsinə təminat yaradılmış, ölüm hökmü ləğv edilmiş, vətəndaş cəmiyyəti qurulması istiqamətində mühüm addımlar atılmışdır.

Təhlükəsizlik sahəsində ölkənin təhlükəsizlik konsepsiyası yaradılmış, onun başlıca təminat mexanizmləri, ordu formalaş-

mış, Azərbaycanın beynəlxalq və regional təhlükəsizlik sisteminə qoşulması istiqamətində mühüm tədbirlər görülmüşdür. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistanla müharibədə atəşkəsə nail olunmuş, bu münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün ciddi addımlar atılmış, Azərbaycanın dünyada sülhsevər dövlət imici yaradılmışdır.

Ölkənin milli mənafelərinə və təhlükəsizliyi tələblərinə cavab verən xarici siyasət doktrinası formalaşdırılmış, Azərbaycan dövlətlərarası beynəlxalq, regional və ikitərəfli münasibətlər sisteminə qoşulmuşdur.

Sadalananlar Heydər Əliyevin prezidentliyinin birinci müddətində bilavasitə onun şəxsi keyfiyyətləri hesabına, təşəbbüsü və rəhbərliyi altında həyata keçirilən genişmiqyaslı tədbirlərin ümumiləşdirilmiş qısa səciyyəsidir. Bütün bu faktların arxasında nə qədər böyük məna, həqiqət və ümidlər olduğunu Azərbaycan xalqı, hər bir vətəndaş yaşadığı beş ilin təcrübəsində kifayət qədər yaxşı mənimsəyə bilmişdir. Elə ona görə də oktyabrın 11-də seçki qutularına yanaşan seçicilərin böyük əksəriyyəti Heydər Əliyevə səs verməyi qət etdi.

Ötən beş il müddətində təmin edilən ictimai–siyasi sabitliyin, yaradılan iqtisadi bazanın, sağlam mənəvi-psixoloji durumun və digər müsbət reallıqların dəyəri və mənası təkcə Heydər Əliyevin yenidən prezidentlik mandatını qazanmasına zəmin yaratması ilə müəyyən olunmur. Bütün bunların ən böyük mənası və təyinatı ölkənin sürətli tərəqqisinin möhkəm təməlini yaratmasındadır. Oktyabrın 11-də xalqın iradəsi ilə prezidentlik mandatını ikinci dəfə qazanan Heydər Əliyevin, onun formalaşdırdığı hökumətin, dövlətimizin başçısının siyasi xəttini dəstəkləyən çoxsaylı ictimaiyyətin, elm, təhsil,

mədəniyyət işçilərinin və başqa təbəqələrin növbəti beş ildə Azərbaycanın qarşısında duran problemlərin həll edilməsi, iqtisadiyyatın dirçəldilməsi, əhalinin sosial durumunun yaxşılaşdırılması sahəsində və digər sahələrdə daha önəmli uğurlar qazanacağına inam da məhz əvvəlki illərdə qoyulmuş bünövrənin möhkəmliyinə və etibarlılığına əsaslanır. Heydər Əliyevin prezidentliyinin ikinci müddətinə başlamasından ötən 100 günün ilkin nəticələri deyilən fikirləri bir daha təsdiqləyir.

Sözügedən dövrdə həyata keçirilməsi nəzərdə tutulan tədbirlər və praktik olaraq atılan addımlar ötən beş ildə Azərbaycanda milli dövlət quruculuğu prosesində sərbəst bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi böhranın aradan qaldırılması və iqtisadiyyatda dirçəlişin təmin edilməsi yönümündə görülən işlərin məntiqi davamı kimi qiymətləndirilməlidir. Bu mənada bilavasitə prezident seçkiləri dövrünə təsadüf edən 1998-ci ildə makroiqtisadi sabitliyin daha da güclənməsi, iqtisadiyyat sahəsində inkişaf meyillərinin artması xüsusi əhəmiyyət kəsb edir. Belə ki, əgər ümumi daxili məhsulun həcmi 1997-ci ildə 5,8 faiz artmışdısa, 1998-ci ildə bu artım 10 faiz təşkil etmişdir. Son ildə sənaye məhsulu 2,2 faiz, kənd təsərrüfatı məhsulları istehsalı isə 3,9 faiz artmışdır.

Qeyd olunan dövrdə ölkə iqtisadiyyatına bütün maliyyə mənbələri hesabına əvvəlki ilin müvafiq dövrünə nisbətən 45 faiz çox kapital qoyuluşu yönəldilmişdir. Kapital qoyuluşunun ümumi həcmində xarici sərmayələrin payı 69 faiz təşkil etmişdir. İstifadə edilmiş kapital qoyuluşunun 88 faizi istehsal təyinatlı obyektlərə yönəldilmişdir.

Həmin dövr ərzində əhalinin həyat səviyyəsində nəzərəçarpacaq irəliləyiş müşahidə olunmuşdur. Əhalinin pul gəlir-

lərinin artım sürəti istehlak qiymətlərinin artımını xeyli üstələmişdir. Belə ki, 1998-ci ildə əhalinin real pul gəlirləri əvvəlki illə müqayisədə 16 faiz yüksəlmişdir, inflyasiya isə müşahidə edilməmişdir.

1998-ci ildə işləyənlərin orta aylıq əmək haqqı 19 faiz artaraq 168,6 min manata çatmış, işləyənlərin ayrı-ayrı kateqoriyaları və təqaüdçülər üzrə əmək haqqı, təqaüd və müavinətləri 2-3 dəfə artmışdır. Təqdirəlayiq haldır ki, əmək haqqının, təqaüd və müavinətlərin artımı inflyasiya doğurmayan maliyyə vəsaitləri hesabına təmin olunmuşdur.

Respublikada aparılan məqsədyönlü tədbirlər nəticəsində ötən il manatın məzənnəsi sabit qalmış və dünyada, o cümlədən qonşu ölkələrdə baş vermiş maliyyə böhranı Azərbaycan iqtisadiyyatına o qədər də böyük təsir etməmişdir.

1998-ci ildə ölkədə özəlləşdirmə prosesi davam etdirilmiş və 6642-dən çox obyekt özəlləşdirilmişdir. Ümumiyyətlə, özəlləşdirməyə başlandığı vaxtdan Azərbaycanda 20620 kiçik, 954 orta və iri dövlət müəssisəsi və obyekti özəlləşdirilmiş, nəticədə dövlət büdcəsinə 299,9 milyard manat vəsait daxil olmuşdur.

Sahibkarlığın inkişafı üçün əlverişli mühitin yaradılması və özəlləşdirmənin həyata keçirilməsi nəticəsində qeyri-dövlət bölməsinin payı ümumi daxili məhsulda 55 faizə, o cümlədən sənayedə 26 faizə, tikintidə 70 faizə, kənd təsərrüfatında 90 faizə və ticarətdə 98 faizə çatmışdır.

Ötən dövrdə qazanılmış nailiyyətlər, yaradılmış bünövrə Heydər Əliyevin prezidentliyinin ikinci müddətində yeridiləcək iqtisadi strategiyanın əsasını təşkil edir. Bu fikri xüsusi vurğulayan Azərbaycan Respublikasının Prezidenti Heydər

Əliyev 1998-ci il oktyabrın 18-də andiçmə mərasimindəki nitqində bir daha bəyan etdi ki, əvvəlki illərin iqtisadi inkişaf xəttini davam etdirən ölkəmiz bazar iqtisadiyyatının bərqərar olması istiqamətində iqtisadi islahatlar yolu ilə irəliləyəcək, qabaqcıl dünya dövlətləri ilə iqtisadi əməkdaşlığı dərinləşdirəcək və onların bu sahədə sınaqdan çıxmış təcrübəsindən səmərəli istifadə edəcəkdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il noyabr ayının 6-da keçirilmiş geniş iclasında ölkənin sosial-iqtisadi inkişafı məsələləri ətraflı müzakirə olunmuş, iqtisadi islahatların sürətləndirilməsinin zəruriliyi bir daha qeyd edilmiş, bu sahədə konkret vəzifələr və onların həyata keçirilməsi yolları və vəsaitləri müəyyən edilmişdir. İclasın nəticələri əsasında "1998-ci ilin yanvar-sentyabr aylarında ölkənin iqtisadi və sosial inkişafının yekunları və qarşıda duran vəzifələr, qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli, 1998-1999-cu illərin payız-qış mövsümünə hazırlıqla bağlı məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 19 noyabr 1998-ci il tarixli Sərəncamı imzalanmışdır.

Yeni mərhələdə Azərbaycan hökumətinin iqtisadi strategiyasının əsas istiqamətlərinin müəyyənləşdirildiyi həmin iclasda və sərəncamda bir neçə əsas, həlledici əhəmiyyət daşıyan vəzifələr göstərilmişdir: azad bazar iqtisadiyyatı şəraitində dövlətin əsas maliyyə qaynağı və iqtisadi inkişafın güclü stimulu kimi vergi mexanizminin rolunun və əhəmiyyətinin artırılması; azad sahibkarlığın inkişafına təkan vermək üçün iş adamlarının təsərrüfat fəaliyyətinə dövlət və hüquq mühafizə orqanlarının əsassız müdaxilələrinin qarşısının alınması; özəlləşdirmə prosesinin real səmərəsini artırmaq məqsədi ilə səhmdar

cəmiyyətlərinin fəaliyyətinin canlandırılması; iqtisadiyyatın tənzimlənməsində, vergi və rüsumların toplanmasında intizamın və qanun-qaydanın gücləndirilməsi; iqtisadiyyatın sosial yönümünün gücləndirilməsi.

Nazirlər Kabinetinin 6 noyabr tarixli geniş iclasında və "1998-ci ilin yanvar-sentyabr aylarında ölkənin iqtisadi və sosial inkişafının yekunları və qarşıda duran vəzifələr, qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli, 1998-1999-cu illərin payız-qış mövsümünə hazırlıqla bağlı məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 19 noyabr 1998-ci il tarixli Sərəncamında müəyyən edilmiş bir sıra vəzifələrin yerinə yetirilməsi barədə bu gün artıq müəyyən hesabat vermək mümkündür. Hər şeydən əvvəl, ölkənin iqtisadi inkişafının cari problemlərinin həlli, sosial vəzifələrin həyata keçirilməsi istiqamətində nəzərəçarpan irəliləyişlərə nail olunmuşdur. 1998-ci ilin noyabr-dekabr aylarında vergi toplanması sahəsində ciddi dönüş yaradılmış, bu göstəriciyə görə xüsusilə geridə qalan özəl sektordan vergi yığımı 2 dəfə artmışdır. Ümumiyyətlə, dövlətin maliyyə imkanlarının yaxşılaşdırılmasında vergilər üzrə daxilolmaların xüsusi çəkisi xeyli yüksəlmişdir. Bundan əlavə, Dövlət Gömrük Komitəsinin imkanları yenidən təhlil edilmiş və 1999-cu ilin planında əhəmiyyətli dəqiqləşdirmələr aparılmışdır.

Azərbaycan iqtisadiyyatının aparıcı sahəsi olan neft sənayesində xarici şirkətlərlə əməkdaşlığın inkişaf etdirilməsi üçün ardıcıl addımlar atılmışdır. Respublikamızın siyasi və iqtisadi həyatında mühüm strateji əhəmiyyətə malik olan Qərb neft kəmərinə 1998-ci il dekabrın 10-da xam neftin doldurulması prosesi başlandı. Bununla da "Əsrin müqaviləsi"nin

gerçəkləşməsi yolunda daha bir addım atıldı. Azərbaycan Prezidentinin xarici sərmayəçilərin fəaliyyəti üçün əlverişli şərait yaratması ölkəmizin iqtisadiyyatına onların maraqlarının daha da artmasına səbəb olmuşdur. 1998-ci il dekabr ayının 10-da ARDNŞ, Amerikanın "Frontera resorses korporeyşn" şirkəti, Səudiyyə Ərəbistanı və Amerikanın "Deltahess" alyansı arasında Azərbaycanın quruda yerləşən "Kürsəngi" və "Qarabağ" yataqlarına dair, dekabrın 25-də isə Xəzərin Azərbaycan sektorundakı "Yanan tava", "Atəşgah" və "Muğan-dəniz" blokunun birgə işlənilməsi haqqında ARDNŞ ilə Yaponiyanın neft şirkətləri arasında müqavilələr imzalanmışdır.

Azərbaycan hökumətinin fəaliyyətində sosial problemlərin həllinə daim ciddi diqqət yetirilir. Heydər Əliyevin seçkiqabağı platformasında və seçkilərdən sonra həyata keçirilən sosial-iqtisadi inkişaf proqramında da bu məsələ ön plana çəkilmişdir. Xüsusilə çadır düşərgələrində məskunlaşmış məcburi köçkünlərin yaşayış şəraitini yaxşılaşdırmaq və digər sosial problemlərini həll etmək, daha ağır şəraitdə yaşayan ailələrin başqa yerlərə köçürülməsini təmin etmək, köçkünlər arasında işsizliyi aradan qaldırmaq məqsədi ilə onların məskunlaşdığı rayonlarda müvəqqəti istifadə üçün torpaq sahələrinin ayrılması məsələsini həll etmək, ölkənin şəhər və rayonlarının təbii qaz və elektrik enerjisi ilə təmin olunmasını həyata keçirmək üçün ciddi tədbirlər görülür.

Ötən 100 gün bu sahədə planlaşdırılan vəzifələrin həyata keçirilməsi baxımından xüsusilə əlamətdar dövr hesab edilə bilər. Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin daha səmərəli və operativ işləməsinə şərait yaratmaq məqsədi ilə

onun sədri baş nazirin müavini səviyyəsində təmsil edilmiş və komitənin rəhbərliyi gücləndirilmişdir. Daha ağır vəziyyətdə yaşayan qaçqın və məcburi köçkün ailələrinin həyat şəraitini yaxşılaşdırmaq məqsədi ilə təkcə oktyabr-noyabr aylarında "Azəravtonəqliyyat" Dövlət Konserni və Dövlət Dəmir Yolu İdarəsi konteynerlərdən 322 ev və müxtəlif təyinatlı obyektlər hazırlamışdır. Bu sahədə işlərin gücləndirilməsi məqsədi ilə müvafiq tədbirlər görülür.

1999-cu ilin dövlət büdcəsində qaçqın və məcburi köçkünlərin həyat tərzinin yaxşılaşdırılması məqsədi ilə əlavə maliyyə vəsaitinin ayrılması nəzərdə tutulmuşdur.

Ölkənin sosial-iqtisadi inkişafının yüksək sürətini təmin etmək yönümündə Azərbaycan hökumətinin fəaliyyətinin miqyasları və xarakteri ölkənin 1999-cu il üçün dövlət büdcəsində özünün əksini tapmışdır. 1998-ci il dekabrın 17-də keçirilən ümumrespublika müşavirəsində onun formalaşdırılması məsələləri müzakirə olunmuş və qeyd edilmişdir ki, 1999-cu ilin dövlət büdcəsi ölkənin sosial–iqtisadi inkişafı üçün yeni perspektivlər açır. Cari ildə iqtisadi inkişafın əsas göstəricisi hesab olunan ümumi daxili məhsulun artım sürəti 10 faiz nəzərdə tutulmuşdur. İqtisadi islahatların sürətləndirilməsi və onların səmərəsinin artırılması sayəsində bazar iqtisadiyyatının bərqərar olmasında əsaslı nəticələr əldə edilməsi gözlənilir. Ümumi daxili məhsulun həcmində özəl sektorun xüsusi çəkisinin 60 faizə çatacağı proqnozlaşdırılır.

1999-cu ildə sənaye məhsulları istehsalının 4 faiz, kənd təsərrüfatı məhsulları istehsalının isə 5 faiz artırılacağı nəzərdə tutulur.

Bütün büdcə xərclərinin 46 faizinin sosial sahəyə yönəldilməsi proqnozlaşdırılır ki, bu da ötən ilin təsdiq olunmuş büdcəsi

ilə müqayisədə 128,4 milyard manat çoxdur. Büdcə gəlirlərinin daxil olmasında bəzi çətinliklərin yaranmasına baxmayaraq, aztəminatlı təbəqələrin vəziyyətinin yaxşılaşdırılması, qaçqın və məcburi köçkünlərə ayrılan yardımların, xüsusən də yemək xərclərinin artırılması məqsədi ilə sosialyönümlü məsrəflərin çoxaldılması bu gün həyata keçirilən büdcə siyasətinin əsasını təşkil edir.

Qeyd etdiyimiz dövrün ictimai–siyasi dəyərini səciyyələndirən keyfiyyət amilləri sırasında ölkədə islahatlar hərəkatının inkişafına geniş meydan açılması istiqamətində təsirli tədbirlərin həyata keçirilməsi xüsusi vurğulanmağa layiqdir. Demokratik qaydaların bərqərar edilməsi, insan hüquq və azadlıqlarının müdafiə olunması yönümündə əvvəldən götürülmüş strateji xətt davam etdirilir və daha geniş miqyaslar, konkret parametrlər kəsb edir. Azərbaycan Respublikası Prezidentinin "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 22 fevral tarixli Fərmanını və 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair" Dövlət Proqramının icrası istiqamətində "İnsan Hüquqları üzrə Elmi Tədqiqat İnstitutunun yaradılması haqqında" 1998-ci il 30 noyabr tarixli Sərəncamını xüsusilə qeyd etmək lazımdır.

1998-ci il, ümumiyyətlə, Azərbaycan üçün Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, insan hüquqları ili olubdur. Dövlətimizin Konstitusiyasında insan hüquqlarına aid bütün maddələrin əks olunması və onlardan irəli gələn vəzifələri həyata keçirmək üçün yeni qanunların qəbul edilməsi dialektikası Azərbaycanda insan hüquqlarının qorunmasının daim dövlət nəzarətində olmasının əyani sübutudur. Bunu

Prezidentin andiçmə mərasimindən sonrakı fəaliyyətinin məntiqi, həyata keçirdiyi tədbirlərin humanist xarakteri də təsdiq edir. Son üç ayda ölkə əhalisi və bütün dünya bir daha gördü ki, Azərbaycanda insan hüquqlarına və insan azadlıqlarına ali ümumbəşəri dəyər kimi yüksək qiymət verilir.

Prezident Heydər Əliyev humanizm prinsiplərini rəhbər tutaraq, insan azadlıqlarına etibarlı təminat yaratmaq yönümündə həyata keçirdiyi strateji xəttə sədaqətini bir daha nümayiş etdirərək, 1998-ci il dekabrın 27-də, Dünya azərbaycanlılarının həmrəyliyi günü ərəfəsində 105 nəfər məhkumun əfv edilməsi haqqında Fərman imzaladı. Bundan əlavə, daha geniş humanizm və insana qayğı nümayiş etdirən dövlətimizin başçısı Milli Məclisə böyük amnistiya haqqında qərar qəbul etmək barədə təkliflə müraciət etdi. Prezidentin təşəbbüsü ilə Milli Məclisin dekabrın 29-da qəbul etdiyi amnistiya haqqında qərara görə, 12 min nəfərə qədər məhkumun cəzaçəkmə yerlərindən tam azad olunması və ya cəzaçəkmə müddətinin qismən azaldılması nəzərdə tutulmuşdur.

Son üç ay ərzində ölkəmizdə aparılan demokratik islahatların spektri daha da genişlənmiş, məhkəmə-hüquq sisteminin yenidən qurulması sahəsində inamlı addımlar atılmışdır. Yeni yaradılacaq məhkəmə orqanları sisteminin təşkili və fəaliyyətinin əsas müddəaları "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 1 dekabr tarixli Fərmanında öz əksini tapmışdır. Azərbaycan Respublikası Prezidenti yanında respublika Hüquq İslahatı Komissiyası "Prokurorluq orqanları haqqında", "Vəkillər

haqqında" və "Notariat haqqında" qanun layihələrini işləyib hazırlamış, Avropa Şurasının yüksək səviyyəli ekspertləri də həmin layihələrin beynəlxalq standartlara uyğun olması barədə müsbət rəy vermişlər. İctimai təkamülün, vətəndaş cəmiyyətinin formalaşmasının həlledici amillərindən biri kimi, Azərbaycan Respublikası Mülki Məcəlləsinin layihəsi üzərində işlər də artıq yekun mərhələsindədir.

Dövlət idarəçiliyində çevik mexanizm yaradılması sahəsində də bir sıra mühüm tədbirlər görülmüşdür. Respublika Nazirlər Kabinetinin 1998-ci il noyabrın 6-da keçirilmiş geniş iclasında Prezident Heydər Əliyev Azərbaycanda ictimai-siyasi mühiti sağlamlaşdırmaq üçün dövlət, hakimiyyət və hüquq mühafizə orqanlarının fəaliyyətində müşahidə olunan bütün mənfi hallarla, vəzifəli şəxslərin vəzifədən sui-istifadə etməsi halları ilə, rüşvətxorluqla, korrupsiyanın bütün növləri ilə ciddi mübarizə aparmağı günün aktual məsələsi hesab etmişdir. Bu məqsədlə, ilk növbədə, cinayətkarlıqla mübarizənin gücləndirilməsi, hüquq mühafizə orqanlarının özlərinin işində rüşvətxorluğu, korrupsiyanı, yersiz yoxlamaları aradan götürmək tələb olunmuşdur. Nazirlər Kabinetinin, onun əhatə etdiyi icra orqanlarının, habelə yerli icra hakimiyyəti rəhbərlərinin işində ciddi şəkildə dəyişikliklər aparılması, nöqsanların aradan qaldırılması xüsusilə vurğulanmışdır.

Dövlət idarəçiliyi mexanizminin təkmilləşdirilməsi və iqtisadiyyatın tənzimlənməsi sahəsində islahatların daha da dərinləşməsi ilə bağlı məsələlər 1998-ci il dekabrın 17-də Nazirlər Kabinetinin 1999-cu ilin dövlət büdcəsi layihəsinin müzakirəsinə həsr olunmuş geniş müşavirəsində Azərbaycan

Prezidenti Heydər Əliyevin yekun nitqində bir daha ön plana çəkilmişdir. Sahibkarlığın inkişafına maneçilik törədən amillər, lisenziya verən, yoxlama və nəzarət funksiyalarını həyata keçirən dövlət orqanlarının işində olan nöqsanlar, rüşvətxorluq, süründürməçilik halları ciddi tənqid olunmuşdur. Qanun-qaydanın, nizam-intizamın möhkəmləndirilməsi, vəzifəli şəxslərin məsuliyyətinin artırılması istiqamətində təsirli tədbirlər görülməsinin zəruriliyi qeyd edilmişdir. Korrupsiya və rüşvətxorluqla mübarizəni gücləndirmək məqsədi ilə Dövlət proqramının hazırlanması barədə tapşırıq verilmişdir.

Azərbaycanın sürətli iqtisadi tərəqqisi və yüksəlişi üçün əlverişli şəraitin yaradılması yönündə strateji xəttin reallaşması ilə əlaqədar irəli sürülmüş vəzifələrə uyğun olaraq görülən praktik tədbirlər sırasında "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 7 yanvar tarixli Fərmanı fövqəladə əhəmiyyətə malikdir. Bu sənəd dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi, sahibkarlığın inkişafı, yerli və xarici iş adamlarının fəaliyyətinə əsassız müdaxilələrin qarşısının alınması, korrupsiya, rüşvətxorluq və digər vəzifədən sui-istifadə halları ilə mübarizə istiqamətində dövlətin bu günə qədər həyata keçirdiyi tədbirlərin məntiqi davamı olub, sözügedən sahədə daha radikal addımlar atılmasını nəzərdə tutan strateji proqramın əsas vəsiləsini təşkil edir.

Müşavirədə qaldırılmış problemlərin həlli istiqamətində görülən əməli işlərdən biri də korrupsiyaya qarşı mübarizənin gücləndirilməsidir. Bu sahədə planlaşdırılan işlərin səmərəsini artırmaq və onlara sistemli xarakter vermək üçün korrupsiya və rüşvətxorluğa qarşı mübarizə üzrə Dövlət proqramının hazırlanması başa çatmışdır.

Dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi yönündə radikal addımlar atılması, çevik idarəçilik strukturunun yaradılması strategiyasının formalaşdırılması, bu istiqamətdə praktik işlərin görülməsi 100 günün yaddaqalan hadisəsi kimi əhəmiyyətlidir. Bu məqsədlə Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət komissiyasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1998-ci il 29 dekabr tarixli Fərmanı xüsusi dəyərə malik olan sənəd hesab edilməlidir. Fərmanda cəmiyyətin demokratikləşdirilməsi və bazar münasibətlərinin daha da inkişaf etdirilməsi üçün dövlət idarəetməsində köklü islahatlar aparılmasının prinsipial əhəmiyyət kəsb etdiyi xüsusilə vurğulanır. Bildirilir ki, bu sahədə islahatlar dövlət idarəetməsinin səmərəliliyini artırmalı, iqtisadi fəaliyyət üçün beynəlxalq standartlara cavab verən idarəetmə sistemi və hüquqi baza yaradılmasını təmin etməlidir.

Dövlət idarəçiliyi mexanizminin təkmilləşdirilməsi tədbirləri sistemində idarəetmə sahəsi üçün mütəxəssislər hazırlanması işinin müasir tələblərə uyğun qurulması, onların peşəkarlıq səviyyəsinin artırılması, dövlət idarəçiliyi sahəsində elmi tədqiqatlar aparılmasının təşkili və həmin sahənin analitik informasiya təminatının möhkəmləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılması haqqında 1999-cu il 3 yanvar tarixli Fərman da xüsusi əhəmiyyət kəsb edir.

Bundan əlavə, müstəqil ölkəmizin tarixində ilk dəfə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasının yaradılması haqqında Prezidentin 1998-ci il 1

dekabr tarixli Sərəncamı da dövlət işində çalışan əməkdaşların peşəkarlıq səviyyəsinin nəzəri cəhətdən yüksəldilməsi istiqamətində aparılan uzaqgörən siyasətin bariz nümunəsidir.

Heydər Əliyevin prezidentliyinin ilk 100 günündə onun genişmiqyaslı dövlətçilik fəaliyyətində qabarıq şəkildə özünü göstərən istiqamətlər sırasında ideya-tərbiyə işinin, milli şüurun, milli təfəkkürün yüksəldilməsi sahəsində səylərin gücləndirilməsi xüsusilə aydın görünür. 1998-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılmasının 6-cı ildönümü ilə əlaqədar keçirilən təntənəli toplantıda Prezidentin geniş məzmunlu nitqi cəmiyyətdə azərbaycançılıq ideologiyası zəminində milli məfkurənin formalaşdırılması yolları və vasitələri haqqında proqram kimi qəbul edilmişdir. Dövlətimizin başçısı milli təfəkkürün inkişafında azərbaycançılıq ideyasının xüsusi əhəmiyyətini ön plana çəkmiş, habelə Azərbaycan dilinin, islam dininin mənəvi-əxlaqi təsir gücünün inkişaf etdirilməsini bu ideyanın gerçəkləşdirilməsi vasitələri kimi səciyyələndirmişdir. Xalqın tarixi keçmişinə bağlılıq, mütərəqqi ənənələrimizdən bəhrələnmək vərdişləri, Azərbaycan dilinin incəliklərinə bələd olmaq, onu sevərək inkişaf etdirmək həvəsi, islam dininin insan mənəviyyatını saflaşdırıcı xüsusiyyətlərindən və insanlara mənəvi-emosional təsir gücündən milli birlik və barışıq vasitəsi kimi səmərəli istifadə edilməsi Prezident Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq məfkurəsinin fundamental prinsipləridir

Müstəqilliyin qəti qələbəsi, suverenliyin həlledici təntənəsi, milli inkişafın qüdrətli amili hamılıqla uca tutulan azərbaycançılıq ideyasının ümummilli miqyasda şəriksiz hakim mövqe

qazanması ilə əlaqədardır. Ona görə də dövlətimizin başçısı bu gün qarşımızda duran və gələcəkdə meydana çıxa bilən bütün problemlərin uğurla həlli üçün azərbaycançılıq ideologiyasının onun bütün atributları ilə birlikdə möhkəm mənimsənilməsini zəruri şərt hesab edir. Əvvəlki beş ildə olduğu kimi, son üç ay müddətində də dövlətin fəaliyyətinin, görülən tədbirlərin ümumi məntiqi və milli mənafelərə xidmət edən sintetik qayəsi azərbaycançılıq ideyasının təsdiqinə və reallaşmasına xidmət göstərmişdir.

Son ayların təcrübəsi Azərbaycanda gedən bütün demokratik proseslərin, həyata keçirilən iqtisadi, hüquqi, mədəni islahatların zəruri şərti olan ictimai-siyasi sabitlik anlayışının nə qədər vacib olduğunu bir daha bariz şəkildə göstərir. Bu sabitlik xalqımızı böyük böhranlardan, cürbəcür daxili dövlət çevrilişi cəhdlərindən xilas etdi, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin həyata keçirilməsini təmin etdi. Ölkəmizin sabitliyi Azərbaycanın iqtisadi əlaqələrinin inkişaf etməsinə gözəl zəmin yaradıbdır. Bazar iqtisadiyyatına doğru inamla irəliləyən respublikamızda sürətli islahatlar aparılır, ölkənin dünya və beynəlxalq maliyyə şəbəkələrinə inteqrasiyası sahəsində önəmli addımlar atılır, əzəmətli layihələr müzakirə olunur. Bütün dünya dövlətləri Azərbaycanla bərabərhüquqlu əməkdaşlığa, işbirliyinə dəvət edilir. Məhz daxili sabitliyini qoruyan, açıq iqtisadi siyasət yürüdən ölkə kimi bu gün Azərbaycanın iqtisadiyyatına çoxmilyardlıq sərmayələr qoyulur.

Xalqa və dövlətçiliyə təmənnasız sədaqət, demokratiyaya, qanunlara, insan haqlarına və azadlıqlarına hörmət və ehtiram,

cinayətkarlığa qarşı barışmazlıq, islahatçılıq Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin siyasətinin ana xəttini təşkil edir. Onun prezidentlik fəaliyyətinin bütün dövründə imzaladığı fərman və sərəncamlar iqtisadiyyat, qanunvericilik, insan hüquqları sahəsində, təhsil, mədəniyyət, səhiyyə sahələrində köklü islahatlara yaşıl işıq yandırmışdır. Azərbaycanın ən yeni tarixi, respublikada dövlətçiliyin, dövlət strukturlarının təşəkkül tapması və inkişafı da möhtərəm Prezidentimizin adı ilə bağlıdır. Bununla belə, cəmiyyətimizdə hər bir uğura qısqanclıqla yanaşan, yaranmış sabitliyin pozulmasında maraqlı olan qüvvələr hələ də qalırlar. Yanvar ayının 7-də Qobustan həbsxanasında baş verən terror aktı ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsini istəməyən, dövlətə qarşı olan qüvvələrin mövcudluğuna sübutdur. Lakin dövlətçiliyimizin, qanunçuluğumuzun keşiyində sayıq duran hüquq mühafizə orqanlarının səyi nəticəsində bu terror aktının da qarşısı alındı. Sonuncu hadisələr bir daha sübut etdi ki, Prezidentimiz Heydər Əliyevin rəhbərliyi altında aparılan daxili və xarici siyasəti xalq dəstəkləyir, ayrı-ayrı mənfi hallar ictimaiyyət tərəfindən pislənir və dövlətçiliyimizin keşiyində duran qüvvələr öz vəzifələrinin öhdəsindən gəlməyi bacarırlar.

Azərbaycan Prezidentinin daim məşğul olduğu və bütün vasitələrlə həll etməyə çalışdığı problemlər içərisində Dağlıq Qarabağ münaqişəsi, şübhəsiz, birinci yerdə durur. Bu problem Azərbaycan hökumətinin həm daxili, həm də xarici siyasi fəaliyyətinin ən ümdə, ən aktual məsələsidir. Münaqişənin Azərbaycanın dövlət suverenliyini və milli mənafelərini qorumaq şərti ilə nizama salınması istiqamətində son illərdə

əhəmiyyətli irəliləyişlər əldə olunmuş, ATƏT-in Lissabon sammitində problemin həllinin prinsipləri müəyyən edilmişdir. Lakin münaqişənin həll edilməsində vasitəçi rolunu yerinə yetirən ATƏT-in Minsk qrupu üzərinə götürdüyü missiyanı 1998-ci ilin əvvəllərində Ermənistanda hakimiyyət dəyişikliyi ilə əlaqədar, sonra isə Azərbaycanda prezident seçkiləri ərəfəsində müvəqqəti olaraq dayandırmışdı.

Azərbaycanda prezident seçkilərindən sonra münaqişənin nizama salınması yönündə danışıqlar bərpa olundu. Azərbaycan yenə də problemin həllində əvvəldən qəbul olunmuş prinsiplərə əsaslandığını bəyan etdi. Prezident Heydər Əliyev andiçmə mərasimindəki nitqində qeyd etmişdir ki, məsələnin sülh yolu ilə həll olunması Azərbaycanın ərazi bütövlüyü prinsipinə söykənməlidir. "Biz Azərbaycan dövlət müstəqilliyini əldə edən zaman Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmışıq, Azərbaycanın dövlət sərhədləri çərçivəsində olan müstəqil Azərbaycanın tam bütövlüyünü müdafiə edirik və bundan sonra da müdafiə edəcəyik. Bunu dünya da bilməlidir, hamı bilməlidir və ATƏT, onun Minsk qrupu da bilməlidir".

Minsk qrupu çərçivəsində danışıqlar bərpa edildikdən sonra aparılan məsləhətləşmələr münaqişənin nizama salınmasında Azərbaycanın öz prinsipial mövqelərində israrlı olduğunu nümayiş etdirdi. Münaqişədə iştirak edən tərəflər arasında vasitəçilik missiyasını həyata keçirən ATƏT-in Minsk qrupunun təklif etdiyi "Ümumi dövlət" konsepsiyasının Azərbaycan rəhbərliyi tərəfindən qətiyyətlə rədd olunması sözügedən məsələdə ölkəmizin mövqeyinin dəyişməzliyinə əyani sübutdur.

ATƏT-in bölgəyə səfər edən nümayəndə heyəti ilə görüşdə "Ümumi dövlət" konsepsiyasına Azərbaycanın prinsipial mövqeyini ifadə edən Prezident Heydər Əliyev bildirmişdir: "İndi verilən təkliflərin əsas prinsipi "ümumi dövlət" prinsipidir ki, nə beynəlxalq təcrübədə, nə də beynəlxalq hüquq normalarında belə bir dövlət forması yoxdur. Bu təkliflərdən belə məna çıxır ki, Azərbaycan mövcud olmayan və heç kəs tərəfindən tanınmayan "Dağlıq Qarabağ Respublikası" ilə ümumi dövlət yaratmalıdır. Bu təklif Azərbaycan dövlətinin, xalqının milli mənafelərinə ziddir. Biz razı ola bilmərik ki, Azərbaycan dünyada müstəqil olduğu bir zamanda öz tərkibində, ərazisində, müəyyən səbəblərdən və Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüzün, Azərbaycana qarşı aparılan işğalçılıq siyasəti nəticəsində müəyyən sərbəstlik almış Dağlıq Qarabağ Azərbaycanla birlikdə bir dövlət yaratsın. Belə təsəvvür yaranır ki, kimsə, nəyə görəsə, nəyin bahasına olursa-olsun, bu məsələni guya həll etmək istəyir. Ərazi bütövlüyü formal xarakter yox, faktik xarakter, suverenlik xarakteri daşımalıdır".

Azərbaycan Respublikası Prezidentinin bu problemin ədalətli, beynəlxalq hüquq normalarına uyğun həlli sahəsində prinsipial mövqeyi ölkəmizin milli maraqlarına və ərazi bütövlüyünə qarşı yönəldilmiş "Ümumi dövlət" konsepsiyasının danışıqların predmeti kimi aradan götürülməsinə səbəb olmuşdur. Dekabr ayının əvvəllərində Osloda ATƏT-in üzvü olan dövlətlərin xarici işlər nazirlərinin görüşündə yeni təkliflərin hazırlanması zərurəti vurğulanmış, habelə bu zaman ölkələrin ərazi bütövlüyü prinsipinə əməl edilməsi ön plana çəkilmişdir. Hesab edirəm ki,

Azərbaycan rəhbərliyinin nümayiş etdirdiyi qətiyyət və prinsipiallıq Dağlıq Qarabağ münaqişəsinin ədalətlə nizama salınması yolunda ermənipərəst qüvvələrin irəli sürdüyü ciddi maneənin aradan qaldırılması, ölkəmizin ərazi bütövlüyünə qarşı çevrilmiş sui-qəsdin puça çıxması ilə nəticələnmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyev istər hakimiyyətinin əvvəlki beş ilində və xüsusən də ikinci müddətdə Prezidentliyə başladığı andan milli həmrəyliyə nail olunmasına, iqtidar–müxalifət münasibətlərinin normallaşmasına, ölkədə siyasi proseslərin sivil, demokratik məcrada aparılmasına xüsusi diqqət yetirmiş və yetirməkdədir. Ölkədə ağır zəhmət bahasına yaradılmış sabitliyi qorumaq, vətəndaş həmrəyliyini bərqərar etmək üçün bütün sağlam qüvvələrin səfərbər olması zəruridir. Ümummilli problemlərin müvəffəqiyyətlə həlli üçün hakimiyyətin və ölkənin əsas siyasi qüvvələrinin dialoqu son dərəcə vacibdir. Dövlətimizin başçısı Heydər Əliyev prezident seçkilərindən dərhal sonra keçirdiyi mətbuat konfransında bu məsələyə münasibətini belə açıqlamışdır: "Mən 1993-cü ildə hakimiyyətə gələndə heç kəsə fərq qoymadım. Hətta məndən öncə, keçmiş hakimiyyət dövründə işləyən adamların da çoxunu işdə saxladım. Azərbaycan Prezidenti kimi mən bu gün də dövlət işində işləməyə və dövlətə, cəmiyyətə fayda verməyə qadir olan hər bir insanı dövlət, hökumət işinə cəlb etməyə hazıram. Hər bir vətəndaş, hər bir ictimai-siyasi təşkilat, hər bir siaysi partiya bu ali məqsədlərin həyata keçirilməsi üçün öz səylərini göstərməlidir və əməkdaşlıq etməlidir. Mən onları müstəqil Azərbaycanın bu günü və gələcəyi naminə, Azərbaycan Konstitusiyası və qanunları çərçivəsində bütün işlərin sivil formada, sivil şəraitdə həyata keçirilməsinə dəvət edirəm".

Prezident seçkilərindən sonra respublikamızın rəhbəri Heydər Əliyev dəfələrlə bütün siyasi qüvvələri və partiyaları ölkədə milli həmrəyliyi möhkəmlətmək, ümumxalq mənafeləri naminə vətəndaş birliyinin əsaslarını daha da gücləndirmək məqsədi ilə səyləri birləşdirməyə dəvət etmişdir. Qeyd etmişdir ki, Azərbaycan iqtidarı müxalifətdə olan qüvvələrlə hər bir danışığa, hər bir dialoqa hazırdır. Müxalifət düşərgəsində olan qüvvələr də Azərbaycanın milli mənafeyini, Azərbaycanın müstəqil dövlət kimi yaşamasını və inkişaf etməsini hər şeydən üstün tutmalıdırlar və biz bu prinsiplərə söykənərək, bundan sonra da əməkdaşlıq edə bilərik.

Azərbaycan rəhbərliyi vətəndaş birliyini və milli həmrəyliyi ölkəmizin qarşılaşdığı problemlərin həllində xüsusi rol oynaya biləcək amil kimi yüksək qiymətləndirir, həm də bu zaman milli həmrəylik anlayışına geniş məkan çərçivəsində və tarixi məsuliyyət kontekstində yanaşılmasına üstünlük verir. Bu mənada dünya azərbaycanlılarının həmrəyliyi ideyasının xüsusi vurğu ilə irəli çəkildiyi də diqqətdən yayınmamalıdır. 1998-ci il dekabrın 26-da Prezident Heydər Əliyev Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibətilə imzaladığı təbrik məktubunda xalqımızın tarixi haqlarının bərpa olunmasında, bütün dünyada azərbaycanlıların insan və vətəndaş hüquqlarının qorunmasında milli birliyi gücləndirməyin, sarsılmaz həmrəylik nümayiş etdirməyin əhəmiyyətini xüsusi vurğulamışdır.

Göründüyü kimi, möhtərəm Heydər Əliyevin prezidentliyinin ikinci müddətinin ilk 100 gününün nəticələri genişmiqyaslı iqtisadi, siyasi, sosial–mənəvi inkişaf planları ilə zəngindir. Xalqımızın XXI əsrə yüksək nailiyyətlərlə qədəm qoyması üçün

çox sanballı əsas yaradılmışdır. Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın böyük qələbələr qazanacağına, hər bir ailə, hər bir vətəndaşın firavan həyatının təmin ediləcəyinə xalqımız ürəkdən inanır və bu inamla da yaşayır.

* * *

***Heydər Əliyev tarixi şəxsiyyətdir. Heydər Əliyev ilə ünsiyyətdə hər kəs onun təfəkkürünün məntiqi gücünə, fəlsəfi fikrinin dərinliyinə, mühakimələrinin inandırıcılığına, tarixi-məntiqi metoduna heyran qalır. O, parlaq dahi şəxsiyyət, geniş diapazonlu siyasətçi və diplomatdır. O, zəngin erudisiyaya malik olmaqla yanaşı, dövlət idarəçiliyi, iqtisadiyyat və sənaye, ədəbiyyat və incəsənət məsələlərinə dərindən bələddir.***

***Heydər Əliyevin 1993-cü ilin iyun ayında hakimiyyətə gəlməsi təkcə xalqın deyil, həm də zamanın tələbi idi. Heydər Əliyevin dövlət zəkası və uzaqgörənliyi, çox böyük səyləri sayəsində ölkəmizdə yaratdığı sabitlik Azərbaycan tarixinə siyasət sənətinin monumental nümunəsi kimi daxil olacaqdır. 1998-ci ilin oktyabrında milyonlarla azərbaycanlı müstəqil Azərbaycan dövlətinin memarı kimi Heydər Əliyevin namizədliyinə səs verdi. Başlıcası budur ki, Heydər Əliyev öz adını Azərbaycan tarixində müstəqil dövlətin müdrik banisi kimi əbədiləşdirmişdir. Azərbaycan xalqı XXI əsrə Heydər Əliyevin rəhbərliyi ilə inamla qədəm qoyur. Bu, olduqca böyük tarixi hadisədir. Bu, bizim milli qürurumuz və sərvətimizdir.***

*"Xalq qəzeti",*
*2 fevral 1999-cu il.*

## BEYNƏLXALQ KOLLOKVİUMUN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

Aprelin 23-də Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev Bakıda keçirilmiş “Milli özünüdərk” mövzusunda beynəlxalq kollokviumda iştirak etmiş xarici qonaqların bir qrupu – Amerika, Türkiyə, Almaniya, İngiltərə və Fransa alimləri ilə görüşmüşdür.

İcra Aparatının rəhbəri qonaqlara bildirdi ki, Azərbaycan Prezidenti möhtərəm Heydər Əliyevə bu elmi toplantı barədə məlumat vermişik və kollokviumun işi onu çox maraqlandırdı. Azərbaycan paytaxtında keçirilmiş bu tədbir ölkəmizin elm adamları, ümumiyyətlə, ictimaiyyətimiz üçün əhəmiyyətlidir. Çünki indiki dövrdə millətlərarası məsələlər dünyanın hər yerində insanları çox düşündürür, bir sıra mürəkkəb problemlər doğurur. Hazırda Yuqoslaviyada baş verən hadisələri buna misal göstərmək olar. Bu baxımdan kollokviumun proqramındakı məruzələr öz aktuallığı ilə diqqəti cəlb edir. Milli özünüdərk məsələlərinin elmi şəkildə araşdırılması bütün ölkələr üçün, o cümlədən Azərbaycanın gələcək inkişafı üçün vacibdir.

Prezidentin İcra Aparatının rəhbəri kollokviumun keçirilməsində Qərb Universiteti rəhbərliyinin təşəbbüsünü yüksək qiymətləndirdi.

Qərb Universitetinin rektoru professor Hüseynqulu Bağırov kollokvium barədə məlumat verərək dedi ki, hazırlıq işləri üçün vaxtın azlığına baxmayaraq, tədbirdə dünyanın müxtəlif

ölkələrindən 12 alim iştirak etmişdir. İki gün davam edən kollokviumda 60-dək məruzə və çıxış olmuş, çox geniş, sağlam diskussiya aparılmışdır. Beynəlxalq elmi məclisdə səslənmiş məruzələri ayrıca kitab halında nəşr etmək qərara alınmışdır.

Ramiz Mehdiyev bu elmi məclisdə xarici ölkələrin tanınmış alimlərinin iştirakından məmnun olduğunu söyləyərək dedi ki, onlardan bəzilərini, məsələn professor Tadeuş Svyatoxovskini ölkəmizdə yaxşı tanıyır, onun elmi fəaliyyətini yüksək qiymətləndirirlər. O, Azərbaycan Xalq Cümhuriyyətinin tarixini araşdırmaqla bizə böyük xidmət göstərmişdir.

İcra Aparatının rəhbəri kollokviumun materiallarını kitab halında nəşr etmək niyyətini dəstəkləyərək bildirdi ki, lazım gəlsə, bu işə dövlət tərəfindən də yardım göstərilər.

Əgər qonaqlarımızın vaxtı imkan verirsə, Azərbaycanla daha yaxından tanış olmaları, ətraflı fikir mübadiləsi aparmaları üçün respublikamızın müxtəlif bölgələrinə səfərlərini də təşkil etmək mümkündür.

Prezidentin İcra Aparatının rəhbəri qonaqlara bildirdi ki, Azərbaycan hökuməti Bakıda Dövlət İdarəçilik Akademiyasında Geostrateji Araşdırmalar Mərkəzi yaradır. Onun tərkibində beş institut – Qafqaz, İslam Dünyası və Şərq, Türk Dünyası, Qərb, Slavyan Dünyası institutları fəaliyyət göstərəcəkdir. Əgər imkanınız olarsa, bu sahədə gələcəkdə bizimlə əməkdaşlıq edə bilərsiniz.

Almaniyanın Monhaym Universitetinin professoru xanım Yeva Mariya Aux bu məlumatla əlaqədar dedi ki, onun çalışdığı təhsil ocağında da Qafqazşünaslıq Mərkəzi yaratmaq istəyirlər. Ramiz Mehdiyev bu təşəbbüsü müsbət qiymətləndirərək vurğuladı ki, bu sahədə əməkdaşlıq mümkündür.

Qərb Universiteti sizinlə birlikdə layihə hazırlaya bilər, sonra isə onu müzakirə edərik.

Görüşdə Amerikanın Monmaus Universitetinin professoru Tadeuş Svyatoxovski, İndiana Universitetinin professoru Bill Fiyerman, Almaniyanın Monhaym Universitetinin professoru Jan Eqbart da çıxış edərək, gələcək əməkdaşlıq barədə təkliflərini söylədilər.

Görüşün sonunda Ramiz Mehdiyev xarici alimlərə bir daha təşəkkür edərək, elmi fəaliyyətlərində yeni uğurlar arzuladı və xatirə olaraq özünün "XX əsrdə millətlərarası münasibətlər" kitabını hədiyyə etdi.

*"Azərbaycan" qəzeti,*
*24 aprel 1999-cu il.*

## AĞDAŞDA ZƏLZƏLƏNİN NƏTİCƏLƏRİNİN ARADAN QALDIRILMASINA DAİR MÜŞAVİRƏ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin tapşırığı ilə, Ağdaş və ətraf rayonlarda zəlzələdən sonrakı bərpa işlərinin vəziyyəti ilə bağlı iyulun 18-də Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyevin yanında müşavirə keçirilmişdir.

Müşavirədə Ağdaş rayonu İcra hakimiyyətinin başçısı İsmixan Şahmuradov, Milli Məclisin Ağdaş rayonundan seçilmiş deputatı Nigar Ələkbərova, Baş nazirin müavini, Fövqəladə Hallar üzrə Dövlət Komissiyasının sədri Abid Şərifov və başqaları çıxış edərək, zəlzələdən sonrakı bərpa işlərinin vəziyyəti, həyata keçirilən tədbirlər haqqında məlumat vermişlər.

Bildirilmişdir ki, keçən müddətdə Dövlət Komissiyası zəlzələnin baş verdiyi bölgədə ciddi iş aparmış, əhaliyə və dövlət müəssisələrinə dəyən ziyanın əhatə dairəsini müəyyənləşdirmiş, uçan, qəza vəziyyətinə düşən və zədə alan obyektlərin siyahısını tərtib etmiş, əhalinin köçürülməsi, yerləşdirilməsi və s. ilə bağlı təcili tədbirlər həyata keçirmişdir.

Bundan başqa, dağılmış obyektlərin sökülməsi, qəza vəziyyətində olan və zədə almış binaların bərpası ilə bağlı mühüm işlər başlanmışdır. Rayona dövlət xətti ilə maliyyə vəsaiti, inşaat materialları, texnika və s. ilə yanaşı, həm də ayrı-

ayrı respublika təşkilatları, şəhər və rayonlar tərəfindən xüsusi yardımlar göstərilir.

Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev müşavirədə çıxış edərək, zəlzələdən zərər çəkmiş rayon və kəndlərdə bərpa işinin vəziyyəti, bu sahədə çalışan təşkilatların fəaliyyəti barədə fikirlərini söyləmiş, qarşıda duran vəzifələrlə əlaqədar ciddi göstərişlər vermişdir.

İcra Aparatının rəhbəri bərpa işlərində dövlətin ayırdığı vəsaitlə yanaşı, ayrı-ayrı nazirlik və komitələrin, respublika əhəmiyyətli idarə və müəssisələrin, ətraf rayonların daxili imkanlarının da səfərbər edilməsinin vacibliyini vurğulamışdır. O demişdir ki, bütün bunlarla yanaşı, zəlzələdən zərər çəkmiş rayon və kəndlərin əhalisini, rayonların bütün daxili imkanlarını səfərbər etmək, bərpa işlərini qışa qədər sona çatdırmaq ölkəmizin başçısının Dövlət Komissiyası qarşısında qoyduğu vəzifədir və biz bunun yerinə yetirilməsinə nail olmalıyıq.

Ramiz Mehdiyev rayonda dağılmış və yaxud qəza vəziyyətinə düşmüş tarixi abidələrin bərpası ilə bağlı bütün zəruri tədbirlərin həyata keçirilməsini də mühüm bir vəzifə kimi vurğulamışdır.

*"Azərbaycan" qəzeti,*
*20 iyul 1999-cu il.*

## "HEYDƏR ƏLİYEV. ƏDƏBİYYATIN YÜKSƏK BORCU VƏ AMALI" KİTABININ TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞ

– Hörmətli xanımlar və cənablar!

Hörmətli mərasim iştirakçıları!

Bu gün Azərbaycan oxucularına möhtərəm Prezidentimizin ədəbi baxışlarını, xalqımızın mədəniyyət və ədəbiyyat tarixinin incəliklərini əks etdirən və onun qızıl fondunu zənginləşdirən "Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı" adlı yeni bir kitab təqdim olunur. Bildiyiniz kimi, bu günlərdə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətdə olmasının 30 illiyi ölkəmizdə geniş qeyd edildi. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi bu illər Azərbaycanın tarixində müstəsna yer tutur.

Bu illər Azərbaycanın iqtisadi qüdrətinin artması, milli-mənəvi və mədəni inkişafı dövrü kimi, milli dirçəliş və intibah dövrü kimi tarixə daxil olmuşdur. Ölkə həyatının elə bir sahəsi yox idi ki, 1969-cu ilin iyulundan sonra ciddi dəyişikliklərə məruz qalmasın, sözün həqiqi mənasında yenidən qurulmasın, möhtərəm Heydər Əliyevin müdrik dövlətçilik təfəkkürü süzgəcindən keçirilərək, millətin və dövlətin tələblərinə cavabverici bir şəklə salınmasın. Gözlərimiz qarşısında keçən bu otuz ildə Heydər Əliyevin yaradıcı zəkasının Azərbaycan həyatının bütün sahələrinə bir meteor kimi nüfuz edərək onu işıqlandırdığını, istənilən sahədə meydana çıxan problemi

özünəməxsus qətiyyət və prinsipiallıqla həll etdiyini, nəyə daha çox ehtiyac duyulursa, ona diqqət yetirdiyini görmüşük.

Heydər Əliyevin geniş və çoxcəhətli fəaliyyətində Azərbaycan ədəbiyyatına, onun nümayəndələrinə, klassik irsə və müasir ədəbi prosesə diqqət və qayğı həmişə öncül mövqedə dayanmışdır. Xalqımızın nadir söz xəzinəsi ilə ilk gənclik illərindən maraqlanan cənab Heydər Əliyev Azərbaycanın lideri olduqdan sonra ədəbiyyatın inkişafı üçün son dərəcə böyük işlər görmüşdür.

Ədəbiyyata sevgisi və qayğısı baxımından da Heydər Əliyev nadir şəxsiyyətdir, nadir liderdir və bu mənada onu hər hansı bir dövlət başçısı ilə müqayisə etməkdə çətinlik çəkirəm. Cənab Heydər Əliyev təkcə ədəbiyyatın inkişafına qayğı göstərməklə kifayətlənməmişdir, o, həmişə ədəbiyyatın problemlərinə yüksək professionallıqla yanaşmış, öz fikir və ideyaları ilə, öz böyük təşəbbüsləri ilə ədəbi prosesə təkan vermişdir. Bir sözlə, o, təkcə böyük dövlət xadimi və dahi siyasətçi kimi yox, həm də əsl ədəbiyyat bilicisi kimi tanınmışdır.

Bu gün təqdimat mərasiminə toplaşdığımız bu kitab möhtərəm Heydər Əliyevin Azərbaycan və dünya ədəbiyyatı ilə bağlı fikir və mülahizələrinin, ayrı-ayrı yazıçı və şairlərimizin yaradıcılığı haqqında qənaətlərinin, diqqətəlayiq ədəbi hadisələrlə bağlı məruzə və çıxışlarının böyük bir hissəsini əhatə edir. Kitabda toplanan geniş və zəngin materiallarla tanışlıq, sözün həqiqi mənasında, xoş bir heyrət doğurur. Bu 30 ildə Azərbaycan ədəbiyyatının elə bir əhəmiyyətli hadisəsi, problemi, yaxud şəxsiyyəti olmamışdır ki, o, Heydər Əliyevin diqqətindən kənarda qalsın.

Kitabla tanışlıqdan hasil olan başqa bir mühüm qənaət isə ondan ibarətdir ki, möhtərəm Prezidentimiz ədəbiyyata həmişə

qüdrətli mənəvi tərbiyə vasitəsi, xalqın tarixi yaddaşının, əqli və intellektual potensialının güzgüsü kimi yanaşmış, azərbaycançılıq ideyasının formalaşmasında, milli özünüdərk prosesində bədii sözü qüdrətli silah saymışdır.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bu otuz ildə ölkəmiz yalnız əlverişli coğrafi-siyasi mövqeyi, zəngin təbii sərvətləri, iqtisadi potensialı ilə deyil, həm də eyni dərəcədə qədim və zəngin ədəbiyyatı ilə, dünya bədii fikrinin tarixində özünəməxsus yer tutan sənət korifeyləri ilə, bəşər mədəniyyətini zənginləşdirən cahanşümul ədəbi abidələri ilə dünya miqyasında tanınmışdır. Heydər Əliyev Azərbaycanı dünyaya bədii sözü ilə, sənət korifeyləri ilə, xalqın yaradıcı zəkasının aynası olan ədəbiyyatı ilə tanıtmış, bu yolla da Azərbaycanın zəngin tarixi keçmişini, möhtəşəm elmi-mədəni irsini inkar etməyə çalışan bədxahlarımızı susdurmuşdur.

Nizami Gəncəvinin, Füzulinin, Nəsiminin, Vaqifin və onlarca digər sənət korifeyimizin yubileylərinin keçirilməsi, onların əsərlərinin Azərbaycanda və ölkəmizin hüdudlarından kənarda nəşr edilməsi, “Kitabi-Dədə Qorqud” dastanlarının 1300 illiyi ilə bağlı türk dünyası miqyasında görülən işlər – bütün bunları göz önünə gətirdikdə, bir tərəfdən, klassik ədəbi irsin təbliği, o biri tərəfdən isə, xalqın milli yaddaş hissini həmişə oyaq saxlamaq baxımından ölkə Prezidentinin necə müdrik və uzaqgörən siyasət yürütdüyünü çox aydın təsəvvür edirsən. Bəlkə də, dünyanın heç bir ölkəsində sənət adamlarına, ədəbiyyat xadimlərinə, yazıçılara və şairlərə Azərbaycanda olduğu qədər çox və möhtəşəm abidələr qoyulmayıbdır. Bu abidələrin böyük əksəriyyəti gözlərimiz önündə, möhtərəm Prezidentimiz Heydər Əliyevin təşəbbüsü ilə ucaldılıbdır.

Çoxillik iş təcrübəmdən yaxşı bilirəm ki, yaradıcı təşkilatların, ilk növbədə isə Yazıçılar Birliyinin, onun çoxsaylı üzvlərinin problemləri, qayğıları Prezidentimizin çox gərgin fəaliyyətində həmişə mühüm bir yer tutubdur.

"Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı" kitabını Milli Məclisin deputatı, filologiya elmləri doktoru Vilayət Quliyev tərtib edibdir. Milli Məclisin deputatı Fəttah Heydərov kitaba ön söz yazıbdır. Qeyd etmək istərdim ki, onlar çox ciddi və xeyirxah iş görüblər, öz vətəndaş borclarını yerinə yetiriblər. Çünki Heydər Əliyevin milli-mənəvi inkişafımızla bağlı mülahizələri, çıxışları və fikirləri xalqımızın bu gününü dolğun əks etdirdiyi kimi, onun gələcək inkişafının da mühüm nəzəri-konseptual əsaslarını və istiqamətlərini müəyyən edir.

Odur ki, onun irsi, xüsusən də ədəbiyyatla, mənəvi tərbiyə ilə bağlı əsərləri öyrənilməli, dönə-dönə nəşr, çap olunmalı, geniş yayılmalıdır. Heydər Əliyev irsi ilə yaxından tanış olduqda onun xalqın mədəni inkişafına, milli özünüdərkinə, bütövlükdə milli azadlıq prosesinə nə kimi mühüm töhfələr verdiyini bariz şəkildə görürsən. İnanıram ki, yaxın zamanlarda onun musiqimiz, kinomuz, teatrımız, milli memarlığımız haqqındakı zəngin əsərləri də toplanaraq, beləcə kitablar şəklində nəşr ediləcəkdir.

Diqqətinizə görə sağ olun.

*"Azərbaycan" qəzeti,*
*5 avqust 1999-cu il.*

# 1990-CI İLİN YANVARINDA BAKIDA TÖRƏDİLMİŞ QANLI FACİƏNİN TARİXİ VƏ SOSİAL-SİYASİ KÖKLƏRİ MƏSƏLƏSİNƏ DAİR

*Mənəvi hisslərimizi qəddarlıq qədər heç nə belə dərindən hiddətləndirmir. Biz bu cür başqa cinayəti bağışlaya bilərik, amma qəddarlığı yox.*
Artur ŞOPENHAUER

1990-cı il yanvarın 20-də Azərbaycan xalqına qarşı cinayətkar hərbi əməliyyat həyata keçirildi. Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdlərinə qarşı, SSRİ rəhbərliyinin Azərbaycan xalqı barəsində apardığı qərəzli siyasətə, yerli rəhbərliyin sazişçilik, əslində isə, xəyanətkar fəaliyyətinə qarşı etiraz əlaməti olaraq küçələrə çıxmış dinc əhaliyə divan tutmaq məqsədi ilə Bakıya və respublikanın bir sıra rayonlarına qanunsuz surətdə sovet hərbi hissələri yeridildi. Görünməmiş qəddarlıqla həyata keçirilən cəza tədbirləri nəticəsində heç bir günahı olmayan 137 adam öldürüldü və 612 nəfər yaralandı.

O vaxtdan ötən on ildə Azərbaycanda və onun hüdudlarından kənarda bu mövzuda çox böyük sayda kitab, məqalə, analitik araşdırmalar dərc və nəşr olunmuşdur. Bunlarda 1990-cı ilin yanvar hadisələri təsvir edilir, bu vəhşiliyin əsl səbəblərini açmağa, qanlı hadisələrdə əli olmuş Mərkəzdəki və respublikadakı şəxslərin rolunu müəyyənləşdirməyə cəhd göstərilir. Lakin biz 1990-cı ilin yanvarından xronoloji cəhətdən nə qədər

çox uzaqlaşırıqsa, bu hadisələr barədə bir o qədər çox faktik materiallar toplanır, bir o qədər çox suallar ortaya çıxır və bu qırğının köklərini açmaq və onlardan gələcək nəsillər üçün ibrət dərsi götürmək məqsədi ilə həmin hadisələrin üzərinə qayıtmaq zərurəti daha kəskin şəkildə qarşıda durur.

1990-cı il yanvarın 20-də Azərbaycan paytaxtına və respublikanın bir sıra rayonlarına sovet ordusu hissələrinin qanunsuz yeridilməsi, dinc əhalinin qırılması totalitar rejimin törətdiyi ən qanlı aktlardan biri, bütün bəşəriyyətə qarşı yönəldilmiş cinayət oldu. Bu cür cinayətlərin təhqiqi, onların səbəblərinin, nəticələrinin üzə çıxarılması, təşkilatçılarının adlarının aşkarlanması məsələsində vaxt amili yoxdur və bunlar vəhşilik, soyqırımı əməllərinin təkrarlanmaması üçün xəbərdarlıq olmalıdır.

Məlumdur ki, tarixə Nürnberq prosesi kimi daxil olmuş beynəlxalq tribunalın (Nürnberq şəhəri, 1945-1946-cı illər) qərarı ilə Almaniyanın ali dövlət və hərbi xadimləri dünya və insanlıq əleyhinə qəsd (mülki əhalinin qırılması, onunla qəddar davranış, ictimai və şəxsi əmlakın talanması və s.) hazırlamaqda və həyata keçirməkdə ittiham olunmuşlar. Məhz buna görə indiyədək dünyanın hər yerində dövlət orqanları və ictimai hərəkatlar bütün rütbə və mənsəblərdən olan nasist cinayətkarları aşkara çıxarır və ədalət məhkəməsinə verirlər. Nürnberq prosesi tarixdə təcavüzü ən ağır cinayət elan etmiş ilk beynəlxalq məhkəmədir.

SSRİ və Azərbaycan rəhbərlərinin, habelə 1990-cı ilin yanvarında Azərbaycana soxulmuş sovet hərbi kontingentinin hərəkətlərində Nürnberq prosesində pislənmiş bütün əlamətlər vardır. Məhz buna görə də 20 Yanvar faciəsinin bütün

müqəssirləri öz əməlləri üçün xalq qarşısında, ədalət məhkəməsi qarşısında cavab verməlidirlər.

Sovet hərbi hissələrinin Azərbaycana təcavüzü, mülki əhalinin kütləvi surətdə vəhşicəsinə gülləbaran edilməsi təkcə tamamilə çürümüş sovet rejiminin dağılmasının əlaməti deyil, həm də azərbaycanlıları öz əzəli və tarixi məskənlərindən sıxışdırıb çıxarmaq barədə köhnə, hələ çarizmin vəsiyyət etdiyi məqsədyönlü siyasətin, SSRİ rəhbərliyinin beynəlmiləlçilik adı ilə cidd-cəhdlə gizlətdiyi və pərdələdiyi siyasətin həyata keçirilməsinin sübutu oldu. Azərbaycanda yaranmış ictimai vəziyyət, xalqın irəli sürdüyü tələblər bu cür qəddarlıq və vəhşilik törədilməsinə əsas vermirdi. Xalq azərbaycanlıların qədimdən bəri yaşadıqları indiki Ermənistan ərazisində onlara kütləvi surətdə divan tutulmasını və oradan zorakılıqla qovulmasını dayandırmağı və Dağlıq Qarabağın Ermənistana qatılmasına yol verməməyi tələb edirdi. Moskva bu haqlı tələbə misli görünməmiş xəyanətkarlıq və qəddarlıqla cavab verdi.

Qeyd etmək lazımdır ki, 1990-cı illərin əvvəllərində sovet rejimi öz həyat potensialını büsbütün itirmişdi, hərçənd M.Qorbaçov və onun komandası rejimin ömrünü uzatmaq üçün intensiv şəkildə vasitələr axtarırdılar. Tam yararsızlığını büruzə verərək, çox tezliklə puça çıxan "yenidənqurma" siyasəti bu cəhdlərin parlaq təzahürü idi. Qorbaçovun SSRİ-ni şüurlu surətdə, Qərbin təhriki ilə dağıtdığını düşünənlər yanılırlar. Bu söhbətlər dardüşüncəli adamların dedi-qodularından savayı bir şey deyildir. Adını islahatçı qoyanların qarşısında SSRİ-ni əvvəlki sərhədlər daxilində saxlayıb, sovet ictimai-siyasi və iqtisadi sisteminə Qərb üçün daha cazibədar xarakter vermək, sistemə yeni nəfəs vermək, lakin bu zaman onun yalnız ən iyrənc prinsiplərini və idarəetmə

formalarını aradan götürmək, yəni o illərin termini ilə desək, sosializmə “insani sifət” vermək vəzifəsi dururdu.

Bu başlıca müddəanı əsas tutaraq təsdiq etmək olar ki, 20 Yanvar faciəsinin bir çox səbəbləri var, onun kökləri tarixin dərinliklərinə gedib çıxır. Yenidənqurma onların inkişafını ancaq sürətləndirirdi, labüd faciənin son mərhələsini yaxınlaşdırdı. Bəs bu səbəblər ümumən hansılardır? **Əvvəla,** Mərkəzin sovet imperiyasını, kommunist sistemini nəyin bahasına olursa-olsun, qoruyub saxlamaq cəhdi; **ikincisi,** milli respublikalarda hakimiyyəti və oyuncaq rejimləri möhkəmlətmək cəhdi; **üçüncüsü,** SSRİ rəhbərlərinin Azərbaycan xalqı barəsində qərəzli siyasəti, “yenidənqurma” haqqında demaqoqcasına şüarlar altında sərhədləri dəyişdirmək və xüsusən Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdi; **dördüncüsü,** keçmiş Mərkəzin mənəvi, siyasi, maliyyə və hərbi-iqtisadi yardımına əsaslanan erməni separatizmi və Ermənistanın təcavüzü; **beşincisi,** Azərbaycan rəhbərlərinin xəyanətkar fəaliyyəti; **altıncısı**, ayağa qalxmış xalqa rəhbərliyi məsuliyyətsizcəsinə öz əllərinə alanların naşılığı və siyasətbazlığı.

Lakin Yanvar faciəsinə gətirib çıxarmış, əsasən, “sovet” səbəbləri və amillərinin yalnız yuxarıda sadalanmış siyahısı ilə kifayətlənmək olmaz. Təkrar edirik, Yanvar faciəsinin daha dərin tarixi kökləri var. Qara yanvar XIX əsrin əvvəllərindən bəri Azərbaycan xalqına qarşı törədilmiş cinayətkar əməllər silsiləsində ancaq bir (ümid edək ki, sonuncu!) vəsilədir. Azərbaycana qarşı qərəzli, ədalətsiz münasibətin əsasını uzaq hədəfli geosiyasi planlar təşkil edir ki, bu planları da SSRİ rəhbərliyi “beynəlmiləl qardaşlıq” yaradılması kimi ideoloji

pərdə altında uzun illər həyata keçirmişdir. Əgər Alma-Ata (1986), Tbilisi (1989), Vilnüs (1991) hadisələrinə müraciət etsək, onda hökmən belə bir sual doğur: nə üçün həmin aksiyalar bu qədər qanlı və genişmiqyaslı olmamışdır? Nə üçün Tbilisi və Vilnüs hadisələri ilə əlaqədar Qorbaçov peşman olduğunu bildirdi, gürcü və Litva xalqlarından üzr istədi, Azərbaycanda baş vermiş hadisələrlə əlaqədar isə bunu etmədi?

Zənnimizcə, Yanvar faciəsinə, hər halda, üç amil səbəb olmuşdur. Tarixi-məntiqi baxımdan, bu amillər Mərkəzin inadkar azərbaycanlıları görk üçün cəzalandırmaq istədiyini söyləməkdən daha əsaslıdır.

**Birinci amil** dini amildir. SSRİ-nin rəhbərləri bundan yaxalarını kənara çəkməyə nə qədər çalışsalar da, dünya ictimaiyyətini aldada bilmədilər. Ərazi iddialarında erməniləri M.Qorbaçovun dəstəkləməsinin başlıca səbəblərindən biri azərbaycanlıların məhz islama etiqad etməsidir. Bizim fikrimizin təsdiqini Rusiya mətbuatının çoxsaylı yazılarında tapmaq olar, bədnam Zori Balayan da özünün müsahibə və məqalələrində bundan danışmışdır. Bakı qırğını ərəfəsində M.Qorbaçovun özü də Azərbaycanda islam dövləti yaradılmasına cəhd göstərilməsi barədə fitnəkar bəyanatla çıxış etmişdi.

Dini amildən fitnəkar və pozucu məqsədlərlə istifadə edilməsini sovet sistemi və kommunist ideologiyası həmişə əldə əsas tutmuşdur. Mən uzun müddət rəhbər partiya işində çalışarkən dəfələrlə şahidi olmuşam ki, guya qonşu İrandan Azərbaycana islam təməlçiliyinin ixrac edildiyi barədə fikri boynumuza qoymaq üçün Sov.İKP MK-nın kabinetlərində necə narahatlıqla və qızğın səy göstərir, respublika rəhbərliyini fəaliyyətsizlikdə qınayırdılar.

Sov.İKP MK-nın yüksək vəzifəli funksionerləri məsələni elə qələmə verirdilər ki, İran guya Azərbaycanın sosial və siyasi həyatına fəal təsir göstərir, islam burada kommunist prinsiplərini əhalinin həyat və şüurundan maneəsiz olaraq sıxışdırıb çıxarır. Təbii ki, Moskva "müsəlman təhlükəsi"nə dözə bilməzdi (halbuki, indi "təməlçi İranla" durmadan yaxınlaşır). Odur ki, hərəkətə gəlmişdi. Real vəziyyətin əksinə olaraq, Sov.İKP MK katibliyinin və Siyasi Bürosunun qərarlarında, ümumittifaq müşavirələrində respublikanın ünvanına dəlilsiz-sübutsuz ittihamlar söylənilirdi. Respublikanın bəzi rəhbərlərinə "millətçi" damğası vurulur, MK itaətkarlara pərvəriş göstərir və onları himayəsi altına alır, şübhəliləri gözdən və etibardan salırdı...

Əslində isə, problemin mahiyyəti islam təməlçiliyinin Azərbaycana uydurma müdaxiləsində deyildi. Problem, SSRİ-nin varisi olmuş rəsmi Rusiya üçün ənənəvi mübarizədə – xristian dininin islamla mübarizəsində, müsəlmanlara və "özgə xalqdan olanlar"a həmişəki inamsızlıqda idi. Təsadüfi deyildi ki, çar rejimi dövründə olduğu kimi, SSRİ-də pravoslavlığın və müxtəlif dinlərin bir-birinə qarşı qoyulması zəminində yetişdirilmiş hakimmillətçilik şovinizmi daha ifrat şəkil alırdı. Hakimiyyət dairələri bu bəlaya qarşı nəinki mübarizə aparmır, əksinə, ona hətta rəvac verirdilər. Bütün milli siyasət islama etiqad edən əhaliyə qarşı ayrı-seçkilik üzərində, etnik müsəlmanların yaşadıqları müttəfiq respublikaların nümayəndələrini ali hakimiyyət dairələrinə buraxmamaq üçün bu respublikaların sosial-iqtisadi və mədəni inkişafının qarşısını almaq üzərində qurulurdu. Əgər "müsəlmanlardan" kimisə mərkəzi nazirliklərdə və baş idarələrdə yüksək vəzifəyə irəli çəkirdilərsə, bu, ancaq müstəsna hal idi.

Bir sözlə, azərbaycanlıların dini mənsubiyyəti Moskvanın Azərbaycanda xalq hərəkatına münasibətinin xarakterini müəyyənləşdirmiş və bu hərəkatın görünməmiş qəddarlıqla yatırılmasını şərtləndirmişdi.

**İkinci amil** Qafqaz amilidir. Bu, Moskvanın Azərbaycana ədalətsiz, mənfi münasibətinin formalaşmasında daha mühüm olub, Rusiyanın regionda tarixi mənafeləri ilə bağlıdır.

Bir vaxtlar imperatriçə II Yekaterina I Pyotrun qəsbkarlıq siyasətini davam etdirərək, Rusiyanın cənuba doğru irəliləməsi və cənub dənizlərinə çıxması məqsədi ilə Qafqazda pravoslav Gürcüstan ilə yanaşı, siyasi baxımdan Rusiyaya istiqamətlənmiş daha iki xristian dövləti yaratmaq planını irəli sürmüşdü. Həmin plan Araz çayından Dərbəndə qədər olan torpaqlarda Albaniya dövlətinin dirçəldilməsini, İrəvan bölgəsində isə Erməni vilayəti yaradılmasını nəzərdə tuturdu. Bu zaman Krım ermənilərinin İrəvan paytaxt olmaqla erməni dövləti yaratmaq barədə təkidlə xahişi nəzərə alınmışdı. Amma Türkmənçay sülh müqaviləsi bağlandıqdan sonra Rusiya bu niyyətlərindən imtina etdi və imperiyaya birləşdirilmiş Azərbaycan torpaqlarında yalnız erməni dövləti yaratmaq qərarına gəldi.

Azərbaycan xalqının faciəli tarixi məhz XIX əsrin əvvəllərindən başlanır.

Fundamental elmi tədqiqatlarla sübuta yetirilmişdir ki, müasir Ermənistanın ərazisi tarixən Azərbaycana mənsub olmuşdur. Doğrudur, burada kiçik qruplarla, dağınıq halda ermənilər də yaşayırdılar, lakin onlar gəlmə etnos idi və bu bölgəyə müasir İranın, Suriyanın və Türkiyənin ərazilərindən köçmüşdülər.

Bu məsələni daha ətraflı araşdıraq.

Məlumdur ki, protoermәni tayfalarının vətəni Balkan yarımadası olmuşdur. Bu barədə erməni tədqiqatçılarının özləri yazmışlar. Məsələn, erməni alimi Y.A.Manandyan nüfuzlu alimlərin rəyi ilə razılaşaraq hesab edir ki, "protoermәni tayfaları hələ eramızdan əvvəl II minilliyin birinci yarısında Balkan yarımadasında yaşamışlar". Kiçik Asiyaya onlar eramızdan əvvəl təqribən XIII əsrin ortalarında köçüb gəlmişlər. Kiçik Asiya məkanlarını uzun müddət ərzində gəzib-dolaşdıqdan və müxtəlif tayfalarla qaynayıb-qarışdıqdan sonra eramızdan əvvəl I minilliyin təxminən ortalarında Ermənistan yaylası ərazisinə gəlib çıxmışlar.

Tanınmış tarixçi İ.M.Dyakonov özünün məşhur "Erməni xalqının əqdəm tarixi" (Yerevan, 1968-ci il) əsərində yazır: "Yalnız bir nəticə çıxarmaq olar ki, erməni dilinin əcdadının ilkin daşıyıcıları Ermənistan yaylasına yardımçı əkinçilik təsərrüfatı ilə məşğul olan köçəri maldarlar kimi gəlmişlər, sinfi cəmiyyətin nə olduğunu bilmirdilər, yaylanın təbiəti və erkən sinfi cəmiyyətin sosial şərtləri ilə isə o vaxtlar erməni dilinə hələ keçməmiş olan yerli əhali vasitəsilə tanış olmuşlar".

Eramızdan əvvəl VI əsrdə ermənilər öz dövlətini yaratmışdılar və o, Dəclə və Fərat çayları hövzəsinin, əsasən, orta hissəsində yerləşən Ermənistan yaylasının bəzi vilayətlərini əhatə edirdi. Eramızın 387-ci ilində Ermənistan sasanilər İranı ilə Bizans arasında bölüşdürüldü. Eramızın XIV əsrində ermənilər Kiçik Asiyanın başqa bir hissəsində – Aralıq dənizinin şimal-şərqində rubenilər tərəfindən idarə edilən cırtdan Kilikiya dövləti yaratmağa nail oldular. Bu dövlət cəmi bir əsr yaşadı və bundan sonra ermənilərin beş yüz il ərzində hətta belə formada da öz dövlətçiliyi olmadı. XV əsrdə erməni kilsəsi Eçmiədzinə köçürüldü ki, bundan

da məqsəd Cənubi Qafqazda öz dövlətini yaratmaq idi. Həmin vaxtdan bəri erməni xalqının tarixi "Eçmiədzin dövrü" adlandırılmağa başladı. Erməni xalqının XVI əsrdən XX əsrədək olan tarixindən söhbət getdikdə bu, uydurma "Şərqi Ermənistan"ın tarixi kimi şərh edilir. Özü də bu ad altında əslində Naxçıvanın, İrəvanın, Zəngəzur torpaqlarının tarixi nəzərdə tutulur.

Ermənilər öz dövlətçiliyini 1918-ci ildə çar imperiyasının xarabalıqları üzərində bərpa etdilər. İngiltərənin köməyi ilə Cənubi Qafqazda, Azərbaycanın İrəvan xanlığının ərazisində Ermənistan Respublikası peyda oldu, sonralar onun ərazisi bolşevik Moskvasının amiranə qərarı ilə Azərbaycanın hesabına genişləndirildi.

Milli dövlətçiliyin olmaması şəraitində erməni kilsəsi bir çox ölkələrə səpələnmiş bütün erməniləri birləşdirmək rolunu öz üzərinə götürdü. Başqa sözlə desək, o, bir növ siyasi və dövləti xarakterli vəzifələri yerinə yetirirdi.

Erməni qriqorian kilsəsinin əsaslandığı monofizik məzhəbi (Allahın insani mahiyyətinin danılması) hələ Xalkidon baş kilsəsində (451-ci il) bidət elan edilmişdi. Dvin kilsə məclisində (506-cı il) isə erməni kilsəsi digər kilsələrdən tamamilə kənarlaşdırıldı və avtokefal kilsə oldu.

Tanınmış politoloq Dmitri Furmanın fikrincə, erməniləri başqa xristian kilsələrindən ayırmış məhz monofizitizm onlarda tənhalıq, yetimlik, "başıbəlalılıq" hisslərinin yaranmasına və inkişafına kömək etmişdir və bu səbəbdən də erməni etnosu özünü, az qala, bütün dünyaya qarşı qoyur. Ermənistanın siyasi xadimi Suren Zolyan yazmışdır: "Hamıya düşmən gözü ilə baxmaq – özünün hamıya düşmən olmağı deməkdir. Bu, yol deyil, dibi görünməyən uçurumdur".

Ermənilərin bu cür vəziyyəti Rusiya imperiyası üçün taleyin hədiyyəsindən də dəyərli bir şey idi. Təsadüfi deyil ki, Birinci Pyotr "faydalı vətəndaşlar kimi erməniləri Rusiyada yerləşməyə çağırırdı və dindaşlar kimi onları himayə və mühafizə ediləcəklərinə inandırırdı" (bax: Сергей Глинка. "Описание переселения армян азербайджанских в пределы России". 1831-ci il nəşri).

Obyektiv və subyektiv şərtlər – ermənilərin öz dövlətçiliyinin olmaması, ruhani "tərbiyəçi"lərin "tənhalıq" və "başıbəlalılıq" ideyalarını əsrlər boyu ermənilərin şüuruna yeritməsi, türklərdən, ümumiyyətlə, müsəlmanlardan düşmən obrazı yaradılması və s. erməni kilsəsinin milli dövlətin bünövrəsini qoymaq üçün əsrlərdən bəri göstərdiyi cəhdlərin və Rusiya imperiyasının müstəmləkəçi mənafelərinin üst-üstə düşməsinə imkan vermişdir. Siyasi sövdələşmənin mahiyyəti belə idi: Rusiya ermənilərin Türkiyə və İrandan Cənubi Qafqaza köçməsinə kömək edir, sonralar isə yerli əhalinin sıxışdırılıb aradan çıxarılması hesabına ermənilər üçün dövlət yaradır, ermənilər də, öz növbəsində, Qafqazda Rusiyanın sadiq müttəfiqi, dayağı, "qulağı" və "gözü" olmağı öhdələrinə götürürlər. Ermənilərin əlinə səbirsizliklə gözlədikləri girəvə – böyük dövlətin himayəsi altında öz dövlətini yaratmaq barədə çoxəsrlik arzularını həyata keçirmək fürsəti düşmüşdü.

Qafqaza, xüsusən əsrlər boyu azərbaycanlıların yaşadıqları Naxçıvan, İrəvan və Qarabağ xanlıqlarına ermənilərin çar Rusiyası tərəfindən həyata keçirilən "böyük köçü" İranla Rusiya arasında Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) sülh müqavilələri bağlandıqdan sonra başlanmışdır. Bu həqiqət müasir Rusiyada və Qərbdə çoxları üçün "kəşf" ola bilər, lakin

inqilabdan əvvəlki Rusiyada bu barədə çox və ətraflı yazılırdı. Həmin proseslər M.Şavrovun "Новая угроза русскому делу в Закавкзье. Распродажа Мугани инородцам" ("Zaqafqaziyada rus işinə yeni təhlükə. Muğanın özgələrə satılması") adlı məşhur kitabında təfərrüatı ilə təsvir edilmişdir. Yaxud Rusiyanın İrandakı səfiri, ermənilərin Azərbaycana köçürülməsi işində canfəşanlıq göstərən Aleksandr Qriboyedov çar hökumətinə məlumatlarında yazırdı: "Müsəlmanlar (yəni azərbaycanlılar – **R.M.**) narahatdırlar ki, "müvəqqəti" köçürülən ermənilər Qarabağda həmişəlik qalacaqlar".

Çar hökuməti tərəfindən on minlərlə erməni ailəsinin Azərbaycana köçürülməsi (bu, əslində, işğal idi), yerli əhali ilə müqayisədə onlara din birliyi əsasında daha geniş hüquq və imtiyazlar verilməsi tezliklə azərbaycanlıların Cənubi Qafqazın bir çox bölgələrindən sıxışdırılmasına gətirib çıxardı. Sonralar bu proses mərhələ-mərhələ aparılan deportasiya xarakteri aldı. Sovet hakimiyyəti illərində azərbaycanlı əhalinin Ermənistan SSR-dən deportasiya edilməsi rəsmi dövlət siyasətinə çevrildi. Bu siyasət iki tərkib hissəsindən ibarət idi: birinci – azərbaycanlıların tarixi yaşayış yerlərindən köçürülməsi; ikinci – Azərbaycan SSR ərazisinin bir hissəsinin Ermənistan SSR-ə birləşdirilməsi. 1920-ci ilin mayınadək Şimali Azərbaycanın ərazisi 114 min kvadratkilometrdən artıq olmuşdur. Lakin bu ərazi onun bir hissəsinin Ermənistana və Rusiyaya verilməsi nəticəsində 86,6 min kvadratkilometrə endirilmiş, yəni təxminən 28 min kvadratkilometr azaldılmışdır (Ermənistan Respublikasının sahəsi 29,8 min kvadratkilometrdir).

Azərbaycanlı əhalinin öz tarixi ərazisindən deportasiya ilə müşayiət olunmuş erməni ekspansiyası prosesi təxminən iki əsr

ərzində davam etmişdir. Bu proses zamanı etnik zəmində soyqırımı siyasəti insanların kütləvi surətdə qətlə yetirilməsi, yaşayış məntəqələrinin yandırılması, dağıdılması və viran qoyulması, milli mədəniyyət abidələrinin məhv edilməsi və s. ilə səciyyələnmişdir. Təkcə XX əsrdə iki milyondan çox azərbaycanlı Ermənistan rəsmi dairələrinin və onların havadarlarının yeritdikləri soyqırımı siyasətinə bu və ya digər şəkildə məruz qalmışdır.

XX əsrin axırlarında Qorbaçov özünün ən yaxın ətrafı ilə birlikdə, bir tərəfdən, ermənilərin ərazi iddialarının təmin olunması üçün, digər tərəfdən, azərbaycanlıları daha da sıxışdırmaq məqsədi ilə onların yaşadıqları ərazilərin kiçildilməsi siyasətinin davam etdirilməsi üçün hər şeyi etdi. Məhz buna görə 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR ilə “birləşdirilməsi” haqqında antikonstitusion akt qəbul etdikdə, Moskva buna əsla məhəl qoymadı.

Faciəni şərtləndirən **üçüncü amilin** mahiyyəti sovet dövləti rəhbərlərinin siyasətində və təfəkkür tərzində türklərə nifrətdən ibarətdir. Bunun dərin tarixi kökləri var və o, ən əvvəl, iki imperiyanın – Osmanlı və Rusiya imperiyalarının çoxəsrlik qarşıdurması ilə bağlıdır. Elə sovet rejimi də azərbaycanlılarla türklərin etnik yaxınlığından həmişə ehtiyat etmişdir. Məhz buna görə 1920-ci və 1930-cu illərdə Azərbaycanın bir çox görkəmli xadimləri pantürkizmdə təqsirləndirilmiş və repressiya olunmuşlar. İki xalq arasında hər cür ünsiyyət və əlaqələri kəsmək üçün hər şey edilirdi. Hətta bu məqsədlə azərbaycanlıların da, türklərin də istifadə etdikləri latın əlifbası 1930-cu illərin axırlarında Kiril qrafikası ilə əvəz olundu. Sovet

hakimiyyəti illərində azərbaycanlıların Türkiyəyə hətta işgüzar səfərlərə getməsinə də gizli qadağa qoyulmuşdu.

Türk vahiməsi sovet ideologiyası və geosiyasi xəttinin həmişə tərkib hissəsi olmuşdur ki, buna da Moskvadakı erməni lobbisi və ermənipərəst əhval-ruhiyyəli dairələr xeyli dərəcədə təkan vermişlər. Onlar SSRİ rəhbərlərinin şübhələrini qızışdıraraq iftiralar yayırdılar ki, "azərbaycanlılara etibar etmək olmaz, onlar qəlbən Türkiyəyə bağlıdırlar". Peşəkar araqarışdıran və fitnəkar Zori Balayan üzdəniraq yenidənqurma illərində SSRİ Silahlı Qüvvələrinin Baş Qərargahında cıxış edərək demişdir ki, "Azərbaycan elə bir əməliyyat meydanıdır ki, Türkiyə buradan ölkənin cənub sərhədlərinə zərbə endirməyə hazırlaşır".

Bakıda 1990-cı ilin Yanvar faciəsi SSRİ rəhbərliyinin türkdilli respublikalar barəsində siyasətinin bir çox örtülü, gizli tərəflərini üzə çıxardı. İkinci dünya müharibəsi illərində Stalin vaynaxlarla, kalmıklarla və Volqaboyu almanları ilə yanaşı, türkdilli qaraçaylıları, balkarları, Krım tatarlarını, Məhsəti türklərini də kütləvi şəkildə deportasiya etdirdi. Yenidənqurma illərində fitnəkarlığa əl atılaraq, sonuncuların Orta Asiyada döyülməsi təşkil olundu. Milliyyətcə rusu qazaxlara rəhbər kimi qəbul etdirmək istədikdə, Alma-Atada baş vermiş hadisələri, T.Qdlyana bütöv bir xalqı rüsvay etməyə, alçaltmağa və zorakılığa məruz qoymağa imkan yaratmış uydurma "özbək işi"ni xatırlayaq. M.Qorbaçovun öz sələflərindən fərqi bunda idi ki, o, hər cür şərtiliyi, hüquqi aktları və Konstitusiya müddəalarını qulaqardına vuraraq, türkdilli respublikaların açıq-açığına bədinə gedirdi. O, həmin respublikaların nüfuzlu və hörmətli rəhbərlərini dəyişdirərək onların xalqlarını, əslində, başçısız qoyurdu.

Beləliklə, bolşevik Rusiyasının və SSRİ rəhbərliyinin Azərbaycana qarşı ədalətsiz, qərəzli münasibətlərinin tarixi və sosial-siyasi kökləri, dərin səbəbləri ondan ibarətdir ki, Moskvanın imperiya siyasətini şərtləndirən üç amilin hamısı – müsəlman, Qafqaz və türk amilləri bu respublikada birləşdirilmişdi. Azərbaycanlılara qarşı soyqırımı, deportasiya, Azərbaycan ərazisinin zorla qoparılıb Ermənistana verilməsi siyasətinin əsası da bununla bağlıdır.

20 Yanvar hadisələrinin köklərini araşdırarkən, o vaxtlar Qərb dövlətlərinin Azərbaycandakı ictimai-siyasi hadisələr barəsində tutduqları mövqeyi də nəzərdən qaçırmaq olmaz. Bəri başdan deyək ki, bu mövqe Azərbaycanın xeyrinə deyildi. Azərbaycanda baş verən hadisələr haqqında Qərbdə yanlış təsəvvür yaranmasında SSRİ-nin mərkəzi mətbuatı çox mənfi rol oynamışdır. Sov.İKP MK-nın rəhbərlik etdiyi sovet mətbuatı erməni kilsəsinin və daşnaksutyun partiyası ideoloqlarının təhriki ilə ictimai şüura açıq-aşkar ideoloji təsir göstərir, ermənilərin separatçılığını sovet hakimiyyəti illərində “Azərbaycan hökuməti tərəfindən törədilən sıxışdırmalara, təhqirlərə və ayrı-seçkiliyə qarşı məcburi etiraz hərəkəti” kimi qələmə verirdi.

Ermənisayağı “anşlüs” ideologiyası carçılarının emissarları da Qərbdə fəal antiazərbaycan təbliğatı aparırdılar. Sumqayıt hadisələrinin (fevral 1988-ci il) elə ertəsi günü qətl-qarətə (bu, şübhəsiz, xüsusi xidmət idarələri tərəfindən hazırlanıb həyata keçirilmişdi!) həsr olunmuş filmin Parisdə televiziya ilə yayımlanması faktı Azərbaycana qarşı ideoloji müharibənin və informasiya müharibəsinin miqyasını əyani şəkildə göstərir.

SSRİ və Qərb mətbuatı tərəfindən “azərbaycanlının mənfi obrazı”nın yaradılmasından mənfur bir məqsəd güdülürdü: bütün dünyanın ictimai rəyini Ermənistanda və Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində türkdilli əhaliyə qarşı etnik təmizləmənin “qanunauyğun və haqlı” olması barədə fikrə hazırlamaq. Bu, Mərkəz tərəfindən görülən məcburi tədbir kimi qələmə verilirdi. Müəyyən dərəcədə buna görə də Azərbaycan xalqının böyük faciəsi SSRİ-də etinasız sükutla qarşılandı.

Həmin dövrdə aparıcı Qərb dövlətləri həqiqəti müəyyənləşdirməyə, problemin mahiyyətinə varmağa cəhd də göstərmədilər. Əslinə qalsa, bu, onlara heç lazım da deyildi.

Əksinə, onlar M.Qorbaçovun bütün dağıdıcı əməllərini hər vəchlə dəstəkləyirdilər. Hesab edilirdi, – bir halda ki, o, hətta dolayısı ilə olsa da, erməni separatizmini dəstəkləyir, – deməli, həqiqət ermənilərin tərəfindədir. Daha sonra, Qərbdə yaxşı bilirdilər ki, bu cür millətlərarası münaqişələr SSRİ-ni daxildən zəiflədir, dağıdır. Bu da “soyuq müharibə”də SSRİ-nin əleyhdarlarının mənafelərinə və strateji məqsədlərinə tamamilə uyğun idi. Ayrılıqda Azərbaycan isə o dövrdə onların geosiyasi maraqları dairəsinə daxil deyildi.

ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə sabiq köməkçisi, görkəmli siyasi xadim Zbiqnev Bjezinskinin etirafına görə, 90-cı illərin əvvəllərində Amerika Birləşmiş Ştatları Qafqaz regionunu, Qafqazda yerləşən respublikaları özünün maraq dairəsinə daxil etməməklə ciddi səhvə yol vermiş, onların böyük strateji əhəmiyyətinə etinasızlıq göstərmişdir. O deyirdi: “Belə demək düzgün olar ki, Amerika Birləşmiş Ştatlarının siyasətində strateji dəyişiklik, fikrin dəyişməsi 1994-cü ildə başlandı. O vaxta qədər Amerika Birləşmiş Ştatlarının mərkəzi, vacib strateji əlaqələri

Rusiya ilə birbaşa qurulur, yeni müstəqillik qazanmış ölkələr isə strateji baxımdan daha aşağı səviyyəli ölkələr kimi qiymətləndirilirdi. Bu, səhv siyasət idi” (bax: “Azərbaycan” qəzeti, 22 fevral 2000-ci il).

Azərbaycan üçün həmin o faciəli günlərdə isə ABŞ-ın geosiyasi doktrinası başqa cür idi.

Dövlət Departamentinin nümayəndəsi Marqaret Tatuayler ABŞ hökuməti adından bəyanat vermişdi ki, ABŞ Azərbaycanı dəstəkləmir və Bakıdakı yanvar hadisələrini şərh etməyi lazım bilmir. Dövlət Departamenti M.Qorbaçovu açıqca dəstəkləyərək hesab edirdi ki, onun səyləri azərbaycanlılarla ermənilər arasında silahlı toqquşmanın dayandırılmasına yönəldilmişdir.

Böyük Britaniya XİN-i bəyanat verərək, Azərbaycanda yaranmış vəziyyəti “SSRİ-nin daxili işi” kimi qiymətləndirirdi.

İtaliyanın xarici işlər naziri D.Mikels də bəyan etmişdi ki, Bakıda baş vermiş hadisələr SSRİ-nin daxili işidir. Onun dediyinə görə, SSRİ hökuməti öz milli mənafelərini qorumalı və Azərbaycan Xalq Cəbhəsinin radikal əhval-ruhiyyəli millətçilərinin qarşısını almalı idi.

Gördüyümüz kimi, SSRİ rəhbərliyi hadisələri nəzərdə tutulmuş şəkildə anlamağa Qərbi hazırlaya və Azərbaycan barəsində Konstitusiyaya zidd hərəkətlərinə görə dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən hər hansı sanksiyaların tətbiq edilməsinin və ya bunun pislənməsinin qarşısını ala bildi. Cəzasız qalacağına tam əmin olan M.Qorbaçov 1990-cı ilin yanvarında Azərbaycana qoşun yeridərək, silahsız dinc əhaliyə qəddarcasına divan tutdu.

Azərbaycan xalqı 1987-ci ilin axırlarında süni surətdə yaradılan uydurma “Dağlıq Qarabağ problemi”ni elə ilk

günlərdən respublikanın ərazi bütövlüyünə qarşı yönəldilmiş cəhd kimi, vətəndaşların Konstitusiya hüquqlarının pozulması kimi qarşıladı. SSRİ hökumətinin və Sov.İKP MK-nın gördüyü tədbirlər , o cümlədən qanlı Bakı qırğını sübut edir ki, bütün bu sərsəmliyin öz məntiqi vardı. Dağlıq Qarabağ münaqişəsi müfəssəl şəkildə hazırlanmış əməliyyatdır. “Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi haqqında” Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin 1988-ci ilin martında qəbul etdiyi xüsusi qərar SSRİ-nin tarixində görünməmiş bir şey idi və elə bunun özü də Mərkəzlə Ermənistan rəhbərliyi arasında sövdələşmə olduğuna danılmaz sübutdur. Əslinə qalsa, həmin ittifaq qərarı Dağlıq Qarabağın Azərbaycan SSR-dən qoparılması üçün sosial-iqtisadi bünövrə qoymuşdur.

Muxtar vilayətdə xüsusi idarə formasının tətbiq edilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin 1989-cu il 12 yanvar tarixli Fərmanı Dağlıq Qarabağın Azərbaycanın tabeliyindən çıxarılması strategiyasında Mərkəzin atdığı növbəti addım oldu. Dağlıq Qarabağa rəhbərlik Mərkəzin nümayəndəsi A.Volskinin sədrliyi ilə Xüsusi idarəetmə komitəsinə tapşırıldı. Əslində isə, bu, Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılması demək idi.

Bundan sonra SSRİ rəhbərliyi respublikanın ərazi bütövlüyünün müdafiəsinə qalxmağa və ədalətsiz milli siyasətlə razılaşmadığını bildirməyə cürət etmiş xalqa açıqca divan tutmaq yolunu seçdi. Sovet ordusunun iri kontingentinin, xüsusi təyinatlı bölmələrin və SSRİ DİN-in daxili qoşunlarının Bakıya müdaxiləsi xüsusi amansızlıq və görünməmiş vəhşiliklə müşayiət olundu.

Xalqın iradəsini qırmaq, onun haqq-ədaləti bərqərar etmək amalını boğmaq, milli ləyaqətini alçatmaq, eyni zamanda, sovet cəza maşınının gücünü nümayiş etdirmək məqsədi ilə törədilmiş Bakı qətliamı əsl hərbi təcavüzdür.

Totalitar kommunist rejiminin XX əsrdə həyata keçirdiyi ən qanlı terror aktlarından biri olan bu təcavüz Azərbaycan xalqına qarşı, bəşəriyyətə və humanizmə qarşı dəhşətli cinayətdir. Bu cinayəti törədən adamlar indiyədək cəzalarını almamışlar. Lakin gec-tez onların cəzası veriləcək, təqsirkarlar Azərbaycan xalqı qarşısında, tarix qarşısında məsuliyyət daşıyacaqlar.

Şübhəsiz ki, Azərbaycana qoşun yeridilməsinə və insanların qırılmasına görə Moskva ilə yanaşı, respublikanın keçmiş rəhbərləri də məsuliyyət daşıyırlar. İstintaq orqanlarının əlində olan sənədlərdən görünür ki, hakimiyyət dairələri biləəkdən xalqın iradəsinə qarşı çıxaraq, Mərkəzin hər bir göstərişini kor-koranə və sözsüz yerinə yetirmiş, bu göstərişlərin sonu bəlli olmayan nə kimi nəticələrə gətirib çıxara biləcəyinə varmamışlar. Öz xalqının, respublikasının mənafelərini müdafiə etmək, qorumaq əvəzinə, onlar respublikadakı hadisələr barədə hər gün Moskvaya qərəzlə seçilmiş və hazırlanmış məlumatlar verir və müvafiq göstərişlər alaraq, bunları Mərkəzdən gəlmiş emissarların ciddi nəzarəti altında həyata keçirirdilər.

Respublikanın ən ağır günlərində onun rəhbərləri özlərinin tam acizliyini göstərdilər və itaətkar oyuncaqlar kimi, SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin və Baş Kəşfiyyat İdarəsinin hazırladıqları ssenariyə müvafiq surətdə hərəkət edirdilər. Şahid ifadələri göstərir ki, bu orqanların fəaliyyəti fitnə-karlıqlar və təxribatlar (məsələn, yanvarın 13-15-də Bakıda talanların təşkili, partiya komitələrinin tutulması, dövlət

sərhədində mühəndis qurğularının dağıdılması, müəssisə və təşkilatların dövlət orqanlarının tabeliyindən çıxması və s.) törətməklə respublikada vəziyyəti maksimum mürəkkəbləşdirməyə yönəldilmişdi. Bütün bunlar Azərbaycanda sabitliyi pozmaq və “konstitusion qayda yaratmaq” planının həyata keçirilməsini əsaslandırmaq məqsədi ilə edilirdi.

1989-cu il oktyabrın 7-də respublika DTK-nın sədri Vaqif Hüseynovun əmri ilə komitənin müxtəlif bölmələrinin 12 zabitindən ibarət “böhran qrupu” deyilən qrup yaradılmışdı. Həmin qrupa 5-ci şöbənin rəisi Vladimir Mirzəyev başçılıq edirdi. Qrupun vəzifəsinə rəsmən “düşmənin qərəzli hərəkətlərinin aşkara çıxarılması, qarşısının alınması və zərərsizləşdirilməsi..., instansiyalara və SSRİ DTK-ya qabaqlayıcı məlumatlar hazırlanması” sahəsində məqsədyönlü işin təşkili daxil idi. Təhlükəsizlik orqanlarında, adətən, kod kimi istifadə olunan bu formulun başmaqəlib xarakter daşıdığını görməmək olmaz. “Böhran qrupu”na dair istintaq materialları göstərir ki, əslində, qrupun fəaliyyət dairəsi xeyli geniş idi və əmrlə müəyyənləşdirilmiş çərçivədən çox-çox kənara çıxırdı. Fitnə-fəsadlar, partlayışlar, mənzillərin yandırılması, qətl məqsədi ilə sui-qəsdlər – bunlar həmin qrupun məşğul olduğu əməllərin heç də tam siyahısı deyildir.

İstintaqın aşkara çıxardığı faktların təhlili sübut edir ki, Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirov Moskvanın bütün göstərişlərini sözsüz yerinə yetirərək, öz xalqına qarşı ağır cinayətin bilavasitə təşkilatçısı və iştirakçısı olmuşdur. Azərbaycan KP MK-nın ikinci katibi V.Polyaniçko, hökumətin sədri A.Mütəllibov, DTK-nın sədri V.Hüseynov bu cinayətin birbaşa iştirakçıları idilər.

Bakı Şəhər Partiya Komitəsinin birinci katibi M.Məmmədov Bakıya qoşun bölmələrinin yeridilməsinə qarşı tədbirlər görülməməsinə, vətəndaşların təhlükəsizliyinin təmin edilməməsinə görə siyasi məsuliyyət daşıyır. Azərbaycan KP MK bürosunun digər üzvləri, hüquq mühafizə orqanlarının rəhbərləri mənəvi-siyasi məsuliyyət daşıyırlar.

Bəzi müəlliflər yanvar hadisələrinin səbəblərini araşdırarkən təqsirin əsas hissəsini bu dəhşətli aksiyanın bilavasitə təşkilatçıları və icraçılarının deyil, çoxminlik mitinqləri idarə edənlərin, yaxud da Ə.Vəzirovun rejiminə müxalifətdə olanların üzərinə qoymağa çalışırlar. Əlbəttə, onların təqsirini tamamilə danmaq olmaz. Lakin "meydan liderləri" deyilənlərin hərəkətlərini bir qədər başqa müstəvidən nəzərdən keçirmək gərəkdir, onların təqsirinin əsl səbəbi və xarakteri başqadır.

Yanvar hadisələri ərəfəsində müxalifət rüşeym halında idi, dəqiq təşkilati struktura və proqrama malik deyildi. Mitinqlərə siyasətdə təcrübəsi olmayan adamlar, əsasən, elm və tədris müəssisələrinin, ideoloji idarələrin və orqanların nümayəndələri rəhbərlik edirdilər. Onların bəziləri ümumxalq etiraz aksiyalarında qəlbin hökmü ilə, başqaları konyunktura məqsədi ilə iştirak edirdilər.

Beləliklə, yanvar hadisələrində müxalifətin yeri və rolu necədir?

1988-ci ilin ortalarından etibarən geniş xalq kütləsi dərk etməyə başladı ki, Azərbaycan rəhbərliyi respublikanın ərazi bütövlüyünə qəsdlərin qarşısının alınmasında qətiyyət göstərmir, ölkə vətəndaşlarının əleyhinə yönəldilmiş gizli xəyanətkar planların həyata keçirilməsində, əslində, iştirak edir, Mərkəzlə əlbir-dilbirdir və xalq hərəkatını yatırmaq üçün heç nədən

çəkinməyəcəkdir. Alternativsizlik şəraitində xalqın özü respublikanın şərəf və ləyaqətinin müdafiəsinə qalxdı, onun ərazisinin bir hissəsinin qoparılmasına qarşı, Ermənistanda yaşayan azərbaycanlıların döyülməsinə və oradan zorla çıxarılmasına qarşı qətiyyətlə çıxış etdi.

Lakin xalq hərəkatı uzun müddət rəhbər özəksiz qala bilməzdi. Məhz belə şəraitdə çoxminlik xalq kütlələrinin qarşısında tribunalarda yalançı liderlər peyda oldular və sonra baş vermiş hadisələrdə onların rolu heç də birmənalı deyildi.

Yanvar faciəsindən əvvəlki dövrdə, habelə yanvarın 19-dan 20-nə keçən gecə müxalif qrupların və ayrı-ayrı adamların fəaliyyətinə aid material və sənədlərin öyrənilməsi belə bir nəticəyə gətirib çıxarır: bu qanlı faciəyə görə müxalifət ümumən siyasi və mənəvi məsuliyyət daşıyır. Lakin bu qruplarda fitnəkarlar da, hər cür avantüristlər də, hikkəli-iddialı şəxslər də vardı və onlar süni surətdə yaradılmış vəziyyətin kəskinliyini və Moskvanın məqsədlərinin ciddiliyini dərk etməyərək, sovet qoşunlarına müqavimət göstərmək üçün xalqı küçələrə çıxmağa çağırırdılar. Günahsız insanların qanının tökülməsinə görə onlar vicdan əzabı çəkməlidirlər. Axı, Azərbaycanla müqayisədə, Moskvanın loyal münasibət göstərdiyi digər respublikalarda ordunun dinc əhalini necə amansızcasına məhv etdiyinə dair misallar artıq var idi.

Əbülfəz Əliyev, İsa Qəmbərov, Etibar Məmmədov, Nemət Pənahov, Rəhim Qazıyev və başqaları 20 Yanvar faciəsinə görə bilavasitə siyasi və mənəvi məsuliyyət daşıyırlar. Xalq hərəkatının liderləri olmaq fikrinə düşən bu şəxslər silahsız insanları nizami qoşunların üstünə göndərərkən məntiqə görə, mümkün ola biləcək faciəli nəticələr üçün, insanların taleyi və

həyatı üçün dərin məsuliyyət hiss etməli idilər. Amma, hadisələrin göstərdiyi kimi, onlar vəziyyətin inkişafını proqnozlaşdırmağa qadir deyildilər. Bu bir yana, sovet qoşunlarının Bakıya daxil olmasından xəbər tutan kimi, onlar vahimə içində qaçıb hərə bir tərəfdə, bir çoxları isə hətta evlərində yox, dost-tanışlarının yanında gizlənmişdilər.

Yanvar faciəsində müxalif qrupların rolunu və təqsir dərəcəsini qiymətləndirərkən onların məqsəd və məramını, təşkilat strukturunun səviyyəsini və xarakterini, həmin qruplara daxil olan adamların intellektual potensialını, siyasi hazırlığının ümumi səviyyəsini, dünyagörüşünü, dövlət idarələrində iş təcrübəsini və ümumən həyat təcrübəsini nəzərə almaq lazımdır. Heyhat, populizm, siyasi naşılıq, iddialılıq, sonradan çaşqınlıqla əvəzlənmiş hədsiz lovğalıq onunla nəticələndi ki, xalq növbəti dəfə amansızcasına aldadıldı.

On il əvvəl baş vermiş hadisələri təhlil edərək, hansı ümumiləşdirici nəticəyə gəlmək olar?

İlk növbədə qeyd edək ki, Azərbaycanın XIX-XX əsrlər tarixi bizdən keçmişin ibrət dərslərini bilməyi, toqquşmaların güclənib faciəyə çevrilməsinin səbəb-nəticə əlaqəsini dərindən dərk etməyi, ictimai inkişafın qanunauyğunluqlarını, xalqın azadlıq uğrunda mübarizəsində mərhələlərin dəyişməsini bilməyi tələb edir.

Azərbaycan 1980-ci illərin axırlarında, Yanvar faciəsi ərəfəsində olduğu kimi xalqın belə güclü çıxışını əvvəllər heç vaxt görməmişdi. Bu, həqiqətən, kütləvi xalq hərəkatı idi. Onun şüarlarını, ideya əsasını xalqın tapdanmış konstitusion hüquqlarının bərpa olunması, Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanılması tələbləri təşkil edirdi. Yanvar faciəsindən

sonra, xalq Dağlıq Qarabağ probleminin ədalətli həllinə bəslədiyi bütün ümidlərini üzdükdə, bununla birlikdə isə Sov.İKP-nin təmsil etdiyi mərkəzi hakimiyyətə inamını itirdikdə, Ermənistanda və Azərbaycanın Dağlıq Qarabağ vilayətində azərbaycanlılara qarşı soyqırımının Moskvanın, M.Qorbaçovun və onun ətrafındakıların rəvacı ilə həyata keçirildiyini yəqin etdikdə, bu hərəkat milli azadlıq hərəkatına çevrildi. Xalq öz tarixi amalını dərk etdi. Tale elə gətirdi ki, xalq ən gərgin məqamda öz milli problemlərini özünün həll etməyə hazır olduğunu hiss etdi.

1990-cı ilin yanvarı sovet cəmiyyətinin bütün hissələrinin sağalmaz xəstəliyə tutulduğunu sübut edən deşilmiş çiban idi. Bu, sovet siyasi və iqtisadi sisteminin süqutu, yeni şəraitdə sosializmin dirçəldilməsinə yönəldilmiş yenidənqurma siyasətinin tam iflası idi.

1990-cı ilin yanvar hadisələri Azərbaycanda xalq ilə hakimiyyət arasında olan uçurumun dərinliyini bütünlüklə açıb göstərdi, Ə.Vəzirovun, A.Mütəllibovun, V.Hüseynovun, respublikanın digər rəhbərlərinin əməllərinin xəyanətkar mahiyyətini ifşa etdi. “Qayda-qanunun qorunub saxlanması və dövlət idarələrinin mühafizəsi üçün” Azərbaycana dərhal qoşun göndərmək xahişi ilə 1989-cu ilin axırlarından ta yanvar faciəsinədək Ə.Vəzirovun, A.Mütəllibovun, habelə respublika DTK-nın sədri V.Hüseynovun imzaları ilə Moskvaya göndərilən şifroqramlar buna inandırıcı sübutdur.

Biz, nəhayət, dərk etməliyik: Azərbaycan xalqının tarixində bir çox bəlalar ona görə baş vermişdir ki, siyasi elita cəmiyyətin həyatını qurmağa və müstəqil dövlət yaratmağa çalışarkən ən üstün milli problemlər barədə heç də həmişə dəqiq təsəvvürə

malik olmamışdır. Çox vaxt ümummilli ideyalar saxta vətənpərvərliklə, subyektiv mülahizələrlə, şəxsi iddialarla əvəzlənmişdir. 1990-cı ilin Qanlı yanvarı və ölkənin müasir tarixindəki digər faciəli hadisələr – az qala vətəndaş müharibəsinə gətirib çıxaracaq 1993-cü ilin Gəncə qiyamı, 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişi cəhdləri, dövlət başçısına qarşı hazırlanmış terror aktları və s. bunu əyani şəkildə təsdiqləyir.

1990-cı ilin yanvarı meydana gəlməkdə olan və o vaxtlar Xalq Cəbhəsinin başçılıq etdiyi müxalifətin radikal qanadının yeritdiyi siyasətin təhlükəli olduğunu və eyni zamanda, onun quruculuq fəaliyyəti göstərməli olan demokratik qanadının amorfluğunu üzə çıxardı. İndi xüsusilə aydın olur ki, o vaxtlar Azərbaycanda xalq hərəkatına başçılıq etməyə qadir olan, təşkilatca və ideyaca sıx birləşmiş siyasi qüvvə yox idi.

Tarixin dönüş məqamında ölkədə milli lider də olmadı ki, onun idarəçilik təcrübəsi, siyasi uzaqgörənliyi və müdrikliyi, təşkilatçılıq bacarığı xalq hərəkatının gücünü lazımi məcraya yönəltsin və yersiz qurbanlar vermədən, qan tökülmədən qarşıya qoyulmuş məqsədə çatmağa imkan yaratsın.

Heydər Əliyev bu keyfiyyətlərə tam dolğunluğu ilə malikdir. Xalq ona həmişə etimad göstərmiş, təcrübəli və etibarlı rəhbər kimi baxmışdır. Lakin o vaxtlar Heydər Əliyev ittifaq rəhbərliyinin ciddi nəzarəti altında idi və Moskvada xüsusi xidmət idarələri tərəfindən təqib olunurdu. Onun bütün hərəkətləri təcrid edilmişdi. Elə Azərbaycanda da Ə.Vəzirov, onun tərəfdarları mafioz qruplarla birlikdə hər cür fitnəkarlıqlara və çirkin uydurmalara əl atırdılar ki, Heydər Əliyevin respublikaya qayıtmasına yol verməsinlər.

Qondarma liderlərin populizmi və məsuliyyətsizliyi, yaranmış şəraitdə tarixin ön səhnəsinə çıxan şəxslərin siyasi təcrübəsinin olmaması baş vermiş faciədə müsibətli rol oynadı. Onların mövqelərinin qeyri-ardıcıllığı, hakimiyyət orqanlarına və xüsusi xidmət idarələrinə yarınmaları xalq hərəkatının müqəddəratını, onun faciəli nəticələrini qabaqcadan müəyyənləşdirmişdi.

Yaranmaqda olan müxalifətin ən iddialı hissəsi öz nüfuzunun dərəcəsini nəzərə almayaraq, elmi və yaradıcı ziyalıların, siyasi elitanın hörmətli, əsl vətənpərvər nümayəndələrini həlledici anda hərəkatdan uzaqlaşdırdı. Bu, müxalifətin bütün sonrakı siyasi müqəddəratına mənfi təsir göstərmiş olan faciəli bir səhv idi.

Demokratik dəyərlərin bolşevik mübarizə şüarları və metodları ilə əvəzlənməsi, riyakarlıq və intriqaçılıq, dözümsüzlük və totalitar təfəkkürün təzahürləri, intellektual kasadlıq və zamanın tələbləri ilə ahəngdar səslənən yeni ideyaların olmaması və s. – müxalifət bax, belə mənəvi-siyasi mühitdə meydana gələrək inkişaf edirdi. Bu, barışmaz müxalifətin siyasi həyatını indi də səciyyələndirir. Nəyin bahasına olursa-olsun, xalqa hakim olmaq iddiası – milli hərəkatın başlanğıcındakı bu hikkə radikal müxalifətin fəaliyyətini yenə də müəyyənləşdirir. Radikal müxalifət bununla hesablaşmaq istəmir ki, 1980-ci illərdə – 1990-cı illərin əvvəllərində kortəbii şəkildə təşəkkül tapmış heç də bütün mübarizə formaları bu gün ölkədə gedən real proseslər şəraitində özünü doğrultmamışdır. Müstəqil demokratik dövlət qurduğumuz, cəmiyyətdə sabitliyin bərqərar olduğu, cəmiyyətin fəaliyyətini qanunun, parlamentin, mətbuatın tənzimlədiyi bir şəraitdə mübarizənin qarşıdurma formaları anaxronizmdir və siyasi fəhmsizliyə və naşılığa, xalqın həqiqi mənafelərini bilməməyə sübutdur.

Yanvar faciəsi tarixi yaddaşımıza kədərli hadisə kimi, hüznlü gün kimi, lakin bununla bərabər həm də Azərbaycan xalqının tarixində fədakarlıq və qəhrəmanlıq zirvəsi kimi daxil olmuşdur. Azərbaycan xalqı yüzilliyin sonunda əvəzedilməz qurbanlar verməsinə baxmayaraq, iftixar edə bilər ki, sınaq günlərində müstəsna inam və cəsurluq, milli ruhun sarsılmazlığını və mətinliyini nümayiş etdirdi. Dünyaya sübut etdi ki, haqq-ədalətin bərqərar olması və ləyaqətini qorumaq naminə hər cür qurbanlar verməyə qadirdir. Xalqımız mənən daha da ucaldı və öz qəhrəmanlıq tarixinə yeni şanlı səhifələr yazdı.

Yanvar faciəsi Azərbaycanın dövlət müstəqilliyi qazanması yolunda dönüş məqamı oldu. Xalq bu mərhələdən keçərək başa düşdü ki, əvvəlki həyata, yarımmüstəmləkə halında yaşamağa həmişəlik son qoyulmuşdur. Milli azadlıq hərəkatı siyasi reallığa çevrildi, dönməz xarakter aldı.

Yanvar faciəsinin müxtəlif cəhətlərinin dərindən dərk edilməsi və araşdırılmasını dövlətyaratma proseslərinin inkişafı üçün çox böyük əhəmiyyəti vardır. Müstəqil Azərbaycan dövlətinin qurulması və inkişafının ağır və əzablı yolunu uğurla keçmək üçün Yanvar faciəsini bütün təfərrüatı ilə bilmək və yada salmaq lazımdır. Belə bir həqiqəti hamımız dərk etməliyik ki, dövlətin siyasəti xalqın mənafelərinə cavab verməli və onun dəstəyinə arxalanmalıdır. Yalnız bu halda biz yeni qurbanların qarşısını ala bilərik.

O faciəli günlərin tarixi təcrübəsi sübut edir ki, düşmənlərin müstəqilliyimizə qarşı yönəlmiş fitnə və hücumlarının qabağını almaq üçün, hüquqi, demokratik dövlət qurmaq üçün ölkədə sabitliyi təmin etmək, xalqı sıx birləşdirmək, vətəndaşları

ümummilli ideya ilə birləşdirmək gərəkdir. Siyasi mübarizə Konstitusiyanın tələblərinə uyğun şəkildə, hüquq normaları çərçivəsində aparılmalıdır.

1980-ci illərin axırları – 1990-cı illər sübut etdi ki, tarixi yaddaşsızlıq ciddi nəticələrə səbəb ola bilər, taleyüklü məsələlərin həllində qarşısıalınmaz sədlər yaradır. Ona görə də Azərbaycanın faciəli, bir çox cəhətdən ziddiyyətli və eyni zamanda, qəhrəmanlıq tarixini öyrənərkən bu tarixin ibrət dərslərini nəzərə almaq və dəfələrlə faciələrə gətirib çıxarmış səhvləri təkrarlamamaq lazımdır. Bu, böyüməkdə olan nəsli əsl vətənpərvərlik və vətəndaşlıq ruhunda daha səmərəli tərbiyə etməyə, onlara gerçəkliyin tələblərini nəzərə almaq və konkret siyasi məqamın xüsusiyyətləri ilə hesablaşmaq bacarığını aşılamağa imkan verər.

Yanvar faciəsinin daha bir mühüm ibrət dərsi bundan ibarətdir ki, biz dünya ictimaiyyətinin Azərbaycan haqqında son dərəcə az məlumatı olduğunu yəqin etdik. Təəssüf ki, biz indiyədək xaricdə təşkilati cəhətdən möhkəm diaspor yaratmağa, güclü lobbi, milli icmalar formalaşdırmağa müvəffəq olmamışıq ki, onlar MDB, Qərb və Şərq ölkələrində mənafelərimizi qoruya bilsinlər. Bu, ümummilli vəzifədir və aktuallığını indiyədək itirməmişdir. Odur ki, kütləvi informasiya vasitələrinin, dövlət orqanlarının və ictimai qurumların geniş imkanlarından istifadə edərək, Azərbaycan haqqında məlumatı bütün dünyaya operativ surətdə, başlıcası isə, peşəkarlıqla yaymaq, Azərbaycan barədə həqiqəti danışmaq, ölkəmizdə gedən proseslərə dair obyektiv və qərəzsiz ictimai rəy yaratmaq lazımdır. Bu, ona görə lazımdır ki, "Qara yanvar" bir daha heç vaxt təkrar edilməsin.

*"Dirçəliş – XXI əsr" jurnalı,*
*№ 3 (25), 2000-ci il.*

## ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ İCTİMAİ RƏY KONTEKSTİNDƏ

Zəngin tarixə, mədəniyyətə, əsrlərdən keçib gəlmiş mütərəqqi ənənələrə malik olan Azərbaycan xalqı həmişə özünün mübarizliyi, eyni zamanda, sülhsevərliyi ilə seçilmişdir. Təbiətin heç nəyi əsirgəmədiyi bu nadir ölkənin vətəndaşları öz vətənlərini sevir, burada dinc şəraitdə yaşayıb-yaratmaq, dünya birliyində öz ölkələrini layiq olduğu qabaqcıl cərgədə görmək istəyirlər. Azərbaycan dövlətinin və vətəndaşlarının nə keçmişdə, nə də indi heç kəsin torpaqlarında, var-dövlətində, sərvətlərində gözü olmamışdır.

Lakin təəssüf ki, artıq on dördüncü ildir davam edən məşum Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın hərbi təcavüzü Azərbaycan xalqının və Azərbaycan dövlətinin sosial-iqtisadi və mədəni inkişafı yolunda ciddi əngəldir, regionun normal şəkildə sivil dünyaya inteqrasiyasına mane olur, xalqların yaradıcı qüvvələrinin sərbəst inkişafına, regionun tərəqqisinə imkan vermir, bütün Qafqaz bölgəsində sülh və əmin-amanlıq üçün təhlükə yaradır. Müasir dünyada bütün bəşəriyyət üçün həyati əhəmiyyətə malik problemlərin önə çıxdığı, qloballaşma proseslərinin hakim meylə çevrildiyi bir zamanda dövlətlərin və xalqların bir-birinə ərazi iddiaları irəli sürməsi, insanların başqa xalqlara nifrət ruhunda tərbiyə olunması, mübahisəli məsələlərin zor gücü ilə həll edilməsinə

cəhd etmək beynəlxalq hüquq normalarına meydan oxumaqdır və dözülməz anaxronizmdir.

Problemin mahiyyətini daha dərindən anlamaq, onun ədalətli və etibarlı həllini tapmaq üçün məsələnin tarixi köklərini, siyasi, dini, etnik səbəblərini qısa olaraq bir daha nəzərdən keçirmək lazımdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, hər şeydən əvvəl, XIX əsrin əvvəllərindən başlayaraq, Azərbaycan xalqına qarşı həyata keçirilən soyqırımı və deportasiya siyasətinin məntiqi nəticəsi və növbəti mərhələsi kimi götürülməlidir.

Öncə qeyd etmək lazımdır ki, bu məsələ Rusiyanın Qafqazda geosiyasi maraqlarının təmin edilməsi ilə sıx surətdə bağlı ortaya atılmışdır. I Pyotrun işğalçı siyasətini və donmayan dənizlərə çıxmaq haqqında vəsiyyətlərini həyata keçirən imperatriçə II Yekaterina Qafqazda özünə dayaq ola biləcək xristian dövləti yaradılması planını irəli sürmüşdü. Həmin planı gerçəkləşdirmək üçün XIX əsrin əvvəllərindən etibarən tarixi Azərbaycan torpaqlarında Rusiya üçün Yaxın Şərqdə forpost rolunu oynayacaq erməni dövlətinin yaradılması mərhələlərlə həyata keçirilməyə başlandı. Bu məqsədlə Osmanlı imperiyasına mənsub əyalətlərdən və İrandan tarixi Azərbaycan torpaqları olan İrəvan, Naxçıvan, Zəngəzur və Qarabağ ərazilərinə kütləvi şəkildə erməni əhalisi köçürülməyə başlandı. O vaxta qədər gəlmə etnos kimi burada ayrı-ayrı ərazilərdə kiçik qruplar halında yaşayan ermənilərin sayı süni surətdə sürətlə artırıldı. Ermənilərdə tarixi köklərə söykənən, yüz illər boyu formalaşan tərkolunma psixologiyası, qovulma, “əzabkeşlik” kimi xəstə hisslər Rusiya imperiyası üçün son dərəcə əlverişli olduğundan,

onlara hamilik edir və zəbt etdiyi ərazilərdə yerləşdirirdi. Prosesə münbit zəmin yaradan obyektiv və subyektiv şərtlərin mahiyyəti isə ondan ibarət idi ki, monofizit erməni kilsəsinin milli dövlət yaratmaq səyləri Rusiya imperiyasının müstəmləkə maraqları ilə üst-üstə düşürdü: Rusiya İran və Türkiyədən ermənilərin Cənubi Qafqaza köçürülməsinə və gələcəkdə orada erməni dövlətinin yaradılmasına kömək göstərir, ermənilər isə Rusiyanın Qafqazda etibarlı müttəfiqi olmağı, onun təəssübünü çəkməyi öhdəyə götürürdülər.

Çar Rusiyasının imperiya siyasətini davam etdirən və geopolitik maraqlarını əsas götürən sovet rəhbərliyi də azərbaycanlılara qarşı etnik, dini zəmində ayrı-seçkilik siyasəti yeridirdi. Faciələr üçün zəmin yaradan əsas amil sovet dövlət rəhbərlərinin siyasətində və düşüncə tərzində kök salmış türk düşmənçiliyi ilə bağlı idi. Öz dərin tarixi kökləri olan bu düşmənçilik Rusiya və Osmanlı imperiyalarının çoxəsrlik qarşıdurması ilə bağlı idi. Sovet ideologiyası və siyasətinin tərkib hissəsi olan bu düşmən münasibət Moskvada erməni lobbisi və ermənipərəst dairələr tərəfindən daim qızışdırılırdı.

İki əsr müddətində bu siyasətin həyata keçirilməsi, on minlərlə erməni əhalisinin Azərbaycan ərazilərinə köçürülməsi, onlara yerli əhali ilə müqayisədə daha geniş hüquqlar və imtiyazlar verilməsi azərbaycanlıların Cənubi Qafqazın bir çox regionlarından sıxışdırılmasına səbəb oldu. Müsbət haldır ki, mənbələrin təkzibolunmaz şəkildə sübut etdiyi bu tarixi həqiqət, nəhayət ki, Ki Uest görüşləri ərəfəsində ABŞ Dövlət Departamentinin ictimaiyyət üçün açıqladığı arayışlarda da öz təsdiqini tapmışdır. Ümumilikdə götürüldükdə isə, bu proses çar Rusiyası və sovet hakimiyyəti tərəfindən rəsmi dövlət

siyasəti kimi mərhələlərlə həyata keçirilən deportasiya və soyqırımı xarakteri almışdı. Bu siyasət iki hissədən ibarət idi: birincisi, azərbaycanlıların tarixi yaşayış yerlərindən qovulması, ikincisi, Azərbaycan ərazilərinin tədricən Ermənistana birləşdirilməsi. Əgər 1920-ci ilin mayında Azərbaycan respublikasının Versal sülh konfransı tərəfindən tanınmış ərazisi 114 min kvadratkilometr təşkil edirdisə, sovet hakimiyyəti illərində, xüsusən 1920-ci illərdə onun ərazilərinin Ermənistana və Rusiyaya verilməsi nəticəsində 86,6 min kvadratkilometrə qədər azalmışdı. Nəticədə Zəngəzur, Göyçə və başqa tarixi Azərbaycan torpaqları Ermənistana verildi, Azərbaycanı onun tarixi ərazisi olan Naxçıvanla birləşdirən və həyati əhəmiyyətə malik olan ərazi əlindən alınaraq, Naxçıvan anklav vəziyyətinə salındı.

Beləliklə, iki əsr ərzində davam edən və azərbaycanlı əhalinin tarixi ərazilərindən çıxarılması ilə müşayiət olunan erməni ekspansiyası prosesi müntəzəm həyata keçirilmişdir. Bu proses etnik zəmində soyqırımı siyasəti ilə – insanların kütləvi şəkildə öldürülməsi, yaşayış məntəqələrinin dağıdılması, yandırılması, milli mədəniyyət abidələrinin məhv edilməsi ilə nəticələnmişdir. Prezident Heydər Əliyevin 31 mart – azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına 2001-ci il 27 mart tarixli müraciətində deyilir: “XIX əsrin əvvəllərindən başlayaraq, ardıcıl olaraq, tarixi Azərbaycan torpaqlarında ermənilər kütləvi şəkildə məskunlaşdırılmağa başlanmış, Qafqazın cənubunda Ermənistan dövlətinin yaradılması, azərbaycanlıların öz qədim torpaqlarından, ata-baba yurdlarından qovulması, onların deportasiyası prosesi məqsədyönlü şəkildə həyata keçirilmişdir. Soyqırımı və deportasiya prosesi mərhələlərlə,

düşünülmüş plan əsasında həyata keçirilmişdir. Öz ağırlığına, miqyasına və nəticələrinə görə xalqımızın başına gətirilən müsibətlər həm də bəşəriyyətə qarşı cinayətlər kimi xarakterizə olunmalı, beynəlxalq hüquqi-siyasi qymətini almalı, onun ideoloqları və təşkilatçıları layiqincə cəzalandırılmalıdırlar”. Təkcə XX əsrdə iki milyondan artıq azərbaycanlı Ermənistanın hakim dairələri və onların havadarları tərəfindən həyata keçirilən soyqırımı siyasətinin əzablarını və iztirablarını öz üzərində hiss etmişdir.

Belə bir siyasi ənənələr və milli, dini, geosiyasi prioritetlər şəraitində 1987-ci ilin sonunda keçmiş SSRİ-də “yenidənqurma” adlanan dağıdıcı proseslər fonunda süni “Dağlıq Qarabağ problemi” meydana gətirildi. O zaman SSRİ-nin ali rəhbərlərindən biri olan Heydər Əliyev hakimiyyətdən kənarlaşdırıldıqdan sonra Ermənistanın qatı millətçi dairələrinin və onların xarici dövlətlərdə olan havadarlarının uzun illər boyu hazırladıqları planı həyata keçirmək üçün əlverişli siyasi zəmin yarandı. M.Qorbaçov başda olmaqla, o zamankı SSRİ rəhbərliyi Konstitusiya borcunu yerinə yetirmək, qanunçuluğu qorumaq əvəzinə, erməni millətçilərinin separatçı hərəkətlərini həvəsləndirmək, Dağlıq Qarabağı Azərbaycanın tərkibindən çıxarıb Ermənistana birləşdirmək yolunu tutdu. Nəticədə, ilk mərhələdə tamamilə aradan qaldırılması mümkün olan bu münaqişə tədricən böyüyərək, iki xalqın tammiqyaslı qarşıdurmasına, geniş müharibəyə çevrildi.

Təəssüf ki, bu faciəvi hadisələr başlayan zaman xalqımız birləşə bilmədi, Azərbaycanın o zamankı kommunist rəhbərləri və sonra hakimiyyəti öz üzərinə götürmüş Xalq Cəbhəsinin başçıları səbatsızlıq, məsuliyyətsizlik və bacarıq-

sızlıq nümayiş etdirdilər. Dağlıq Qarabağın aqibəti unuduldu. Azərbaycanda daxili çəkişmələr, hakimiyyət mübarizəsi ümummilli maraqları üstələdi. Nəticədə ermənilər Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və onun ətrafında olan yeddi rayonu asanlıqla işğal etdilər.

Ermənistanın hərbi təcavüzü xalqımıza ağır maddi və mənəvi zərbələr vurdu. 30 minə yaxın vətəndaşımız həlak oldu, on minlərlə insan şikəst oldu. Bir milyondan artıq azərbaycanlı bu gün də qaçqın və məcburi köçkün həyatının məşəqqətlərini yaşamaqdadır. Münaqişə nəticəsində ölkəmizə 22 milyard dollar həcmində maddi ziyan vurulmuşdur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi 1988-ci ilin fevralından SSRİ-nin dağılmasına qədər olan dövrdə SSRİ-nin daxili problemi kimi qiymətləndirilirdi. SSRİ-nin süqutu ilə münaqişə tezliklə beynəlmiləlləşdi, regionda sülhü və təhlükəsizliyi təhdid edən maneəyə, müxtəlif beynəlxalq güclərin və maraqların mübarizə nöqtəsinə çevrildi.

Münaqişənin dinc yolla nizama salınması istiqamətində ilk təşəbbüslər erməni işğal qüvvələrinin Dağlıq Qarabağ ətrafındakı əraziləri zəbt etdiyi dövrdən başlamışdır. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi və indiyə qədər icra olunmamış qalan 822, 853, 874 və 884 nömrəli qətnamələrində işğalçı hərbi birləşmələrin Azərbaycanın zəbt edilmiş rayonlarından qeyd-şərtsiz çıxarılması tələb olunurdu. 1992-ci ilin martında Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Helsinkidə xarici işlər nazirlərinin əlavə görüşündə isə gələcək Minsk prosesinin əsası qoyulmuşdu.

1993-cü ilin iyununda Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra münaqişənin ədalət və beynəlxalq hüquq

prinsiplərinə uyğun həll olunması üçün qəti addımlar atılmağa başlandı. İlk növbədə, ölkədə ictimai-siyasi sabitlik bərpa olundu, vahid plan əsasında, ciddi nizam-intizama malik ordu quruculuğuna başlandı, bütün regional və beynəlxalq təşkilatların imkanlarından, böyük dövlətlərin geosiyasi maraqlarının kəsişməsindən istifadə etməyə yönəlmiş tarazlaşdırılmış xarici siyasət gerçəkləşdirildi. Böyük iqtisadi-enerji layihələri həyata keçirilməyə başlandı, 1994-cü ilin sentyabrında Xəzərin Azərbaycan sektorunda neft yataqlarının istismarı haqqında "Əsrin müqaviləsi" imzalandı, Azərbaycan cəsarətli iqtisadi islahatlar və sürətli sosial-iqtisadi inkişaf yoluna çıxdı.

1994-cü ilin mayında Ermənistan-Azərbaycan münaqişəsində atəşkəs əldə olundu; o zaman bu, çox mühüm hadisə idi. Müsbət hal kimi qeyd olunmalıdır ki, artıq heç bir ayırıcı qüvvə olmadan, Ermənistanla Azərbaycan arasında yeddi ilə yaxındır atəşkəs rejimi qorunub saxlanır.

1994-cü ilin dekabrında ATƏT-in Budapeşt sammitində münaqişənin nizamlanması yolunda mühüm irəliləyişlər əldə edildi. Minsk qrupunun həmsədrlik məsələsi müəyyənləşdirildi, ilk dəfə qərar qəbul olundu ki, ATƏT-in sülhməramlı qüvvələri yaradılsın və saziş əldə edilərsə, bu qüvvələr bölgəyə daxil olsun. 1996-cı ilin dekabrında Lissabon sammitində də ciddi nəticələr əldə edildi. Sammitin sənədlərində ilk dəfə qeyd olundu ki, Azərbaycanın və Ermənistanın ərazi bütövlüyü tanınsın, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək səviyyəli özünüidarə statusu verilsin və Dağlıq Qarabağın həm erməni, həm azərbaycanlı əhalisinin təhlükəsizliyi təmin edilsin. Təkliflər Azərbaycan üçün o qədər məqbul olmasa da, münaqişənin aradan qaldırılması naminə Azərbaycan onu müdafiə etdi.

Minsk qrupunun həmsədrləri 1997-ci ilin iyununda tərəflərə “Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş” təqdim etmişdilər. “Paket həlli” kimi tanınan variantda Azərbaycan tərəfini qane etməyən bir sıra ciddi məqamlar vardı: Laçın və Şuşa ilə bağlı müddəalar, ərazilərin boşaldılması ilə status məsələsinin birbaşa əlaqələndirilməsi və sair. Buna baxmayaraq, Azərbaycan tərəfi taktiki mülahizələrlə, danışıqlar prosesinə başlamaq və Ermənistanın mövqelərini müəyyənləşdirmək məqsədi ilə “paket təklifini” əsas kimi qəbul etdi. Lakin Ermənistan tərəfi həmin sənədi bu şəkildə də qəbul etməyərək, özünün dialoqa hazır olmadığını nümayiş etdirdi.

1997-ci ilin oktyabrında Minsk qrupunun həmsədrləri “Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında” saziş layihəsini tərəflərə təqdim etdilər. Mərhələli həll planı adlandırılan bu variant Azərbaycan tərəfdən məqbul sayılaraq, qəbul olundu. Bu plan silahlı münaqişənin nəticələrinin ardıcıl şəkildə aradan qaldırılmasına və Minsk konfransı prosesində Azərbaycanın tərkibində Dağlıq Qarabağın statusunun müəyyən edilməsinə yönəlmişdi. Plana görə, birinci mərhələdə Dağlıq Qarabağ ətrafında altı rayon azad olunur, ATƏT-in sülhməramlı qüvvələri regionda yerləşdirilir, qaçqın-köçkün düşmüş əhali öz yerlərinə qayıdırdı. İkinci mərhələdə Dağlıq Qarabağın statusu müəyyənləşdirilir və eyni zamanda, Laçın, Şuşa və keçmiş Şaumyan rayonları ətrafında vəziyyətin nizama salınması nəzərdə tutulurdu. Ermənistan Prezidenti L.Ter-Petrosyanın da mərhələli həll variantını qəbul etməsi münaqişənin aradan qaldırılması ilə bağlı müəyyən ümudlər və müsbət meyillər yaratmışdı. Ermənistanın digər rəhbərləri və Dağlıq Qarabağdakı qanunsuz qurumun başçıları tərəfindən

kəskin tənqid olunmasına baxmayaraq, L.Ter-Petrosyanın mövqeyi o zaman kompromislərə hazır olmaq təsiri bağışlayırdı. “Respublika Armeniya” qəzetində dərc etdirdiyi ”Müharibə, yoxsa sülh: düşünmək zamanı” adlı proqram xarakterli məqalədə L.Ter-Petrosyan özünün problemə baxışının əsas tezislərini ifadə etmişdi. Onun fikrincə, münaqişə nizama salınmayacağı təqdirdə, Ermənistan və Dağlıq Qarabağ bir il ərzində nəzərəçarpacaq dərəcədə zəifləyəcək, o da nəzərə alınmalıdır ki, beynəlxalq ictimaiyyət Dağlıq Qarabağın müstəqilliyinin əleyhinədir. Böhran aradan qaldırılmazsa, təkcə Dağlıq Qarabağın deyil, Ermənistanın özünün də strateji vəziyyəti yaxşılaşdırıla bilməz. Lakin Ermənistan prezidentinin reallıqların təhlilinə əsaslanan bu etirafları 1998-ci ilin fevarlında onun radikal-millətçi qüvvələr tərəfindən istefaya göndərilməsi ilə nəticələndi.

1998-ci ilin sonunda isə Minsk qrupunun həmsədrləri tərəfindən “ümumi dövlət” planı adlanan təklif təqdim olundu. Azərbaycanın suverenliyi və müstəqilliyinin ziddinə olan bu təklif Dağlıq Qarabağa faktiki müstəqillik verilməsini, Azərbaycanın ərazisində ikinci erməni dövlətinin yaradılmasını nəzərdə tuturdu. Prezident Heydər Əliyevin “Azərbaycana qarşı böyük təxribat” adlandırdığı bu sənəd, təbii ki, qətiyyətlə rədd olundu. Prezident Heydər Əliyevin Ki Uest görüşündə səsləndirilmiş bəyanatında bu planın mahiyyəti dəqiq səciyyələndirilmiş və onun beynəlxalq hüquqa daban-dabana zidd olduğu bir daha geniş dünya ictimaiyyəti və siyasi dairələri qarşısında açıqlanmışdır: “Heç bir beynəlxalq hüquqi bazası olmayan “ümumi dövlət” məfhumu Dağlıq Qarabağı müstəqil dövlət və ərazi qurumu kimi nəzərdə tutur, ona Azərbaycan ilə

bərabərhüquqlu “ümumi dövlət” statusu verir. Bu təklif beynəlxalq hüququn prinsip və normalarına tamamilə ziddir, Azərbaycanı öz ərazisinin bir hissəsindən məhrum edir və faktik olaraq, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını qanuniləşdirir”. “Ümumi dövlət” formulundan sonra Minsk qrupu tərəfindən heç bir təklif verilmədi.

Minsk qrupu həmsədrlərinin təşəbbüsü ilə hazırda Azərbaycan və Ermənistan prezidentlərinin ikitərəfli görüşləri praktikasından geniş istifadə olunur. Bu görüşlərin nəticəsində 1999-cu ildə tərəflərin mövqelərində xeyli yaxınlaşma müşahidə olunurdu. Ancaq Ermənistan parlamentdə baş vermiş terror aktı müzakirələrin müsbət inkişafını xeyli ləngitdi.

Buna baxmayaraq, Azərbaycan rəhbərliyi tərəfindən münaqişənin həlli istiqamətində gərgin axtarışlar davam etdirilir, bütün mümkün formalardan – ikitərəfli görüşlərdən, Minsk konfransı prosesindən, BMT tribunasından, regional və beynəlxalq təşkilatların imkanlarından istifadə olunur. Aşağıdakı rəqəmlər ölkə rəhbərliyinin siyasi-diplomatik fəaliyyətinin intensivliyini və zənginliyini nəzərə çarpdırır: 1993-cü ildən indiyə qədər Prezident Heydər Əliyev tərəfindən dünyanın 68 ölkəsinin dövlət başçıları ilə 485 görüş keçirilmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması yolları haqqında ABŞ Prezidenti, dövlət katibi ilə 18 dəfə, Fransa Prezidenti ilə 16 dəfə, Rusiya Prezidenti ilə 28 dəfə, Türkiyə rəhbərləri ilə 78 dəfə görüş keçirilmiş, danışıqlar aparılmışdır.

2001-ci il fevralın 23-24-də Prezident Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclisdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqşisənin nizamlanması məsələsi ətrafında geniş

müzakirələr oldu. Müzakirələrə dövlət hakimiyyəti və idarəetmə strukturlarının rəhbərləri, siyasi partiyaların, ictimai təşkilatların nümayəndələri, ziyalılar, arzu edən vətəndaşlar dəvət olunmuşdular. **Azərbaycan Respublikası Konstitusiyasına əsasən, Prezidentə daxili və xarici siyasət, dövlət həyatının bütün məsələlərində müstəsna səlahiyyətlər verilmişdir. Bununla belə, onilliklərin sınağından çıxmış öz iş üslubuna, dövlət idarəetmə prinsiplərinə uyğun olaraq, Prezident bu taleyüklü məsələ haqqında xalqla məsləhətləşməyi, onun rəyini və düşüncələrini öyrənməyi vacib hesab etmişdir.**

Azərbaycan Prezidenti Milli Məclisdə geniş nitq söyləyərək, münaqişənin nizamlanması ətrafında vəziyyətin nə qədər çətin və nə qədər ağır olduğunu bir daha hamıya izah etdi. Ölkə başçısı münaqişənin nizamlanması məsələləri ətrafında Azərbaycan rəhbərliyinin gördüyü işlər barədə geniş məlumat verdi, müxtəlif mərhələlərdə ortaya çıxarılan təkliflər haqqında danışdı. Problemin həlli üçün ATƏT-in Minsk qrupu tərəfindən verilmiş təkliflərin mahiyyəti, tərəflərin onlara münasibəti haqqında məsələyə bir daha aydınlıq gətirdi.

İki gün ərzində problem ətrafında açıq, prinsipial müzakirələr getdi. Müzakirələr onu da göstərdi ki, bu taleyüklü məsələ onun çətinliyi, mürəkkəbliyi haqqında, münaqişənin ədalətli həlli ilə bağlı Azərbaycan rəhbərliyinin fəaliyyəti, xüsusən problemin həlli yollarında olan maneələr haqqında respublikanın siyasi dairələrində, ictimaiyyətdə düzgün, obyektiv təsəvvürlər kifayət qədər deyildir. Əksinə, siyasi qüvvələrin, geniş ictimaiyyətin, hətta ziyalıların xeyli hissəsi isə ayrı-ayrı xarici və daxili maraqlı qüvvələr tərəfindən son dərəcə mürəkkəbləşdirilmiş münaqişə haqqında bəsit, sadələşdirilmiş düşüncəyə malikdir.

Prezidentin yekun nitqində qeyd etdiyi kimi, çoxsaylı çıxış edənlər arasında problem ətrafında geniş danışılsa da, konkret və real təklif verənlər, demək olar ki, olmadı. Verilən təkliflər isə problemin bütün mahiyyətini əks etdirmir, ümumi arzu və istək xarakteri daşıyırdı. Azərbaycan Prezidenti siyasi qüvvələrə, ziyalılara, vətəndaşlara müraciət edərək, təkidlə xahiş etdi ki, münaqişənin nizamlanması haqqında fikirlərini və təkliflərini Milli Məclisə versinlər. Məqsəd ondan ibarət idi ki, hamımız, Azərbaycan xalqı birlikdə vəziyyətdən çıxış yolunu axtarıb tapaq. Məsələnin həlli variantı tapılıb qəbul ediləndən sonra isə o, Milli Məclislə, xalqla yenidən müzakirəyə çıxarılacaqdır.

Milli Məclisdəki müzakirələr Azərbaycan ictimaiyyətində, yaxın və uzaq ölkələrdə geniş əks-səda doğurdu, müxtəlif mülahizələrə, şərhlərə təkan verdi; kütləvi informasiya vasitələrində, mətbuat səhifələrində, radio və televiziyada problemin nizamlanması ətrafında müzakirələr bu gün də səngiməmişdir. Dövlət televiziyasında və özəl telekanallarda problem, demək olar ki, gündəlik müzakirə mövzusudur. Ən müxtəlif səviyyəli insanlar – ziyalılar, alimlər, adi zəhmət adamları, siyasi partiyaların və ictimai təşkilatların təmsilçiləri münaqişənin həlli ilə bağlı rəylərini və fikirlərini bildirir, müxtəlif məzmunlu təkliflər irəli sürürlər.

Keçən müddətdə Azərbaycan Respublikası Milli Məclisinə cəmi 131 təklif daxil olmuşdur. Bunlardan 8 təklifi deputatlar, 13 təklifi siyasi partiyalar, 4 təklifi qeyri-hökumət təşkilatları, 96 təklifi isə bilavasitə ictimaiyyətin nümayəndələri, vətəndaşlar təqdim etmişlər. Bundan başqa, Prezidentin İcra Aparatına müxtəlif partiyalardan, ictimai təşkilatlardan və əmək kollektivlərindən 22 və ayrı-ayrı vətəndaşlardan 51 təklif daxil

olmuşdur. Beləliklə, Milli Məclisə və Prezidentin İcra Aparatına bütövlükdə 204 təklif verilmişdir. Mətbuat səhifələrində bir neçə layihə dərc edilmiş və ictimaiyyətin müzakirəsi üçün təklif olunmuşdur. Azərbaycan Prezidentinə ünvanlanmış bir çox teleqram və məktublarda konkret təkliflər olmasa da, problemin həllinin bu və ya digər variantına fikir bildirilir, rəy ifadə edilir. Artıq Milli Məclisdə müzakirələr başlanmasından bu günə qədər verilmiş təkliflərin əsas məzmunu, istiqamətləri, reallaşdırılması üçün göstərilən yollar haqqında ümumiləşdirilmiş şəkildə danışmaq, ilkin fikir söyləmək olar.

**Bəri başdan qeyd etmək lazımdır ki, müzakirələr zamanı müxalif siyasi qüvvələr tərəfindən irəli sürülən nizamlama variantları, gözlənilən fəallıq bir o qədər də yüksək olmadı. Uzun illərdən bəri zaman-zaman Dağlıq Qarabağ probleminin parlamentdə müzakirəyə çıxarılmasını tələb edən, dövlət və cəmiyyət həyatının bütün məsələlərinə dair bitkin konsepsiya və proqramlarının olduğunu bəyan edən partiya rəhbərləri əksər hallarda susmağa üstünlük verdilər.** Qarabağ problemi ətrafında birləşməyə hazır olduqlarını, milli mənafeləri şəxsi və qrup maraqlarından yüksək tutduqlarını bəyan edənlərin bir çoxu heç özlərinə əziyyət verib Milli Məclisdəki müzakirələrə gəlmədilər. Mövqelərini isə belə izah etdilər ki, mətbuatda dərc olunan layihələri müzakirəyə çıxarmaq olmaz, onların öyrənilməsi üçün kifayət qədər vaxt verilməyib, guya onlara Milli Məclisdə çıxış üçün imkan verilməyəcəkdi. Hətta uşaq cığallığı səviyyəsində belə iddialarla çıxış etdilər ki, Milli Məclis özü qeyri-legitim olduğu üçün orada gedən müzakirələrə qatılmaq olmaz. Xüsusən belə mövqeyi Azərbaycan Demokrat Partiyasının, Müsavat

Partiyasının rəhbərləri tutdular. Öz intellektual, kadr potensialı ilə öyünən bu partiyalar, həmçinin iddialarında heç də onlardan geri qalmayan AMİP, Liberal Partiyası heç bir təklif vermədilər. Hətta 1992-ci ildən bəri Qarabağ probleminin həlli yollarını bildiyini daim bəyan edən, müdrik hakim ədası ilə iqtidarı fəaliyyətsizlikdə, bacarıqsızlıqda ittiham edən AMİP rəhbərləri açıq bildirdilər ki, onlar heç bir təklif verməyəcəklər. Problemin bütün məsuliyyətini hakimiyyət öz üzərinə götürməli, onu təkbaşına həll etməlidir. AMİP-in fövqəladə qurultayının Qarabağ haqqında qətnaməsində isə ultimativ bəyanatların təkrarından başqa heç bir şey tapmaq mümkün deyildir. Demokrat Partiyası, Liberal Partiyası müzakirələrdən, əsasən, öz başçılarının təbliği üçün istifadə etdilər.

**Əksər müxalifət partiyalarının və onların yedəyində gedən partiyaətrafı təşkilatların xalqımızın taleyüklü məsələsinə bu cür qeyri-ciddi münasibətini gördükdə, istər-istəməz, belə bir geniş yayılmış fikrin təsdiq edilməsinin şahidi oluruq: adətən, özləri faydalı bir iş görə bilməyən adamlar ən kəskin və tələbkar tənqidçilər rolunda çıxış edir, istənilən konstruktuv, yaradıcı fəaliyyətə mane olmağa çalışırlar.**

Müsavat Partiyası öz inhisarında olan mətbuat səhifələrində hakimiyyətin Qarabağla bağlı gördüyü işlərin tənqidinə və qarayaxma kampaniyasına güc verdi. Funksionerlərin və qəzet müxbirlərinin fantaziyası işə salınaraq, Azərbaycan Prezidenti, onun Qarabağla bağlı planları haqqında kütlə-obıvatel psixologiyasına və şüuruna təsir etməyə yönəlmiş hədyanlar və iftiralar yağdırılmağa başlandı. Təklif adına isə hələ 1999-cu ilin oktyabrında hazırlanmış və strateji-konseptual sənəd nümunəsi

kimi hay-küylə ictimaiyyətə təqdim edilmiş "Uğur" paketi "Yeni Müsavat" qəzetində təkrar dərc olundu. Sənədlə yaxından tanışlıq isə onu göstərir ki, bu, münaqişənin həllinə yönəlmiş təkliflər toplusu yox, ölkənin onilliklər ərzində müxtəlif istiqamətlər üzrə inkişafı yolları haqqında partiyanın məlum siyasi mövqeyinə uyğunlaşdırılmış mülahizələr məcmusudur. Burada Dağlıq Qarabağ münaqişəsinin nizamlanması yolları, tərəflərin güzəştlər limiti haqqında konkret təkliflər yoxdur. İrəli sürülmüş prinsiplərin isə ya bilavasitə müzakirə predmetinə heç bir aidiyyəti yoxdur, yaxud da müasir hüquqi-siyasi reallıqları, dünya siyasətinin aparıcı meyillərini nəzərə almır. Qarabağ ermənilərinə təklif olunan "mədəni muxtariyyət", yerli özünüidarə, iqtisadi sərbəstlik kimi prinsiplər münaqişə tərəflərinin keyfiyyətcə yeni konfliktlərinin, yeni hərbi-siyasi problemlərin yaradılmasını nəzərdə tutur. "Paket"də əksini tapmış "azad və ədalətli seçkilər", siyasi partiyaların və ictimai təşkilatların qeydiyyatının asanlaşdırılması" kimi tələblərin isə Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına nə qədər aidiyyətı olduğunu tapmaq xeyli çətindir.

"Yeni Müsavat" qəzetinin 2001-ci il 16-17-18 mart tarixli nömrələrində baş leytenant Oğuzoğlu imzalı müəllifin "Azərbaycan?... Azərbaycan!" başlıqlı geniş yazısı dərc olunmuşdur. ABŞ-ın Cənubi Qafqazda təşəbbüsü tədricən ələ keçirdiyini qeyd edən müəllif bu regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasının həmin ölkənin siyasi və iqtisadi maraqlarına uyğun gəldiyini bildirir. Onun fikrincə, Ermənistan-Azərbaycan münaqişəsinin tezliklə həll olunmasına çalışan ABŞ daxili sabitliyi daha möhkəm olan ölkənin tərəfini saxlayaraq, münaqişənin ikinci tərəfinə təzyiq göstərəcəkdir.

Guya Azərbaycanda sabitlik bir nəfərdən – Prezidentdən asılı olduğuna və demokratiya daha zəif inkişaf etdiyinə görə təzyiqlər də bizə qarşı yönəlibdir. Müəllifin fikrincə, münaqişənin ədalətli həlli üçün Azərbaycanın böyük potensialı var. Əsas məsələ isə bu potensialdan səmərəli istifadə etməkdir.

Böyük dövlətlərin müharibənin əleyhinə olduqlarını və ordumuzun da hələ kifayət qədər güclü olmadığını iddia edən Oğuzoğlu indiki şəraitdə hərbi əməliyyatlara başlayaraq, qələbə çalacağımıza inanmadığını bildirir. O, vəziyyətdən çıxış yolunu ölkənin potensialının demokratiya yolu ilə səfərbər olunmasında görür. Bununla ölkədə siyasi hakimiyyətin mövqeyi möhkəmlənəcək, ölkə başçısı güclü ordu quruculuğuna başlaya biləcək, Qərb dövlətlərinin bizə qarşı mövqeyi müsbət istiqamətdə dəyişəcəkdir. Bunun üçün ən doğru yol, onun fikrincə, ölkədə növbədənkənar prezident seçkilərinin keçirilməsidir. Güclü ordumuz olacağı təqdirdə Qərbi və erməniləri müharibəsiz bizimlə hesablaşmağa məcbur edərik. Ən uzağı, 2004-cü ildə, Laçın istisna olmaqla, Dağlıq Qarabağın ətrafındakı rayonlar qaytarılır. Təxminən 2007-2008-ci illərdə Qarabağ yarası bütövlükdə sağaldıla bilər. Bölgədə sülhü və sabitliyi, Dağlıq Qarabağ ermənilərinin insan hüquqlarını təmin edə bilsək, nə dünya ictimaiyyəti narahat olar, nə də ermənilərin şikayət etməyə əsasları qalar. Reallıqda ermənilərin iddiaları mədəni muxtariyyət tələblərindən o yana getmir.

Gördüyümüz kimi, “demokratiya” və “azad seçkilər haqqında” destruktiv, barışmaz müxalifət partiyalarının mətbəxində hazırlanmış əsas tələblər müəllifin “konsepsiyasi”nın məğzini təşkil edir, ermənilərə isə o, ən çoxu “mədəni muxtariyyət” vəd edə bilər. Maraqlıdır ki, Oğuzoğlu Azərbaycanda demokratiyanın

olmadığı, insan hüquqlarının pozulduğu və ermənilərin bu səbəblərdən Azərbaycanla bir dövlət tərkibində yaşaya bilməyəcəkləri haqqında erməni təbliğatının tezislərini təkrar edir. Yeri gəlmişkən, "Atəş xətti" verilişində də ermənilər Azərbaycanda insan haqlarının kobud şəkildə pozulması haqqında İsa Qəmbərin mülahizələrinə istinad edirdilər. Qoyulan tələblər "Müsavat" Partiyasının "Uğur" paketindən, demək olar, fərqlənmir.

Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarovun və Azərbaycan Prezidentinin sabiq köməkçisi Eldar Namazovun ictimaiyyətə təqdim etdikləri "Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması üçün çıxış platforması" adlı sənəd müxalifət düşərgəsində və müstəqil KİV-lərdə xeyli müzakirələrə səbəb oldu. "Platforma"nı əsasən bəyənən bir qism müxalifət partiyaları bu günlərdə onu, az qala, ümummilli konsepsiya səviyyəsinə qaldırdılar, onun ətraflı işlənməsi zərurətini bildirərək, geniş təbliğ etməyə başladılar. Sənəddə onları qane etməyən cəhət isə giriş hissəsində 1994-1997-ci illərdə ölkə rəhbərliyinin gördüyü müsbət işlərin əksini tapması idi. Burada Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycan Prezidentinin gördüyü işlər, tutduğu prinsipial mövqe öz əksini tapmışdır. Sənəddə müəlliflərin tətbiq etdiyi termin – "humanitar əməliyyat" ifadəsi isə Azərbaycan Prezidentinin çıxışlarında dəfələrlə əksini tapmış fikrin – "Azərbaycan öz torpaqlarını sülh yolu ilə, bu, baş tutmasa, hərbi yolla azad etməyə hazırdır" fikrinin başqa şəkildə təsdiqindən fərqli bir şey deyildir.

**Lakin müxalifət partiyalarının və qəzetlərinin bir qisminin bəyəndiyi bu layihədə də prinsipcə yeni bir şey**

**tapmaq mümkün deyildir. Yeni heç nə kəşf etmədiklərini "platforma" müəlliflərinin özləri də çoxsaylı KİV-ə müsahibələrində etiraf edirdilər. Digər tərəfdən, layihə müxalifət tərəfindən bəyənilirsə, bu, o demək deyilmi ki, müxalifət, ifrat tənqidçi terminologiyasına baxmayaraq, prinsipcə Heydər Əliyevin münaqişənin nizamlanması istiqamətində fəaliyyətini bəyənir və onun düzgünlüyünü etiraf edir? Belə olan halda, Prezidentin gördüyü işləri yeni bir "platforma" adı altında ictimaiyyətə təqdim etməyin özünü, əlbəttə, təqdirəlayiq hal hesab etmək olar. Bu, belə bir həqiqətin bir daha təsdiqi deyilmi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsində Prezident Heydər Əliyevin həyata keçirdiyi siyasətin real alternativi yoxdur?**

Münaqişənin həllinə dair Azərbaycan Xalq Cəbhəsi Partiyasının KİV-də dərc olunan təklifləri də yeniliyi və originallığı ilə fərqlənmir. Bu layihədə Azərbaycanın Avratlantik məkanına inteqrasiyası, ölkəmizin NATO-ya qəbul edilməsi, ABŞ və Türkiyə ilə münasibətlərin müttəfiqlik səviyyəsinə qaldırılması, Rusiyanın hərbi təsir imkanlarının məhdudlaşdırılması və s. kimi AXCP-nin ümumi xəttinə uyğun tələblər əksini tapmışdır. Lakin bu sənədi münaqişənin bilavasitə nizamlanmasına yönəlmiş təklif adlandırmaq çətindir. Burada daha çox uzun müddət üçün nəzərdə tutulmuş və bugünkü Azərbaycan rəhbərliyi tərəfindən müntəzəm surətdə həyata keçirilən tədbirlər qarşıda duran vəzifələr kimi sadalanır. Erməni terrorizmi haqqında məlumatların beynəlxalq ictimai rəyə çatdırılması, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsinin gücləndirilməsi, müharibə iştirakçılarına, əlillərinə

və şəhid ailələrinə dövlət qayğısının yüksəldilməsi, Azərbaycan diasporu ilə səmərəli işin qurulması, ölkənin iqtisadi gücünün və qüdrətinin artırılması və bu kimi digər təkliflər bugünkü dövlət siyasətinin prioritet istiqamətləridir. Yəni AXCP ideoloqları "yeni bir Amerika" kəşf etməyiblər. Layihədə qeyri-real təkliflər də çoxdur. "Uğur" paketində olduğu kimi, bu sənəddə də məsələyə bilavasitə aidiyyəti olmayan və müəlliflərin siyasi baxışlarını əks etdirən tələblər – "xalqın iradəsini ifadə edən hakimiyyət formalaşması", daxili siyasətdə ciddi dəyişikliklər edilməsi, cəmiyyətdə siyasi konsensusun yaradılması və s. öz əksini tapmışdır. Sənəd "AXCP-nin strateji siyasi konsepsiyası" adlandırılsaydı, daha doğru olardı. Əslində, bu sənəd daha çox keçmişdə kommunist qurultaylarından sonra müəyyən zaman və məkan çərçivəsinə hesablanmış tədbirlər planını xatırladır.

**Müzakirələr zamanı təqdim olunmuş təkliflərin araşdırılması belə bir nəticəyə gətirir ki, müxalifət partiyalarının və müstəqil politoloqların layihələri, bir qayda olaraq, siyasi şəraiti, hüquqi-siyasi reallıqları, dünya siyasətinin aparıcı meyillərini, geostrateji maraqlar mübarizəsini nəzərə almır. Müxalifət funksionerlərinin və partiyaların adından təqdim olunmuş layihələri birləşdirən əsas cəhət minimum realizm və məsuliyyət hissinin olmamasıdır.**

Milli Məclisə və Prezidentin İcra Aparatına digər siyasi partiyalar – Ana Vətən Partiyası, Milli Konqres Partiyası, Kəndli Partiyası, Milli Vəhdət Partiyası, Azərbaycan Demokratik Maarifçilik Partiyası, Demokratik Azərbaycan Dünyası Partiyası, Milli Hərəkat Partiyası, Azərbaycan Xalq Demokratik Partiyası, Azərbaycan Sabit İnkişaf Partiyası və s. tərəfindən də təkliflər

təqdim edilmişdir. Çoxlu sayda ictimai təşkilatlar və əmək kollektivləri – Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzi, "Təsəlli" Xeyriyyə Cəmiyyəti, Qarabağın azərbaycanlı icması, "İslam–İttihad" Cəmiyyəti, Milli Müqavimət Hərəkatı adlanan qurumun idarə heyəti, Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutu, Şəhid Ailələrini Müdafiə Cəmiyyəti, "Effekt" firması, Şəmkir rayon baytarlıq idarəsi adından daxil olmuş sənədlərdə müəlliflər problemin həllinə dair öz fikir və mülahizələrini bölüşürlər. Bakı şəhərinin Sabunçu rayonundan Cabbar Məmmədov "Soyuq müharibə aparmaq metodları" adlı bir neçə yüz səhifəlik tədqiqat işini göndərmişdir. Milli Məclisin deputatları tərəfindən təkliflər verilmişdir. Çoxlu sayda təklif isə bilavasitə vətəndaşlar – ictimaiyyətin nümayəndələri, ziyalılar ağsaqqallar tərəfindən Milli Məclisə və Prezidentin İcra Aparatına təqdim olunmuşdur. Təkliflərin hər birini geniş təhlil etmədən onların əsas məzmunu və istiqamətlərinə toxunmağı zəruri hesab edirik.

Ana Vətən Partiyası adından təqdim edilmiş təkliflər variantında təsdiq olunur ki, Azərbaycan Dağlıq Qarabağ probleminin ədalətli həllinə yalnız bütün səviyyələrdə – iqtisadi, sosial, mədəni, ideoloji və s. sahələrdə ermənilər üzərində qələbə qazandıqdan sonra nail olacaqdır. "Böyük Ermənistan" ideologiyası ilə silahlanmış millətə "Böyük Azərbaycan" proqramı ilə cavab vermək lazımdır. Ana Vətən Partiyası belə hesab edir ki. ədalətsiz sülh müqaviləsi gələcək qeyri-sabitliyin və növbəti münaqişələrin əsası olacaqdır. Hazırkı vəziyyətdə isə ədalətli sülh imzalanması mümkün deyildir. Təklif edilir ki, Azərbaycan davamlı olaraq, özünün ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağ əhalisinə ən yüksək status verməyə hazır olduğunu beynəlxalq ictimaiyyətə

nümayiş etdirməlidir. Azərbaycan Dağlıq Qarabağ ətrafında işğal olunmuş ərazilərin boşaldılması, məcburi köçkünlərin öz doğma torpaqlarına qaytarılması ilə paralel olaraq, çoxmilli qüvvələrin bufer zonasında yerləşdirilməsi, Dağlıq Qarabağ əhalisinə Azərbaycanın tərkibində özünüidarəyə əsaslanan, siyasi müstəqillikdən başqa, digər hüquqları nəzərdə tutan status verilməsinin ATƏT-in Minsk konfransı çərçivəsində həlli məramını elan etməli, bütün bu təminatlar daxilində Ermənistanla nəqliyyat, rabitə və digər kommunikasiya xətlərinin açılmasına tərəfdar olduğunu bəyan etməlidir. AVP həmçinin təklif edir ki, erməni xalqının genetik kodlarını, tarixi inkişaf və yaşam tərzini, ictimai-siyasi mühitini, beynəlxalq aləmdə çevik hərəkət və səfərbərolunma qabiliyyətinin sirlərini dərindən öyrənmək üçün Strateji Tədqiqatlar İnstitutu yaradılsın.

Milli Vəhdət Partiyasının sədri Yunus Oğuz tərəfindən təqdim edilmiş sənəddə təsdiq olunur ki, Azərbaycanın daxili problemlərini həll etməklə Ermənistanın və Dağlıq Qarabağın hiss edə biləcəyi hər cəhətdən üstün vəziyyət yaradılmalıdır. Ermənistanın Azərbaycan iqtisadiyyatına inteqrasiya olunmasının prinsipcə mümkünlüyü ifadə edilməlidir. Regional planda görülməli olan əsas iş Ermənistanın bölgədə təcridinə nail olmaqdan ibarətdir. Gürcüstana ermənilərin ərazi iddiaları qaldırmasından yararlanmaq lazımdır. Ermənistanın terror ixrac edən dövlət olduğunu, Dağlıq Qarabağın terror düşərgələrinə çevrildiyini dünya ictimaiyyətinə çatdırmaq zəruridir.

Milli Konqres Partiyasının sədri İxtiyar Şirinov təklif edir ki, Azərbaycan NATO-nun təhlükəsizlik sisteminə qoşulsun, Rusiya ATƏT-in Minsk qrupunun həmsədrliyindən uzaqlaş-

dırılsın, Türkiyə ATƏT-in Minsk qrupunun həmsədrləri sırasına daxil edilsin, Dağlıq Qarabağa dövlət statusu verilməsin.

Sabit İnkişaf Partiyasının sədri Ədalət Mədətoğluna görə, Dağlıq Qarabağ məsələsi iki il müddətinə dondurulmalı və bu müddətdə Ermənistanla sülh müqaviləsi bağlanmalıdır, məsələnin həll edilməsinə Almaniya dəvət olunmalıdır. Azərbaycan Xalq Demokratik Partiyasının baş katibi G.Gəncixanlı təklif edir ki, xaricdə yaşayan azərbaycanlılar Azərbaycana qaytarılsın, türk dünyası dövlətlərinin rəhbərləri tərəfindən Azərbaycanın mövqeyinin dəstəklənməsinə nail olunsun.

Demokratik Azərbaycan Dünyası Partiyasının sədri Məmməd Əlizadə hesab edir ki, münaqişənin həllində beynəlxalq təşkilatların rolu gücləndirilməli, BMT-nin Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən qətnamələri, Lissabon sammitində təsbit olunmuş prinsiplər icra edilməlidir. Minsk qrupunun tərkibi dəyişdirilməli və dörd həmsədrdən ikisi xristian, ikisi müsəlman ölkələrindən olmaqla müəyyənləşdirilməlidir.

Milli Məclisin deputatı Şahlar Əsgərova görə, münaqişə qlobal müstəvidən regional müstəviyə keçirilməli, Rusiyanın, Türkiyənin, İranın və Gürcüstanın potensialından münaqişənin həlli üçün istifadə edilməli, "Ayırıcı xətlərsiz Avropa" modeli Qafqaza gətirilməlidir.

Milli Məclisin deputatı Səlahəddin Xəlilov təklif edir ki, münaqişənin mərhələlər üzrə həlli gedişatından və güzəştlərin qarşılıqlı olacağından asılı olaraq, Azərbaycan və Ermənistan arasında diplomatik, iqtisadi və s. əlaqələr qurula bilər. O, azərbaycanlıların yaşadığı Şuşa şəhərinin Dağlıq Qarabağın tərkibindən çıxarılmasını zəruri hesab edir. Laçın dəhlizi müqabilində Mehri dəhlizi ayrılmasını təklif edir. İlk növbədə,

Dağlıq Qarabağ ətrafındakı rayonların əraziləri təmizənməli və əhali öz doğma yerlərinə qayıtmalıdır.

Milli Məclisin deputatı Səttar Mehbalıyev beynəlxalq təşkilatlarda fəaliyyətimizi gücləndirməklə dünyanın aparıcı dövlətləri tərəfindən Ermənistanın təcavüzkar kimi tanınmasına, Ermənistan hərbi birləşmələrinin Azərbaycan torpaqlarından çıxarılması haqqında BMT qətnamələrinin yerinə yetirilməsinə nail olmağı ən mühüm vəzifələr hesab edir. Münaqişə nizamlanana qədər Ermənistanla hər hansı iqtisadi, humanitar, mədəni əlaqələrin qurulmasının yolverilməz olduğunu bildirir.

Milli Məclisin deputatı Mirkazım Kazımov təklif edir ki, xalqların öz müqəddəratını təyin etməsi prinsipi dövlətlərin ərazi bütövlüyü prinsipindən üstün ola bilməz. Onun fikrincə, Dağlıq Qarabağın azərbaycanlı və erməni əhalisinin say nisbəti 1988-ci il vəziyyətinə uyğunlaşdırılmalıdır.

Milli Məclisin deputatı İqbal Ağazadə Azərbaycanla Ermənistan arasında ikitərəfli danışıqların davam etdirilməsi tərəfdarıdır. O da Dağlıq Qarabağın ətrafındakı işğal edilmiş rayonların qeyd-şərtsiz azad olunmasını zəruri hesab edir. Dağlıq Qarabağın sərhədləri boyunca bufer zonası yaradılmalı və bu zonanın təhlükəsizliyi beynəlxalq qüvvələr tərəfindən təmin olunmalıdır. Münaqişənin həllində beynəlxalq təşkilatların rolu gücləndirilməlidir.

Tarix elmləri doktoru Kamran Rəhimovun təqdim etdiyi varianta görə, Şuşanın müstəqil şəhər kimi Azərbaycan Respublikasının tərkibində qalması şərti ilə Dağlıq Qarabağla Zəngəzur dəyişdirilə bilər. Ermənistanın maraqları nəzərə alınmaqla, Zəngəzurda Ermənistan-İran dəhlizi yaradılır. Ermənistandan və Dağlıq Qarabağdan olan qaçqın və məcburi

köçkünlər Zəngəzura, Zəngəzurda yaşayan erməni əhali isə Dağlıq Qarabağa köçürülə bilər. Təklif olunan plana görə, Şuşa və Əsgəran rayonları Azərbaycan Respublikasının tərkibində qalmaqla, Dağlıq Qarabağ Ermənistan Respuiblikasının Mehri və Qafan rayonları ilə dəyişdirilir. Mehri və Qafan rayonları Azərbaycan Respublikasının tərkibinə daxil edilir, Dağlıq Qarabağdan məcburi köçkün düşmüş azərbaycanlılar bu rayonlarda yerləşdirilir. Ərazi dəyişikliyi baş tutmadıqda, Azərbaycanın Naxçıvanla sərbəst nəqliyyat əlaqələrinin təmin edilməsi üçün 1929-cu ilə qədər mövcud olmuş Zəngilan-Mehri-Ordubad dəhlizi bərpa olunmalıdır. Münaqişənin dinc yolla həllinə yönəldilmiş səylər baş tutmazsa, onda hərb variantı qəbul edilməlidir.

Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutunun direktoru Rövşən Mustafayev, Milli Məclisin deputatı Ramiz Əhmədov təklif edirlər ki, Ermənistan tərəfindən insan hüquqlarının pozulması, Ermənistanın işğalçı dövlət kimi tanınması, Ermənistanın özündə insan hüquqlarının pozulması ilə bağlı Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət olunsun. Ramiz Əhmədov həmçinin təklif edir ki, Dağlıq Qarabağda mədəniyyət abidələrinin taleyi barədə YUNESKO-ya, işğal nəticəsində vurulmuş zərərin ödənilməsi haqqında beynəlxalq məhkəməyə müraciət edilsin.

Geologiya-mineralogiya elmləri doktoru Sənan Əlizadənin fikrincə, Aralıq dənizinə qədər çəkiləcək neft borusunun Ermənistan ərazisindən (Mehri rayonundan) və Naxçıvandan keçməsi məqsədəuyğundur. Bu, Ermənistana güclü iqtisadi təsir vasitəsi ola bilər. S.Əlizadə Ermənistan ilə iqtisadi əlaqələrin müəyyən çərçivədə inkişafını məqbul hesab edir. Ermənistana

qaz verilməsinin və dəmir yolu xəttinin açılmasının tərəfdarı olmasa da, iki ölkə sahibkarlarının dialoqunu və heç olmasa, ölkə xaricində müştərək müəssisə yaratmaqla və ya başqa şəkildə əməkdaşlıq etməklə müəyyən iqtisadi əlaqələrin qurulmasını faydalı hesab edir. Azərbaycanda hərbi-sənaye kompleksinin inkişaf etdirilməsini vacib sayan S.Əlizadə bunun Ermənistan ilə danışıqlarda güclü arqument kimi istifadə olunmasının mümkünlüyünə inanır. Lakin münaqişə nizamlanmadığı, prinsipial siyasi məsələlər yoluna qoyulmadığı bir zamanda S.Əlizadənin iqtisadi düşüncələrinin reallaşma ehtimalı, təbii ki, sıfra yaxındır.

İqtisad elmləri namizədi Azər Əmiraslanov "Azərbaycan" qəzetinin 2001-ci il 30-31 mart və 1 aprel tarixli saylarında dərc olunmuş "Azərbaycanın iqtisadi gücü Dağlıq Qarabağ probleminin həllində təsirli vasitə ola bilər" adlı yazıda özünəməxsus fikirlərlə çıxış edir. Onun fikrincə, Azərbaycanın erməni təcavüzünə qarşı mübarizəsi əsasən hərbi gücə deyil, iqtisadi gücə və təzyiqə əsaslanmalıdır. İqtisadi müharibədə Azərbaycanın mövqeyinin getdikcə güclənməsini nəzərə alaraq, onun daha sərt və sistemli bir şəkildə davam etdirilməsi zəruridir. İşğalçı ölkəyə qarşı iqtisadi təzyiqin forma və üsulları müəyyən olunmalı və onun səmərəliliyi artırılmalıdır. Müəllif sübut etməyə çalışır ki, müstəqilliyin elanı ilə Ermənistanda sosial–iqtisadi problemlərin kəskinləşməsi dövrü başlanmışdır və bu proses indi daha da sürətlənmişdir. İşğalçı Ermənistan Azərbaycan torpaqlarını zəbt etməsinin acı nəticələrini yaşamaqdadır. Azərbaycan və Ermənistan iqtisadiyyatının müqayisəli təhlilini verən müəllif təsdiq edir ki, bütün əsas iqtisadi və demoqrafik göstəricilər üzrə ölkəmiz ölçüyəgəlməz

dərəcədə böyük üstünlüklərə malikdir. Bu gün Azərbaycan dünyanın qabaqcıl dövlətlərinin iqtisadi maraqlarını birləşdirə bilmiş regional strateji-iqtisadi mərkəzə çevrilibdir. Təsadüfi deyildir ki, beynəlxalq iqtisadi təşkilatların analitik hesabatlarında Ermənistan iqtisadi cəhətdən perspektivi olmayan ölkələrlə – Tacikistan, Qırğızıstan, Gürcüstanla birlikdə qruplaşdırılaraq təhlil edilir. Müəllif belə nəticəyə gəlir ki, "vaxtilə Dağlıq Qarabağ uğrunda mübarizəyə qalxmış" ermənilər indi yaşamaq uğrunda, öz fiziki mövcudluğunu qoruyub saxlamaq uğrunda mübarizə aparırlar. A.Əmiraslanov belə hesab edir ki, sosial vəziyyəti gərginləşməkdə olan Ermənistan əhalisi vaxt gələcək özü Ermənistan rəhbərliyini işğalçı və separatçı mövqedən çəkinməyə məcbur edəcəkdir. Əks halda Azərbaycan tərəfdən Ermənistana qarşı iqtisadi gücün tətbiqinin davam etdirilməsi işğalçı dövləti sosial partlayış həddinə gətirib çıxaracaqdır.

"Azərbaycan Ensiklopediyası" Nəşriyyat–Poliqrafiya Birliyinin baş direktoru İsmayıl Vəliyev problemin sülh yolu ilə mərhələli həllinə üstünlük verir. Sülh danışıqları zamanı tərəflər ərazi dəyişdirilməsi və qarşılıqlı dəhliz məsələsini qaldırmırlar, hər iki ölkə vətəndaşlarının ölkələrarası gəliş-gedişləri və yük daşımaları beynəlxalq hüquq normalarına uyğun həyata keçirilir. Nizamlanmanın gedişində Dağlıq Qarabağın keçmiş ərazisi əsas götürülməklə bitərəf zona yaradılır, oradan bütün hərbi qüvvələr çıxarılır və təhlükəsizliyə BMT qüvvələri nəzarət edirlər.

Bakı Ali Hərbi Dənizçilik Məktəbinin kafedra müdiri M.Çobanovun fikrincə, ATƏT öz qərarlarının icrasını təmin edə bilmirsə, onun vasitəçilik missiyasından imtina olunmalıdır. Ermənistan BMT qətnamələri və ATƏT-in Lissabon sammitinin

bəyannaməsi ilə razılaşmırsa, Azərbaycan Dağlıq Qarabağ məsələsinin həll edilməsinə heç bir beynəlxalq təşkilatın müdaxiləsinə yol verməməlidir. Tarix elmləri namizədi Ələkbər Ələkbərov və hüquq elmləri namizədi E. Balakişiyeva hesab edirlər ki, Azərbaycan rəhbərliyi Qarabağın azərbaycanlı icmasından partizan hərəkatı yaradaraq, ona milli azadlıq statusu verməli, iqtisadi və maddi yardım göstərməlidir. Eyni zamanda, Qarabağın azərbaycanlı icmasının milli azadlıq hərəkatı işğal olunmuş rayonların azad edilməsi üçün hərbi əməliyyatlarla möhkəmləndirməlidir.

Memarlıq namizədi Elçin Əliyev təklif edir ki, Dağlıq Qarabağ münaqişəsinə Ermənistanla Azərbaycan arasında münaqişə kimi baxmaqdan imtina edilsin, Ermənistanla Azərbaycan arasında qarşılıqlı olaraq, ərazi bütövlüyü və daxili işlərə qarışmamaq prinsipi tanınsın, Dağlıq Qarabağın statusu məsələsinə baxılması 10 il müddətinə təxirə salınsın, gələcək danışıqlar Dağlıq Qarabağın başçısı və Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi arasında aparılsın, Azərbaycanın inzibati-ərazi bölgüsü dəyişdirilsin və təyin olunan və ya seçilən qubernatorlar təsisatı tətbiq edilsin.

**Təklif müəlliflərinin mütləq əksəriyyətinin fikrincə, Dağlıq Qarabağın ətrafındakı rayonların ərazisi qeyd-şərtsiz boşaldılmalı və oradan köçmüş əhali öz yerlərinə qaytarılmalıdır. Lakin müəlliflər bunun necə, hansı şərtlər daxilində reallaşmasının mümkün olduğunu, icra mexanizmini, bir qayda olaraq göstərmirlər.**

Bakı sakini Famil Gözəlov təklif edir ki, Ermənistana və Dağlıq Qarabağa iqtisadi sanksiyaların tətbiq olunması məsələsinə baxılsın. Lakin nədənsə nəzərdən qaçırılır ki,

Ermənistanla və Dağlıq Qarabağla bizim əslində heç bir iqtisadi əlaqələrimiz yoxdur. Milli Məclisin deputatı Asəf Hacıyev, "Təsəlli" Xeyriyyə Cəmiyyətinin sədri Mahizər Xəlilova, Dağlıq Qarabağın azərbaycanlı icmasının nümayəndəsi Qəhrəman Qəhrəmanov Dağlıq Qarabağda olan silahların beynəlxalq müşahidəçilərin iştirakı ilə məhv edilməsini, boşalmış ərazilərin minalardan təmizlənməsini birinci dərəcəli məsələlər kimi irəli sürürlər. Qəhrəman Qəhrəmanov, Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru Mübariz Əhmədoğlu bu fikirdədirlər ki, Qarabağ regionu silahsızlaşdırılmış zona elan edilməlidir. Milli Məclisin üzvləri İqbal Ağazadə, Ramiz Əhmədov, Tovuz rayonunun Qovlar qəsəbəsinin 622 sakini münaqişənin həll edilməsində beynəlxalq təşkilatların rolunun gücləndirilməsini, BMT-nin Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən qətnamələrinin, Lissabon sammitində təsbit olunmuş prinsiplərin icrasının təmin olunması məsələsini qaldırırlar.

Bir çox təkliflərin müəllifləri Dağlıq Qarabağın statusu məsələsində daha qəti mövqedədirlər. Dövlət İqtisad Universitetinin baş müəllimi Nadir Hüseynovun fikrincə, sovet hakimiyyəti illərində Ermənistana verilmiş torpaqlar geri alınmalı, Ermənistandan müxtəlif vaxtlarda sürgün edilən, güclə qovulan adamlar qaytarılaraq, onlara muxtariyyət verilməlidir. Bakı şəhərindən Barat Nuriyev, Mayıl Əliyev, Tovuz sakini Tahir Əsədov, Azərbaycan Kəndli Partiyasının sədri Feyruz Mustafayev təklif edirlər ki, Dağlıq Qarabağ ermənilərinə heç bir status verilməsin, Azərbaycan vətəndaşlığını qəbul edənlərə bütün hüquqlar və təhlükəsizlik təmin olunsun, əks halda, onlar Qarabağdan köçüb getsinlər. Rəssamlar İttifaqı İdarə heyətinin üzvü Elçin Aslanovun fikrincə, dövlətin siyasəti Dağlıq

Qarabağın statusunun müəyyənləşdirilməsi deyil, ermənilərin Azərbaycandan çıxarılması olmalıdır. Dağlıq Qarabağda qeydiyyatda olan ermənilər Azərbaycan vətəndaşlığına dəvət edilsinlər, vətəndaşlığı qəbul etməyənlərə kompensasiya verilsin. Memarlıq namizədi Elçin Əliyev təklif edir ki, Dağlıq Qarabağa Azərbaycanın tərkibində münaqişəyəqədərki status verilsin. Bakı sakini Nəzakət Məmmədova təklif edir ki, Dağlıq Qarabağa dövlət statusu deyil, yalnız yerli özünüidarə hüququ və məhdud muxtariyyət verilsin. Bərdə şəhərindən Kamil Hacıyev, Bakıdan Eybulla Teymurov bu fikirdədirlər ki, Dağlıq Qarabağda təhlükəsizlik və ictimai asayiş Azərbaycan ordusu və polisi tərəfindən təmin edilməlidir.

Bir çox təkliflərin müəllifləri – Dağlıq Qarabağın azərbaycanlı icmasının nümayəndəsi Qəhrəman Qəhrəmanov, “Effekt” firmasının kollektivi, memarlıq namizədi Elçin Əliyev təklif edirlər ki, bütün Qarabağ ərazisi azad iqtisadi zona elan edilsin. Q.Qəhrəmanov həm də təklif edir ki, Aşağı və Yuxarı Qarabağın məsələləri kompleks şəkildə həll olunsun, Dağlıq Qarabağın təsərrüfatını bərpa mexanizmi hazırlansın, regionun əhalisinə imtiyazlar verilsin, Dağlıq Qarabağın azərbaycanlı əhalisinin qaytarılması üçün cədvəl tərtib edilsin. Gəncədən N.Babayev belə hesab edir ki, Dağlıq Qarabağın hakimiyyət strukturları Azərbaycanın dövlət strukturlarına və qanunlarına uyğunlaşdırılmalıdır. Bakı-Ceyhan neft kəmərinin və Transxəzər qaz kəmərinin Ermənistan ərazisindən keçməsi haqqında saziş imzalansın, sərhədlərdə azad ticarət zonaları yaradılsın, dostluq əlaqələri bərpa edilsin. Bakı şəhər sakinləri İsrafil Hüseynov, Famil Gözəlov, Bərdədən Kamil Hacıyev Dağlıq Qarabağla birbaşa danışıqlara başlanmasını, Bakı Ali Hərbi Dənizçilik

Məktəbinin dosenti M.Çobanov heç bir beynəlxalq təşkilatın Ermənistan-Azərbaycan münaqişəsinə müdaxiləsinə imkan verilməməsini vacib sayırlar.

Müəlliflərin bir qismi nəyin bahasına olursa-olsun, Dağlıq Qarabağın erməni işğalından azad edilməsinə, hətta müstəqilliyimizin faktik olaraq itirilməsi bahasına da olsa, Dağlıq Qarabağ üzərində Azərbaycanın suverenliyinin təmin edilməsinə tərəfdar çıxırlar. Bakı şəhər sakini Tofiq Əliyev təklif edir ki, Azərbaycanın və Ermənistanın iştirakı ilə ümumi dövlət yaradılsın və ya Azərbaycan və Ermənistan Rusiyanın tərkibinə daxil olsunlar. Yevlax sakini Fərman Hüseynovun fikrincə, bütün partiyaların fəaliyyəti dayandırılmalı və "hərbi vəziyyət" elan olunmalı, Rusiya ilə ümumi dövlət yaradılmalı, Rusiya ilə Azərbaycan arasında uzunmüddətli hərbi-siyasi müqavilə bağlanmalı, İran və Türkiyə ilə sərhədlərin qorunması Rusiyaya həvalə edilməli, Dağlıq Qarabağa Çeçenistana bərabər status verilməlidir. Bakı şəhərindən İnqilab Vəlizadə təklif edir ki, Azərbaycan Rusiya, İran, Almaniya və ya ABŞ-ın qəyyumluğunu qəbul etsin, Rusiyanın hərbi bazaları Azərbaycanda yerləşdirilsin, Qarabağ bölgəsində xeyli hərbi texnika və canlı qüvvə saxlansın. Ordubad rayonundan Xancan Rzayev bir variant kimi təklif edir ki, Dağlıq Qarabağ BMT tərəfindən idarə edilsin, münaqişə zəminində cinayət törədənlər məsuliyyətə cəlb olunsunlar.

Milli Müqavimət Hərəkatı adlanan qurumun idarə heyəti, Şəmkir rayon baytarlıq idarəsinin kollektivi Ermənistandan köçmüş azərbaycanlıların Ermənistana qaytarılmasını və onlara muxtariyyət statusunun verilməsini tələb edirlər. "Elçibəy Xalq Hərəkatı" qurumunun sədri Hafiz Hacıyev hesab edir ki, Azərbaycanın əzəli torpaqları olan Qərbi Azərbaycan

ərazilərinin geri qaytarılması yolunda əməli fəaliyyətə keçməli, ilk növbədə Qərbi Azərbaycana muxtar respublika statusu verilməsini gündəmə gətirməliyik. Sumqayıt sakini Mayıl Dostuyev Ağdərə rayonunun Laçın rayonu ilə dəyişdirilməsini təklif edir. Texniki Universitetin dosenti Valeh Baxşəliyev daha “original” bir fikir söyləyir. Onun fikrincə, Türkiyənin Qara dəniz sahilindən başlayaraq, Gürcüstanla sərhədi boyunca nazik zolaq şəklində olan ərazisi Ermənistana verilsin, əvəzində Zəngəzur Azərbaycana birləşdirilsin və Qarabağdan bütün ermənilər köçürülsün, Naxçıvan Muxtar Respublikası xüsusi statusla Türkiyəyə birləşdirilsin. Şahbuz qəsəbəsindən Yaşar Qasımovun təklifinə görə Şuşa-Yerevan yolu sərhəd olmaqla Arazdəyən məntəqəsinə qədər Zəngəzur torpaqlarının bir hissəsi, Qafan və Mehri rayonları Azərbaycana, şosenin şimal-qərbi isə Ermənistana verilə bilər. Azərbaycan Memarlar İttifaqının vitse-prezidenti R.Əliyev Dağlıq Qarabağ əhalisinin milli tərkibinə mütənasib olaraq, Dağlıq Qarabağ ərazisində iki muxtar qurum – mərkəzi Şuşa olmaqla Azərbaycana tabe olan və mərkəzi Xankəndi olmaqla Ermənistana tabe olan iki qurum yaratmağı mümkün sayır. Eyni zamanda, BMT-nin himayəsi və müşahidəçilərin, məhdud sülhyaratma kontingentinin nəzarəti altında iki beynəlxalq humanitar dəhliz yaratmağı təklif edir: Ermənistan ərazisində Mehri dəhlizi və Azərbaycan ərazisində yolu təshih etməklə Laçın dəhlizi.

Bakı şəhər sakini Mayıl Əliyev ölkənin daxilində milli birlik yaradılmasını, vətənpərvərlik ruhunun yüksəldilməsi üçün təbliğatın gücləndirilməsini, ümumi səfərbərlik elan edilməsini vacib hesab edir. Şəki şəhərindən Bayram Mahmudov ümumi səfərbərlik elan edilməsini, hərbi əməliyyatlar aparılmasını,

Rusiya ilə hərbi saziş bağlanmasını zəruri sayır. Azərbaycan Memarlıq və İnşaat İnstitutunun müəllimləri Soltanhəmid Rəsulov və Telman Əliyev ali məktəblərdə hərbi kafedraların bərpa olunmasını zəruri hesab edirlər. Texniki Universitetin dosenti Valeh Baxşəliyev Dağlıq Qarabağ ətrafında işğal olunmuş rayonların hərb yolu ilə qaytarılmasının tərəfdarıdır. Azərbaycan Dillər Universitetinin dosenti Gəray Yusifov çeçen və əfqan döyüşçülərindən ibarət muzdlu ordu yaradılmasını, partizan hərəkatının təşkil olunmasını təsirli tədbirlər hesab edir. “İslam –İttihad” Cəmiyyəti işğal olunmuş rayonların əhalisi üçün partizan hərəkatına hazırlıq keçilməsini, partizan müharibəsi taktikası hazırlanmasını, Bakıdan Mayıl Əliyev “Hər şey ordu üçün” çağırışı altında xüsusi proqram hazırlanmasını və bunun üçün büdcə vəsaitindən başqa, imkanlı adamlardan da vəsait cəlb edilməsini vacib hesab edirlər. “İslam-İttihad” Cəmiyyəti Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair müzakirələrin dayandırılmasını, işğal olunmuş ərazilərin hərbi yolla azad edilməsini, Azərbaycanın hərbi doktrinasının və milli ideoloji konsepsiyasının qəbul olunmasını əsas məsələlər kimi irəli sürür.

Bir çox təkliflərin müəllifləri artıq görülmüş işləri də tələb kimi layihələrə daxil edir və bu zaman Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı dövlət rəhbərliyinin fəaliyyəti haqqında tam məlumatsızlıq nümayiş etdirirlər. Bakı şəhərindən Cəlal Əzimov təklif edir ki, bütün müsəlman ölkələrinə Azərbaycanın ərazilərinin işğal olunması bəyan edilsin, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin başçılarına müraciət edilsin. Bu təklifə, sadəcə, ehtiyac yoxdur. Belə ki, İslam Konfransı Təşkilatı artıq Ermənistanın

Azərbaycana təcavüz etməsi faktını qəbul etmiş, Ermənistanı işğalçı dövlət kimi tanımışdır. Bəzi təkliflər isə məna yükündən məhrumdur və onları irəli sürənlər özləri belə, şübhəsiz, onun mahiyyətini başa düşmürlər.

Tovuz rayonundan Rüfət Hüseynov, Naxçıvandan Ağalar Cəlilov düşünürlər ki, Dağlıq Qarabağ probleminin həllinə dair beynəlxalq təşkilatların nümayəndələrindən, diplomatlardan, siyasətçilərdən ibarət Məşvərət Məclisi yaradılmalıdır. Onun statusu nədən ibarət olacaq, hansı məsələləri həll edəcək? – məlum deyildir.

Bakı sakini Şahin Sultanov işğal olunmuş əraziləri ermənilərdən satın almağı təklif edir. Nümunə olaraq, belə bir misal gətirir ki, Gerhard Şröder də Kalininqrad vilayəti əvəzinə Vladimir Putinə Rusiyanın Qərbə olan borclarını ödəməyi vəd etmişdi. Bir çox müəlliflər isə təkliflərinin məzmununu açıqlamaqdan imtina edərək, bu məqsədlə ya Azərbaycan Prezidenti ilə görüşməyi, ya da Milli Məclisin iclasında bir neçə saatlıq çıxış üçün imkan yaradılmasını tələb edir, təkidlə iddia edirlər ki, məhz onlar Azərbaycanı bu bəladan qurtarmağın yollarını bilirlər.

**Gördüyümüz kimi, Azərbaycan Respublikasının ali icra və qanunvericilik orqanlarına əhalinin ən müxtəlif təbəqələrindən ən müxtəlif məzmunlu təklif və layihələr daxil olmuşdur. Təkliflərin təhlili bir daha sübut edir ki, cəmiyyətdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi ətrafında reallıqlara əsaslanan, prosesin bütün mürəkkəbliyini nəzərə alan formalaşmış fikir yoxdur. Eyni ruh bu gün Azərbaycan mətbuatında və elektron kütləvi informasiya vasitələrində**

**tez-tez çıxış edən müxtəlif yönlü ekspert və analitiklərin fikirlərində də öz əksini tapır. Həmin fikir və mülahizələrdə nəzərə alınmayan əsas cəhət ondan ibarətdir ki, bütün dünya ermənilərinin on illərlə hazırladığı və hərtərəfli düşünülmüş plan əsasında, onların dünyada bu məsələyə yardım edən tərəfdarlarının köməyi ilə həyata keçirdikləri "Böyük Ermənistan" ideyasının təzahürü olan bu münaqişə, sadəcə, qonşuların münaqişəsi kimi qiymətləndirilməməlidir. Sözsüz ki, bunun həlli də düşünüldüyü qədər asan və yalnız münaqişə edən tərəflərdən asılı deyildir. İkincisi, Dağlıq Qarabağ problemi Ermənistanın Azərbaycana ərazi iddiası əsasında yaranmış münaqişə olmaqla yanaşı, eyni zamanda, qlobal xarakter alaraq, beynəlxalq güc mərkəzlərinin, böyük dövlətlərin Qafqazda maraqlarının kəsişdiyi və toqquşduğu düyün nöqtəsi, regionun ayrı-ayrı dövlətlərinə təsir və təzyiq mexanizmidir. Müvafiq olaraq, problemin həlli təkcə münaqişəyə cəlb edilmiş tərəflərdən deyil, münaqişənin arxasında duran, onda maraqlı olan qlobal güclərin mövqelərindən asılıdır. Təkliflərdə əksini tapmış reallıqdan uzaq mülahizələr bir daha göstərir ki, müəlliflərin bir çoxu məsələyə bəsit, sadəlövh yanaşma nümayiş etdirirlər.**

**Bununla yanaşı, təklif və layihələrin nəzərdən keçirilməsi belə bir qənaətə gətirir ki, bütün vətənpərvər və vicdanlı Azərbaycan vətəndaşları ölkənin taleyinə son dərəcə məsuliyyətlə, narahatçılıqla yanaşır və onun dinc, firavan və təminatlı gələcəyi barədə düşünürlər. Azərbaycan cəmiyyətinin böyük daxili potensialının, mübarizə əzminin, ruh yüksəkliyinin bir daha şahidi oluruq.**

**Eyni zamanda, verilən təkliflər və layihələrin böyük əksəriyyəti, aparılan təhlillər və sorğular Azərbaycan xalqının böyük hissəsinin münaqişənin hər iki tərəfin həyati maraqlarının qorunması yolu ilə aradan qaldırılmasına tərəfdar olduğunu göstərir. Təklif müəlliflərinin, Azərbaycan vətəndaşlarının böyük əksəriyyəti problemin sülh yolu ilə nizamlanması fikrini dəstəkləyir, lakin eyni zamanda son nəticədə, bütün imkanlar istifadə olunduqdan sonra hərb variantının seçilməsi tərəfdarları üstünlük təşkil edirlər. Təklif müəllifləri problemin həlli üçün həm beynəlxalq hüquqi prosedurlardan maksimum səmərəli istifadə olunmasını, həm də daha çox ölkənin daxili potensialından yararlanmağı, xalqımızın intellektual, kadr resurslarının, iqtisadi gücünün tam hərəkətə gətirilməsini vacib hesab edirlər. Müzakirələr göstərdi ki, Azərbaycan vətəndaşları öz Vətəni, dövləti üçün əllərindən gələni etməyə hazırdırlar, fəal surətdə müstəqil dövlətimizin və milli təhlükəsizliyimizin təəssübünü çəkirlər. Müzakirələr onu da aşkara çıxardı ki, Azərbaycan ictimaiyyətinin əsas hissəsinin düşüncəsinə görə, etibarlı və davamlı olması üçün nizamlama ədalət, qarşılıqlı güzəşt və kompromislər prinsiplərinə söykənməlidir. Sülh ədalətli olmalıdır, əks halda, iki dövlət və xalq arasında total qarşıdurma, kəskin iqtisadi, diplomatik, informasiya, psixoloji mübarizə davam edəcəkdir. Azərbaycan xalqı onun suverenliyinə və köklü mənafelərinə zərər vuran heç bir prinsipsiz sövdələşməni qəbul etməyəcəkdir.**

**Milli Məclisdəki müzakirələrdə, təqdim olunan təkliflərdə və kütləvi informasiya vasitələrində gedən yazılarda və**

**çıxışlarda belə bir vacib fikir də irəli sürülür ki, beynəlxalq hüququn fundamental prinsiplərinə və normalarına, BMT Nizamnaməsinə uyğun olaraq, dövlətlərin ərazi bütövlüyü, onların sərhədlərinin toxunulmazlığı dönmədən təmin edilməlidir.**

**Azərbaycan xalqının geniş təbəqələri, qabaqcıl ictimaiyyət, ziyalılar, elm, mədəniyyət xadimləri ABŞ rəhbərliyinin təşəbbüsü ilə Azərbaycan və Ermənistan prezidentlərinin 2001-ci il aprelin 3-də başlanmış Ki Uest görüşlərinə böyük ümidlər bəsləyir, inanmaq istəyirlər ki, beynəlxalq hüququn əsas prinsiplərinə, dövlətlərin və xalqların hüquq bərabərliyinə təminat olan böyük dövlətlər münaqişənin ədalətli həlli yollarının tapılmasına ciddi cəhdlər göstərəcək və nəticədə hər iki tərəfin həyati maraqlarına cavab verən, ədalətli nizamlanma variantı ortaya çıxarılacaqdır.**

**Təkliflərin və çıxışların mütləq çoxluğunda münaqişənin həlli yolunda Azərbaycan Prezidenti cənab Heydər Əliyevin apardığı siyasi xətt, onun ardıcıl, məqsədyönlü fəaliyyəti qızğın bəyənilir, bu siyasətin gec–tez öz müsbət nəticələrini verəcəyinə dərin inam ifadə edilir.**

*"Azərbaycan" qəzeti,*
*5 aprel 2001-ci il.*

## İCRA ORQANLARI RƏHBƏRLƏRİNİN İŞTİRAKI İLƏ MÜŞAVİRƏ

Martın 26-da Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri Ramiz Mehdiyevin yanında Prezident Aparatının, Nazirlər Kabinetinin, nazirlik, komitə və şirkətlərin, digər icra orqanları rəhbərlərinin iştirakı ilə müşavirə keçirilmişdir.

Müşavirədə Azərbaycan Prezidentinin "XXI əsrin, üçüncü minilliyin qarşılanması ilə bağlı tədbirlərin həyata keçirilməsi haqqında" 2000-ci il 26 dekabr tarixli Sərəncamından və "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onuncu ildönümü haqqında" 2001-ci il 20 mart tarixli Fərmanından irəli gələn vəzifələr və onların icrası məsələləri müzakirə edilmişdir.

Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev dövlətimizin başçısı Heydər Əliyevin imzaladığı bu sənədlərin əhəmiyyətindən, onların icrası sahəsində qarşıda duran vəzifələrdən danışaraq demişdir ki, Azərbaycanın müstəqilliyinin on illik yubileyi xalqımızın həyatında, dövlətçiliyimizin tarixində ən önəmli hadisələrdəndir. Prezident Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti sayəsində müstəqil, suveren bir dövlət kimi Azərbaycan dünya birliyi tərəfindən tanınır və qəbul edilir, nüfuzlu beynəlxaq təsisatların bərabərhüquqlu üzvüdür. Son əsrdə ikinci dəfə əldə edilmiş dövlət müstəqilliyimiz artıq dönməz və əbədidir.

O bildirmişdir ki, görkəmli dövlət xadimi Prezident Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində respublikamızda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində cəsarətlə və uğurla həyata keçirilən islahatlar öz gözəl bəhrələrini vermiş, qabaqcıl dünya təcrübəsində sınaqdan çıxmış və xalqımızın milli xüsusiyyətlərinə uyğun olan demokratik prinsiplər, insan hüquq və azadlıqlarının qorunması, çoxpartiyalı sistem, siyasi plüralizm ictimai həyatımızın gündəlik normasına çevrilmiş, müstəqil Azərbaycan Respublikası Avropa Şurasına tam hüquqlu üzv qəbul edilmişdir.

Daha sonra İcra Aparatının rəhbəri Azərbaycan Prezidentinin adı çəkilən sərəncamı və fərmanı ilə təsdiq olunmuş geniş tədbirlər planından danışmış, bunların icrası ilə bağlı tövsiyələrini söyləmişdir.

Baş nazirin birinci müavini Abbas Abbasov, Baş nazirin müavinləri Elçin Əfəndiyev, Əli Həsənov, mədəniyyət naziri Polad Bülbüloğlu, ticarət naziri Hüseynqulu Bağırov, Dövlət Statistika Komitəsinin sədri Arif Vəliyev, Dövlət Teleradio Şirkətinin sədri Nizami Xudiyev, xalq yazıçısı, Yazıçılar Birliyinin sədri Anar, Prezidentin İcra Aparatının xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov, “Azərbaycan Ensiklopediyası” Nəşriyyat-Poliqrafiya Birliyinin baş direktoru İsmayıl Vəliyev və başqaları çıxış edərək, Prezident Sərəncamı və Fərmanının icrası ilə bağlı öz mülahizələrini bildirmişlər.

Ramiz Mehdiyev müşavirəyə yekun vurmuş, əlaqədar qurumların rəhbərlərinə müvafiq tapşırıqlar vermişdir.

*“Azərbaycan” qəzeti,*
*27 mart 2001-ci il.*

## "AZƏRBAYCAN 1993. ANARXİYADAN SABİTLİYƏ" KİTABININ TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞ

– Hörmətli xanımlar və cənablar!

Hörmətli mərasim iştirakıçıları!

Azərbaycan bu il öz dövlət müstəqilliyinin 10 illik yubileyini geniş qeyd edəcəkdir. Müstəqillik illərində keçdiyimiz, tarixi taleyimiz baxımından çox böyük əhəmiyyətə malik yola bir daha nəzər salınacaq, nailiyyətlərimiz, qələbələrimizlə yanaşı, çətinliklərimiz və problemlərimiz də təhlil edilib müvafiq qiymətini alacaqdır. Keçdiyimiz yol, əldə etdiyimiz təcrübə isə gələcəyə yönəlmiş planlarımızın hazırlanması və həyata keçirilməsində nəzərə alınacaq, strateji məqsədlərə nail olmaqda bizə yardımçı olacaqdır.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onuncu ildönümü münasibətilə ölkəmizin Prezidentinin 2001-ci il martın 20-də imzaladığı Fərmanla təsdiq olunmuş yubiley tədbirləri planı bir çox mərasimlərin keçirilməsini nəzərdə tutur. "Azərbaycan 1993. Anarxiyadan sabitliyə" kitabının bugünkü təqdimatı da həmin tədbirlərdən biri sayıla bilər.

Kitabın yarımbaşlığından göründüyü kimi, Azərbaycanın müasir tarixində 1991-1992-ci illər və 1993-cü ilin birinci yarısı anarxiya dövrü kimi səciyyələndirilmişdir. Həmin dövrdə hökm sürən hərc-mərclik, səriştəsiz adamların məsul dövlət vəzi-

fələrinə gətirilməsi, ziddiyyətli daxili və xarici siyasət, bəzən xəyanət həddinə çatan özbaşınalıq ölkəmizi olduqca mürəkkəb vəziyyətə salmışdı. Bu dövrdə Azərbaycan ağır itkilər vermişdi. Ermənistanın hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağın itirilməsi, Qarabağda mühüm strateji məntəqə, Azərbaycan tarixində təkrarsız yeri olan zəngin mədəniyyət ocağımız Şuşanın erməni qəsbkarları tərəfindən işğal edilməsi vəziyyəti daha da ağırlaşdırdı və gərginləşdirdi.

Bu gün, yəni mayın 8-i Şuşanın işğalının 9-cu ildönümünə təsadüf edir. Fürsətdən istifadə edərək, Şuşanın müdafiəsi zamanı həlak olmuş soydaşlarımızın, ümumiyyətlə, ölkəmizin ərazi bütövlüyü və müstəqilliyi uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etməyinizi xahiş edirəm.

Allah şəhidlərimizə rəhmət eləsin!

Hörmətli xanımlar və cənablar!

Müstəqillik illərində məruz qaldığımız itkilər nə qədər üzücü, ağrılı olsa da, müstəqil inkişaf yolunda qazandığımız uğurlar və nailiyyətlər də az olmamışdır. Həmin uğurların təməli 1993-cü il iyunun 15-də xalqımızın böyük oğlu, dünya şöhrətli siyasətçi, müdrik dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin xalqın dəstəyi nəticəsində Azərbaycanda ali rəhbərliyə qayıdışı ilə qoyulmuşdur. Əgər Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsindən 1993-cü il iyunun 15-nə qədərki təxminən bir il səkkiz aylıq dövrünü ölkəmizin müasir tarixində "ən faciəli mərhələ, misli görünməmiş hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü" adlandırsaq, heç də yanılmarıq. Artıq bu, xalqın əksər hissəsi

tərəfindən qəbul olunmuş aksiomdur. Bu gün tam qətiyyətlə deyə bilərik ki, vətəndaşların köklü mənafelərinə, istək və arzularına zidd, məqsəd və məramı aydın olmayan gənc, müstəqil dövlət üçün böyük təhlükə törədən siyasətə 1993-cü il iyunun 15-də müstəqil Azərbaycan Respublikasının tarixində birdəfəlik son qoyuldu.

Təqdimat mərasiminə toplaşdığımız “Azərbaycan 1993. Anarxiyadan sabitliyə” kitabı da bizi ölkəmizin tarixinin həmin həyəcanlı, taleyüklü günlərinə aparıb çıxarır və Azərbaycan dövlətçiliyinin qorunması, müstəqil, demokratik, hüquqi dövlət quruculuğu prosesinin təməlinin qoyulması yolunda atılmış ilk addımları bir daha gözlərimiz qarşısında canlandırır.

Kitabda 1993-cü ilin iyun-dekabr aylarında ölkədəki ictimai-siyasi vəziyyət, respublika rəhbərliyinə qayıtdıqdan sonra Azərbaycan Respublikası Ali Sovetinin sədri, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edən və nəhayət, Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyevin həmin dövrdəki çoxcəhətli fəaliyyəti öz əksini tapmışdır. Kitabda Heydər Əliyevin 1993-cü ildəki ən mühüm çıxış və müsahibələrinin mətnləri, bir sıra görüşləri haqqında materiallar, imzaladığı rəsmi sənədlər dərc olunmuşdur.

1993-cü ilin iyun ayında hakimiyyətə qayıdan Heydər Əliyev son dərəcə çətin və ziddiyyətli bir dövrdə dövlətə rəhbərliyi öz üzərinə götürməyə məcbur oldu: Gəncədə silahlı çıxış, cənubda Əlikram Hümbətovun elan etdiyi “Talış-Muğan Respublikası”, ölkənin başqa bölgələrində separatçı hərəkatlar, Ermənistanın hərbi təcavüzü, ölkədaxili silahlı hakimiyyət mübarizəsi, anarxiya ilə bərabər, ölkə iqtisadiyyatı talan edilib dağıdılmışdı, milli

valyuta sürətlə inflyasiyaya uğrayırdı, əhalinin sosial vəziyyəti getdikcə pisləşirdi. Azərbaycan beynəlxalq aləmdən təcrid olunmuş bir vəziyyətdə idi. Bir sözlə, ölkəmiz o zamankı rəhbərliyin səriştəsizliyi, ziddiyyətli, qeyri-ardıcıl siyasəti nəticəsində dərin siyasi, sosial–iqtisadi böhran içərisində, uçurum astanasında idi. Müstəqilliyin itirilməsi, dövlətin məhvolma təhlükəsi artıq real xarakter almışdı. Azərbaycan Respublikasının 1993-cü ilin iyun ayına olan vəziyyəti məhz belə faciəli idi.

Yaranmış belə bir son dərəcə təhlükəli şəraitdə xalq inanırdı ki, ölkənin uçuruma yuvarlanmasının qarşısını almağa, müstəqilliyi qoruyub saxlamağa, məcrasından çıxmış işləri öz təbii axarına salmağa, bu ağır məsuliyyətin altına girməyə bütün fəaliyyəti ilə xalqın dərin inamını qazanmış, ən mürəkkəb problemlərin həllində öz misilsiz bacarıq və qabiliyyətini dəfələrlə sübut etmiş Heydər Əliyev qadirdir.

Həmişəki kimi, tarix bu dəfə də xalqın seçiminin düzgün olduğunu bir daha təsdiq etdi.

Heydər Əliyevin yenidən rəhbərliyə qayıdışı – 15 iyun 1993-cü il tarixə Milli qurtuluş günü kimi daxil oldu. Bu, tarixi inkişafın qanunauyğunluğu, təbii-tarixi prosesin nəticəsi olub, müasir Azərbaycanın müstəqillik yolu ilə hərəkətində dönüş nöqtəsi idi.

Ümummilli problemlərin müvəffəqiyyətli həlli üçün hakimiyyətin və ölkənin əsas siyasi qüvvələrinin dialoqu son dərcə vacibdir. Bu məqsədlə Heydər Əliyev 1993-cü ilin noyabrında ölkənin siyasi partiyaları və ictimai hərəkatlarının rəhbərləri ilə görüş keçirdi, onları Azərbaycanın bütövlüyü, birliyi, ümummilli maraqları naminə əməkdaşlığa dəvət etdi.

Heydər Əliyev sonralar bu məsələyə münasibətini belə açıqlamışdı: "Mən 1993-cü ildə hakimiyyətə gələndə heç kəsə fərq qoymadım. Hətta məndən öncə, keçmiş hakimiyyət dövründə işləyən adamların çoxunu da işdə saxladım. Azərbaycan Prezidenti kimi mən bu gün də dövlət işində işləməyə və dövlətə, cəmiyyətə fayda verməyə qadir olan hər bir insanı dövlət, hökumət işinə cəlb etməyə hazıram".

Heydər Əliyevin 1993-cü ilin iyun ayında hakimiyyətə qayıdışı təkcə xalqın deyil, həm də zamanın tələbi idi. Heydər Əliyevin dövlət zəkası və uzaqgörənliyi, çox böyük səyləri sayəsində ölkəmizdə yaratdığı sabitlik Azərbaycan tarixinə siyasi təcrübənin klassik nümunəsi kimi daxil olacaqdır.

Həmin tarixi andan başlayaraq xalqda öz gücünə, müstəqilliyinin dönməzliyinə inam artdı. Heydər Əliyevin ətrafında toplanan xalqımızın qabaqcıl, mütərəqqi, sağlam qüvvələri, sadə insanlar ruh yüksəkliyi ilə ölkənin daxili və xarici problemlərini həll etməyə, dövlət və cəmiyyət işlərində nizam yaratmağa başladılar. Dağıdıcılıq, anarxiya, xaos quruculuq mərhələsi ilə əvəz edildi, elmi əsaslarla, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. O zamandan Azərbaycanda silahlı yolla hakimiyyətə gəlmək cəhdlərinə birdəfəlik son qoyuldu, ölkədə möhkəm, etibarlı sabitlik təmin edildi.

1993-cü ilin ictimai-siyasi hadisələri bir daha təsdiq etdi ki, xalqın istək və iradəsini heç nə ilə – yalan və şantajla, silah və zor gücünə qırmaq mümkün deyildir.

Hakimiyyətə qayıdışından sonra Prezidentin var qüvvə ilə həllinə girişdiyi ən mühüm məsələlərdən biri də ərazi

bütövlüyümüzün möhkəm qorunmasına zəmanət verən güclü ordu yaradılması idi. Bu məqsədlə o, 1993-cü il noyabrın 2-də xalqa müraciət edərək, Milli Ordu quruculuğu sahəsində həlli vacib olan məsələləri müəyyənləşdirdi. Bu gün inamla deyə bilərik ki, Azərbaycanın dövlət müstəqilliyini qorumağa qadir olan belə bir ordumuz vardır.

Heydər Əliyev tezliklə sübut etdi ki, özünü "milli–demokratik" qüvvələr adlandıran pafoslu ifadə həvəs-karlarından və meydan "qəhrəmanlarından" fərqli olaraq, ölkənin milli mənafelərini də, müstəqilliyini və demokratik inkişafını da məhz o təmin etməyə qadirdir. Bu zaman o, dövlətçiliyimiz və müstəqilliyimiz naminə cəsarətli və bir çox hallarda ilk baxışdan populyar olmayan qərarlar qəbul edirdi. 1993-cü ilin sentyabrında məhz onun təşəbbüsü ilə Müstəqil Dövlətlər Birliyinə daxil olmaq haqqında qərar qəbul edildi. O vaxt hakimiyyətin opponentləri bunu müstəqilliyin itirilməsi kimi, SSRİ-nin bərpası yolunda atılmış addım kimi qiymətləndirməyə cəhd edirdilər. Lakin hadisələrin sonrakı inkişafı göstərdi ki, ölkə başçısı yeganə düzgün, optimal qərar qəbul etmişdir.

O, bu qərarla keçmiş SSRİ respublikaları ilə iqtisadi-mədəni əlaqələri qoruyub saxladı, eyni zamanda, dövlət müstəqilliyinə xələl gətirə bilən heç bir müqaviləyə qoşulmadı.

Tarixdə şəxsiyyətin rolu haqqında çoxlu araşdırmalar aparılıb, çox fikirlər söylənib, sözlər deyilibdir. Bir sıra tədqiqatçılar şəxsiyyətin tarixdə oynadığı rolu ümumiyyətlə, inkar edir, bəziləri isə bu rolu süni şəkildə şişirdirlər. Bu və ya digər ölkənin rəhbərlərinin, siyasi liderlərinin, görkəmli

şəxsiyyətlərinin tarixdə oynadığı rolun əhəmiyyəti və miqyası həmin ölkənin yaşadığı konkret şəraitlə, orada gedən proseslərlə sıx bağlı olur. Öz taleyüklü problemlərini həll edərək sabit, rəvan inkişaf yolu ilə irəliləyən ölkələrdə bir liderin başqa birisi ilə əvəz olunması ölkənin siyasi mənzərəsini bir o qədər dəyişmir, proseslərə ciddi təsir göstərmir. Kəskin ziddiyyətlər, faciəli proseslər, dərin kataklizmlər içərisində çabalayan ölkənin taleyüklü anında ona hansı şəxsiyyətin rəhbərlik etməsi isə onun tarixi-siyasi taleyində həlledici rol oynayır.

Müstəqillik yoluna yenicə qədəm qoymuş, xarici və daxili siyasətinin əsas prinsipləri hələ müəyyən edilməmiş, ziddiyyətlərin kəskinləşdiyi bir zamanda, acınacaqlı vəziyyətə düşmüş Azərbaycan üçün bu, xüsusilə böyük əhəmiyyət kəsb edirdi.

Heydər Əliyevlə uzun müddət birlikdə işləmiş insan kimi deyə bilərəm ki, ən mürəkkəb vəziyyətlərdə düzgün qərar çıxarmaq, ağır və çətin problemlər içərisindən ən vacib və təxirəsalınmaz olanları müəyyənləşdirib həll etmək, qarşıya ümdə vəzifələr qoyaraq, onların yerinə yetirilməsi üçün iradə və əzmkarlıq göstərmək, öz kəsərli sözü, dəmir məntiqi ilə hamını bu yolda səfərbər etmək qabiliyyətinə bu qədər yüksək səviyyədə sahib olan şəxsiyyətə tarixdə nadir hallarda rast gəlmək mümkündür. Bu gün təqdim olunan kitab, Heydər Əliyevin 1993-cü ildə yarımillik gərgin və çoxşaxəli fəaliyyəti haqqındakı materiallar, sözün əsl mənasında, öz əməli işləri ilə bu tarixi yaradan şəxsiyyətin obrazını gözümüz qarşısında canlandırır.

Bu gün biz iftixar hissi ilə qeyd edirik ki, Azərbaycanın müstəqilliyi dönməz xarakter almış, ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməli qoyulmuş, həyatımızın bütün sahələrində köklü dəyişikliklər və dərin islahatlar həyata keçirilmiş, Azərbaycan dünya birliyinin ayrılmaz tərkib hissəsinə çevrilmiş, böyük beynəlxalq nüfuz qazanmışdır.

Ölkə başçısının xalqı məqsədyönlü şəkildə səfərbər etmək bacarığı o dövrdə Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etdi, böyük müdriklik və təmkinlə ölkəmizi addım-addım, yüksələn xətlə sabit, siyasi, ictimai və iqtisadi inkişaf yoluna çıxardı.

Tarixin dərsləri dəfələrlə əməli şəkildə sübut etmişdir ki, istiqlaliyyəti qoruyub saxlamaq onu əldə etməkdən qat-qat çətindir. Elə 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətindən çıxarılan nəticələr də bu fikri bir daha təsdiq edir. Dövlət idarəçiliyi təcrübəsinin və ümummilli liderin olmaması, Azərbaycan dövlətçiliyinin daxili və xarici düşmənlərinə qarşı mübarizədə qətiyyətsizlik və məsuliyyətsizlik, digər amillərlə birlikdə, müsəlman Şərqində ilk dünyəvi respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna səbəb oldu.

1993-cü ilin iyununda Azərbaycan Respublikası da onu öz sələfinin uğursuz aqibətinə gətirib çıxara biləcək bir acınacaqlı vəziyyətlə üzləşmişdi.

Bu gün Azərbaycanda bərqərar olmuş demokratiyanın imkanlarından öz siyasi maraqlarına uyğun şəkildə faydalanan bir çox “siyasətçilər”, anarxiya və xaos ideologiyası və psixologiyasının daşıyıcısı olan qüvvələr, təəssüflər olsun ki,

1993-cü il hadisələrini kobudcasına təhrif edir, bunları öz maraqları və şəxsi ambisiyaları prizmasından şərh etməyə cəhd göstərirlər.

Kitabda toplanmış sənədlər, ilk növbədə inkaredilməz şəkildə belə bir həqiqəti açıqlayır ki, Azərbaycanın o vaxtkı rəsmiləri həm xalqın tələbi ilə, həm də düşdükləri çıxılmaz vəziyyətdə "nə etməli?" sualı qarşısında acizliklərini nümayiş etdirərək, Heydər Əliyevi təkidlə hakimiyyətə dəvət etdilər. Belə ki, Gəncə hadisələri, qardaş qanının axıdılması, cənubda və şimalda baş alıb gedən separatçılıq ölkədə genişmiqyaslı real vətəndaş müharibəsi təhlükəsinin dolaşdığını göstərirdi. O dövrdəki iqtidar da Heydər Əliyevə məhz elə bir vaxtda müraciət etdi ki, artıq bütün hakimiyyət strukturları iflic vəziyyətinə düşmüş, mövcud idarəetmə daxilində mübarizə, qarşılıqlı ittihamlar silahlı qarşıdurma həddinə çatmışdı.

"Azərbaycan 1993. Anarxiyadan sabitliyə" kitabı ölkəmizdə müstəqil dövlət quruculuğunun təməl daşlarının qoyulması prosesini əks etdirir, bugünümüzə və Azərbaycanın gələcəyinə uzanan şərəfli yolun çıxış nöqtəsini, mənbəyini göstərir. Məhz 1993-cü ilin ikinci yarısında daxili və xarici siyasətdə görülmüş əməli işlər, həyata keçirilmiş qətiyyətli tədbirlər sayəsində dövlət quruculuğunda şüarçılıq, avantürizm və məsuliyyətsizlik praktikasına birdəfəlik son qoyuldu. Müstəqilliyimiz və suverenliyimiz real məzmun kəsb etməyə başladı. Bu gün tam qətiyyətlə deyə bilərik ki, Azərbaycan dövləti güclüdür, möhkəmdir, müstəqillik və demokratik inkişaf yolumuz dönməz və əbədidir. Möhtərəm Prezidentimizin dərin zəkası, müdrik siyasəti, parlaq şəxsiyyəti ilə Azərbaycan tarixində açdığı bu

yolun yolçuları olmaqdan hər birimiz böyük şərəf və qürur hissi keçiririk. Biz inanırıq ki, xalqımız öz Prezidentinin başçılığı ilə Azərbaycanın müstəqilliyinin, suverenliyinin möhkəmləndirilməsi və ərazi bütövlüyünün qorunması, azad, firavan həyata qovuşması yolunda mövcud olan bütün problemləri həll edəcəkdir.

*"Xalq qəzeti",*
*11 may 2001-ci il.*

# TARİXDƏ ŞƏXSİYYƏTİN ROLU MƏSƏLƏSİNƏ DAİR

*(1993-cü ilin hadisələri prizmasından baxış)*

**Azərbaycanın XX əsr tarixi müxtəlif hadisələrlə zəngin olmuşdur. Tariximizin şanlı səhifələri az olmamış, lakin dəhşətli və sarsıdıcı məqamlar da bizdən yan keçməmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu, xalqımıza qarşı əsrin əvvəlində və sonunda törədilmiş soyqırımları, 1930-50-ci illərin repressiyaları, erməni təcavüzü, milyondan artıq qaçqın və məcburi köçkünlərin mövcudluğu, 1980-ci illərin sonu – 1990-cı illərin əvvəlində səngiməyən hakimiyyət mübarizəsi, etnik, kriminal “liderlərin” və klan “liderlərinin” meydana çıxması, iqtisadiyyatda və sosial sahədə dərin böhran, Azərbaycanın cənubunda və şimalında yeni separatizm ocaqlarının yaranması, ölkənin vətəndaş müharibəsi həddində olması, hakimiyyət hərisləri AXC-Müsavat cütlüyünün diletantlığı, böyük dövlətlərin Azərbaycana ikili standartlar münasibəti və ölkəni geosiyasi oyunların səhnəsinə çevirməsi amilləri uzaq tariximizin hadisələri deyildir. Azərbaycan bu və digər mürəkkəb və ziddiyyətli proseslər içərisində yaşayaraq, məhv olmaq həddinə çatmışdı.**

**Ölkə tarixinin bu çətin və keşməkeşli dövründə – 1993-cü il iyun ayının 15-də Heydər Əliyev Azərbaycan**

**Respublikası Ali Sovetinin sədri seçildi. Bu vaxtdan etibarən yeni tarixi mərhələ başlayır, cəmiyyətin çaşqınlıq, qeyri-müəyyənlik və anarxiyadan qurtuluşunun bünövrəsi qoyulur. Ölkə məhv olmaqdan xilas oldu. Təcrübəli siyasətçi və strateq Heydər Əliyev kimi şəxsiyyətin dövlət rəhbərliyinə qayıdışı millətin müasir sivilizasiya istiqamətində dinamik inkişafını təmin etdi. Azərbaycan müharibə, satqınçılıq, fitnə-fəsad, dağıdıcılıq ideologiyasından qurtularaq quruculuğa, yaradıcılığa, məntiqə və dərrakəyə söykənən və uğurlu gələcəyə aparan magistral yola çıxdı.**

**Həyat və sosial təcrübə belə bir danılmaz həqiqəti bir daha sübut etdi ki, yalnız liderlik xüsusiyyətləri və zəngin idarəçilık təcrübəsi olan şəxsiyyət xalqı ümummilli məqsədlərin həlli naminə birləşdirərək müstəqilliyin çətin, lakin şərəfli yolu ilə irəliyə doğru apara bilər.**

**Lakin nəticələr barədə tələsməyək. Şəxsiyyətin tarixdə yeri və rolu problemini hər cür ehkamçılıqdan və ifrat inkarçılıqdan uzaq olaraq, konkret tarixi zaman çərçivəsi və konseptual əsaslar baxımından daha geniş, hərtərəfli təhlil edək.**

## ANTİİDARƏÇİLİK KONKRET TƏZAHÜRLƏRDƏ QISA XRONOLOGİYA

1992-ci il may ayının 17-də hakimiyyəti güc ilə ələ keçirərək, AXC iqtidarı Azərbaycan xalqının taleyini ciddi təhlükələr qarşısında qoydu. Xalqı boş vədlərlə aldadan, ölkəni xaos və anarxiyaya sürükləyən, insanların, vətəndaşların şüurunda

çaşqınlıq və gərəksizlik sindromu yaradan AXC-Müsavat cütlüyünün birillik hakimiyyəti dövründə baş vermiş hadisələrin əsl mahiyyətini, dövlətimizə və millətimizə qarşı çevrilmiş təhlükələrin dərəcəsini zaman keçdikcə daha çox dərk etməyə başlayırıq. İdarəçilikdə hər gün səhv addımlarla, yanlış qərarlarla dolu olan bu dövr ölkəni, milləti böyük bir faciəyə doğru sürükləyirdi.

Fikirlərimizi əsaslandırmaq üçün həmin faciəli anları, qısa da olsa, bir daha nəzərdən keçirək.

**15 may 1992-ci il.** Müdafiə naziri R.Qazıyev Özbəkistanın paytaxtı Daşkənddə MDB dövlətləri müdafiə nazirlərinin yığıncağında silahların sayına kvotanın qoyulması haqqında cinah sazişinə imza atır. Azərbaycan daha geniş əraziyə və daha çox əhaliyə malik olduğuna baxmayaraq, bu sənədlə onun Ermənistan və Gürcüstan ilə eyni sayda silaha malik olması nəzərdə tutulurdu. Düşünülməmiş və milli maraqlara əsla uyğun olmayan bu addım müharibə aparan dövləti süni şəkildə düşmən ilə bərabər vəziyyətə salmaq idi. Ağır silahların sayına kvotanın qoyulması, milli ordunu "cəbhəçi" siyasətbazların əllərində alətə çevirmək istəyi və ordu quruculuğundakı tam durğunluq güclü Milli Ordunun yaranmasını mümkünsüz etmişdi.

**16 iyun.** Milli Məclisin sədri İsa Qəmbər Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasimini cəmi 1 gün gözləməyərək, ölümə məhkum olunmuş 7 nəfərin bağışlama vəsatətlərini, əslində buna səlahiyyəti olmadığı halda, rədd etmiş və hökmün icrası barədə fərmanlar imzalamışdır.

**2 iyul.** Prezident Əbülfəz Elçibəy Surət Hüseynovu Prezident idarə üsulu tətbiq edilən ərazidə Prezidentin fövqəladə səlahiyyətli nümayəndəsi təyin edir. Beləliklə, Ermənistan-

Azərbaycan münaqişəsinin müqəddəratı müəmmalı və mafioz imicə malik bir şəxsə həvalə edilir. AXC hakimiyyəti "yun polkovniki"nin gələcək siyasi iddialarının yaranması üçün ilk addım atır.

Həmin gün Ə.Elçibəy Surət Hüseynovun Baş nazirin müavini təyin edilməsi haqqında da Fərman imzalayır. Surət Hüseynovun hərbi-siyasi hakimiyyət iddialarının artması üçün ona daha bir hədiyyə edilir. Qarabağın gələcək "xilaskarı" artıq tam miqyasla fəaliyyətə başlaya bilərdi.

Türkiyə ictimaiyyətinin nümayəndələri, elm və mədəniyyət xadimləri, işgüzar dairələrinin nümayəndələri ilə görüşündə Azərbaycan Respublikasının Prezidenti Ə.Elçibəy xarici siyasət haqqında mülahizələrini belə formalaşdırmışdır: "İran, Hindistan və Çin imperiyaları da dağıdılmalıdır və dağıdılacaqdır".

**30 iyul.** Azərbaycan Respublikasının Prezidenti Ə.Elçibəy ölkədə ictimai-siyasi vəziyyətə və Prezident Aparatının əsas vəzifələrinə həsr olunmuş görüşdə AXC-Müsavat iqtidarının idarəçilik qabiliyyəti haqqında danışarkən deyirdi: "...Prezident Aparatının hələ quruluşu nədir, strukturu nədir, nə cür işləməlidir – özüm də yaxşı bilmirəm, hələ öyrənirəm... Kadrlar təzədir, bir şey bilmirlər...".

**İyul-avqust.** 820 nömrəli hərbi hissənin komandiri Əlikram Hümbətov Astara magistral yolunun üstündə postlar yaradır. Ə.Hümbətovun əsgərlərinin özbaşınalığı nəticəsində bir neçə mülki şəxs qətlə yetirilir. Müxtəlif dövlətlərin niyyətini həyata keçirərək, Azərbaycanı parçalamaq iddiasında olan Ə.Hümbətov "Talış-Muğan Respublikası"nın yaradılması haqqında bəyanatlar verir.

1991-ci illə müqayisədə 1992-ci ildə respublikada qeydə alınan cinayətlərin sayı böyük sürətlə – 43,8 faiz artaraq 15.617-dən 22.459-a, ağır cinayətlərin sayı isə iki dəfədən çox artaraq 6.009-a çatır.

**3 avqust.** Dövlət müşaviri A.Hacıyev rayon, şəhər icra hakimiyyəti başçıları ilə keçirilən müşavirədə idarəçiliyin fəlsəfəsini xarakterizə edərək deyirdi: "...yerdə birinci adam olmasına baxmayaraq, icra başçısı bir çox hallarda öz vəzifələrinin öhdəsindən gələ bilmir. Prokuror öz hakimiyyətini yeridir rayonda, polis rəisi öz hakmiyyətini yeridir, milli təhlükəsizlik nazirinin nümayəndəsi öz hakimiyyətini yeridir...".

**16 sentyabr.** Prezident Ə.Elçibəy "Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və entik qrupların hüquq və azadlıqlarının qorunması, din və mədəniyyətinin inkişafı üçün dövlət yardımı haqqında" Fərman imzalayır. Qarabağ müharibəsinin ən qızğın dövründə, ölkədə separatçılıq meyilləri tüğyan etdiyi bir vaxtda bu sənədin qəbul olunması və diqqəti əsas problemdən yayındıraraq, bu məsələnin qabardılması düşünülmüş addım kimi qiymətləndirilə bilməz.

**18 sentyabr**. Azərbaycan Respublikasının "Dini etiqad haqqında" Qanunu qəbul olundu. Qanunda mövcud olan boşluqlar qısa müddət ərzində Azərbaycanı parçalamaq və əhalini xristianlaşdırmaq məqsədi güdən sektant missioner təşkilatlarının aktiv fəaliyyəti üçün geniş şərait yaratmışdı. Məhz 1997-ci ildə həmin qanuna əlavə və dəyişikliklər ediləndən sonra bu meyillərin qarşısı alındı.

**Oktyabr.** Azərbaycanın səriştəsiz və tarazlaşdırılmamış xarici siyasəti nəticəsində ABŞ Konqresi "Azadlığa dəstək aktı"na Azərbaycana hər cür hökumət yardımını qadağan edən

907-ci düzəlişi qəbul edir. Bu qərar nəticəsində Ermənistan və Gürcüstan hər il 100 milyon dollara yaxın humanitar yardım alırdı, "Ermənistanı blokadada saxlayan" Azərbaycan isə bu yardımdan tam məhrum olunurdu.

**7 oktyabr.** Ə.Elçibəy Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi "şəxsi igidliyə" görə Surət Hüseynovu Fəxri fərmanla təltif edir. Surət Hüseynovun özü haqqında hədsiz yüksək fikrə düşməsinin qarşısını artıq heç nə ilə almaq mümkün olmayacaqdı. Dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində "xüsusi xidmətləri" olan S.Hüseynov çox tezliklə həmin əhalini öz iddialarının və şəxsi haqq-hesablarının qurbanına çevirəcəkdi.

**8 oktyabr.** Əbülfəz Elçibəy tərəfindən Surət Hüseynova "Azərbaycan Milli Qəhrəmanı" adı verilir. "Milli Qəhrəman" çox tezliklə doğrudan da əvəzsiz olduğuna, bütün xalqın və dövlətin taleyinin ondan asılı olduğuna inanacaq, qanunvericilikdə nəzərdə tutulmayan qaydada silahlı cinayətkar ünsürləri ətrafına toplayaraq, özü üçün "dövlət içində dövlət" quracaqdı.

**22 dekabr.** Azərbaycan Respublikası rəhbərliyinin təkidi ilə "Azərbaycan Respublikasının dövlət dili haqqında" Qanun qəbul olunur. Bu qanuna əsasən, müstəqil Azərbaycan dövlətinin dili türk dili elan olunur. Ümumxalq müzakirəsinə vermədən, heç bir elmi və məntiqi amilləri nəzərə almadan, vahid dövlətçilik konsepsiyasına əsaslanmadan qəbul olunmuş qərarın nə qədər səhv olduğunu zaman göstərəcəkdi.

**1993-cü il.** 1992-ci ildə yaradılmış anarxiya və xaos gənc və müstəqil dövlətin iqtisadi inkişafına bilavasitə öz təsirini

göstərdi. Belə ki, artıq 1993-cü ildə inflyasiya 1250 faiz təşkil edirdi. Yalnız 1998-ci ildə Azərbaycanda inflyasiyanın səviyyəsini 99,2 faizə endirmək mümkün olmuşdur. 1992-ci ildə AXC-Müsavat iqtidarı xarici kapital qoyuluşuna, demək olar ki, heç bir diqqət yetirməmişdir. 1993-cü ildə Azərbaycanda kapital qoyuluşu 317 milyon dollar təşkil edirdisə, bu rəqəm artıq 1998-ci ildə 1 milyard 400 milyon ABŞ dollarına çatmışdı. Yaradılmış siyasi və iqtisadi böhran nəticəsində 1991-1994-cü illərdə ümumi daxili məhsul orta hesabla 20-25 faiz azalırdısa, 1996-cı ildə istehsal 39 faiz artmışdı. Eyni zamanda, 1991-1993-cü illərdə sənaye məhsulunun istehsalı orta hesabla 20-24 faiz azalmışdı. Xarici ticarət dövriyyəsi 1993-cü ildəki 1 milyard 300 milyon dollardan 1994-cü ildə 1 milyard 400 milyon dollara, 2000-ci ildə isə artıq 2 milyard 900 milyon dollara çatmışdır. Eyni zamanda, 1993-cü ildə büdcə 682 milyon manat təşkil edirdisə, 2001-ci ildə büdcəni 6-7 dəfə artırmaq mümkün olmuşdur.

**10 fevral 1993-cü il.** Əbülfəz Elçibəy Azərbaycan Respublikasının Xankəndi və Naftalan şəhərlərini, Şuşa, Xocavənd, Xocalı, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan,Qubadlı, Laçın, Kəlbəcər, Bərdə, Ağcabədi rayonlarını əhatə edən, yəni Prezident idarə üsulu tətbiq edilən ərazidə Prezidentin fövqəladə səlahiyyətli nümayəndəsinin fəaliyyətinə xitam verir. AXC-Müsavat iqtidarı çox tezliklə təhlükəli bir oyun oynadığına əmin oldu. Eyni zamanda, AXC İcraiyyə Komitəsi guya ordunun gücləndirilməsi məqsədi ilə AXC üzvlərindən ibarət batalyonların yaradılması haqqında qərar verir. Beləliklə də ölkədə ayrı-ayrı şəxslərə xidmət edən qanunsuz silahlı dəstələrin formalaşdırılması prosesi qanuniləşdirilir və görünməmiş vüsət alır.

Həmin gün Ə.Elçibəy Xüsusi Təyinatlı Polis dəstəsinin rəisi Rövşən Cavadovu daxili işlər nazirinin müavini təyin edir. XTPD komandiri də çox tezliklə hakimiyyətə tabe olmadığını nümayiş etdirəcək və ipə-sapa yatmayan silahlı birləşmələrin yaradılmasında xüsusi canfəşanlıq göstərəcəkdir.

**17 fevral.** Ə.Elçibəy Surət Hüseynovu Baş nazirin müavini – Prezidentin fövqəladə səlahiyyətli nümayəndəsi vəzifəsindən azad edir. Narazı düşmüş Surət Hüseynov öz silahlı birləşmələrini daha da genişləndirəcək və hakimiyyətə tam etinasızlıq və saymazlıq nümayiş etdirəcəkdi. Ölkədə hərbi-siyasi güc mərkəzlərinin formalaşması və onların xaricdən istiqamətləndirilməsi prosesi yüksək sürət alır.

**20 fevral.** Ə.Elçibəy müdafiə naziri Rəhim Qazıyevi vəzifəsindən azad edir. Özünə sadiq olan kifayət qədər silahlı qüvvələr toplamış, xaricdən istiqamətləndirilən və hakimiyyət daxilində müxtəlif strukturlarla sıx əlaqədə olan, eyni zamanda, siyasi qüvvələrlə müxtəlif oyunlara girən və heç bir cinayət əməlindən çəkinməyən Rəhim Qazıyev siyasi mühiti kriminallaşdıran bir amilə çevrilir.

**22 fevral.** Ə.Elçibəyin əmri ilə Surət Hüseynov 2-ci ordu korpusunun komandiri vəzifəsindən azad edilir. Lakin AXC-Müsavat iqtidarının bu gecikmiş addımı S.Hüseynovun iddialarının qarşısını ala bilməzdi. Onun təsirində olan hərbi birləşmələr Müdafiə Nazirliyinə və Prezidentə tabe olmaqdan imtina edirlər.

**25 fevral.** Ə.Elçibəy müdafiə nazirinin müavini – Müdafiə Nazirliyi Silahlar İdarəsinin rəisi Baba Nəzərlini tutduğu vəzifəsindən azad edir. İstintaq onun bu vəzifədə işlərkən 2 milyon ABŞ dolları mənimsəməsini aşkar etmişdir.

**4 mart.** Ə.Elçibəy "Azəryunsənaye" Dövlət Şirkətinin yaradılması haqqında Fərman verir və Surət Hüseynov "Azəryunsənaye" Dövlət Şirkətinin prezidenti təyin edilir. Surət Hüseynovu "ram etmək" və loyallaşdırmaq məqsədi güdən bu qərar da heç bir səmərə vermədi. "Yun polkovniki" özünə tabe olan hərbi birləşmələri genişləndirərək, müxtəlif cinayətkar və narazı ünsürləri cəlb edərək, hakimiyyətə tabe olmaqdan imtina edir.

**29 mart.** Dövlət katibi P.Hüseynov və Prezidentin müşaviri N.Nəcəfov öz istefaları haqqında Prezidentə ərizə təqdim edirlər.

**30 mart.** Milli Məclis deputat Etibar Məmmədovun ölkədəki hərbi-siyasi, sosial-iqtisadi vəziyyət və insan hüquqlarının qorunması vəziyyəti, daxili işlər naziri İ.Həmidovun qeyri-qanuni hərəkətləri barəsində müraciətini müzakirə edərək, müvafiq qərar qəbul edir. Qərara alınır ki, Prezident Ə.Elçibəyə on aylıq fəaliyyəti barədə Milli Məclisə məlumat verməsi təklif edilsin. Bu məsələlərə mayın 25-də Prezident Aparatında Ə.Elçibəyin yanında hüquq mühafizə orqanları rəhbərlərinin iştirakı ilə keçirilən müşavirədə baxıldı. Müşavirənin materialları ölkədə cinayətkarlığın tüğyan etdiyini, qanunsuz silahlı dəstələrin meydan suladığını, korrupsiyanın, dövlət əmlakının dağıdılmasının fantastik miqyaslar aldığını, hakimiyyətin isə tam acizliyini və fəaliyyətsizliyini əyani surətdə göstərdi.

**2 aprel.** Əbülfəz Elçibəy Azərbaycan Respublikasında fövqəladə vəziyyət elan edilməsi haqqında Fərman imzalayır. Beləliklə, AXC-Müsavat iqtidarı çox tezliklə ölkəni idarəolunmaz hala, xaos və anarxiya vəziyyətinə gətirərək, fövqəladə

vəziyyət elan etməyə məcbur oldu. Lakin artıq dağıdıcı prosesləri, hakimiyyətin süqutunu dayandırmaq mümkün deyildi.

**15 aprel.** Ə.Elçibəy senzuranın təkcə hərbi sirləri deyil, həmçinin bütün məlumatlara aid edilməsi haqqında Fərman imzalayır. Beləliklə, jurnalistlərin sərbəst informasiya fəaliyyəti tam məhdudlaşır və kütləvi informasiya vasitələrində Dövlət Sirrini Mühafizə Edən Baş İdarənin səlahiyyətləri daha da genişlənir.

**12 may.** Ə.Elçibəy Fəxrəddin Təhməzovun milli təhlükəsizlik naziri təyin edilməsi haqqında Fərman verir.

Həmin gün Ə.Elçibəy Dadaş Rzayevin müdafiə naziri təyin edilməsi haqqında Fərman imzalayır. Lakin bu təyinatlar ölkənin müdafiə və milli təhlükəsizlik sahəsindəki vəziyyətini yaxşılaşdırmağa qadir deyildi. Orduda başıpozuqluq və anarxiya getdikcə güclənir, "Silahlı Qüvvələr" daha artıq dərəcədə ayrı-ayrı hakimiyyət hərislərinin və mafioz ünsürlərin tabeliyinə keçir və onların maraqlarına xidmət edən, nizam-intizam tanımayan hərbi dəstələrə çevrilir.

**26 may.** Milli Məclis Azərbaycan Respublikasında tətbiq edilmiş fövqəladə vəziyyətin uzadılması haqqında qərar qəbul edir. Demokratiyanı anarxiya kimi başa düşən, özündən əvvəlki və sonrakı bütün hakimiyyətləri demokratiyanı, insan hüquqlarını pozmaqda ittiham edən Cəbhə-Müsavat iqtidarı ölkəni fövqəladə vəziyyət rejimində idarə etməyə, diktatura qurmağa cəhd edirdi. Onların xalq içərisindəki az-çox nüfuzu sürətlə itirilməkdə, dayaqları tamamilə sarsılmaqda idi.

**5 iyun.** Azərbaycan Respublikasının Baş prokuroru İ.Şirinov Azərbaycan Respublikasının Prezidenti Ə.Elçibəyin

həbs edilməsinə dair order imzalayır. Bu addım həmin dövrdə dövlət strukturlarının bir-birinə tabe olmamasını, günbəgün artan xaos meyillərini, demokratiya adı altında anarxiya prinsiplərini həyata keçirənlərin idarəçiliyini bir daha bariz şəkildə ifadə edirdi.

**7 iyun.** Azərbaycan Respublikasının Dövlət katibi Əli Kərimov sərəncam imzalayır. Sərəncamda Gəncə şəhərində iyunun 4-5-də baş verən hadisələrlə əlaqədar Prezident Aparatının fövqəladə qərargahının yaradılması nəzərdə tutulur.

Azərbaycan Respublikasının Baş naziri Pənah Hüseynov tutduğu vəzifədən istefa verir.

**9 iyun.** Milli Məclis Gəncə şəhərində baş vermiş hadisələri təhlil edən deputat-istintaq komissiyasının yaradılması haqqında qərar qəbul edir. Qərarda Gəncə şəhərində 1993-cü il iyunun 4-də baş vermiş hadisələrlə bağlı təhqiqat aparmaq üçün deputat-istintaq komissiyasının yaradılması nəzərdə tutulur.

Ə.Elçibəy Gəncə şəhərində 1993-cü il 4-10 iyun hadisələrində iştirak etmiş şəxslərə amnistiya verilməsi haqqında Qanun imzalayır. Lakin eyni zamanda, hakimiyyət başında olanlar qarşıdurmanı gücləndirmək və zor metodları ilə vəziyyətə nəzarəti ələ almaq üçün cəhdlər edirdilər. Qanunun imzalanmasından az sonra AXC İcraiyyə Komitəsi amnistiyanın ləğv olunmasını tələb edən qərar qəbul edir.

Milli Məclis Gəncə şəhərinin sakinlərinə müraciət qəbul edir. Müraciətdə Gəncə şəhərində baş vermiş hadisələr qardaş qırğını kimi qiymətləndirilir.

**13 iyun.** Milli Məclis İsa Qəmbərin Ali Sovetin sədri vəzifəsindən azad edilməsi haqqında qərar qəbul edir.

**15 iyun.** Milli Məclis Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi haqqında qərar qəbul edir. Həmin gün Azərbaycanın müasir tarixinə Milli qurtuluş günü kimi daxil oldu. Azərbaycan xalqı xaos və anarxiyadan, dövlətçiliyi itirmək, vətəndaş müharibəsi təhlükəsindən xilas oldu, ölkənin bütün sağlam və vətənpərvər qüvvələrini səfərbərliyə almaqla demokratik cəmiyyət və hüquqi dövlət quruculuğu, iqtisadi inkişaf və tərəqqi yoluna çıxdı.

**17 iyun.** Əbülfəz Elçibəy Abdulla Allahverdiyevin daxili işlər naziri vəzifəsindən azad edilməsi və həmin vəzifənin DİN-in müavini Rövşən Cavadova həvalə edilməsi haqqında Fərman imzalayır. Dövlətçilik təfəkkürünü və düşüncəsini qəbul etməyən, hakimiyyətə tabe olmayan qüvvənin daha da gücləndirilməsi və ona əlavə səlahiyyətlər verilməsi vəziyyətin daha da gərginləşdirilməsi ilə nəticələnməli idi. Daxili işlər orqanları tam iflic vəziyyətinə düşmüşdü və vəziyyəti xilas etmək imkanında deyildi.

1993-cü il iyun ayının 17-dən 18-nə keçən gecə Əbülfəz Elçibəy öz vəzifəsini buraxıb Ordubad rayonunun Kələki kəndinə gedir.

**21 iyun.** Milli Məclis Gəncə hadisələri və ondan sonra respublikada yaranmış vəziyyətlə əlaqədar Surət Hüseynova müraciət edir.

Bundan sonra Milli Məclis Prezident Əbülfəz Elçibəyə müraciət edilməsi haqqında qərar qəbul edir. Qərarda Ə.Elçibəyə təcili olaraq Bakı şəhərinə – öz iş yerinə qayıtması barədə müraciət olunur.

**24 iyun.** Milli Məclis Əbülfəz Elçibəyin Azərbaycan Respublikasının Prezidenti vəzifəsini daha icra edə bilməməsi

və Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevə verilməsi haqqında qərar qəbul edir. Qərarda bildirilir ki, Əbülfəz Elçibəy 1993-cü il iyun ayının 17-dən 18-ə keçən gecə qəflətən, dövlət orqanlarının rəhbərlərinə xəbər vermədən Bakı şəhərindən Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Kələki kəndinə getmişdir. Həmin gündən Kələki kəndində qalan Əbülfəz Elçibəy Azərbaycan dövlətinin başçısı kimi fəaliyyətini məhdudlaşdırmış, respublikanın dövlət idarəetmə orqanları ilə faktik olaraq əlaqəsini itirmiş və ali icra hakimiyyəti funksiyalarının yerinə yetirilməsindən özünü kənarlaşdırmışdır. Bu səbəbdən o, Azərbaycan Respublikasının Prezidenti vəzifəsini daha icra edə bilməmişdir. Buna görə də qərara alınmışdır ki, Əbülfəz Elçibəyin Prezident vəzifəsini icra edə bilməməsi təsdiq edilsin.

## TARİXDƏ ŞƏXSİYYƏTİN ROLUNUN KONSEPTUAL ƏSASLARI

XX əsr tarixə qovuşmuşdur. Mühüm hadisələrlə səciyyələnən bu əsr özünəməxsusluğu ilə fərqlənərək, tarixin ümumi axınında layiqli yerini tutmuşdur. Bəşəriyyətin həyatında inqilablar, müharibələr, siyasi gərginliklərlə yanaşı, elmin və texnikanın güclü inkişafı, elmi informasiyaların sürətlə artması nəticəsində yaranan informasiyalı cəmiyyətlərin formalaşması, demokratik cəmiyyət və hüquqi dövlət quruculuğu vüsəti, insan hüquqları və azadlıqlarının təmin olunması üçün real şanslar yaradılması əsri kimi yaddaşlarda yaşamaq haqqı qazanmış ötən yüzillik bir sıra problemlərə təshihlər etmək imkanı açdı, sosial-siyasi həyatda

əldə olunan dəyərlərin yenidən qiymətləndirilməsinə, onlara yeni məna, yeni məzmun verilməsinə şərait yaratdı.

Bu baxımdan XX əsrdə müxtəlif ölkələrdə ayrı-ayrı siyasi xadimlərin yeritdikləri siyasət, regional siyasətlərin dünya siyasətlərinə təsir dərəcəsi, siyasəti gerçəkləşdirən şəxsiyyətin zaman və məkan ölçüləri müstəvisində fəaliyyəti, dövlətin, millətlərin müqəddəratına cavabdehlik hissinin dərəcəsi bu gün yeni baxış, yeni münasibət tələb edir. Hələ dünən günün vacib və aktual siyasi mövzusu sayılan məsələlərin müəyyən mənada həllini taparaq tarixi fakta çevrilməsi, bəzən bu faktların təhrif olunmaq ehtimalını azaltma ehtiyacı XX əsrin siyasi hadisələrini və siyasi xadimlərinin fəaliyyətini obyektiv təhlil etmək zərurətini yaradır. Bu, eynilə Azərbaycana da aiddir. Bu baxımdan "tarixdə şəxsiyyətin rolunun konseptual əsasları" probleminin ümumdünya tarixində oxşar və fərqli cəhətlər nəzərə alınmaqla, müasir dünyada gedən sosial, siyasi, iqtisadi, mədəni proseslər zəminində öyrənilməsi vacibdir. Bu mövzunun aktuallığı bir də ondan irəli gəlir ki, bu gün siyasi lider kimi şəxsiyyət öz fəaliyyətini konkret tarixi çərçivədə və konkret regionda həyata keçirsə də, qloballaşmaqda olan dünyamızda bu fəaliyyət dünya siyasətində nəzərəçarpan izini və dəst-xəttini qoyur. Tarix özü əlaqəli vahid tam olduğundan, hadisələrin təcrid olunmuş izahı proseslərin mahiyyətinə varmaq imkanını məhdudlaşdırır.

Tarix və siyasət bir-birini tamamlayan, eyni zamanda, nisbi müstəqilliyini saxlayan elm sahələridir. Bu gün siyasət sayılan, sabah tarixə çevrilir. Əgər bu gün fəaliyyət göstərən siyasətçini və onun işini qiymətləndirmək müasirləri üçün çətindirsə, vaxt ötdükcə, bu və ya digər şəxsiyyətin tarixdə yerini obyektiv

şəkildə müəyyən etmək üçün imkan yaranır. Bəzən buna bir neçə il, bəzən isə onilliklər lazım olur. Həm də bu zaman unudulmamalıdır ki, söhbət şəxsiyyət iddiasında olan cılız insanlardan getmir. Çünki onların hafizələrdə qorunub saxlanmaq haqqı artıq öz dövrlərində tükənir. Söhbət cəmiyyətdəki mövcud norma və standartlarla razılaşmayaraq, onları dağıtmaq və daha mütərəqqilərini yaratmaq iqtidarında olan insanlardan, Nitsşenin ideallaşdırdığı "fövqəlinsandan" gedir. Bir qayda olaraq, tarixdə yalnız o şəxsiyyətlər qalır ki, zaman onların izini itirməyə və silməyə qadir deyildir. Zamanla əbədi mübarizədə qalib gələn bu insanlar "Zaman və mən" deyərək, konkret tarixi mərhələni dəf edir. Bu şəxsiyyətləri hakimiyyət yolundan azdırmır, sərməst etmir, onlar hakimiyyət hərisi deyillər və riskə, təhlükələrə daim hazırdırlar. Tarixin özündə daxili məna, inkişaf məntiqi axtaran, tarixdə şəxsiyyətin yerini müəyyənləşdirməyə çalışan Karl Popper kifayət qədər paradoksal sual verir: "Tarixin hansısa mənası varmı?" Özü də cavab verir ki, "...Tarixin mənası yoxdur". "Özlüyündə tarixin məqsədi yoxdur, mənası yoxdur, lakin tarixə həm bunu, həm də digərini vermək bizim imkanımız daxilindədir... Tarixə məqsəd və mənanı məhz insanlar gətirirlər... Mən hesab edirəm ki, faktların və qərarların dualizmi əsasdır. Özlüyündə faktların mənası yoxdur. Onlara yalnız bizim qərarlarımız məna verə bilər" (Bax: Karl Popper. Açıq cəmiyyət və onun düşmənləri. C.2, Moskva, 1992, səh. 321). C.Nehru yazırdı: "Tarixi oxumaq yaxşıdırsa, tarix yaratmağa kömək etmək ondan qat-qat maraqlıdır" (Bax: C.Nehru. Ümumdünya tarixinə nəzər. B., 1986. səh.30).

Tarixi gözlənilməz hadisələrlə zənginləşdirən yetkin siyasətçilərin fəaliyyətidir. Ümumdünya tarixində bu proseslərin

ardıcıl tədqiqi ilə məşğul olan politologiya öz başlanğıcını Qədim Şərqin siyasi fikrindən, Konfutsinin, Platonun, Aristotelin zamanından götürmüş, öz inkişafı boyunca olduqca zəngin nəzəri və faktik material toplamış, ümumiləşdirmiş, hər yeni əsrdə yeni xüsusiyyətlər əxz edərək, bu gün dövrün tələbinə cavab verən dolğun təlimə çevrilmişdir. Siyasi inkişafın meyilləri və xüsusiyyətləri, siyasi fəaliyyətin xarakteri, məqsədləri, maraqları, mənası və üsulları siyasi ideyaların və siyasətdə insan düşüncələrinin, əməllərinin və səhvlərinin mahiyyəti insanları həmişə maraqlandırmışdır.

Siyasət öz mahiyyəti etibarilə hakimiyyət haqqında elm deməkdir. Hakimiyyət isə həmişə yeni kəşflərin, təşəbbüslərin və layihələrin məhsuludur. Siyasətdə hakimiyyətin köhnəlmiş sistemləri daim cəmiyyətin mərkəzdənqaçan qüvvələrinin getdikcə güclənən psixoloji-siyasi təzyiqinə məruz qalır və zaman-zaman dağılırlar. Eynilə texnikada olduğu kimi: köhnəlmiş materiallar və konstruksiyalar yeni təzyiqlərə, sürətlərə və gərginliklərə davam gətirə bilmir. Vaxt keçdikcə bunlar “yorulur” və dağılır.

Siyasət çevik qanunlara malik mürəkkəb prosesdir, burada sosial qrupların, siniflərin, birliklərin maraqları, şəxsi maraq konkret zaman kəsiyi üçün nəzərə alınır və dəyərlərin bölüşdürülməsi və yenidən bölüşdürülməsi prosesi gedir. Eyni zamanda, siyasət hakimiyyətə nail olmaq mexanizmidir, hakimiyyətin mənbəyidir. Hakimiyyət isə, insan cəmiyyətinin yaratdığı ən zəruri məhsuldur. Hamının və hər birimizin – bizdən əvvəlkilərin və bizdən sonra gələnlərin taleyi hakimiyyətin konstruksiyasından və siyasətin mahiyyətindən asılı olub və asılıdır. Ona görə də siyasət və hakimiyyət

problemi bütün dövrlər üçün əbədilik həll oluna bilməz, bir tərəfdən, bəşəriyyət hakimiyyət strukturlarının yaradılmasına yönəldilmiş səylərini artırır, insanlar, yaşayış mühiti dinamik surətdə dəyişir və köhnə konstruksiyalar özlərinin səmərəsizliyini büruzə verir, digər tərəfdən, tarixən dövlətə, hakimiyyətə verilmiş hüquqların geri alınmasına, bəsitləşdirilməsinə, məhdudlaşdırılmasına cəhd göstərilir.

Ənənəvi olaraq siyasət dövlət işlərini və ictimai işləri, insanlar, sosial qruplar, xalqlar, millətlər, dövlətlər arasında hakimiyyət münasibətləri ilə bağlı olan fəaliyyət sahəsini əhatə edir. Şübhəsiz ki, o, şəxsiyyət və hakimiyyətin əlaqəsi məsələsinə də toxunmaya bilməz. Bəzən şəxsiyyət fenomenini, şəxsiyyətin fəaliyyətini öyrənmədən və təhlil etmədən siyasi təsisatların və təşkilatların fəaliyyət göstərməsini, siyasi normaları və ənənələri insanların hakimiyyəti idarəetmə və təşkilatçılıq fəaliyyətini, onların sosial-siyasi maraqlarını və ehtiyaclarını, bu və ya digər siyasi ideyaların və baxışların populyarlığını başa düşmək və qiymətləndirmək mümkün deyildir.

Bütövlükdə siyasət insan fenomenindən, onun hakimiyyətlə qarşılıqlı əlaqə prosesində təzahür edən və dəyişən intellektual, psixoloji xüsusiyyətlərindən ayrılmazdır. Müəyyən institusional, sosial-mədəni və sivil mühitdə formalaşan və reallaşan siyasət cürbəcür amillərin təsirinə məruz qalır. İnsan özü istəsə də, istəməsə də siyasi sistemin müəyyən tipindən kənarda ola bilməz. Bu mənada insan fəaliyyətinin özünəməxsus sahəsi kimi siyasət labüddür. Hakimiyyət və insan, şəxsiyyət və siyasət bir-birindən ayrılmazdır və tədqiqatçıların diqqətini daim eyni dərəcədə cəlb etmişdir. Bizim ölkəmizdə bu elmi marağı reallaşdırmaq yalnız Azərbaycan müstəqillik əldə etdikdən sonra

mümkün olmuşdur, çünki sovet rəhbərlərinin “fövqəlbəşəriliyi” barədə Sov.İKP tərəfindən uzun illər yaradılmış süni fenomen milli respublikaların liderlərinin öz vətənlərinin tarixindəki rolunu obyektiv qiymətləndirməyə mane olurdu.

Azərbaycanın müstəqilliyinin ilk illərində qəribə vəziyyət yaranmışdı: bir tərəfdən, siyasi reallıqlar sürətlə dəyişirdi, vəziyyəti həm öyrənmək, həm də proqnozlaşdırmaq və ölkənin inkişaf strategiyasını işləyib hazırlamaq üçün siyasi prosesə daim nəzarət etmək lazım idi, digər tərəfdən də, bir çox obyektiv və subyektiv səbəblər üzündən tədqiqatçıların ölkədəki vəziyyəti siyasi baxımdan təhlil etmək üçün imkanları yox idi. Tarixdən və ümumiyyətlə, ideologiyadan imtina etmək barədə əsl neobolşevizm ruhunda bir çox əsassız çağırışlar səslənirdi. Azərbaycan xalqının bütün tarixi nailiyyətlərini inkar etmək kimi bir fenomen yaranmışdı. Azərbaycan xalqının tarixinin başlanğıcı, tarixi inkişafının yeni mərhələsi haqqında nə isə bir ideya təbliğ edilirdi. Şövqlə belə bir fikir təlqin edilirdi ki, əsl tarix yalnız 1992-ci ildən, Xalq Cəbhəsinin hakimiyyətə gəlməsi ilə başlanır, yerdə qalan nə varsa, hamısı tarixdən əvvəlki dövrə aiddir, dəyərsizdir və diqqətəlayiq deyildir. Bir sözlə, 1992-1993-cü illərdə ölkədə vətəndaş müharibəsi və iqtisadi durğunluq şəraitində populizm respublikada yaranmış vəziyyətin elmi təhlilinə və ölkənin inkişaf strategiyasının işlənib hazırlanmasına əngəl törədirdi. Səkkiz il əvvəl baş vermiş hadisələr tarixi və siyasi baxımdan o qədər uzaq deyildir ki, onlar unudulsun və emosiyalar, rəğbət, nifrət hissləri yaxın keçmişin siyasi proseslərinə obyektiv qiymət verməyə mane olsun.

Tarixən iş elə gətirmişdir ki, XX əsrdə Azərbaycanda cəmiyyətşünaslıq elmi marksizm-leninizm ideologiyası ruhunda

inkişaf etmişdir. Onilliklər boyu bu ideologiya çərçivəsində tarixdə şəxsiyyətin rolu haqqında elmi əsərlərin bütöv kompleksi yaradılmışdır. Stalinin şəxsiyyətinə pərəstişi ifşa edən Sov.İKP XX qurultayından sonra həmin əsərlər bir çox cəhətdən yenidən nəzərdən keçirildi. Sovet dövründə geniş yayılmış "təki şəxsiyyət olsun, pərəstiş yaratmaq istəyənlər həmişə tapılar" fikri, əslində, sovet təbliğat maşınının belə bir bəsit iddiasına xalqın münasibətini əks etdirirdi ki, əgər dövr nəhəng simalara ehtiyac duyursa, onları yaradır. Həqiqətən, müxtəlif ölkələrin və xalqların tarixinə nəzər salsaq, tarixi inkişafın məsul anlarında şəxsiyyətin nə qədər böyük rol oynadığına, şəxsiyyətlərə zərurət yarandıqda onlara nə qədər böyük ehtiyac duyulduğuna dair minlərlə misallara rast gələrik. Lakin totalitar rejimlər "şəxsiyyətlərin" meydana çıxmasını gözləmir, həmin rejimlər süni surətdə onları yaradır, eyni zamanda, cəmiyyəti narahat edən problemlərə cavab axtarışında olan əsl ziyalılar elitasını məhv edir. Tarixdə şəxsiyyətin rolunun elmi əsaslarının araşdırılması, tənqidi-təhlili hər yeni dövr üçün tədqiqat obyekti olan mövzudur.

Etiraf etmək lazımdır ki, siyasi sistemin təbiətindən irəli gələn marağa müvafiq olaraq, tarixdə şəxsiyyətin rolu sovet fəlsəfi-sosioloji ədəbiyyatında heç vaxt lazımınca qiymətləndirilməmişdir. Bu, əsasən, nəzərdən keçirilən problemə materialist münasibətlə izah oluna bilər. Belə münasibətin məqsədi xalqları ayırmaq, parçalamaq, millətləri tarixi köklərdən və ənənələrdən uzaqlaşdırmaq, milli tarixin mahiyyətinin dərk edilməsinə və milli özünüdərkə mane olmaq, görkəmli və tarixi şəxsiyyətləri gözdən salmaq idi. Hamıya məlumdur ki, xalqın və ya millətin ləyaqətini alçaltmaq, öz tarixini yaratmağa qadir

olmadığını göstərmək üçün onun görkəmli şəxsiyyətlərini bu xalqın gözündən salmaq, tarixin qəhrəmanları haqqında xatirəni yaddaşlardan silmək lazımdır. Soyu, kökü məlum olmayan, süni yaradılmış "sovet adamı", "kommunist tipli şəxsiyyət" obrazları da bu məqsədə xidmət edirdi. Millətin mənəvi müqavimət qüvvəsinin zəiflədilməsinə yönəlmiş bu istilaçı siyasət tarixin özü qədər qədimdir. Keçmiş Mərkəzin həyata keçirdiyi siyasət bunun bariz nümunəsi idi.

Zəruri varlıq olan tarixi şəxsiyyət öz zəmanəsinin yetirməsidir. O, xalqın və dövlətin məruz qaldığı çox mürəkkəb təbəddülatlar və transformasiyalar dövründə, inkişaf və tərəqqi naminə hadisələrin gedişini və tarixi dəyişdirmək məqsədi ilə siyasət səhnəsinin önünə çıxır.

Başqa sözlə desək, tarixi şəxsiyyət xalqın istək və arzusuna uyğun olaraq tarixin gedişini dəyişdirməyi bacaran, gərgin anda zamanın tələbini şüurlu surətdə qəbul edən, öz vəzifəsinə məsuliyyətlə və yaradıcılıqla yanaşan görkəmli liderdir. İctimai fəaliyyətin subyekti kimi belə lider müəyyən tarixi dövrdə təkcə ümummilli ideyaların daşıyıcısı deyil, həm də bu ideyaların həyata keçirilməsinin təşkilatçısıdır.

Əfsuslar olsun ki, çox zaman milli liderləri hakimiyyətin gücü ilə ləkələməyə, tarixi isə təhrif etməyə çalışırlar. Bir neçə on illər ərzində Azərbaycan xalqının tarixini partiya ideologiyasının tələblərinə tabe etməyə cəhd göstərərək, milli tarixin obyektiv məzmununu inkar etmiş və gələcək nəsillər qarşısında qətiyyən heç bir məsuliyyət hiss etməmişlər. SSRİ Xalq Komissarları Sovetinin və Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin 1934-cü ilin mayında qəbul etdikləri, tarixi proseslərin təhlili və tədqiqi,

tarixi şəxsiyyətlərin rolu məsələlərinə toxunan qərar bu cəhətdən səciyyəvidir. Həmin qərarda belə bir fikir də öz əksini tapmışdı: "SSRİ-də xalq kütlələri haradan gəldiklərini və haraya getdiklərini bilməlidirlər". Göründüyü kimi, burada əsas diqqət tarixi proseslərin önündə gedən görkəmli şəxsiyyətlərə deyil, Azərbaycanın şəxsiyyətlərini öz içərisində tamamilə əridən "kütləyə" verilirdi.

Lakin bu partiya doktrinasına baxmayaraq, tarix ictimai tərəqqi və azadlıq uğrunda mübarizə aparan şəxsiyyətlərin adlarını hifz etmişdir. Həmin şəxsiyyətlərin qəhrəmanlığı və hünərləri o qədər böyükdür ki, onların adları xalqın mahiyyətinin təcəssümünə çevrilmişdir: Cavanşir, Atabəy Eldəgiz, Uzun Həsən və onun anası – özünün incə strateji tədbirləri ilə şöhrət qazanmış ilk diplomat qadın Sara xatun, Şah İsmayıl Xətai, Nadir şah Əfşar və başqaları. Onların gördükləri işlər güclü Azərbaycan dövləti yaradılması, Azərbaycan xalqının formalaşması tarixinin başlıca tərkib hissəsi olmuşdur. Azadlıq və müstəqillik ideallarının təntənəsi uğrunda düşmənlə mübarizəyə hazır olan belə tarixi şəxsiyyətlər gələcək nəsillər üçün məhəbbət, onların mərdliyinə, şücaətinə hörmət və sitayiş obyektinə çevrilmişlər və çevrilirlər.

Hegel "Fəlsəfə tarixi" əsərində tarixi şəxsiyyətlərin xarizmasını təhlil edərək yazırdı: "...Tarixi simalara fərdlərin maraqlarını, beləliklə, həm də ehtiraslarını təşkil edən ümumi cəhətlər baxımından yanaşmaq lazımdır. Onlar məhz ona görə böyük simalar sayılırlar ki, böyük, özü də təxəyyüldə canlandırılan və saxta işlər deyil, ədalətli və zəruri işlər görmək istəmiş və görmüşlər" (Bax: Hegel. Fəlsəfə tarixi. Əsərləri, c.8, M.-L.,1935, səh.28). Makedoniyalı İskəndərin yürüşlərindən

danışarkən Hegel yazırdı ki, onun haqqında əfsanələr heç də bunun nəticəsi deyildir ki, İskəndərin qəhrəmanlıq yürüşləri onun şəxsiyyətinin öz mahiyyətindən yaranmışdır və həmin qəhrəmanlığın daşıyıcısı yalnız o olmuşdur. Güclü şəxsiyyət, hətta parlaq fərdiliyi ilə fərqlənsə belə, zəruri tarixi proseslərin və hadisələrin daşıyıcısıdır. Bu halda şəxsiyyət öz xalqının bir növ məsləkdaşı kimi çıxış edir. Hegel yazır ki, xalq müharibələrdə sərkərdələrin rəhbərliyi altında muzdlu qüvvə kimi deyil, onun ideya silahdaşı kimi vuruşur. Bu da, öz növbəsində, müəyyən tarixi dövrlərdə fərdlərin, müxtəlif sosial qrupların və cəmiyyətin məqsəd və mənafelərinin birləşməsinə gətirib çıxarır. Belə hallarda, ictimai inkişafın məhsulu olan tarixi şəxsiyyət öz fəaliyyətini zəruri və vacib problemlərin həllinə və böhrandan çıxış yollarının axtarılmasına yönəldir.

Görkəmli tarixi şəxsiyyətlər hər bir xalqın və dövlətin tarixinin fəal yaradıcılarıdır. Həmin şəxsiyyətlər hətta dünyalarını dəyişdikdən sonra da onların xatirəsi milyonların ürəyində, müstəqillik və azadlıq uğrunda mücadilənin qalibləri kimi xalqın qəlbində yaşayır. Təbiidir ki, bu deyilənlər böyük milli ideyalarla yaşayan liderlərə, şəxsiyyətlərə aiddir.

Orta əsrlərin böyük Azərbaycan mütəfəkkiri və şairi Nizami dünya tarixinin gedişini dəyişən Makedoniyalı İskəndərin timsalında şəxsiyyət probleminə və tarixdə onun roluna toxunaraq deyirdi ki, reallığı dərk edən, böhranlı vəziyyətdən çıxış yolu tapmağı bacaran hər hansı dövlət xadimi, istedadlı, fəlsəfəyə və incəsənətə bələd olan insan dəyişdirici ola bilər. Belə insan dövlətin idarə olunmasını reallığa çevirə bilər.

Antik dövrün və orta əsrlərin bir çox mütəfəkkirlərinin – şəxsiyyət nəzəriyyəsinin bünövrəsini qoymuş mütəfəkkirlərin

(Plutarx, Aristotel, Makiavelli, Nizami) anlamında görkəmli şəxsiyyət iki başlanğıcın, yəni fərdin, ümumən cəmiyyətin və dövlətin mənafeləri və səylərinin qarşılıqlı əlaqəsini, sintezini praktikada həyata keçirən xadimdir: o, xalq kütlələrinin enerjisini quruculuq, dirçəliş və tərəqqi məcrasına yönəldir. Lider olmadıqda isə kütləni idarə etmək mümkün deyildir, çaşqın kütlə dağıdıcılığa və hərc-mərcliyə meyil edir.

Şəxsiyyət haqqında, onun cəmiyyət, siniflər, millətlər və sosial qruplar ilə əlaqələri haqqında, şəxsiyyətin formalaşması və inkişafının qanunauyğunluqları haqqında çox yazılmışdır. Bu tədqiqatlarda qiymətli və müsbət məqamlar çoxdur. Lakin şəxsiyyətin, həm də konkret şəxsiyyətin tarixin yaradıcısı, onun hərəkətverici qüvvəsi olması haqqında son dərəcə anlaşılmaz və yayğın şəkildə bəhs edilir. Hərçənd istisnalar da var. Məsələn, rus filosofu və ictimai xadimi S.N.Trubetskoy yazırdı: "Müəyyən mənada tarixdə hər şey şəxsiyyət tərəfindən və şəxsiyyət vasitəsilə həyata keçirilir: ideya yalnız onda təcəssüm edir... Tarixi şəxsiyyət hər şeydən əvvəl öz cəmiyyətinin məhsuludur; şəxsiyyəti cəmiyyət yaradır, o, cəmiyyətin ümumi mənafelərini özündə əks etdirir. Şəxsiyyət cəmiyyəti üzvi surətdə təmsil edir, onun məlum arzularını özündə təcəssüm etdirir və cəmləşdirir, çünki bu arzuları başqalarına nisbətən həm daha yaxşı dərk edə, həm də vacib tarixi vəzifələrin yerinə yetirilməsi yollarını tapa bilir" (Bax: "Мир философии". II hissə. M., 1991, səh. 247).

Tarixdə şəxsiyyətin rolunun dərk edilməsindəki səhvlər həm də ictimai inkişafın universal qanunlarının yetişdirilməsi ilə, onların proseslərə və insanların fəaliyyətinin nəticələrinə qarşı qoyulması ilə bağlıdır. Məsələyə bu cür yanaşdıqda, hər şeydən

əvvəl, ayrıca şəxsiyyət obstruksiyaya məruz qalmışdır. Marksist ədəbiyyatında xalqın, siniflərin, kollektivlərin və şəxsiyyətin qarşılıqlı münasibətinin başa düşülməsində tarazlıq pozulmuşdu. Keçmiş SSRİ-də, o cümlədən Azərbaycanda on illər boyu formalaşdırılan sinfi şüur şəxsiyyətə deyil, cəmiyyətə üstünlük verirdi. Bir nöqtəyə yönəldilmiş bu elmi-ideoloji iş tədricən onunla nəticələndi ki, şəxsiyyətə, ümumiyyətlə, cəmiyyətin ötəri ünsürü kimi baxmağa başladılar, yəni ümumi mənafelər naminə onunla hesablaşmamaq olar. İctimai inkişafda siniflərin rolunun mütləqləşdirilməsi ayrıca şəxsiyyətin, fərdin cəmiyyətdəki yerini qiymətdən saldı. Nəticədə ictimai tərəqqidə, tarixdə şəxsiyyətin rolu heçə endirildi.

Biz cəmiyyətin obyektiv qanunlarını öyrənmək zərurətini şübhə altına almaq fikrindən uzağıq, sosial birliklərin ilkinliyini, onların tarixi inkişafındakı rolunu, tarixi şəxsiyyətlərin rolunu öyrənməyin vacibliyini inkar etmirik. Məsələnin mahiyyəti bunda deyil, ölçü hissinin nə dərəcədə pozulmasındadır. Bir qism həqiqətləri müdafiə edərkən yeni səhvlərə yol verməmək olduqca vacibdir. Tarixdə şəxsiyyətin rolunun açıq-aşkar qiymətləndirilməməsi isə ölçü hissinin pozulmasının nəticəsidir.

Azərbaycan cəmiyyətində baş verən dəyişikliklər nəzərə alınaraq, həmin ifratçılıq halları barədə bu gün danışmaq xüsusilə vacibdir. Məsələ bundadır ki, bir çox amillərlə yanaşı, cəmiyyətimizdə böhranın təzahürlərindən biri də konkret şəxsiyyətin əhəmiyyətinin açıq-aşkar qiymətləndirilməməsi olmuşdur. Halbuki hər bir şəxsiyyətin həqiqətən dünyəvi dövlətin, vətəndaş cəmiyyətinin, demokratik cəmiyyətin əsl yaradıcısı olmasına imkan verən şərait ölkədə gedən dəyişikliklərin təməli olmalıdır.

Zənnimizcə, şəxsiyyətin və tarixdə onun rolunun düzgün dəyərləndirilməsində sosial fəlsəfənin ayrı-ayrı nümayəndələrini təqsirləndirmək ədalətsizlik olardı. Hərçənd, bunda onların da müəyyən qədər payı vardır. Belə bir faktı da gizlətməməliyik ki, onilliklər ərzində bir çox filosoflar şəxsiyyətdə, insanda ancaq sinfi tipin təcəssümünü, xalqın bir zərrəsini, kollektivin üzvünü görmüşlər və onun rolu yalnız bu mövqelərdən başa düşülmüş və tədqiq edilmişdir. Eyni zamanda, onun fərdi keyfiyyətləri, şəxsi maraqları, bənzərsizliyi, özünəməxsus fəallığı nəzərə alınmırdı. Üstəlik, fərdi başlanğıcın xüsusi rolunu elmi surətdə dərk etmək üçün göstərilən ehtiyatlı cəhdlərə də şübhə ilə yanaşırdılar. Bizim bütün ictimai elmimiz, sosial fəlsəfəmiz uzun illər sosial-kollektiv başlanğıcın mütləqləşdirilməsinə bir növ bəraət qazandırmışdır. Şəxsi başlanğıc ümuminin içərisində əriyəndə ictimai elmlərin dayaqları nəinki haray salmır, həm də bunu az qala sosial tərəqqinin zirvəsi sayırdılar. Lakin totalitar rejim dağıldıqdan sonra qeyri-marksist nəzəriyyələrlə tanışlıq göstərdi ki, bu, heç də belə deyildir. Buna görə də belə vəziyyəti düzəltmək, şəxsiyyətin rolu məsələlərində diqqət yetirilən cəhətləri dəyişmək, onun dəyərindən danışmaq, cəmiyyətdə hər bir insanı, hər bir şəxsiyyəti ucaltmaq hissini tərbiyə etmək bizim təkcə nəzəri, ideoloji və mənəvi borcumuz deyil, həm də siyasi borcumuzdur.

Tarixi inkişafın müqəddəratında “böyük simaların”, siyasi xadimlərin rolu haqqında Engelsin V.Borgiusa 1894-cü il 25 yanvar tarixli məktubunda söylədiyi belə bir fikir ötən illərdə şəxsiyyət haqqında marksist tədqiqatlarında tez-tez sitat gətirilirdi: “İnsanlar özləri öz tarixini yaradırlar, lakin indiyədək onlar bunu ümumi iradəni rəhbər tutmadan

yaradırlar, vahid ümumi plan üzrə və hətta müəyyən tərzdə məhdud, müəyyən cəmiyyət çərçivəsində də yaratmırlar. Onların səyləri çarpazlaşır, buna görə də bütün bu kimi cəmiyyətlərdə zərurət hökm sürür, bu zərurətin əlavəsi və təzahür forması təsadüfdür. Burada bütün təsadüflər arasından özünə yol açan zərurət son nəticədə yenə də iqtisadi nəticədir. Biz burada böyük sima adlanan adamlar məsələsinə gəlib çıxırıq. Məhz filan böyük simanın müəyyən ölkədə, müəyyən zamanda meydana çıxması halı, əlbəttə, xalis bir təsadüfdür. Lakin bu adam kənar edilsə, onda onun əvəzinə başqa birisinə tələb meydana çıxır və belə əvəz tapılır, – pis və ya yaxşı, hər halda, zaman keçdikcə tapılır. Müharibə nəticəsində taqətdən düşmüş Fransa Respublikasına lazım olan hərbi diktatorun məhz korsikalı Napoleon olması bir təsadüf idi. Lakin Napoleon olmasaydı belə, onun rolunu başqa biri ifa edərdi. Bunun sübutu odur ki, hər zaman belə bir adam lazım olanda tapılmışdır: Sezar, Avqust, Kromvel və i.a." (K.Marks və F.Engels. Seçilmiş əsərləri, c.3, Bakı, 1983, səh. 577-578).

Qeyd etmək lazımdır ki, SSRİ-də Stalinin şəxsiyyətinə pərəstiş adlanan fenomenin formalaşdığı bütün dövr ərzində həmin prosesi dərk etmək və qiymətləndirmək üçün hər hansı ciddi elmi səylər müşahidə edilmirdi. Xarici tədqiqatçılar, əsasən, totalitar rejimi kəskin tənqid etməklə məşğul olurdular, ölkənin daxilində isə belə tədqiqat aparmaq üçün göstərilən hər bir cəhd QULAQ-la nəticələnirdi. Stalinin şəxsiyyətinə pərəstişin ifşa olunmasından sonra marksist mövqelərdən belə bir iddia irəli sürülürdü ki, əslində, ayrı-ayrı şəxsiyyətlər tarixdə heç nəyi həll etmirlər, tarixi siniflər və xalq kütlələri yaradır.

Ayrıca şəxsiyyət nə qədər çalışsa da, öz istəyinə yalnız xalq kütlələrinin mənafelərinin ifadəçisi olduğu zaman çata bilər.

SSRİ-nin dağılması filosoflara, sosioloq və politoloqlara Qərbin aparıcı fəlsəfi cərəyanları, xarici müəlliflərin tarixdə şəxsiyyətin roluna həsr olunmuş əsərləri ilə yaxından tanış olmaq imkanı verdi. XX əsr ümumən fəlsəfədə bir növ antropoloji canlanma əlaməti altında keçdiyindən, bu problemə xüsusi diqqət ayrılmışdır. Qərb fəlsəfəsində formalaşan şəxsiyyət, siyasi lider ideyası ilə sovet sistemində yaranmış şəxsiyyət obrazı arasında kəskin təzad onilliklər boyu yazılmış əsərlərin əhəmiyyətini heçə endirərək, bu ideyaların qeyri-həyatiliyini sübut etdi. Şəxsiyyət nəzəriyyəsinin kifayət qədər geniş çərçivələrində şəxsiyyətə politoloji cəhətdən yanaşma xüsusi yer tutur və o, şəxsiyyətə siyasi liderlik prizmasından yanaşır. Liderliyə çalışan şəxsiyyətin vəzifəsi, ümumən, onun cəmiyyətdəki mövqeyi və rolu ilə, onun təmasda olduğu proseslərin mahiyyəti ilə müəyyən edilir.

Problemin bütün cəhətlərini bir məqalə çərçivəsində əhatə etmək mümkün olmadığından milli, siyasi lider olmaq etibarilə tarixdə şəxsiyyətin mövqeyi və rolunun konkret məsələlər baxımından izahı daha vacib sayılır.

XIX əsrin sonu və XX əsr ərzində psixoloqlar, sosioloqlar və filosoflar şəxsiyyət nəzəriyyəsi məsələsini ciddi tədqiqat obyektinə çevirmişlər. Avstriyalı psixiatr Z.Freyd şəxsiyyətin təhlili modelinin yaradılmasına daha böyük töhfə vermişdir. Antik dövr, orta əsr və yeni dövr mütəfəkkirlərinin şəxsiyyətin psixologiyasına aid fəlsəfi əsərləri ilə gözəl tanış olan Freyd, ilk dəfə olaraq, şəxsiyyətin inkişafının struktur modelini tədqiq etmişdir. Geniş elmi fəaliyyətlə məşğul olduğu 45 il ərzində,

Z.Freyd ilk dəfə olaraq, mükəmməl şəxsiyyət nəzəriyyəsi yaratmışdır. Həmin nəzəriyyədə o, insanı şüurlu və öz davranışını dərk edən varlıq kimi deyil, daim münaqişədə olan bir varlıq kimi təqdim etmişdir, elə bir münaqişədə ki, onun kökləri başqa, daha geniş – dərk olunmamış psixi sahədə yerləşir. Z.Freyd şəxsiyyətin struktur modelini yaratsa da, özü həmin modeli strukturdan daha çox müəyyən proseslər kimi qiymətləndirməyə meyil edirdi. Freydin psixoanalitik nəzəriyyəsi insanın davranışının öyrənilməsinə psixodinamik yanaşmanın nümunəsidir. Onun nəzəriyyəsi insanı daxili psixoloji münaqişələrdən tam asılı olan bir varlıq hesab edir. Z.Freydə görə, "tarixi proses qeyri-şüuridən izah edilməlidir". Bəşəriyyətin nəzəri və praktik varlığına, fəaliyyətinə təsir edən bu təlimə görə, "dünyanın sakitliyini pozan adamlar nəsli mövcuddur. Mövcud normalar sisteminin təşəkkülünə təsir edə bilən, mühafizəkar prinsipləri dağıtmaq iqtidarında olan şəxsiyyətlər bu nəslə mənsublardır" (Bax: З.Фрейд. Психология масс и анализ человеческого Я. М., 1925).

Şəxsiyyəti və şəxsiyyət haqqında təsəvvürlər sistemini tədqiq edən başqa nəzəriyyələr də kifayət qədər məşhurdur. F.Frommun şəxsiyyət nəzəriyyəsi insan davranışında qeyri-şüuri məqsədlərin aparıcı rolunu postulat kimi qəbul edir. Z.Freydin nəzəriyyəsindən fərqli olaraq, həmin məqsədlər bioloji cəhətdən şərtləndirilmiş məqsədlər kimi deyil, sosial məqsədlər kimi nəzərdən keçirilir. İnsan təbiətlə instinktiv əlaqələri itirir, lakin onları ictimai baxımdan şərtləndirilmiş tələbatların mənbəyi olan ekzistensional, tarixi və sosial ziddiyyətlər əvəz edir. Lakin cəmiyyət həmin tələbatların ödənilməsinə mane olursa, insanın mövcudluğu problemlərinin həllinin destruktivizm və konfor-

mizm formasında irrasional üsulları yaranır, bunların həyata keçirilməsi şəxsiyyətin, siyasi liderin mahiyyətini şərtləndirən xarakterin müxtəlif tiplərini əmələ gətirir. Həmin nəzəriyyələrlə yanaşı, X.Karenin, Q.S.Sallivenin, F.Frommun və bir çox başqa psixoloqların nəzəriyyələri də yaranmışdır. Onların baxışları bəzən neofreydizmə çevrilmiş və ya Freydin şəxsiyyət nəzəriyyəsi anlamına qarşı qoyulmuşdur.

"Şəxsiyyət" termininin bir neçə mənası var. Şəxsiyyət haqqında elm – personologiya insan fərdiyyətini daha yaxşı dərk etmək problemindən bəhs edir. İngilis dilindəki "person" sözü latınca "persona" sözündən əmələ gəlmişdir. Vaxtilə bu söz qədim yunan teatrında tamaşalar zamanı aktyorların taxdıqları maskanı bildirirdi. Beləliklə, həmin termin ilk çağlarda teatr tamaşasında komik və ya tragik obrazın olduğunu bildirirdi. Lakin lap əvvəldən "şəxsiyyət" anlayışında müəyyən rol oynayarkən fərdin qəbul etdiyi zahiri sosial obrazı ehtiva edirdi. Başqa sözlə desək, şəxsiyyət ətrafdakılara çevrilmiş fərdi simadır. Hazırda siyasi texnologiyalar siyasətçi imici yaradarkən "sizi şəxsiyyət edəcəyik" vədlərindən geniş istifadə edirlər. Psixoloqlar və politoloqlar "şəxsiyyət" anlayışının müxtəlif mənalarından geniş istifadə edirlər. Bir çox alimlər şəxsiyyət nəzəriyyəsinin şəxsiyyətin strukturu, şəxsiyyətin əsaslandırılması, şəxsiyyətin inkişafı və sair. kimi komponentlərindən istifadə edirlər. Qeyd etmək lazımdır ki, elm indiyədək şəxsiyyətin vahid və hamı tərəfindən qəbul edilən tərifini işləyib hazırlamamışdır. Lakin tədqiqat əsərlərinin əksəriyyətində şəxsiyyət fərdi xüsusiyyətlərin ümumi ideyası, hipotetik struktur, bütün ömrü boyu inkişaf prosesi, davranış xəttini izah edən mahiyyət kimi qəbul edilir.

Şəxsiyyət nəzəriyyəsi əsasən XX əsrdə daha geniş öyrənilsə də, ötən müddət ərzində toplanılmış məlumatlarda fəlsəfənin və psixologiyanın, təbabətin və s. nailiyyətlərindən bəhrələnməsi ona mühüm uğurlar qazanmağa imkan vermişdir. Həmin dövr ərzində işlənib hazırlanmış nəzəriyyələr insanı bütövlükdə öyrənməyə imkan verir. Bu nəzəriyyələr insan “Mən”inin mahiyyətini dərk etməyə kompleks yanaşmanı bu və ya digər dərəcədə uğurla tətbiq edirlər. Yuxarıda qeyd etdiyimiz kimi, bizi, sadəcə olaraq, öz mahiyyəti etibarilə ayrılıqda götürülmüş insan, fərd deyil, siyasi insan adlandırılan insan – “Homo politicus” maraqlandırır.

Politologiya, ilk dəfə olaraq, siyasi hakimiyyət və siyasi liderlik problemini, siyasi elita və siyasi rejimlər anlayışını elmi müstəviyə çıxarmışdır. Ötən əsr ərzində şəxsiyyətin tarixdə yeri haqqında bir çox elmi təsəvvürlər formalaşmışdır. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, tarixdə xalq kütlələrinin, siniflərin və digər sosial birliklərin rolu məhz şəxsiyyətlərdə, onların fəaliyyətində öz əksini, təcəssümünü tapır. Bu cəhəti vurğulamağın prinsipial əhəmiyyəti var. Axı, özlüyündə xalq, sinif, millət hansısa sosial birliklər kimi fəaliyyət göstərmirlər. Onların fəaliyyəti, münasibətləri və mübarizəsi ayrı-ayrı şəxsiyyətlərin, fərdlərin konkret fəaliyyətindən, hərəkətlərindən kənarda və əlahiddə təsəvvür edilə bilməz. Bu cəhəti qəbul etmədən, sosial birliklərin rolunun istənilən təfsiri yarımçıq olur, buna görə də cəmiyyət tarixinin fatalist, mistik anlaşmasına imkan yaradır.

Lakin məsələ təkcə onda deyildir ki, tarixin hərəkətverici qüvvəsi kimi şəxsiyyət kütlələrin və digər birliklərin işini konkret nəticə ilə başa çatdırır, həm də bundadır ki, ictimai

inkişafın məzmununun dərk olunması məsələsində şəxsiyyətin öz anlamı da var və bu, birliklərin heç birində, müştərək məcmu fəaliyyətlərin heç birində əriyib getmir. İctimai həyatın bənzərsiz koloriti, təkrarolunmazlığı məhz şəxsiyyətdən, onun biliyin və fəaliyyətin mənbəyi olan təcrübəsindən və fəhmindən, konkret hərəkətlərindən asılıdır.

Bütün bu deyilənlər göstərir ki, şəxsiyyətin tarixdə rolunun düzgün dərk olunması heç də birliyin və ya hansısa digər sosial qüvvələrin rolunun dərk edilməsinə "əlavə" deyildir. Bu rol tarixin nisbətən müstəqil elementidir. Tarixi inkişafın mühüm amili, hərəkətverici qüvvəsi olmaq etibarilə şəxsiyyətin rolu mütləqdir. Tarixin bütün mərhələlərində şəxsiyyətlər ictimai inkişafın lokomotivi kimi çıxış edirlər. Bu o deməkdir ki, istisnasız olaraq, hər bir şəxsiyyət tarixin hərəkətverici qüvvəsidir. Tarixi inkişafın hərəkətverici qüvvəsi olmaq, ümumiyyətlə, insanın mühüm immanent keyfiyyətidir. Əgər insan fərddirsə, o, tarixin mahiyyəti, hərəkətverici qüvvəsidir, tarixi prosesin fəal iştirakçısıdır.

İctimai həyatın mürəkkəb mexanizmini, tarixin hərəkətverici qüvvələrini bütün dolğunluğu ilə və hərtərəfli başa düşmək üçün tarixdə şəxsiyyətin həlledici rolunu axıradək dərk etmək lazımdır. Bunsuz ictimai proseslərin mahiyyətinə obyektiv qiymət verilməsi, cəmiyyətin qanunlarının elmi surətdə dərk edilməsi natamam olacaqdır. Şəxsiyyətin tarixin hərəkətverici qüvvəsi kimi qəbul edilməsi onun mahiyyət xarakteristikasını təsbit edir. Həmin mahiyyət heç də şəxsiyyət "oyununun" eyniliyini, standartlığını, tarixi, inkişaf etmiş və başqa modifikasiyaların mövcud olmadığını göstərmir.

Biz yalnız XX əsrdə bu qənaətə gəlmişik ki, siyasətin ilkin subyekti, onun “atomu” fərddir, şəxsiyyətdir, vətəndaşdır. Vətəndaş cəmiyyəti elementlərinin, demokratik dəyərlərin inkişaf etməsi ilə şəxsiyyət və vətəndaş problemi ön plana keçir. Nəzəri cəhətdən hər bir fərd siyasətin potensial subyektidir. Bu imkanı reallaşdırmaq üçün insan siyasi biliklər və təcrübə əldə etməli, öz mövqeyini işləyib hazırlamalı və siyasət aləmində özünün fəal münasibətini müəyyənləşdirməlidir. Digər tərəfdən, azad siyasi fəaliyyətin yuridik əsaslarının və hüquqlarının təmin edilməsi prinsipcə nə qədər vacib olsa da, bütün bunlar siyasətin hər hansı ayrıca atomunun avtomatik surətdə onun hərəkətverici elementinə çevrilməsinə təminat vermir. Deməli, insan məhz müvafiq birliyin üzvü kimi özünün inkişaf prosesində və şəxsi keyfiyyətləri sayəsində siyasətin və tarixin subyektinə çevrilir.

Politoloqlar cəmiyyət üzvlərini idarə edənlərə və idarə olunanlara bölürlər. Həm də bu zaman siyasi lider “siyasətə fəal və şüurlu surətdə qatılan və ona özünün dərk olunmuş maraqlarını və dəyərlərini gətirən bir insan kimi müəyyənləşdirilir. Görünür, siyasi prosesin digər iştirakçılarını irəlicədən passiv iştirakçı mövqeyi tutan “təbəə” tipli insanlar, yəni siyasi rollarının mənasını hansısa əzəli, şəksiz bir sima kimi liderə sözsüz tabe olmaqda görən adamlartək təsnif etmək lazımdır. Əlbəttə, bununla yanaşı, siyasi prosesə laqeyd münasibət bəsləmək – onda kortəbii və ya dərk edilməmiş iştirak kimi, yaxud siyasi süstlüyün təzahürü, yəni, sadəcə olaraq, siyasətdə iştirak etməmək kimi yanaşılması da mümkündür.

Siyasi davranışın və siyasətdə fərdlərin iştirakının “ideal” tiplərini əks etdirən modellər axtarışı yüksək siyasi fəallığa

malik olan, siyasi həyatda daim iştirak edən şəxsiyyətləri fərqləndirməyi zəruri edir. Şübhəsiz ki, təhlil üçün məhz belə şəxsiyyətlər daha çox maraq doğurur. Ancaq eləələri də var ki, şəxsiyyət kimi səciyyələndirilə bilər, lakin onlar siyasətdə təsadüfi hallarda iştirak edirlər. Şəxsiyyət tiplərinin təsnifatında siyasətə maraq göstərən, lakin siyasətdə şəxsən iştirak etməyən müşahidəçilər də var. Nəhayət, siyasətə bitərəf və ya mənfi münasibət bəsləyən şəxsiyyət tipləri, eləcə də siyasətdə iştiraka mənfi münasibət bəsləyən, siyasətdən uzaq şəxsiyyətlər də mövcuddur. Şəxsiyyət tipləri siyasi yönümünə və ya istiqamətinə görə də fərqlənirlər. Onlar “sollara”, “mərkəzçilərə” və “sağlara”, “radikallara”, “demokratlara” və “mühafizəkarlara”, “modernistlərə”, “ənənəvi millətçilərə” və “təməlçilərə”, “millətçilərə” və “kosmopolitlərə” bölünürlər. Real həyatda bu “ideal tiplər” siyasi liderlər mühitində, sabit siyasi baxışları və mövqeləri olan fərdlər mühitində daha aşkar və səciyyəvi şəkildə təzahür edirlər.

Elə qrup adamlar da vardır ki, onlar müxtəlif səbəblər, o cümlədən təhsil və mədəni xarakterli səbəblər üzündən siyasətdə iştirakdan yayınırlar. Lakin bu o demək deyildir ki, onlar siyasətdən kənarda qalırlar. Azərbaycanda bu siyasi hal özünü vətəndaşlarımızın 1988-1992-ci illərdəki mitinq fəallığından sonrakı dövrdə təzahür etdirmişdir. Siyasi problemlərə süst münasibət yaranması nəticəsində diletantların, siyasətdə səriştəsi olmayan adamların 1992-ci ilin ortalarında hakimiyyəti zəbt etməsi mümkün oldu. Həmin proseslər bir daha göstərdi ki, kütlələr ictimai hərəkatlarda və siyasi proseslərdə iştirak etməkdən kənarlaşdırıldıqda, siyasət kütlələrə onların həyatına mənfi təsir göstərən bir amil kimi qayıdır.

Şəxsiyyətin siyasi strukturu sosial təcrübə ilə, fikirlərin və davranışın siyasi yönümü ilə səciyyələnir ki, bunlar da şəxsiyyətin yardımçı sosial strukturunu təşkil edir. İntellekt səviyyəsi (psixoloji yardımçı struktur), temperament (bioloji yardımçı struktur) və təhsil, mədəniyyət və mənəviyyat səviyyəsi (mənəvi yardımçı struktur) az əhəmiyyət kəsb etmir.

Demək lazımdır ki, siyasi liderlərin xalqların və ölkələrin müqəddəratına təsiri məsələsi, liderlik fenomeni bəşəriyyəti bütün zamanlarda düşündürmüşdür. Çünki əsrlər boyu böyük şəxsiyyətlər bir çox cəhətdən dövrləri və sivilizasiyaları təcəssüm etdirmişlər, haqlı olaraq sosial tarixin əsas mərhələlərini, onun nailiyyətlərini və sarsıntılarını şəxsləndirmişlər. Vətəndaşların hakimiyyət maraqları, siyasi liderlərin, onların ardıcıllarının və əleyhdarlarının mübarizəsi və ya əməkdaşlığının mexanizmləri məhz liderlikdə cəmləşir.

Böyük şəxsiyyətlərə, liderliyə marağın, bu mürəkkəb sosial fenomeni dərk etmək cəhdlərinin tarixi çox qədimdir. Hələ antik tarixçilər Heredot, Fukidid, Tatsit, Plutarx və başqaları görkəmli şəxsiyyətlərin – monarxların, başçıların, sərkərdələrin fəaliyyətini tarix əsərlərinin mərkəzi mövzusu etmişlər. Platonun, Aristotelin, Polibinin, Lokkun, Makiavellinin əsərlərində siyasi davranışın qaydaları işlənib hazırlanmış, liderlik texnologiyasının mühüm elementləri əksini tapmışdır. Antik tarixçilərdən başlayaraq bir çox müasir sosioloqlara qədər, dünya tarixi böyük dövlət xadimlərinin və siyasətçilərin fəaliyyətinin nəticəsi kimi nəzərdən keçirilir.

Ayrı-ayrı şəxsiyyətlərin, bəşəriyyətin bütün digər hissəsinin taleyini həll etmək səlahiyyəti verilmiş bu cür “fövqəlinsanların” rolunu mədh edən nəzəriyyələr az deyildir. Fransız tarixçısi

T.Karleyl (1795-1881) yazırdı ki, dünya tarixi, əslində, görkəmli şəxsiyyətlərin tərcümeyi-halıdır. Amerika filosofu P.U.Emrson (1803-1882) hesab edirdi ki, tarix qəhrəman şəxsiyyətlərin fəaliyyətinin nəticəsidir. F.Nitsşe (1844-1900) özünün belə bir ideyasını əsaslandırmağa çalışırdı ki, bəşəriyyətin ali nümayəndəsi kimi yalnız "fövqəlinsan" böyük işlər görür, tarixi yaradır. Sosial psixologiyanın banisi fransız Q.Tardın (1843-1904) fikrincə, sosial həyatın əsas qanunu ardıcılların lideri yamsılamasıdır. O hesab edirdi ki, əhalinin əksəriyyəti müstəqil sosial yaradıcılığa qadir deyildir. Tarixdə, sosial praktikada bu fikri təsdiq edən çoxlu misal var. Böyük islahatçılar olmadan cəmiyyətin tərəqqisi, yeniləşməsi neçə-neçə illər uzana bilər, eyni zamanda, ardıcıllarsız böyük şəxsiyyətlər yoxdur. Hər halda, belə şəxsiyyətlər tarixdə qalmayıblar.

Adları çəkilən müəlliflərin söylədikləri bir çox müddəalarla razılaşmaqla yanaşı, onu da deyək ki, bütün cəlbediciliyinə baxmayaraq, bu müddəaların bir zəif cəhəti var. Tarixi inkişafda şəxsiyyət amilini mütləqləşdirməyin qüsurlu cəhəti odur ki, bu sosioloji nəzəriyyələr tarixi prosesdə xalq kütlələrinin rolunu tamamilə inkar edir. Belə nəzəriyyələrin müəllifləri xalqa öz tarixi vəzifəsini yalnız onun başında görkəmli siyasi xadim dayandıqda yerinə yetirə bilən süst, amorf kütlə kimi baxırlar. Belə mövqe tarixi prosesdə xalq kütlələrinin rolunun bütünlüklə inkar edilməsinə gətirib çıxarır ki, bu da sosiologiyada açıq-aşkar ifratçılıqdır. Dünya təcrübəsi sübut edir ki, xalq kütlələri olmadan böyük şəxsiyyət ordusuz sərkərdədən savayı bir şey deyildir. Sovet dövründə belə nəzəriyyələr antimarksist baxışlar kimi pislənirdi. Lakin postsovet məkanındakı bütün ölkələrin yaşadığı mürəkkəb keçid dövrü göstərdi ki, güclü lider, təcrübəli

dövlət xadimi və siyasi xadim olmadan ölkəni ümumi böhrandan çıxarmaq, iqtisadi və siyasi sistemi əsaslı surətdə dəyişdirmək mümkün deyildir. Beləliklə, əgər biz xalq kütlələrinin tarixin hərəkətverici qüvvəsi olduğunu etiraf ediriksə, onda böyük şəxsiyyətlərin tarixin yaradıcıları olması fikri ilə də razılaşmalıyıq.

Bu məsələ barəsində müxtəlif tədqiqat əsərlərində real şəkildə mövcud olan iki qütb var və bunlar tarixdə şəxsiyyətin rolunun qavranılmasının ayrıca bir şəxsiyyətin birbaşa inkar edilməsindən onun mədh edilməsinə və ilahiləşdirilməsinə qədər bütün çalarlarını əhatə edir. Həmişə olduğu kimi, həqiqət aralıq mövqedədir. Onu aşkar etmək üçün bu və ya digər şəxsiyyətin liderə çevrildiyi tarixi proseslərin bəzi xüsusiyyətlərini nəzərdən keçirmək lazımdır. XIX əsr rus filosofu və publisisti A.İ.Gertsen yazırdı ki, "şəxsiyyəti mühit və hadisələr yetirir, ancaq hadisələri də şəxsiyyətlər həyata keçirir və hadisələr özündə onların izini daşıyır – burada qarşılıqlı əlaqə var" (Bax: Köhnə yoldaşıma. Seçilmiş əsərləri, c. 20 (2), Moskva, 1960, səh. 588).

Tarixi şəxsiyyət sosial tələbatın, müəyyən sosial qüvvələrin artmasının və xüsusi, məhz həmin şəxsiyyətə xas olan keyfiyyətlərin yaranmasının və tərbiyə olunmasının bir növ qarşılıqlı əlaqəsi kimi formalaşır. Bu iki amilin və ya tərkib hissəsinin təsiri, sanki şəxsiyyətin tərcümeyi-halında və fəaliyyətində birləşir. Başqa sözlə, bir tərəfdən, şəxsiyyət başçılıq etdiyi sosial təbəqələrin enerjisini sanki özünə çəkir, belə ki, müəyyən mənada şəxsiyyət konkret şəkildə götürülmüş sosial qüvvənin təcəssümü, ifadəsi, onun rolunun konkret surətdə başa çatdırılmasıdır. Digər tərəfdən, kütlələrin sosial enerjisini özünün xüsusi fərdi keyfiyyətləri

ilə birləşdirməklə, şəxsiyyət sanki bu enerjini artırır, ona əlavə güclü impuls verir. Elə bu iki cəhətin – kütlələrin sosial enerjisi ilə xüsusi fərdi keyfiyyətlərin çulğaşması tarixdə şəxsiyyətin görkəmli rolunu şərtləndirir.

Bu və ya digər tarixi şəxsiyyətin rolunu qiymətləndirərkən nəyin kütlələrin, sosial qrupların fəaliyyətindən, nəyin isə bilavasitə fenomenal şəxsiyyətdən asılı olduğunu dəqiq fərqləndirmək lazımdır. Əks halda, G.V.Plexanovun dediyi kimi, "optik aldanmaya", yəni sosial qrupların, kütlələrin xidmətini yalnız şəxsiyyətin adı ilə bağlamağa gəlib çıxmaq olar (Bax: Plexanov G.V. Seçilmiş fəlsəfi əsərlər, c.2, Moskva, 1966, səh.327). Problemin bu cəhətinə toxunarkən digər ifratçılığa – şəxsiyyətin rolunu qiymətləndirməməyə də yol vermək olmaz. Məsələ bundadır ki, əgər şəxsiyyət kütlələr olmadan qarşıya qoyduğu məqsədə yetə bilməzsə, kütlə də şəxsiyyətin lider keyfiyyətləri olmadan bu məqsədə çata bilməz. Yaxud da həmin məqsəd ona çox baha başa gələr!

Tarixi şəxsiyyətin rolu ondan ibarət deyil ki, o, kütlələrin və ya sosial qrupların mənafelərini hamıdan yaxşı ifadə edir. Məsələyə belə münasibət hadisələri obyektiv qiymətləndirməkdən uzaqlaşdıra bilər. Belə ki, xalqın mənafelərinin ifadəçisi kimi görkəmli şəxsiyyətin rolunun güclü şəkildə qabardılması, əslində, onun xilaskarlıq xarakterinin inkar olunması deməkdir. Məsələyə bu cür yanaşıldıqda, şəxsiyyət manipulyasiya obyekti, özgə maraqların və səylərin daşıyıcısı kimi qarşımızda durur. Halbuki özünün görkəmli fərdi keyfiyyətləri, özünəməxsus fərdiliyi sayəsində tarixi şəxsiyyət bənzərsiz fərdiyyət kimi tarixin, ictimai həyatın gedişində öz izini qoyur. Həm də lider şəxsiyyət kimi nə qədər miqyaslı və

parlaqdırsa, o, tarixin gedişinə bir o qədər çox təsir edir və tarixin originallığını şərtləndirir.

Şəxsiyyətin roluna qiymət verərkən belə bir faktı da nəzərdən qaçırmaq olmaz: sosial şərtlərlə liderin fərdi qabiliyyəti arasında mütləq uyğunluq yoxdur. Elə hallar da yaranır ki, tarixi şəxsiyyətin fərdi keyfiyyətləri sosial dəyişikliklərin miqyasına heç də cavab vermir, bu keyfiyyətlər həmin dəyişikliklərin hüdudlarını aşa da bilər, sosial tələbatdan aşağı da ola bilər.

Tarixdə şəxsiyyətin rolu daha çox tarixi proseslərin gedişinin xüsusiyyətləri ilə bağlıdır. Ümumi şəkildə tarixi prosesləri təkamül-funksional və inqilabi-ekstremal proseslərə bölmək olar. Bunlardan birincisi, cəmiyyətin keyfiyyətcə sabit struktur çərçivəsində fəaliyyət göstərməsi proseslərindən, ikincisi isə, qaydaya düşmüş ictimai həyatın inqilabi yolla qırılmasını, cəmiyyətin maksimum səfərbər olmasını və onun səylərinin cəmləşdirilməsini tələb edən müharibələr kimi ekstremal vəziyyətləri əhatə edən, bir növ, dönüş mərhələlərindən ibarətdir. Bu proseslərin gedişində ayrı-ayrı şəxsiyyətlərin, fərdiyyətlərin rolunu çox və ya az dərəcədə tam şəkildə aşkara çıxarmaq üçün müxtəlif şərait yaranır. Məsələn, cəmiyyətin təkamül-funksional inkişafı dövrləri insanların şəxsi keyfiyyətlərinin üzə çıxması üçün az əlverişlidir. Hətta bu keyfiyyətlər reallaşsa da, bunun ictimai əks-sədası az olur. İnqilabi-ekstremal proseslərə (hətta lokal, cəmiyyət həyatının bir nöqtəsində cəmlənmiş, tarixin bir anında baş verən) gəldikdə isə bunların məzmununun özü elədir ki, dəyişikliklərin əhəmiyyəti, tarixin sonrakı gedişinə onların təsiri kəskin şəkildə artır. Belə şəraitdə şəxsiyyətin rolu xüsusilə geniş üzə çıxır, onun taleyi bu dəyişikliklərlə sıx bağlı

olur. Təsadüfi deyil ki, bu dövrlər ya dünənədək hələ heç kimə məlum olmayan, yaxud da hansısa müddətə siyasi səhnədən çəkilmiş insanları sanki hadisələrin mərkəzinə çıxarır.

SSRİ-nin birdən süqutu ona gətirib çıxardı ki, yaxın və kifayət qədər uzaq keçmişin mürəkkəb tarixi proseslərini yeni təfəkkürlə dərk etməyə kəskin ehtiyac yarandı. Lakin bu ehtiyac dərhal ödənilə bilməzdi. Məsələn, bir müddət Rusiya insanların işıqlı gələcək barədə həyata keçməyən arzuları ilə ustalıqla möhtəkirlik edən siyasət oyunbazlarının ixtiyarına keçdi. Azərbaycan da bu hallardan kənarda qala bilmədi. “Yeni biçimli demokratlar” dalğası dəbdə olan ibarələrlə danışan və ictimai şüurla cəsarətlə manipulyasiya edən populist meyilli yalançı liderləri ortaya çıxardı. Baxmayaraq ki, şərait ekstremal idi, lakin o, əslində, sosial-siyasi ziddiyyətlərin son dərəcə mürəkkəb kompleksini həll etməyə və ölkənin gələcək inkişaf mərhələlərini müəyyənləşdirməyə qadir olan bir şəxsiyyət ortaya çıxarmadı. Həmin dövrdə Azərbaycanda gedən tarixi proseslərin xarakterinin özü obyektiv olaraq, üstüörtülü şəkildə qeyri-adi şəxsiyyətə olan ehtiyaca yönəlmişdi, ancaq bu ehtiyac ödənilməmiş qaldı. Xalq, əslində, başsız idi, bir tərəfdən, onun arzu və istəklərinə adekvat cavab verməyə, digər tərəfdən isə, ölkəni siyasi və iqtisadi böhrandan çıxarmaq strategiyasını hazırlamağa qadir şəxsiyyət tapılmadı. Azərbaycanın ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəlindəki təcrübəsi belə bir həqiqəti bir daha təsdiq edir ki, böhran dərinləşdikcə və tarixdə mühüm, əlamətdar hadisələr toplandıqca siyasi liderə, qeyri-adi şəxsiyyətə ehtiyac xeyli artır. Bu şəxsiyyət siyasi səhnədə görünə də bilər, görünməyə də. Tarixi inkişafın sonrakı gedişi məhz bundan asılıdır.

Tədqiqatlar göstərir ki, əgər hər bir cəmiyyət və yaxud sosial birlik fərdi xüsusiyyətlərin aşkara çıxarılması və reallaşdırılması üçün bir növ sosial fondursa, onda bu fon ayrı-ayrı cəmiyyətlərdə, birliklərdə olduqca müxtəlifdir. Ehtimal ki, bəzi birliklər şəxsiyyətin fərdi xüsusiyyətlərinə sanki biganədir, yaxud hətta bu xüsusiyyətləri üzə çıxmağa qoymur, digərləri isə, əksinə, liderlik keyfiyyətlərinin aşkara çıxmasına və möhkəmlənməsinə imkan yaradır.

Sosial birliyin və şəxsiyyətin fərdi keyfiyyətlərinin dialektik vəhdəti indiyə qədər ətraflı öyrənilməmişdir, hərçənd, bu problemin elmi təhlili son dərəcə vacibdir. Məsələ bundadır ki, hər dəfə tarixin dönüş mərhələlərində bu problem cəmiyyətin sosial qrupları və təbəqələri qarşısında, xalqın qarşısında bütün labüdlüyü ilə durur.

Problemin ictimai-tarixi praktika prizmasından nəzərdən keçirilməsi belə deməyə əsas verir ki, tarixi prosesdə şəxsiyyətin və xalq kütlələrinin rolunun qiymətləndirilməsi məsələsinə obyektiv, əsl elmi münasibətin məğzi bu ictimai fenomenlərin tamın iki bərabər hissəsi olduğunu etiraf etməkdən ibarətdir. Əgər xarizmatik lider xalq kütlələrinin fəaliyyətinə arxalanırsa, onların ümumi arzularını və mənafelərini əks etdirirsə, tarixdə həlledici rol oynaya bilər. Tarixdə xalq kütlələrinin yeri onların maddi dəyərlər istehsalındakı rolu ilə müəyyənləşdirilir. Cəmiyyətin tarixi isə siyasi iqtisadın öyrətdiyi kimi, istehsalın tarixidir. Deməli, maddi nemətlər istehsal edən xalq kütlələri cəmiyyətin əsas məhsuldar qüvvəsi kimi (bizim yaşadığımız elmi-texniki inqilab əsri də istisna təşkil etmir), tarixi inkişafın həlledici qüvvəsidir. Bu, heç də o demək deyildir ki, şəxsiyyət arxa plana keçir və sosial tərəqqidə heç bir rol oynamır. Problem

ondan ibarətdir ki, şəxsiyyətin fəaliyyətinə münasibətdə kütlələrin fəaliyyəti müəyyən məqamda birinci, əsas və müəyyənedicidir. Əgər şəxsiyyət kütlələrə arxalansa, onların mənafelərini ifadə etsə, cəmiyyət üçün nə isə görkəmli bir şey edə bilər. Kütlələrin fəaliyyəti şəxsiyyətin öz tarixi vəzifəsini reallaşdırması üçün zəruri şərtdir.

Beləliklə, şəxsiyyətin fəaliyyəti kütlələrin mənafeləri və arzuları ilə birbaşa, sıx bağlıdır. Xalq kütlələrinin rolu artdıqda, bu, əksər hallarda liderin meydana çıxmasına və şəxsiyyətin əhəmiyyətinin artmasına səbəb olur. Ən geniş kütlələrin siyasi həyata, tarixi yaradıcılıq prosesinə fəal qoşulduğu dövrlərdə şəxsiyyətin də rolu ölçüyəgəlməz dərəcədə yüksəlir. Liderlərin yerinə yetirdikləri vəzifələr daha mühüm, mürəkkəb və məsuliyyətli olur. Lider funksiyasını öz üzərinə götürmüş şəxsiyyət taleyüklü, milli problemləri həll etmək üçün ayağa qalxmış xalq kütlələrinin öndəri rolunu yerinə yetirir. Belə şəxsiyyət heç də hər kəsin bacarmadığı əməllərə və fəaliyyətə qadirdir. O, cəsarətlidir, qorxub çəkinmir, ən təhlükəli, ən gözlənilməz, lakin son nəticədə ən düzgün yolu seçməyi, millətin və dövlətin tərəqqisi naminə riskə getməyi bacarır. Şəxsiyyətin uğuru xalqın dəstəyi ilə, sosial həyatın ehtiyaclarına diqqətlə, cəmiyyətin obyektiv inkişaf qanunlarını əsas götürmək bacarığı ilə müəyyənləşdirilir. Əgər şəxsiyyət ictimai inkişafın şərtlərini və ehtiyaclarını başa düşməyə, həmin anda həlli zəruri olan məsələlərin mahiyyətini dərk etməyə qadir deyilsə, bu halda onun fəaliyyətinin heç bir səmərəsi olmayacaqdır.

Tarixdə milli liderlər, görkəmli şəxsiyyətlər təsadüfən meydana çıxmır. Artıq dediyimiz kimi, onlar cəmiyyətdə həmişə var və zamanın çağırışını gözləyirlər. Tarixi şəxsiyyətləri tarix

səhnəsinə kiminsə iradəsi deyil, müvafiq şərait və vəziyyət, hadisələr, bu hadisələrdə iştirak edən xalq kütlələri çıxarır.

Tarixi hadisələrin inkişafı bu hadisələrin önündə gedən şəxsiyyətlərdən nə dərəcədə asılıdır? Sosioloqlar tarixi prosesdə subyektiv amillərin roluna müraciət edərək, şəxsiyyətə bu və ya digər siniflərin, sosial qrupların obyektiv surətdə mövcud olan maraqlarının, tarixi inkişafın vaxtı çatmış tələblərinin ifadəçisi kimi yanaşırlar. Deməli, tarixi şəxsiyyətin, siyasi liderin meydana çıxması ölkənin və xalqın problemlərini həll etmək üçün insanların öz fəaliyyətini təşkil etməyə olan tarixən yaranmış ehtiyacdır. Başqa sözlə, siyasi liderlik fenomeni, şəxsiyyətin inteqrasiya potensialı obyektiv zərurətdən, cəmiyyətin ehtiyacından doğur. Ona görə də bu ehtiyac ödənilməyə bilməz.

Milli miqyaslı siyasi liderin ən mühüm funksiyası rəhbərliyi həyata keçirməkdir, elə bir rəhbərliyi ki, bu, vəziyyəti düzgün qiymətləndirməyi, öncül istiqamətləri adekvat şəkildə tutuşdurmaq və seçmək bacarığını, məqsədləri, real imkanları və siyasi texnologiyaların resurslarını nəzərə almaq bacarığını nəzərdə tutur. C.Nehru yazırdı: “Bizim ideyamız və məqsədimiz tarixi meyillərə zidd gedə bilməz” (Bax: C.Nehru. Ümumdünya tarixinə nəzər. Bakı, 1986, səh.8).

Xalqın, millətin, faciəsi “şəxsiyyət” iddiasında olan insanların faciəsi ilə başlanır. Ona görə də çox vaxt uğur və uğursuzluq bu hadisələrin önündə kimin getməsindən asılı olur. İradə və prinsipiallıqla birləşən kamillik, tez bir zamanda qərar qəbul etmək, həyatın irəli sürdüyü vəzifələrin mahiyyətini düzgün başa düşmək qabiliyyəti kimi keyfiyyətlərin tələb olunduğu dönüş mərhələlərində tarixi şəxsiyyətin rolu xüsusilə

böyükdür. Çox vaxt elə olur ki, tarixi şəxsiyyət nəinki ayrı-ayrı hadisələri sürətləndirir və ya ləngidir, onların xarakterini və məzmununu formalaşdırır, müəyyən edir, həm də məlum şəraitdə bu hadisələrin necə nəticələnəcəyini həll edir.

Ciddi sınaqlar dövründə, məsələn, sovet respublikalarının dövlət müstəqilliyi və milli müstəqillik əldə etməsi, yeni iqtisadi və siyasi münasibətlər sisteminə keçid kimi dönüş məramlarında siyasi liderdən, onun həyat təcrübəsindən və intellektindən, dünyagörüşündən, dünyada gedən proseslərin mahiyyətini dərk etməsindən çox şey asılı olur.

Azərbaycanın ötən əsrin 90-cı illərinin tarixi bizə xeyli acı dərslər vermişdir. Əgər mahiyyət etibarilə mütərəqqi olan proseslərin başında təsadüfi hallar üzündən siyasi diletant, bu rola hazır olmayan insan və ya romantik idealist durursa, onda fəlakət labüddür. Yeri gəlmişkən, Karl Popper yazırdı ki, romantik və ya estetik element yalnız təhsildə olur və bunlar siyasətdə olmamalıdır (Bax: Karl Popper. Açıq cəmiyyət və onun düşmənləri, c.2, səh. 318).

Əgər faciəvi təsadüf nəticəsində xalq hərəkatının başında bu cür adam dayanırsa, bu, hərəkat iştirakçılarının yetkinləşmədiyini və ya buna hazır olmadığını, habelə cəmiyyətin inkişafında ciddi qüsurlar olduğunu göstərir. Bu, belə deməyə əsas verir ki, tarixi şəxsiyyət özündə heç də həmişə siyasi strateq keyfiyyətlərini, geniş zəkanı, böyük təşkilatçılıq istedadını, iradə və qətiyyəti birləşdirmir. Bu zəruri keyfiyyətlərdən məhrum olan lider yalnız şərait imkan verənə qədər siyasət və hakimiyyət zirvəsində qala bilər. Siyasi iradəsi ilə yeni tarixi şəraitə nüfuz etmək imkanından məhrum olan lider şərait dəyişən kimi siyasi səhnəni tərk edir.

Tarixi şəxsiyyətin keyfiyyətlərinin sosial dəyişikliklərin miqyasına cavab vermədiyi hallar tarixdə az deyildir. Məsələn, Lui Bonapartın şəxsiyyətini həddən artıq mədh edən V.Hüqoya və P.Prudona cavabında Karl Marks yazırdı ki, mən, əksinə, göstərirəm ki, "Fransada sinfi mübarizə adi və gülünc bir şəxsiyyətin qəhrəman rolu oynamasına imkan verən şərait və vəziyyəti necə yaratdı" (Bax: K.Marks və F.Engels. Seçilmiş əsərləri, c.2, Bakı, 1978, səh.433).

Ölkə və millət üçün taleyüklü hadisələrin başında duran şəxsiyyətlər bu hadisələri sürətləndirə və qan tökülmədən başa çatdıra, yaxud onların irəliləyişini dayandıra, ölkəni vətəndaş müharibəsi girdabına sürükləyə (1993-cü ildə Azərbaycanda baş verdiyi kimi) bilər, pozucu, dağıdıcı qüvvələrin artmasına birbaşa və ya dolayısı ilə imkan yarada bilər. Karl Yunq hələ 40 il bundan əvvəl müxtəlif xalqların arxetiplərini tədqiq edərək, "Arxetiplər və kollektiv şüursuzluq" kitabında heyrətamiz bir şey yazmışdır: "Bütün xalqlarda Hökmdar və Təlxək arxetipləri var, ancaq təkcə Rusiyada bunlar o qədər yaxındırlar ki, əgər nə vaxtsa burada Təlxək hökmdar olsa, mən təəccüblənmərəm". Görünür, bu sətirlərin müəllifi böyük görücülük qabiliyyətinə malik idi və hadisələri bir çox illər öncədən görə bilmişdi, özü də təkcə Rusiya barəsində yox...

Tarixi təcrübə göstərir ki, adətən, o liderlər uğur qazanırlar ki, onlar siyasi hərəkatın gedişini, hadisələrin ahəngini həssaslıqla duyur və islahatlar aparmaqda gecikmir, hər şeyi vaxtında edirlər. Siyasi lider duyumunu itirən kimi, siyasi şəraitin, konyunkturanın dəyişdiyini vaxtında hiss etməyən kimi ya gülüş obyektinə, yaxud da öz partiyası və ölkəsi üçün bəlaya çevrilir. Moskvanın əlaltısı – 1988-1990-cı illərdə Azərbaycanda

KP MK-nın birinci katibi olan Ə.Vəzirov buna bariz misaldır. Xalqın qayğıları, problemləri və mənafeləri ilə heç bir bağlılığı olmayan bu adam ölkəyə rəhbərliyi öz üzərinə götürdü. Təbii ki, belə ambisiyalılıq onun üçün məzhəkə ilə, xalq və ölkə üçün isə faciə ilə nəticələnməli idi. Belə də oldu.

Ona görə də özünə və hərəkətlərinə tələbkarlıq, cəmiyyət qarşısında dərin məsuliyyət hissi, geniş siyasi görüş dairəsi, hadisələri proqnozlaşdırmaq qabiliyyəti və qəbul etdiyi qərarların düzgünlüyünə əminlik yaratmaq bacarığı siyasi liderin zəruri şəxsi keyfiyyətləri olmalıdır. Siyasi liderin xarakterik şəxsi xüsusiyyətləri arasında aşağıdakıları fərqləndirmək lazımdır: təşkilatçılıq qabiliyyəti, seçilmiş ideallara inam və bunları müdafiə etmək bacarığı; müəyyən qədər xarizmatiklik; güclü iradə və xarakter; optimal siyasi qərarlar qəbul etmək bacarığı; idarəetmə məsələlərində peşəkarlıq; ünsiyyətlilik və s. Şübhəsiz ki, real siyasi həyatda bu keyfiyyətlər heç də bütün liderlərə xas deyildir.

Geniş kütlələrin maraqlarını səriştəliliklə cəmləşdirmək və öz fəaliyyətində adekvat şəkildə ifadə etmək bacarığı siyasi liderin vacib və zəruri keyfiyyətləridir.

Liderin onu başçıdan fərqləndirən həlledici qabiliyyəti innovasiyalılığı, yəni daim yeni ideyalar irəli sürmək, yaxud bunları kombinə etmək və təkmilləşdirmək bacarığıdır. Siyasi liderdən, sadəcə, kütlələrin maraqlarını və ehtiyaclarını bir yerə yığmaq və inventarlaşdırmaq, onlara mane olmamaq deyil, bunları məhz novatorcasına dərk etmək, inkişaf etdirmək və təshih etmək tələb olunur.

Böyük şəxsiyyətin, liderin innovasiyalılığı, konstruktiv təfəkkürü onun proqramında, siyasi platformasında ifadə edilmiş

siyasi amalında özünü daha qabarıq göstərir. Bütün məşhur siyasi liderlər (Lenin, Ruzvelt, Kennedi, de Qoll, D"Estyen, Helmut Kol və başqaları) siyasi proqramlarının yeniliyinə, originallığına görə tarixə düşmüşlər. 1978-1979-cu illərdə məhz Fransa prezidenti J.D"Estyen və AFR kansleri Helmut Kol Avropa valyuta sistemi yaradılması barədə o dövr üçün tamamilə yeni olan ideyanı təklif etdilər. Bu ideya həmin dövrdə Avropa Birliyinin heç də bütün üzvlərinin lazımi dəstəyini almadı. Lakin üstündən iyirmi il keçəndən sonra – 1999-cu il yanvarın 1-də Avropa Birliyi öz iqtisadiyyatına avronun tətbiqi ilə yeni nəfəs aldı. Güclü innovasiya platformasının əsası ən müxtəlif qrupların və ictimai birliklərin maraqlarını optimal şəkildə birləşdirməyə qadir olan başlıca, dəqiq ifadə olunmuş məqsəddir. Liderin siyasi proqramı güclü şəkildə əsaslandırılmalı, onun ardıcıllarına konkret cavab verməlidir: liderin platformasının uğurla həyata keçiriləcəyi təqdirdə şəxsən onlar, ailələri, kollektiv nə kimi üstünlüklər əldə edəcəklər.

Liderin siyasi cəhətdən geniş məlumata malik olması ən mühüm keyfiyyətlərdən sayılmalıdır. Siyasi məlumat, ilk növbədə, müxtəlif sosial qrupların və təsisatların vəziyyətini və istəklərini qiymətləndirməyə imkan verir ki, bunun vasitəsilə də onların öz aralarında, dövlətlə və müxtəlif ictimai təsisatlarla qarşılıqlı münasibətlərinin inkişaf meyilləri haqqında mühakimə yürütmək olar. Siyasi informasiya, ilk növbədə, ona xidmət etməlidir ki, sosial qrupların, regionların, millətlərin və bütünlükdə dövlətlərin maraqlarının kəsişdiyi məqam nəzərdən qaçırılmasın.

Siyasi liderin mühüm, zəruri keyfiyyəti onun leksikonudur. Siyasi liderlərin indiki peşəkar leksikonunda müasir terminlər

həddindən artıq çoxdur. Bu terminlərin əksəriyyətindən yerli-yersiz istifadə olunur. Üstəlik, adi adamların çoxunun bu terminlərin mənası haqqında anlayışı yoxdur. Bundan əlavə, siyasi leksikonda rəqibi təhqir edən, onu xalqın düşməni kimi damğalayan, opponentdən uzaqlaşdıran sözlər hələ də çoxdur. Qərbdə germenevtika sürətlə inkişaf edir, onun köməyi ilə siyasi liderlərin dili, siyasi tezisləri, terminoloji baqajı təhlil olunur. Bizim siyasətçilər isə hələlik siyasi mədəniyyətin ümumi qəbul olunmuş elementlərini nümayişkaranə şəkildə inkar edirlər.

Nəhayət, liderin siyasi məqamı hiss etmək kimi keyfiyyətini də vurğulamamaq olmaz. XX əsrdə sosial fəlsəfə liderin siyasi məqamı hiss etmək qabiliyyətini onun mühüm xüsusiyyəti sayırdı. Bu, sadə formula ilə ifadə olunurdu: “Siyasətçi olmaq vaxtında tədbirlər görmək deməkdir”. Kompromisə getmək olduqca cəncəl və incə məsələdir. Müəyyən vaxtdan əvvəl kompromisə gedən lider nüfuzdan düşür, bunda gecikən lider isə təşəbbüsü əldən verir və məğlubiyyətə uğraya bilər.

Yuxarıda qeyd etdik ki, görkəmli şəxsiyyətlər tarix səhnəsinə xalqın və dövlətin taleyi üçün dönüş mərhələlərində, təhlükəli mərhələlərdə çıxırlar. Məhz bu, şəxsiyyətin qarşısında çox mürəkkəb problem qoyur: təhlükənin haradan gəlməsindən asılı olmayaraq, xalqın istəklərinə uyğun surətdə onun qarşısını almaq, dövlətin fəlakət girdabına yuvarlanmasını dayandırmaq. Böyük şəxsiyyət öz istedadını, ən yaxşı keyfiyyətlərini bu vəzifənin həllinə həsr edir. Şəxsiyyətin tarixi missiyasından və ya böyüklüyündən danışarkən biz tərəzinin bir gözünə onun xalq və ölkə naminə gördüyü işləri, o biri gözünə isə ümummilli mənafeləri təcəssüm etdirərək, qarşıya qoyulmuş məqsədə çatmaq üçün hansı metodlardan və formalardan istifadə etdiyini

qoymalıyıq. Tarixi şəxsiyyətin rolunu dəyərləndirərkən yeni ideyaların reallaşdırılmasının nəyə başa gəldiyini, sosial, iqtisadi və siyasi sahələrdə dəyişikliklərin səviyyəsinin əhəmiyyətini də nəzərə almaq lazımdır. Biz şəxsiyyətin böyüklüyünü səciyyələndirən bir çox keyfiyyətləri Azərbaycan Prezidenti Heydər Əliyevin siyasi və dövlət fəaliyyətində görürük. Tarixi şəxsiyyət kimi Heydər Əliyev Azərbaycanın dövlət quruculuğunun, müstəqil inkişafının fundamental bazası olan əzəli və əbədi dəyərlərin daşıyıcısı və yaradıcısıdır. Heydər Əliyevin çoxillik fəaliyyətinin təhlili və dərk edilməsi onun zəkasının və istedadının nə qədər qüdrətli və geniş olduğunu, Azərbaycan xalqının tarixini necə məqsədyönlü şəkildə və əsl ilhamla yaratdığını göstərir. Azərbaycan xalqı tarixi böyük şəxsiyyətlərlə çox zəngin olan xalqlardan biridir. Biz tarixdə müstəsna, xüsusi yeri və təyinatı olan şəxsiyyətləri, nəhəng yaradıcılıq istedadına malik şəxsiyyətləri, təkcə öz xalqına deyil, həm də bütün bəşəriyyətə məxsus olan şəxsiyyətləri nəzərdə tuturuq.

Öz varlığı ilə xalqına, dövlətinə şərəf və qürur hissi yaşadan tarixi şəxsiyyətlərin fəaliyyəti ölkənin milli həyatını, inkişafını məna ilə zənginləşdirir. Müasirləri bəzən bu fəaliyyətin miqyasını tam dərk edə bilmir, bugünkü məhdud maraqları və istəkləri baxımından çıxış edərək, onu dar mənada nəzərdən keçirib ixtiyari şəkildə şərh edirlər. Lakin vaxt sadəcə ötmür, insanları və şəraiti dəyişən tarix kimi yaşatmağı özü müəyyənləşdirir. Məhz bunun nəticəsidir ki, tarixi faktların subyektiv mövqelər baxımından şərh edilməsinin mənasızlığı inkarolunmazdır.

Təəssüflər olsun ki, bəzən biz ayrı-ayrı fərdlərin son onilliklər ərzində ölkədə baş verən sosial faktlara və hadisələrə

ümumi maraqlar, dövlətçiliyin möhkəmləndirilməsi, qeyri-qanuni fəaliyyət ilə mübarizə prizmasından yox, məhz şəxsi maraqlar mövqeyindən yanaşmasının şahidi oluruq. Həyat ziddiyyətlərdən ibarətdir. Bu və ya digər səbəblər üzündən kimsə vəzifəsindən kənarlaşdırılır, cəzaya məhkum olunur və yaxud özünün həyati planlarını, siyasi, iqtisadi və digər arzu-istəyini həyata keçirə bilmir. Bu, hər bir cəmiyyətə və dövlətə xasdır. İdeal heç bir şey mövcud deyildir, o, yalnız arzularda və nağıllarda olur. Əsas məsələ olaraq isə onu dərk etmək lazımdır ki, ölkənin inkişafını müəyyənləşdirən bu amillər deyildir. Ən başlıcası isə dəlicəbuğdanı toxumdan ayırmağı bacarmaqdır, bu hadisələrin arxasında dövlətçiliyin əsasını təşkil edəni, xalqın tarixi nailiyyətlərinin qorunmasına və möhkəmləndirilməsinə yönələn fəaliyyəti görməkdir.

Əgər bu gün Azərbaycana öz zəkası və istedadı sayəsində hadisələrin gedişinə təsir göstərməyə və hətta onları dəyişməyə qadir olan şəxsiyyət rəhbərlik edirsə, əgər bu şəxsiyyət bir güllə də atılmadan vətəndaş müharibəsini dayandırırsa və ölkədə sabitliyi təmin edirsə, əgər onun qüdrətli mənəvi, siyasi və təşkilatçılıq potensialı tarixi lazımi məcraya yönəldirsə və bütün bunlar dünyanın ən nüfuzlu siyasətçiləri tərəfindən etiraf olunmuşsa, onda böyük şəxsiyyət kimi tarixə düşmək üçün bunlar kifayətdir. Müdriklərin məşhur deyimi var: "Öz vətənində peyğəmbər olmaq çətin peşədir". Uzun əsrlər yol gəlmiş bu sözlərdə həqiqət var!

Əgər şəxsiyyətin böyüklüyü onun dövləti və xalqı çeşidli fəlakətlərdən xilas etmək missiyasını öz üzərinə götürməsindən ibarətdirsə, onda millətin böyüklüyü bu həqiqəti etiraf etmək bacarığıdır.

Dövlətin başında duran böyük şəxsiyyət mühüm və məsul ictimai funksiyanın daşıyıcısı, bütün xalqın iradəsinin və mənafelərinin ifadəçisidir. Deməli, dövlət başçısının müstəsna rolu bütün xalqın fəaliyyətindən, onun milli mənafelərindən ayrılmazdır.

Tarixi şəxsiyyətin liderliyi çox incə məsələdir. Bu məsələdə ölçü hissini çox asanlıqla itirmək və müvəffəqiyyətsizliyə uğramaq, hətta ifrata varmaq mümkündür. Burada bilavasitə ətrafda olanlardan da çox şey asılıdır. Hər kəs öz rolunu oynamalı və siyasət, hakimiyyət onu şirnikləndirməməlidir. Liderin rolunu həddindən artıq şişirtmək lazım deyil, eyni zamanda, lideri qiymətləndirməmək də yolverilməzdir, onun istedadından və qabiliyyətindən istifadə etməmək isə, ümumiyyətlə, cinayətdir.

Tarixi şəxsiyyət problemləri həyatın ümumən siyasiləşməsi və siyasi rəqabətin güclənməsi ilə əlaqədar kəskinləşir. Cilovlanmamış siyasi ambisiyalar, hakimiyyətə gəlmək iddiaları, populizm işə böyük ziyan vurur. Bu mənada bütünlükdə cəmiyyətin rolu az deyildir. Cəmiyyət yeni siyasi paradiqmanın formalaşmasına – bir-biri ilə qarşılıqlı surətdə bağlı olan və sosial təcrübənin qorunub saxlanmasını və nəsildən-nəslə ötürülməsini təmin edəcək universaliyalar sisteminin formalaşmasına, hər bir tarixi mərhələ üçün mahiyyətcə "qanuni" olan ictimai-siyasi sistemin məğzinin, onun mənasının, formalarının, məqsədlərinin və mövcudluq vasitələrinin yaradılmasına kömək etməlidir. Liderin öz "komandasını" formalaşdırmaq və gənc istedadlı liderləri geniş fəaliyyətə cəlb etmək, onların qarşısında məqsəd, vəzifə qoymaq qabiliyyətindən çox şey asılıdır.

Bu məsələdə başlıcası milli mənafelərə əməl etmək, bu və digər vəzifələri və məqsədləri “milli ideya” formuluna ahəngdar şəkildə daxil etməkdir. Tarix və şəxsiyyətin rolu milli ideyanın tərkib hissəsidir. Milli ideya isə, öz növbəsində, ölkənin inkişaf strategiyası deməkdir.

## MİLLİ TARİXİMİZİN YENİ MƏRHƏLƏSİ VƏ ŞƏXSİYYƏT SEÇİMİ

Tarix zaman-zaman hər bir xalqa yaşamaq imkanı verir. Ayrı-ayrı dövrlərdə, xüsusilə keçid çağlarında zamanın sərt sınaqlarına tab gətirənlər, ondan zəfərlə çıxmağı bacaranlar yaşayır, inkişaf edir, iqtisadiyyatı, siyasəti və ictimai həyatı formalaşdırır, ümumdünya tarixi inkişaf prosesində iz qoya bilir, digərləri isə tarixi şəxsiyyətlər ucbatından sınaqlara tab gətirməyərək, dünyanın etnik-siyasi xəritəsindən silinib gedirlər.

Ətrafımızda cərəyan edən, şahidi və iştirakçısı olduğumuz proseslərin, hadisələrin əzəməti və sürəti bəzən onların real qiymətini vermək, inkişaf dinamikasını anlamaq, bu hadisələrin və proseslərin tarixin dönüş anları olduğunu dərk etmək imkanını məhdudlaşdırır. Təsadüfi deyil ki, bir çox hallarda xalqların və dövlətlərin tarixində baş vermiş hadisələr son dərəcə müxtəlif, bəzən də ağır təhriflərə məruz qaldıqdan neçə onilliklər sonra özünün həqiqi qiymətini alır, yaşanmış proseslərin, hadisələrin mahiyyəti, məzmunu düzgün dəyərləndirilir. Bəşəriyyət minilliklər boyu dünənin qarşısında günahı etiraf etmək hissindən yaxasını qurtara bilməmişdir, bu gün də qurtara bilmir.

Yaşanmış tarixin heç bir təhrifə və ifratçılığa yol vermədən qiymətləndirilməsi bugünün və sabahın həqiqətlərinə aydınlıq gətirir, gələcəyin elmi əsaslarla proqnozlaşdırılması üçün etibarlı zəmin yaradır, səhv addımlar atılması ehtimalını azaldır. Məhz bu baxımdan müstəqil Azərbaycan dövlətində son on il ərzində baş vermiş siyasi, iqtisadi, sosial, mənəvi proseslərin obyektiv dəyərləndirilməsi, həmin hadisələrə və proseslərə müasirlər tərəfindən doğru, düzgün qiymət verilməsi, onların dəqiq izah edilməsi gələcək təftişlərin, saxtalaşdırmaların olması təhlükəsini xeyli azaldır.

Azərbaycan bu il öz dövlət müstəqilliyinin on illik yubileyini geniş qeyd edəcəkdir. Zaman baxımından kiçik olsa da, xalqımızın və dövlətimizin taleyində baş verən əsaslı dəyişikliklər baxımından zənginliyi ilə seçilən bu dövrün hər günü, əslində, tarixə düşmək haqqını əldə etmiş çox qiymətli vaxt kəsiyidir. Bu onillik ərzində qazanılmış ən böyük nailiyyət xalqımızın əsrlər boyu arzusunda olduğu azadlıq ideyasının reallaşması, sivil dünyada qəbul edilmiş demokratik prinsiplərin və normaların bərqərar olması, müstəqilliyimizin əbədi və dönməz olması, vətəndaş-dövlət münasibətlərinin yüksələn xətt üzrə inkişafı, milli özünütəsdiq üçün əlverişli şərait yaradılmasıdır.

İnkarolunmaz həqiqətdir ki, bəşəriyyətin əldə etdiyi ən böyük dəyərlər içərisində milli suverenliyə nail olmaq, müstəqillik qazanmaq, demokratik nəzarəti gücləndirərək, hakimiyyətin hüquqi-konstitusiya normaları çərçivəsində həyata keçirilməsini təmin etmək xüsusi əhəmiyyət kəsb edir. Tarixi təcrübə göstərir ki, hər hansı bir xalq, millət öz gələcəyinin hərtərəfli əsaslandırılmış, dəqiq müəyyən olunmuş strategiyasını yarada

bilmirsə, bu gələcəyi onun üçün başqa qüvvələr özlərinə sərf etdiyi şəkildə müəyyənləşdirir və o zaman həmin xalq və ya millət müstəqillik arzularının reallaşması ilə uzun müddətə və ya əbədi olaraq vidalaşmalı olur.

Müstəqillik həm də ona görə qiymətlidir ki, o, hər hansı bir xalqa, millətə öz milli həyatını istədiyi kimi, özünəməxsus şəkildə qurmaq imkanı yaradır, onun maddi və mənəvi qüvvələrinin, intellektual potensialının inkişafı üçün optimal şəraiti təmin edir. Müstəqil, milli dövlət formaları daxilində inkişaf edən xalqlar isə bəşər sivilizasiyasına öz töhfələrini verir, onu zənginləşdirir, daha rəngarəng və cəlbedici edirlər.

Zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı əsrlər boyu müstəqillik arzuları ilə yaşamış və öz tarixinin ayrı-ayrı dövrlərində güclü, müstəqil dövlətlər qurmağa da müvəffəq olmuşdur. Bu dövlətlər xalqımızın maddi mədəniyyət abidələrinin, ədəbiyyatının, dilinin, mənəvi-əxlaqi dəyərlərinin inkişafında və qorunub saxlanmasında mühüm rol oynamışlar. Eyni zamanda, qeyd edilməlidir ki, xalqımız öz qədim və zəngin tarixi ilə istedadını, qabiliyyətini eramızdan əvvəl III minillikdən, qədim Mannadan, Albaniyadan başlayaraq, zaman-zaman müstəqil dövlət halında yaşamaq haqqını sübut etmişdir. Yaxın və Orta Şərqdə ilk dramaturgiya, ilk opera, ilk qəzet Azərbaycanda meydana gəlmiş, latın əlifbasına keçməyə burada cəhd göstərilmişdir. Müsəlman Şərqində ilk demokratik respublika Azərbaycan xalqı tərəfindən qurulmuş, bütün Şərqdə müasir parlament mədəniyyətinin əsası məhz Azərbaycanda qoyulmuşdur. Sovet hakimiyyəti illərində, xüsusən 1970-1980-ci illərdə Azərbaycanın iqtisadiyyatı, elmi, mədəniyyəti, kadr potensialı güclü inkişaf etmiş, gələcək müstəqil dövlətin

möhkəm təməli qoyulmuşdur. Bu dövrdə milli mənlik şüurunun güclənməsi, tarixi yaddaşın oyanması, mədəniyyətimizin və ədəbiyyatımızın inkişafı, milli-mənəvi dəyərlərin təbliği tamamilə yeni mənəvi-psixoloji mühit yaratmışdır.

Öz tarixinin və taleyinin sahibi olmaq, dünya birliyinə daxil olan dövlətlər sırasında özünün siyasi varlığını sübut etmək, çox vaxt milli inkişaf maraqları ilə üst-üstə düşməyən qlobal proseslərin milli hakimiyyətə təsir qüvvəsini tarazlaşdırmaq, qlobal siyasi avantüralara cəlb olunmaq təhlükəsindən kənarda qalmaq bacarığı milli müstəqilliyin qorunmasının əsas şərtlərindəndir.

Müstəqillik illərində keçdiyimiz yola nəzər salmaq, qələbələrimizlə yanaşı, çətinliklərimiz və problemlərimizi təhlil etmək çox vacibdir. Gələcək tədqiqatların araşdırma obyektinə çevriləcək bu illər, heç şübhəsiz ki, Heydər Əliyev kimi yenilməz iradə sahibinin fəaliyyəti sayəsində anarxiyadan sabitliyə doğru inkişafın xüsusi mərhələsi kimi qiymətləndiriləcəkdir. Təcrübə göstərir ki, keçid dövrünü yaşayan hər bir xalqın tarixi taleyində xüsusi sınaq mərhələsi olmuşdur. Bu dövrü yaşayan dövlətlərin qarşılaşdıqları çətinlikləri dəfetmə müddətləri, konkret daxili və beynəlxalq şəraitdən asılı olaraq müxtəlif olmuşdur. Ayrı-ayrı ölkələrin, o cümlədən müasir Avropanın inkişaf etmiş dövlətlərinin tarix boyu bir-birini əvəz edən dövlət quruculuğu təcrübələri buna əyani sübutdur.

Bir quruluşdan digərinə keçid zamanı mövcud olan xaos, anarxiya dövrünün ağrısız keçilməsi, həmin dövrün törətdiyi faciələrin aradan qaldırılması sürəti hadisələri tam nəzarətdə saxlamağı bacaran və idarə edə bilən, siyasi prosesləri

istiqamətləndirmək bacarığı ilə seçilən şəxsiyyətin siyasi hakimiyyətdə təmsil olunmasından çox asılıdır. SSRİ-nin dağılmasından sonra meydana gəlmiş müstəqil dövlətlərin ərazilərində gedən yeni quruculuq prosesləri, onların sürəti və formalarındakı müxtəlifliklər, qarşıya çıxan çətinliklərin aradan qaldırılması müddətindəki fərqlər, konkret beynəlxalq şəraiti və daxili vəziyyəti qiymətləndirmək bacarığı tarixdə şəxsiyyət və zaman probleminin nə qədər aktual olduğunu göstərir. Məsuliyyətli anlarda qətiyyətli qərar qəbul etmək əzmi ilə seçilən dövlət başçısının qısa vaxt ərzində cəmiyyətdaxili sabitliyi təmin etməsi, ölkəni özünütəcrid təhlükəsindən qurtarması, mənəvi-psixoloji durumun sağlamlaşması, şəxsiyyətin, siyasi liderin tarixi məsuliyyət anlarında əvəzsiz rolunu və əhəmiyyətini müstəqil Azərbaycanın ötən on ildə əldə etdiyi tarixi təcrübə bir daha parlaq surətdə sübut edir.

Bu gün təsdiq edə biləcəyimiz real tarixi həqiqət bundan ibarətdir ki, Heydər Əliyevin hələ ötən əsrin 1970-1980-ci illərdəki dövlət quruculuğu fəaliyyətinə, onun siyasi iradəsinə, əzminə və uzaqgörənliyinə arxalanan Azərbaycan xalqı nəinki öz müstəqilliyini əldə etmiş və onu qoruyub saxlamışdır, həm də respublikada həyata keçirilən çox mühüm islahatlar və uğurlu xarici siyasət sayəsində bu nailiyyətlərin əbədiliyini və dönməzliyini təmin etmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ağrılarını yaşayan dövlətimizin gələcək inkişaf strategiyasını dərin elmi və məntiqi əsaslarla müəyyənləşdirən, xalqı milli tənhalıq hissindən və həmin dövrdə baş vermiş sosial-iqtisadi və ictimai-siyasi proseslərin nəticəsində yaranmış milli natamamlıq kompleksindən xilas edən, qələbə əzmini öz vətənpərvərlik ruhu

ilə gücləndirən Heydər Əliyev tarixi şəraiti düzgün qiymətləndirərək, bu dövrün minimal itkilərlə və faciəsiz keçilməsini təmin etdi. Az vaxt ərzində ölkədə hakimiyyətsizliyə və total özbaşınalığa son qoyulması, vətəndaş qarşıdurmasından ümummilli həmrəyliyə keçilməsi, atəşkəs rejiminə nail olmaqla xalqın genefondunun əbəs yerə məhv olmasının qarşısının alınması onun böyük və çoxşaxəli fəaliyyətinin nəticəsi olmaqla, qeyri-müəyyənliklər içərisində çaşıb qalmış cəmiyyətə yenidən dirçəlmək, öz qüvvələrini quruculuq işlərinə səfərbər etmək imkanı verdi.

Çoxəsrlik dövlətçilik tariximizin ən həssas dövründə – tarixi taleyin Azərbaycan xalqına müstəqil yaşamaq şansı bəxş etdiyi bir zamanda, hakimiyyəti ələ keçirərək bu qüvvədən, daha doğrusu, hakimiyyətin gücündən nəzarətsiz, ağına-bozuna baxmadan istifadə edən diletantların yaratdığı dərəbəylik və özbaşınalıqlar 1993-cü ildə müstəqil dövləti uçurum qarşısında qoydu. Tarixi təcrübənin də göstərdiyi kimi, belə xüsusi məsuliyyət tələb edən məqamlarda hakimiyyətə təsadüfən gəlmiş insanların törətdiyi faciələrin ağrılarını bütün xalq, dövlət onilliklər boyu yaşamalı olur. Heydər Əliyev isə sübut etdi ki, vətənpərvər, təcrübəli insanlar üçün, müdrik strateqlərdən ötrü siyasi hakimiyyət demokratik dəyərlərə əsaslanan, insan və vətəndaş hüquqlarının təmin olunmasına hər cür şərait yaradan azad, müstəqil cəmiyyətin formalaşdırılması yolunda güclü və səmərəli bir vasitədir.

1992-1993-cü illərdə ölkəmizdə baş vermiş hadisələrin mahiyyətini, dövlətimizin və xalqımızın varlığına qarşı çevrilmiş təhlükələrin dərəcəsini vaxt keçdikcə daha çox dərk etməyə başlayırıq. Onu da qeyd etmək lazımdır ki, cəmiyyətdə

baş verən hər hansı bir çaşqınlıq və xaosun ilkin səbəblərini insanların şüurlarında, onların yetkinliyində axtarmaq lazımdır. Yalnız düşüncələrdəki ideyalara aydınlıq gəlməsindən sonra cəmiyyətdə müəyyənlik yaranır və onun daxili proseslərə nəzarət imkanı ilə üst-üstə düşməsi gerçəkləşir.

Yuxarıda göstərilən dövr ərzində, daha doğrusu, 1992-1993-cü illərdə Azərbaycan dövlətçiliyinin tarixində baş verən proseslərin kortəbiiliyi və idarəedilməzliyi dumanlı təfəkkürün və aydın olmayan, qaranlıq ideyaların mövcudluğu ilə bağlı idi. Bu vəziyyət isə, öz növbəsində, baş verən proseslərə nəzarət etmək və onları istiqamətləndirmək iddiasında olan insanların dövlətçilik ideyalarını məhdud şəxsi maraqları və siyasi ambisiyaları ilə eyniləşdirmək cəhdlərinə, təbii ki, əsas verməli idi. Ən dəhşətlisi isə o idi ki, bu "siyasi liderlərin" fəaliyyəti nəticəsində cəmiyyətdə xaos güclənir, proletar diktaturasının dağıdıcı təbiətinə xas olan xüsusiyyətlər, bolşevizmin yeni təzahür forması olan "cəbhəçilik" psixologiyası və davranışları normaya çevrilir, qarşıdurma yeni-yeni forma və variantlarda təzahür edir, milli özünəyadlaşma güclənirdi. Bütün bunlardan əlavə, ölkə daxilindəki real etnik-siyasi durumu nəzərə almadan qəbul olunmuş qərarlar, cılız və heç bir əsası olmayan şüarçılıq, bayağı çağırışlar ölkəni etnik qarşıdurma və xaricdən müdaxilə həddinə gətirib çatdırmışdı. Cəmiyyət "hamının hamıya qarşı müharibəsi" prinsipinin hökm sürdüyü bir vəziyyətə gəlmişdi. Yaranmış vəziyyət radikal dəyişikliklər tələb edirdi.

Ölkəmizdə baş verən dramatik hadisələri yaxın və uzaq xaricdə diqqətlə izləyir və proqnozlaşdırırdılar. 1992-ci ildə "Vaşinqton post" qəzeti yazırdı: "Azərbaycanda hakimiyyət dəyişikliyini görmək istəyirsinizsə, bir neçə saat gözləyin". Heç

bir qanunu və beynəlxalq normaları tanımamaq, öz iradələrini başqalarına zorla qəbul etdirmək, özbaşınalığı həyat normasına çevirmək istəyi 1992-1993-cü illər ərzində hakimiyyətdə olanların əqidə simvoluna çevrilmişdi. Məhz bu baxımdan anarxiyadan sabitliyə gedən kəşməkəşli yolun təhlilinin verilməsi, məhvolma təhlükəsini yaşayan gənc Azərbaycan Respublikasının dövlətçilik tarixində Heydər Əliyevin xilaskar rolunun öyrənilməsi olduqca vacibdir. Tarixi həqiqət ondan ibarətdir ki, 1993-cü ilin ikinci yarısı Azərbaycanda siyasi hakimiyyət tarixinin ən mürəkkəb və eyni zamanda, ən şərəfli dövrüdür. Ötən illər ərzində qət etdiyimiz və getməkdə olduğumuz uzun və şərəfli yolun başlanğıcıdır. Böyük məqsədlərə gedən yolun başlanğıcı isə həmişə çətin və məsuliyyətli olur. Bugünkü müvəffəqiyyətlərimiz məhz o dövrdə qətiyyətlə atılan addımların düzgünlüyü və möhkəmliyi ilə təmin olunmuşdur.

1992-1993-cü illərdə baş verənlər – Gəncədə silahlı çıxış, cənubda Əlikram Hümbətovun elan etdiyi “Talış-Muğan Respublikası”, ölkənin başqa bölgələrində separatçılıq cəhdləri, Ermənistanın hərbi təcavüzü, ölkə daxilində hakimiyyət uğrunda silahlı mübarizə, iqtisadiyyatın talan edilib dağıdılması vəziyyətin nə qədər çətin və mürəkkəb olduğunu göstərir.

Azərbaycanın xarici siyasət prioritetlərinə, milli maraqlarına və dövlət təhlükəsizliyinə uyğun olmayaraq atılmış addımların sayı və miqyası bu dövrü təhlil edən hər kəsi təəccübləndirir. Ölkə beynəlxalq aləmdən təcrid olunmuş bir vəziyyətə salınmışdı. Keçmiş sovet məkanına daxil olan respublikalarla iqtisadi, siyasi və mədəni əlaqələr qısa müddət ərzində tam şəkildə dağıdılmış, ölkənin xarici siyasəti birvektorlu istiqamət

götürərək, Azərbaycanı regional və qlobal geosiyasi təcrid vəziyyətinə gətirib çıxarmışdı.

Ölkədə yaranmış ideoloji boşluğu meydan və çayxana millətçiləri və radikal “ideoloqlar” özlərinin basmaqəlib fikirləri ilə doldurmağa çalışırdılar. Yeni “siyasi səhnə” yaradılırdı. Siyasətin “istifadə mədəniyyətini” formalaşdıra bilməyən, müasir dünyada, o cümlədən qabaqcıl ölkələrdə gedən ictimai-iqtisadi proseslərdən, hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunun mahiyyətindən nəinki baş çıxarmayan, bundan tam xəbərsiz olan “siyasətçilər” tarixin obyektiv inkişaf qanunauyğunluqları ilə hesablaşmayaraq, qeyri-müəyyən və yalnız “real sosializmin legitimliyi”nin inkarı əsasında formalaşan quruluşa keçməyə cəhd göstərirdilər. Onlar keçmək istədikləri “quruluşu” təsəvvür belə etmirdilər desək, heç də yanılmarıq. Nəticədə, milli valyuta sürətlə inflyasiyaya uğrayır, əhalinin sosial vəziyyəti getdikcə pisləşir, ölkə dünya iqtisadi sistemindən sürətlə təcrid olunurdu.

İlkin araşdırmalar, aparılan təhlillər göstərir ki, 1992-1993-cü illəri ölkəmizin müasir tarixində “ən faciəli mərhələ, misli görünməmiş hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü” adlandırsaq, səhv etmərik. Taleyin verdiyi böyük bir şans AXC-Müsavat cütlüyünün aparıcı nümayəndələrinin uğursuz fəaliyyəti nəticəsində xalqın milli arzularının puça çıxması təhlükəsi ilə üz-üzə qalmışdı. Bu, milli tariximizin acınacaqlı bir səhifəsi idi. Hökm sürən qarma-qarışıqlıq meyilləri və təzahürləri cəmiyyətin siyasi sosiallaşması qanunlarına zidd olaraq, iki prinsip əsasında həyata keçirilən fəaliyyətlə bağlı idi. Birincisi – yeni nəsil üçün keçmiş nəslin siyasi mədəniyyət normalarında öz əksini tapmış siyasi

təcrübənin lüzumsuz hesab olunması; ikincisi – müxtəlif dövlət təsisatları vasitəsilə həmin təcrübənin həyata keçirilməsinin qeyri-mümkün sayılması. Bir sözlə, AXC-Müsavat iqtidarının xaos və anarxiya ilə müşayiət olunan birillik hakimiyyəti tarixdə “dövlət idarəçiliyi necə olmamalıdır?” sualına verilmiş cavabın ən tipik və əyani nümunəsi idi.

Nəticədə 1992-1993-cü illərdə həm ölkəmiz, həm də cəmiyyətimiz ölkə rəhbərliyinin səriştəsizliyi, ziddiyyətli və qeyri-ardıcıl siyasəti nəticəsində dərin siyasi, sosial-iqtisadi böhran içərisində, uçurum astanasında idi. Müstəqilliyin itirilməsi, dövlətin məhvolma təhlükəsi real xarakter almışdı. Azərbaycanın dövlət müstəqilliyi artıq “olum, ya ölüm” dilemması qarşısında idi. Ən acınacaqlısı isə bu idi ki, Azərbaycan tarixində xalqımızın müqəddəratı baxımından çox əhəmiyyətli dövr özlüyündə qeyri-müəyyənlik prinsipi əsasında qurulmuşdu. Əsası M.S.Qorbaçovun “yenidənqurma” və “yeni təfəkkür” konsepsiyalarından, Dağlıq Qarabağ problemindən götürülsə də, 1992-1993-cü illərin siyasi və sosial-iqtisadi prosesləri, sözün əsl mənasında, öz kortəbii axarına buraxılmışdı. Birinci Dünya müharibəsi zamanı “demokratiyanın patoloji forması” haqqında italyan tarixçisi F.Füre belə bir fikir söyləmişdi ki, “...kütlə siyasətə müharibədən keçərək daxil oldu və sonra, yalnız müharibənin qadağan etdiyi sayda qurbanlar verdikdən sonra bu müdhiş fəlakətdən can qurtara bildi” (Fure F.Procacci G.Controverco Novecento. Milano: Reset, 1995, p.16). Bu sözləri 1992-ci ilə şamil etsək, Azərbaycan cəmiyyətinin həmin dövrdə siyasətə necə cəlb olunmasının parlaq təzahürünü görərik.

Tarixin ibrət dərsləri dəfələrlə əməli şəkildə sübut etmişdir ki, istiqlaliyyəti qoruyub saxlamaq onu əldə etməkdən qat-qat çətindir. Müstəqilliyə çıxmaq üçün başlıca olaraq iki şərt

zəruridir: tarixi şans və tarixi şəxsiyyət. 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətindən çıxarılan nəticələr bu fikri bir daha təsdiq edir. Cümhuriyyət xadimlərinin azadlıq hərəkatı tariximizdə mühüm rol oynamalarına baxmayaraq, o zaman dövlət idarəçiliyi təcrübəsinin və ümummilli siyasi liderin olmaması, Azərbaycan dövlətçiliyinin daxili və xarici düşmənlərinə qarşı mübarizədə qətiyyətsizlik və dövlət məsuliyyətinin lazımi səviyyədə olmaması, digər amillərlə birlikdə, müsəlman Şərqində ilk dünyəvi respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna səbəb olmuşdu. 1991-ci ildə müstəqillik aktının qəbul olunmasından sonra baş alıb gedən siyasi hərc-mərclik nəticəsində 1993-cü ilin iyununda Azərbaycan Respublikası da öz sələfinin uğursuz aqibətinin təkrar oluna biləcəyi acınacaqlı bir vəziyyətlə üzləşmişdi.

O zamankı ictimai-siyasi proseslərin təhlili aydın göstərir ki, yaranmış təhlükəli şəraitdə xalq ölkənin uçuruma yuvarlanmasının qarşısını almağa, müstəqilliyi qoruyub saxlamağa, məcrasından çıxmış hadisə və prosesləri öz təbii axarına salmağa, bu ağır məsuliyyəti öz üzərinə götürməyə hazır və qadir olan rəhbər axtarışında idi. Xalqımız öz taleyini məhz bütün bundan əvvəlki fəaliyyəti və zəngin dövlət idarəçiliyi təcrübəsi ilə onun dərin inamını qazanmış, ən mürəkkəb problemlərin həllində öz misilsiz bacarıq və qabiliyyətini dəfələrlə sübut etmiş insanla bağlamaq istəyində idi.

1993-cü ilin əvvəllərinə nəzər saldıqda görürük ki, istər cəmiyyət daxilində, istərsə də beynəlxalq aləmdə baş verən prosesləri dərk etmək imkanından məhrum olan “siyasi liderlər” dövlətçiliyin itirilməsi və xalq qarşısında məsuliyyət

daşımaq anlarında öz bacarıqsızlıqlarını bir daha nümayiş etdirərək, vəziyyəti xilas etmək üçün Heydər Əliyevə müraciət etmək məcburiyyətində qaldılar. Onlar etiraf etməyə məcbur oldular ki, bütün "siyasi komanda"ları ilə birlikdə həlledici anlarda qətiyyətli bir qərar qəbul etmək iqtidarında deyillər. Həm xalqın qəzəbinə tab gətirməyən, həm də düşdükləri çıxılmaz vəziyyətdə klassik "nə etməli?" sualı qarşısında acizliklərini nümayiş etdirən AXC-Müsavat hakimiyyəti dövlət rəhbərliyinə Heydər Əliyevi təkidlə dəvət etməkdən başqa çıxış yolu tapa bilmədi. Bu da qanunauyğunluğun konkret təzahürü, ağır böhrandan yeganə çıxış yolu idi. Biz bir daha onun şahidi oluruq ki, insan ağır, çıxılmaz vəziyyətə düşdüyü anda onun özünü qorumaq hissi başqa maraqlarını üstələyir. Elçibəy hakimiyyəti Heydər Əliyevə müraciət edəndə onlar heç də millət və yaxud dövlət düşüncələri ilə hərəkət etmirdilər. Əsas məqsəd vaxt udmaq, cəmiyyətdə onlara qarşı olan qəzəbi və nifrəti yayındırmaq, ölkədəki hərc-mərcliyin, kəskin qarşıdurmanın məsuliyyətini Heydər Əliyevin üzərinə qoymaq idi. Heydər Əliyevin isə dahiliyi onda idi ki, o, bütün bu çılpaq oyunları çox gözəl dərk edirdi. Tarixi şəxsiyyət olaraq, o, Azərbaycan cəmiyyətinin ümumi maraqlarını dərindən anlayırdı, ümdə və tarixi vəzifələrin öhdəsindən gəlməyin yollarını digərindən daha yaxşı bildiyi üçün cəmiyyəti üzvi surətdə təcəssüm etdirir, onun arzularını, istəklərini və labüd olan tarixi vəzifələrin həlli yollarını görürdü.

Məşhur alman sosioloqu Maks Veber tarixi şəxsiyyəti və siyasi rəhbəri üç tipə bölürdü: ənənəvi siyasi rəhbər, leqal siyasi rəhbər və xarizmatik (Allah tərəfindən şövqləndirilmiş) liderlər. Onun fikrincə, üçüncü tip – xarizmatik liderlər dövlət

quruculuğu işində daha çox və daha dərin iz qoyurlar. Məhz bu şəxsiyyətlər xarici qüvvənin yox, bilavasitə öz daxili gücünün hesabına hakimiyyətə gəlirlər. Bu liderlər tarixin axarını dəyişərək, onu ümummilli və ümumdövlət mənafeyinə uyğun istiqamətə yönəldirlər. Onlar dirçəlməkdə olan dövləti, onun daxili və xarici siyasətini formalaşdıraraq, bəşəriyyətin tarixində silinməz iz buraxırlar. ABŞ-da Corc Vaşinqton, Türkiyədə Mustafa Kamal Atatürk, Fransada general Şarl de Qoll, Böyük Britaniyada Uinston Çörçill, Almaniyada Konrad Adenauer, Hindistanda Cəvahirləl Nehru, Azərbaycanda isə Heydər Əliyev kimi nadir tarixi şəxsiyyətlər adi məkan və zaman ölçüsünün fövqündə duraraq, ümummilli və ümumdövlət maraqlarını daha üstün, daha prioritetli hesab edərək, ölkələrini ağır böhranlardan xilas etmiş, inkişaf etdirmiş, millətlərini dirçəltmiş, gələcək nəsillər üçün milli birlik ideyası və yeni təfəkkür modeli yaratmışlar. Tanınmış alman sosioloqu R.Dorendorf deyirdi: "Daxili münaqişələri həll etməyi bacaran şəxsiyyət tarixin vəznini öz nəzarəti altına götürür, bunu bacarmayan isə tarixin vəzni qismində özünə düşmən qazanır".

Taleyin iradəsi ilə Azərbaycan dövlətinə və xalqına tarixin ahəngini öz nəzarəti altına götürə biləcək, realist və praqmatik, cəmiyyətin bütün aparıcı qüvvələri tərəfindən qəbul edilən və onları öz arxasınca aparmağa qadir olan, təxəyyüllərdən uzaq daxili və xarici siyasət yeridə bilən şəxsiyyət nəsib oldu. Heydər Əliyevin yenidən respublika rəhbərliyinə, bu dəfə müstəqil Azərbaycanın rəhbərliyinə qayıdışı – 15 iyun 1993-cü il tarixə Milli qurtuluş günü kimi daxil oldu. Bu, tarixi inkişafın, obyektiv ictimai-siyasi prosesin məntiqi nəticəsi olub, müasir Azərbaycanın

müstəqillik yolu ilə irəliyə doğru hərəkəti üçün dönüş məqamı idi. Beləliklə, vətəndaşların köklü mənafelərinə, şəxsi maraqlarına, istək və arzularına zidd olan, məqsəd və məramı aydın olmayan, gənc, müstəqil dövlət üçün böyük təhlükə törədən, faktik olaraq onu uçurum qarşısında qoyan siyasətin, daha doğrusu, siyasi hərc-mərcliyin qarşısı alındı. Ölkənin çoxəsrlik tarixində yeni, sivil, vətəndaş cəmiyyəti prinsiplərinə arxalanan dövr başlayırdı. Fridrix Nitsşe şəxsiyyətin cəmiyyətdə yeri haqqında yazırdı: "Bəşəriyyət durmadan işləməlidir ki, dahi şəxsiyyətlər yaratsın. Məhz bu, başqa heç bir şey onun əsas məqsədi ola bilməz...".

Müasir şəraitdə vətəndaş cəmiyyəti qurulması, dövlət quruculuğu prosesinin daha səmərəli şəkildə həyata keçirilməsi, ümummilli problemlərin müvəffəqiyyətli həlli üçün əsas amillərdən biri hakimiyyətin və siyasi qüvvələrin müntəzəm surətdə davam etdirilən dialoqudur. Elə məhz buna görə də, hakimiyyətə qayıtdığı ilk vaxtlardan başlayaraq, Heydər Əliyev bu istiqamətdə ölkənin bütün siyasi qüvvələri üçün nümunə ola biləcək konkret addımlar atmağa başladı. 1993-cü ilin noyabrında o, ölkənin siyasi partiyaları və ictimai hərəkatlarının rəhbərləri ilə görüş keçirərək, onları milli maraqlar əsasında həmrəyliyə, Azərbaycanın bütövlüyü və birliyi naminə əməkdaşlığa dəvət etdi. Sonralar Heydər Əliyev bu məsələyə münasibətini belə açıqlamışdı: "Mən 1993-cü ildə hakimiyyətə gələndə heç kəsə fərq qoymadım. Hətta məndən öncə, keçmiş hakimiyyət dövründə işləyən adamların çoxunu da işdə saxladım. Azərbaycan Prezidenti kimi mən bu gün də dövlət işində işləməyə və dövlətə, cəmiyyətə fayda verməyə qadir olan hər bir insanı dövlət, hökumət işinə cəlb etməyə hazıram...".

Məşhur Qərb alimləri U.Rostou və S.Xantinqton məhz ümummilli həmrəyliyə nail olunmasını demokratiyanın inkişafının birinci amili kimi qeyd edirdilər. Ölkə başçısının milləti məqsədyönlü şəkildə səfərbər etmək bacarığı, onun ümummilli həmrəyliyə nail olması Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etdi, böyük müdriklik və bacarıqla ölkəmizi addım-addım, yüksələn xətlə, sabit siyasi, ictimai və iqtisadi inkişaf yoluna çıxartdı.

Heydər Əliyevin dövlət zəkası və uzaqgörənliyi sayəsində ölkəmizdə yaranmış sabitlik, siyasi mədəniyyət normaları və siyasi plüralizmin mövcudluğu, iqtisadiyyatın dirçəlişi Azərbaycan tarixinə siyasi təcrübənin və dövlət idarəçiliyinin klassik nümunəsi kimi daxil oldu. Bu dövr ərzində dövlət başçısının ətrafında sıx birləşmiş Azərbaycanın mütərəqqi və sağlam qüvvələrinin fəal iştirakı ilə ölkənin xarici və daxili problemlərini nizamlamaq imkanı əldə olundu. Qədim yunan filosofu Protoqor demişdir: “İnsan hər şeyin ölçüsüdür”. Tarix boyu dünyada gedən proseslər bu fikrin həqiqətə nə qədər yaxın olduğunu dəfələrlə təsdiqlədi. Bu sözləri günümüzə şamil etsək deyə bilərik: “Güclü iradəsi, əzmi və təcrübəsi olan vətənpərvər şəxsiyyət siyasətin ölçüsüdür”.

Yuxarıda biz qeyd etdik ki, tarixdə şəxsiyyətin rolu haqqında ötən əsrdə çoxlu araşdırmalar aparılıb, mülahizələr söylənilibdir. Bir sıra tədqiqatçılar şəxsiyyətin tarixdə oynadığı rolu ümumiyyətlə inkar edir, bəziləri bu rolu süni şəkildə şişirdir, digərləri isə hesab edir ki, tarix özlüyündə mənasız prosesdir, onu mənalandıran, məzmun zənginliyi ilə təmin edən konkret tarixi şəxsiyyətlərin fəaliyyəti, siyasi iradəsidir.

Bu ya digər ölkənin rəhbərlərinin, siyasi liderlərinin, görkəmli şəxsiyyətlərinin tarixdə oynadığı rolun əhəmiyyəti və miqyası həmin ölkənin yaşadığı konkret tarixi şəraitlə, orada gedən proseslərlə sıx bağlı olur. Bu gün öz taleyüklü problemlərini həll edərək sabit, rəvan inkişaf yolu ilə irəliləyən ölkələrdə bir liderin başqa birisi ilə əvəz olunması ölkənin siyasi mənzərəsini bir o qədər dəyişmir, proseslərə ciddi təsir göstərmir. Lakin unutmaq olmaz ki, bu ölkələrdə sabit demokratiyaya doğru gedən yolun başlanğıcında konkret tarixi şəxsiyyətlərin fəaliyyəti durur və onların adı həmin xalqların tarixinin şərəfli səhifələrinə daxil olubdur. Kəskin ziddiyyətlər, faciəli proseslər, dərin kataklizmlər içərisində çabalayan ölkənin taleyüklü anında ona məhz hansı şəxsiyyətin rəhbərlik etməsi həmin dövlətin gələcəyini müəyyən edən əsas amillərdən biridir. Atatürkün xidməti yalnız türkləri hərbi məğlubiyyətdən xilas etməsi deyildi, o, işğalçı qoşunlara qarşı mübarizə apararaq, həm də gələcəyin güclü, dünyəvi Türkiyə Cümhuriyyətinin əsasını qoymuşdu. Böyük dövlət xadimi və ictimai xadim, ABŞ-ın prezidenti Tomas Cefferson Amerika tarixinə yalnız "Hüquqlar haqqında Bill" yazmaqla daxil olmamışdı, o, gələcək inkişafı, dövlət quruculuğu prosesini əks etdirən, azadlıq ənənələrinə söykənən və demokratiya ideyasını yeni dövlət prinsipinə çevirərək, yeni tarixi-siyasi məkanın yaranmasının hüquqi tərəflərini də işləyib hazırlamışdır.

Heydər Əliyev fenomeni! Bu, bizim seçimimiz idi, yoxsa tarixin? Bəzən fərdlərin seçim imkanının məhdudluğu üzündən tarix onların köməyinə gəlir. Tarix zamanca vaxtına, məkanca yerinə düşmüş şəxsiyyəti onların köməyinə

göndərir, çaşqınlıq içərisində yaşayan insanların həyatına müəyyənlik gətirir. Bu, tarixi şəxsiyyətlərin əbədi tarixi missiyasıdır. Bəşər tarixinin başlanğıcından bu günədək belə olub və bu cür şəxsiyyətlərin rolunu azaltmaq istəyənlərə tarix sübut edib ki, bu qanun zaman ölçüsündən ucadır. Azərbaycan vətəndaşının normal, dinc həyatını təmin etmək, onun siyasi, iqtisadi və sosial-mədəni sahədə yaradıcı fəaliyyətinə şərait yaratmaq, əsas hüquq və azadlıqlarını qorumaq ən mühüm vəzifələr kimi qarşıda dururdu. Aristotel demişdir: "Dövlətin əsas qayəsi yalnız vətəndaşları yaşatmaq deyil, dövlətin əsas məqsədi vətəndaşları xoşbəxt yaşatmaqdır". Azərbaycanda anarxiya və hərbi çevrilişlər mərhələsi 1993-cü ilin iyun ayının ortalarında yeni siyasi quruluş dövrü ilə – elmi əsaslara, məntiqə və siyasi təcrübəyə söykənən, beynəlxalq norma və prinsiplərə uyğun olan müstəqil dövlət quruculuğu dövrü ilə əvəz edildi.

1993-cü ilin ictimai-siyasi hadisələrini tədqiq edərkən, onların Azərbaycan cəmiyyətinin şüurunda köklü dəyişikliklərə səbəb olduğunun şahidi oluruq. Bədxahların xaosa və kortəbiiliyə meyilli kütlə kimi qələmə verməyə çalışdıqları Azərbaycan cəmiyyəti rasional düşüncəyə malik, sosializmdən postindustrial cəmiyyətə keçidə, siyasətdə, iqtisadiyyatda və sosial sahədə modernləşməyə hazır olan və keçid dövrü yaşayan cəmiyyətə çevrilmə prosesinə başladı. Bu tarixi proses aşağıdakı əsas başlıca meyarlar əsasında həyata keçirildi:

– *keçmiş ideoloji strukturun dağıdılması və yeni ictimai quruluşa uyğun olan davranış modelinin yaradılması və bununla yeni həyat prinsiplərinin formalaşması;*

*– cəmiyyətin yeni sosial strukturunun və geniş əhali təbəqələrinin cəlb olunması ilə yeni siyasi, iqtisadi, sosial və ictimai modellərin təşəkkül tapması.*

Heydər Əliyev sübut etdi ki, özünü “milli demokratik” qüvvələr adlandıran pafoslu ifadə həvəskarlarından və meydan “qəhrəmanlarından” fərqli olaraq, sabitliyə söykənən və qanunun aliliyi əsasında dövlət qurulması prinsipini əsas götürən dövlət xadimi kimi məhz o, ölkənin milli mənafelərini də, müstəqilliyini və demokratik inkişafını da təmin etməyə qadirdir. Heydər Əliyev ölkənin ali idarəçilik sükanı arxasına keçdikdən sonra dövlətçiliyimiz və müstəqilliyimiz naminə, həm də bu zaman çox cəsarətli və bir çox hallarda ilk baxışdan bəziləri üçün qeyri-populyar görünən qərarlar qəbul edilməsinə başlandı. Belə ki, 1993-cü ilin sentyabrında Müstəqil Dövlətlər Birliyinə üzv olmaq haqqında qərar qəbul edildi. O vaxt hakimiyyətin opponentləri bunu müstəqilliyin itirilməsi kimi, SSRİ-nin bərpası yolunda atılmış bir addım kimi qiymətləndirməyə cəhd göstərirdilər. Bəziləri tərəfindən bu addım, hətta Sovet İttifaqı rəhbərliyində təmsil olunmuş şəxsiyyətin keçmiş stereotipləri, sosializm dövrünün ənənələrini bərpa etmək niyyəti kimi də qiymətləndirilirdi. Lakin hadisələrin sonrakı inkişafı göstərdi ki, bu, yeganə düzgün və optimal qərar olmuşdur. Hələ çox gənc olan müstəqil dövlətimiz bu qərarla keçmiş SSRİ respublikaları ilə iqtisadi-mədəni və humanitar əlaqələrin qorunub saxlanmasına, Azərbaycanın xarici siyasət prioritetlərinin daha geniş geosiyasi məkanda – Avropa və Asiya qitələrində təbliği üçün əlverişli şərait yaradılmasına və digər MDB ölkələrində yaşayan yüz minlərlə soydaşımızla geniş əlaqələrin saxlanmasına nail olmuşdu. Bütün

bunlarla bərabər, Azərbaycanın dövlət müstəqilliyinə xələl gətirə bilən heç bir müqaviləyə də imza atılmamışdır. Bu günün geosiyasi reallıqları 1993-cü ildə əsası qoyulmuş və indi də həyata keçirilən tarazlaşdırılmış və çoxistiqamətli xarici siyasətin Azərbaycan xalqının milli maraqlarına tam uyğun olduğunu və cavab verdiyini göstərir.

1993-cü ildən keçən qısa zaman kəsiyi Heydər Əliyev şəxsiyyətinin qüdrətini, onun öz xalqının və milli dövlətçiliyinin keşiyində duran, Azərbaycan varlığını müdhiş uçurumdan xilas edən müdrik strateq olduğunu artıq təsdiq etmişdir. Son dərəcə mürəkkəb daxili və beynəlxalq şəraitdə doğma xalqı üçün, el-obasından ötrü sabitlik yaratması, atəşkəsə nail olmaqla millətin sağlam qüvvələrini – genefondunu məhv olmaqdan qoruması, xaos və siyasi hərc-mərclik içərisində çabalayan, etnik-siyasi və vətəndaş qarşıdurmasının başlandığı, dövlət müstəqilliyinin itirilməkdə olduğu Azərbaycanı uçurum həddindən çıxarıb hüquqi, demokratik və dünyəvi dövlətini uğurla qurduğu indiki inkişaf səviyyəsinə çatdırması, xarici siyasət sahəsindəki mühüm nailiyyətlər, o cümlədən Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın təcavüzə məruz qalan, Ermənistanın isə təcavüzkar olduğunun sübuta yetirilməsi, bununla da erməni millətçilərinin ölkəmizə qarşı yaratdığı informasiya blokadasının yarılması, nəhayət, Azərbaycan Respublikasının Avropa Şurasına qəbul olunması və müstəqil dövlətimizin dünya burliyində öz layiqli yerini tutması və digər inkarolunmaz reallıqlar bir tərəfdən, xalqımızın 1993-cü ildəki seçiminin nə qədər müdrik tarixi addım olduğunu sübut edirsə, digər tərəfdən də, Heydər Əliyevin tarixin məhvərini öz əlində saxlayan və zamanı qabaqlamağı bacaran nadir siyasi şəxsiyyət və dövlət

xadimi olduğunu təsdiqləyir. Şəxsiyyətin tarixdə yeri və rolunu tədqiq edən rus filosofu N.A.Berdyayev 1931-ci ildə Parisdə yazırdı: "Şəxsiyyət fövqəlşəxsi dəyərlərin daşıyıcısı və yaradıcısıdır, məhz bu, onun bütövlüyünü, vahidliyini və əbədi mənasını yaradır".

Ölkənin hazırkı durumu, dövlət quruculuğu proseslərinin araşdırılması göstərir ki, Azərbaycanın müstəqilliyinin, ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməli qoyulmuşdur. Son illər ərzində həyatımızın bütün sahələrində köklü dəyişikliklər və dərin islahatlar həyata keçirilmiş, dövlətimiz dünya birliyinin ayrılmaz tərkib hissəsinə çevrilmiş və orada öz layiqli yerini tutmuş, dünya siyasət səhnəsinin fəal iştirakçısına və güclü regional amilə çevrilmişdir. Bu gün Azərbaycan BMT, NATO, ATƏT, Avropa Şurası və İslam Konfransı Təşkilatında, bir sıra beynəlxalq maliyyə qurumlarında və digər dövlətlərarası və demokratik təsisatlar çərçivəsində xarici siyasət prioritetlərini həyata keçirir.

Heç də sirr deyil ki, Azərbaycanın dostları az olmadığı kimi, onun müstəqil, sivil, dünyəvi, iqtisadi cəhətdən qüdrətli dövlət kimi inkişafını istəməyən qüvvələr də var. Təəssüflə qeyd etməliyik ki, bu qüvvələrin səsinə səs verənlər daxildə də mövcuddur. Məsələn, indi Azərbaycanda bərqərar olmuş demokratiyanın imkanlarından öz siyasi maraqlarına uyğun şəkildə faydalanan və "ideoloji dəb" prinsiplərinə sadiq qalan bir çox "siyasətçilər", anarxiya və xaos ideologiyası və psixologiyasının daşıyıcısı olan bəzi müxalif qüvvələr 1993-cü il hadisələrini kobudcasına təhrif edir, bunları öz maraqları və şəxsi ambisiyaları prizmasından təqdim etməyə cəhd göstərirlər. Halbuki 1993-cü il Azərbaycan dövlətçiliyinin xaos və

anarxiyadan xilas dövrü kimi artıq dünya ictimaiyyəti və beynəlxalq qurumlar tərəfindən qəbul olunubdur.

Milli marağın vacibliyi haqqında "millətçi-vətənpərvər" ritorikaya xüsusi diqqət ayıran bu "siyasətçilər" dərk edə bilmirlər ki, bu ideyanın rolu onun ümummilli məqsədlər naminə insanları səfərbəretmə qüvvəsindədir. Helvetsi, Hegel və Marks maraq kateqoriyasını işləyib hazırlayarkən onun rolunu bəşəriyyət tarixinin həqiqi və hərəkətverici qüvvəsi kimi təhlil edirdilər. Maraq sosial təzahür kimi bütün ictimai proseslərin əsasında durur. O, həmişə konkret olaraq nəyəsə maraq kimi mövcud olur. Əksər hallarda maraq normaları və həyati prinsipləri formalaşdırır və həyata keçirir. Normalar həyati maraqlar ilə uyğun gəlmədikdə isə, maraqlar dünya baxışı çərçivəsində yeni kooperasiya əlaqələri yaradaraq qalib gəlir. Nəticə etibarilə də maraq kateqoriyasına, müəyyən mənada onun istiqamətverici hissəsi kimi, məqsəd də daxildir. İctimai təzahür olaraq, marağın maddi və mənəvi tərəfləri mövcuddur. Bəşəriyyət tarixində marağın rolu və əhəmiyyəti nəzərə alınmadan nə ictimai inkişafın təkanverici qüvvəsini, nə ictimai qanunların hərəkatının özünəxas xüsusiyyətlərini, nə də ki, fərd ilə ictimai təzahür və proses arasında mövcud olan əlaqəni düzgün dərk etmək mümkün olar. Yuxarıda qeyd olunanlar onu deməyə əsas verir ki, Azərbaycanda gedən bütün proseslərin mahiyyətini müəyyən edən, cəmiyyəti sosial-mədəni və siyasi fərqlərin fövqündə parçalayan və yaxud birləşdirən, möhkəmləndirən əsas amil maraqdır. İmmanuil Kant demişdir: "Maraq dərrakə ilə təqdim olunduqda... iradənin aparıcı qüvvəsinə çevrilir". Lakin görünür ki, milli maraq haqqında pafosla danışan bəzi siyasətçilər bu məsələdə daha çox

merkantil nəzəriyyələri və əyalət miqyaslı düşüncə meyillərini rəhbər tuturlar.

1993-cü il Azərbaycanın qədim tarixinə yeni dövrün başlanğıcı kimi daxil oldu desək, səhv etmərik. Bu bir həqiqətdir ki, Azərbaycanın inkişaf tarixində yeni siyasi dövr, yeni təfəkkür mərhələsi məhz həmin vaxtdan başlandı. Bu dövr Azərbaycanın XXI əsrə sivil, hüquqi, demokratik dövlət kimi addımlamasına imkan verdi. "...Azərbaycan rəhbərliyinin apardığı siyasət yeganə düzgün siyasətdir. Bunu həyat da sübut etmişdir. Azərbaycan çox böhranlardan şərəflə çıxmışdır. Vətəndaş müharibəsi və cəmiyyətin parçalanması təhlükəsindən qurtarmışdır. İndi Azərbaycanda sabitlikdir, güclü iqtisadiyyat yaradılır, demokratikləşdirmə yolunda çox işlər görülür. Buna görə də mən qəti əminəm ki, hazırda yeridilən xətt davam etdirilməlidir. Buna şəkk-şübhə olmamalıdır... İndiki siyasət bir çox onilliklər üçün nəzərdə tutulmuş siyasət olmalıdır. Əks halda, Azərbaycan yenə də hansısa hərc-mərcliyə məruz qala bilər" (bax: İlham Əliyev. "İzvestiya" qəzeti, 19 may 2001-ci il).

Dövlətin, millətin gələcək strategiyasını, daxili və xarici problemləri həll etmək yollarını tarixi şəxsiyyətlər müəyyən edir, formalaşdırır. Uğurlara və uğursuzluqlara, qələbə və nailiyyətlərə görə də gələcək qarşısında məhz onlar məsuliyyət daşıyırlar. Əzəldən bəri belə olmuşdur, bundan sonra da belə olacaqdır. Qədimdən bu günədək dövlətlər yaranır, millətlər dirçəlir, bunu həyata keçirə bilməyənlər isə tale qarşısında öz acizliklərini sübut edirlər. İnkarolunmaz həqiqətdir ki, dünyanı ideyalar idarə edir. İdeyaları gerçəkləşdirən, tarixi proseslərə təsir gücünə malik, real qüvvəyə çevirən isə tarixi şəxsiyyətin əzmi, siyasi iradəsidir. Tarixdə hər şey şəxsiyyətlə və şəxsiyyət

vasitəsilə həyata keçirilir. İdeya yalnız onda təcəssüm edir. Tarix sübut edir ki, gələcəyə şəxsiyyətlərin açdığı yol və gördükləri işlər gəlib çıxır. Azərbaycanın gələcəyi üçün yol isə 1993-cü il iyunun 15-də açılıbdır. Müstəqilliyə, azad, demokratik gələcəyə və vətəndaş cəmiyyətinə aparan yol nə qədər çətin və məşəqqətlidirsə, bir o qədər də müqəddəs və şərəflidir.

*“Respublika” qəzeti,*
*27-28 iyul 2001-ci il.*

# HƏR BİR SAHƏDƏ İŞİN KEYFİYYƏTİ KADRLARIN HAZIRLIĞINDAN ASILIDIR, ONUN BÜNÖVRƏSİ İSƏ TƏHSİLDƏ QOYULUR

Son aylar hamımızın diqqət mərkəzində üç mühüm sənəd – Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun, eləcə də "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli fərmanları və milli–mənəvi dəyərlərimizin qorunması ilə bağlı 2001-ci il avqustun 13-də verdiyi bəyanatı durmalıdır. Geniş ictimaiyyət, ziyalılar və müxtəlif təbəqələrdən olan insanların dərin rəğbətlə qarşıladıqları bu fərmanlar, şübhəsiz ki, möhtərəm Prezidentimizin xalqımız qarşısında böyük tarixi xidmətlərindən biri olub, ana dilimizin təbliği, öyrənilməsi, tətbiqi işinin təkmilləşdirilməsi sahəsində misilsiz əhəmiyyətə malik sənədlər kimi gənclərimizin vətənpərvərlik tərbiyəsində, milli şüurunun formalaşmasında müstəsna rol oynayır və oynayacaqdır.

Respublika Prezidentinin bu il avqust ayının 13-dəki bəyanatı Azərbaycan təhsili qarşısında mühüm tələblər irəli sürür. Milli-mənəvi, əxlaqi dəyərlərimizin qorunması ilə bağlı verilmiş bu bəyanat xalqımızın bütün təbəqələrdən olan insanları arasında böyük məmnunluq duyğusu ilə qarşılanmışdır. Hər bir xalqın öz adət-ənənəsi olduğu kimi, millətimizin də öz milli-mənəvi və dini dəyərlərinin olduğuna diqqəti çəkən möhtərəm dövlət başçısı məlum bəyanatda

yüzillərlə, minillərlə yaradılan bu dəyərlərin xalqımızın mənəviyyatını təşkil etdiyini və buna görə də qorunmalı olduğunu dönə-dönə qeyd etmişdir. Millətimizin uca milli-mənəvi dəyərlərini ləkələməyə çalışan qüvvələrin əməllərinin ağır problemlər içində yaşayan bir ölkədə ifrat həddə çatmasının doğurduğu hiddət dolu bu kəskin etiraz bəyanatı təhsil sahəsində çalışanları ciddi düşündürməlidir. Çünki Azərbaycan xalqı gənc nəsli, gələcəyimizi onlara əmanət etmişdir. Atalarımız "Əmanətə xəyanət olmaz", – deyiblər. Acınacaqlı haldır ki, yetişməkdə olan gənc nəslin bir qismi ruhi boşluqdan, mənəvi yoxsulluqdan əziyyət çəkir və bu işdə yenə də məsuliyyətin ağırlığı təhsil işçilərimizin üzərinə düşür. Buna görə də təhsil sahəsində çalışanlar gənclərimizin mənəviyyatsız yola getmələrinin qarşısını almaq üçün onları ən əvvəl əxlaqi dəyərlər aşılayan elmi biliklərlə silahlandırmağı bacarmalı, mənəviyyatımızın, milli mentalitetimizin qorunması yolunda ən yüksək vətəndaşlıq nümunəsi göstərməlidirlər.

Hər bir binanın bünövrəsi olduğu kimi, Azərbaycan təhsilinin bünövrəsini Azərbaycan əlifbası və Azərbaycan dili təşkil edir. Yeni fərmanlar Azərbaycan müəlliminə, Azərbaycan məktəbinə, Azərbaycan təhsil sisteminə XXI əsrin tələblərinə uyğun olan yüksək zəkalı, milli məfkurəyə sadiq, mənəviyyatı sağlam insan tərbiyə etməyə imkan verir. Bu fərmanlar bir daha sübut edir ki, tarixin bütün zərbələrinə baxmayaraq, Azərbaycan xalqı öz dilini, öz ədəbiyyatını, zəngin mədəni irsini nəinki qoruyub saxlamağa nail olmuş, həm də onları zənginləşdirib ən dəyərli bir ərməğan kimi müstəqil Azərbaycanın gələcək nəsillərinə çatdırmaq üçün əlverişli zəmin yaratmışdır. Dilimizin, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında Azərbaycan

müəllimlərinin böyük rolu vardır. Buna görə də onların Azərbaycanın müstəqilliyinin qorunması naminə, müstəqil Azərbaycan vətəndaşlarının tərbiyə olunması naminə gördükləri nəcib iş Azərbaycan dövləti tərəfindən daim yüksək qiymətləndirilir.

Müasir dövrün tələblərinə uyğun olaraq, əlifbadan başlayan təhsil prosesi insanın ömrünün son anlarına qədər davam edir.

Hər bir insanın təhsil hüququ İnsan Hüquqlarının Ümumi Bəyannaməsində və Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddələrində öz əksini tapmışdır. XX əsrin son ilində Dakarda keçirilmiş Ümumdünya Təhsil Forumu yeni əsrdə təhsilin məqsədlərini və aktual problemlərini müəyyən etdi. Bu forumun müəyyənləşdirdiyi əsas prioritetlərdən biri təhsilin keyfiyyətinin yaxşılaşdırılması ilə bağlıdır.

Ümumdünya Təhsil Forumunun qəbul etdiyi tövsiyələr müəyyən mənada XXI əsrdə formalaşan cəmiyyətin keyfiyyət parametrlərini müəyyən edir. Əslində, Ümumdünya Təhsil Forumu bütün ölkələrin qarşısında ayrı-seçkilikdən uzaq olan, müasir tələblərə cavab verən mükəmməl təhsil sisteminin formalaşmasını bir vəzifə kimi irəli sürür, hər bir ölkəyə öz milli proqramını hazırlamaq həvalə olunur. Belə bir milli proqramın formalaşması bizdən tələb edir ki, keçdiyimiz yola bir daha nəzər salaq, onu təhlil edərək nailiyyətlərimizi və problemlərimizi müəyyənləşdirək, müasir bir konsepsiya əsasında milli proqramımızı formalaşdıraq.

Keçdiyimiz yola nəzər salarkən görürük ki, Azərbaycanda təhsilin, məktəbin tarixi çox qədim dövrlərə təsadüf etsə də, onun tərəqqisi XX əsrlə bağlı olsa da, inkişafı 1970-ci illərdən başlayaraq daha geniş vüsət almışdır. Məhz bu illərdə təhsil

ölkəmizin iqtisadiyyatının, elm və mədəniyyətinin, sosial sahələrinin inkişafına təkan verən daha güclü qüvvəyə çevrilmiş, vətəndaşların təhsil almaq imkanlarının artırılması istiqamətində təsirli tədbirlər həyata keçirilməyə başlanmışdır. O vaxtlar Azərbaycana rəhbərlik edən möhtərəm Heydər Əliyevin daimi diqqət və qayğısı sayəsində respublikamızda məktəbəqədər tərbiyə müəssisələrindən tutmuş ali məktəblərə qədər bütün təhsil müəssisələrinin şəbəkəsi ilbəil genişləndirilir, təhsil sisteminin maddi-texniki bazası ardıcıl surətdə möhkəmləndirilirdi. Respublikamızın ali məktəblərində təhsil alanlarla yanaşı, 1970-80–ci illərdə hər il yüzlərlə məzunun keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə göndərilməsi ölkəmizin iqtisadiyyatını və digər sahələrini yüksək ixtisaslı mütəxəssislərlə təmin etməklə bağlı Azərbaycan rəhbərinin uzaqgörən siyasətinin parlaq nümunəsi idi.

XX əsrdə Azərbaycan təhsili 70 ildən artıq bir müddətdə keçmiş SSRİ-nin təhsil sistemi çərçivəsində qurulsa da, həmin dövrün ideoloji təzyiqlərinə və inzibati-amirlik idaretmə metodlarına baxmayaraq, öz milli xarakterini, əsrlərdən bəri formalaşmış pedaqoji ənənələrini qoruyub saxlaya bilmiş, təhsilin, əsasən, ana dilində aparılması milli əqidə və təfəkkürün təşəkkülündə müstəsna rol oynamışdır. Bu mənada hələ 1978-ci ildə cənab Heydər Əliyevin siyasi iradəsi və cəsarəti sayəsində Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması da misilsiz tarixi əhəmiyyətə malik olmuşdur.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra ölkəmizdə ictimai-siyasi, ideoloji mənzərənin dəyişilməsi, bazar münasibətləri zəminində yeni iqtisadi dünyagörüşün

formalaşması, cəmiyyətdə demokratik meyillərin artması bütün fəaliyyət sahələri kimi, təhsilə də öz təsirini göstərmişdir.

1992-ci ildə qəbul olunan Təhsil qanunu Azərbaycan təhsilinin beynəlxalq standarlara uyğunlaşdırılması sahəsində ilk addım olsa da, bu qanunun bir çox müddəaları müasir tələblərə cavab vermədiyinə görə, yeni bir Təhsil qanununun işlənib qəbul olunmasına zərurət duyulur. Təəssüf ki, müəyyən səbəblərə görə bu günə qədər müasir Təhsil qanununun qəbul olunması baş tutmayıbdır.

Belə bir ləngimənin əsas səbəblərindən biri ondan ibarətdir ki, konservativ mövqedə duranlar müxtəlif təhsil sistemlərində gördükləri və bir-birinə zidd olan tələbləri bir qanun çərçivəsində birləşdirmək istəyirlər. Nəticədə təhsillə bağlı qanunvericilik bazasında boşluq yaranıbdır.

Şübhəsiz, Azərbaycan təhsilində yaranan keyfiyyət dəyişiklikləri, eləcə də ölkə iqtisadiyyatının bazar münasibətlərinə inamla keçidi təhsil sektorunda islahatların aparılmasını zəruri edirdi. 1999-cu il iyunun 15-də Prezident Heydər Əliyev tərəfindən təsdiq olunmuş İslahat Proqramı məhz elə həmin zərurətin obyektiv gerçəklikdən doğan real nəticəsi idi. Bu Proqramın əsas konseptual ideyaları isə hələ xeyli əvvəl möhtərəm Prezident Heydər Əliyevin Azərbaycan müəllimlərinin XI qurultayındakı nitqində qoyulmuşdu. İslahat Proqramının XX əsrin sonunda təsdiq olunmasına baxmayaraq, cəsarətlə demək lazımdır ki, strateji əhəmiyyətə malik sənəd kimi yeni yüzilliyin ilk 15-20 ilində Azərbaycan təhsilinin inkişaf prioritetlərini müəyyənləşdirmişdir.

Bu gün hamımızın diqqəti əsas təhsilə, yəni ümumtəhsil orta məktəbinə yönəlməlidir. Məhz burada, təhsilin bu ilk ocağında şəxsiyyətin formalaşması prosesinin bünövrəsi qoyulur.

XX əsr artıq arxada qalmışdır. 2001-ci il ərəfəsində dövlət başçımızın "Azərbaycan XXI əsrin və III minilliyin ayrıcında" başlıqlı müraciətində Azərbaycanın XX əsrdə keçdiyi tarixi yol bütün uğurları, meyilləri və ziddiyyətləri ilə geniş şəkildə işıqlandırılmışdır. Cəsarətlə demək lazımdır ki, analitik təfəkkürün dolgun ifadəsi olan bu tarixi müraciət ötən əsrin dəqiq xronologiyasını əks etdirən fundamental elmi araşdırma səviyyəsinə yüksəlmişdir.

Bu gün hamıya aydındır ki, bəşəriyyətin XXI əsrə qədəm qoyması, sadəcə, təqvim dəyişikliyi hadisəsi deyildir. Dünya sivilizasiyasının növbəti inkişaf mərhələsi kimi bu əsrdə dünyagörüşlərin, münasibətlərin, meyillərin, yanaşmaların, baxışların dəyişilməsi heç də istisna olunmur. Bu mənada qədəm qoyduğumuz əsrdə bizi yeni reallıq və gerçəkliklər, yeni problemlər gözləyir.

Yeni yüzillik, şübhəsiz, cəmiyyətin ictimai-siyasi, mədəni və sosial həyatının qloballaşması və universallaşması, informasiya texnologiyaları və telekommunikasiyaların rolunun artması ilə bağlı bir dövr olacaqdır. Eyni zamanda, bu əsrdə maddi sərvət və ehtiyatların məhdudlaşması, ekoloji problemlərin kəskinləşməsi, bütün fəaliyyət sahələrində rəqabətin daha da güclənməsi, cəmiyyətin infrastrukturunun nəzərəçarpacaq dərəcədə dəyişməsi də gözlənilir. Bütün bunlara əsasən demək olar ki, yeni dövrün tələbləri və problemləri nə qədər sərt və çətin olduqca insan amili, onun istedadı, bacarıq və qabiliyyəti bir o qədər böyük əhəmiyyət kəsb edəcəkdir. Bu mənada XXI əsri obrazlı şəkildə "Zəkalar əsri" adlandırsaq, heç də səhv etmərik. İnsan zəkasının dövrün tələblərinə uyğun formalaşması prosesi isə yüksək səviyyəli təhsillə bağlı olduğundan XXI əsr

həm də təhsilin intensiv inkişaf əsri olacaqdır. Bu baxımdan təbii bir sual meydana çıxır: Təhsilimizin hazırkı səviyyəsi, potensial imkanlarımız yeni əsrdə təhsil sahəsində qarşıda duran qlobal vəzifələri yerinə yetirməyə zəmin yaradırmı? Hesab edirəm ki, bu suala obyektiv cavab vermək üçün bugünkü reallıqlar haqqında əsl həqiqəti söyləmək lazımdır.

İnkarolunmaz faktdır ki, bütün vətəndaşlara təhsil almaq üçün hərtərəfli, bərabər şəraitin yaradılması, onbirillik icbari orta təhsilə keçilməsi, peşəkar səviyyəli müəllim korpusunun, eləcə də güclü elmi-pedaqoji kadr potensialının formalaşması, ana dilində milyon tirajlarla tədris ədəbiyyatı, tədris vəsaitlərinin nəşri, təhsildə yeni dövlət standartlarının hazırlanıb tətbiq olunması və ən nəhayət, son on ildə milli təhsil sisteminin təşəkkül tapması ən böyük nailiyyətlərimizdən sayılmalıdır.

Bütün bunlarla yanaşı, o da həyatımızın gerçəkliyidir ki, istər məktəbəqədər və orta təhsil, istərsə də peşə, ixtisas təhsili və diplomdansonrakı təhsil pillələrində konkret obyektiv və subyektiv səbəblərə görə həll olunmamış məsələlər hələ də qalmışdır, bir sıra problemlər mövcuddur.

Bu gün ölkəmizdə məktəbəqədər təhsil müəssisələrinin sayı və bunlarda uşaqların miqdarı əvvəlki illərlə müqayisədə xeyli azalmışdır. Belə vəziyyət, bir tərəfdən, demoqrafik amillərlə, o cümlədən məcburi köçkünlər problemi ilə əlaqədardırsa, digər tərəfdən, həmin müəssisələrin maddi təminatının zəif olması ilə bağlıdır. Bəzi məktəbəqədər təhsil müəssisələrində acınacaqlı vəziyyət yaranmış, bir çox rayonlarda bu müəssisələrə qayğı göstərmək əvəzinə, onların binaları mənimsənilərək, maddi-texniki bazası məhv edilmişdir. Bu hal xüsusilə Təhsil Nazirliyi şəbəkəsindən xaricdə qalan, yəni nazirlik, idarə və təşkilatların,

habelə bəzi yerli icra strukturlarının balansında olan müəssisələrə aiddir. Elə Bakının özündə, şəhərin mərkəzində yerləşən və vaxtilə uşaqlarımızın tərbiyəsində böyük rol oynamış bir neçə belə müəssisənin binasında indi restoran, mağaza, bank və s. fəaliyyət göstərir və yaxud həmin yerlər müxtəlif şirkətlərə verilmişdir.

Məktəbəqədər uşaq müəssisələrinin ərzaq təminatı da istənilən səviyyədə deyildir. Baxmayaraq ki, indinin özündə belə bu məqsədlər üçün o qədər də az vəsait sərf edilmir. Dözülməz haldır ki, uşaq bağçasına gələn uşaq çox vaxt özü ilə yemək də gətirir. Sanitar-epidemioloji təşkilatlar, maliyyə qurumları, aidiyyəti olan və olmayan digər təşkilatlar təmənna güdərək, bu müəssisələri su yoluna döndərmişlər. Bu müəssisələrə əməli kömək göstərmək heç kimin yadına düşmür. Kontingentinin, demək olar ki, böyük əksəriyyəti imkansız ailələrdən olan bu müəssisələrin pedaqoji və texniki heyətinin əmək haqları həddindən artıq aşağıdır. Yeni yaradılmış yaşayış massivlərində uşaq bağçaları və körpələr evləri yox dərəcəsindədir. Əgər nəzərə alsaq ki, məktəbəqədər təhsil müəssisələri uşaqların erkən yaşlarından dünyagörüşünün formalaşmasında, əqli və fiziki inkişafında, tərbiyə olunmasında, eyni zamanda, məktəbə hazırlığında müstəsna əhəmiyyət kəsb edir, onda bu problemin nə qədər ciddi olduğu daha qabarıq nəzərə çarpar. Bununla əlaqədar, belə hesab edirəm ki, məktəbəqədər təhsil müəssisələrinin inkişafına dəstək üçün yaxın vaxtlarda müvafiq qanunvericilik aktlarının qəbulu son dərəcə vacibdir.

Müasir inkişaf mərhələsində təhsil sisteminin ən aktual problemi hər bir fərdin şəxsiyyət kimi formalaşdırılmasından, əsl vətəndaş yetişdirilməsindən ibarətdir. Hamımız yaxşı bilirik

ki, şəxsiyyətin formalaşması prosesinin bünövrəsi məhz orta məktəb illərində qoyulur. Vaxtilə cəmiyyətdə belə bir fikir yaranmışdı ki, orta məktəbin vəzifəsi yalnız ayrı-ayrı fənlər üzrə bilik verməkdən ibarətdir. Ona görə də məktəblərdə tərbiyə sisteminin səmərəli mexanizminin yaradılması arxa plana keçmişdi. Yeri gəlmişkən deyim ki, bu meyil indi də tam aradan qaldırılmamışdır. Halbuki bilik vermək məktəbin bir vəzifəsidirsə, tərbiyə etmək onun ikiqat vəzifəsidir. Biz heç vaxt unutmamalıyıq ki, torpaqlarımız hələ də işğal altındadır və bu gün də, gələcəkdə də torpaqlarımızın müdafiəsi üçün vətənpərvər gənclər yetişdirmək təhsil sistemimizin ən başlıca vəzifəsidir. Fikrimcə, bu sahədə məsələlərin tənzim olunması üçün tez bir zamanda "Milli tərbiyə konsepsiyası" işlənib hazırlanmalı və onun tətbiqinə başlanmalıdır.

Şübhəsiz, dünyanın indiki inkişaf mərhələsində bazar iqtisadiyyatının yaratdığı rəqabət şəraitində fəaliyyət göstərməyə qadir olan bilikli insanlar bizim ölkəmizə çox lazımdır. Bununla belə, bu bir həqiqətdir ki, ölkənin taleyi, cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq, əsl vətəndaşlardan asılıdır. Görkəmli alim, tanınmış sənətçi olmaq mümkündür, lakin Vətənin müqəddəratı həll edilən çətin vaxtlarda onlar həlledici rol oynaya bilməsələr, bu şəxslərin nə elmi, nə sənətləri heç bir əhəmiyyətə malik deyildir. Bu mənada bizim təhsil ocaqlarımız, xüsusən də orta məktəblərimiz, ilk növbədə, vətəndaşlıq məktəblərinə çevrilməlidir. Bəzən belə bir fikir irəli sürülür ki, məktəblərimizdə ayrıca olaraq "Vətəndaşlıq" fənni tədris edilsin. Bəlkə də bu barədə fikirləşməyə dəyər. Lakin inanmaq çətindir ki, bir fənnin tədrisi belə böyük, çoxşaxəli işin öhdəsindən gəlmək üçün kifayət etsin. Əslində, orta məktəblərdə

tədris olunan hər bir fənn bilik verməklə yanaşı, eyni zamanda, vətəndaş tərbiyəsinə xidmət göstərməlidir. Yaxşı olmazmı ki, dövlət standartlarına uyğun olaraq, həm bilik, bacarıq və vərdişlərin aşılanması, həm də tərbiyəetmə cəhətləri nəzərə alınmaqla, hər bir fənnin tədrisi konsepsiyası işlənib hazırlansın və fəaliyyət istiqamətləri bu konsepsiyalar əsasında müəyyənləşdirilsin.

Milli ənənələrə sadiq, ümumbəşəri dəyərlərə söykənən, xalqına, Vətənə, dövlətə və dövlətçiliyə bağlı vətənpərvər gənclər tərbiyə edilməsində, şübhəsiz, orta məktəblərdə tədris olunan Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Azərbaycan tarixi, Azərbaycan coğrafiyası fənlərinin imkanları daha böyükdür. Əslində, bu fənlər üzrə keçirilən dərslər elə əsl mənada vətəndaşlıq dərsləridir. Doğrudan da, öz doğma dilini, ədəbiyyatını, tarixi, coğrafiyasını bilməyən şəxsə necə həqiqi vətəndaş demək olar?! Prezident Heydər Əliyev təhsil işçiləri və gənclərlə çoxsaylı görüşlərində doğma ana dilinin, Azərbaycan ədəbiyyatının, tarix və coğrafiyasının dərindən öyrənilməsinin vacibliyini dəfələrlə qeyd etmiş, bütün bunlarla əlaqədar qarşıya çox ciddi vəzifələr qoymuşdur. Prezidentimizin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli Fərmanı isə ana dilinin təbliği, öyrənilməsi, tətbiqi sahəsində misilsiz əhəmiyyətə malik tarixi bir sənəd kimi gənclərimizin vətənpərvərlik tərbiyəsində, milli şüurun formalaşmasında, şübhəsiz ki, müstəsna rol oynayacaqdır.

İndi vəzifə ondan ibarətdir ki, məktəbəqədər tərbiyə müəssisələrindən tutmuş ali məktəblərə qədər təhsilimizin bütün

pillələrində Azərbaycan dilinin tətbiqi sahəsi durmadan genişləndirilsin, dilin öyrənilməsi metodikaları getdikcə təkmilləşdirilsin və Azərbaycan dilində gözəl nitq qabiliyyətinə malik olmaq ümumxalq əhəmiyyətli işə çevrilsin.

Bəs, Azərbaycan ictimaiyyəti orta məktəblərimizdə təhsilin səviyyəsindən, təlimin keyfiyyətindən razıdırmı? Real vəziyyəti qənaətbəxş hesab etmək olarmı? Bu gün valideynlərin hamısı çox arzu edərdi ki, onların övladları orta məktəblərdə aldıqları bilik hesabına repetitorlarsız ali məktəblərə qəbul olunsunlar. Lakin elə vəziyyət yaranmışdır ki, əksər hallarda bu məqsədə çatmaq üçün repetitorlarsız ötüşmək olmur.

Bunun bir neçə səbəbi var. Əvvəla, qeyd edim ki, hələ ilk məktəb yaranan gündən təlim prosesində nəyi, necə və nə qədər öyrətmək problemi həmişə olmuşdur və həmin məsələ bu gün də öz aktuallığını itirməmişdir. Hazırkı vəziyyət bir daha sübut edir ki, orta təhsilimiz uzun bir inkişaf yolu keçsə də, ümumi orta təhsilin dövlət standartları təsdiq edilsə də, indiyədək ayrı-ayrı fənlər üzrə öyrədiləcək minimum bilik həcmi hələ tam dəqiqləşdirilməmişdir. Bu səbəbdəndir ki, son illər orta təhsilin məzmununun təkmilləşdirilməsi ilə bağlı bir sıra əməli tədbirlər görülməsinə baxmayaraq, dərsliklərimizin heç də hamısı lüzumsuz, ikinci dərəcəli materiallardan tam təmizlənməmişdir. Bu isə dərsliklərin xeyli yüklənməsinə və proqram materiallarının ağırlaşmasına gətirib çıxarır. Nəticə etibarilə şagirdlər bu və ya digər fənləri yaxşı qavramır, onların bilik alma tələbatları ödənilmir. Təbii ki, bu cür vəziyyət valideynləri qane etmir.

Faktlar göstərir ki, orta məktəb şagirdlərinin 50-60 faizindən çoxu fundamental fənlərdən, o cümlədən riyaziyyat, biologiya,

kimya, fizika və sair fənlərdən verilən bilikləri məktəb şəraitində lazımi səviyyədə mənimsəyə bilmir. Bununla əlaqədar, ümumi təhsilin hazırkı məzmunu, habelə strukturu təhsil alanların meyil və marağına, potensial imkanlarına uyğunlaşdırılmalıdır. Fikrimcə, inkişaf etmiş ölkələrin təcrübəsi nəzərə alınaraq ibtidai, orta və tam orta təhsil pillələrini özündə birləşdirən 12 illik ümumi orta təhsilə keçməyin vaxtı gəlib çatmışdır. Bu halda icbari təhsil 10 il müəyyənləşdirilir. Növbəti tam orta təhsil pilləsinə isə uşaqlar meyil və maraqlarına, potensial imkanlarına görə seçilib qəbul olunarlar ki, bu da ümumi təhsilin səviyyəsinin yüksəlməsinə, keyfiyyət göstəricilərinin artmasına xeyli müsbət təsir edər.

Mən fundamental elmlərin orta məktəblərimizdə, dərsliklərimizdə əhatəsi, ümumiyyətlə, şagirdlərin bilikləri ilə bağlı bir neçə rəqəmi yada salmaq istəyirəm. Tələbə Qəbulu üzrə Dövlət Komissiyası hər il araşdırmalar aparır və fənlər üzrə faizlər çıxarır ki, hansı regionda abituriyentlər nə səviyyədə bilik nümayiş etdirirlər. Ümumiyyətlə, ölkə üzrə bu faizlər aşağıdakılardan ibarətdir:

| | | |
|---|---|---|
| ana dili və ədəbiyyat | - | 31,7 |
| riyaziyyat | - | 26,3 |
| fizika | - | 23,9 |
| kimya | - | 21,1 |
| biologiya | - | 36,7 |
| tarix | - | 25,1 |
| coğrafiya | - | 19,7 |
| xarici dil | - | 19,4 |

Gətirilən rəqəmlərdən aydın görünür ki, çox təəssüflər olsun, orta məktəblərimizdə bu fənlər üzrə tədris, yumşaq desək, olduqca aşağı səviyyədədir.

Şübhəsiz ki, 12 illik təhsilə birdən-birə keçmək mümkün deyildir. Bunun üçün daha çox tətbiqi və praktik istiqamətli yeni tədris planları və proqramlarının, dərslik və dərs vəsaitlərinin hazırlanması zəruridir. Unutmaq olmaz ki, bütün bunlarla yanaşı, bu prosesdə müasir təfəkkürlü, yüksək peşəkar səviyyəyə malik müəllim korpusunun yaradılması, eyni zamanda, hazırda fəaliyyət göstərən müəllimlərin ixtisasının artırılması və yenidən hazırlanması kimi vacib məsələlər də həll olunmalıdır.

Hesab edirəm ki, orta təhsilin təkmilləşdirilməsi, yeniləşdirilməsi prosesində uşaq və gənclərin estetik dünyagörüşünün formalaşmasına, fiziki hazırlığının inkişafına, kompyuter təliminə, xarici dillərin öyrənilməsinə ciddi diqqət yetirilməsi son dərəcə vacibdir. Əgər biz yüksək mədəni səviyyəyə malik, fiziki cəhətdən sağlam şəxsiyyət yetişdirilməsindən danışırıqsa, onda tədris planlarında bununla bağlı fənlərin az saatlarla məhdudlaşdırılması təəccüb doğurmaya bilməz. Həqiqətən də, orta məktəblərdə şagirdlərin fiziki hazırlığına həftədə cəmi 2 saat vaxt ayrılması nə dərəcədə düzgündür?! Təəssüf ki, bu, günümüzün reallığıdır.

Daha bir vacib məsələyə münasibət bildirmək istəyirəm. Hazırda "məktəb–valideyin" münasibətlərindən, əlaqələrindən çox danışılır, lakin uşaq və gənclərimizin formalaşması prosesində bu əlaqələr nə pedaqoji, nə də psixoloji baxımdan bir-birini tamamlayır. Əsl reallıq bundan ibarətdir ki, məktəb konkret olaraq hər bir şagirdin bilik, bacarıq və vərdişlərinin

səviyyəsi, potensial imkanları, bir sözlə, onun nəyə qadir olduğu barədə valideynlərində obyektiv təsəvvür yaratmır. Halbuki, hər bir şagirdin gələcək inkişafı, cəmiyyətdə tutacağı mövqe, peşə istiqaməti haqqında əsaslandırılmış proqnoz məhz elə məktəb tərəfindən verilməlidir.

İstedadlara laqeyd münasibət də məhz elə bu səbəbdən irəli gəlir. Heç şübhə yoxdur ki, orta məktəblərimizdə böyük istedad potensialı vardır. Lakin istedad o zaman əsl mənəvi sərvətə çevrilir ki, vaxtında aşkar olunsun, onun gələcək inkişafı ilə bağlı lazımi kompleks tədbirlər həyata keçirilsin. Təəssüf ki, bu sahədə vəziyyəti qənaətbəxş hesab etmək olmaz. Düzdür, istedadlı şagirdlərin təhsil alması üçün respublikamızda gimnaziya və liseylər şəbəkəsi yaradılmışdır və ildən-ilə də genişləndirilir. Lakin obyektiv demək lazımdır ki, onların heç də hamısında əsl istedad yetişdirilmir. Bu ondan irəli gəlir ki, istedadlı uşaqlarla işin təşkilində hələ də vahid, səmərəli mexanizm yoxdur. Fikrimcə, həmin məsələ strateji əhəmiyyətli problem olduğundan, bununla əlaqədar xüsusi Dövlət proqramının hazırlanmasına zəruri ehtiyac vardır.

Obyektiv səbəblərlə bərabər, orta məktəblərdə uşaq və gənclərin təhsilinin təşkili, təlimin keyfiyyətinin təmin olunması, məktəb-valideyn əlaqələrinin yaradılması və sair bu kimi sahələrdə mövcud olan nöqsanlar, eyni zamanda, bir sıra məktəb rəhbərlərinin idarəetmədə peşəkarlıq səviyyəsinin aşağı olması kimi subyektiv amillə də bağlıdır. Bəzi məktəblərdə təhsilin səviyyəsinin aşağı olmasının səbəblərindən biri də müəllimlərin keçdikləri fənnə barmaqarası münasibətləridir. Belə müəllimlər dərs deməkdən daha çox şagirdləri fərdi məşğələlərə təhrik etməklə məşğuldurlar. Məktəb rəhbərləri isə

sanki belə də olmalıdır deyə, belə müəllimlərə rəvac verir, onların məktəbdə belə bir işlə məşğul olmalarında maraqlıdırlar. Orta məktəblərdə, xüsusilə buraxılış siniflərində imtahanların sayı çoxdur. Birinci siniflərə qəbul zamanı şagirdlərə süni manelər yaradılır. Bəzi məktəblərdə ödənişli siniflər yaratmaq kimi sağlam məntiqdən uzaq və qeyri-qanuni ideyalar dolaşmaqdadır. Müxtəlif tipli gimnaziya və liseylər yaranması ilə mahiyyətində heç bir dəyişiklik olmayan təhsil ocaqları çoxalmışdır. Araşdırmalar göstərir ki, məktəblərdə rəhbər kadr korpusunun və müəllim kadrların keyfiyyətcə yeniləşməsinə ehtiyac duyulur. Bunun üçün tez bir zamanda müvafiq attestasiya mexanizmi hazırlanıb həyata keçirilməlidir. Məktəblərin təmiri istənilən səviyyədə deyildir. Bu məsələdə o qədər dolaşıqlıq yaradılmışdır ki, Təhsil Nazirliyinin bu il təmir üçün nə qədər büdcə vəsaiti ayrılması barədə məlumatı belə yoxdur.

Son vaxtlar təhsilə dair toplantılarda məktəblərlə bağlı bəzi məsələlər qaldırılır. Bunlar nədən ibarətdir? Etiraf etməliyik ki, uzun illər boyu Azərbaycan məktəbi böyük uğurlar qazanıb, lakin bugünkü məktəbimizin vəziyyəti gələcəyimiz üçün problemlər da yarada bilər. Bunların qarşısını almaq üçün biz dərindən düşünməliyik. Hesab edirəm ki, təhsil işçiləri, Təhsil Nazirliyi Azərbaycanda məktəbin gələcəyini proqnozlaşdırmalı və gələcək üçün konsepsiya müəyyənləşdirməlidirlər. Bu gün Azərbaycan məktəbində, əsasən, kənd rayonlarında çox böyük problemlər yaranıbdır. Söhbət təkcə maddi-texniki bazadan getmir. Biz bu gün məktəblərimizdə müəllimlərin nöqsanlarından və fəaliyyətlərində olan çatışmazlıqdan danışmalıyıq. Kənd rayonlarında, demək olar ki, məktəbləri müəllim kadrları

ilə təmin etməkdə böyük problemlər yaranıb. Əgər ümumiyyətlə götürsək, indi ali məktəblərimiz məktəb üçün kifayət qədər kadr hazırlayırsa da, kənd rayonlarımızda müxtəlif fənlər üzrə ciddi kadr çatışmazlığı vardır. Bununla yanaşı, biz müəllimlərimizin peşəkarlıq səviyyəsi haqqında dərindən düşünməliyik. Bu da bizim qarşımızda böyük problem və vəzifə kimi dayanıbdır. Görünür, vəziyyəti düzəltmək üçün biz müəllimlərin təyinat prinsipini dəyişməliyik. Paradoks ondan ibarətdir ki, müəllim məktəbə təyin olunandan sonra düşünür ki, ömrünün axırına kimi elə bu məktəbdə işləyəcəkdir. Ona görə də öz peşəkarlıq səviyyəsini yüksəltmək barədə fikirləşmir. Məktəblərimizdə elə müəllimlər vardır ki, bəlkə də, onların bilik səviyyəsi yuxarı sinif şagirdlərinin səviyyəsindən aşağıdır. Çox təəssüflər olsun ki, bu, belədir. Nə qədər acınacaqlı olsa da, biz bunu deməliyik. Ona görə də biz orta məktəbin problemləri ətrafında çox ciddi düşünməliyik. Çünki Azərbaycanın gələcəyi məktəblərimizlə çox ciddi surətdə bağlıdır.

Təhsil işçilərinin sosial problemləri hamını narahat edir. Ölkə Prezidentini də narahat edir, təhsil işçilərini də. Bunların hamısı bizə bəllidir. Lakin ölkənin iqtisadi vəziyyəti də hamımıza bəllidir. Biz ayağımızı yorğanımıza görə uzatmalıyıq. Bu gün çətinliklər var. Ancaq buna baxmayaraq, təhsil sistemində işləyənlərin sosial məsələlərinin həlli üçün dövlət tərəfindən imkan dairəsində lazımi tədbirlər həyata keçirilir. Amma gərək biz hamımız, ilk növbədə, dövlət təhsil strukturlarında işləyənlər, müəllimlər gərək qarşıya qoyulan vəzifələri yerinə yetirək. Bu vəzifələri vətəndaşlıq düşüncəsi ilə icra etməliyik, məsuliyyətimizi artırmalıyıq. Məktəblərdə müəllimlərin, ümumiyyətlə, təhsil sistemi işçilərinin məsuliyyətini artırmaq

üçün biz mexanizmlər düşünməliyik. Elə etməliyik ki, bir tərəfdən, onların peşəkarlıq səviyyəsi müntəzəm olaraq artsın, digər tərəfdən də, öz vəzifələrinə böyük məsuliyyət və tələbkarlıqla yanaşsınlar. Bax, bu məsələ Təhsil Nazirliyi qarşısında vacib bir problem kimi dayanmalıdır.

Məktəblərin təmiri, lazımi maddi-texniki baza yaratmaq üçün maliyyə məsələlərinin həll olunmaması da bu gün təhsil işçilərini ciddi düşündürür və onlar bu məsələləri ardıcıl olaraq qaldırırlar. Buna da əsas var. Təxminən iyul ayının axırlarında Bakı şəhəri rayonlarının icra hakimiyyəti başçıları, Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Prezidentin İcra Aparatına dəvət edilmişdilər. Bu barədə çox ciddi müzakirələr aparıldı. Məsələ ilə bağlı cənab Prezidentə məruzə edildi. O da çox narahatlığını bildirdi ki, nəyə görə Bakı şəhərinin məktəblərində təmir işləri aparılmır? Nəyə görə büdcədən ayrılmış vəsait məktəblərə verilmir? Bu, çox ciddi məsələdir. Cənab Prezident bu məsələ ilə bağlı öz yanında müşavirə keçirmək haqqında da fikir söylədi. Təəssüflər olsun ki, həqiqətən də özbaşınalıq, məsuliyyətsizlik Azərbaycanda məktəbə, təhsil sisteminə əngəl törədir. Bakı şəhərində elə məktəb vardır ki, orada tədris üç növbədə aparılır. Hətta 4 növbə işləyən məktəb də var. Belə vəziyyətə icra hakimiyyəti başçıları, Bakı şəhərinin rəhbərliyi dözməməlidirlər.

Dövlət bu gün məktəb tikintisi ilə kifayət qədər məşğul ola bilmir. Lakin yerli icra hakimiyyətləri daxili imkanlar hesabına bu məsələnin bir qismini həll edə bilər.

Naxçıvan Muxtar Respublikasında son illər 40-dan çox məktəb binası tikilmişdir. Nəyə görə Bakıda tikilmir? Yaxud Azərbaycanın başqa rayonlarında tikilmir? Nəyə görə bizim

şəhər, rayon icra hakimiyyəti başçıları məktəb, bağça, xəstəxana, poliklinika tikintisi əvəzinə, məscid tikintisinə daha çox maraq göstərirlər? Sovet dövründə Azərbaycanda cəmi 17-18 məscid var idi. Mən bunu yaxşı bilirəm, çünki o illər bu işlərlə məşğul olurdum. Onda Mərkəz – Moskva Azərbaycanı ittiham edirdi ki, burada islam fundamentalizmi genişlənir, yayılır. Biz Moskvada oturanları də böyük çətinliklərlə başa salırdıq ki, bu belə deyil, sizin dediyiniz həqiqətdən uzaqdır. Mən onda misal gətirirdim ki, əgər Azərbaycanda 17 məscid fəaliyyət göstərirsə, təkcə Daşkənddə – bir şəhərdə 28 məscid fəaliyyət göstərir. Bu faktın özü Azərbaycan haqqında deyilənlərin əsassız olduğunu kifayət qədər təsdiq edir. Lakin Kommunist Partiyası Mərkəzi Komitəsi rəhbərliyinin öz məqsədləri var idi. Həqiqət onları maraqlandırmırdı.

Gəlin baxaq, Azərbaycanda indi vəziyyət necədir? Bu gün Azərbaycanda mindən artıq məscid fəaliyyət göstərir. Onların bir qismi yeni tikilibdir. Biz islam respublikası yox, dünyəvi dövlət qururuq. Təkcə Masallı rayonunda 100-dən çox məscid mövcuddur. Cəmi 85 kəndi olan rayonda bu qədər məscid həddən çox deyilmi? Əgər bizim yerlərdə vəzifəli şəxslər, doğrudan da, dövlət təfəkkürünə malikdirlərsə, onlar gərək belə vəziyyətə ciddi münasibət bildirsinlər. Biz birinci növbədə məktəb tikməliyik, məktəbləri təmir etməliyik.

Təxminən iki il bundan əvvəl Sabirabad rayonuna bir nəfər qadın icra hakimiyyəti başçısı təyin edildi. Məqsəd ondan ibarətdir ki, qadınlarımıza şərait yaradaq, onlar inkişaf etsinlər, vəzifələrdə olsunlar. Azərbaycan əhalisinin təxminən 51 faizi qadınlardır. Vaxtilə rayon partiya komitəsində ideoloji məsələlər üzrə katib işləmişdi, deputat idi və s. Rayona gələn

kimi elan etdi ki, mən məscid tikirəm, pul yığın. Rayonun ümdə problemləri qaldı kənarda. Axırda da başı qarışdı dedi-qoduya və vəzifədən uzaqlaşdırıldı. Vəzifədə olan adamların vəzifəsi və işi məscid tikmək deyil. Məktəb, xəstəxana, poliklinika və s. tikilməlidir. Olanlar isə təmir edilməlidir, məktəblərə avadanlıq alınmalıdır. Bu gün bunu dövlət tam həll edə bilmirsə, biz bunu ictimaiyyətin köməyi ilə həll etməliyik. Bir halda ki, Naxçıvan Muxtar Respublikasında 40-dan çox məktəb tikilibsə, heç olmasa, Bakıda hər rayonda bir məktəb tikilsin. Məktəb tikmirlər, heç olmasa, ayrı-ayrı şirkətlərə satılan uşaq bağçalarının qaytarılması məsələsi qaldırılmalıdır. Əgər onlar uşaq bağçası kimi fəaliyyət göstərə bilmirsə, heç olmasa, onlarda məktəblər, ibtidai siniflər açılsın. Bakının rayonlarında başqa imkanlarımız da var. Bu məsələlər gündəliyə çıxarılır, tənqid olunur, onların həlli üçün ürək ağrısı ilə danışılır, lakin çox təəssüf ki, problemlər həll edilmir. Əgər yerlərdə icra hakimiyyəti başçıları məktəb problemləri ilə ciddi məşğul olmaq istəsələr, onlar daxili imkanlardan istifadə edib məsələlərin çoxunu həll edə bilərlər. Buna heç bir şübhə yoxdur.

Ölkəmiz müstəqillik qazandıqdan sonra peşə təhsili müəssisələrinin fəaliyyət istiqamətlərinə, mütəxəssis hazırlığına qoyulan tələblər də köklü şəkildə dəyişmişdir. Planlı iqtisadiyyat dövründəki kadr hazırlığı ilə bazar iqtisadiyyatı şəraitində olan kadr hazırlığı prosesi məzmun və mahiyyət etibarilə bir-birindən kəskin şəkildə fərqlənir. Bu mənada son 10 il ərzində peşə təhsilində beynəlxalq tələblərə cavab verən bir sıra keyfiyyət, kəmiyyət, struktur, məzmun dəyişiklikləri baş vermişdir. Bununla belə, hazırda peşə təhsili sahəsində elə problemlər mövcuddur ki, onları təxirə salmadan həll etmək lazımdır.

Bu gün peşə təhsilinin ilkin mərhələsi olan texniki peşə təhsilinin cəmiyyətdə rolu və statusu əvvəlki illərlə müqayisədə çox aşağı düşmüşdür. Belə vəziyyət, əsasən, 1992-ci ildə respublikaya rəhbərlik edənlərin texniki peşə təhsili sisteminə qarşı yürütdükləri dağıdıcı siyasətin nəticəsində yaranmışdır. Hətta o dövrdə texniki peşə təhsili sisteminin bütövlükdə ləğv olunması barədə parlament qarşısında məsələ də qaldırılmışdı. Məqsəd də ondan ibarət idi ki, uzun illərdən bəri yaradılmış zəngin maddi-texniki baza satılaraq şəxsi əllərə keçsin, dövlətə məxsus binalar isə özəlləşdirilsin. Məhz elə bu naşı siyasətin nəticəsində respublika üzrə ixtisaslı fəhlə kadrların hazırlanması 1986-cı ilə nisbətən 55,5 min nəfər azalmışdır.

Bizim siyasətimiz texniki peşə təhsili sisteminin qorunub saxlanması və dinamik inkişafının təmin edilməsindən ibarətdir. Buna nail olmaq üçün, ilk növbədə, texniki peşə təhsilinin təhsil sistemindəki, bütövlükdə isə, cəmiyyətdəki statusu bərpa olunmalı, bu tədris müəssisələrində, əvvəllər deyildiyi kimi, "fəhlə" yox, iqtisadiyyatın və sosial sahənin müasir infrastrukturu nəzərə alınmaqla, ixtisaslı "sənətkar", "usta" hazırlanmalıdır. Bu isə peşə təhsili müəssisələrində məzmun, forma və struktur dəyişikliklərinin aparılması zərurətini meydana çıxarır.

İlk növbədə, istehsal prosesində gedən dəyişikliklər tədris prosesində öz əksini tapmalıdır. Eyni zamanda, aidiyyəti idarəetmə orqanları – iqtisadi inkişaf, təhsil, əmək və əhalinin sosial müdafiəsi nazirlikləri müvafiq idarə və təşkilatlarla birlikdə kadr hazırlığı üçün ümumi tələbatın əsaslandırılmış proqnozlaşdırılmasını aparmalıdır. Digər tərəfdən, bu pillədə kadr hazırlığı aparılan peşələrin siyahısı və bu pillə üçün təhsilin dövlət standartları təsdiq edilməlidir.

Son zamanlar respublikanın müxtəlif təbəqələrində orta ixtisas təhsilinin rolu, fasiləsiz təhsil sistemində onun yeri haqqında müxtəlif rəy və fikirlər söylənilir. Bununla bağlı qeyd etmək istərdim ki, YUNESKO-nun Beynəlxalq təhsil təsnifatında orta ixtisas təhsili ümumi orta təhsildən sonrakı təhsil kimi qeyd olunmuşdur. Buna görə də respublikamızda orta ixtisas təhsili pilləsinin mövcudluğu həm milli təhsil sisteminin nüfuzunu yüksəldir, həm də ölkənin intellektual potensialının formalaşmasında mühüm rol oynayır.

Azərbaycan tam müstəqilliyini əldə etdikdən sonra respublikada mövcud olan orta ixtisas təhsili müəssisələri öz daxili potensialından istifadə etməklə sosial–iqtisadi dəyişikliklərə uyğunlaşaraq, cəmiyyətdə baş verən iqtisadi tənəzzül dövründə yaşamaq qabiliyyətini sübut etdi. Son illərdə təhsildə aparılan düzgün dövlət siyasəti sayəsində orta ixtisas təhsili müəssisələrinin müstəqil fəaliyyəti və inkişafı üçün hüquqi, iqtisadi və digər zəminlər yaranmış və onların şəbəkəsi dağıdılmadan bütövlükdə saxlanılmışdır.

Lakin bir sıra orta ixtisas məktəblərinin ayrı-ayrı nazirlik, şirkət və birliklərin tabeliyində olması bu sahənin işində müəyyən qədər pərakəndəlik yaratmışdı. Həmin problem "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Prezidentinin 2000-ci il 13 iyun tarixli Fərmanı ilə həll edildi və bir sıra dövlət qurumlarının tabeliyində olan 21 orta ixtisas təhsili müəssisəsi Təhsil Nazirliyinin tabeliyinə verildi. Bununla da, orta ixtisas təhsilinin məzmununda köklü keyfiyyət dəyişikliklərinin aparılmasına, bu pillədə idarəetmənin demokratikləşdirilməsinə, kadr hazırlığı strukturunun və onların şəbəkəsinin təkmilləşdirilməsinə geniş imkan yarandı.

Təhsil Nazirliyi isə bu imkandan istifadə etmir. Məsələn, kənd təsərrüfatı profilli orta ixtisas təhsili müəssisələrinin mövcud ixtisas strukturu müasir bazar iqtisadiyyatının, aqrar bölmədə sahibkarlığın, fermer təsərrüfatının inkişafına tam xidmət etmir. Eyni zamanda, elə regionlarımız var ki, orada digər ixtisaslara real tələbat olduğu halda, yalnız bir kənd təsərrüfatı profilli orta ixtisas təhsili müəssisəsi fəaliyyət göstərir. Buna görə də orta ixtisas təhsili müəssisələrinin şəbəkəsinə yenidən baxılmalı, kadr hazırlığı strukturu təkmilləşdirilməlidir. Fikrimcə, respublikada aparılan təhsil islahatları çərçivəsində orta ixtisas təhsili ilə bağlı müddəaları həyata keçirmək üçün müəyyən müddəti əhatə edən xüsusi perspektiv inkişaf proqramı hazırlanıb təsdiq edilməli və realizə olunmalıdır.

Əgər biz təhsili cəmiyyətin inkişafetdirici qüvvəsi sayırıqsa, mübaliğəsiz demək olar ki, bu prosesin mərkəzində ali təhsil dayanır. Çünki yalnız əsl ziyalı, yüksək təhsilli şəxsiyyət, bütövlükdə təhsillənmiş cəmiyyət demokratiyanın mahiyyətini, zəruriliyini və xüsusiyyətlərini düzgün dərk edə və onlardan daha səmərəli, daha şüurlu istifadə edə bilər.

Şübhəsiz ki, bazar münasibətləri şəraitində ali təhsilli mütəxəssis hazırlığına qoyulan tələblər mahiyyət və məzmun etibarilə kökündən dəyişmişdir. Əgər planlı təsərrüfat dövründə hazırlanan diplomlu şəxs əsasən istehsal prosesində tədricən mütəxəssisə çevrilirdisə, əsasını rəqabət təşkil edən bazar münasibətləri şəraitində isə sifarişçi tərəf istehsalatı həm nəzəri, həm də praktik cəhətdən yüksək səviyyədə bilən mütəxəssis tələb edir.

Bu yanaşmada ali təhsilin inkişaf prioritetlərinin əsasını əmək bazarının tez-tez dəyişən tələbatına uyğun mütəxəssis

hazırlığının çevik modelinin yaradılması, kadr hazırlığı sahəsində iqtisadiyyatın infrastrukturuna əsasən ixtisas və ixtisaslaşma təsnifatının təsdiq olunması, bakalavr və magistr pillələrində kadr hazırlığına qoyulan yeni tələblərin işlənilməsi, bu zəmində məzmunun yenişləşdirilməsi və ali təhsildə mütəxəssis hazırlığının yeni dövlət standartlarının hazırlanması təşkil etməlidir. Bütün bunlarla bərabər, ali təhsilin təşkili ilə bağlı siyasət elə qurulmalıdır ki, gələcəkdə bu müəssisələr elm-təhsil-istehsal komplekslərinə çevrilsin. Başqa sözlə, elmin təhsillə inteqrasiyası təmin olunsun, onların nəzdində ayrı-ayrı pillələrdən olan təhsil müəssisələri yaradılsın, öz profillərinə uyğun istehsal sahələri təşkil edilsin.

Yeri gəlmişkən, bir problemə də toxunmaq istərdim. Məsələ bundadır ki, xeyli müddətdən bəri peşə təhsili ocaqlarının kadr hazırlığı ilə bağlı aidiyyəti müəssisə və təşkilatlarla əlaqəsi pozulduğundan, əksər hallarda bu müəssisələr ali məktəb tələbələrinin istehsalat təcrübəsi üçün lazımi şərait yaratmaqdan imtina edirlər. Bəzən isə bu məqsədlə xeyli miqdarda maliyyə vəsaiti tələb edirlər. Bu cür vəziyyətdə hazırlanan mütəxəssislər yalnız elmi cəhətdən mükəmməl bilikli olur, təcrübi vərdişlərə isə lazım olan səviyyədə yiyələnə bilmirlər. Hesab edirəm ki, belə vəziyyət dözülməzdir və onların aradan qaldırılması üçün təsirli tədbirlər görülməlidir.

Əsasən ali təhsil pilləsində özünün yerini tapmış özəl təhsil müəssisələrinin fəaliyyət perspektivləri də bu günün aktual problemidir.

Müstəqilliyin ilk illərində Azərbaycan Respublikasında heç bir hüquqi əsas olmadan 100-dən artıq özəl ali təhsil müəssisəsi

açılmışdır. Burada gedən proseslərdən, təhsilin səviyyəsindən, tədrisin təşkili və sair məsələlərdən isə heç danışmağa belə dəyməz. Biz hamımız vaxtilə bu proseslərin şahidi olmuşuq. Lakin zaman ötdükcə özəl təhsil müəssisələrinin açılması, ləğv edilməsi, lisenziyalaşdırılması, hüquqi şəxs statusu alması kimi vacib reqlamentlər hazırlandı, onlar qəbul edildi. Bütün bunlara baxmayaraq, hələ də qanunsuz fəaliyyət göstərən özəl təhsil müəssisələri mövcuddur. Çox təəccüblüdür ki, respublikamızın müvafiq orqanları hələ də bu hallara qarşı qəti tədbirlər görmürlər. Digər tərəfdən də, qanuni açılmış özəl ali məktəblərin bir çoxunda təhsilin səviyyəsi olduqca aşağıdır. Bunların əksəriyyəti təhsilə xidmət etməkdən daha çox şəxsi qazanc məqsədi güdür. Dövlət bu cür müəssisələrin fəaliyyətinə dözə bilməz, çünki bunlar gənclərə bilik almaq üçün lazımi şərait yaratmırlar. Bir də ki, 8 milyonluq ölkə üçün bu qədər özəl ali məktəbin olması bizim təhsil konsepsiyamızla üst-üstə düşmür. Özəl ali təhsil müəssisələri təhsilin keyfiyyəti naminə dövlət ali təhsil müəssisələri ilə sağlam rəqabət aparmalı və yaxud onlardan üstün olmalıdır.

Yaxşı haldır ki, təhsildə ən vacib prosedurlardan biri olan keyfiyyətə nəzarətin müasir mexanizmi Təhsil Nazirliyi tərəfindən layihə şəklində artıq işlənib hazırlanmış və Avropa Şurasının ekspertləri tərəfindən bəyənilmişdir. Yəqin ki, respublika hökuməti tezliklə bu mexanizmi təsdiq edəcək və artıq yaxın gələcəkdə keyfiyyətə nəzarət ən müasir mexanizmlərlə həyata keçiriləcəkdir.

Məlum məsələdir ki, təhsildə keyfiyyət göstəricilərindən danışarkən, ilk növbədə, müəllim hazırlığı, onların diplomdansonrakı təhsili kimi vacib məsələlərə də toxunmaq lazımdır. Bu

istiqamətdə dövlətin siyasəti ondan ibarətdir ki, Azərbaycan müəllimlərinin birinci qurultayında ölkə Prezidenti cənab Heydər Əliyevin qeyd etdiyi kimi, "müəllimlik peşəsi ən yüksək qiymətə layiq olan peşədir. Müəllimlik asan peşə deyil. Bəziləri hesab edirlər ki, hər adam müəllim ola bilər. Bəzən olur ki, müəllimliyə layiq olmayan adam da müəllimlik edir".

Məhz müəllim hazırlığına və onların fasiləsiz təhsilinə olan xüsusi diqqətin nəticəsi idi ki, Azərbaycan Prezidentinin 2000-ci il 13 iyun tarixli məlum Fərmanı ilə Azərbaycan təhsilində hələ analoqu olmayan Azərbaycan Müəllimlər İnstitutu və onun respublikanın bütün müəllim kontingentini əhatə edə biləcək 12 filialı yaradıldı. Bu müəssisələr Azərbaycan təhsil sistemi üçün ona görə nadir sayılır ki, burada müəllimlərin ilkin hazırlığı, ixtisasartırması və yenidən hazırlanması, eləcə də müəllimlərin təkmilləşdirilməsi prosesləri ilk dəfə olaraq vəhdətdə qəbul edilərək, fasiləsiz təhsil konsepsiyası əsasında qurulur. İxtisasartırma və yenidənhazırlanma təhsili, eləcə də müəllimlərin təkmilləşdirilməsi mürəkkəb problemlərlə, ilk növbədə, maliyyələşmə problemləri ilə üzləşdiyi bir vaxtda bu cür şəbəkənin təşkil edilməsi, faktik olaraq, müəllim hazırlığı sahəsində "ilkin hazırlıq-ixtisasartırma–attestasiya–stimul" kimi zəncirvari bir mexanizmin yaradılması və tətbiqi ilə nəticələnəcəkdir.

Təhsilin keyfiyyətinə birbaşa təsir edən reqlamentlərdən biri kimi, pedaqoji kadrların attestasiyasının yeni mexanizminin hazırlanması da məhz respublika Prezidentinin yuxarıda adı çəkilən fərmanında öz əksini tapmışdır. Həmin mexanizm layihəsinin hazırlanmasına baxmayaraq, təəssüf ki, bu günədək

təsdiq edilməmişdir. Fikrimcə, pedaqoji kadrlar attestasiyadan keçirilərkən mütləq keyfiyyət meyarları əsas götürülməli, əməyin düzgün qiymətləndirilməsi və stimullaşdırılmasına istinad olunmalıdır. Əks təqdirdə, keçirilən attestasiya yenə də formal xarakter daşıyacaq, nəticəsinin isə keyfiyyət göstəricilərinə heç bir təsiri olmayacaqdır. Yəqin ki, yeni tədris ilindən etibarən pedaqoji kadrların yeni attestasiya mexanizmi real prosesə öz vəsiqəsini alacaqdır. Bunun üçün isə aidiyyəti müəssisə və orqanlar tərəfindən bütün təşkilati işlər vaxtında görülməlidir.

İslahat Proqramında öz əksini tapmış təhsilin idarə olunmasında yeni mexanizmlərə keçid məsələsi də aktual problemlərdən biridir. Təhsilin idarəçiliyində bir-birini təkrar edən qurumlar ləğv edilməli və daha səmərəli mexanizm yaradılmalıdır. Ədalət naminə qeyd edilməlidir ki, hazırda idarəetmənin demokratikləşdirilməsi, elmi idarəetmənin müasir mexanizmlərinə keçid üçün konkret işlər görülür. Burada əsas məsələ ondan ibarətdir ki, idarəetmənin planlaşdırma, təşkiletmə, motivləşdirmə, nəzarət kimi funksiyaları tam müasir modellərə uyğun qurulsun, idarəedənlərlə idarəolunanlar arasında yeni münasibətlər yaransın, kollegial qərarçıxarma prosedurları tətbiq olunsun. Burada bir məsələyə xüsusilə toxunmaq istərdim. Biz hər zaman müəllimin cəmiyyətdə hörmətini qaldırmaqdan danışırıq. Lakin müəllimin orta və ali məktəbdəki statusunun yüksəldilməsi problemini isə, nədənsə, yaddan çıxarırıq. Bu bir həqiqətdir ki, ilk növbədə, müəllimin tədris müəssisəsindəki rolu yüksəldilməzsə, o, cəmiyyətdə öz layiqli yerini tuta bilməz. Bu mənada ali və orta məktəbdə gedən bütün proseslərdə müəllimin iştirakı təmin edilməli, onun

yaradıcı fəaliyyəti üçün bütün imkanlardan istifadə olunmalı, “təhsil verən-təhsil alan”, “müəllim-valideyn”, “müəllim-əmək kollektivi” və ən nəhayət, “müəllim–idarəedən” münasibətləri tənzimlənməli, ən əsası isə, müəllimin sosial problemləri həll edilməlidir. Təəssüflər olsun ki, regionlarda bəzi hallarda müəllimlərin sosial problemlərinin həllini yalnız mərkəzdən – Bakıdan tənzimlənən bir mexanizm əsasında təsəvvür edirlər. Yerli icra hakimiyyəti orqanlarının, rayon ictimaiyyətinin birgə səyləri əsasında həll oluna bilən kiçik bir problem respublika icra orqanları qarşısında qoyulur. Halbuki, bu, yerlərdə həll olunmalıdır. İşə belə münasibət onu göstərir ki, yerlərdə aidiyyəti məsul şəxslərin biganəliyi və məsuliyyətsizliyi bizim ən ağrılı yerimizdir. Biz belə hallara qarşı çox ciddi mübarizə aparmalıyıq.

Təhsil sistemi qarşısında qoyulan vəzifələrin uğurla həyata keçirilməsi maliyyə təminatından, ölkə iqtisadiyyatının intensiv inkişafından çox asılıdır. Müstəqillik illərində ölkə Prezidenti Heydər Əliyev təhsilin prioritet sahə kimi üstün inkişafına daim diqqət və qayğı göstərmiş, təhsil işçilərinin əmək haqqının artırılması barədə sərəncamlar imzalamışdır. Təsadüfi deyildir ki, Prezidentin təsdiq etdiyi İslahat Proqramında təhsilin maliyyə təminatının mərhələlər üzrə yüksələn xətlə inkişafı xüsusi olaraq nəzərdə tutulmuşdur. Qaçqın-köçkün və müharibə problemlərini yaşayan bir ölkənin təhsilinin tərəqqisi üçün əlavə maliyyələşmə mənbələrinin axtarılıb tapılması son dərəcə zəruridir. Hesab edirəm ki, Təhsil Nazirliyi, eləcə də iqtisadi inkişaf və maliyyə nazirlikləri, digər dövlət qurumları təhsil sisteminə investisiyaların cəlbi, qrantların ayrılması istiqamətində təsirli tədbirlər həyata keçirməli, beynəlxalq

təşkilatlarla, təhsil sahəsində xarici tərəfdaşlarla iş gücləndirilməlidir. Zənnimcə, təhsil müəssisələrində ödənişli qruplara şəraitin yaradılması da maliyyə problemlərinin həllində, maddi-texniki bazanın möhkəmləndirilməsində əhəmiyyətli rol oynayardı.

Daha bir vacib bir məsələ üzərində dayanmaq istəyirəm. Bu da təhsil ocaqlarında son vaxtlar müşahidə olunan siyasiləşmə prosesidir. Totalitar rejimə xas olan bu hadisəyə çoxpartiyalı cəmiyyətdə yol vermək olmaz. Təəssüf ki, cəmiyyətimizdə təhsil ocaqlarını öz siyasi ambisiyalarını həyata keçirmək üçün poliqon hesab edən qüvvələr mövcuddur. Belə qüvvələrin təsiri altında uşaqlar məktəbdən yayınaraq, zərərli işlərlə məşğul olurlar. Bu gün təhsil ocaqlarında çalışanlar dövlətçilik mənafelərindən çıxış edərək, yetişməkdə olan gənc nəslin azərbaycançılıq ruhunda tərbiyə olunmasında var gücünü sərf etməlidirlər. Azərbaycanın daxili və xarici siyasətini düzgün dərk edərək, onun təbliğatçısına çevrilməlidirlər.

Bütün bu deyilənlərdən belə nəticə çıxarmaq olar ki, müstəqilliyin bəxş etdiyi imkanlardan səmərəli istifadə etməklə Azərbaycan təhsili keyfiyyətcə yeni bir inkişaf mərhələsinə qədəm qoymuşdur. Heç şübhəsiz, plüralizmin hökm sürdüyü hazırkı vaxtda təhsilin təşkili, inkişafı və idarə olunması, islahatların aparılması, beynəlxalq təcrübənin tətbiqi və sair bu kimi məsələlərlə bağlı müxtəlif fikirlər, mübahisəli yanaşmalar da meydana çıxır. Bu, əlbəttə ki, təbiidir. Lakin bütün ideyaları yenilik kimi qəbul edib mexaniki şəkildə Azərbaycan təhsilinə gətirmək olmaz. Məsələn, deyirlər ki, madam demokratiya şəraitində yaşayırıqsa, muxtariyyət və özünüidarəetmə prinsip-lərinin tətbiqinə şərait yaradılıbsa, onda təhsil sisteminə dövlət

nəzarəti arxa plana keçməlidir. Belə bir fikrin də tərəfdarları var ki, dövlət təhsil müəssisələrinin özəlləşdirilməsi və yaxud icarəyə verilməsi yolu ilə maliyyə problemlərini həll etmək olar. Elələri də vardır ki, onlar Azərbaycan təhsilini inkişaf etdirmək məqsədi ilə çoxəsrlik tərəqqi yolu keçmiş hər hansı bir dövlətin, yaxud dövlətlərin təhsil modellərini olduğu kimi Azərbaycana gətirmək istəyirlər. Elə mühafizəkar fikir sahibləri də mövcuddur ki, onlar heç bir islahatı qəbul etmir, Azərbaycan təhsilini olduğu kimi saxlamağa tərəfdar çıxırlar.

Hesab edirəm ki, problemlərə bu səpkidə yanaşma ilə təhsildə müsbət nəticələr əldə etmək mümkün deyildir, çünki təhsil sisteminə nəzarət sahəsində dövlətin rolunun azaldılması cəmiyyətin sosial-iqtisadi inkişafında təhsilin rolunun aşağı düşməsi ilə nəticələnə bilər. Dövlət təhsil müəssisələrinin özəlləşdirilməsi və ya onların geniş miqyasda icarəyə verilməsi, əslində, onların şəxsi əllərə keçməsi və nəticə etibarilə maddi-texniki bazanın, əmlakın dağıdılması deməkdir. Beynəlxalq təcrübənin tətbiqinə gəlincə isə, bu gün hamıya məlumdur ki, heç bir ölkənin təhsil sistemi müasir şəraitdə inteqrasiyasız, qarşılıqlı zənginləşmə olmadan inkişaf edə bilməz. Digər tərəfdən isə, hansısa ölkənin təhsil modelini götürüb başqa bir ölkədə eynilə tətbiq etmək qeyri-mümkündür. Ona görə də bizim təhsilimiz milli pedaqoji ənənələr, milli mentalitet, iqtisadi durum, real elmi potensial imkanlar üzərində və dünya təcrübəsinin ən mütərəqqi model və mexanizmlərindən düzgün, səmərəli istifadə olunmaqla inkişaf etdirilməlidir.

Bütün bunlarla yanaşı, təhsilimizin səviyyəsini inkişaf etmiş qabaqcıl ölkələrdəki səviyyəyə çatdırmaq istəyiriksə, müəllimlərin sosial vəziyyətinin aşağı düşməsinə, təhsilin elm,

mədəniyyət və iqtisadiyyatla əlaqələrinin pozulmasına, onun tərbiyəvi xarakterinin azalmasına, təhsil işçilərinin hüquq və azadlıqlarının məhdudlaşdırılmasına, təhsildə humanistləşdirmə istiqamətinin zəifləməsinə qətiyyən yol vermək olmaz.

Belə hesab edirəm ki, XXI əsrin ilk onillikləri üçün Azərbaycan dövlətinin təhsil siyasəti və strategiyasının əsasını məhz elə bu istiqamətlər müəyyənləşdirəcəkdir. Əks halda, bu müddəaların nəzərə alınmaması və praktik fəaliyyətdə onlara əməl edilməməsi nəticə etibarilə nəinki təhsil sistemində, habelə bütövlükdə cəmiyyətdə dağıdıcı proseslərin baş verməsinə gətirib çıxara bilər.

Bütün bunlara əsasən, deyə bilərik ki, qədəm qoyduğumuz XXI əsrin ilk onilliklərində bizi təhsil sahəsində aşağıdakı qlobal vəzifələrin həlli gözləyir:

– Azərbaycanın bütün vətəndaşlarına keyfiyyətli təhsil almaq üçün bərabər şəraitin yaradılması;

– təhsilin ölkə iqtisadiyyatının yüksəlişinə təsirinin gücləndirilməsi;

– vətəndaş tərbiyəsinin təhsilin başlıca prioritetlərindən birinə çevrilməsi;

– fundamental və tətbiqi elmlərin tədrisinin gücləndirilməsi;

– elmi tədqiqatların nəticələrindən istehsalatın və sosial-mədəni sahələrin texnoloji modernləşdirilməsində səmərəli istifadə olunması;

– ali məktəblərin bazasında elmi tədqiqat işlərinin gücləndirilməsi;

– informasiya–kommunikasiya texnologiyalarının təhsil prosesində mühüm vasitəyə çevrilməsi, müasir təlim texnologiyalarının və innovasiyaların dərindən tətbiqi;

– təlimin praktik yönümünün gücləndirilməsi;

– təhsil sisteminin tam kompyuterləşdirilməsi;

– təhsilin forma, məzmun və strukturunun müasir baxımdan təkmilləşdirilməsi;

– təhsilin bütün pillələrində dərslik probleminin həlli üçün "Dərsliklərin hazırlanması, nəşri və təminatı üzrə Dövlət Proqramı"nın təsdiq olunub həyata keçirilməsi, ilk onillik ərzində tədricən orta məktəb dərsliklərinin pulsuz verilməsi;

– müəllim hazırlığının forma və məzmunca yenidən qurulması;

– rəhbər pedaqoji kadrların peşəkarlıq səviyyəsinin keyfiyyətcə yaxşılaşdırılması sahəsində dünya təcrübəsindən istifadə edilməsi;

– idarəetmənin demokratik prinsiplərə əsaslanan çevik mexanizmlərinin geniş tətbiq olunması;

– mütəxəssis hazırlığının elmi cəhətdən əsaslandırılmış dəqiq proqnozlaşdırmaya uyğun aparılması;

– ümumtəhsil müəssisələrinin pedaqoji kadrlarla təminatının yeni mexanizmlərlə həyata keçirilməsi;

– ixtisasartırma təhsili sisteminin forma və məzmun etibarilə yenidən qurulması;

– -təhsildə yeni iqtisadi mexanizm və modellərə keçidin təmin edilməsi;

– təhsil işçilərinin sosial müdafiəsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlərin görülməsi.

Güman edirəm ki, Azərbaycan təhsilinin yaxın gələcək üçün dinamik inkişafı məhz bu qlobal problemlərin müsbət həllindən çox asılı olacaqdır.

2001/2002-ci tədris ili, əslində, XXI əsrin ilk dərs ilidir. Bununla yanaşı, həmin dərs ili təhsildə qarşıya qoyulan böyük vəzifələrin həyata keçirilməsinin uğurlu başlanğıc ilidir. Elə bir zaman gəlib çatmışdır ki, biz artıq zahiri effekt doğuran bəzi nəzəri ideyalar əvəzinə, təhsilimizi irəli aparan konkret əməli tədbirlərə daha geniş meydan verməliyik. Həyat sübut edir ki, təhsilin inkişafı yolunda tutduğumuz mövqe və istiqamətimiz doğrudur, biz düzgün yolla irəliləyirik. Bu yolda bizim ən optimal istiqamətimiz Azərbaycan Prezidenti cənab Heydər Əliyevin təsdiq etdiyi İslahat Proqramı, onun göstəriş və tövsiyələridir. Hesab edirəm ki, Azərbaycanın təhsil işçiləri yeni dərs ilində bu Proqramdan irəli gələn vəzifələrin həyata keçirilməsi üçün daha əzmlə çalışacaq, zamanın təhsil işçiləri qarşısında qoyduğu mühüm vəzifələri layiqincə yerinə yetirəcəklər.

*"Azərbaycan müəllimi" qəzeti,*
*13-19 sentyabr 2001-ci il.*

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN YANINDA DÖVLƏT MÜSTƏQİLLİYİNİN 10-CU İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ ÇIXIŞ

– Zati-aliləri möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onuncu ildönümü haqqında" 2001-ci il 20 mart tarixli Fərmanının icrası ilə bağlı görülmüş işlərin xülasəsinə keçməzdən əvvəl, Fərmanın özü haqqında bir neçə söz demək istəyirəm. Tam mübaliğəsiz demək olar ki, Azərbaycan Respublikası Prezidentinin bu Fərmanı Azərbaycan tarixinin yeni bir dövrünün – müstəqil inkişaf dövrünün birinci onilliyinin obyektiv, yığcam, eyni zamanda, hərtərəfli təhlilini verən dəqiq elmi mənbədir. Həmin dövrdə ölkəmizin həyatında baş vermiş müxtəlif ictimai-siyasi, iqtisadi-sosial prosesləri qiymətləndirmək baxımından isə Fərman şübhəsiz ki, mötəbər siyasi sənəddir. Bu Fərman keçilmiş yola tarixi baxımdan böyük müddət olmayan ötən il zirvəsindən bir daha işıq salmaqla, insanlarda Azərbaycanın müstəqilliyinin dönməzliyinə, artıq intensiv inkişaf dövrünə qədəm qoymuş ölkəmizin xoşbəxt gələcəyinə inamı daha da möhkəmləndirir, onları bu böyük amal naminə səfərbər olmağa, yeni nailiyyətlər əldə etməyə ruhlandırır.

Fərmanın imzalandığı vaxtdan keçən qısa müddət ərzində ölkəmizin Prezidentinin verdiyi digər fərman və sərəncamlar, gördüyü mühüm tədbirlər müstəqilliyimizin on illik yubileyi ərəfəsində hər bir Azərbaycan vətəndaşında dövlətimizin gələcəyinə böyük inam və nikbinlik hisslərini artırmışdır. Fürsətdən istifadə edərək, həmin sənədlərdən bəzisini xatırlatmaq istəyirəm: Azərbaycan Respublikası Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli, "Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşdırılması problemlərinin həlli haqqında" 2001-ci il 22 avqust tarixli, "Ağdam və Füzuli rayonlarından didərgin düşmüş məcburi köçkünlərin bir qisminin məskunlaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında" 2001-ci il 7 sentyabr tarixli fərmanları, cəmiyyətin mənəvi sahəsində baş verən hadisə və proseslərlə bağlı ölkəmizin Prezidentinin 2001-ci il 13 avqust tarixli bəyanatı, "Cənubi Qafqaz boru kəməri sistemi vasitəsilə təbii qazın tranziti, nəqli və satışı haqqında" Azərbaycan Respublikası ilə Gürcüstan arasında sazişin imzalanması və sair.

Bunların hər biri ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsi yolunda böyük əhəmiyyət kəsb edən çox mühüm sənədlər olmaqla yanaşı həm də, on illik yubileyə ən gözəl töhfələrdir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onuncu ildönümü haqqında" 2001-ci il 20 mart tarixli Fərmanı ilə təsdiq edilmiş tədbirlər planının həyata keçirilməsi respublikanın bütün şəhər və rayonlarında, nazirlik, idarə və təşkilatlarında sistemli şəkildə

təmin olunur. Tədbirlər planında nəzərdə tutulmuş elmi simpozium, konfrans, müsabiqə və sərgilərin təşkil edilməsi müntəzəm olaraq həyata keçirilmişdir. Respublikanın bütün muzeylərində, o cümlədən tarix-diyarşünaslıq muzeylərində müstəqillik illərində əldə olunmuş nailiyyətləri əks etdirən ekspozisiyalar və səyyar sərgilər təşkil olunmuşdur.

Sentyabrın 26-da Azərbaycan Milli Elmlər Akademiyası və Təhsil Nazirliyinin “Müstəqil Azərbaycanın on illiyi: tarix və gerçəklik” mövzusunda birgə elmi-praktik konfransı keçirilmişdir. Azərbaycan Milli Elmlər Akademiyası və Təhsil Nazirliyi “Müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir” mövzusunda beynəlxalq konfransın keçirilməsi ilə bağlı təşkilati işləri başa çatdırmışdır və konfrans yaxın günlərdə keçiriləcəkdir.

Dünya azərbaycanlılarının birinci qurultayı günlərində “Müstəqillik dövrünün iqtisadi nailiyyətləri” mövzusunda beynəlxalq konfrans keçirilməsi nəzərdə tutulmuşdur. Dövlət Statistika Komitəsinin Azərbaycan Milli Elmlər Akademiyası ilə birgə təşkil etdiyi “Onilliyin yekunları” mövzusunda elmi simpozium oktyabrın 9-da, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “Suverenlik, demokratiya, dövlət idarəçiliyi” mövzusunda elmi sessiyası isə oktyabrın 10-da keçiriləcəkdir.

Ölkənin ümumtəhsil məktəblərinin IX-X sinif şagirdləri arasında müstəqilliyimizin on illiyinə həsr olunmuş inşa yazılarının müsabiqəsi təşkil edilmişdir. Müsabiqədə on minlərlə məktəbli öz gücünü sınamışdır. May ayının 22-23–də müsabiqəyə yekun vurulmuş, bir çox şagird və onların müəllimləri diplomlarla və tərifnamələrlə mükafatlandırılmışlar. “Gənc

istedadlar – gələcəyə” mövzusunda ümumrespublika müsabiqəsinin I mərhələsi may ayında keçirilib, II mərhələnin oktyabrda, III yekun mərhələsinin isə noyabrda keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 10 illik yubileyinin yerlərdə geniş qeyd edilməsi məqsədi ilə rayon və şəhər icra hakimiyyəti başçıları aparatlarında tədbirlər planı hazırlanmış və onların yerinə yetirilməsi üçün mütəmadi iş aparılmışdır. Yerlərdə inzibati ərazi dairələri üzrə nümayəndəliklər və bələdiyyə şuraları oktyabırn 16-18-də rayon və şəhərlərin bütün yaşayış məntəqələrində “Yaşasın, müstəqil Azərbaycan!” şüarı altında kütləvi aksiyaların və təntənəli yubiley şənliklərinin keçirilməsi üçün müvafiq tədbirlər hazırlamışlar. Oktyabrın 10-dan 17-dək isə mədəniyyət saraylarında yubileyə həsr olunmuş təntənəli yığıncaqların keçirilməsi nəzərdə tutulmuşdur. Yubiley münasibətilə şəhər, rayon, qəsəbə və kəndlərdə böyük abadlıq işləri aparılmış, yeni yaşıllıqlar salınmış, istirahət guşələri yaradılmış, yol tikintisi, mədəni-maarif mərkəzlərinin təmiri ilə bağlı işlər görülmüşdür.

Tədbirlər planında nəzərdə tutulmuş “Azərbaycan təsviri sənəti son 10 il ərzində” sərgisi üçün əsərlərin siyahısı tərtib olunmuş və həmin sərginin oktyabrın 16-da Vəcihə Səmədova adına Sərgi salonunda açılışı planlaşdırılır. Eyniadlı elmi konfrans da həmin günlərdə keçiriləcəkdir.

Azərbaycan Respublikasının xarici dövlətlərdəki səfirlikləri və beynəlxalq təşkilatlardakı nümayəndəlikləri vasitəsilə Azərbaycan dövlətinin 10 ildəki nailiyyətlərini nümayiş etdirmək məqsədi ilə sərgi, konsert, konfranslar və görüşlər

təşkil olunmuşdur. Azərbaycanın incəsənət ustaları və “Səyyah” uşaq kollektivi mart və sentyabr aylarında Avstraliyada olmuş, apreldə Şimali Koreyada keçirilən incəsənət festivalında iştirak etmişlər. Aprel-iyun aylarında Rusiyada, Türkiyədə və Ukraynada müstəqilliyimizin 10 illik yubileyinə həsr olunmuş Azərbaycan mədəniyyəti günləri keçirilmişdir. Bu münasibətlə Azərbaycan incəsənət ustaları İran, Qazaxıstan, Qırğızıstan və başqa ölkələrdə də uğurla çıxış etmişlər. Bu qəbildən olan tədbirlərin keçirilməsi davam etdirilir. Oktyabrın 28-də qardaş Türkiyənin Antalya şəhərində müstəqilliyimizin 10 illiyi münasibətilə Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət konsert təşkil olunacaqdır.

“Müstəqil Azərbaycanın 10 illiyi – kino və video materiallarda” sənədli teleserialının yaradılması üzərində iş başlanmışdır və hazırda davam etdirilir. Oktyabr və noyabr aylarında Azərbaycan tarixi ilə bağlı teatr və kino festivalının keçirilməsi planlaşdırılmışdır.

2001-ci il mart-may aylarında ali təhsil məktəblərinin tələbələri arasında V respublika universiadası keçirilmişdir. Azərbaycanın müstəqilliyinin 10-cu ildönümünə həsr olunmuş bu universiadada 2041 tələbə idmanın basketbol, voleybol, əl topu, cüdo, yüngül atletika və üzgüçülük növlərində yarışmışdır. 2001-ci ilin oktyabr-dekabr aylarında isə orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında idman spartakiadası keçiriləcəkdir. Bu gün Bakının Nizami rayonunda gənclərin “Bu günün lideri – gələcəyin lideridir” devizi altında toplantısı keçirilir.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 10-cu ildönümünə həsr edilən təntənəli mərasimin hazırlanması üzrə iş

başlanmış, iki hissədən ibarət mərasimin plan-ssenarisi hazırdır və iş davam etdirilir.

Azərbaycan Respublikasının kütləvi informasiya vasitələrində, mərkəzi və yerli televiziya kanallarında, radioda Azərbaycanın tarixinə və bu gününə həsr edilmiş materialların verilməsi müntəzəm şəkildə aparılır. Həmin materialların hazırlanması işinə respublikanın tanınmış alimləri, ziyalıları və mütəxəssisləri cəlb edilmişdir. Qəzetlərdə, televiziya və radioda "Müstəqillik Azərbaycan Respublikası vətəndaşlarına nə vermişdir?" başlığı altında xüsusi rubrikalar açılmışdır.

Müstəqillik tarixinin müxtəlif mərhələlərini əks etdirən kitab və topluların hazırlanması və nəşr edilməsi istiqamətində də xeyli iş görülmüşdür. 1993-cü ilin iyun-dekabr aylarındakı gərgin siyasi və ictimai hadisələri işıqlandıran sənəd və materiallar toplusu – "Azərbaycan – 1993. Anarxiyadan sabitliyə" kitabı çap olunmuşdur.

"Müstəqil Azərbaycan son 10 ildə" statistika toplusu da kitab və disk şəklində buraxılmışdır. Müstəqil Azərbaycan Respublikasının 10 il ərzində dövlət quruculuğu, iqtisadi–siyasi, sosial və mədəni inkişaf, xarici siyasət və sair sahələrdə əldə etdiyi nailiyyətləri əks etdirən "Azərbaycan 1991-2001-ci illərdə" kitabı üzərində iş başa çatmış və çapa göndərilmişdir. Oktyabrın 16-da həmin kitabın təqdimat mərasiminin keçirilməsi nəzərdə tutulmuşdur. "Müstəqil Azərbaycan – 10" ensiklopediyası və kitab-albomu üzərində isə iş davam etdirilir.

Hazırlanmış və çap olunmuş materialların internet, elektron-poçt, informasiya daşıyıcısı olan müxtəlif elektron vasitələrinin köməyi ilə dünyaya yayılması təmin olunub və davam etdirilir.

Müstəqil Azərbaycanın 10 il ərzində əldə etdiyi nailiyyətlərə və xalqımızın görkəmli şəxsiyyətlərinə həsr olunmuş poçt markalarının buraxılması təmin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş planda nəzərdə tutulmuş tədbirlərlə yanaşı, ölkəmizdə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, idarə və təşkilatların hazırladığı planlar əsasında yubileyə həsr olunmuş çoxsaylı tədbirlər həyata keçirilmişdir və bu iş ilin sonuna qədər davam etdiriləcəkdir.

Yubiley tədbirlərinin həyata keçirilməsi Azərbaycan vətəndaşlarını ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsi yolunda daha böyük əzmkarlıq və qətiyyət göstərməyə ruhlandırır və Azərbaycanın haqq işinin bütün dünyaya nümayiş etdirilməsi üçün geniş imkanlar yaradır.

Diqqətinizə görə təşəkkür edirəm.

*"Respublika" qəzeti,*
*3 oktyabr 2001-ci il.*

## AZƏRBAYCANDA MÜSTƏQİL DÖVLƏT QURUCULUĞU TƏCRÜBƏSİ: UĞURLAR, PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR

Artıq tarixə çevrilmiş XX əsr dünyanın siyasi tarixinə elmi-texniki inqilab, iki dünya müharibəsi, qloballaşma və inteqrasiya prosesləri ilə yanaşı, həm də çoxlu sayda müstəqil dövlətlərin yaranması, bir sıra xalqların müstəqillik əldə etməsi ilə daxil olmuşdur. Xüsusən İkinci Dünya müharibəsindən sonra Asiyanın və Afrikanın siyasi xəritəsində xeyli suveren dövlətlər meydana gəldi. Əsrin sonunda sosializm sisteminin və SSRİ-nin dağılması ilə Avropada və Asiyada yeni müstəqil dövlətlər yarandı.

İnkişaf etmiş sivil xalqlar bütün zamanlarda dövlətə zəruri, hətta müqəddəs təsisat kimi baxmışlar. Müstəqil dövlət isə hər bir xalqda qürur və şərəf hissi doğuran güclü amildir. ***Hər bir xalq və millət üçün müstəqillik əvəzedilməz nemətdir. Xalqların öz taleyini müstəqil şəkildə müəyyən etməsi, suveren dövlət halında təşkilatlanması onun milli potensialının, maddi və mənəvi resurslarının tam gücü ilə üzə çıxarılmasına imkan yaradır, iqtisadi, siyasi, intellektual, mədəni qüvvələrinin maneəsiz inkişafına təkan verir, xalqın və millətin nəyə qadir olduğunu nümayiş etdirir. Xalqın müstəqil dövlət halında yaşamaq qabiliyyəti, milli təsisatların inkişafı, dünya birliyində müstəqil dövlətin yeri bu halda bütün əyaniliyi ilə üzə çıxır. Müstəqillik vətənpərvərlik ideyalarının və duyğularının***

***güclənməsinə imkan yaratmaqla yanaşı, həm də bunları ciddi sınağa çəkir, milli və ümumbəşəri dəyərlərin daha düzgün və dolğun uyğunlaşdırılmasını təmin edir.***

Müstəqil dövlət halında yaşamaq vətəndaşlara geniş hüquqlar və azadlıqlar verməklə bərabər, həm də onların üzərinə böyük məsuliyyət qoyur. Müstəqil dövlətin vətəndaşları daim onun güclü və zəngin olmasına çalışmalı, onu bütün vasitələrlə, lazım gələrsə, əldə silahla qorumağa hazır olmalı, ölkə və xalq üçün, etibar edilmiş iş sahəsi üçün məsuliyyət hiss etməli, dövlət nizamını, qanunçuluğu möhkəmləndirməlidirlər. Beləliklə, müstəqil dövlətdə yaşamaq hər kəsdən – dövlət məmurundan, ziyalıdan, hərbçidən, polisdən, gənclərdən, sıravi vətəndaşlardan daha yüksək vətənpərvərlik, məsuliyyət və intizam tələb edir.

Azərbaycan qədim tarixi, zəngin mədəniyyəti, özünəməxsus dövlətçilik ənənələri olan nadir bir ölkədir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yeni əsr, yeni minillik münasibətilə Azərbaycan xalqına müraciətində xalqımızın dünya tarixində və dünya mədəniyyətində tutduğu yerə, özünəməxsus xüsusiyyətlərinə yüksək qiymət verilir: “İki minilliyin tarixi əyani surətdə göstərir ki, Azərbaycan xalqı dünya mədəniyyətində öz dəst-xətti ilə seçilən xalqlardandır. Xalqımızın əsrlər boyu yaratdığı mədəniyyət və ədəbiyyat nümunələri həyat eşqi, azadlıq və müstəqillik duyğuları ilə aşılanmışdır. Sənət korifeylərinin yaradıcılığı ümumbəşəri ideyaların tərənnümünə, haqqın, ədalətin, humanist ideralların bərqərar olunmasına xidmət etmişdir. Şərqdə, o cümlədən Azərbaycanda təşəkkül tapmış intibah dünya mədəniyyəti tarixinin ən parlaq səhifələrindən biridir”.

Xalqımız həmişə müstəqil dövlət qurmaq, sərbəst olmaq arzuları ilə yaşamış və əksər dövrlərdə bu arzularını həqiqətə çevirə bilmişdir. Azərbaycanın mühüm coğrafi-strateji mövqeyi və zəngin mədəni-mənəvi ənənələri buna əlverişli imkanlar yaratmışdır. Azərbaycan öz coğrafi-siyasi mövqeyinə görə həmişə sivilizasiyaların qovuşuğunda olmuş və istər Qərbin, istərsə də Şərqin çox güclü təsirini öz üzərində hiss etmişdir. Qədim dövrdə və orta əsrlərdə Azərbaycan Yaxın və Orta Şərqin siyasi, ticarət və mədəni mərkəzlərindən biri kimi çıxış edirdi. Bunun nəticəsi olaraq, tarixin müxtəlif dönəmlərində Azərbaycanda Şərqin siyasi və ideya-mədəni proseslərinə böyük təsir göstərən güclü dövlətlər mövcud olmuşdur. Lakin Azərbaycanda ictimai-siyasi təşkilatlanma və dövlətyaratma prosesi heç də həmişə rəvan, ardıcıl getməmişdir. Tarixin müəyyən dövrlərində müstəqil dövlətçilik ənənələri müvəqqəti itirilmiş, Azərbaycan daha güclü dövlətlərin və xalqların hökmranlığı altına düşmüşdür.

Müasir Azərbaycan dövlətinin ən yaxın sələfi olan Azərbaycan Xalq Cümhuriyyəti milli dövlətçilik tariximizdə şərəfli bir səhifə olmuşdur. XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Azərbaycanda milli mədəniyyət, ədəbiyyat, təhsil yüksək sürətlə inkişaf etmiş, xalqın qabaqcıl təbəqələrinin, ziyalıların şüurunda müstəqillik ideyaları özünə möhkəm yer tutmuşdur. ***Rusiya imperiyasının tərkibinə daxil olan türk-müsəlman xalqları içərisində azərbaycanlılar həmişə tərəqqiyə, inkişafa meyilliliyi, qabaqcıl dünya təcrübəsinə açıq olmaları, onu əxz edib mənimsəmək istəkləri ilə fərqlənmişlər. Rusiya imperiyası və ümumiyyətlə, Yaxın və Orta Şərqin müsəlman xalqları içərisində məhz Azərbaycanda ilk dəfə***

***olaraq, güclü milli ziyalılar təbəqəsi yetişmiş, milli mətbuat, dramaturgiya, opera meydana gəlmişdir. Rusiya Dövlət dumasına daxil olan müsəlman xalqlarının nümayəndələri içərisində azərbaycanlılar aparıcı rol oynamış, milli azadlıq və demokratiya uğrunda mübarizədə ön sıralarda olmuşlar.***

***Buna görə də 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi təsadüfi hadisə deyildi. Tarixi şəraitlə yanaşı, XIX əsrdə – XX əsrin ilk onilliklərində Azərbaycanın iqtisadi inkişafının, xalqın qabaqcıl nümayəndələrinin müntəzəm surətdə apardıqları siyasi və ideya mübarizələrinin qanunauyğun nəticəsi idi.*** Azərbaycan Xalq Cümhuriyyəti bütün dövlətçilik göstəricilərinə və prinsiplərinə görə Şərqdə ilk demokratik respublika idi. Azərbaycan Milli Şurasının qəbul etdiyi tarixi bəyannamə yeni yaranmış respublikanın daxili və xarici siyasətinin əsas prinsiplərini bütün dünyaya elan edirdi. Bunlar Azərbaycan xalqının öz müqəddəratını təyin etmək hüququ, insanların hüquq bərabərliyinə hörmət, xarici dövlətlər və qonşu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmaq idi.

Cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyəti nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. Onun demokratik dövlət quruculuğu, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımlar və həyata keçirdiyi tədbirlər milli dövlətçilik ənənələrimizin bərpası işində mühüm rol oynamışdır. Azərbaycan xalqı müsəlman Şərqində ilk parlament tipli demokratik respublika yaratdı, təhsilin, ədəbiyyatın, milli

teatrın inkişafı, milli kadrlar hazırlanması sahəsində müəyyən işlər görüldü. 1919-cu ilin noyabrında Bakı Dövlət Universitetinin açılması isə müasir tariximizin şərəfli səhifələrindəndir. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları müstəqilliyin qorunub saxlanmasına nail ola bilmədilər. Azərbaycanda milli hökumətin təcrübəsizliyi və səhvləri, daxildə antiazərbaycan qüvvələrin fəaliyyəti, xarici müdaxilə nəticəsində hakimiyyət devrilmiş, Azərbaycan sovet dövlətinin tərkibində müttəfiq respublika statusunda qalmışdır.

Sovet hakimiyyətinin ilk illərində müəyyən milli vətənpərvər qüvvələr dövlət müstəqilliyinin qorunub saxlanmasına təşəbbüs göstərmişlər. 1922-ci ilin dekabrına qədər olan dövrdə müstəqillik formal surətdə saxlansa da, sonradan Azərbaycan SSRİ-nin vahid hüquqi-siyasi və ideoloji məkanına daxil olmuşdur.

SSRİ daxilində Azərbaycanın nisbi müstəqilliyi formal surətdə qorunub saxlanmış və Azərbaycan Sovet Sosialist Respublikasının rəsmi sərhədləri, ərazisi, dövlət dili və bir sıra digər dövlətçilik atributları mövcud olmuşdur. Sadəcə olaraq, Azərbaycana rəhbərlik etmiş şəxslərin heç də hamısı vahid sovet dövləti çərçivəsində verilmiş məhdud sərbəstlik imkanlarından Azərbaycanın milli maraqları naminə istifadə edə bilməmişdir.

1969-cu ildə Heydər Əliyevin Azərbaycanın siyasi rəhbərliyinə gəlişi Azərbaycan dövlətçiliyi tarixi üçün böyük rol oynamışdır. Bununla xalqımızın həyati problemlərinə, taleyüklü məsələlərinə yeni ideoloji-konseptual və fəlsəfi yanaşmaların əsası qoyuldu. Bu dövrdən ölkədə olduqca mühüm ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi proseslər başlanmışdır. Yeni

əsrin zirvəsindən həmin dövrə nəzər saldıqda, böyük şəxsiyyətin, siyasi liderin və dövlət xadiminin, hətta totalitar rejim və sərt ideoloji normalar şəraitində də nələrə qadir olduğunun şahidi oluruq. Belə ki, 1970-80-ci illərdə, əslində, Azərbaycanın gələcəkdə müstəqil dövlət kimi yaşaya bilməsi üçün zəruri olan əsaslar – iqtisadi, mədəni-mənəvi potensial yaradılmış, milli kadr problemləri həll olunmuşdu.

***Azərbaycanda milli şüurun və milli özünüdərkin bütün formalarının yüksək vüsət almasına imkan verən sürətli inkişaf strategiyasının seçilməsi və uğurla həyata keçirilməsi Heydər Əliyevin rəhbərlik və idarəetmə fəlsəfəsinin aparıcı qayəsini təşkil edir. İstehsal, elm, mədəniyyət, Azərbaycan dilinin inkişafı sahəsində əldə edilmiş tərəqqi milli ruhun inkişafına, milli özünüdərkin və milli qürurun yüksəlməsinə, gələcəkdə müstəqil Azərbaycan dövlətinin yaranmasına xidmət edən uzaqgörən planın tərkib hissələri olmuşdur.*** Azadlıq uğrunda açıq mübarizəyə hazırlıq mərhələsi 1970-80-ci illəri əhatə etmişdir. Həmin mərhələnin əsas məqsədi Azərbaycanda hərtərəfli iqtisadi, siyasi, sosial, mədəni inkişaf zəminində xalqın mübarizlik ruhunu və əzmini gücləndirmək, onu gələcək çətinlik və məhrumiyyətlərə hazırlamaq olmuşdur. O zaman SSRİ-də gedən prosesləri müşahidə edən bir çox ekspertlər belə bir fikir söyləyirdilər ki, yalnız iki respublika – Rusiya və Azərbaycan müstəqil dövlət halında yaşamağa hazırdır.

Təəssüf ki, bu proses müntəzəm, fasiləsiz xarakter ala bilməmiş və respublikamız üçün olduqca məsuliyyətli, taleyüklü bir məqamda Azərbaycan rəhbərliyində sözün tam mənasında güclü şəxsiyyətin, ümummilli liderin olmaması ölkəmiz və xalqımız üçün olduqca ağır nəticələrə gətirib çıxarmışdır.

Lakin tarixin qlobal inkişaf prosesləri öz qanunları ilə davam edirdi. Zor üzərində qurulmuş və daxili dinamizmdən məhrum olan bütün imperiyalar kimi, SSRİ də nə vaxtsa dağılmalı idi və bu proses 1990-cı illərin əvvəllərində məntiqi sonluqla nəticələndi. 1991-ci ilin oktyabrında Azərbaycan Respublikasının Müstəqillik Aktı qəbul edildikdən sonra yaşadığımız tarixi mərhələ olduqca mürəkkəb, xalqımızın tarixi müqəddəratı üçün əhəmiyyətli hadisələrlə zəngin bir dövr olmuşdur.

Azərbaycan Respublikasının dövlət müstəqilliyini əldə etməsi 1980-ci illərin birinci yarısından başlayaraq, keçmiş Sovetlər İttifaqında və bütün dünyada gedən ictimai-siyasi proseslərin labüd sonluğu idi. Buna görə də Azərbaycanın müstəqillik əldə etməsini heç bir vəchlə müəyyən ictimai-siyasi qüvvələrin, təşkilatların, ayrı-ayrı şəxslərin müstəsna xidmətləri hesab etmək olmaz. Bu, obyektiv tarixi proseslərin qanunauyğun nəticəsi, taleyin Azərbaycan xalqına və bütün keçmiş SSRİ respublikalarının xalqlarına əvəzsiz töhfəsi idi. Heydər Əliyevin dediyi kimi, "Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir və bu sərvətin ayrı-ayrı qurumların, şəxslərin inhisarına alınması heç cür yolverilməzdir".

Yeni tarixi inkişaf mərhələsində Azərbaycan Respublikasının qarşısında dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması, respublikanın ərazi bütövlüyünün bərpası, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun həlli, ölkə əhalisinin rifahının və təhlükəsizliyinin təmin edilməsi kimi mühüm tarixi vəzifələr dururdu. Bütün bunlar düşünülmüş, ardıcıl, məqsədyönlü daxili

və xarici siyasətin həyata keçirilməsini, bu məqsədlə ölkənin intellektual və sosial-iqtisadi potensialından, ictimai-siyasi qüvvələrindən səmərəli istifadə olunmasını tələb edirdi.

Lakin ölkənin siyasi həyatında cərəyan edən hadisələr – hakimiyyət uğrunda silahlı mübarizə, hakimiyyətlərin bir-birini əvəz etməsi və çoxhakimiyyətliliyin hökm sürməsi müstəqil dövlətçiliyə və onun sonrakı taleyinə çox ağır zərbələr vurdu. Azərbaycanın bu gün də həllinə nail ola bilmədiyi çox ağır problemlər məhz həmin çoxhakimiyyətlilik və ondan sonrakı hakimiyyət çəkişmələri dövründə yaranmışdır. 1992-ci il mart-may aylarındakı hərc-mərclik, Şuşanın düşmənə təslim edilməsi, 1992-ci il mayın 15-də o zamankı müdafiə naziri Rəhim Qazıyevin silahlı qüvvələrin kvotası ilə bağlı Daşkənd şəhərində imzaladığı xəyanətkar saziş bütün Azərbaycan xalqının və onun silahlı qüvvələrinin bugününə və gələcəyinə ömürlük zərbə vurmuşdur. Respublikanın maddi ehtiyatları qəddarcasına talanır, malların xaricə satışı nəticəsində əldə olunan vəsait xarici banklarda kiminsə hesabında yatıb qalırdı. Azərbaycandan xaricə güclü axın başlandı. Azərbaycan dilinin adı subyektiv iradə əsasında dəyişdirildi və dil haqqında Konstitusiya müddəası kobudcasına pozuldu.

Beynəlxalq siyasətin obyektiv reallıqlarına, Azərbaycan vətəndaşlarının istək və arzularına zidd, real gerçəkliyi nəzərə almayan, məqsəd və məramı aydın olmayan, dövlət üçün xüsusi təhlükə kəsb edən siyasət yeridilirdi. Region dövlətləri və qonşularla əsassız gərginliyin yaradılması, Azərbaycanın daxilində etimadsızlıq mühitinin formalaşdırılması və digər hallar getdikcə çox ciddi mənfi nəticələr verirdi.

Qeyd etmək lazımdır ki, müstəqilliyin ilk iki ilində dövlət quruculuğu istiqamətində heç bir əməli iş görülməmiş, əksinə,

sovetlər dövründən miras qalmış hakimiyyət strukturları və idarəçilik potensialı getdikcə zəifləmiş, maddi-mənəvi sərvətlər dağıdılmışdır. Bunun səbəbi o dövrdə hakimiyyətdə olan qüvvələrin həm milli-mənəvi, həm siyasi, həm də peşəkarlıq baxımından müstəqil idarəçiliyə hazır olmaması idi.

Xalq hərəkatı zəminində meydana gəlmiş Azərbaycan Xalq Cəbhəsi qısa müddətdə özünü Azərbaycan ziyalılarının əsas kütləsindən təcrid etdi, dərin elmi təhlil və siyasi proqnozlar əsasında ümummilli platforma hazırlamaq əvəzinə, populist çıxışlara və meydan əhvali-ruhiyyəsinə üstünlük verdi. ***Özlərini "milli demokrat" adlandıran bu insanlar tarixi təcrübə, dövlətçilik işlərində varislik məsələlərində dialektikanın və sağlam məntiqin ziddinə olaraq inkarçı mövqe tutdular, sovet dövrünün müsbət nailiyyətlərini rədd etmək, nəsillərin onilliklər boyu gərgin əməyi ilə yaradılmış maddi-texniki, elmi-mədəni və kadr potensialını dağıtmaq yolunu seçdilər.*** Yüksək dövlət vəzifələrinə təyinat zamanı bilik, bacarıq, səriştə, dövlətçilik təfəkkürü deyil, Xalq Cəbhəsinə mənsubluq göstəricisi əsas götürülürdü. Nəticədə ölkənin təhlükəsizliyi və inkişafı baxımından mühüm strateji postlara heç bir biliyi və səriştəsi olmayan, məsuliyyət və icraçılıq hisslərindən uzaq, bir çox hallarda isə kriminal bioqrafiyaya və psixologiyaya malik şəxslər təyin edilmişdilər. Dövlət idarəçiliyində subordinasiya, qanunçuluq pozulmuşdu, komanda prinsipi fəaliyyət göstərmirdi. İş o yerə çatmışdı ki, AXC İcraiyyə Komitəsi heç bir qanunla hesablaşmayaraq, guya ordunu gücləndirmək məqsədi ilə AXC üzvlərindən batalyonlar təşkil edilməsi haqqında qərar qəbul etmişdi. ***AXC-Müsavat iqtidarının qısamüddətli uğursuz hakimiyyəti "Dövlət idarəçiliyi necə***

***olmamalıdır?" sualının əyani cavabı idi.*** Tarix Azərbaycanda zühur etmiş yeni inqilabçıları tezliklə cəzalandırdı, onları hakimiyyəti və dövlət idarəçiliyini təcrübəli və sözün əsil mənasında daha milli və vətənpərvər qüvvələrə təhvil verib müxalif cəbhəyə çəkilməyə məcbur etdi.

Ümumiyyətlə, AXC-Müsavat hakimiyyətinin nümunəsi ölkə vətəndaşları içərisində müstəqillik ideyasının gözdən salınmasına, onlarda bugünümüz və gələcəyimiz üçün bədbin ovqatın güclənməsinə gətirib çıxarırdı.

Azərbaycanda müstəqil dövlət quruculuğu ardıcıl və məqsədyönlü proses olaraq, əslində, 1993-cü ilin oktyabrında başlanmışdır. Yalnız 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə qısa müddət ərzində ölkədə asayişi və qanuni hakimiyyəti bərpa etməyə, vətəndaş müharibəsi təhlükəsini aradan qaldırmağa, şəxsiyyətin təhlükəsizliyinə təminat yaratmağa, dövlət quruculuğu işlərinə başlamağa və demokratik cəmiyyətin inkişafına nail olunmuşdur.

Həmin ilin iyun-oktyabr ayları ancaq böhrandan çıxış, müstəqilliyin xilası dövrü kimi səciyyələndirilə bilər. ***Müstəqillik tariximizə ən böhranlı, kəşməkəşli, həm də ən şərəfli dövr kimi daxil olan 1993-cü ilin iyun-oktyabr ayları, 15 iyun "qayıdış məqamı"ndan başlayaraq, Azərbaycanda dövlət və cəmiyyət böhranından xilas olmaq istiqamətində ciddi addımların atıldığı bir dövr oldu.*** Bir-birinə qarşı dayanmış və vətəndaş müharibəsinə başlamağa hazır olan qüvvələrin mənfi enerjisinin, mübarizə potensialının silahlı döyüş meydanlarında deyil, ideya-siyasi səhnədə "boşaldılması" və tədricən, mahir diplomatik gedişlərlə, qansız-qadasız yeni məcraya yönəldilməsi Heydər Əliyev dühasının tarixə örnək ola biləcək səhifələrindən biridir.

Qeyd etməliyəm ki, gənc, müstəqil Azərbaycan dövlətinin on il ərzində keçdiyi inkişaf yolunun zaman baxımından mərhələləri ilə dövlət quruculuğunun istiqamətləri arasında sıx dialektik əlaqə vardır. Təbii ki, dövlət quruculuğu heç də, sadəcə, dövlət idarəçilik orqanlarının formalaşması ilə başa çatmır. Bu, olsa-olsa, ancaq ilk mərhələdir. Sözün geniş mənasında müstəqil dövlətin qərarlaşması onun öz maraqlarına və beynəlxalq siyasi reallıqlara uyğun müstəqil xarici və daxili siyasət xəttinin formalaşmasını, uzunmüddətli proqnoz əsasında müəyyənləşmiş inkişaf strategiyasının yaradılmasını və həyata keçirilməsini nəzərdə tutur.

1993-cü ildən bəri Azərbaycanda əldə olunmuş müstəqilliyin möhkəmləndirilməsi və daha da inkişaf etdirilməsi, dövlət strukturlarının və ümumiyyətlə, dövlətçiliyin böhrandan çıxarılması istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyət göstərilmişdir. Dövlətçilik üçün ciddi təhlükə törədən silahlı birləşmələr ləğv edildikdən və dövlət orqanlarında müəyyən idarəçilik təcrübəsinə malik olan adamların bilik və qabiliyyətindən optimal surətdə istifadə olunduqdan sonra daxili sabitlik dövrü başlandı ki, bu da quruculuq işləri üçün ilkin zəruri şərait yaratdı.

Ölkə Prezidenti Heydər Əliyev Azərbaycanın bu sahədə tutduğu strateji yolu belə səciyyələndirir: "Azərbaycan Respublikası öz dövlət quruculuğunda, sosial-iqtisadi problemlərin həllində tutduğu strateji yolla gedir. Bizim bu yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir".

Dövlət quruculuğunda demokratik prinsiplərə, iqtisadiyyatda azad bazar münasibətlərinə üstünlük verilməsi, qanunvericilikdə insan hüquqlarının müdafiəsinin əsas prinsip kimi götürülməsi – bütün bunlar müstəqil Azərbaycan Respublikasının öz gələcək inkişafını hansı dəyərlər sistemi ilə bağladığını açıq-aşkar göstərirdi.

Azərbaycanda demokratikləşmə, hüquqi dövlət quruculuğu öz templəri və xüsusiyyətləri ilə fərqlənir desək, səhv etmərik.

Müstəqillik dövründə Azərbaycan qlobal inteqrasiya proseslərində yaxından iştirak etməklə, qabaqcıl dünyaya, ümumbəşəri dəyərlərin hökm sürdüyü xalqlar ailəsinə daha tez qovuşmaq istədiyini nümayiş etdirir. Bununla yanaşı, Azərbaycan öz milli xüsusiyyətlərini, özünəməxsusluğunu, xalqımızın əsrlərin sınağından çıxmış mütərəqqi adət-ənənələrini qorumaq və zənginləşdirmək əzmindədir. 2001-ci il mayın 22-də Avropa Parlamentinin nümayəndə heyətini qəbul edərkən Azərbaycan Prezidentinin dediyi kimi, ***"Azərbaycanın bugünkü reallığı Avropa və Şərq milli dəyərlərinin sintezindən ibarətdir. Bizim kimi ölkələrin Avropa birliyinə daxil olması Avropanın mənəviyyat, ənənələr cəhətdən zənginləşməsinə gətirib çıxaracaqdır".***

Demokratiya yolu ilə cəsarətlə irəliləyən, insan hüquqlarının və qanunun aliliyinin həyat normasına çevrildiyi cəmiyyət qurmaq istəyən Azərbaycan Respublikası, onun xalqı bu sahədə də təqdirəlayiq nailiyyətlər qazanmışdır. ***Qabaqcıl demokratik dövlətlərin yüzilliklər boyu addımbaaddım qəbul etdiyi prinsipləri, qanunları və normaları ölkəmiz bir neçə il ərzində tətbiq edə bilmişdir. Şərqdə ilk dəfə ölüm hökmünün ləğvi, on minlərlə insanı əhatə edən amnistiyalar, siyasi plüralizmə, söz və əqidə azadlığına geniş imkan yaradılması Azərbaycanın böyük nailiyyətləridir.*** Lakin öz qanunvericiliyini, dövlət və

cəmiyyət həyatını beynəlxalq standartlara uyğunlaşdıran Azərbaycan xalqı bu qanunları kor-koranə, digər ölkələrin nümunəsini təqlid etməklə yaratmır, əksinə, onları Azərbaycan reallığına, milli xüsusiyyətlərinə, xalqımızın adət-ənənələrinə uyğunlaşdıraraq qəbul edir.

Dövlət quruculuğu ictimai şüurun inkişafı ilə paralel surətdə həyata keçirilir. Belə bir həqiqəti anlamaq gərəkdir ki, müstəqillik hər şeydən əvvəl, hər bir vətəndaşdan – istər dövlət məmuru olsun, istər ziyalı, istər hakim partiyanın üzvü olsun, istər müxalifətçi – dövlət və xalq qarşısında yüksək məsuliyyət, hər bir sahədə ciddi intizam, təşəbbüskarlıq, qanunçuluğa dönmədən əməl etmək tələb edir. İnsanların şüurunda dəyişiklik etmədən, ictimai şüurun ictimai varlığa adaptasiyası baş vermədən, ancaq əmrlə, fərmanla, yeni qanunlar qəbul edilməsi ilə həyata keçirilən islahatlar böyük uğur gətirə bilməzdi.

Təsadüfi deyildir ki, Azərbaycan Prezidenti hətta demokratikləşdirmə xətti ilə əlaqədar dönə-dönə qeyd edir ki, bu məsələdə tələsikliyə yol vermək sabitliyin pozulmasına gətirə bilər. Demokratiya cəmiyyətin hərtərəfli inkişafının qanunauyğun nəticəsi kimi ortaya çıxmalıdır.

Ölkədə həyata keçirilən ictimai-siyasi inkişaf xətti demokratikləşdirməni və fikir plüralizmini üstün prinsip kimi nəzərdə tutur. Bu barədə Heydər Əliyev özü belə demişdir: “Respublikamızda hüquqi dövlət qurulması, demokratik, sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığının, söz, vicdan azadlığının, müasir plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olması bizim qəbul etdiyimiz prinsiplərdir”.

Azərbaycanda demokratiyanın bərqərar olması həm də strateji məsələdir. Qafqazda ciddi geosiyasi mövqeyə malik olan

Azərbaycanın Qərb dövlətləri ilə siyasi və iqtisadi əlaqələrinin güclənməsi Yaxın və Orta Şərqdə demokratiyanın inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir.

Müasir Azərbaycanda müstəqillik ideyalarının inkişafında bir neçə mərhələ yaşandığını söyləsək, zənnimcə, həqiqəti bir daha təsdiqləmiş olarıq.

***Azərbaycanda xalq hərəkatının genişləndiyi və müstəqillik haqqında Konstitusiya Aktının qəbul edildiyi 1988-1992-ci illəri müstəqilliyimizin "romantik eyforiya" dövrü adlandıra bilərik.*** O zaman əhalinin təbəqələri və siyasətlə məşğul olanların əksəriyyəti belə hesab edirdi ki, Konstitusiya Aktının qəbulu və özlərini "milli demokrat" adlandıran bir qrup insanın hakimiyyətə gəlməsi ilə artıq tam müstəqilliyə və suverenliyə nail olmuş və milli dövlətçilik problemləri tamamilə aradan qalxmışdır. Xalq hərəkatına rəhbərliyi ələ keçirmiş siyasətbazların təbliğat tezisləri və bəyanatları bu cür səthi, yanlış təsəvvürlərin formalaşmasına kömək etmişdir. Lakin sərt reallıqlar və xalqa bəla gətirən prinsipsiz siyasi mübarizələr tezliklə öz mənfi təsirini göstərdi. Xalq ölkədə cərəyan edən hadisələri və siyasi prosesləri tədricən saf-çürük edərək, hadisələrə daha ayıq gözlə baxmağa başladı, bir çox "siyasilərin" əsil simasını gördü.

***– 1992-1993-cü illər kütləvi şüurda "aydınlaşma, dərketmə" mərhələsidir;***

***– 1993-1995-ci illər müstəqillik ideyaları və dövlətçilik uğrunda "gərgin, amansız mübarizələr, müstəqillik və dövlətçilik şüurunun qələbəsi" mərhələsidir;***

***– 1995-ci ildən bu günə qədər davam edən dövrü isə "tammiqyaslı hüquqi, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğu" mərhələsi adlandırmaq mümkündür.***

Bu illər ərzində dövlət həyatında, siyasi, iqtisadi sahələrdə, milli şüurda müstəqilliyin böyük potensialı yaranmışdır. Bu gün biz inamla deyə bilərik ki, gənc Azərbaycan dövləti güclüdür, qüdrətlidir, sağlam, dinamik inkişaf edən orqanizmdir, hər hansı gözlənilməz sınaqlar qarşısında sarsılmazdır. Müstəqilliyimiz dönməz və əbədidir.

1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Konstitusiyası müstəqil dövlətin hüquqi əsaslarını müəyyən etdi və hüquqi dövlətə, vətəndaş cəmiyyətinə doğru cəsarətli və qətiyyətli addım oldu. İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan edildi. Konstitusiyada insan hüquq və azadlıqlarına həsr olunmuş maddələr onun ümumi həcminin üçdə birindən çoxunu təşkil edir. Beynəlxalq hüquqi sənədlərdə və konvensiyalarda bəyan edilmiş bütün hüquq və azadlıqlar Konstitusiyada öz əksini tapıbdır. İnsan və vətəndaşın hüquq və azadlıqlarını məhdudlaşdıran dəyişikliklər edilməsi, hər hansı bir maddənin bu ruhda təfsir olunması yolverilməz elan edilmişdir. Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları olduğu bəyan edilmişdir. Burada insan hüquqları insanın mövcudluğu faktı ilə, onun təbiəti ilə şərtlənən meyar kimi qəbul olunmuşdur. ***Konstitusiyanı tamamilə haqlı olaraq, "insan hüquqları manifesti" adlandırmaq mümkündür.***

Müasir şəraitdə hər bir dövlətin demokratik imici onun insan hüquqlarına münasibəti ilə müəyyən edilir. Dövlətin inkişafı,

demokratiya və insan azadlıqları bir-biri ilə üzvi surətdə bağlıdır və biri digərini şərtləndirir. Demokratiya daim inkişafdadır və bu, dinamik prosesdir. Demokratik cəmiyyətdə insan hüquqlarının pozulması nəinki cəmiyyətə qarşı yönəlmiş haldır, o, həm də sosial və siyasi problem olmaqla, dövlətlə cəmiyyət arasında tarazlığın pozulmasına, cəmiyyətin özündə zorakılığa və münaqişələrə səbəb olur. Lakin hər bir şəxsin azadlığının hüdudları digər şəxsin azadlığı başlanan anda sona çatır. Şəxsiyyətin hüquq və azadlıqları arasında bir harmoniya mövcud olmalıdır. Hər hansı bir şəxsin hüquqlarının həyata keçirilməsi digər şəxslərin hüquq və azadlıqlarının pozulmasına gətirib çıxarmamalıdır.

Beynəlxalq aktlarda və Azərbaycan Respublikasının Konstitusiyasında bəyan edilmiş insan və vətəndaş hüquq və azadlıqlarının həyata keçirilməsinin təmin olunması məqsədi ilə ölkəmizdə bir sıra qanunlar qəbul olunmuşdur.

Hər bir cəmiyyətdə əsas insan hüquq və azadlıqlarının təminatı, vətəndaş cəmiyyətinin vəziyyəti demokratik təsisatların – siyasi partiyaların, ictimai təşkilatların, kütləvi informasiya vasitələrinin sərbəst yaradılması və fəaliyyəti imkanları ilə sıx əlaqədardır. Bu baxımdan Azərbaycan Respublikası müstəqillik dövründə böyük inkişaf yolu keçmişdir. ***Hazırda respublikamızda dövlət qeydiyyatına alınmış 38 siyasi partiya, 1400-dən çox ictimai birlik fəaliyyət göstərir. Onların böyük əksəriyyətini müxalifət partiyaları və onlarla əlaqədar olan qurumlar təşkil edir. Ölkəmizin xalqlarının bütün dillərində 372 qəzet, 106 jurnal nəşr olunur, 10 teleradio şirkəti, 25 informasiya***

***agentliyi fəaliyyət göstərir. Milli və dini qurumların və mədəniyyət mərkəzlərinin yaradılması və işləməsi üçün normal şərait mövcuddur.***

Demokratik təsisatların fəaliyyətini tənzimləyən qanunvericilik normaları Avropa və qabaqcıl dünya standartlarına uyğunlaşdırılır. Xüsusən son illərdə qəbul edilmiş "Hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında" , "Qeyri-hökumət təşkilatları (ictimai birliklər) haqqında", "Kütləvi informasiya vasitələri haqqında" qanunlar mühüm irəliləyiş hesab olunmalıdır. Avropa Şurasının tövsiyələri nəzərə alınmaqla, həmin qanunların təkmilləşdirilməsi sahəsində iş davam etdirilir. Xüsusən "Kütləvi informasiya vasitələri haqqında" qanuna dəyişikliklər olunması, teleradio fəaliyyətini tənzimləyən müvafiq qanunun qəbul edilməsi üzərində iş gedir.

Azərbaycan dövləti kütləvi informasiya vasitələrini demokratiya və aşkarlığın mühüm vasitəsi hesab edərək, onların müstəqil qurulması, azad fəaliyyəti və inkişafı üçün zəruri tədbirlər görür. Bu məqsədlə Azərbaycan Prezidentinin Fərmanı ilə informasiya vasitələri üzərində hələ SSRİ dövründə yaranmış, AXC-Müsavat hakimiyyəti zamanı daha da möhkəmlənmiş senzuranı həyata keçirən Nazirlər Kabineti yanında Mətbuatda və Digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə Edən Baş İdarə ləğv olunmuşdur.

Azərbaycan Prezidenti tərəfindən insan hüquqlarının təminatının genişləndirilməsi sahəsində atılmış mühüm addımlardan biri də ölüm cəzasının ləğv olunmasıdır. Ölüm

cəzasının ləğvi tarixi hadisə olmaqla bərabər, cinayət-hüquq siyasətinin humanistləşdirilməsi sahəsində görülən mühüm işlərdən biridir. Şərq aləmində ilk dəfə Azərbaycanda ölüm cəzasının ləğvi ölkəmizin dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəlilədiyini bir daha sübut etdi. Beynəlxalq Amnistiya Təşkilatı Azərbaycanda ölüm cəzasının ləğvinə gedən yolu digər ölkələr üçün nümunə kimi göstərmişdir.

***1995-ci ildən ölkəmizdə əfvetmə institutu bərpa edilmiş və Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyası yaradılmışdır. 1995-2000-ci illərdə Azərbaycan Prezidenti 2353 şəxsi əfv etmişdir. Həmin müddətdə Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü ilə beş amnistiya aktı qəbul olunmuşdur. Amnistiyalar 63447 şəxs barəsində tətbiq edilmiş, o cümlədən 18895 məhkum cəzaçəkmə yerlərindən azad olunmuş, 44582 nəfər digər cəzalardan azad edilmişdir. Azərbaycanın Avropa Şurası üzvlüyünə qəbulu münasibətilə 2001-ci ilin fevral ayında qəbul olunmuş amnistiya aktı 8516 şəxsə şamil edilmiş və onun tətbiqi başa çatdırılmışdır.***

İnsan hüquqlarından danışarkən o da nəzərə alınmalıdır ki, bu hüquqlar mütləq xarakter daşımır və demokratik cəmiyyətdə zəruri olan məhdudiyyətlər müəyyən edilir. İstənilən hüququn gücü qanunlara hörmət edilməsindədir. “Mülki və siyasi hüquqlar haqqında” beynəlxalq pakta əsasən, fikir və söz azadlığı və ya sərbəst toplaşmaq azadlığı, yaxud birləşmək hüququ hər bir dövlətin qanunları ilə aşağıdakı

məqsədlər üçün məhdudlaşdırıla bilər: ictimai və dövlət təhlükəsizliyini qorumaq; ictimai asayişin pozulmasının qarşısını almaq; əhalinin sağlamlığını və mənəviyyatını qorumaq; digər şəxslərin hüquq və azadlıqlarını, şərəf və ləyaqətini qorumaq.

***Ölkəmizdə aparılan hüquqi islahatlar ciddi konsepsiyaya söykənir və onun əsasında inkişaf etmiş dövlətlərin hüquqi dövlət quruculuğu təcrübəsi, ümumbəşəri demokratik prinsiplər, eyni zamanda, Azərbaycan xalqının dövlətçilik tarixi və ənənələri dayanır.***

Hüquqi islahatların konsepsiyası azad cəmiyyətin formalaşmasına, demokratik, hüquqi dövlət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının müdafiəsinə təminat yaratmışdır. Respublikamızda hüquqi islahatların sistemli və ardıcıl surətdə aparılması məqsədi ilə 1996-cı ildə Azərbaycan Prezidentinin Sərəncamı ilə Hüquqi İslahat Komissiyası yaradılmışdır. Son illərdə 10-dan artıq yeni məcəllə və 1000-ə yaxın qanun qəbul edilmişdir. Bu qanunlar inkişaf etmiş Avropa ölkələrinin hüquq sistemlərinə tam uyğundur.

Azərbaycanın beynəlxalq sazişlərə və konvensiyalara qoşulması ölkəmizdə hüquqi islahatlarla bağlı həyata keçirilən tədbirlərin tərkib hissəsidir. Son illər ərzində ölkəmiz artıq 181 belə konvensiyaya qoşulmuşdur.

“Konstitusiya Məhkəməsi haqqında”, “Məhkəmələr və hakimlər haqqında” qanunlar ölkəmizdə məhkəmə-hüquq islahatları sistemində atılan ilk, lakin çox vacib addım olmaqla, dövlət idarəetmə və məhkəmə sisteminin inkişafında

prioritetlərdən biri hesab edilən müstəqil məhkəmə sisteminin fəaliyyətinə imkan yaratmışdır. Məlum olduğu kimi, hər bir cəmiyyətdə məhkəmə-hüquq sisteminin səmərəli fəaliyyəti üçün mühüm şərt üçüncü hakimiyyətin təcəssümü sayılan müstəqil məhkəmə hakimiyyətinin formalaşması və hakimlər korpusunun seçilməsidir. Konstitusiyamıza uyğun olaraq, hakimlər müstəqildir və yalnız Konstitusiyaya və qanuna tabedirlər.

Qanunvericilik cəmiyyətin hər bir üzvünün pozulmuş hüquqlarının heç bir məhdudiyyət qoyulmadan bərpası üçün məhkəmələrə müraciət etməsinə imkan yaradır. Bu isə, öz növbəsində, onların məhkəmələrə etibarının və inamının möhkəmlənməsinə təminat verir. Respublikamızda ədalət mühakiməsi hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi əsasında həyata keçirilir. Hər kəsin müdafiə və yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ təmin olunmuşdur. Hər kəsin tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ vardır.

Yeni yaradılan üçpilləli məhkəmə sisteminin üstünlüyü ondan ibarətdir ki, bu sistem işlərə birinci instansiya qaydasında baxılmasına, bundan sonra onların hüquqa və fakta görə apelyasiya qaydasında yoxlanılmasna, daha sonra isə kassasiya qaydasında yenidən baxılmasına imkan yaradır. Bu isə, öz növbəsində, məhkəmələrin buraxdığı səhvlərin yuxarı məhkəmə instansiyasında aradan qaldırılmasına, işlərə mahiyyətcə obyektiv və düzgün şəkildə baxılmasına zəmin yaradır. İşlərə üçpilləli məhkəmə sistemi üzrə baxılması həm də onların

dəfələrlə müxtəlif instansiyalarda araşdırılmasının qarşısının alınmasına, bununla da süründürməçiliyə səbəb olan, köhnə sistemdən miras qalmış nəzarət instansiyasından imtina edilməsinə, əhalinin məhkəmələrə inamının artmasına, dövlətin adından çıxarılan məhkəmə qərarlarının qətiliyinə, müstəqilliyinə və onlara hörmətlə yanaşılmasına imkan yaratmışdır. Respublikamızda ilk dəfə olaraq, hakimlərin demokratik prinsiplərlə, şəffaf prosedur əsasında, aşkarlıq şəraitində, beynəlxalq standartlara uyğun seçilməsi müstəqil məhkəmə hakimiyyətinin formalaşması istiqamətində mühüm addımdır.

Yeni hakimlər korpusu müxtəlif qurumlarda çalışan hüquqşünaslardan formalaşdırılmışdır. Hakim seçilmiş şəxslərin 90 faizi Bakı Dövlət Universitetini bitirmiş, 10 faizi isə respublikadan kənarda hüquq təhsili almış şəxslərdir. Hakimlərin sırasında rus, yəhudi, ləzgi, talış, avar və digər xalqların nümayəndələri olan Azərbaycan vətəndaşları vardır. Yaş dərəcəsinə görə hakim korpusu əsasən 40-45 yaş həddində olan şəxslərdən formalaşmış, hakimlərin təqribən 57 faizi təzələnmişdir. Artıq 2000-ci il sentyabrın 1-dən ölkəmizdə yeni müstəqil məhkəmə sistemi və hakimlər korpusu fəaliyyət göstərir.

Hüquqi islahatlar çərçivəsində həyata keçirilən tədbirlər sırasında Azərbaycan Respublikasının cinayət, cinayət-prosessual, mülki, mülki-prosessual, əmək, ailə, inzibati xətalar, gömrük və vergi məcəllələri xüsusi qeyd edilməlidir. Bu qanunlar hüququn ayrı-ayrı sahələrini nizama salmaqla, cəmiyyətin demokratik inkişafına təkan verir.

Bundan əlavə, Milli Məclisin və mütəxəssis korpusunun vicdanlı və gərgin əməyinin məhsulu olan prokurorluq, polis, vəkillik, notariat haqqında yeni qanunlar bu orqanların və digər strukturların hüquqi statusunu və səlahiyyətlərini müəyyən etmişdir.

Məlum olduğu kimi, narahatçılıq doğuran məsələlərdən biri də hüquq mühafizə orqanları əməkdaşlarının bir sıra hallarda ayrı-ayrı idarələrin, müəssisələrin və digər hüquqi şəxslərin fəaliyyətinə müdaxiləsi, əsassız yoxlamalar keçirməsi idi. Bu cür hallar iqtisadiyyatın inkişafına mane olmaqla yanaşı, korrupsiya və rüşvətxorluq kimi cinayət hallarının genişlənməsinə səbəb olurdu. Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə istehsal, xidmət və maliyyə-kredit fəaliyyəti sahəsində əsassız yoxlamalar qadağan edilmiş və cinayət işinin istintaqı ilə bağlı hallar istisna olmaqla, bu sahədə aparılan yoxlamaların yeni qaydada tənzimlənməsi, yoxlamaların yalnız bank, maliyyə və vergi orqanları tərəfindən aparılması nəzərdə tutulmuşdur.

İslah-əmək qanunvericiliyinin beynəlxalq standartlara və demokratik cəmiyyətin prinsiplərinə uyğunlaşdırılması üçün 2000-ci ildə Cəzaların İcrası Məcəlləsi qəbul olunmuşdur. Bu məcəllə ilə məhbusların saxlanılması şəraiti yaxşılaşdırılmış, onların hüquqları genişləndirilmiş, penitensiar sistemdə dərin islahatların əsası qoyulmuşdur.

Bundan əlavə, islah-əmək müəssisələrində və istintaq təcridxanalarında təşkilati, qanunvericilik və digər məsələləri nəzərdə tutan tədbirlər proqramının hazırlanması üçün Azərbaycan Prezidentinin 1999-cu il 11 fevral tarixli Fərmanı

ilə komissiya yaradılmış və istintaq təcridxanalarının beynəlxalq standartlara uyğun təşkili və fəaliyyətinin təmin olunması üçün onların maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir nəzarət, mühafizə, mühəndis-texniki qurğularla və digər xüsusi vasitələrlə təmin edilməsi üçün zəruri tədbirlər görülməsi, məhkumların saxlanma şəraitinin yaxşılaşdırılması nəzərdə tutulmuşdur. Fərmana uyğun olaraq, tədbirlər proqramı hazırlanıb təsdiq edilmiş, istintaq təcridxanaları Daxili İşlər Nazirliyindən alınıb Ədliyyə Nazirliyinə verilmişdir. Avropa Şurasının tövsiyələrinə uyğun olaraq, 2001-ci il iyunun 1-də Azərbaycan Respublikası hökuməti ilə Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında "Beynəlxalq Qırmızı Xaç Komitəsinin azadlıqdan məhrumetmə yerlərində səlahiyyətlərinin həyata keçirilməsinin təmin edilməsi barədə" saziş imzalanmışdır.

Dünyada çox az ölkə tapılar ki, qısa müddətdə hüquqi islahatlar sahəsində belə nailiyyətlər əldə etmiş olsun. Respublikamızda hüquqi islahatlar Azərbaycanın tərəqqisi, hər bir vətəndaşın azad cəmiyyətdə yaşaması, şəxsiyyətin inkişafı naminə həyata keçirilir.

***Bütün görülmüş işlərin nəticəsidir ki, bu il yanvar ayının 17-də Avropa Şurasının Nazirlər Komitəsi Azərbaycanın bu təşkilatın demokratik ölkələri siyahısına qatılmasına səs verdi. Azərbaycanın Avropa Şurasına qəbul edilməsi onun Avropa ölkələri tərəfindən müstəqil, demokratik, dünyəvi dövlət kimi tanınması, həm də Avropa ailəsinin bərabər hüquqlu üzvü kimi Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin başlanğıcı deməkdir.***

Ölkəmiz öz inkişafının keçid dövrünü yaşayır və hüquq sistemi də bu proseslərdən təcrid olunmamışdır. Çoxəsrlik dünya təcrübəsi sübut edir ki, hüquq sistemi əsrlər keçdikcə dəyişikliyə uğramış və öz növbəsində, hüquq da cəmiyyətin inkişafına ciddi təsir göstərmişdir.

Ölkəmizdə hüquqi islahatlar mərhələ-mərhələ həyata keçirilməli, qəbul olunmuş qanunlar təcrübədə sınaqdan çıxmalı, özünü doğrultmalıdır. Demokratiya yolu ilə uğurla irəliləyən müstəqil Azərbaycan Respublikası bu strateji məqsədlərin əldə olunması üçün ardıcıl tədbirlər görür və onların tədricən həyata keçirilməsi istiqamətində nailiyyətlərini günbəgün artırır.

Cəmiyyətdə siyasi münasibətlərin mahiyyətini təşkil edən demokratik düşüncənin formalaşmasının hamı tərəfindən qəbul olunması üçün milli dövlətçiliyin əsası olan iqtisadiyyatı inkişaf etdirmək lazımdır. Azərbaycanda dövlət quruculuğunun əsas istiqamətlərindən biri də, heç şübhəsiz, azad iqtisadi münasibətlərə uyğun islahatların və inkişaf proqramının həyata keçirilməsi idi. İqtisadiyyatın bazis rolunu oynaması, siyasətə və mədəni-mənəvi həyata nisbətdə daha önəmli yer tutması haqqındakı marksist tezisdən fərqli olaraq, Azərbaycanın müasir iqtisadi quruculuğunda iqtisadiyyat, siyasət və mədəniyyətin bir-birini tamamlaması və qarşılıqlı inkişafı prinsipi rəhbər tutulur. Azərbaycanda iqtisadi inkişafın dövlət mülkiyyətinə əsaslanan əvvəlki təsərrüfat sistemindən, yeni mülkiyyət münasibətlərinə uyğun olaraq, sərbəst iqtisadi fəaliyyət prinsipinə keçməsi iqtisadi siyasət sahəsində dövlətin ana xəttini təşkil edir. Heydər Əliyevin dediyi kimi, “biz həm ölkəmizin suverenliyini, ərazi

bütövlüyünü qorumaq üçün çalışırıq, həm də vətəndaşlarımızın, xalqımızın rifahını yaxşılaşdırmağa, yaranmış vəziyyətdə müxtəlif və yeni formalardan istifadə edərək azad bazar iqtisadiyyatını, azad iqtisadi münasibətləri inkişaf etdirməyə çalışırıq".

1995-ci ildən başlayaraq, iqtisadiyyatın bütün sahələrində ardıcıl olaraq islahatlar həyata keçirilir. Qəbul edilmiş yüzlərlə qanun əsasında mülkiyyət, torpaq, maliyyə-bank, pul-kredit islahatları, vergi, ticarət və s. sahələrdə islahatlar aparılır.

İslahatların dərinləşməsində həlledici yer tutan özəlləşdirmə prosesi sahəsində xeyli işlər görülmüş və kiçik özəlləşdirmə artıq başa çatmışdır. Ölkədə ticarət, ictimai iaşə və bütün xidmət obyektləri özəl iş adamlarına məxsusdur. 2000-ci ildə ikinci dövlət özəlləşdirmə proqramının qəbul olunması və 2001-ci ilin mart-aprel aylarında ölkə Prezidentinin imzaladığı 15 fərman və sərəncama uyğun olaraq, bir çox sənaye müəssisələrinin özəlləşdirməyə açıq elan edilməsi ilə bu mühüm prosesdə yeni mərhələnin başlanğıcı qoyulmuşdur. İri və orta müəssisələrin özəlləşdirilməsi ayrı-ayrı sahələrə sərmayə axınının sürətlənməsinə, ölkənin iqtisadi potensialından daha səmərəli istifadə edilməsinə geniş imkanlar açır.

1995-ci ildə siyasi sabitlik təmin olunduqdan sonra iqtisadi islahatların aparılması xətti müəyyənləşdirilmiş və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilməyə başlamışdır. Nəticədə ölkədə makroiqtisadi sabitlik təmin olunmuş və 1990-cı illərin əvvəllərindən davam edən geriliyin qarşısı alınmışdır. Ümumi daxili məhsulun artımı 1996-cı ildə 1,3 faiz, 1997-ci ildə 5,8 faiz, 1998-ci ildə 10 faiz olmuş, 1999-cu

ildə 7,4 faiz və 2000-ci ildə 11,4 faiz təşkil etmişdir. Bu, MDB məkanında ən yüksək göstəricidir.

Respublikamızda həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində sənaye istehsalında da artım müşahidə edilir. 1997-ci ildə sənaye istehsalının həcmi 0,3 faiz, 1998-ci ildə 2,2 faiz, 1999-cu ildə 3,6 faiz, 2000-ci ildə isə 6,9 faiz artmışdır. Sənayenin əksər sahələrində, o cümlədən neftayırma və qaz, neft və neft kimyası, metallurgiya, maşınqayırma, tikinti materialları, yüngül və yeyinti sənayesi sahələrində və habelə sənayenin qeyri-dövlət sektorunda ciddi irəliləyiş vardır.

Ölkədə torpaq islahatının həyata keçirilməsi, torpağın xüsusi mülkiyyətə verilməsi, kolxoz və sovxozların əmlakının özəlləşdirilməsi digər sahələrlə müqayisədə kənd təsərrüfatında islahatların daha sürətlə aparılmasına şərait yaratmışdır. 1995-ci ildən başlayaraq, 1300-dən çox kolxoz və sovxoz ləğv olunmuş və onların bazasında 35 minə yaxın kəndli-fermer təsərrüfatı yaradılmışdır. Hazırda, demək olar ki, aqrar islahatların birinci mərhələsi başa çatmışdır.

Aqrar islahatları dəstəkləmək məqsədi ilə yeni qanun və fərmanlar qəbul edilmişdir. Kənd təsərrüfatı istehsalçılarının, torpaq vergisi istisna olmaqla, digər vergilərdən beş il müddətinə azad edilməsi, büdcəyə olan vergi borclarının silinməsi və başqa tədbirlər bu sahəyə dövlət qayğısının təzahürü olmaqla, artıq kənd təsərrüfatı istehsalına əhəmiyyətli təsir göstərmişdir. Bu sahədə görülən işlərin məqsədyönlü və sistemli bir şəkildə aparılması üçün aqrar islahatlara kömək göstərilməsinə dair dövlət proqramı təsdiq edilmişdir.

Görülən tədbirlər nəticəsində kənd təsərrüfatında 1996-cı ildən başlayaraq dinamik artım müşahidə edilir. 1998-ci ildə

artım 4 faiz, 1999-cu ildə 7,1 faiz, 2000-ci ildə 12,1 faiz olmuşdur. 2000-ci ildə 1999-cu ilə nisbətən 1,4 dəfə çox taxıl, 19 faiz çox kartof, 16 faiz çox tərəvəz, 27 faiz çox bostan məhsulları, 9 faiz çox meyvə, 2 dəfə çox tütün yığılmışdır. Heyvandarlıq məhsullarının istehsalında əsaslı dönüş yaranmışdır. Beş il ərzində ümumi artım 19 faiz təşkil etmişdir. Artım kənd təsərrüfatının bütün sahələrini əhatə etmişdir.

İqtisadi artımın həlledici şərti hesab olunan sərmayə qoyuluşu son illər yüksələn xətt üzrə artmaqda davam edir. Belə ki, 1996-cı ildə kapital qoyuluşunun həcmi 2 dəfə, 1997-ci ildə 40 faiz, 1998-ci ildə 23 faiz və 2000-ci ildə 3 faiz artmışdır. Kapital qoyuluşunun artmasında ölkəmizə xarici kapital axını həlledici rol oynayır və ümumilikdə respublika iqtisadiyyatına qoyulan sərmayələrin yarıdan çoxu xarici sərmayədarların payına düşür. 1996-2000-ci illərdə ölkə iqtisadiyyatına 5,5 milyard dollar həcmində xarici sərmayə qoyulmuşdur. Azərbaycan iqtisadiyyatının neft sektorundan əlavə digər sahələrinə də – rabitə, energetika, maşınqayırma, yeyinti sənayesi, kənd təsərrüfatı, xidmət və s. sahələrə xarici sərmayə qoyuluşu xeyli artmışdır.

***Ölkə iqtisadiyyatına xarici sərmayə qoyuluşunda "Əsrin müqaviləsi" və ondan sonrakı neft müqavilələri mühüm rol oynayır. Azərbaycanın xarici şirkətlərlə bağladığı neft müqavilələrinin sayı 21-ə çatmışdır və bu müqavilələr çərçivəsində neft sənayesinə 60 milyard ABŞ dolları həcmində sərmayə qoyulması nəzərdə tutulur. Dünyanın ən böyük şirkətlərindən biri olan təkcə "bp" şirkəti Azərbaycana 8 milyard dollar sərmayə qoymağı qərara almışdır. Neft***

***şirkətləri 4 layihənin reallaşdırılmasına 12 milyard dollar vəsait qoymağı planlaşdırırlar. Neft satışından əldə edilən gəliri ölkəmizin sosial-iqtisadi tərəqqisi üçün səmərəli şəkildə istifadə etmək məqsədi ilə xüsusi Dövlət Neft Fondu yaradılmışdır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisi artıq reallaşmaqdadır.***

***Azərbaycan artıq regional iqtisadi, enerji, nəqliyyat layihələrinin mərkəzinə çevrilmişdir.*** Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi layihəsinin həyata keçirilməsində Azərbaycan mühüm rol oynayır. Əsasən, iqtisadiyyat və nəqliyyat sahəsində əməkdaşlıq maraqları üzərində qurulmuş GUÖAM birliyinin yaradılmasının təşəbbüsçülərindən biri Azərbaycan olmuşdur. 1998-ci ilin sentyabrında Bakıda tarixi Böyük İpək yolunun bərpasına həsr olunmuş beynəlxalq konfransın keçirilməsi bunun əyani sübutudur.

Şəxsi təşəbbüskarlığın və sahibkarlığın inkişaf etdirilməsi dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən biridir. Əlverişli sahibkarlıq mühiti yaratmaq üçün müvafiq tədbirlər həyata keçirilmişdir. Bununla əlaqədar sahibkarların hüquqlarını müdafiə edən, onların fəaliyyətinə əsassız müdaxilənin və yoxlamaların qarşısını alan iki fərman (1996-cı il 17 iyun tarixli və 1999-cu il 7 yanvar tarixli) verilmişdir. Hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində iş davam etdirilir.

Özəlləşdirmə tədbirlərinin həyata keçirilməsi və sahibkarlığın inkişafına şərait yaradılması nəticəsində hazırda ümumi daxili məhsulda özəl bölmənin payı 68 faizə, o cümlədən sənayedə 44 faizə, kənd təsərrüfatı və ticarətdə 98 faizə, tikintidə 64 faizə,

yük daşınmasında 54 faizə, sərnişin daşınmasında 83 faizə, rabitədə 61 faizə çatmışdır.

Maliyyə-bank sistemində əsaslı islahatlar aparılmış, ölkənin milli valyutası olan manatın məzənnəsi möhkəmləndirilmişdir. 1994-cü ildə inflyasiya 1600-1800 faiz olduğu halda, 1996-cı ildən başlayaraq onun qarşısı alınmışdır və hazırda onun səviyyəsi cəmi 2 faizdir. Bu isə vətəndaşların alıcılıq qabiliyyətinin qorunmasına imkan vermişdir. Aparılan monetar siyasət nəticəsində ölkənin ödəmə qabiliyyəti möhkəmlənmişdir. İndi dövlətin bir milyard dollardan çox (Neft Fondu da daxil olmaqla) valyuta ehtiyatı vardır.

Ölkədə dövlət büdcəsi vəsaitinin səmərəli istifadə olunmasını təmin etmək məqsədi ilə xəzinədarlıq sistemi yaradılmışdır. Vergi sistemində ciddi islahatlar aparılır. Beynəlxalq təcrübəyə əsasən hazırlanmış və bu ilin əvvəlindən qüvvəyə minmiş Vergi Məcəlləsi iqtisadiyyatın, o cümlədən sahibkarlığın inkişafına geniş imkanlar açır. Əsas prinsip kimi vergi dərəcələrinin azaldılması, vergi bazasının genişləndirilməsi, vergi yükünün istehsalçıdan istehlakçıya yönəldilməsi, sərmayə qoyuluşunun həvəsləndirilməsi vergi siyasətinin başlıca istiqamətlərini təşkil edəcəkdir.

***İqtisadiyyatın inkişafı və vergi yığımının səviyyəsinin yaxşılaşması nəticəsində dövlət büdcəsinin gəlirləri ildən-ilə artır. 2000-ci ildə dövlət büdcəsinin gəlirləri 3,6 trilyon manat olmuşdur ki, bu da 1994-cü illə müqayisədə 6,7 dəfə çoxdur.***

Xarici iqtisadi əlaqələr, o cümlədən xarici ticarət əhəmiyyətli dərəcədə liberallaşdırılmışdır. Ölkədən ixrac edilən mallara

lisenziya və gömrük rüsumları tətbiq olunmur. İdxal olunan mallar üçün isə maksimum 15 faiz gömrük rüsumu tətbiq edilir.

Ötən illər ərzində xarici ticarət dövriyyəsi yüksək sürətlə artmışdır. Azərbaycan bu gün dünyanın 120 ölkəsi ilə idxal-ixrac əməliyyatları aparır. 1995-2000-ci illərdə ölkənin xarici ticarət dövriyyəsi 2,2 dəfə, o cümlədən ixracın həcmi 2,7 dəfə, idxalın həcmi isə 1,8 dəfə artmışdır.

İslahatların sosial yönümü və əhalinin sosial müdafiəsi tədbirləri dövlətin iqtisadi siyasətində mühüm yer tutur. ***Son illər əməkhaqqının artırılması sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsi sayəsində dövlət müəssisələrində işləyənlərin orta aylıq nominal əmək haqqı 2000-ci ildə 1995-ci illə müqayisədə 3,5 dəfə çoxalmışdır. Dövlət tərəfindən əhalinin, xüsusən onun aztəminatlı təbəqələrinin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədi ilə bir çox əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. 1996-2000-ci illərdə bu məsələyə dair 50-yə yaxın qanun, fərman və sərəncam qüvvəyə minmişdir.***

Lakin əhalinin rifah halının yaxşılaşdırılması, yoxsulluğun ləğv edilməsi sahəsində xeyli işlər görülməlidir. İqtisadi və sosial inkişaf yolunda ciddi maneə olan korrupsiya ilə mübarizə proqramının hazırlanması haqqında Prezident Fərmanı verilmiş, yoxsulluğun azaldılması proqramı hazırlanmışdır. Bu proqram yaxın beş il üçün hökumətin iqtisadi və sosial fəaliyyətinin əsas istiqamətini təşkil edəcəkdir.

Yeni iqtisadi münasibətlərin formalaşması dövlət idarəetmə sistemində köklü islahatların aparılması ilə müşayiət olunur. Xüsusən son ildə aparılan islahatlar nəticəsində bir çox dövlət

konserni, şirkət, nazirlik, komitə və digər strukturlar ləğv edilmiş, mərkəzi icra hakimiyyəti orqanlarının səlahiyyət və funksiyaları bazar iqtisadiyyatı prinsiplərinə uyğunlaşdırılmış, bir-birini təkrar edən paralel strukturlar ləğv edilmiş, yeni yaradılan nazirlik və komitələrin səlahiyyətləri dəqiqləşdirilmişdir. ***Görülən tədbirlər idarəçiliyin sadələşdirilməsinə, bürokratizm və korrupsiya ilə daha səmərəli mübarizə aparılmasına, idarəçilik kadrlarının məsuliyyətinin və səriştəsinin artırılmasına kömək edəcəkdir.***

1993-cü ilin ortalarından həyata keçirilən dövlət quruculuğunun əsas istiqamətlərindən biri ordu quruculuğudur. Xüsusən, müharibə şəraitində olduğumuz bir zamanda Azərbaycan Silahlı Qüvvələrinin yaradılması, möhkəmləndirilməsi, ümumi qayğı ilə əhatə olunması dövlətimizin ən mühüm fəaliyyət istiqamətlərindən birini təşkil etmişdir.

Azərbaycanda ordu quruculuğu müntəzəm, ardıcıl bir prosesə çevrilmişdir. Bu məqsədlə 1993-cü il noyabrın 2-də Heydər Əliyev xalqa müraciət etdi, ölkəmizin sərhədlərinin toxunulmazlığını və ərazi bütövlüyünü təmin etməyə qadir olan ordu quruculuğuna kömək etməyə çağırdı. Görülmüş tədbirlər və müntəzəm, gərgin iş öz bəhrəsini verdi. Bu müddətdə ordunun infrastrukturu yaradılmış, ordu quruculuğu iqtisadi, mədəni və mənəvi həyatda aparılan islahatlarla sıx əlaqələndirilmişdir. Məhz bunun nəticəsində bu gün artıq inamla deyə bilərik ki, respublikamızın milli təhlükəsizliyini, əhalinin əmin-amanlığını və müdafiəsini təmin etməyə, ***ölkəmizin sərhədlərini qorumağa qadir layiqli Silahlı Qüvvələrimiz vardır. Gənclərimiz ordu sıralarında, sərhəd qoşunla-***

***rında, daxili qoşunlarda xidmət etməyi özlərinin Vətən qarşısında müqəddəs borcu sayır və bununla fəxr edirlər.***

Dövlətimizin fəal xarici siyasət xətti də müstəqilliyimizin möhkəmləndirilməsi üçün optimal beynəlxalq şərait yaradılmasına xidmət edir. Azərbaycan rəhbərliyi artıq aparıcı dünya dövlətləri ilə hərtərəfli iqtisadi, siyasi, mədəni əlaqələr qurmuş, dünya birliyinin tam hüquqlu, nüfuzlu üzvlərindən birinə çevrilmişdir.

Azərbaycan Respublikası BMT, MDB, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, GUÖAM, Amerika Dövlətləri Təşkilatı kimi nüfuzlu beynəlxalq və regional dövlətlərarası təşkilatların üzvüdür. NATO, Avropa Birliyi kimi qurumlarla sıx əməkdaşlıq münasibətləri qurmuşdur.

Azərbaycanda müstəqil dövlət quruculuğu və iqtisadi tərəqqi yolunda ən ciddi maneə, şübhəsiz, Ermənistanın ölkəmizə qarşı təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ problemidir. Azərbaycan dövləti münaqişənin beynəlxalq hüquq normalarına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, ATƏT-in Budapeşt və Lissabon sammitlərinin prinsiplərinə, Azərbaycan Prezidentinin Ki Uest bəyanatına uyğun həlli uğrunda çıxış edir, məqbul kompromislərə hazır olduğunu bildirir. Tam əminliklə demək olar ki, Azərbaycan Prezidentinin apardığı ardıcıl, ədalətli mübarizə nəticəsini verəcək, münaqişə Azərbaycanın ərazi bütövlüyü, suverenlik və müstəqillik maraqları gözlənilməklə həllini tapacaqdır.

Ölkə rəhbərliyi siyasi fəaliyyətində varisliyin təmin edilməsi qayğısına qalır, XXI əsrdə Azərbaycanı idarə edəcək gənc,

perspektivli kadrların dövlət vəzifələrinə irəli çəkilməsini cəsarətlə tətbiq edir və xüsusi nümunə göstərir. Məqsəd isə dövlət idarəçiliyinin davamlılığını və fasiləsizliyini təmin etmək, yaşlı, təcrübəli kadrların bilik və səriştəsi ilə gənclərin enerjisini, əldə etdikləri müasir vərdişləri və bacarığı birləşdirməkdən, milli idarəçilik potensialını maksimum gücləndirməkdən ibarətdir.

Həm də nəzərdə tutulmalıdır ki, indiki siyasi xətt, iqtisadiyyat, dövlət quruculuğu, insan hüquqlarının və azadlıqlarının təminatı sahəsində görülən işlər, gerçəkləşdirilən proqramlar uzun onilliklər üçün planlaşdırılır və onların uğurla başa çatdırılması üçün bilikli, bacarıqlı, vətənpərvər, məsuliyyətli, müasir beynəlxalq standartlara uyğun işləyə bilən, zəngin dövlətçilik məktəbini keçmiş kadrlar ordusuna ehtiyac vardır.

Ölkədə demokratik proseslərin sivil, konstitusion normalar çərçivəsində getməsinin, müstəqil dövlət quruculuğunun mühüm şərti hakimiyyət-müxalifət dialoqu, ümummilli məsələlər ətrafında siyasi qüvvələrin konsensusa gəlməsidir. Məsələn, Yeni Azərbaycan Partiyası 1992-93-cü illərdə əvvəlcə sağlam, konstruktiv, milli-vətənpərvər müxalifət olduğunu, sonra isə milli-siyasi potensialdan tam istifadə etməyə, normal iqtidar-müxalifət münasibətləri qurmağa çalışan hakimiyyət olduğunu sübut etmişdir.

Azərbaycan Prezidenti dəfələrlə yüksək kürsülərdən müxalifət partiyalarına müraciət edərək onları dialoqa, ümummilli problemləri birgə həll etməyə, əməkdaşlığa çağırmışdır. Azərbaycan Prezidenti sonuncu dəfə müxalifətə belə bir

çağırışla 2001-ci il mayın 26-da, Respublika gününə həsr olunmuş təntənəli mərasimdəki nitqində müraciət etmişdir. O, xüsusi vurğulamışdır ki, müstəqilliyimizin bundan sonra da möhkəmlənməsi, yaşaması, Azərbaycanın inkişaf etməsi ölkəmizdə vətəndaş birliyinin, həmrəyliyinin əsasında olmalıdır. Avropa Şurası Parlament Assambleyasında hakimiyyəti və müxalifəti təmsil edən deputatların səmərəli əməkdaşlığını müsbət nümunə kimi vurğulayan Prezident arzu etmişdir ki, bu kiçik çərçivədə olan əməkdaşlıq Azərbaycanda bütün qüvvələr arasında səmimi, Azərbaycanın milli mənafelərini təmin etmək üçün geniş əməkdaşlığa çevrilsin. Heydər Əliyev artıq neçənci dəfə yüksək kürsüdən xalqımızı, millətimizi, vətəndaşlarımızı, Azərbaycanda mövcud olan müxtəlif siyasi, ictimai qüvvələri Azərbaycanın bu günü və gələcəyi naminə birliyə, həmrəyliyə dəvət etdi.

Təbii ki, bu gün Azərbaycan cəmiyyətinin sivil, konstruktiv, Konstitusiya və qanunlar çərçivəsində fəaliyyət göstərən müxalifətə ehtiyacı vardır. Elə bir müxalifətə ki, prinsipial tənqid və obyektivlik mövqelərində dayansın, milli, demokratik, vətənpərvər düşüncə və davranış nümayiş etdirsin. Təəssüflər olsun ki, Azərbaycanda özünü müxalifət adlandıran qüvvələrin xeyli hissəsi belə keyfiyyətlərdən məhrumdur.

Nə qədər qəribə və paradoksal olsa da, bir çox müxalif siyasətçilər və qurumlar üçün xarici təşkilatlarla, hətta açıq-aşkar antiazərbaycan qüvvələrlə əməkdaşlıq, təhrif olunmuş və siyasi konyunkturaya uyğunlaşdırılmış informasiya ötürülməsi normal qəbul edilir. Hakimiyyətlə hər hansı əlaqələr, ümumi məqsədlər naminə əməkdaşlıq isə bu düşərgədə separatçılıq və

satqınlıq kimi qiymətləndirilir. Azərbaycanın Avropa Şurasına qəbulunu əngəlləmək üçün bir çox pozucu, dağıdıcı müxalifət qüvvələrinin ardıcıl fəaliyyəti, Azərbaycanda parlament seçkilərinin BMT tərəfindən keçirilməsi haqqında cəfəng tələblər, xaricdə Azərbaycanın açıq düşməni, ermənipərəst konqresmenlərlə sıx işbirliyi, müxtəlif xarici qüvvələrin diktəsi ilə müxalifətin fəaliyyətinin əlaqələndirilməsi – bütün bunlar antimilli, pozucu müxalifəti xarakterizə edən biabırçı faktlardır. Qəribə və təəccüblü olan budur ki, belə hallardan sonra da həmin müxalifət qurumlarının başbilənləri özlərini milli amallar və demokratiya uğrunda mübariz kimi qələmə verir, Azərbaycan dövlətinin gördüyü böyük işləri şübhə altına almağa çalışırlar.

***Bunları sağlam məntiqlə və mənəvi meyarlarla izah etmək və başa düşmək mümkün deyildir. Lakin müxalifət düşərgəsində də gec-tez sağlam təfəkkürün qələbəsinə şübhə yoxdur: inkişaf etmiş demokratik dövrlərdə olduğu kimi, Azərbaycanda da tədricən sivil, normal, vətənpərvər müxalifət formalaşacaq və o, cəmiyyətin inkişafının güclü amilinə çevriləcəkdir.***

Dövlət quruculuğunun mühüm istiqamətlərindən biri də milli mədəniyyətin hərtərəfli inkişafına nail olmaq, milli-mənəvi dəyərlərin qorunub saxlanması və inkişaf etdirilməsi üçün obyektiv ictimai zəmin yaratmaqdır.

Dövlətimiz milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürür. Bunlarsız millət yoxdur. Bunları qoruyub saxlamış xalq isə həmişə müstəqillik yolu ilə getmək və onu qorumaq əzmindədir. Çünki milli dövlətçilik

və milli-mənəvi dəyərlər arasında sıx bir daxili əlaqə vardır. Milli müəyyənliyi olmayan və özünü bir millət kimi dərk etməyən xalqın milli dövlətə də ehtiyacı olmur. Belə ki, milli dövlət, bir tərəfdən, ərazinin və iqtisadi sərvətlərin qorunmasına xidmət edirsə, digər tərəfdən və daha artıq dərəcədə milli-mənəvi dəyərlərin qorunması və müstəqil inkişafın təmin olunması məqsədi daşıyır.

Cəmiyyətdə yaranmış mənəvi-psixoloji mühitin araşdırılması, müstəqil dövlətçilik və Azərbaycan vətəndaşlığı prinsiplərinin mənəvi inkişafın əsas postulatlarına çevrilməsi hazırkı hakimiyyətin əsas fəaliyyət istiqamətlərindəndir.

Heydər Əliyevin fəaliyyətində mənəvi problemlər, Azərbaycan mədəniyyətinin, elminin, incəsənətinin, musiqisinin, Azərbaycan dilinin inkişafı məsələləri həmişə prioritet əhəmiyyət və məna kəsb etmişdir. Xalqımızın mentalitetini, günümüzün reallıqlarını, tarixi keçmişimizi, ümummilli psixoloji yönümlərimizi, adət-ənənələrimizi və sivil beynəlxalq təcrübəni nəzərə alan azərbaycançılıq ideologiyasının yaranması və yayılması onun məqsədyönlü fəaliyyətinin nəticəsidir.

Bu gün qarşıda duran və gələcəkdə meydana çıxa biləcək problemlərin uğurlu həlli üçün azərbaycançılıq ideologiyasının bütün elementlərinin möhkəm mənimsənilməsi zəruri şərt hesab edilməlidir. Bu ideologiyanın əsas qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, dünyəvi respublika, ədalətlilik, demokratiya, milli tərəqqi, bəşərilik kimi anlayışlar təşkil edir. Məhz ona görə də, Azərbaycan xalqına vahid tam kimi baxılmalı, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, ölkənin bütün vətəndaşları Azərbaycan xalqının tərkib hissəsi

kimi qəbul edilməlidir. Daha geniş miqyasda isə, Azərbaycanı bütün dünya azərbaycanlılarının vətəni hesab etməliyik.

Heç də təsadüfi deyil ki, dünya azərbaycanlıları ilə əlaqələrin inkişaf etdirilməsi, onların Azərbaycan dövləti ətrafında sıx birləşdirilməsi Azərbaycan dövlətinin siyasətinin mühüm tərkib hissələrindəndir. ***Dünya azərbaycanlıları arasında həmrəyliyin gücləndirilməsi tarixi zərurətdən, soydaşlarımızın ümummilli ideyalar ətrafında birləşdirilməsinin vacibliyindən irəli gəlir. Təcrübə göstərir ki, mütəşəkkil icmalar halında dünyanın müxtəlif ölkələrində yaşayan, məqsədyönlü fəaliyyət göstərən, özünəməxsus milli ideyalar ətrafında birləşən, mütərəqqi adət-ənənələrini qoruyub saxlayan soydaşlar öz ölkələrinə böyük kömək göstərir, yaşadıqları ölkələrlə tarixi vətən arasında qarşılıqlı faydalı əməkdaşlığın qurulmasında güclü amil kimi çıxış edirlər.*** Müstəqil Azərbaycan Respublikasının getdikcə güclənməsi, varlı və demokratik bir ölkəyə çevrilməsi, təbii ki, həm dünya azərbaycanlılarının milli birliyinə, Azərbaycan xalqına və dövlətinə mənsubluq hissinə mütəşəkkillik, yenilik və daimilik gətirəcək, həm də bütün dünyada onların vətəndaş və milli haqlarının daha dolğun təmin olunmasına, qorunmasına təkan verəcəkdir. 2001-ci il noyabrın 9-10-da Bakı şəhərində keçiriləcək Dünya azərbaycanlılarının I qurultayı ölkənin ictimai-siyasi həyatında və dünya azərbaycanlılarının həmrəyliyinin güclənməsi işində əlamətdar hadisə olacaqdır.

1993-cü ildən bəri Azərbaycanda həyata keçirilən dövlət quruculuğu, iqtisadi və mədəni-mənəvi sahədə nailiyyətlər xalqımızın müstəqillik şəraitində yaşamaq qabiliyyətini nümayiş etdirdi.

Respublikamızda başqa ölkələr, xüsusən yeni müstəqillik qazanmış dövlətlər üçün nümunə ola biləcək ictimai-siyasi sabitlik, iqtisadi fəaliyyət mühiti yaradılmışdır. Sidney Olimpiadasında idmançılarımızın parlaq qələbəsi xalqımızın istedadını, müstəqil dövlətçiliyimizin əhəmiyyətini bir daha göstərdi. Vətəndaşların dinc həyatının, əmin-amanlığının və təhlükəsizliyinin təmin edilməsi baxımından MDB-də Azərbaycanın analoqu yoxdur. Ölkəmiz Qafqazın iqtisadi, coğrafi-strateji mərkəzinə, mühüm regional güc amilinə çevrilmişdir.

Bu gün Azərbaycanın iqtisadi, sosial, mənəvi və siyasi həyatının bütün sahələri dünya sivilizasiyasının nailiyyətlərinə tam cavab verən bir səviyyədədir. Azərbaycanın XX əsrdə yaratdığı qüdrətli iqtisadi potensial, böyük mütəxəssislər ordusu xalqımızın ümdə maraqlarının və arzularının həyata keçirilməsi üçün möhkəm baza, əlverişli zəmin rolunu oynayır. Azərbaycan Prezidentinin yeni əsr, yeni minillik münasibətilə Azərbaycan xalqına müraciətindən götürülmüş bu fikirlər xalqımızın tarixi, dövlətçiliyi, mədəniyyəti haqqında əsassız, səviyyəsiz və qərəzli mülahizələrlə çıxış edən bədxah “tədqiqatçılara”, “ideoloqlara” və “siyasətçilərə” layiqli cavab verməkdə alimlərimiz üçün təməl prinsiplər rolunu oynamalıdır.

Azərbaycanın XX əsr tarixi, xüsusən dövlət müstəqilliyini əldə etdiyimiz son onilliyi vətəndaşlarımız tərəfindən dərindən və diqqətlə öyrənilməlidir. ***Bu məqsədlə tarixçilər, sosioloqlar, filosoflar, hüquqşünaslar, politoloqlar, kulturoloqlar, psixoloqlar və digər ixtisas sahibləri tərəfindən monoqra-***

***fiyalar, kitablar yazılmalı, ciddi elmi araşdırmalar aparılmalıdır. Bu qiymətli tarixi təcrübənin öyrənilməsi, ilk növbədə, ölkəmizin inkişaf strategiyasının daha düzgün və dəqiq müəyyən edilməsi, inkişaf planlarımızın və proqramlarımızın daha əsaslı işlənib hazırlanması üçün, müstəqilliyimizin və xalqımızın azad və firavan gələcəyinin daha etibarlı və inamlı bir şəkildə təmin edilməsi üçün zəruridir.***

*"Dirçəliş – XXI əsr" jurnalı,*
*iyun № 6 (40), 2001-ci il.*

XXI
YNE